AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 10

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2022

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2022, №10

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2022

www. filologiyameseleleri.com

DİLÇİLİK

BAHAR CƏFƏROVA
fil.e.d., professor

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ QEYRİ-QƏTİ GƏLƏCƏK ZAMANIN SEMANTİKASI

Açar sözlər: *qeyri-qəti gələcək zaman; semantik cəhət; semantik-qrammatik əlamətlər; sintaktik pozisiya; zaman zərfləri; analitik forma; konkret zaman; ümumi hadisələr; dinamik hərəkətlər; semantik çalar; məna xüsusiyyətləri.*

Key words: *other decisive the future tense; semantic peculiarity; semantical-grammatical signs; syntactic position; tense of time; analytical form; concrete tense; general events; dynamic motions; semantical shade; meaning features.*

Ключевые слово: *неопределенного будущее время, семантическая особенностей, семантически –грамматические знаки, синтаксическое положение, время времени, аналитическая форма, конкретное время, общие события, динамические движения, семантический оттенок, значение особенностей.*

Qeyri-qəti gələcək zaman həm formal göstəricilərinə, həm də bir sıra mənalarına görə qəti gələcək zamandan fərqlənir. Qeyri-qəti gələcək zamanda iş, hal və hərəkətin yerinə yetirilib yetirilməyəcəyinə yəqinlik yoxdur. İş, hərəkət bu zaman yerinə yetirilə də bilər, yetirilməyə də bilər. Bu əlamət qeyri-qəti gələcək zamanı qəti gələcəkdən ayırır.

İngilis dilində gələcək zamanın qeyri-qəti növü olmasa da, bu mənanı həmin dildə ifadə etdirən formalar mövcuddur.

Azərbaycan dilində qeyri-qəti gələcək zaman semantik cəhətdən həm hərəkətin icrasının qəti olmadığını bildirməklə yanaşı, eyni zamanda ümumilik də bildirir.

Azərbaycan və İngilis dilində qeyri-qəti gələcək zamanın mənalarında yaxınlıq çox müşahidə edilir. Lakin bu mənalar hər iki dildə müxtəlif formalarda üzə çıxır. Bu mənaların bəzilərini nəzərdən keçirək.

1.Azərbaycan və İngilis dillərində iş, hərəkət qeyri-müəyyən gələcək zamanda görülür, icra olunur. Azərbaycan dilində bu semantik çalar qeyri-qəti gələcəklə (-ar,-ər), ingilis dilində isə gələcək zamanın qeyri-müəyyən forması ilə ifadə olunur. Məsələn, müqayisə edək:

Mən məktub yazıram.

You look frozen. Sit down by the fire and I will make you a cup of tea (Thomson).

Hər iki dildə gələcək zamanın bu formaları güman mənasını ehtiva edir.

Qeyd etmək lazımdır ki, qeyri-qəti gələcək zaman Azərbaycan dilində yuxarıda göstərildiyi kimi –ar,-ər morfoloji göstəricisi ilə, ingilis dilində isə gələcək zamanın qeyri-müəyyən forması ilə "shall+məsdər" perifrastik forması ilə sabitləşib. Belə sabitləşmə qarşılaşdırılan dillərin gələcək zamanının qeyri-müəyyən formaları arasında differensiasiya yaradır.

Həm Azərbaycan, həm də İngilis dillərində qəti gələcək zamanın digər semantik-qrammatik əlamətləri aşağıdakılardır: qeyri-müəyyənlik, şərtilik, qeyri-qətilik-ehtimallıq, güman, hipoteklik-təxminilik, fərziyyəyə əsaslanmaq və s.

Bu məna əlamətlərini Azərbaycan dilində qeyri-qəti gələcək zaman ingilis dilində isə şərtləşdirilmiş sintaktik pozisiyalar ifadə edir.

Prof. A.Axundov qeyri-qəti gələcək zaman formasının mənasında iki mühüm cəhətin olduğunu göstərir: 1. Bu forma gələcəkdəki bütün hərəkətin icrasının qəti olmadığını göstərir. 2. Bu forma bütün zamanlar üçün fəaliyyətdə olan hal və hərəkətləri bildirir [1, 102].

Qarşılaşdırılan dillərdə qeyri-qəti gələcək zaman gələcəkdə bitəcək hərəkətləri bildirir. Bu məna Azərbaycan dilində qeyri-qəti gələcək zaman forması (-ar,-ər) və "bir gün", "bir zaman" zaman zərfləri ilə, ingilis dilində isə gələcək zamanın bitmiş forması ilə işlədilir. Məsələn, müqayisə edək:

1.Bir zaman gələr, həyat üzümüzə gülər (İ.Əfəndiyev).

Bir gün gələr sizin kimi kətdalara divan tutarlar (Ə.Vəliyev).

2. I suppose that when I come back in ten years time all these old houses will have been pulled down (Thomson).

At the rate he is going he will have spent all his money by the time he is twenty-one (Thomson).

Bitəcək hərəkətlər müqayisə edilən dillərdə müəyyən şərtlə bağlı icra olunur. Bu hal (vəziyyət) Azərbaycan dilində qeyri-qəti gələcək zaman forması (-ar,-ər), ingilis dilində isə analitik formalarla bağlı olur. Məsələn: Əgər mən deyən olarsa, sənin təkliflərinlə razılaşaram. Tüfənglərini aparsaq, onları dinməz-söyləməz güllələyərlər (İ.Şıxlı).

Şərt budaq cümləsindən ibarət olan bu cümlədə qeyri-qəti gələcəyin şərtilik mənası özünü büruzə verir.

Bu məna Azərbaycan dilində "köməkçi feil-qeyri-qəti gələcək zaman-şərt şəkilçisi" strukturunda açıqlanır.

İngilis dilində isə aşağıdakı cümlədə şərtilik mənasının qabarıq şəkildə əks olunduğunu görə bilərik.

Məsələn: *İf they come in time, we'll have dinner together. If he comes here again, I'll be pleased.*

Azərbaycan və ingilis dillərində qeyri-qəti gələcək zamanın semantikasından biri də hipoteklik (ehtimallıq, təxminilik, güman, fərziyyə) bildirməsidir.

Bu məna əlaməti həm Azərbaycan, həm də ingilis dillərində analitik formalarla (köməkçi feil-məsdər) ifadə olunur. Məsələn:

Mənə elə gəlir ki, bunu Vəli etmiş olar. Güman edirəm ki, oğurluğu əsnəbi etmiş olar.

Cümlələrdən (1-ci cümlə tərzi-hərəkət budaq cümləsi, 2-ci cümlə isə tamamlıq budaq cümləsi) göründüyü kimi Azərbaycan dilində qeyri-qəti hipoteklik-ehtimallı "etmiş olar" perifrastik forması ilə müəyyənləşir. Azərbaycan dilində qeyri-qəti gələcəyin bu formasının işləndiyi cümlələr də yəqin, güman, ehtimal və s. sözlərdən biri işlənə bilir. Məsələn: *Yəqin bir-iki il olar (M.Hüseyn). Ehtimal ki, bu işi uşaq etmiş olar (danışıq dilində).*

Y.B.Əliyev yazır ki, obyektiv gələcək zaman formaları mümkün olan ehtimal məna çalarlıqlarını əmələ gətirmək üçün də işlədilir. Ol (bol) köməkçi feili belə cümlələrdə iştirak edir. Məsələn, Karjausa, suuuk bolluk bolur (Qar yağsa, soyuq olar); (soyuğun olması ehtimaldır). Zamanı jetçenəse, Xasan kelçen bolur (Vaxt keçsə (mümkündür), Həsən gələr). (Həsənin gəlməyi ehtimaldır); Teleqramman ıalçanəse, İdris kele bolur. (Əgər teleqramı alsa, İdris gələr). (İdrisin gəlməyi ehtimaldır)
[2.s.115].

İngilis dilində It may be a year or two. Probably the child has done this work.

Qarşılaşdırılan dillərdə qeyri-qəti gələcək zaman məhdudlaşdırılmış-lokallaşdırılmış konkret zamanları və ümumi hadisələri və s. ifadə edir.

Azərbaycan dilində bu məna qeyri-qəti gələcək zaman forması ilə (xüsusəndə "deyirlər-sözünə-ar, -ər şəkilçisini əlavə etməklə), ingilis dilində qəti və ya qeyri-qəti gələcək zaman formaları mövcud olmadığından göstərilən halda "Future İndefinite Passive" işlədilir.

Məsələn: *Mənə Koroğlu deyərlər. Ona Kosaoğlu deyərlər (İ.Şıxlı).*

You will be told in advance.

He will be seen off at the airport by all the ministers (Thomson).

Müqayisə edilən tipoloji cəhətdən fərqlənən dillərdə qeyri-qəti gələcək zaman mühüm dinamik hərəkətləri, əlamətləri, predmetləri, prosesləri və hadisələri ifadə edə bilir. Bu məna Azərbaycan dilində -ar,-ər şəkilçisi ilə, ingilis dilində isə indiki, qeyri-müəyyən zaman formasında (The Present İndefinite Tense Form) öz ifadəsini tapır. Məsələn: *Yayda bürkü olar, qışda qar yağar. Yazda gül açar. Payızda yağınlıq çox olar.*

Azərbaycan dilində qeyri-qəti gələcək zaman formasının işləndiyi bu sadə cümlələrdə yay, qış, payız, yaz kimi fəsil adlarından biri işlədilir.

İngilis dilində: *It often snows, the rivers and lakes are frozen over in winter. In spring the weather gets gradually milder and the sun shines more brightly. In summer the weather gets still warmer and sometimes it is very hot. The sky is blue*

and cloudless. In autumn the weather is still warm and the leaves change their colour from green to yellow and red. In often rains in autumn (B.A.Milovidov).

Qeyri-qəti gələcək zamanın mühüm mənalarından biri də dinamik və statik hərəkətləri ifadə etməsidir.

"Bu zamanın, yəni qeyri-qəti gələcəyin (-B.C) dinamik və ya statik hal-hərəkət bildirməsi, birinci növbədə işləndiyi sintaktik şəraitdən asılıdır [3,s.344].

Bu cür hərəkətlər ümumiləşdirici keyfiyyəti ilə seçilir. M.Rəhimovun qeyd etdiyi kimi bu cür hərəkətlər-ümumiləşdirilmiş hərəkətlər, adətən statikliklə bağlıdır [4, s.12].

A.Axundovun nöqteyi-nəzərincə, digər zamanlardan fərqli olaraq, qeyri-qəti gələcək zaman həm dinamik, həm də statik hal və ya hərəkətləri bildirir. Qeyri-qəti gələcək zamanın nə zaman dinamik (hərəkət), nə zaman isə statik hərəkətləri bildirməsi daha çox konkret xarakterdə olur, bu və ya digər cümlənin ümumi məzmunu ilə təyin olunur [5, s.105].

Aşağıdakı cümlələrin ümumi məzmunundan hərəkət və proseslərin dinamik və statik əlamətləri meydana çıxır. Məsələn, *Hələ o biri qışa da çatar. (İ.Şıxlı). Az sonra buludlar dağılar, günəş üfüqlərdən boylanar (İ.Əfəndiyev).*

İngilis dilində: *What horse will ride tomorrow? (Thomson).*

You will understand when you are older.

I have tired to explain but she doesn't understand English.- I will say it to her in Finnish: perhaps she'll understand that (Thomson).

Azərbaycan və İngilis dillərində qeyri-qəti gələcək zaman iş və hərəkətin icrasının gələcəkdə mümkün olduğunu bildirir. Bu semantika Azərbaycan dilində olmaq köməkçi feilinə -ar şəkilçisi artırmaqla, ingilis dilində isə indiki qeyri-müəyyən zaman forması "may" modal feili ilə əsas feilin birləşməsi şəklində ifadə olunur.

Məsələn: *A.Evdə söz-söhbət olar da... Belə yerdə fikirlər olar da...*

I.I've got a meeting this evening, so I may be a little late home tonight (Language Activator).

Employees are expected to deal pleasantly and efficiently with any problems-that may arise.

Obyekt seçilmiş dillərdə qeyri-qəti gələcək zaman gələcəkdə ardıcıl görüləcək iş və hərəkətləri ifadə edir. Azərbaycan dilində bu məna –ar,-ər forması, ingilis dilində isə gələcək qeyri-müəyyən zaman forması ilə ifadə olunur. Məsələn: A.Gedib məktubu alarsan, gətirərsən, mollaya oxutdurarsan, məzmununu mənə danışarsan-cümləsində alarsan-gətirərsən-oxutdurarsan-danışarsan sözləri gələcəkdə görüləcək ardıcıl iş və hərəkətlərdir.

I.İf I find my friend at home I'll have him read and translate these pages, then I'll came back to you and explain what's written here (Language Activator).

Tipologiyası bir-birindən fərqlənən müxtəlif sistemli dillərdə gələcək zamanın qeyri-qəti, qeyri-müəyyən növü iş və hərəkətin gələcəkdə görülməsini başqa bir

hərəkətin icrası ilə əlaqələndirir (bağlayır). Burada bir iş, hərəkət, digər bir iş, hərəkətdən asılı vəziyyətə düşür. Məsələn:

A. Sən mənə kömək etsən, hörmətini saxlaram.

I. İf you learn another language you'll get a better job (Thomson).

Bütün zamanları təsbit ehtiva etməsi qeyri-qəti gələcək zamanın semantik əlamətlərindən sayıla bilər. Müasir Azərbaycan dilində bu semantik çalar çox yayılmış, həm bədii, həm də danışıq dilində geniş istifadə olunur. "Həmin məna xüsusiyyətlərinə daha çox atalar sözlərində, zərb-məsəllərdə, aforizmlərdə və s. təsadüf edilir [6,s.106; 7,s.345].

Aşağıdakı nümunələrdə bu məna əlaməti öz əksini tapmışdır.

A.İnsanı qəm çürüdər, dəmiri nəm.

Atalar sözlərinin ikinci komponentində feili xəbər ellipsisə uğramışdır.

Qeyri-qəti gələcək zaman hər iki dildə həmişə, bir müddət təkrar edilən hərəkətləri bildirir. Azərbaycan dilində bu məna –ar,-ər şəkilçisi ilə, ingilis dilində isə keçmiş qeyri-müəyyən zaman forması ilə ifadə olunur. Məsələn, müqayisə edək:

A.Həmişə Qoridən qayıdanda atası onun qabağına adam göndərərdi (İ.Şıxlı).

I.I used to meet him sometimes when he was working on the chronicle here (Krylova).

Gələcək zamanın bu növü hər iki müxtəlif sistemli dillərdə keçmişdə olub getmiş iş və hərəkətləri bildirir. Bu, bəzən ardıcıl iş və hərəkətləri ifadə edir. Məsələn, *A. Əşrəf göy buxara papaq geyərdi. Belindəki sallamalı kəmərindən xəncər asardı (İ.Şıxlı).*

İngilis dilində bu məna aşağıdakı forma ilə ifadə olunur.

Məsələn, *I liked reading in the garden I used to take a deck-chair, sit under one of the apple-trees and read (Krylova).*

Qeyri-qəti gələcək zamanın qəti gələcək zamandan mənaca bir fərqi də ondan ibarətdir ki, o qəti gələcək zamanla indiki zaman arasında orta bir yer tutur, yəni bəzən qəti gələcək zamanı, bəzən də indiki zamanı əvəz edə bilir. Sən yaxşı oxuyanda ananın ürəyi şad olar [8,s.176].

Gələcək zamanın qeyri-qəti növü xasiyyət, adət anlamında olan iş və hərəkətləri də bildirir. Subyekti səciyyələndirən bu məna əlaməti A.Axundovun fikrincə, onun nəinki qrammatik, hətta semantik cəhətdən feili sifətlərdən hələ lazımınca təcrid olunmamasının nəticəsidir [9,s.107].

Bu mənada olan qeyri-qəti gələcək zaman formalarına atalar sözlərində daha çox rast gəlmək olur. Məsələn*, Bekar otursan kor kirpiyini qırar. Dama-dama göl olar. Alınmamış qız deyingən olar və s.*

Atalar sözləri "Atalar sözü, ağlın gözü" (Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1976) adlı kitabdan götürülmüşdür.

Atalar sözlərindən ibarət bu cümlələrdə iş və hərəkət təkcə gələcək zamana aid olmur, həmçinin digər zamanları da əhatə edə bilir.

M.Hüseynzadənin göstərdiyi kimi, onlar hər bir zamana aid anlayış kimi təsəvvür olunur [10,s.176].

İngilis dilində də iş və hərəkətin həm qeyri-müəyyən gələcək zamana, həm də bütün zamanlara aid olması faktları vardır. Bunu aşağıdakı nümunələr də təsdiq edir.

Həmin mənada işlənən qeyri-qəti gələcək zaman təsdiqdə olduğu kimi, inkarda da işlənir, lakin zaman –ar,-ər forması ilə deyil, -məz formasında ifadə olunur. Məsələn, *Qurddan qorxan meşəyə girməz (İ.Şıxlı).*

İngilis dilində də bu forma işləkdir. Məsələn, *He will never set the Thames on fire (Wren and Martin). The excuses will not pass muster (Wren and Martin).*



Бахар Джафарова, д.ф.н., профессор

Семантика неопределенного будущего времени на английском и азербайджанском языках

РЕЗЮМЕ

В статье привлечены к сравнению семантические особенности неопределенного будущего времени и сопоставлены. В семантических оттенках появились схожие и отличительные стороны.

Семантические особенности неопределенного будущего времени современного азербайджанского языка были сопоставлены на основании

материалов как тюркских языков, так и других системных языков, выявлены соответствующие семантические признаки.

Хоть и на английском языке нет неопределенного вида будущего времени, выяснилось наличие форм, выражающих в этом языке указанные значения.

В значениях неопределенного будущего времени на азербайджанском и английском языках, наблюдались схожести и разъяснены выявленные формы на обеих языках по образовавшимся образцам.

В статье также нашло свое отражение и разъяснено то, что неопределенное будущее время в сравниваемых языках, выражают динамические действия, признаки, предметы, процессы и события.

Установлено что, неопределенное будущее время означают как динамические, так и статические обстоятельства или действия.

В статье также нашло свое отражение то, что формы неопределенного будущего времени больше всего встречаются в пословицах и это разъяснено на примерах в обоих языках.

BAHAR JAFAROVA,
doctor of philology, professor

SEMANTICS OF THE FUTURE İNDEFINITE TENSE IN ENGLISH AND AZERBAIJANI

SUMMARY

In the article, the semantic features of the Future Indefinite Tense have been compared and contrasted. Both similar and distinctive features have been identified in semantic shades.

The semantic characteristics of the Future Indefinite Tense in the contemporary Azerbaijani language have been compared on the basis of the materials of both Turkish and other systemic languages, and as a result, the appropriate semantic features have been found.

Although there is no exact Future Indefinite Tense in, it has been made obvious that there are structures that express that meaning in that language.

Similarity has been observed in the meanings of the Future Indefinite Tense in Azerbaijani and English, and the existence of this kind of similarity in various forms in these two languages has been explained with examples.

The examples have also been given in the article, which explain the important dynamic movements, signs, objects, processes and events of the Future İndefinite Tense in the languages compared.

It has been determined that the Future Indefinite Tense reflect dynamic and static states or actions as well.

The article also shows that the Future Indefinite Tense forms have been mostly observed in the proverbs and illustrates this issue with examples in both languages.

Ədəbiyyat:

1, 5, 9.Axundov A.A. Feilin zamanları. Bakı, 1961, 139s.

2. Алиев.У.Б. Наклонение и время глагола Карачаева

3. Балкарского языка // Вопросы категорий времени и наклонения глагола в тюркских языках. Баку: «Элм», 1968.

4. Rəhimov M.Y. Fransız və Azərbaycan dillərində gələcək zaman formalarının qrammatik məna xüsusiyyətləri haqqında // Azərbaycan Dövlət Un-nin elmi əsərləri. Dil və ədəbiyyat.ser.,1971, No1, s.73-77.

3,6 .Müasir Azərbaycan dili. Morfologiya. IIc. Bakı: "Elm", 1980, 510s.

8,10.Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: "Maarif", 1973, 358s.

11. Cəfərova B.C. İngilis və Azərbaycan dillərində gələcək zamanın qrammatik-struktur formalarındakı fərqli cəhətlər, "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı, 2015, BDU, 5 səh.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

ALIYEVA GÜLÇÖHRƏ BABAƏLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh, Z.Əliyeva küç., 18
e-mail:emma_fn@mail.ru

SİTUASİYALAR ÇOXLUĞUNUN İTERATİV TİPİNİN LİNQVİSTİK TƏHLİLİ

XÜLASƏ

Məqalədə qeyri-müəyyən situasiyalar çoxluğunun üç xüsusi semantik tipindən biri, daha dəqiq desək, iterativdən bəhs edilir. Burada müxtəlifsistemli dillərin materialları əsasında həm bir dildə, həm də müxtəlif dillərdə iterativin ifadəsi üçün istifadə olunan morfoloji, leksik, sözdüzəltmə və sintaktik vasitələrin inventarı müəyyənləşdirilmişdir. Qeyd edilir ki, iterativ zərfliklər bir qədər az, lakin kifayət qədər mühüm rolu feildə zaman formalarının paradiqmasının olduğu dillərdə oynayır. Feilin zaman formalarını bizi maraqlandıran baxımdan aşağıdakı binar əlamətləri nəzərə alaraq təsnif etmək olar: I əlamət: a) zaman forması iterativ mənasına malikdir, b) zaman forması iterativ mənasına malik deyildir; II əlamət: a) zaman forması iterativ zərfliyi ilə birləşir, b) zaman forması iterativ zərfliyi ilə birləşmir; III əlamət: zaman forması iterativ mənası ilə ixtisaslaşmış (birmənalı) formadır, b) zaman forması iterativ mənası ilə ixtisaslaşmamış (birmənalı olmayan) formadır. Məqalədə bu təsnifatın aşağıdakı qrupları tədqiq edilmişdir: 1) iterativ mənası ifadə etməyən və iterativ zərfliklər ilə birləşməyən zaman formaları (I b, II b); 2) iterativ mənası ifadə etməyən, lakin iterativ zərfliklər ilə birləşən zaman formaları (I b, II a); 3) başqa mənalarla yanaşı, iterativ mənasının da xas olduğu və iterativ zərfliklər ilə birləşən ixtisaslaşmamış zaman formaları (I a, II a, III b); 4) iterativ zərfliklər ilə birləşən ixtisaslaşmış iterativ zaman formaları (I a, II a, III a).

Açar sözlər: situasiya, məna, semantika, funksional-semantik sahə, zaman, reduplikasiya

Dildə iterativ məna situasiyalar çoxluğunun funksional-semantik sahəsinə daxil olan və bir-biri ilə cümlə və ya daha geniş kontekstdə kombinasiya edilən leksik-qrammatik vasitələrin köməyilə ifadə edilir. Situasiyalar çoxluğunun iterativ tipini aşağıdakı kimi şərh etmək olar: İter[P (X,Y, Z)] = “P (X,Y, Z) situasiyalarının dəfələrlə, nisbətən müntəzəm olan icrası mövcuddur; bütün təkrarlanan situasiyalarda aktantların eyni dəsti mövcuddur. Hər təkrarlanan hərəkət ayrıca (nitq anının və ya ixtiyari başqa başlanğıc nöqtəsini ehtiva etməyən) T zaman fasiləsində baş verir, yəni P_1 situasiyası T_1 zaman fasiləsində, P_2 situasiyası T_2 zaman ailəsində, P_n situasiyası

T_n zaman fasiləsində baş verir' [14, s.155]. Dildə iterativ mənanın bütün növləri situasiyalar çoxluğunun funksional-semantik sahəsinə daxil olan və tez-tez bir-birilə cümlə və ya daha geniş kontekstdə kombinasiya edilən leksik, sözdüzəldici və qrammatik vasitələrin köməyilə ifadə edilir. *"Leksik vasitələr arasında ən mühüm rolu iterativ adlandırılması qanunauyğun olan və bəlkə də iterativ mənasının ifadəsinin universal vasitəsi olan zərfliklər oynayır, baxmayaraq ki, dillər arasında istər bu zərfliklərin necə təmsil olunmasına, istərsə də onların iştifadə edilmə dərəcəsinə dair müəyyən tərəddüdlər də müşahidə edilir"* [3, s.52]. İterativ zərfliklərə, məsələn, *dövrilik, fasilə və uzitativlik zərfliklər*i aid edilir.

*Dövrilik zərfliklər*i "hər dəqiqə", "hər üç həftədən bir", "hər il", "axşamlar", "şənbə günləri", "bayramlarda" tipli, əsasən, xronoloji cəhətdən müəyyən və ən çox da təqvimi təkrarlanan zaman müddətləri bildirir.Təkrarlanan zaman müddətlərinin hər birində onu tam doldurmamaqla [7,181] bir situasiya həyata keçirilir: *Biz hər gün tikinti meydançasına taxta-şalban daşıyırdıq.* Dövrilik zərfliklər yalnız müntəzəm olaraq təkrarlanan zaman müddətləri bildirdiyindən, onlara iterativ mənası xarakterik deyildir. Bununla belə, dövrilik zərflikli cümlə iterativ oxunuş əldə edir, çünki cümlədə göstərilən situasiya təkrarlanan zaman müddətlərindən hər biri ilə əlaqəlidir.

*Fasilə zərfliklər*i təkrarlanan situasiyaları müəyyən şərti normaya nəzərən qiymətləndirərək onlar arasındakı fasilələri bildirir. Fasilələr situasiyaların qeyri-müntəzəm təkrarlığını göstərərək şərti normadan böyük ola *("hərdənbir", "nadir hallarda", "çox nadir hallarda", "bəzən", "arabir", "epizodik olaraq", "təsadüfdən təsadüfə"*), ya situasiyaların həddən artıq qeyri-müntəzəm təkrarlığını göstərərək şərti normadan kiçik ola *("tez-tez", "sıx-sıx", "çox tez-tez"),* ya da ona uyğun ("müntəzəm şəkildə") ola bilər: *[O] ... müntəzəm şəkildə hər axşam, düz saat yeddidə yemək yeyirdi'.*

*Uzitativlik zərfliklər*i *("adətən", "adəti üzrə", "bir qayda olaraq" tipli)* situasiyaların nisbi müntəzəmliklə təkrarlanmasını – empirik şəkildə müşahidə edilən müəyyən ehtimali müntəzəmlik kimi xarakterizə edilən təkrarlanmasını bildirir. Bu zərfliklərin xüsusiyyəti ondan ibarətdir ki, onlar cümlədə daha çox bu zərfliklərin fəaliyyət sahəsinə daxil olan hansısa bir sirkonstant və ya aktant ilə birlikdə işlənir: 'Həyətdə ... erkən xoruzlar, adəti üzrə isti, ildırımlı gecələrdə qışqırdıqları kimi, səs-səsə vermişdilər' (Bu barədə daha ətraflı məlumat üçün bax: [12, 272 s.]).

İterativ zərfliklər feillərin tərz-zaman formalarının olmadığı dillərdə (Çin, İndoneziya, Vyetnam, Khmer və s. dillərdə) müstəsna rol oynayır. Belə dillərdə onlar iterativ mənanın ifadəsinin, xüsusilə də sadə cümlədə başlıca vasitəsidir: indon. *Bahkan masakpun ia* ***jarang*** [2, s.221] 'Hətta yeməyi də o, **nadir hallarda** hazırlayırdı'; khm. ***ŭan***' ***ŭan***' *сатв чамНа:мтэ мак с'и пхлэ джхеи нех* [13, s.111] '**Axşamlar** tez-tez heyvanlar bu ağacın meyvəsindən yeməyə gəlir'. Bu və digər nümunələrdə iterativ mənası yalnız zərflik kimi çıxış edən sözlər vasitəsilə ifadə edilir və onların cümlədən çıxarılması həmin mənanın itirilməsinə gətirib çıxarır.

Yeri gəlmişkən qeyd edək ki, elə həmin dillərdə fasilə və uzitativlik mənaları (amma dövrilik mənası istisna olmaqla) feil qrupunun elementləri olmayan, müstəqil işlənə bilməyən və cümlənin ayrıca üzvləri kimi qiymətləndirilməyən köməkçi və ya yarımköməkçi sözlərin köməyi ilə də ifadə edilir. Söhbət bu tipli sözlərdən gedir: khm. *дхла:n'mə* 'tez-tez' [13, s.106], 'həmişə, daim', 'adətən', vyet. *hay* 'tez-tez' – *cô*[1] *áy*[2] *hay*[3] *ốm*[4] 'O tez-tez xəstələnir' [5, s.91]. Bu köməkçi sözlər semantikasına görə fasilə və uzitativlik zərfliklərindən fərqlənmədiyindən ortaya göstərilən iterativ zərfliklərin qrammatik mənalara yaxın mənalar ifadə edib-etməməsi və bununla da onların nizami leksikaya aid olub-olmaması məsələsi çıxır. Bununla bağlı olaraq xatırlatmaq yerinə düşərdi ki, *L.R.Şerbanın S.D.Katsnelson* tərəfindən analiz edilmiş nizami sözlər siyahısına başqa sözlərlə yanaşı, *обычно* 'adətən' və *каждый* 'hər' sözlərinin də daxil edilməsi doğru olardı. Onlardan birincisi uzitativlik zərfliyi kimi, ikincisi isə xronoloji cəhətdən təkrarlanan zaman müddəti bildirən sözlə birlikdə (*каждую минуту* 'hər dəqiqə', *каждый год* 'hər il') dövrilik zərfliyi rolunda çıxış edir. *İterativ zərfliklər eyni dərəcədə elə standart qrammatik vasitələrlə də ifadə edilə bilən kifayət qədər mücərrəd, qeyri-müstəqil, "xidmətçi" mənalar ifadə etdiyindən onları qrammatika sahəsinə aid etmək lazımdır, çünki "yalnız affikslərin, köməkçi sözlərin və onların iştirak etdiyi konstruksiyaların müzakirəsi ilə məhdudlaşan qrammatika açıq-açığına məzmunsuz olardı"* [10, s.110]. Bu fikirlərə bəzi əlavə formal sübutlar gətirmək olar. Bu ondan ibarətdir ki, ən müxtəlif dillərdə iterativ zərfliklər arasında reduplikasiya edilmiş formada çıxış edənlər də vardır, reduplikasiyanı isə qrammatik vasitə kimi xarakterizə etmək qəbul olunmuşdur. Müq. et: khm. *лнга:ч лнга:ч* "axşamlar" [13, s.109], ev. *gbe sia gbe* 'hər gün' [1, s.107], vyet. *sáng sáng* 'səhərlər' [5, s.103], indon. *kadang-kadang* 'bəzən, arabir' [2, s.3], yap. *токи-доки* [4, s.202] 'bəzən, arabir', hind. *kabHi:-kabHi* [8, s.133] 'bəzən, arabir'.

İterativ zərfliklər bir qədər az, lakin kifayət qədər mühüm rolu feildə zaman formalarının paradiqmasının olduğu dillərdə oynayır. Feilin zaman formalarını bizi maraqlandıran baxımdan aşağıdakı binar əlamətləri nəzərə alaraq təsnif etmək olar: I əlamət: a) zaman forması iterativ mənasına malikdir, b) zaman forması iterativ mənasına malik deyildir; II əlamət: a) zaman forması iterativ zərfliyi ilə birləşir, b) zaman forması iterativ zərfliyi ilə birləşmir; III əlamət: zaman forması iterativ mənası ilə ixtisaslaşmış (birmənalı) formadır, b) zaman forması iterativ mənası ilə ixtisaslaşmamış (birmənalı olmayan) formadır [11, s.71].

Bu təsnifatın nəzəri cəhətdən yol verdiyi zamanlar qrupundan bizim tədqiqatımızda aşağıdakılar təmsil olunmuşdur: 1) iterativ mənası ifadə etməyən və iterativ zərfliklər ilə birləşməyən zaman formaları (I b, II b), 2) iterativ mənası ifadə etməyən, lakin iterativ zərfliklər ilə birləşən zaman formaları (I b, II a), 3) başqa mənalarla yanaşı, iterativ mənasının da xas olduğu və iterativ zərfliklər ilə birləşən ixtisaslaşmamış zaman formaları (I a, II a, III b), 4) iterativ zərfliklər ilə birləşən ixtisaslaşmış iterativ zaman formaları (I a, II a, III a).

Birinci qrupun iterativ mənası ifadə etməyən və iterativ zərfliklər ilə birləşməyən zaman formaları ilk növbədə o formalardır ki, xüsusi olaraq ayrı-ayrı aktual hərəkətlərin bildirilməsi üçün nəzərdə tutulmuşdur. Belə aktual müəyyən indiki, keçmiş və gələcək zaman formaları seriyası bəzi dillərində təmsil olunmuşdur.

İkinci qrupun iterativ mənası bildirməyən, lakin iterativ zərfliklər ilə birləşən zaman formaları nəzəri baxımdan maraq doğurur. Məsələ burasındadır ki, adətən cümlədə feil formalarının və çoxluq əlaməti mənası üzrə iterativ zərfliklərinin semantik uzlaşması müşahidə edilir, yəni feil forması bir dəfə edilən hərəkət bildirirsə, o zaman zərflik bir dəfəliyi bildirir, feil forması dəfələrlə təkrarlanan hərəkət bildirirsə, o zaman zərflik dəfələrlə təkrarlıq bildirir. Bu halda situasiya başqadır. Dəfələrlə təkrarlıq bildirən iterativ zərfliyi feil formasına xas olan bir dəfə edilən hərəkət mənasını "boğur" və ya "silir". Belə formalar sırasına, məsələn, rus dilində bitmiş tərzin indiki-gələcək zaman formaları aiddir: rus. *Только ястреб иногда пролетит над одинокой могилой* 'Yalnız qırğı arabir tənha qəbrin üzərindən ötüb keçir'.

Üçüncü qrupun başqa mənalarla yanaşı, iterativ mənası da olan və iterativ zərfliklər ilə birləşən zaman formaları çox geniş yayılmışdır. Bu, əsasən, çoxmənalı imperfekt formaları, ilk növbədə, prezens və imperfektdir. İterativ mənası bu formalara o cümlələrdə xas olur ki, orada iterativ mənasının hansısa qeyri-feili leksik və ya qrammatik göstəriciləri vardır və bu göstəricilər arasında aparıcı rolu iterativ zərfliklər oynayır. Beləliklə, bu halda iterativ zərfliklər və ya iterativ mənasının başqa göstəriciləri sanki feil formasının iterativ mənasını "göstərir" və bununla da bütün ifadənin iterativ oxunuşunu təmin edir. Belə zaman formaları müxtəlif dillərdə geniş təmsil olunmuşdur. Bu, məsələn, alman dilindəki prezens və preterit formaları, ingilis dilindəki əsas qrupun formaları, rus dilindəki bitməmiş tərz formalarıdır.

Dediyimiz bu fikrə feillərin semantikası müəyyən düzəlişlər edir. Məsələ burasındadır ki, öz təbiətinə görə zamanda "uzana" bilməyən hərəkətlər bildirən feillər, yəni ani feillər imperfekt formalarında bu formaların əhatəsində iterativ zərfliklərinin və ya iterativ mənası bildirən başqa vasitələrin olub-olmamasından asılı olmayaraq həmişə iterativ mənasına malik olur. Rus dilində onların sırasına, ilk növbədə, *приходить* 'gəlmək', *посещать* 'baş çəkmək', *приносить* 'gətirmək', *брать* 'almaq, götürmək', *находить* 'tapmaq', *застевать* 'tapmaq, görmək', *случаться* 'baş vermək', *являться* 'olmaq' tipli rezultativ-totiv feillər aiddir [15, s.117] Bundan başqa, düşünmək olar ki, müvəqqəti hal və fəaliyyət bildirən "xəstələnmək", "qüssələnmək", "işləmək" tipli feillərin imperfekt formaları, ümumiyyətlə, iterativ mənasına malik olmur və bununla da bu feillərin iştirak etdiyi ifadələrin iterativ oxunuşu yalnız iterativ zərfliklər və ya bu mənanın başqa kontekst göstəriciləri hesabına təmin edilir: rus. *Мой ребенок в последнее время часто болеет* 'Mənim uşağım son zamanlar tez-tez xəstələnir'.

Zaman formalarının dördüncü qrupu ixtisaslaşdırılmış formalardır, bu səbəbdən onlar iterativ zərfliklər və iterativliyin başqa göstəriciləri ilə sərbəst şəkildə bir-

ləşir. Həmin formalar ya bütün zaman oxu boyu, ya da keçmiş zaman planı ilə məhdudlaşmış zaman oxu boyu təkrarlanan hərəkətlər bildirir. Ona diqqət etmək maraqlı olardı ki, bu formalar daha tez-tez ücüncü qrupun zaman formalarının olduğu dillərdə müşahidə edilir.

İterativ məna, adətən, feilin müxtəlif zaman formalarını "mürəkkəbləşdirən" ixtisaslaşdırılmış göstəricilərin köməyi ilə ifadə edilə bilər. İterativin göstəricisi kimi reduplikasiya çıxış edə bilər.

İterativ mənanın ifadəsi üçün ixtisaslaşmış analitik "tərz" formaları və ya konstruksiyalarından istifadə edilə bilər. Türk dillərində *тур-* 'durmaq', *юр-* 'getmək' və bəzi başqa feillər və tammənalı feilin *-р/-b* (*-n/-б*) göstəricili feili bağlama forması ilə əmələ gələn "biverbal" iterativ konstruksiyaları adlanan birləşmələr geniş təmsil olunmuşdur: tat. *Фәрид һәрбер яңа чыккан китапны укып тора* [9, s. 89] 'Fərid [müntəzəm olaraq] hər bir yeni çıxan kitabı oxuyur'.

İterativ məna çox geniş şəkildə dəfəli-əlaqəli konstruksiyalarda (DƏK)- də müşahidə edilir. DƏK-lərdə, ilk növbədə, müxtəlif dillərdə geniş təmsil olunmuş zaman, şərt və güzəşt mənalı dəfəli-qoşa və dəfəli-zəncirvari konstruksiyalarda ifadə edilir. Belə DƏK-lər feillərdə tərz-zaman formalarının olmadığı dillərdə, məsələn, DƏK-lərin "hər dəfə", "o zaman ki", "nə zaman ki", "o vaxt ki", "əgər", "baxmayaraq ki" tipli bağlayıcı və bağlayıcı sözlərin iştirak etdiyi tabeli mürəkkəb cümlələr kimi formalaşdırıldığı Vyetnam dilində xüsusilə mühüm rol oynayır: *mỗi lần ra đi Ho trở' về buồn bã* [5, s. 104] 'Hər[1] dəfə[2] [evdən] çıxanda[3,4] Xo[5] kədərli[8,9] qayıdırdı[6,7]'. Bununla belə, DƏK-lər yuxarıda xatırlatdığımız bağlayıcılardan hər hansı birinin xas olduğu və xüsusi infinit feil formalarının iştirak etdiyi tabesiz mürəkkəb cümlələr kimi də formalaşdırıla bilər. Yapon dilində bu, *-рэба/-эба* göstəricili şərt formaları və *-ру/-у* göstəricili formalara qoşulan *то* köməkçi sözlü formalardır: *Карэ-ва таномарэрэба / таномарэру-то*, *иҷудэмо тэҷудаи-о-суру* [4, s. 205] 'Xahiş etsən, o həmişə kömək edir'. Əslində rus dilində bitməmiş tərzin feili bağlaması da belə formadır: *Читая книгу* (= *когда я читаю книгу*), *я подчеркиваю интересующие меня абзацы* 'Kitab oxuya-oxuya (=kitab oxuyanda) məni maraqlandıran abzasların altından xətt çəkirəm'. İterativ mənanın bu ifadə üsulunu qrammatik üsul hesab etmək olar.

D.Vesterman qeyd edir ki, eve dilində iterativ məna zərfliyin ixtisaslaşdırılmış forması ilə - uzitativlik zərfliklər ilə ifadə olunur. Uzitativlik zərfliklər (məsələn, "adətən", "müntəzəm şəkildə" mənaları verən zərfliklər) situasiyaların nisbi müntəzəmliklə təkrarlanmasını bildirir. Seriyalı predikatlarda uzitativin göstəricisi olan *-na* məhdudiyyətsiz olaraq təkrarlana bilər: *Wotsoa ati xlana de ati doa yli yoa wo, eye wotsoa nududu la yina naa wo* "Onlar çubuqla ağacı döyəcləyir, onları möhkəm səslə çağırır və sonra onlara yemək verir". Uzitativ bilavasitə və ya dolayısılə bir dəfə təkrarlanma bildirən *zi deka кое, zi deka pS* "bir dəfə, yalnız bir dəfə", *enumake* "dərhal, qəflətən", *gbe ma gbe* "o gün, həmin gün", *gbe deka la* "günlərin birində, günlərin bir günü" tipli zərfliklərlə birləşə bilmir, əksinə, *gbe sia*

gbe “hər gün”, *zi gede* “dəfələrlə”tipli zərfliklərlə kifayət qədər tez-tez işlənə bilir: *Zi gede menoa tsatsam le kpodcmewo* “Mən dəfələrlə küçələri dolaşmışam” *Kossi y ina afema me le rjkeke deka dzi* “Gün ərzində Kossi tam iki dəfə bu evə gəlir” [6, s.158].

Yapon dilində cümlələrdə iterativ məna iterativin bütün növlərində adətən fasilənin dövriliyini, uzutativliyini bildirən zərfliklərin olduğu hallarda yaranır: *Ю:бэ, Пэ:ти-ва фуцу: гита- о хику* “Axşamlar Peti adətən gitarada çalır”. İterativ məna cümlədə bəzi şərt formalarına malik cümlələrdə də ifadə edilə bilər: *Карэ-ва таномарэрэба / таномарэру- то, ицудэмо тэцудаи-о-суру* “Xahiş etsən, o həmişə kömək edər” [4, 205].

Vyetnam dilində iterativ mənanın göstəricisi kimi dövrilik,fasilə və uzitativlik bildirən zərfliklər çıxış edir. Dövrilik bildirən zərfliklər aşağıdakı vasitələrlə ifadə edilir:

Uzitativlik bildirən zərfliklərə *thuong xuyen* “daim, həmişə”, *thuong* “adətən”, *luon* “müntəzəm şəkildə, müntəzəm olaraq; fasiləsiz olaraq” sözləri aid edilir. Sonuncu iki zərflik reduplikasiya edilə bilər. Bu zaman uzitativlik mənası xüsusi olaraq nəzərə çatdırılır: *Anh*[1] *ta*[2] *thuong*[3] *xuyen you*[5] *duong*[6] “O[1,2] dayanmadan (hərfən: “daim”)[3,4,6] eşqə düşür[5]”; *Co*[1] *khach*[2] *den choi*[4] *luon luon*[4] *nghi*[5] *den*[6] *nguoi*[7] *you* “O[1,2] hər zaman[1,4] sevdiyi qız[7,8] haqqında[6] düşünür[5]”[5, 103].

İndoneziya dilində iterativ mənanın göstəriciləri kimi müntəzəm olaraq dövrilik, fasilə və uzitativlik mənasına malik iterativ zərfliklər çıxış edir. Onlar bəzən reduplikasiya olunmuş formada da işlənir. Qeyd etmək lazımdır ki, cümlədə fel özü bu zərfliklərlə adətən reduplikasiya olunmur:

a) dövrilik bildirən zərfliklərə *(se)tiap* (*-tiap*) *hari* “hər gün”, *(se) tiap (-tiap) tahun* “hər il” tipli söz birləşmələri aid edilir: *Setiap musim panas diadakan obralan di toko itu* “Hər yay o mağazada malların hərracı keçirilir”;

b) fasilə bildirən zərfliklərə *jarang* “nadir hallarda, az-az”, *kadang* (*-kadang*) / *kadang kala* “arabir, bəzən” / *sekali-sekali / sekali-kali / sesekali /* “bəzən, arabir, ara-sıra”, *sering* (*-sering*),

c) acap kali / kerap kali / sering kali “tez-tez”, *(dengan) teratur* “müntəzəm olaraq” tipli sözlər və söz birləşmələri aid edilir: *Bahkan masakpurı ia jarang* “Hətta yeməyi də o nadir hallarda hazırlayardı”; *Acapkali ... wesel ımtuk Rusman teralpa dikirimkan* “Rusman üçün pul baratı tez-tez vaxtında göndərilmirdi (hərfən: “diqqətsiz göndərilirdi”)”. İndoneziya dilində daha çox *selalu / selamanya / senantiasa / tetap* “həmişə, daim, hər zaman”, *biasanya / lazınıya* “adətən” kimi uzitativlik bildirən zəifliklərdən istifadə edilir. Son iki zərfliyin bir xüsusiyyəti də ondan ibarətdir ki, onlar cümlədə adətən başqa zərfliklərlə - yer, zaman, eləcə də dövrilik və fasilə bildirən zərfliklərlə birləşmədə işlənir. Bu zərfliklər və bəzən də *atau* “və ya, yaxud” bağlayıcısı dəfələrlə təkrarlanan silsiləli hərəkətlər konteksti olduğu zaman istifadə olunur: *Biasanya jam 2 atau 3 saya bangun, lalu membaca, membuat karangan atau menyusun pidato. Kemudian tidur sampai subuh* “Adətən

mən [gecə] saat 2- də, yaxud 3-də qalxır, sonra inşa yazır, yaxud məruzə hazırlayırdım. Sonra isə sübh açılana qədər yatırdım" [2, s.4].

Çin dilində dəfələrlə təkrarlanma bildirən kifayət qədər çox sayda söz vardır. Onlardan ən çox *ci* və *hui* sözləri işlədilir: *jianguo ji ci* "bir neçə dəfə görmüşdür", *laiguo ji hui* "bir neçə dəfə gəlmişdir". Həmin sözlərdən birincisi praktik olaraq say haqqında təsəvvürlə uyğunlaşa bilən istənilən fellə birləşir, ikincisi isə az işlənsə də, ən müxtəlif semantikalı fellərə qoşula bilər. Yuxarıda verilmiş iki nümunədə *ci* və *hui* bir-birini əvəz edə bilər [16, s.238].

Kök dillərdə iterativin göstəricisi kimi reduplikasiya da çıxış edə bilər: *лнга:ч лнга:ч* "axşamlar" (khmer dilində), *gbe sia gbe* "hər gün" (eve dilində), *sang sang* "səhərlər" (Vyetnam dilində), *kadang-kadang* "bəzən, arabir, hərdən" (İndoneziya dilində), *токи- доки* "bəzən, arabir" (yapon dilində).

Beləliklə, xüsusi məna növlərilə birlikdə çoxluq funksional-semantik sahəsinə daxil olan situasiyalar çoxluğunun iterativ tipi cümlədə bir-birilə kombinasiyada olan morfoloji, leksik, sözdüzəldici və sintaktık vasitələrin köməyilə ifadə edilir.

Ə D Ə B İ Y Y A T

1. Агбоджо К.О. Выражение множественности действий в языке эве / К.О.Агбоджо, В.П.Литвинов // Типология итеративных конструкций, – Л: Наука, – 1989. – с.105-110.
2. Агус Салим. Редупликация и квантитативное значение в индонезийском языке // Функциональное и типологическое направления в грамматике и их использование в преподавании теоретических дисциплин в вузе, – Вологда: – 1986. – с. 4-5.
3. Алыева Г.Б. К вопросу о понятии повторяемости действий и выражающих их глаголов // Вестник науки и образования, – 2015. № 9 (11), – с.50-57.
4. Алпатов, В.М. Выражение частных значений множества ситуаций в современном японском языке // Типология итеративных конструкций, Л: Наука, – 1989. – с. 200-207.
5. Быстров, И.С. Опыт классификации слов вьетнамского языка / И.С.Быстров, Н.В.Станкевич // Вьетнамский лингвистический сборник, – М: Наука, –1976. – с. 89-107.
6. Westermann D. A Study of the Ewe Language. Toronto, 1930, 258 c.
7. Гаджиев, Э.Н. Аспектуальность–важнейший категориальный признак кумыкского глагола (сравнительно с турецким): / Диссертация….доктора филол. наук /– Махачкала, 2006. – 300 с.
8. Звегинцев, В.А. Функция и цель в лингвистической теории // Проблемы теоретической и экспериментальной лингвистики, – М: Изд-во МГУ, –1977. – с.120-146.

9. Карцевский, С.О. Об асимметричном дуализме лингвистического знака // История языкознания XIX–XX веков в очерках и извлечениях, – М: Просвещение, – 1965. ч. 2, – с. 85-93.
10. Кацнельсон, С.Д. Типология языка и речевое мышление – Л: Наука, –1972. –213 с.
11. Кибардина, С.М. Основные аспекты изучения количественной характеризации глагольного действия в зарубежной германистике // Лингвистические исследования. Грамматика и семантика предложения. – М: Просвещение, – 1984. – с. 74-81.
12. Падучева, Е.В. Высказывание и его соотнесенность с действительностью / Е.В. Падучева. – М: Наука, – 1985. – 272 с.
13. Станков, В.С. За темпоралната дефективност на някой вторични несвършени глаголи в съвремения български език // Славистичен сборник,– София: Наука и изкуство,– 1968. – с.165-172.
14. Храковский, В.С. Семантические типы множества ситуаций (опыт классификации) // – М: Известия АН СССР. Сер. лит. и яз., – 1986. № 2, – с.149 - 158.
15. Шелякин, М.А. Приставочные глаголы с аттенуативным значением в русском языке // – М: Филологические науки, – 1966. № 4, – с.110-121.
16. Яхонтов С.Е. Проблема описания множественности действий в китайском языке.- ТИК. Л., 1989, с.236-242.

ALIYEVA G.B.

LINGUISTIC ANALYSIS OF THE ITERATIVE TYPE OF MULTIPLICITY OF SITUATIONS

SUMMARY

This article deals with one of the three private semantic types of the indefinite multiplicity of situations, more precisely the iterative one. In the paper on the materials of the different systems the inventory of morphological, lexical, wordforming and syntactical means used for expressing the iterative both in one language and different languages is established. It is noted that the iterative adverbs play a slightly less, but quite important role in languages with the paradigm of tense forms in the verb. Here the tense forms of the verb are classified according to the following binary signs: sign I: a) the tense form has an iterative meaning; b) the tense form does not have an iterative meaning; sign II: a) the time form is combined with an iterative adverb, b) the time form is not combined with an iterative adverb; sign III: the tense form is a specialized (unambiguous) form in the iterative sense, b) the tense form is an unspecialized (ambiguous) form in the iterative sense. The

following groups of this classification were studied in the article: 1) tense forms that do not express iterative meaning and are not combined with iterative adverbs (I b, II b); 2) tense forms that do not express iterative meaning, but are combined with iterative adverbs (I b, II a); 3) unspecialized tense forms, which have the iterative meaning as well as other meanings and are combined with iterative adverbs (I a, II a, III b); 4) specialized iterative time forms combined with iterative adverbs (I a, II a, III a).

Key words: **situation, meaning, semantics, functional-semantik field, tense, reduplication**

АЛЫЕВА Г.Б.

ЛИНГВИСТИЧЕСКИЙ АНАЛИЗ ИТЕРАТИВНОГО ТИПА МНОЖЕСТВО СИТУАЦИЙ

РЕЗЮМЕ

В настоящей статье рассматривается один из трех частных семантических типов неопределенной множественности ситуаций, а точнее итератив. В ней на материале разносистемных языков устанавливается инвентарь тех морфологических, лексических, словообразовательных и синтаксических средств, которые используется для выражения итератива как в одном, так и различных языках. Отмечается, что итеративные наречия играют несколько меньшую, но достаточно важную роль в языках с парадигмой временных форм в глаголе. Отмечается, что итеративные наречия играют несколько меньшую, но достаточно важную роль в языках с парадигмой временных форм в глаголе. Здесь временные формы глагола классифицируются по следующим бинарным признакам: I признак: а) временная форма имеет итеративное значение; б) временная форма не имеет итеративного значения; II признак: а) форма времени сочетается с повторяющимся наречием, б) форма времени не сочетается с повторяющимся наречием; III признак: временная форма является специализированной (однозначной) формой в итеративном смысле, б) временная форма является неспециализированной (многозначной) формой в итеративном смысле. В статье были изучены следующие группы этой классификации: 1) временные формы, не выражающие итеративного значения и не сочетающиеся с итеративными наречиями (I б, II б); 2) временные формы, не выражающие итеративного значения, но сочетающиеся с итеративными наречиями (I б, II а); 3) неспециализированные формы времени, которые имеют повторное значение, а также другие значения и сочетаются с повторными наречиями (I а, II а, III б);

4) специализированные итерационные формы времени в сочетании с итеративными наречиями (I a, II a, III a).

Ключевые слова: **ситуация, значение, семантика, функционально-семантическое поле, редупликация**

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Həbib Zərbəliyev tərəfindən çapa tövsiyə olunmuşdur

ESMİRA QULİYEVA
ATU-nun müəllimi
Filologiya üzrə fəlsəfə doktoru, dosent
e.quliyeva.55@mail.ru

ŞƏKİ ŞİVƏLƏRİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Azərbaycan dili dialekt və şivələri Azərbaycan dilçiliyində müxtəlif aspektlərddən araşdırılmış, dialektoloji məsələlər tədqiqata cəlb edilərək təhlil edilmişdir. Şivələrin ayrı-ayrılıqda öyrənilməsinə dair kitablar çap edilmiş, xeyli sayda məqalələr işıq üzü görmüşdür.

Buna baxmayaraq daim tədqiqatda aktuallığını saxlayan Şəki şivələrinin araşdırılmasını qarşıya məqsəd qoyduq. Məqalədə Şəki bölgəsindən toplanmış xalq yaradıcılığı nümunələrini, xüsusilə atalar sözlərini, inancları araşdırmaya cəlb etdik. Nümunələrdə xeyli sayda termin səciyyəli sözlər, məişət sözləri işləndiyini qeydə aldıq.

Toy, bayram, yas mərasimlərinin adları hər bir xalqın tarixinin dərin qatlarında özünə yer almış adətləri, inancları əks etdirir. Adət- ənənələrimiz bütün bölgələrdə qorunub saxlanılmışdır. Bu da hər bir şivədə özünəməxsus şəkildə ifadə olunur. Şəki bölgəsində də özünəməxsus adətlər və bu zman işlənən maraqlı dil faktları diqqəti çəkir. Eyni zamanda adətlərin uyğun adlarına digər şivələrdə, qohum dillərdə, həmçinin "Dədə Qorqud" dastanında rast gəlinir.

Açar sözlər: Şəki şivələri, əhali, leksika, dialektizmlər, atalar sözləri, arxaizmlər, mərasim sözləri.

Azərbaycan dili dialekt və şivələri Azərbaycan dilçiliyində müxtəlif aspektlərdən araşdırılmış, dialektoloji məsələlər tədqiqata cəlb edilərək təhlil edilmişdir. Şivələrin ayrı-ayrılıqda öyrənilməsinə dair kitablar çap edilmiş, xeyli sayda məqalələr işıq üzü görmüşdür. Azərbaycan dilinin tarixinin öyrənilməsində ayrı-ayrı bölgələrin dil xüsusiyyətlərinin öyrənilməsi, müqayisəli şəkildə təhlil olunması vacib məsələlərdəndir. Azərbaycan dilinin təşəkkülü ilə bağlı Qəzənfər Kazımov yazır: “Beləliklə, e.ə. IV minilliyin ortalarında protoazərbaycan dili dövrü başlanır. Azərbaycan ərazisində yaşayan türk tayfalarının dili yerli keyfiyyətlər qazanır, yerli toponim, etnonim və antroponimlər yaranır, dil (tayfa dilləri) tədricən şərqə hərəkət edən türk tayfa dillərindən ayrılma, gələcək vahid Azərbaycan dilinin əcdadı kimi təşəkkül tapma istiqamətində inkişaf edir. Bu dövr e.ə. I minilliyin ortalarına qədər davam etmişdir” (10, 193). Azərbaycan dili dialektlərinin təşəkkülünə dair araşdırma apararkən Ağamusa Axundov yazır: “Azərbaycan dili dialektləri Azərbaycan

ümumxalq dilinin yaranmasından öncəki dövrə təsadüf edir, lakin dialekt üzvlənməsi daha sonrakı dövrün məhsludur" (3, 244). Dialektlərimizin leksik qatından bəhs edərkən Elbrus Əzizov qədim türk leksikasının Azərbaycan ədəbi dilinə nisbətən şivələrimizdə daha yaxşı qorunduğunu xüsusilə diqqətə çatdırır. Alim 11-12-ci əsrlər Azərbaycan dilində dialekt fərqlərini əsasən xalqın etnik tərkibində iştirak etmiş tayfaların dil xüsusiyyətlərinə görə müəyyənləşdirir (6, 77). Şəki folklorundan danışarkən ilk olaraq xatırlanan dil olur, Şəki ləhcəsi olur (5, 3). Görkəmli çuvaş alimi N.İ.Aşmarinin əsəri (4), M.İslamovun "Azərbaycan dilinin Nuxa dialekti" (9) kitabı Şəki şivələrinin araşdırılmasına həsr edilmiş dəyərli əsərlərdəndir. Hər iki alim Şəkidə və rayonun müxtəlif kəndlərində yaşayan əhalinin danışıq xüsusiyyətlərini araşdırmışdır. N.İ.Aşmarindən fərqli olaraq M.İslamov həm də sintaksis və leksikaya diqqət ayırmışdır. Yaşar Qarayev yazırdı ki, Azərbaycanda milli mənşəyə aparan yolda qədimliyi, ululuğu ifadə edən etnik sertifikatın tərkibinə Azıx mağarası ilə, Qobustan qayası ilə, Quruçay dərəsi ilə yanaşı, bir linqvistik landşaftı da daxil etmək lazımdır – Şəki şivəsini! Qövmi fərdilikdə sabitliyin və fasiləsizliyin qorunmasında şivənin landşaft səviyyəsində iştirakı türk (dünya) dil təcrübəsində nadir fenomendir. Şəkinin şivəsi də Şəkinin iqlimi, mənəvi ab-havası, folklor – söz sərvəti, bahar-yaz libası kimi təkrarsız və əbədidir... Hətta ən adi mətn də tələffüzdə, nitqdə bu şivəyə, köklənəndə ondan pıqqıltı, qaqqıltı, şaqqanaq səsi gəlir (11, 3-5). Tofiq Hacıyev qeyd edirdi ki, bu intonasiyanın analoqu yoxdur. Elə bil şəkililər bu intonasiyanı özlərinə məxsus yumorun donu kimi biçmişlər, sonra yumor yayıldıqca, kütləviləşdikcə, hər şəkilinin evini, hər yaşdan olan, hər bir şəkilini əhatə etdikcə bu intonasiya onların məişətinin bütün sahələrindəki ünsiyyətini əhatə etmişdir. Hətta şəkililər əcnəbi dildə də bu intonasiya ilə danışırlar. Bu intonasiya ilə istənilən məclisdə, istənilən diyarda şəkilini pasportsuz, anketsiz tanımaq olur (7, 18).

Tədqiqatçı Ləman Süleymanova yazır: "Şəki ləhcəsi ərazidən qeydə alınmış bütün folklor mətnlərinə öz möhürünü vurub, onların şəkilinin dilindən deyilməsini bir daha təsdiqləyir. Beləliklə, Şəki ləhcəsi bu ərazidə dolaşan folklor örnəklərinin yerli-regional xüsusiyyətlərindən biridir" (13, 59). Tədqiqatçı nümunələrlə göstərir ki, " Şəki dialekti ərazidən qeydə alınmış folklor mətnlərində bütün çalarları, gözəlliyi ilə əks olunmaqla bərabər, həm də bəzi janrların strukturunu dəyişmək imkanına malikdir". Məhz dialektdə tələffüzün heca sayına təsir etdiyi həmin nümunələrdən birinə bir daha nəzər salaq:

Bu dağlar özlər məni,
Kavaflar gözlər məni.

Də mən gidəri oldum,
Sövənnər *gözdər* məni (2, 324).

Tədqiqatçı diqqətə çatdırır ki, *daha* ikihecalı ədatı Göynük şivəsində birhecalı *də* kimi səslənir və bu cəhət də bayatının misralarının yeddi hecalı olması prinsipini qoruyub saxlamağa kömək edir. *Gözləyər* sözünün bu bayatıda *gözdər* (Kursiv bizimdir – E.Q.) kimi işlənməsi də yeni misrada yeddi hecalılıq prinsipinin gözlənilməsinə xidmət edir (13, 58-59).

Şəki bölgəsində məişət mərasimlərilə bağlı işlənən sözlərin təhlili adətlərin dərin qatında türk mənşəli leksikanın dayandığı faktını da üzə çıxarır. Toy, bayram, yas mərasimlərinin adları hər bir xalqın tarixinin dərin qatlarında özünə yer almış adətləri, inancları əks etdirir. Adət-ənənələrimiz bütün bölgələrdə qorunub saxlanılmışdır. Bu da hər bir şivədə özünəməxsus şəkildə ifadə olunur. Eyni zamanda adətlərin uyğun adlarına digər şivələrdə, qohum dillərdə, həmçinin "Dədə Qorqud" dastanında rast gəlinir.

Toy mərasiminə aid adlar. Şəki bölgəsinə məxsus olan qeydə aldığımız bir sıra toy mərasimləri adlarına ayrıca olaraq diqqət edək: *Toy aşı*, topalax aşı, həriyə bi çapalax (bir az) aşı (12, 335).

Gidiyəm, yol uzundu,
Qoçax olmax lazımdı.
Sən gözəl, mən də gözəl,
Elçi nəyə lazımdı? (12, II, 278)
Ay qız adamı,
Sındır badamı,
*Elçi*yə çay ver, alım qadanı (12, II, 282).
Bir qız gördüm aranda,
Yanağı qızaranda.
Oğlan murada çatar
Toy edif, qız alanda (12, II, 278).
Yeri, doxdur oğlan,
Xəbərin yoxdur, oğlan.
*Nişannı*n xəsdə yatır,
Əlacı yoxdur oğlan (12, II, 278).
Usdol üsdə mağara,
Toydə çalınar nağara.
Oğlan qızı isdiyi
Pulu olmuyuf, yazıx qalıf füqara (12, II, 279).
Atalığı (süd pulu) çox olan qız urvatdı (hörmətli) olar.

Azərbaycan dialektoloji lüğətində də bu söz "başlıq (keçmişdə qız köçərkən atasının oğlan evindən aldığı pul və ya qızıl)" mənasında qeydə alınmışdır: -Qızın atası diyir, bi bu qədər sənnən atalığ alıcam (1, 19).

Şəki şivələrindən toplanmış xalq yaradıcılığı nümunərində qeydə aldığımız dil faktlarını qruplaşdırarkən burada məişət əşyalarına aid, köhnə ölçü, çəki vahidlərinə aid, geyim, bəzək əşyalarına aid maraqlı faktlar diqqəti çəkir. **Məişət əşyaları**nın adlarının işləndiyi nümunələrə nəzər salaq: Təzə bardağın suyü şirin olar.

*İsdekan*ım qannıdı,
El vurma, dermannıdı.
Şəkidən bi qız sevmişəm,
Didilər, anası Səlyannıdı (12, II, 278).
Sandıx üsdə səməni,
Oğlan, incitmə məni.
Anam bidən gəlif görər,
Nə səni döyər, nə məni (12, II, 279).

Ağartı, xörək adları müşahidə etdiyimiz örnəklər xeyli saydadır: Halıma bax, *halva* çal; Getdin xəbərə, otudun *xəşilə*? ; Ətimiz olseydi, qonşüdən yağnan düyü alıf *dolma* bükərdox; Qarğa özünü quş bilər, *dooğa* özünü aş bilər; *Dooğa* daşandə çömçə baha olar; Geyməyə çarıx, yeməyə *qatıx* və s.

Köhnə ölçü, çəki vahidlərinin adları bu gün də yaşlı insanların nitqində işlənməkdədir: Arığa *batman* da yükdü; Xəsdəlıx *batman*nan gəlif, misqalnan çıxar; Hörmət *xalvar-xalvar*, hak-hesaf *dinar-dinar*.

Qohumluq bildirən sözlərə həm qan qohumluğuna, həm də nikah qohumluğuna aid örnəklərdə rast gəlirik: *Dayıy*nan dağı dolan, *əmi*ynən bağı gəzmə; *Elti* əyrisi, balta əyrisi; *Yeznə* çırax, gözdən irax.

Yeznə sözü Yevlax şivələrində həm "bacının əri", həm də "qızən əri" mənalarında müşahidə edilir: Yeznə kişinin düşmanıdı; Yeznən yaxşı çıxdı, bir oğlun artdı, yeznən pis çıxdısa, qızın da dartdı (8, 76).

Toponimlər. Yer adlarının dialektoloji aspektdə öyrənilməsi şivələrin dil xüsusiyyətlərinin aşkarlanmasına kömək edir. Şəki bölgəsindən qeydə alınmış xalq yaradıcılığı nümunələrində müşahidə etdiyimiz yer adlarını diqqətə çatdıraq:

Balı (gilas) ağaciynən *şəki*lini qapınnan içəri qoymə (12, 319).

Ay oğlan, *noxu*lusan?
Gözdəri yuxulusan.
Minifsan kəhər atı,
Qorxuyəm yıxılasan (12, 282).
Gəliydim *Qala*dan,
Qarpız aldım Taladan.

Mən nətəri doyüm,
Sən kimi ömründə gəlmiyən baladan? (12, 284)

Birinci bayatıda *Nuxa noxu* fonetik variantında izlənilir. İkinci bayatıda adları çəkilən *Qala* və *Tala* Zaqatala rayonunun kəndləridir.

Orobandı (Şəkidə kənd) dadlı diyar, burda pitər lovyə, xiyar (12, 332).

Arxaizmlər. Şəki şivələrində qeydə alınan xeyli sayda sözlər vardır ki, həmin sözlər bu gün arxaik sözlər sırasındadır. Lakin bu sözləri şivənin leksik xüsusiyyətlərini araşdırma aparmaq məqsədilə müşahidə edərkən yaşlı nəslin nümayəndələrindən eşitdikdə qeydə almışıq: İt *epbəyə*, uşax mehirə. Nümunədə çörək anlamında işlənən *epbəy* əkmək sözünün şivədə işlənən variantıdır. Bu qəbil sözlər M.Kaşğarinin lüğətində, qədim türk lüğətində qeydə alınmış sözlər sırasındadır.

Şəki şivələrinə məxsus olan bir sözlər mövcuddur ki, onlar, demək olar ki, məhz bu şivəyə məxsusdur: *Kahal* (işbilməz) durar, kət yıxar (12, 327); *Qullux* (vəzifə) köhnə papaxdı (12, 330); Yüz *hüt* (axmaq), bi lütü soyə bilməz.

Qızıl üzük döyülmü?
Qızın nazik döyülmü?
Vermə *xoyrət* (yaramaz) oğlana,
Qızın yazıx döyülmü? (12, 286)

Aparılan araşdırmadan bəlli olur ki, Azərbaycan dilçiliyinin bir sıra məsələlərinin aydınlaşdırılmasında dialektoloji tədqiqatların, o cümlədən bölgələrin dil xüsusiyyətlərinin ayrıca öyrənilməsinin əhəmiyyəti böyükdür.

Qaynaqlar

1. Azərbaycan dialektoloji lüğəti. Ankara: Türk Dil Kurumu, 1999, 374.
2. Azərbaycan folkloru antologiyası. 23 cilddə. VI, Bakı, Səda, 2002, 495.
3. Axundov A.A. Ümumi dilçilik. Bakı, Maarif, 1984, 266
4. Aşmarin N.İ. Obşiy obzor narodnıx tyurkskix qovorov qorod Nuxi. Baku, 1926, 189 s.
5. Çələbi F. Şəki folkloruna bir nəzər // Azərbaycan folkloru antologiyası. 23 cilddə. VI c., Şəki folkloru. Bakı, Səda, 2002, s. 3-4.
6. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, Bakı Universiteti nəşriyyatı, 1999, 354 s.
7. Hacıyev T. Şəki folklorunun dil özəlliyi haqqında bir-iki söz // Azərbaycan folkloru, Bakı, Sabah, 1994, 14-20.
8. Həsənova N. Yevlax şivələrinin leksikası, Bakı, Elm və təhsil, 2014, 156 s.
9. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı, 1968, 274 s.
10. Kazımov Q.Ş. Azərbaycan dilinin tarixi. Bakı, Təhsil, 2003

11. Qarayev Y. Prototip – şəkilidir, yaxud nəfəsdə zümzümə, tələffüzdə rəqs – Şəki şivəsi // azərbaycan folkloru antologiyası. 16 cildddə. IV cild, Şəki folkloru. Bakı: 2000, s. 3-5.
12. Şəki folklor örnəkləri. II kitab. Toblayıb tərtib edən: Vaqifqızı L. Bakı, Elm və təhsil, 2014, 408 s.
13. Vaqifqızı L. Şəki folklor mühiti. Bakı, 2012, 248 s.

ГУЛИЕВА Э.

ЛЕКСИЧЕСКИЕ ОСОБЕННОСТИ ШЕКИНСКИХ ДИАЛЕКТОВ

РЕЗЮМЕ

Диалекты и акценты Азербайджанского языка были исследованы с различных сторон в Азербайджанском языкознании, а диалектологические вопросы были привлечены к исследованию и анализу. Изданы книги по изучению диалектов отдельно, опубликовано большое количество статей. Несмотря на это, мы ставим перед собой цель исследовать шекинские диалекты, которые всегда актуальны в исследованиях. В статье мы привлекли к изучению образцы народного творчества, особенности пословиц и поверий, собранные из Шекинского района. Мы отметили, что в примерах использовалось большое количество терминоспецифических слов и бытовых слов.

Названия свадеб, праздников и похорон отражают обычаи и верования, бывшие в глубинных пластах истории каждого народа. Наши обычаи и традиции сохранились во всех регионах. Это выражается уникальным образом в каждом диалекте. В Шекинском районе привлекают внимание уникальные обычаи и интересные языковые факты, которые используются в это время. В то же время соответствующие названия обычаев можно встретить и в других диалектах, родственных языках, а также в саге «Деде Горгуд».

Ключевые слова: Шекинские диалекты, население, лексика, диалектизмы, пословицы, архаизмы, обрядовые слова

GULIYEVA E.

LEXICAL FEATURES OF SHEKI DIALECTS

SUMMARY

Dialects and accents of the Azerbaijani language have been studied from various angles in Azerbaijani linguistics, and dialectological issues have been involved in research and analysis. Books on the study of dialects have been published separately, and a large number of articles have been published. Despite this, we set ourselves the

goal of studying the Sheki dialects, which are always relevant in research. In the article, we involved in the study samples of folk art, features of proverbs and beliefs collected from the Sheki region. We noted that a large number of term-specific words and household words were used in the examples.

The names of weddings, holidays and funerals reflect the customs and beliefs that were in the deep layers of the history of each people. Our customs and traditions have been preserved in all regions. It is expressed in a unique way in each dialect. The unique customs and interesting linguistic facts that are used at this time attract attention in the Sheki region. At the same time, the corresponding names of customs can be found in other dialects, related languages, as well as in the "Dede Gorgud" saga.

Key words: Sheki dialects, population, lexicon, dialectisms, proverbs, archaisms, ceremonial words.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL BAYRAMOVA
fil.ü.f.d.,
Azərbaycan Dillər Universiteti,
Roman dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrası
e-mail: gunelf@mail.ru

İTALYAN DİLİNDƏ FEİLİ BAĞLAMALARIN MORFOLOJİ-SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Ənənəvi qrammatikada feilin üç təsriflənməyən formalarından bəhs olunur: məsdər, feili sifət və feili bağlama. Bunlara həm də feilin şəxssiz formaları deyilir. Məqamına görə fərqlənən şəxsli feil formalarının məqamına görə fərqlənməyən şəxssis feil formaları ilə qarşılaşdırılması müxtəlif feil zamanlarını təshih etməyə imkan verən semioloji meyarları təqdim edir. İtalyan dilində feili bağlamalar və feili bağlama tərkibləri morfoloji və sintaktik müstəvilərdə tədqiq olunur. Feili bağlama verbal idarə xüsusiyyətinə malikdir. O öz tamamlığını birbaşa və ya dolayısı ilə idarə edə bilər. Feili bağlamalar, adətən, zərf, yaxud şərti tamamlıq rolunda çıxış edir. Feilin şəxssiz forması kateqoriyasına daxil olan feili bağlamalar, əslində, çoxşəxsli zaman bildirir, halbuki feilin şəxsli forması həmişə qrammatik mübtədanın olmasını tələb edir. İtalyan dilində feili bağlama, adətən, eyni zamanda baş verən iki hərəkəti bildirmək üçün işlədilir. Feili bağlama indiki, keçmiş və gələcək zamanda baş vermiş hərəkətin ideyasını ifadə edir. Əslində, feili bağlamanın italyan dilində bir enkliz rolunu oynayaraq aid olduğu feillə vahid sitaqm yaratması şübhəsizdir. Müasir italyan dilində bu enkliz məsdər, feilin əmr forması, feili bağlama və feili sifət vasitəsilə reallaşır. Məqalədə italyan dilində feili bağlamanın indiki və keçmiş zaman formaları müvafiq mislallarla izah edilir və müxtəlif dillərlə müqayisədə feili bağlamanın daha çox yığcamlıq və lakoniklik yaratdığı diqqətə çatdırılır. Burada roman dilləri nöqteyi-nəzərindən yanaşılaraq feilin şəxssiz forması olan feili bağlama kateqoriyasının morfo-sintaktik xarakteri araşdırılır.

Açar sözlər: *feili bağlama, təsrif, səbəb, şərt, mütləq cerund, enkliz*

Məsdər, feili sifət və feili bağlama feilin şəxssiz formaları hesab olunur. Bunlara dilçilikdə, adətən, feilin təsriflənməyən formaları da deyilir, yəni onlar konkret olaraq zaman bildirmir, şəxsə və kəmiyyətə görə dəyişmir (5, 178). İtalyan dilində feili bağlama xeyli dərəcədə mürəkkəb konstruksiyaya malikdir. Müqayisəli-tarixi qrammatika müstəvisində nəzərdən keçirdikdə italyan dilində *gerundio* və latın dilində *supin* terminləri ilə adlandırılan feili bağlama istilahına daha çox Qərbi Avropa mənbələrində rast gəlmək mümkündür. Sözügedən termin fransız dilində

gérondif adlandırılır. XVIII əsr müəlliflərinin fikrincə, Azərbaycan dilində feili bağlama ya məsdər, ya gələcək zaman feili sifəti, ya yiyəlik, ya da yönlük halda olan məsdərlə bildirilir. Göründüyü kimi, müxtəlif dillərdə feili bağlama müxtəlif şəkillərdə anlaşılmış və ifadə olunmuşdur

İ.Abbasov fransız qrammatiki J.Jansenə istinadən latın dilində feilin üç təsriflənən – xəbər şəkli, lazım şəkli, əmr şəkli olduğunu qeyd edir. Feilin təsriflənməyən formalarına gəlincə, onların sayının iki olduğunu göstərir. Həmin formaların məsdər və feili sifət olduğunu bildirir. Göründüyü kimi burada feili bağlama xatırladılmır. Bununla belə, cerund adı altında feili bağlamadan ayrıca bir nitq hissəsi kimi bəhs olunur. Qeyd olunur ki, latın dilində cerundun iki növü vardır: 1) ***Di, do, dum*** ilə bitən cerund adlıq haldan başqa bütün digər hallarla işlənən feili isim kimi xarakterizə olunur; 2) ***Dus, da, dum*** ilə bitən cerundun feili sifət olduğu qənaətinə gəlinir (1, 514-533).

İtalyan dilində feili bağlama ingilis dilindəki cerundla müqayisə olunur. Bununla belə, italyan dilində cerundun spesifik düzəlmə üsulu vardır. Bu məqsədlə ingilis dilində -*ing* suffiksindən istifadə edilirsə, italyan dilində tək kişi cinsində olan artiklin əlavə olunduğu məsdərdən istifadə olunur. Məsələn, il respirare – breathing. Eyni zamanda ingilis dilindən fərqli olaraq italyan dilində cerund sifət kimi işlədilmir (6).

İtalyan dilində feili bağlamanın (cerundun) iki forması vardır: İndiki zaman feili bağlaması (*il gerundio presente*, o *semplice*) və keçmiş zaman feili bağlaması (*il gerundio passato*, o *composto*).

İndiki zaman feili bağlamasını düzəltmək üçün birinci növ təsriflənməyə daxil olan feil köklərinin sonuna -*ando*, ikinci və üçüncü təsriflənməyə daxil olan feil köklərinin sonuna isə -*endo* şəkilçiləri əlavə olunur. Məsələn, *amare – amando, vedere – vedendo, finire – finendo, partire – partendo* və s. Keçmiş zaman feili bağlamasını düzəltmək isə bir qədər fərqlidir. Bu zaman italyan dilində *avere* və *essere* köməkçi feillərinin cerund, əsas feil isə keçmiş zaman feili sifət formasından istifadə edilir. Məsələn: *amare – avendo amato, vedere – avendo visto, finire – avendo finito* və s.

İndiki zaman feili bağlaması istər keçmiş, istər indiki, istərsə də gələcək zamana xas əsas feillə eyni vaxtda baş verən hərəkəti bildirir. Məsələn:

Il prof. Neri parla <u>leggendo</u> gli appunti – Prof. Neri speaks reading from notes.

Il prof. Neri ha parlato <u>leggendo</u> gli appunti – Prof. Neri spoke reading from notes (3, 75-76).

<u>Vaggiando</u> conoscerai molte persone – Путешествуя, ты познакомишься со многими людьми.

Misallardan da göründüyü kimi, italyan dilində indiki zaman feili bağlaması əsas hərəkətlə eyni zamanda baş verən hərəkəti bildirir. Bu zaman o, qeyd etdiyimiz kimi indiki, keçmiş və gələcək zamanla ifadə oluna bilər.

İtalyan dilində feili bağlamanı fransız dilindəki *gerondif*lə müqayisə edən İ. Abbasov yazır ki, fransız dilindən fərqli olaraq italyan dilində adlıq hal feili bağlamadan əvvəl və sonra işlənir. Təsirlik hal dövriyyəyə daxil olduqda adlıq hal cerunddan əvvəl işlənir. Burada halların işlənməsinə diqqətlə yanaşmaq lazımdır, çünki yol verilən hər hansı cüzi bir yanlışlıq məna anlaşılmazlığına qədər aparıb çıxarır. Məsələn, adlıq halı işlətmək əvəzinə, təsirlik halı işlədib feili bağlama ilə əlaqələndirmək yanlışdır. Misallara baxaq: italyanca: *I Cartaginesi temendo i Romani*; fransızca: *les Carthaginois craignant les Romains* – Kartaginezlər romalılardan qorxaraq..., ancaq *temendo i Cartaginesi i Romani* variantı doğru sayıla bilməz.

"Əgər cerundla bağlı adlıq halda olan söz cümlənin əsas feili ilə əlaqədardırsa, onda adlıq hal cerunddan əvvəlki pozisiyada yerləşir. Məsələn:

Calandrino Veggendo che il prete non lasciava pagare, si diede in sul bere, Calandrin voyant que le prêtre ne laissait payer personne, se mit a boire sans ménagement – Kalandrin rahibin həmin şəxsə ödəniş etmədiyini görərək maneəsiz içməyə başladı. Yalnız cerunda məxsus adlıq halda olan *io, tu* və s. əvəzlikləri, bir qayda olaraq, cerunddan sonra gəlir. Nəhayət, cerund *mandare* (göndərmək, yollamaq) feilindən sonra gəldikdə infinitivin yerini tutur. Məsələn:

Mandolla pregando, che le dovesse piacere di venir afar lieti i gentil-uomini delia sua presenza, il l'envoya prier qu'elle voulût bien venir réjouir, ces messieurs de sa présence – Onu dua etməyə göndərdi ki, o xanım öz gəlişi ilə cənabları sevindirmək üçün gəlməyə hazır olsun (Boc. G. 10, N. 4)), yəni *la mando a pregare* və s." (1, 518-519)

Müəllif Vincent Perettiyə istinad edərək eyni hərəkətin tezliyinin, yaxud təkrarlanmasının feili bağlamanın *andare* və *venire* feillərinə birləşməsi vasitəsilə ifadə olunduğunu söyləyir. Məsələn: "il dit partout, va dicendo; que cherchez-vous? che andate cercando? və s. (Boc. 98 , N. 3). *Stare* və feili bağlama (fr.gérondif – *İ.A.*) vasitəsilə hərəkətin mütəmadiliyi bildirilir. Məsələn, *pranzano, scriveva, chiaccheravano* əvəzinə *stauno pranzando,* ils dînent; *stava scrivendo,*il écrivait; stavano chiaccherando, *ils causaient* və s. deyilir. Bu konstuksiyalar bütün zamanlar üçün keçərlidir" (8,153-154; 1, 519).

K.Kosimo cerunda aid formal-qrammatik cəhətdən on iki forma göstərir:

1) mentre io amo, e amavo, tu ami, e amavi – sevərkən

2) amando io, tu, yaxud mentre io stavo, tu stavi amando – sevirkən

3) quantunque io abbia, tu abbi amato və s., yaxud avendo amato – sevmiş ikən

4) io, tu, quello invece d'amare, yaxud mentre io ero, tu eri per amare və s. – sevəcək ikən

5) io, tu in vece di dover amare, yax. dovendo amare –sevməli ikən

6) quantunque io abbia, tu abbi amato – sevdiyim var ikən, sevdiyin var ikən.

7) quantumque io avessi, tu avessi amato – sevdiyim varmışkən, sevdiyin varmışkən.

8) amando, ed avendo amato – sevib

9) amando, coll' amare – sevərək

10) finché io ami, tu ami, yax. mentre io amo, tu ami, yax. se io amo, tu ami, yax. amando io, tu, yax. subito che io amai, ed ho amato, tu amasti, ed hai amato – sevincə.

11) da che, *yax*. dappoiché io amai, ed ho amato, tu amasti, ed hai amato – sevəndən bəri.

12) da che io amai, ed ho amato, tu amasti, ed hai amato – sevəli (4, 105-107).

Keçmiş zaman feili sifətinə gəlincə, o, əsas hərəkətdən əvvəl baş verən hərəkəti ifadə edir və o da öz növbəsində indiki, keçmiş və gələcək zamanla ifadə olunur. Məsələn:

Avendo finito l'università, cominciò a cercarsi un lavoro – Закончив университет, он начал искать работу (2, 224-226).

Qeyd etmək lazımdır ki, indiki və keçmiş zaman feili bağlamaları 1) səbəb, 2) şərt, 3) *pur*, *sia, pure, anche* bağlayıcıları ilə müşayiət olunan güzəşt, 4) tərzi-hərəkət, 5) *come* və ya *quasi* bağlayıcılarının iştirak etdiyi güman və s. bildirmək üçün istifadə olunur. Misallara müraciət edək:

1). *Sapendo come stavano le cose, sono stata zitta.* – İşlərin necə getdiyini bildiyimdən səsimi çıxarmadım.

2). *Solo ubbidendomi potrai farcela* – Yalnız mənə itaət etməklə bu işin öhdəsindən gələ bilərsən.

3) *Essendo partita Laura, sono rimasta sola* – Laura yola düşdüyündən mən evdə tək qaldım (9, 192-193).

4) *Avendo studiato tutto il giorno, gli è venuto il sonno* – Bütün günü oxuduğundan onu yuxu tutdu.

5) *Essendo cresciuto in città, non era abituata a un lavoro pesante.* – Şəhərdə böyüdüyündən ağır işə öyrəşməmişdi.

Mütləq feili bağlama (gerundio assoluto) baş cümlənin subyektindən asılı deyil. Onun dəqiq ifadə edilmiş öz xüsusi subyekti vardır və bu subyekt ifadədə göstərilməlidir. Məsələn:

Avendo Gianni un po' di febbre, il padre gli proibì di uscire – Cianninin bir az hərarəti olduğundan atası ona çölə çıxmağı qadağan etdi.

Essendo il nonno ammalato, Paolo rinunciò a partire per il mare. – Babası xəstə olduğundan Paolo dənizə getmədi (9, 192-193).

İndiki zaman feili bağlaması *stare* feili ilə birləşmədə hərəkətin sürəkliliyini (uzun çəkməsini) bildirir, *andare* feil ilə birləşmədə isə hərəkətin icra olunmasının tədriciliyini ifadə edir. Məsələn:

Che cosa stai facendo? – Sən nə edirsən (nə ilə məşğulsan)?

Stavo leggendo quando hanno bussato la porta – Oxuyurdum ki, qapı döyüldü (/qapı döyüləndə mən oxuyurdum (oxumaqda idim).

Stavo dormendo quando ha telefonato – O zəng edəndə mən yatırdım.

Müxtəlif dillərdə feili bağlamalar düzəlmə üsullarına və kəsb etdikləri qrammatika məna və xüsusiyyətlərə görə müxtəlif kəmiyyətə malikdir. Hətta təkamül prosesində bir dildə olan qrammayik vahidlər, o cümlədən feili bağlama da semantik dəyişikliklərə məruz qalır, ya yeni mənalar qazanır, ya da məhdudlaşır. Bir dildə feili bağlama olan vahid başqa bir dildə məsdər və ya feili sifət kimi səciyyələndirilir. Feili bağlamalar bir sıra dillərdə durğu işarələri funksiyasını da yerinə yetirib.

Hələ orta əsr poetikasında və nəsr nümunələrində yığcamlılıq, az sözlə çox məna ifadə etmək, bir neçə cümlə əvəzinə bir cümlə işlədilməsi məharət sayılırdı. Bunun üçün bəzən nitqə ağırlıq və yoruculuq gətirən təkrarlardan yayınmaq tövsiyə edilirdi. Məsələn bir neçə cümlə bir cümlədə cəmləşdirilirdi. Bundan başqa, ablativlərdən və xüsusən də cerunddan (feili bağlama tərkiblərindən) geniş istifadə edilirdi. Cerund çox vaxt abaltivin ekvivalenti kimi işlədilirdi. Borta əsr mətnlərində, xüsusən nəsr əsərlərində tez-tez işlədilən feili bağlama tərkiblərinə rast gəlinməsi təsadüfi deyildir. Feili bağlama tərkiblərinin tətbiqi nitqin fəsahətini şərtkləndirən, ona dəqiqlik və yığcamlıq verən başlıca amillərdən biri idi.

Patrik Mula, məsələn, 11 cerundun varlığından bəhs edərək nümunə qismində aşağıdakı misala diqqəti cəlb edir:

"Il re di Francia [*essendo*] montato in superbia perché da lui era proceduta la morte di papa Bonifazio, *credendo* che la sua forza da tutti fusse temuta, *faccendo* per paura eleggere i cardinali a suo modo, *addomandando* l'ossa di papa Bonifazio fussoro arse e lui sentenziato per eretico, *tenendo* il papa quasi per forza, *opponendo* e *disertando* i Giuderi per torre la loro moneta, appognendo a' Tempieri resìa, *minacciandoli*, abassando li onori di santa Chiesa, sì che per molte cose rinnovate nelle menti degli uomini la Chiesa non era ubbidita, e non *avendo* braccia né difenditore, pensarono fare uno imperadore": Compagni *Cronica* III XXIII 130.

Latın dilində hallanan feili bağlama italyan dilində xeyli məhdudlaşaraq tək bir hallanmayan formada özünü göstərir. Qeyd etdiyimiz kimi, dəyişiklik yalnız son şəkil əlamətlərinə görə özünü biruzə verir. Yəni birinci hallanma üçün *-ando*, ikinci və üçüncü hallanma üçün isə *-endo*. Bununla yanaşı, italyan dilində feili bağlama fərqli və çoxşaxəli məna və funksiyalar daşıyır. Feili bağlama cümlədə xüsusən, təsrif olunan feillə əlaqdədar olub eyni subyekti paylaşır. "*Arrivando per primo sarò servito subito*" cümləsində güman olunan "io" mübtədası həm feili xəbərə, həm də feili bağlamaya aiddir. Bu qrammatik ifadə üsulu müasir italyan dilində geniş yayılmışdır (7, 647).

Beləliklə, feilin təsriflənən formaları ilə yanaşı təsriflənməyən formaları da dünya dilçiliyində kifayət qədər araşdırmaya cəlb olunmuşdur. Lakin müxtəlif dillərdə feilin təsriflənən və təsriflənməyən formalarına baxış müxtəlifdir. Öz düzəlmə formasına, cümlədə kəsb etdiyi semantikaya, subyektə və predikata münasibətinə görə italyan dilində feili bağlamaların spesifik xüsusiyyətləri vardır. Ümumiyyətlə, Azərbaycan dilçiliyində italyan dilinin qrammatikasının öyrənilməsi

yeni olduğu üçün qrammatik kateqoriyalar da dərindən öyrənilməmişdir. Bu istiqamətdə ilk addımlar atılması təqdirəlayiqdir. İtalyan dilində feilin təsriflənməyən formalarının dərindən tədqiqi bu dilin qrammatik ruhunun daha da yaxından duyulmasına imkan verir.

Ədəbiyyat:

1. Abbasov İ. Mirzə Kazımbəy. Türk-tatar dilinin ümumi qrammatikası / Azərbaycan dilinin ilk elmi qrammatikası: Tərcümə, tədqiq və şərh. Bakı: 2017, 1007 s.
2. Буэно Т. Грамматика итальянского языка / Томмазо Буэно, Е.Г. Грушевская. – Москва: АСТ, 2014. – 318, [2] с.
3. Cardo F., Proudfoot A. Modern Italian Grammar: A Practical Guide. Routledge, 2002, 440 p.
4. Cosimo Comidas de Carbognano. Primi principi della gramatica turca…Roma: imp. Sac. Congr. di Prop. Fide, 1794, 730 p.
5. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya, Bakı: Şərq-Qərb, 2007, 280 s.
6. Iavicoli Gi. Ecco!: An Introduction to Advanced Italian. Xlibris Corporation, 2014,329 p.
7. Mula P . Trésor de la langue italienne: l'italien ancien par les textes. Editions Publibook, 2017, 693 p.
8. Peretti V. Grammaire italienne. Paris: Quai Voltaire, 1815, 351 p.
9. Sensini M. Il sistema della lingua. Dalle parole al testo. Mondadori scuola, 2000, p. 592.

GUNEL BAYRAMOVA

MORPHOLOGICAL-SYNTACTIC CHARACTERISTICS OF GERUND IN THE ITALIAN LANGUAGE

SUMMARY

In traditional grammar, there are three unconjugaison forms of the verb: the infinitive, the participle, and the gerund. These are also called impersonal forms of the verb. Contrasting personal verb forms that differ in position with impersonal verb forms that do not differ in position provides semiological criteria that allow correcting different verb tenses. Verb conjugations and verb conjugation compounds in Italian are studied at the morphological and syntactic levels. Verb binding has the property of verbal control. It can directly or indirectly control its totality. Verb clauses usually act as adverbs or conditional complements. Conjunctions that fall

under the impersonal form of the verb category actually indicate the plural tense, while the personal form of the verb always requires the presence of a grammatical subject. In Italian, the verb conjugation is usually used to express two actions that happen at the same time. The verb conjugation expresses the idea of an action that took place in the present, past, and future tenses. In fact, there is no doubt that closing the verb acts as an enclise in Italian, creating a single syntagm with the verb it belongs to. In modern Italian, this enclise is realized through the infinitive, the imperative form of the verb, the verb clause, and the verb adjective. In the article, the present and past tense forms of verb binding in Italian are explained with relevant examples and it is pointed out that verb binding is more compact and concise than in other languages. Here, the morpho-syntactic character of the verb binding category, which is the impersonal form of the verb, is examined from the point of view of Romance languages.
Key words: *gerund, conjugation, cause, condition, absolute gerund, enclisis*

ГЮНЕЛЬ БАЙРАМОВА

МОРФО-СИНТАКСИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ДЕЕПРИЧАСТИЯ В ИТАЛЬЯНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В традиционной грамматике есть три неспрягаемой формы глагола: инфинитив, причастие и деепричастие. Их также называют безличными формами глагола. Противопоставление форм личных глаголов, различающихся по положению, формам безличных глаголов, не различающихся по положению, определяет семиологические критерии, позволяющие исправлять разные времена глаголов. Глагольные спряжения и глагольные соединения в итальянском языке изучаются на морфологическом и синтаксическом уровнях. Глагольное связывание обладает свойством вербального контроля. Он может прямо или косвенно управлять своим дополнением. Деепричастные обороты обычно действуют как наречия или условные дополнения. Союзы, подпадающие под безличную форму категории глагола, на самом деле указывают на время, в то время как личная форма глагола всегда требует наличия грамматического подлежащего. В итальянском языке спряжение глагола обычно используется для выражения двух действий, которые происходят одновременно. Спряжение глагола выражает идею действия, которое происходит в настоящем, прошедшем и будущем времени. На самом деле нет никаких сомнений в том, что деепричастие действует в итальянском языке как энклиза, создавая единую синтагму с глаголом, к которому она принадлежит. В современном итальянском языке эта энклиза реализуется через инфинитив, повелительную форму глагола, придаточное предложение глагола

и прилагательное глагола. В статье формы связывания глаголов настоящего и прошедшего времени в итальянском языке объясняются с соответствующими примерами и указывается, что связывание глаголов более компактно и лаконично, чем в других языках. Здесь с точки зрения романских языков рассматривается морфо-синтаксический характер категории глагольной связки, являющейся безличной формой глагола.
Ключевые слова: *герундий, спряжение, причина, условие, абсолютный герундий, энклиза*

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Fil.e.d.İ.Ə.Abbasov
tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ MƏMMƏDOVA
fil.ü.f.d., dosent
BDU
Türkologiya kafedrası
afam129@gmail.com

ƏRƏB ƏLİFBASI İLƏ YAZILAN TÜRKCƏ ƏSƏRLƏRİN TRANSKRİPSİYASINDAKI PROBLEMLƏR (ortaq transkripsiya)

XÜLASƏ

Türklər qədim zamanlardan müxtəlif qrafikalı yazı sistemlərindən istifadə etmişlər: soqd, manixey, Tibet, göytürk (Orxon-Yenisey), uyğur, ərəb, kiril, latın əlifbaları və s. VII əsrdən etibarən islam dininin yayılması ilə bu dini qəbul edən türklər ərəb əlifbasına bir qədər dəyişiklik edərək onun istifadəsinə başlayırlar. Belə ki, ərəb dilinin fonetik sistemində mövcud olmayan {p}, {j}, {g}, {ç} və {ŋ} səslərinə fars və türk katibləri tərəfindən hərf qarşılığı düzəldilmiş və əlifbaya əlavə edilmişdir. Buna baxmayaraq, yenə də ərəb əlifbası türk dillərinə uyğun deyildi. Çünki ərəb yazısı daha çox konsonant yazıdır: uzun saitləri göstərmək üçün hərflərdən istifadə olunsa da, qısa saitlər yazılmır və yazılmayan bu qısa saitləri göstərmək üçün yardımçı işarələrdən (hərəkələrdən) istifadə edilir. Bundan başqa, hərflərin bir neçə yazılış formasının olması, nöqtələrin çoxluğu, bir neçə hərfin sinkretik səciyyə daşıması, türk dillərində mövcud olmayan bir sıra səslərin istifadəsi və s. nüanslar bu yazı ilə yazılan türkcə mətnlərin oxunuşunda çətinliklər yaradır. Müxtəlif dövrlərdə ərəb əlifbasını türk dilinə uyğunlaşdırmağa çalışan katiblər yazıya öz qayda-qanunlarını gətirmiş, bununla da yazı sistemini sadələşdirmək əvəzinə daha da qəlizləşdirmişlər. Bunun nəticəsidir ki, müasir tədqiqatçılar orta əsrlərdə yazılan türkcə əsərlərin transkripsiyasında xeyli problemlə qarşılaşırlar. Mətnlərdə bəzi sözlərin fərqli yazılışı, pərakəndəliyi katibin şəxsi təşəbbüsü ilə yaratdığı imla qaydalarını, yoxsa müxtəlif tayfa dil xüsusiyyətlərinin tarixi fonetikasını əks etdirdiyini müəyyən etmək çətin olur. Ərəb yazısı ilə yazılan türkcə əsərlərin müxtəlif elmi-tənqidi mətnləri hazırlanmış, transkripsiya, transliterasiya və transfoneliterasiyası haqqında kitablar nəşr olunmuşdur. Lakin bu kitablarda (əsasən də əlifbanın transkripsiyasında) nəşr olunma yerinə müvafiq olaraq fərqli işarələrdən istifadə olunmuşdur. İstər xarici, istərsə də müxtəlif türk dövlətlərinin türkoloqları tərəfindən hazırlanan mətnlərdə müştərəklikdən daha çox pərakəndəlik özünü büruzə verir. Hər naşir özünə uyğun olan transkripsiyadan, işarələrdən istifadə edir ki, bu da qarışıqlığa səbəb olur. Məqalədə ərəb əlifbasındakı qrafik işarələrin ifadə etdiyi səslər, onların müxtəlif transkripsiyaları üzərində durulmuş, ortaq işarələr təklif edilərək məsələnin həlli yolları axtarılmış, naşirlər tərəfindən ortaq türk transkripsiyasının istifadəsinin vacibliyi qeyd edilmişdir.

Açar sözlər: *ərəb yazısı, orta əsrlər, transkripsiya, türkcə əsərlər, qrafik işarələr, fonetik tutum*

İslamiyyətin müxtəlif xalqlar tərəfindən qəbul edilməsi ilə ərəb dili və əlifbasının istifadəsi də geniş əraziyə yayıldı. Türk xalqları islam dinini qəbul etmələri ilə bərabər ərəb əlifbasını da mənimsədilər. Ərəb əlifbasını istifadə etməyə başlayan türk və farslar dillərinə məxsus olan spesifik səslərə uyğun hərflər düzəltmiş və ərəb əlifbasına əlavələrini etmişlər. Mirzə Kazım bəy türklərin istifadə etdiyi ərəb əlifbasında otuz dörd hərfin olduğunu, bunlardan iyirmi ikisinin ərəb, türk, fars dillərində müştərək, altısının xalis ərəb mənşəli olub yalnız ərəb mənşəli sözlərdə işləndiyini, birinin fars, üçünün həm türk, həm fars, birinin ərəb və fars, birinin isə yalnız türk dilinə aid olduğunu qeyd etmişdir (23; 3). Lakin bütün bu dəyişiklərə baxmayaraq, ərəb yazısı türk dillərinin fonetik sistemini tam əhatə edə bilmirdi. Çünki, ilk növbədə, ərəb yazısı konsonant yazı sistemindən ibarətdir. Ərəb dilində samitlər yazıda hərflərlə göstərildiyi halda, qısa saitlər yazılmır və yazılmayan saitləri qeyd etmək üçün diakritik işarələrdən istifadə edilir. Bundan başqa, bir hərfin bir neçə səsi (5 səsə qədər) ifadə etməsi, türk dillərində işlənməyən ərəblərə məxsus bir neçə hərfin türk əlifbasına yerləşməsi, hərflərdə nöqtələrin çeşidliliyi və çox zaman yazıda nöqtə və diakritik işarələrin qeyd edilməməsi türk mətinlərini oxumaqda çətinlik törədirdi. XX əsrin əvvəllərinə qədər davam edən bu yazı sisteminin latın qrafikası ilə əvəz edilməsindən sonra isə başqa problemlər ortaya çıxdı - orta əsrlərdə yazılan türk mətnlərinin düzgün oxunması. Belə ki, hər bir qədim və orta dövrdə yazılan əsərlərimizin tədqiqatı onun düzgün transkripsiyasından (transliterasiya, transfoneliterasiya və s.) başlayır. Transkripsiya - hər hansı bir dilin, qrafik və orfoqrafik normalarından asılı olmayaraq, bütün incəliklərinin mümkün qədər dəqiq verilməsi üçün tətbiq edilən yazı, ya işarələr sistemidir (5; 370). Dilin fonemlər sistemini, onların elmi-linqvistik təhlilini, tələffüzü haqda tam təsəvvür yaratmaq üçün şərti işarələrdən istifadə etməyə şərait yaradır. "Transkripsiyadan xüsusi elmi məqsəd və tələblər üçün istifadə olunur. Bu vasitədən istifadə etməyin başlıca elmi məqsədi rəngarəng ahəngə, əlamət və keyfiyyətlərə, geniş ehtiyat və imkanlara, qüvvət və qüdrətə malik olan səsli dilin bütün daxili aləmini, varlığını aşkara çıxarmaqdan ibarətdir" (21; 483).

Fonemlərin, kök və şəkilçi morfemlərin düzgün transkripsiyası dövrün orfoqrafik prinsiplərini, imlasını, fonetik xüsusiyyətlərini, nitq təzahürünü və s. bu kimi müxtəlif dilçilik məsələlərinin istiqamətini müəyyənləşdirməyə kömək etməkdədir. Ancaq əfsuslar olsun ki, orta əsrlərdə yazılmış türk mətnlərində vahid prinsip, ümumi bir sistem yox idi. Hər katib özünün düzgün hesab etdiyi orfoqrafik və imla qaydalarından istifadə edirdi. Düzdür, bəzən də mətnlərdəki imla müxtəlifliyi dialekt ünsürlərinin qeyd olunmasından irəli gəlirdi. Ancaq bu incə fərqi tapmaq, yazıdakı sabitsizliyin, söz və şəkilçi morfemlərin yazılışının müxtəlif cür yazılmasının katib dəsti-xətti olduğunu, yoxsa dialekt ünsürü kimi qeyd olunduğunu

təspit etmək çətin məsələlərdəndir. “Maraqlıdır ki, bu cür orfoqrafik hərcmərclik özünü daha çox türk sözlərinin yazılışında və morfoloji tərtibində göstərirdi: ərəb və fars alınmalarının yazılışında orfoqrafik prinsiplər, demək olar ki, pozulmurdu” (4; 30).

Orta əsrlərdə görünən bu qarışıqlıq müasir dövrümüzdə transkripsiyalarda özünü göstərməkdədir. Belə ki, orta əsr katibləri kimi müasir dövrün naşirləri vahid prinsipə əməl etməyərək türk-ərəb yazısı ilə yazılan əsərləri müxtəlif transkripsiya işarələrindən istifadə etməklə nəşr edirlər ki, bu da bəzən qarışıqlıq yaradır. Çünki çox zaman əsərin elmi-tənqidi mətninin harada nəşr olunmasından asılı olaraq naşirin əsərin transkripsiyasında öz ana dilinin fonetik sisteminə üstünlük verdiyi diqqəti cəlb edir. Məsələn, hansı müasir türk dillərinin ədəbi dilində ə saiti varsa, orada çap olunan elmi-tənqidi mətnlərdə həmin saitin qeyd olunduğunu görürük. Türkiyə ədəbi dilində isə qrafik işarəsi olmayan ə səsinin bəzən transkripsiyada verilmədiyinin şahidi oluruq. Məsələn, türkcə “İSNAD Atıf sistemi”nin (17; 59) transkripsiya bölməsində nə {ə} səsi, nə də onun transkripsiyasına yer verilməmişdir. Ümumiyyətlə, Türkiyə türkcəsində “kapalı e”, “geniş e”, “açık e” terminlərinin çoxluğu bir qarışıqlıq yaradır (bu terminlər haqqında bax: 20; 266-281). Fikrimizcə bunlardan “açıq e” adlandırdıqları səsi transkripsiyada {ə} formasında göstərmək, müxtəlif türk dövlətləri arasında ortaq transkripsiyadan istifadəni mümkün edəcəkdir. Bundan başqa, maraqlıdır ki, araşdırdığım Azərbaycan və Özbəkistanda nəşr olunan kitablarda transkripsiyalar sistemli xarakter daşımaqdadır. Bunun əksinə, Türkiyədə nəşr olunan kitablarda daha çox sərbəstlik (hər müəllifin fərqli transkripsiyadan istifadə etməsi) və qarışıqlıq özünü büruzə verir. Buna görə də “ğeyn” hərfinin həm {g}, həm {ğ}, həm də {ġ} transkripsiyalarını, “sağır nun” hərfbirləşməsinin {ň}, {ŋ}, {n͡g} formalarını, “zəl” hərfinin {ẓ}, {z̲}, {ḏ}, {d̲} və {dh} variantlarını görmək mümkündür. Türkiyə, Azərbaycan və digər türk dövlətlərində aparılan transkripsiya işlərində qarışıqlıq əsasən غ və ق hərflərində də özünü göstərir. Məsələn, Azərbaycan dilində غ {ğ}, ق {q}, özbəkcə غ {ğ}, ق {ĸ}, Türkiyədə غ {ġ}, ق {ḳ}, formalarında transkripsiya olunur.

غ hərfi ərəb dilinin fonetikasına görə {ğ} səsini ifadə edir. Azərbaycan və özbək naşirləri bu hərfin transkripsiyasını {ğ} kimi verirlər. Türkiyədə nəşr olunan transkripsiyalı mətnlərdə isə bu hərf bir qayda olaraq {ġ} kimi verilir ki, əslində bu işarənin Azərbaycan dilində qarşılığı {q}-dir. Belə ki, Muharrem Ergin “Türk dil bilgisi” kitabında konsonantlar haqqında yazdığı bölmədə türkcədə {g}, {ġ}, {ğ} səslərini ayrı-ayrılıqda göstərmiş və {ġ} səsinə uyğun olan sözlərə misal üçün *ġaġa*, *ġıcırtı* (11; 42) leksemlərini göstərmişdir. Muharrem Ergin daha sonra {ḳ} və {ġ} səsləri haqqında belə yazmışdır: “ḳ - ġ değişikliği yalnız bugün Anadolu ağızlarında kelime başında görülen bir değişikliktir: ḳaç > ġaç, ḳarşı > ġarşı, ḳuzu > ġuzu gibi. Bu değişiklik Anadolu ve Azeri ağızlarında bugün hemen hemen umumileşmiş olup Batı Türkçesinde zamanımızın en büyük ve en şumullü ses değişikliği manzarası arzetmektedir” (11; 86). Bundan başqa, Muherrem Ergin “Dədə Qorqud kitabı”nı da transkripsiya edərkən diqqəti sözü gedən səslərə və işarələrə yönəltmişdir: “Metinde

tatbik edilen transkripsiyon sistemi Türk ilmi transkripsiyon alfabesidir. Yalnız, bu alfabede hep {ġ} ile gösterilen, fakat aslında başka başka harflerle karşılanması gereken iki ses metnimizde birbirinden ayrılarak (gı) sesi {ġ} ile, (ğı) sesi ise ğ ile gösterilmiştir. Tabii, bu {ğ}-nin İstanbul Türkçesinde bugün artık çok yumuşamış bulunan hafif {ğ} sesi olmayıp, doğu Anadolu ağızlarındaki koyu {ğ} sesi olduğu unutulmamalıdır" (10; XV). Deməli, alimin sözlərindən də aydın olduğu kimi, "ğeyn" hərfinin tələffüzü Azərbaycan, Anadoluda tələffüz edilən {ğ} səsidir. Bunun transkripsiyada da {ğ} kimi qeyd edilməsi məqsədəuyğundur. Besim Atalayın DLT nəşrində də ğeyn hərfinin ğ kimi transkripsiya edildiyini görmək mümkündür. Sadəcə burada da diqqətimizi cəlb edən məsələ, alimin söz sonunda işlənən "ğeyn" hərfinin transkripsiyasını {ğ} (məsələn, آرغ arığ) (s.12), şəkilçi kimi işlənən "ğeyn" hərfini isə {g} kimi (ترغاق targak) (8; 14) formasında verməsidir. S.Mutallibov isə sözün bütün mövqelərindəki "ğeyn" hərfini kirilcə ғ (yəni ğ) kimi transkripsiya etmişdir (22; 52, 53).

Hər halda "ğeyn" hərfinin transkripsiyasının iki formada verilməsi onun müxtəlif səsləri ifadə etməsindən irəli gəlir. Belə ki, Con Deni "ğeyn" hərfi haqqında yazarkən onun iki səsi ifadə etdiyini, özündən əvvəl (yazıda və şifahi) bir vokal olduğu zaman {ğ}, bir konsonant olduğu zaman {ġ} səslərini bildirdiyini yazmışdır (7; 54). Ümumiyyətlə, sovet türkoloqları da adəti üzrə "ğeyn" hərfinin transkripsiyasını γ və ya ğ işarəsi ilə, "qaf" hərfini isə {q} ilə vermişlər (misal üçün, bax: 6; 9; 24).

Yuxarıda da qeyd edildiyi kimi, ق Azərbaycan dilində {q}, özbəkcədə {қ}, türk dilində {ḳ} şəklində transkripsiya edilir. Əlbəttə, bu transkripsiya işarələri hər türk dilinin müasir fonetikasına uyğun olan tələffüzündən, əlifbadakı qrafik işarəsindən qaynaqlanır. Lakin yaddan çıxartmaq olmaz ki, orta əsrlərdə yazılan mətnlərin transkripsiyası, sözlərin tələffüzü zamanı onları müasir dövrlə eyniləşdirmək yanlış nəticələrə gətirib çıxarda bilər. Bəs, sözlərin orta əsrlərdə necə tələffüz edildiyini tam dəqiqliklə söyləmək mümkündürmü? Bu, çətin prosesdir. Hər nə qədər də bəzi orta əsr müəllifləri hərf və səslər haqqında məlumatlar versələr də (məsələn, 8; 26; 27 və s.) səslərin tam tələffüzünü anlamaq yenə də çətinlik törədir. Dilçi alimlər uzun illərdir bu problemin həlli yollarını axtarmış, müxtəlif fikirlər irəli sürmüş, tarixi və coğrafi şəraiti nəzərə alaraq diaxron və sinxron müstəvidə müqayisələr aparmış, etimologiya, dialekt ünsürlər üzərində tədqiqat apararaq sözlərin düzgün oxunuşunu tapmağa çalışmışlar. Əsərlərin transkripsiyası, transfoneliterasiyası zamanı müəllifin yaşadığı coğrafiya ilə dövrün fonetik xüsusiyyətləri, nəzərə alınmalıdır. Məsələn, M.Nağısoylu Şirazinin əsərindəki ق hərfinin transfoneliterasiyası haqqında belə yazmışdır: "söz sonunda və ortasında işlənən "qaf" hərfi, fikrimizcə, nüsxədə, əsasən, kipləşən-partlayan, kar, dilarxası-yumşaq damaq samiti olan "ḱ" səsini ifadə edir.. Bu səs Şirazinin yaşayıb-yaratdığı bölgə üçün daha səciyyəvi olmuşdur" (25; 45). Saməd Əlizadənin də bu hərf haqqında aşağıdakı qeydləri vardır: "*Qaf* hərfi q samitinin işarəsidir. Lakin onun

transkripsiyasını (orta əsr Azərbaycan əlyazmalarına isnadən) transliterasiyası ilə eyniləşdirmək dəqiq olmaz. Heç şübhəsiz, istər əski mətnlərdə, istərsə də müasir yazılarda *qaf* hərfinin müasir əlifbadakı qarşılığı q hərfidir. Amma təxminən XV əsrə qədər əlyazmalarımızda *qaf* hərfi ilə k samiti də (brak, kolxoz sözlərində eşidilən səs) əks olunmuş, hətta orta əsrlərdə və çox sonralar bu hərflə x samiti də ifadə edilmişdir" (12; 67). Azərbaycan ədəbi dilinin tədqiqatçısı Qızılgül Abdullayeva "XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi" kitabında ق (qaf) qrafeminin XVII əsr Azərbaycan ədəbi dilinin fonetik sistemində bir neçə səsi - {q}, {k ̀} və (x} samitlərini - ifadə etdiyini yazmışdır (1; 71). Hətta tədqiqatçılara görə, "XX əsrdə Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında yenidən qurulduğu vaxta qədər, həmin əsrin əvvəllərinin çap və mətbuat materialları əsasında demək olar ki, hətta sovet dövrünə, yeni türk əlifbasına keçidə qədər ق hərfi Azərbaycan sözündə "normal" {q} səsi ilə yanaşı, həm də müasir türk dilindəki kipləşən, kar, dilarxası, yumşaq damaq {k} samitini göstərməyə xidmət etmişdir" (2; 55). Kitabi-Dədə Qorqud"un elmi-tənqidi mətnini hazırlayan Samət Əlizadə və Fərhad Zeynalovun fikrincə " ق (qaf) - söz əvvəlində {q} samitinin, bəzi türk mənşəli sözlərin ortasında və sonunda dilarxası kipləşən kar {k} səsinin işarəsidir. Məsələn, يقين (yakın), بقيدكز (bakaydınız) və s. (19; 24).

ذ və ض hərflərinin transkripsiyaları

Pəltək z (dilin ucu alt və üst dişlərin arasında olaraq ifadə edilir) ذ (zəl) ərəb əlifbasının 9-cu hərfidir və müxtəlif cür transkripsiya edilir: Avropa (7; 14, 44), Azərbaycan, Özbəkistan (13; 16) və digər türk dövlətlərində bu hərfi daha çox z altında xətt olaraq (z̲) göstərirlər. Türkiyədə isə "zəl" hərfinin transkripsiyasında bir çox fərq gördük. Belə ki, əski yazı (Osmanlıca) kitablarında hərfin tələffüzü {z}, transkripsiyasının isə z altında xətt (z̲) olaraq göstərilsə də (28; 3, 100), orta əsrlərdə yazılan əsərlərin transkripsiyası ilə bağlı kitablarda adətən 3 şəkildə qarşımıza çıxmaqdadır: 1. d hərfinin altında kiçik xətt (d̲) (bax: 14; 21/ 30; 84), 2. d hərfinin altında nöqtə (ḍ) (bax: 4; 5 / 3; 455 / 13) və 3. dh (8; XXXIII) formasında.

Mirzə Kazımbəy qrammatika kitabında "zəl" hərfi haqqında aşağıdaki məlumatı vermişdir: " ذ - ز , ض , ظ z kimi tələffüz olunur, məsələn ذالك zalikə "bu". Ancaq Ərəbistanda bu dörd hərf tam eyni şəkildə tələffüz edilmir". Alim d-z əvəzlənməsi haqqında da yazmışdır: "Bəzi ərəb və fars sözlərində د hərfi ذ ilə əvəz olunur. Məsələn, خدمت (xidmət) sözündəki د noqay tatarları tərəfindən ذ ilə deyilir və yazılır, yəni خذمت ; fars mənşəli كاغذ (kağız) sözündəki ذ isə bir çox dialektdə د ilə əvəz olunur" (23; 10)

Ərəb əlifbasının IX hərfi olan *zal/ zəl* "pəltək" və ya "diş arası z" adlandırılır və əsasən ərəb mənşəli sözlərin yazılışında iştirak etsə də, onu orta əsr yazılı əsərlərdə türk mənşəli leksemlərdə də görmək mümkündür (məsələn, az̲ır- "ayırmaq", bez̲ük "böyük", ez̲gü "yaxşı", öz̲lek "günorta və s. (4)". Eyni zamanda bəzi hallarda eyni bir əsərdə "zəl" hərfi ilə yazılan leksemlərin "ye" hərfi ilə də yazıldığını görmək mümkündür (Məsələn, boz̲ / boy, ez̲er / eyer, kaz̲aş / kayaş, qaz̲ğu

/ qayğu (bax: 4) və s.). Bu, imla nizamsızlığına bənzəmir, fikrimizcə leksemlərin belə paralel fonetik fərqlilik göstərməsi müxtəlif türk tayfa dil xüsusiyyətlərinin təzahürüdür. Con Deni "zəl" hərfi haqqında aşağıdakıları yazmışdır: "(ذ zəl), türkcənin ərəb hərfli ən qədim transkripsiyalarında cingiltili dişarası konsonantını göstərir ki, bu səs, osmanlı türkcəsində (y)-yə çevrilmişdir" (7; 13). Böyük ehtimal, məhz bu xüsusiyyətlərə görə Türkiyədə çap olunan bir çox kitabda "zəl" hərfi d kimi transkripsiya olunmuşdur.

Həmçinin, ض "zad" hərfi də Türkiyədə çap olunan kitablarda iki formada transkripsiya olunur: ż və ḍ

"sağır nun"

Ərəb və fars fonetikasında mövcud olmayan "sağır nun" (sağır n, nu-ni-səğir, velyar n, nazal n, nef, kafi-türki və s.) türk dillərinin qədim samitlərindəndir. İki samitin qovuşmasından yaranan [nq] və ya [ng] affriqatı, burun-boğaz səsidir. Əski əlifbada yazılmış mətnlərdə işlək olan bu işarə latın əlifbasına keçərkən türk və Azərbaycan əlifbasından çıxarılmışdır. Lakin səs olaraq bu gün bir çox dialektdə qalmaqdadır. "Sağır nun" qədim zamanlardan 1929-cu ilə qədər yazılı əsərlərimizdə müxtəlif qrafik işarələrlə ifadə olunmuşdur. "Sağır nun" bəzən yalnız "kaf" hərfi ilə, bəzən "kaf"ın üzərində və ya altında qoyulan üç nöqtə ilə, həmzə işarəsi ilə, bir çox hallarda da "nun" və "kaf" hərf birləşməsi ilə yazılmışdır. Beləliklə, əski mətnlərdə "sağır nun" əsasən aşağıdakı qrafik formalarda qarşımıza çıxır: نک ڭ ڭ ڭ ك ک

Misal üçün, aşağıda orta əsrlərdə yazılmış türk mətnlərindən verilən nümunələrdə "sağır nun" ilə yazılan *köŋül* leksemi "Kitabi-Dədə Qorqud"da sadəcə "kaf", digər mətnlərdə isə "nun" və "kaf" birləşməsi halında yazılmışdır:


(D-3)


(56-7a)


(1/7)


(41 r 21)

(163 a 4) *

* Transkripsiyalar: 1. *köŋlin yuca tutan ərdə dövlət olmaz* (Kitabi-Dədə Qorqud); 2. *köŋli zari yığlayu evə gəldi* (Əli, "Qısseyi-Yusif"), 3. *köŋül marifet nurı birle tolup* (Muinül-mürid); 3. aydı *köŋül* teŋriniŋ turur (Qısasül-Enbiya), 4. köŋül anı kim kördi (Xarəzm türkcəsində Quran tərcüməsi)

“Sağır nun”un transkripsiyası köhnə kitablarda ŋ, ň, yeni nəşrlərdə isə (əsasən Türkiyədə) daha çox n͡g formasında qeyd edilir. Bu son variant transkripsiyadan daha çox transliterasiya xarakteri daşımaqdadır. Buna görə də, istifadəsi uyğun görülən işarələrdən digər ikisi seçilə bilər.

خ hərfi

خ hərfinin fonetik tutumu dilimizdəki {x} səsidir. Türkiyədə bu hərfin transkripsiyası əsasən ḫ və h̲ formalarında verilir. Lakin hərfin qarşılığının başqa türk dillərində də {x} olduğu üçün, transkripsiyasında da bu şəkildə verməyi məqsədəuyğun sayırıq.

Beləliklə, əgər türk dövlətləri tərəfindən nəşr edilən transkripsiya ilə bağlı kitablarda pərakəndəliyi aradan qaldırmaq istəyiriksə, o zaman orta əsr yazılı mətnlərimizin ortaq transkripsiyasını aşağıdakı kimi təklif edtmək olar:

Hərfin yazılışı	Təklif olunan ortaq transkripsiya	Hərfin yazılışı	Təklif olunan ortaq transkripsiya
ا / آ	a, ā (uzun)	ص	ṣ
ا / أ	a, e, ə ı, i, u, ü	ض	ż
ب	b, p	ط	ṭ
پ	p	ظ	ẓ
ت	t	ع	ʿ
ث	s̲	غ	ğ
ج	c, ç	ف	f
چ	ç	ق	q, ḳ
ح	ḥ	ك ک	k, g
خ	x	نک ڭ ڭ ڭ ڭ	ŋ
د	d	ل	l
ذ	z̲	م	m
ر	r	ن	n
ز	z	ه	h, e, ə
ژ	j	و	v, o, ö, u, ü
س	s	ى	y, ı, i
ش	ş		

Yuxarıda verilən transkripsiyaların çoxu müasir türk dillərində işlənməkdədir. Bir hərfin bir neçə səs ifadə etməsinə gəlincə isə, əlbəttə, bu, əsərin yazıldığı dövr, tarixi şərait, müəllifin yaşadığı, əsərini ərsəyə gətirdiyi coğrafiya, həmin arealın dialekt ünsürlərinə görə müxtəlif ola bilər. Təbiidir ki, əski dövrlərdə yazılan əsərlərdəki sözlərin necə tələffüz olunduğunu dəqiqliklə söyləmək mümkün deyil və

əsərlərin imlasına hərfi-hərfinə yanaşmaq da düzgün deyil. Çünki "yazılı tarixi nümunələr həmişə tarixi fonetikanı əks etdirmir. Bu yazılarda tarixi fonetika yerinə mühafizəkar tarixi orfoqrafiya özünü göstərir (15; 14). Buna görə də, mətnlər tarixi türk ədəbi dillərinə uyğun transkripsiya olunmalıdır. Yazıların transkripsiyasındaki pərakəndiliyi aradan qaldırmaq və türk xalqları arasında tədqiqat işlərində müştərəkliyi genişləndirmək üçün isə ortaq transkripsiya işarələrindən istifadə edilməlidir. Belə ki, əgər hərflərin transkripsiyaları bütün türk dövlətləri üçün ortaq düşünülsə, tədqiqata cəlb olunan əsərlərin araşdırılması daha effektiv xarakter daşıyar.

ƏDƏBİYYAT

1. Abdullayeva Q. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi. Bakı: "Elm və təhsil", 2019.
2. Adilov M. Türk mətninin transfoneliterasiya problemləri. Bakı "Nurlan", 2003
3. Arat R.R. Edib Ahmed b. Mahmud Yükneki. Atebetü'l-Hakayık, 2. bs., Türk Tarih Kurumu Basımevi, Ankara 1992.
4. Ata A. Nehcü'l Ferâdîs. Uştmahlarnınˆg Açuk Yolı. Cennetlerin Açık Yolu. III Dizin-Sözlük, Türk Dil Kurumu Yayınları. Ankara: TDK yayınları, 1998.
5. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı: "Şərq-Qərb", 2006.
6.Боровков А.К. Бада'и Ал-Лугат: Словарь Тали Имани Гератского к Сочинениям Алишера Навои. Москва: Издательство Восточной Литературы, 1961.
7. Deny J. Türk dili grameri (Osmanlı lehçesi) Tərcümə edən: Ali Ulvi Elove. İstanbul: Maarif, 1941.
8. Divanü Lûgat-it-türk tercümesi. Çeviren Besim Atalay. Ankara: Türk Tarih Kurumu basımevi, 1985.
9. Древнетюркский словарь. Ленинград: «Наука», 1969.
10. Ergin M. Dede Korkut kitabı. I. Giriş- metin - faksimile. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989.
11. Ergin M. Türk dil bilgisi. 20. baskı,İstanbul: "Bayrak", 1993.
12. Əlizadə S. Əski Azərbaycan yazısı. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993.
13. Фазылов Э.Староузбекский язык. Хорезмийские памятники XIV века. Том II. Ташкент: «ФАН», 1971.
14. Hacıeminoğlu N. Kutb'un Husrev ü Şirin'i ve dil hususiyetleri. Ankara: TDK, 2000.
15. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. I. Bakı: "Elm", 2012.
16. Hacıyeva Z. Əski əlifba. Bakı: "Elm", 1989.
17.İSNAD İSNAD Atıf Sistemi 2. Edisyon - ISNAD_Atif_Sistemi_2.Edisyon_v1.6.pdf (isnadsistemi.org)
18. Жуманиезов Р. Эски Ўзбек ёзуви. Тошкент «Ўқитувчи», 1989.
19.Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadə. Bakı "Yazıçı", 1988.

20. Kocaoğlu T. Tarihi türk lehçeleri metinlerinin transkripsiyonlanmasında kapalı é / i meselesi. Türk Kültürü. Sayı 483-484, Temmuz-Ağustos Ankara 2003.
21. Qurbanov A. Seçilmiş əsərlər. III cild. Ümumi dilçilik. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, 2019.
22. Махмуд Кошгарий. Девону Луготит турк. Tərcüməçi: Salih Mutallibov. Taşkend: Özbəkistan SSR Fənlər Akademiyası, 196.
23. Мирза А. Казем-Бек. Общая грамматика турецко-татарского языка. Второе издание. Казань: Университетская типография. 1846.
24. Наджип Э.Н. Тюркоязычный памятник XIV века «Гулистан» Сейфи Сараи и его язык. Алма-Ата: «Наука», 1975.
25. Nağısoylu M. Şirazinin "Gülşəni-raz" tərcüməsi (filoloji-tekstoloji araşdırma, mətnin transfoneliterasiyası). Bakı: "Nurlan", 2004.
26. Навои А. Сочинения в десяти томах. Возлюбленный сердец. Суждение о двух языках. X том. Ташкент: «ФАН», 1970.
27. Pietro Della Valle. Türk dilinin qrammatikası. Azərbaycan dilinin orijinal qrammatikası, 1620. Tərcümə, tədqiq və şərh: Abbasov İdris və Bayramova Günel. Bakı, 2020.
28. Timurtaş F. Osmanlı türkçesine giriş. Eski yazı-Gramer-Aruz-Metinler. II Baskı. İstanbul: İstanbul Üniversitesi Edebiyat Fakültesi yayınları, 1993.
29. Şimşek, Y. Harezm Türkçesinde Kur'an Tercümesi. Meşhed nüshası (293 No.), Giriş, metin, dizin. I ve II cilt. Ankara: Akçağ, 2019.
30. Yüce, N. Ebu'l-Kâsım Cârullâh Mahmud bin ʿOmar bin Muhmmed bin Ahmed ez-Zamaḫşari, el-Ḫvârizmi Mukaddimetü'l-Edeb. Ḫvârizm Türkçesi ile Tercümeli Şuşter Nüshası. Giriş, Dil Özellikleri, Metin, İndeks. Ankara: Türk Dil Kurumu Yayınları, 1993.

Afag Mammadova

The problem of transcription in Turkic works, written in the Arabic alphabet

Summary

Since ancient times, the Turks used various scripts: Sogdian, Manichaean, Tibetan, Orkhon-Yenisei, Uighur, Arabic, Cyrillic, Latin, etc. Since the 7th century, with the spread of Islam, the Turks, who adopted this religion, made some changes to the Arabic alphabet and began to use it. The sounds {p}, {j}, {g}, {ç}, and {ŋ}, which do not exist in the Arabic phonetic system, were added to the alphabet by Persian and Turkish scribes. However, the Arabic alphabet was still not suitable for the Turkic languages. Because, in Arabic writing, short vowels, as a rule, are not written. In cases where it is necessary to convey the exact sound of a word, superscript and subscript vowels are used to indicate vowel sounds. In addition, the

presence of several spelling forms of letters, the abundance of dots, the syncretism of several letters, the use of a number of sounds that do not exist in the Turkic languages and other nuances create difficulties in reading Turkic texts written in this script. In different periods, scribes, who tried to adapt the Arabic alphabet to the Turkic, introduced their own rules into writing, thereby further complicating the writing system instead of simplifying it. As a result, modern researchers face significant problems in transcribing Turkic works written in the Middle Ages. It is difficult to determine whether the different spelling and detailing of some words in the texts reflect spelling rules created by the scribe on his own initiative, or the historical phonetics of various features of the tribal language.

Various scientific texts of Turkic works written in Arabic script have been prepared, books on transcription, transliteration and transphoneliteration have been published. However, these books (mostly in the transcription of the alphabet) used different designations corresponding to where the book was published. In the texts prepared by Turkologists of various Turkic states, both foreign and Turkic, there is more diversity than commonality. Each author uses his own transcription and symbols, which causes confusion. The article focused on the sounds expressed by graphic signs in the Arabic alphabet, their various transcriptions, suggested common signs and looked for ways to solve the problem, and also noted the importance of scientists using common Turkic transcription.

Key words: Arabic script, middle Ages, transcription, Turkic works, graphic symbols, phonetic ability

Мамедова Афаг

Проблема транскрипции в тюркских произведениях, написанных арабским алфавитом

Резюме

Тюрки издревле использовали различные письменности: согдийскую, манихейскую, тибетскую, орхоно-енисейскую, уйгурскую, арабскую, кириллицу, латиницу и др. Начиная с VII века, с распространением ислама, тюрки, принявшие эту религию, внесли некоторые изменения в арабский алфавит и начали его использовать. Звуки {p}, {j}, {g}, {ç} и {ŋ}, не существующие в фонетической системе арабского языка, были добавлены в алфавит персидскими и турецкими писцами. Тем не менее арабский алфавит по-прежнему не подходил для тюркских языков. Потому что, в арабском письме краткие гласные, как правило, не пишутся. В случаях, когда необходимо передать точное звучание слова, для обозначения гласных звуков используются надстрочные и подстрочные огласовки. Кроме этого, наличие нескольких орфографических форм букв, обилие точек, синкретичность нескольких букв, употребление ряда звуков, не существующих в тюркских

языках и другие нюансы создают трудности при чтении тюркских текстов, написанных этим письмом. В разные периоды писцы, пытавшиеся адаптировать арабский алфавит к тюркскому, вносили в письменность свои правила, тем самым еще более усложняя систему письма вместо упрощения. В результате современные исследователи сталкиваются со значительными проблемами в транскрипции тюркских произведений, написанных в средние века. Трудно определить, отражают ли различное написание и детализацию некоторых слов в текстах орфографические правила, созданные писцом по собственной инициативе, или историческую фонетику различных особенностей племенного языка.

Подготовлены различные научные тексты тюркских произведений, написанных арабской графикой, изданы книги по транскрипции, транслитерации и трансфонелитерации. Однако в этих книгах (в основном в транскрипции алфавита) использовались разные обозначения, соответствующие тому, где издавалась книга. В текстах, подготовленных тюркологами разных тюркских государств, как зарубежных, так и тюркских, больше разнообразия, чем общности. Каждый автор использует свою транскрипцию и символы, что вызывает путаницу. В статье основное внимание уделялось звукам, выраженным графическими знаками в арабском алфавите, их различным транскрипциям, предлагались общие знаки и искались пути решения проблемы, а также отмечалась важность использования учеными общетюркскую транскрипцию.

Ключевые слова: арабское письмо, средние века, транскрипция, тюркские произведения, графические символы, фонетические способности

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Firəngiz Kərimli tərəfindən çapa tövsiyə olunmuşdur

АМИРОВА СОЛМАЗ ДЖАМИЛЬ
преподаватель Азербайджанского Государственного Университета Нефти и Промышленности А31010, г. Баку, пр.Азадлыг, 20
amirova1968@list.ru

ВЛИЯНИЕ РОДНОГО ЯЗЫКА СТУДЕНТА-БИЛИНГВА ПРИ ИЗУЧЕНИИ РУССКОГО ЯЗЫКА

Аннотация: В статье рассматривается проблема правильного произношения русского языка и влияние родного языка студента-билингва. Важно отметить, что при овладении русской речью велико значение усвоения норм правильного произношения, которое является одним из объективных показателей грамотной речи. Обучение произношению должно происходить непосредственно в самой речи. Работу над постановкой правильного произношения необходимо проводить комбинируя различные виды речевой деятельности. Несомненно, студент-билингва испытывает влияние родного языка. Каждый язык – это организованная совокупность единиц, связанных определенными отношениям. Преподаватель, работающий в национальной аудитории, должен хорошо знать фонетическую систему русского языка, так и родного языка обучающихся, знать ее отличительные особенности. Эффективно использовать беспереводный способ семантизации, куда входят синонимы, антонимы, наглядность, контекст, словообразовательный анализ. Большую пользу при этом принесет метод мнемонических ассоциаций, при котором у студентов развивается креативное, творческое воображение и мышление. Нужно научить студентов запоминать слова так, чтобы была связь между зрительным восприятием и словесным выражением. Нужно отметить, что в методической литературе неоднократно отмечалось, что обучение устной речи не следует отрывать от обучения письменной речи. Основная цель вузовского курса русского языка – обучить неродному языку как средству общения. При этом должна учитываться специфика неродного языка как учебного предмета, то есть надо обучать русскому языку студента-азербайджанца или иностранца так, чтобы была обеспечена речевая деятельность на этом языке. И поэтому для большинства студентов сейчас русский язык является одновременно и целью, и средством общения.

Ключевые слова: произношение, заимствованные слова, лексическая сочетаемость, сопоставление, трудности при обучении лексике, беспереводный способ, межъязыковое сходство, автоматизированные навыки.

Обучение русскому языку в национальном вузе подчинено основной цели – становлению и развитию речевой деятельности учащихся.

При овладении русской речью велико значение усвоения норм правильного произношения, которое является одним из объективных показателей речевой компетенции говорящего, общего уровня его владения языком. Звуковая, материальная база – основа всех видов речевой деятельности. Правильное произношение способствует не только более быстрому и прочному усвоению языкового материала. Но и формированию навыков говорения, аудирования и чтения.

Несмотря на то что в Азербайджане проделана значительная работа в области улучшения преподавания русского языка, все же знания студентов-первокурсников, выпускников азербайджанских средних школ не всегда соответствуют требованиям, предъявляемым учебной программой. Нередко это возникает из-за сильного влияния фонетической системы родного языка на русскую речь студентов.

Изучение нормативного произношения играет важную роль в овладении русским языком. Можно прекрасно изучить грамматику русского языка, иметь большой лексический запас, но без знания закономерностей звукового строя языка, без овладения правилами произношения невозможно усвоение корректной речи. В процессе работы над произношением студентов преподаватели русского языка нередко сталкиваются с определенными трудностями, вызванными недостаточно серьезным отношением студентов к важности и необходимости повседневных тренировок артикуляционных органов.

Обучение произношению должно происходить непосредственно в самой речи. Работу над постановкой правильного произношения необходимо проводить комбинируя различные виды речевой деятельности: слушание – чтение, слушание – говорение, слушание – письмо. Этому принципу, на наш взгляд, необходимо следовать и при составлении учебных пособий по произношению.

Исследование лингвистических и психолингвистических основ методики преподавания русского языка как второго уже дало обширный материал, позволяющий судить о причинах типичных ошибок в области произношения, грамматического строя языка. Студент-билингва испытывает влияние родного языка и подвержен внутриязыковой интерференции.

Влияние азербайджанского языка на складывающийся русский лексикон студента проявляется в разных формах. Это прежде всего употребление слов, когда-то заимствованных из русского языка и фонетически и грамматически переоформленных по законам родного языка. Обучаемый ощущает, что данное слово заимствовано из русского языка и поэтому воспринимает его как русское, хотя от подлинно русского оно уже отличается по разным аспектам.

Чем ниже уровень владения русским языком, тем таких слов в лексике учащихся больше. Наиболее часто встречаемые из них: «систем» вместо *система,* «газет» вместо *газета*, «шофер» вместо *шофер.*

Важный аспект владения лексикой – знание законов лексической сочетаемости. Это знание оказывается очень важным для порождения нормативных высказываний, поскольку даже у свободных, лексически не связанных значений существует некоторый ограничивающий предел сочетаемости, налагаемый нормой.

Каждый язык – это организованная совокупность единиц, связанных определенными отношениями, и любая единица этой системы, противоположный другим подобным элементам, занимает в системе вполне определенное место и характеризуется свойственной только ей значимостью. Слова, являющиеся обозначениями одних и тех же денотатов, принадлежащие к разным языковым системам, помимо различных грамматических характеристик, различаются также системами ассоциаций. Это объясняет, почему при обучении второму языку мы часто сталкиваемся с явлением, когда человек говорит по-русски, и в то же время в его речи явственно слышатся отголоски другого языка, то есть используя средства выражения второго языка, он пользуется системой ассоциаций родного. В теории перевода хорошо изучена связь между соотнесенными семантически словами разных языков, и в рамках этой теории она рассматривается как соотношение лексических эквивалентов и как соотношение аналогов. Первая группа включает «постоянные равнозначные соответствия», не зависящие от контекста. В эту группу входят прежде всего некоторые однозначные термины. Однако однозначность языковых единиц, в особенности лексических, является скорее исключением, чем правилом. Поэтому выделяется группа соответствий. Когда многозначной единице одного языка соответствуют разные единицы в другом языке. Такого рода соответствия называются «аналогами», которые определяются контекстом.

Преподаватель, работающий в национальной аудитории, должен хорошо знать фонетическую систему русского языка, так и родного языка обучающихся, знать ее отличительные особенности, обусловливающие основные трудности в процессе овладения студентами правильным русским произношением. Поэтому работа над постановкой правильного произношения в национальной аудитории во многом должна ориентироваться на родной язык студентов, т.е. в преподавании, а также при составлении учебных пособий по обучению навыкам произношения должны учитываться результаты сопоставительных исследований. Системное сопоставление родного и изучаемого языков способствует выявлению основных орфоэпических трудностей, прогнозированию и предупреждению ошибок. Сопоставительный анализ дает возможность не только выявить сходство и расхождение звуковых

систем русского и родного языков, но и определить позиции, в которых артикуляция звуков и звукосочетаний русского языка вызывает наибольшие трудности и порождает ошибки в произношении.

По мнению многих ученых-методистов (мы отметим мнение И.П.Бима) существуют такие трудности при обучении лексической стороне речи:

1)отбор лексики с учетом коммуникативной направленности обучения;

2)разработка рациональной методической организации лексики, ее типологии, исходя не только из трудностей усвоения, но и учитывая наличие разных коммуникативных задач.

3)совершенствование приемов обучения лексике.1[27, с.85]

При обучении лексической стороне речи проблемы возникают и в теории и на практике, где они связаны, прежде всего, с запоминанием и употреблением слов в речи. Лучшему запоминанию лексических единиц способствует работа над текстом в контексте.

Появляются трудности при обучении лексике русского языка студентами неязыковых вузов. Это связано с особенностями их мышления и восприятия.

Поэтому эффективно использовать беспереводный способ семантизации, куда входят синонимы, антонимы, наглядность, контекст, словообразовательный анализ. Надо уделять внимание техническим терминам и научить эффективному усвоению лексических единиц с учетом индивидуальности памяти учащихся. Большую пользу при этом принесет метод мнемонических ассоциаций, при котором у студентов развивается креативное, творческое воображение и мышление. Следует отметить, что часть трудностей, с которыми сталкиваются студенты национальных групп в процессе чтения учебных текстов по специальности, связана с процессом понимания. Современные ученые утверждают, что основные знания взяты из текстов. Они сопровождают человека на протяжении всей его жизни и их существование является результатом понимания. Процесс понимания текста – это не только знание лексического содержания информации текста, но и метод его подачи. Знание значения технических терминов и смысла предложений текстов по специальности, еще не означает полное понимание информации. Необходимо уметь применить эти знания на практике. Поэтому усвоение текста с опорой только на память, недостаточно. Понимание текста должно происходить по мере использования полученной информации при похожих условиях.

При рассмотрении абстрактных понятий, на уроках русского языка, эффективно объяснение их вербальным способом, то есть использовать синонимы, антонимы, дефиниции. Важно приучать студентов не только к механическому заучиванию слов, а к сознательному запоминанию в контексте. Нужно научить студентов запоминать слова так, чтобы была связь между

зрительным восприятием и словесным выражением. По-другому-рефлексивным способом: понимать речь непосредственно (как на родном языке), автоматически возникновение образа в воображении.

Некоторые методисты считают, что при изучении лексики надо разграничивать типы слов с учетом межъязыкового сходства. Они считают, что есть слова, которые сходны со словами родного языка по значению и форме. Но есть слова, которые сходны по значению, но различны по форме. Поэтому можно выделить:1) слова и словосочетания, которые по структуре сходны в обоих языках;2) слова и словосочетания сходные по форме и содержанию изучаемого языка;3) заимствованные слова совпадают значением и в родном, и в русском языке;4) сложные и производные слова, значения которых знакомы студентам;

5) слова общего с родным языком корня.

Мы считаем, что важным способом закрепления слов в памяти – это использование антонимов и синонимов. Студенты могут инсценировать диалоги с включением выученных слов, дать свое объяснение терминов, заполнить пропуски подходящими по смыслу словами, решить кроссворды, ребусы и т.п. Также большое значение имеет в работе с лексическими единицами, система коммуникативных упражнений, дискуссий на профессиональные темы, ролевые игры, викторины, конкурсы. Одним из методов совершенствования лексических навыков является повторение. Известно, что повторение способствует лучшему запоминанию. Необходимо хотя бы 4 повторения: сразу после запоминания, потом через 30 минут, через день, через 2 недели. Для лучшего запоминания используются следующие методы: ассоциативный, метод сочетаемости, метод расположения. Многообразные и многочисленные ассоциации прочно закрепляются в памяти. Метод сочетаемости – это объединение новых слов в один текст. Метод места – это зрительная ассоциация. Нужно представить предмет, который следует запомнить и объединить его образ с образом места. Как было отмечено выше, за этапом введения лексических единиц следует этап закрепления, затем этап практики в общении. Поэтому в методике изучения лексики принято использовать следующую систему упражнений: подготовительные упражнения и коммуникативные. Подготовительные упражнения предназначены для формирования лексических навыков. А речевые упражнения предназначены для формирования коммуникативных умений.

Использование технических терминов – это основной аспект, усложняющий работу с лексическими единицами в неязыковом вузе. Сегодня молодой инженер не может преуспеть в своей профессиональной деятельности, если не владеет достаточно терминологической лексикой, терминологическими знаниями. Каждый специалист инженерного профиля должен уметь вести беседу с использованием специальных технических терминов. Многие

работодатели обращают внимание на использование умения и навыков при составлении и переводе технических документаций и технического обслуживания различных устройств. Обучение терминологической лексики связано с серьезными трудностями. А именно, отсутствуют современные учебные и терминологические словари для каждой отрасли технических дисциплин, а также методические разработки терминологической лексики.

Для выпускников технических вузов возникает проблема активного общения на русском языке. Поэтому в период обучения в техническом вузе возникает ряд факторов, стимулирующих изучение русского языка. Это – необходимость использования научно-технической литературы на русском языке и перевод иностранный литературы на русский, участие в различных студенческих конференциях и участие в производственной практике и т.д.

В методической литературе неоднократно отмечалось, что обучение устной речи не следует отрывать от обучения письменной речи.

В национальной аудитории возникает сложное соотношение между устной и письменной формами изучаемого языка. Недостаточное развитие произносительных навыков не только отрицательно сказывается на их речевой деятельности, но порождает ошибки и в письменной речи.

Развитие навыков письменной речи ведется параллельно с работой над устной речью, так как устная и письменная формы речи тесно взаимосвязаны, имеют много общего, постоянно проникают друг в друга. Вместе с тем при решении практических учебных задач (отбор материала, определение видов работ с ним и т.д.) наряду с общими моментами, характерными для устной и письменной речи, следует учитывать и конкретные различия между двумя формами речи как в психологическом, так и в лингвометодическом планах.

В современной научно-методической литературе русский язык, как учебный предмет, должен быть профессионально значимым для студентов неязыкового вуза. Появились и некоторые требования в преподавании русского языка в неязыковых вузах.

Основная цель вузовского курса русского языка – обучить неродному языку как средству общения. При этом должна учитываться специфика неродного языка как учебного предмета, то есть надо обучать русскому языку студента-азербайджанца или иностранца так, чтобы была обеспечена речевая деятельность на этом языке. И поэтому для большинства студентов сейчас русский язык является одновременно и целью, и средством общения. Изучение русского языка имеет приоритетное значение с некоторыми трудностями. Поэтому важную роль в этом играет изучение лексической системы русского языка. Известно, что без лексики невозможно выучить язык и построить высказывания. Ведь, лексика – это не только новые слова, но грамматические, синтаксические, семантические связи между словами. Именно, в результате общения происходит знакомство с новыми словами в различных ситуациях.

Владеть языком - это деятельность, требующая развития автоматизированных навыков, творческих речевых умений. Лексические, грамматические и фонетические знания - это основные навыки этой деятельности. Овладение этими основными навыками - это постоянная тренировка с приобретенными знаниями на уроке совместно с товарищами и под руководством преподавателя, а также дальнейшее использование этих умений в речевом общении. Таким образом, проблема формирования лексических умений и навыков является важной проблемой обучения иностранному языку.

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Акишина А.А., Каган О.Е. «Учимся говорить». Для преподавателей русского языка как иностранного», М: Русский язык, 2004, 256 с.
2. Амирова А.М. «Обогащение лексического запаса азербайджаноязычных студентов на занятиях русского языка». Методическое пособие, Баку, 2018, 62 с.
3. Бедалов Ч.А. «Перевод – эффективное средство обучения русскому языку как иностранному в условиях контактирования неблизкородственных языков. // Современные проблемы лингвистики. Баку, 2005, с.160-162.
4. Бим И.Л. «Обучение иностранным языкам. Поиск новых путей // Иностранный язык в школе, М., 1989, №1, с.12-26.
5. Вишнякова Т.А. «Обучение русскому языку студентов-нефилологов», М. Русский язык, 1980, 151 с.
6. Щеголева Г.С. «Система обучения связной письменной речи», Санкт-Петербург, 2014, 270 с.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kolesnikova Larisa Vladimirovnsa tərəfindən çapa tövsiyə olunmuşdur.

SEYİDOVA SƏBİNƏ ƏMİR QIZI
Azərbaycan Dillər Universiteti,
nane.alili@ mail.ru

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ FRAZEOLOGİYANIN TƏDQİQ TARİXİNƏ BİR NƏZƏR

Xülasə

Verilmiş məqalədə əsas məqsəd Azərbaycan dilçiliyində frazeologiyanın dilçilik şöbəsi olaraq ayrılması, təşəkkül tapması, tədqiqi tarixi, tədqiqatçları, tədqiqatçıların bu və ya digər məsələyə olan münasibətlərini, tədqiqat istiqamətlərini və s. araşdırmaqdır. Frazeologiyanın tarixini araşdırarkən onu XX əsrlə məhdudlaşdırmaq doğru olmaz.

Çünkü frazeologiyanın təşəkkülünün ilk rüşeymlərini nəinki elmi leksikologiyada, ondan da qat-qat əvvəl leksikoqrafiyada olduğunun şahidi oluruq. Ümumilikdə atalar sözləri və zərbi-məsəllər, bir sıra rəvayətlər hər bir xalqın keçmişindən süzülüb bugünümüzə gəlib çatdığını bildiyimiz halda, frazeoloji fondun, eyni zamanda elmi frazeologiyanın əsasının nə qədər qədim olduğunu təsəvvür edə bilmərik.

Dilçilik inkişaf etdikcə, təbii olaraq frazeologiya da özünün təşəkkül dövrünü keçirmiş və şöbə olaraq ayrılmışdır.XX əsrin 2-ci yarısında elmi frazeologiya diqqəti daha çox cəlb etmiş və daha dərindən tədqiqata cəlb edilmişdir. Azərbaycan dilçiliyində də bu meylin eyni tendensiya ilə getdiyinin şahidi oluruq. Azərbaycan dilçiyində elmi frazeologiyanın tədqiqatı M.Hüseynzadənin adı ilə bağlıdır.Ə.Dəmirçizadənin də bu sahədə xidmətləri böyükdür.H.Bayramov isə ilk dəfə olaraq Azərbaycanda frazeologiya sahəsində ilk kompleks və sistemli tədqiqat aparmışdır.

Açar sözlər: frazeologiya, frazeoloji vahid, tədqiq tarixi, idiom, idiomatik ifadə,idiomatik cümlə

Giriş

Frazeologiya dilçiliyin şöbəsi olaraq yeni – XX əsrin ikinci yarısında təşəkkül tapmışdır. Azərbaycan dilçiliyində də frazeologiyanın dilçilik şöbəsi kimi öyrənilməsi keçən əsrin ikinci rübünə təsadüf edir. Frazeologiya sahəsinə aid bir sıra elmi tədqiqat işlərinin aparılmasına, dərsliklərin çap olunmasına, məqalələrin yazılmasına baxmayaraq Azərbaycan dilçiliyində frazeologiyanın tədqiq tarixi kompleks və sistemli şəkildə tam öyrənilməmiş, bir sıra frazeoloji məsələlər və nüanslar mübahisəli qalmışdır.Frazeologiyaya dilçilikdə ümumilikdə iki cür yanaşma mövcuddur. Hansısa dilin frazeologiyası (frazeoloji fondu) və elm şöbəsi olaraq frazeologiya. Bu gün təqdim etdiyimiz məqalədə biz hər iki anlamda frazeologiyanın tədqiqat tarixinə nəzər salacağıq.

Azərbaycan dilçiliyində frazeologiyanın tədqiq tarixi

Frazeologiya tədqiqatçıların diqqətini XVIII əsrdə cəlb etsə də, onun öyrənilməsi XX əsrdən başlayaraq ardıcıl hal almışdır. Frazeologiya ilk dövrdə leksikoqrafiyanın obyekti kimi diqqəti cəlb etmişdir. Bu tipli işlər təsviri səciyyə daşımış, frazeoloji vahidlərin toplanıb lüğətə salınması, onların mənalarının izahının verilməsinə həsr olunmuşdur.

Frazeoloji vahidlərin bu və ya başqa dilin hansı tarixi dövründə yaranmağa başladığını, ilk frazeoloji vahidlərin hansılar olduğunu təyin etmək mümkün deyildir. Bu barədə fikir və mülahizələr yazılı abidələr əsasında aparılır. Ona görə də türk dillərinin frazeoloji vahidləri Orxon-Yenisey abidələrindən başlayaraq üzü bəri ardıcıllıqla şərti olaraq sıralandırıla bilər. Qədim yazılı abidələr qohum dillər üçün ortaq mənbələr rolunu oynayır. Bu baxımdan Azərbaycan dilinin frazeoloji sistemində ümumtürk layını ayırmaq lazımdır. Frazeologiyanın tədqiqatı keçmiş SSRİ-nin tərkibində yaşamış türk xalqlarının elmi irsində rus dilçiliyindəki araşdırmalara paralel, yaxud onların ardınca getmişdir. Bunu nəzərə alsaq, türkologiyada frazeologizmlərin tədqiqat tarixinin XX əsrin 20-30-cu illərindən sonra başlandığını qeyd edə bilərik. Q.Mahmudova XX əsrin 40-cı illərinə qədər yazılmış işlərə aid iki əsəri – İ.K.Vulfius və S.İ.Abakumovun məqalələrini nümunə gətirmişdir [8, s.35]. Şübhəsiz ki, rus dilçiliyində frazeologiyaya aid daha əvvəllər yazılmış işlər olmuşdur və yuxarıda qeyd olunan məqalələrdə məsələyə müəyyən dərəcədə sistemli şəkildə yanaşma da bunu təsdiq edir. Onu da unutmaq olmaz ki, frazeologizmləri dilin leksik sisteminin ayrıca vahidləri kimi tədqiq olunmazdan əvvəl leksikologiyada bu cür vahidlərin mövcudluğu, onları leksemlərdən ayıran xüsusiyyətlərdən söhbət açılmışdır. Yəni frazeologiya özünün tədqiqat tarixini leksikologiyanın daxilində formalaşdırmışdır. Azərbaycan dilçilik tarixinin tanınmış tədqiqatçısı A.Babayev yazır: "Əgər V.V.Vinoqradov frazeologiyaya aid ilk əsərini 1946-cı ildə yazmışdırsa, ondan 17 il əvvəl Azərbaycanda B.Çobanzadə və F.Ağazadə birlikdə yazdıqları "Türk qrameri" dərsliyinin leksikologiya bəhsində semasiologiya və stilistikadan danışmış, "göz yummaq", "başa düşmək", "başa salmaq", "baş vurmaq", "gözüm səndən su içmir" kimi frazeoloji birləşmələrdən bəhs etmişlər" [2, s.27]. Əgər tədqiqatçının qeyd etdiyi rəqəmlərə əsaslansaq, ondan frazeoloji birləşmələri leksik sistemin ayrıca vahidləri saymaq ideyasının Azərbaycan dilçiliyində ötən əsrin 20-ci illərində mövcudluğunu söyləyə bilərik. Dilin bu və ya digər vahidlərinin, element və ünsürlərinin müəyyən sistem təşkil etməsi üçün ilk növbədə onların təsadüfi deyil, müntəzəm qeydə alınan toplunun, ayrıca qatın elementləri olduğunu dəqiqləşdirmək lazım gərəkir. Bu baxımdan da frazeologizmlərin sistem münasibətlərindən danışmaqdan ötrü onları əvvəlcə toplamaq lazım idi. Müəyyən vahidləri toplamaq özü ilkin araşdırma nümunəsidir.Dilin hər hansısa vahidini toplamaq onun differensasiya edən xüsusiyyətindən asılıdır. Atalar sözlərini, deyimləri toplamaq, növlərə ayırmaq, vahid olaraq qəbullanması qeyri-predikativ birləşmə formalı frazeoloji vahidlərlə müqayisədə daha əvvəldir. Yəni atalar sözləri və məsəllərin

tədqiqinin də müasir frazeologiya çərçivəsində aparıldığını nəzərə alsaq, bu sahənin tarixini mütləq XX əsrin ikinci yarısına bağlaya bilmərik. Şübhəsiz ki, dilçilikdə "frazeologiya" anlayışı, frazeologiyanın elmi istiqamət olaraq leksikologiyadan ayrılma tarixi XX əsrin birinci yarısına aid linqvistik elmi hadisə olmuşdur. Atalar sözlərinin toplanıb qeydə alınma tarixi isə türkologiya üçün M.Kaşğarinin lüğətinin yazılma dövrünə, yəni XI əsrə gedib çıxır.

Ümumiyyətlə, frazeologiyaya dair tədqiqatlar aparmış Azərbaycan dilçilərinin frazeologiyanın tarixinə münasibətində fərqli fikirlər qeydə alınır. A.Qurbanovun "frazeoloji vahidlərin birinci müşahidəçiləri leksikoqraflar olmuşlar" fikri yuxarıdakı türkologiyada bu işin XI əsrdən başlanması müddəasını təsdiq edir. Bununla yanaşı, A.Qurbanov Rusiyada frazeoloji tədqiqatların XIX əsrin ikinci yarısında meydana gəlməsi haqqında V.N.Teliyanın fikrini qəbul edir, Ş.Ballinin XX əsrin əvvəlində (1909) frazeologiyaya dair geniş araşdırma apardığını söyləyir, sovet dilçiliyində frazeologiya barədə ilk dəfə Y.D.Polivanovun söhbət açdığını vurğulayır, nəhayət, ötən əsrin 40-cı illərinin sonunda V.V.Vinoqradovun frazeologiyanın leksikologiyadan tam ayrılmasında böyük xidməti olduğunu yazmışdır. Müəllif Azərbaycan dilində frazeoloji sistemin tədqiqat obyektinə çevrilməsindən bəhs edərkən özünün 1963-cü ildə çap olunmuş əsərinə istinad etmişdir [7, s.220-222].

K.Y.Əliyev Azərbaycan sovet dilçiliyində frazeologiyanın tədqiqinə aid məqaləsində 1950-ci ilə qədər bu sahəyə aid heç bir əsərin olmadığını, ilk işin 1954-cü ildə M.Hüseynzadənin "Müasir Azərbaycan dili" kitabında işıq üzü gördüyünü yazmışdır [5, s.166]. Aydındır ki, K.Əliyevin məqaləsi sovet dövrünə həsr edilmişdir və bu yazıda müəllif ümumiyyətlə, frazeologiyanın əvvəlki tarixinə toxunmur.

M.Adilov və G.Yusifovun həmmüəllif kimi qələmə aldıqları kitabda frazeologiyanın tədqiq tarixindən bəhs edilmir. Bu əsərdə frazeologizmlərin növlər üzrə tədqiq olunduğunu və yalnız atalar sözləri bölməsində rus dilçiliyində bu növün tədqiqinin əsasən XIX əsrdən başlanması qeyd olunmuşdur.Yalnız zərbi-məsəllər bölümündə Azərbaycan atalar sözləri və zərbi-məsəllərinin dilinin ilk tədqiqatın S.Cəfərovun adı ilə bağlamışlar [1, s.34,46].

H.Bayramov da tədqiqatlarında Azərbaycan dili frazeologiyasının təşəkkülü məsələsinə toxunmuşdur. Dildə ilk frazeoloji vahidlərin yaranmasının onun hansı inkişaf dövrünə aidliyini dəqiq təyin etmək mümkün olmasa da bu istiqamətdə tədqiqat əldə olan dil materialları əsasında xronoloji ardıcıllıqla aparılır. Təbii ki, ən qədim yazılı abidələr də belə tədqiqatdan kənarda qalmamalıdır. H.Bayramov frazeoloji vahidlərin nə vaxtdan və hansı mənbələrdə işlənmə məsələsini Orxon-Yenisey abidələrindəki işlənən frazeoloji vahidlərlə əlaqələndirir. Müəllif bu abidələrdə işlədilmiş bir neçə frazeoloji vahidi qeyd etmiş, ondan sonra XI əsr abidəsi «Divanü-lüğət-it-türk» əsərində qeydə alınan və müasir Azərbaycan dilində eyni mənalı frazeologizmlərlə səsləşən frazeologizmlərə dair nümunələr vermiş və beləliklə, Azərbaycan dilində frazeoloji vahidlərin təşəkkülünün XI-XIII əsərlərə gedib çıxdığını göstərmişdir.

M.Hüseynzadə Azərbaycan dilçiliyində elmi frazeologiyanın banisi kimi

Yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan dilində frazeologiyanın elm kimi təşəkkül tapmasında ilk araşdırma M. Hüseynzadəyə xasdır. M.Hüseynzadə 1954-cü ildə yazdığı ali məktəb dərsliyində leksika hissəsini "Məfhum və söz", ""Müasir Azərbaycan dili leksikonun tərkibi" və "Frazeologiya" bölmələrinə ayırmışdır. Material "Ümumi məlumat", "İdiomatik ifadələr" və " Dilimizdəki idiomatik ifadələrin mənbələri" başlıqları altında toplanmışdır. Müəllif ümumi məlumatda qeyd edir ki, "dilimizin öz tarixi inkişafı ilə bağlı olaraq bir çox atalar sözü, məsəllər, həkimanə sözlər, idiomatik ifadələr və başqa frazeoloji birləşmələr yaranmışdır"[6, s.32]. Aydın olur ki, M.Hüseynzadə frazeologiyanın vahidləri kimi, atalar sözü, məsəllər, həkimanə sözlər, idiomatik ifadələr və başqa frazeoloji birləşmələri ayırır. Müəllif frazeoloji birləşmələrin müəyyən qisminin dilin daxili qanunları ilə inkişaf edərək, mürəkkəb söz şəklinə düşməsi fikrini irəli sürmüş, nümunə olaraq dargöz, acgöz, qaraqabaq, əliaçıq, şirindil, dilbilməz, ələ salmaq, əliəyri, diribaş, boşboğaz, qocafəndi, əl-ayaq (açmaq), əl-qol (açmaq), ələstü, ələltı, ayaqdan salmaq, göz tikmək vahidlərini qeyd etmiş, bu sıranı "və s." ilə tamamlamışdır. Belə məlum olur ki, verilən sözləri müəllif mürəkkəb sözlər hesab etmişdir.

M.Hüseynzadə frazeoloji birləşmələrin "sabit birləşmələr" və "leksik birləşmələr olduğunu qeyd etmişdir. O, "Ümumi məlumat" paraqrafını " Frazeoloji birləşmələrin böyük bir qismini idiomlar təşkil edir" cümləsi ilə tamamlamışdır. Sonrakı başlığın "İdiomatik ifadələr" olduğunu və əvvəlki paraqrafda "idiomlar" sözünün işlədilməsini nəzərə alsaq, "idiom" və "idiomatik ifadə" terminlərinin eyni anlayışı ifadə etməsi qənaətinə gələ bilərik. M.Hüseynzadə yazmışdır: "İdiomatik ifadələr frazeoloji birləşmələrin başqa növlərindən aşağıdakı xüsusiyyətlərlə fərqlənir:

1. İdiomlar hər dilin öz xüsusiyyətlərini əks etdirir.
2. İdiomların çoxu bir dildən başqa bir dilə eyni ilə tərcümə edilə bilmir.
3. İdiomları təşkil edən sözlərin hamısı bir məna ifadə edir" [6,32-33].

M.Hüseynzadə idiomatik ifadələrə belə tərif vermişdir: "Hər bir dilin öz xüsusiyyətini bildirən, eyni ilə başqa dilə tərcümə edilməyən və quruluşca bir neçə sözdən ibarət olub bir məna ifadə edən frazeoloji birləşməyə idiomatik ifadə deyilir" [6, s.33].

Frazeoloji vahidlərin təşkilində iştirak edən komponentlər arasında semantik əlaqə və bağlılıq frazeologiyadan bəhs edən bütün alimlərin işlərində ortaya çıxarılır. Bu baxımdam M.Hüseynzadənin frazeologiya haqqında yazdıqları da istisna təşkil etmir. Professor idiomatik ifadələr təşkil edən sözlərin bağlılığını iki qismə ayırır. Birinci qisimdə sözlər bir-biri ilə o dərəcədə möhkəm bağlı olur ki, həmin sözlərin heç birini başqa sözlə əvəz etmək mümkün olmur (nazik əyirmək, əli aşağı düşmək, göz qoymaq, göz dəymək, əl-ayağa düşmək, qapı dalına düşmək və s.). İkinci qisimdə sözlərdən birini sinonimlə əvəz etmək mümkündür. Məsələn, əldən düşmək – dildən düşmək, yoldan azmaq – yoldan çıxmaq, söz almaq – söz qoparmaq – söz

çəkmək, göz qoymaq – göz yetirmək. Qeyd etmək lazımdır ki, verilmiş nümunələrin bəzilərində əvəz etmənin sinonimlik prinsipi üzrə getməsi şərti pozulur: dildən - əldən; azmaq – çıxmaq. Bu nümunələrdə əslində idiomatik ifadələrin sinonimliyi özünü qabarıq göstərir.

Ə.Dəmirçizadənin elmi frazeologiyanın təşəkkülündə rolu

Azərbaycan dilçiliyinin əsaslarını qoymuş alimlərimizdən biri olmuş Ə.Dəmiçizadənin "Azərbaycan dilinin üslubiyyatı" Azərbaycan diliçiliyində üslubiyyata həsr olunmuş ilk geniş, əhatəli tədqiqat işidir. Monoqrafiyanın "Üslubi leksika" fəslinin sonuncu paraqrafı "İdiomlar yaxud idiomatik vahidlər" adlandırılmışdır. 11 səhifədən ibarət olan bu paraqraf idiom və ya idiomatik vahidlərin tərifindən başlanır: "Əsl lüğəvi və qrammatik mənasını ya tamam, ya qismən itirərək məcaziləşmiş bir məfhumu bildirən sabit söz birləşmələri, bəzən də ayrı-ayrı kəlmələr ümumiləşmiş halda idiomlar yaxud idiomatik vahidlər adlanır" [4 ,s.170].

İdiomlar quruluşca üç qrupa bölünür: 1) idiomatik sözlər; 2) idiomatik ifadələr; 3) idiomatik cümlələr.

Ə.Dəmirçizadə qeyd edir ki, idiomatik cümlələrin əsas hissəsi idiomatik ifadələr qrupuna salınır. O yazır: " Ümumiyyətlə son hissəsi feillərdən olan cümlə əsilli idiomlar məsdər şəklinə salınaraq idiomatik ifadələr qrupuna daxil edilir (qulaq ardına vurmaq, ağzından süd iyi gəlmək və s.). Lakin elə idiomlar da var ki, bunları quruluşca ancaq cümlə kimi tanımaq lazımdır. Belə idiomatik cümlələrdən bəzisinin birinci hissəsi ya müstəqil xəbərlə, ya feili bağlama ilə, bəzən də feili sifətlə, feili isimlə ikinci hissəyə bağlanır. İkinci hissə isə ya feildən, ya da başqa nitq hissəsindən düzələn xəbər olur. Belə idiomlarda feillə bitən ikinci hissəni məsdər şəklinə salmaq mümkün olsa da bunlar ümumilikdə idiomatik ifadələrdən quruluşca fərqlənir və cümlə mahiyyəti daşıyır; mə.: ağır otur, batman gəl; bir qulağından alır, o birindən salır; yüz ölçüb bir biç və bu k." [4, s.172].

İdiomların qrammatik xüsusiyyətləri dedikdə, başlıca olaraq, iki əlamətdar cəhət nəzərdə tutulur: 1) nitq hissələrinə mənsubiyyət; 2) sintaktik vahidlərə mənsubiyyət. Birinci qrup iki cəhətə görə fərqləndirilir: 1) idiomatik sözlərin və idiomatik ifadələrin bütövlükdə vahid halında hansı nitq hissəsinə mənsub olması: 2) idiomatik ifadələri təşkil edən sözlərin hansı nitq hissəsinə mənsub olması.

Bu nöqteyi-nəzərdən feili, ismi, sifəti, zərfi, nidayi idiomlar fərqləndirilmişdir.

Ə.Dəmirçizadə cümlə idiomları da iki sinfə bölmüşdür: 1) hökmi-cümlə idiomlar; 2) nidayi-cümlə idiomlar [4 ,s. 176].

Ə. Dəmirçizadənin idiomlarla bağlı araşdırması idiomların mənbələri və üslubi imkanları haqqında qısa məlumatla bitir.

H.Bayramov Azərbaycan dilçiyində elmi frazeologiyanın kompleks tədqiqatının ilkin nümayəndəsi kimi

Azərbaycan dili frazeologiyasının tədqiqi tarixində xüsusi xidmətləri olan H.Bayramovun bu sahədəki ilk araşdırmaları 1961-ci ilə təsadüf edir.

H.Bayramovun dərsliyi onun doktorluq dissertasiyası əsasında hazırlanmışdır. Kitabda verilmiş ədəbiyyat siyahısında göstərilən mənbələrin nəşr tarixləri də bu faktı təsdiq edir. Dərsliyin istifadə edilmiş hissəsində Ə.Abdullayevin 1972-ci ildə eyni kitabda çap olunmuş 2 işi, 1974-cü ildə nəşr olunmuş kitabı, S.Cəfərovun 1970-ci ildə, M.Hüseynzadənin 1973-cü ildə çap olunmuş kitabları istisna olmaqla, göstərilən digər mənbələr 1969-cu ilə qədər olan əsərlərdir [3, s.168-174].

H.Bayramov Azərbaycan dilinin frazeologiyasını aşağıdakı üç istiqamət üzrə tədqiq etmişdir:

1.Azərbaycan dili frazeologiyasının ümumi məsələləri.

2.Azərbaycan dili frazeologiyasının quruluşu.

3.Azərbaycan dili frazeologiyanın məna quruluşu [3, s.174-175].

H.Bayramov frazeologiyanı dilçiliyin frazeoloji sistemini öyrənən müstəqil sahəsi hesab etmiş, onu "ümumi frazeologiya" və "xüsusi frazeologiya" olmaqla iki hissəyə ayırmışdır. Onun fikrinə görə, "ümumi frazeologiyada bir sıra inkişaf etmiş dillərin frazeoloji materiallarının tədqiqindən alınan nəticələr ümumiləşdirilir, bunun əsasında frazeologiyanın ümumi problem məsələləri müəyyənləşdirilir. Xüsusi frazeologiyada isə konkret dilin faktları əsasında həmin dilin frazeoloji sistemi semantik - struktur və s. cəhətdən təsvir edilir" [3,s.4]

H.Bayramov tədqiqat işində V.V.Vinoqradova istinadla «bağlı məna» anlayışını ortaya atmış, "sözlərin bağlı mənada birləşərək" söz birləşmələri yaratdığını qeyd etmiş, "sözlərin mənaları məsələsini düzgün həll etmək üçün onların söz birləşmələri daxilindəki başqa sözlərlə qarşılıqlı əlaqəsinin səciyyəsini öyrənməyin və bunları fərqləndirici əlamətlərə görə qruplaşdırmağın lazımlığı" fərziyyəsini irəli sürmüş, "çəkmək" sözünün mənaları əsasında söz birləşmələrinin tiplərini müəyyənləşdirməyə çalışmışdır [3, s.19-21].

Sərbəst və sabit söz birləşmələrinin arasındakı oxşar və fərqli xüsusiyyətləri də açmağa çalışmış və o haqda fikirlər söyləmişdir. Onun rəyinə əsasən eyni sözlərin iştirakı ilə həm sərbəst, həm də sabit söz birləşmələri yaranır. H.Bayramov bu cür nümunələrə («burnunun ucu göynəmək», «gözünü yumub ağzını açmaq») istinadla yazır: "Haqqında bəhs etdiyimiz söz birləşmələri sözlərin sadəcə olaraq nominativ mənalarında işlədilməklə düzələn sərbəst söz birləşmələri deyil, onların hər birinin bütöv halda məcazi mənada işlədilməsi xüsusiyyətinə malikdir, buna görə də həmin birləşmələr frazeoloji vahid olduqlarına görə ya bir cümləyə (birinci misalda), ya da cümlənin bir üzvü - xəbər qrupu (ikinci misalda) vəzifəsində olan sərbəst söz birləşməsinə ekvivalentdir. Bunu nəzərə alaraq, sərbəst söz birləşməsinin məcaziləşdirilməsi yolu ilə frazeoloji mənada işlədilməsini şərtləndirən belə mətnə *geniş mətn* adını vermək olar. Sərbəst söz birləşməsinin məcazi məna kəsb etməsi

üçün həmin söz birləşməsinə bu və ya digər sintaktik quruluşda bir neçə sözün də birləşməsi ilə müvafiq şərait yaradılmışdır. Əgər belə şərait, yəni əlavə sözlər əhatəsi olmasaydı, həmin birləşmə frazeoloji vahid mənası kəsb etməzdi" [3, s.26].

Müəyyən söz birləşməsinin sərbəst söz birləşməsi və ya frazeoloji vahid kimi işlənməsini mətn daxilində təyin etmək mümkündür. Bu, yalnız eyni sözlərin sərbəst və sabit söz birləşməsi yaratmağa qabil olduğu halları əhatə etdikdə mətnin, yaxud kontekstin semantikanı aydınlaşdırma funksiyasını qabartmaq, bu funksiyanı ümumiləşdirmək mahiyyəti daşıdıqda mübahisə doğurur. Dildə göz, ağız, açmaq, yummaq sözləri vardır. Nitq prosesində bu sözlər gözünü yummaq, ağzını açmaq sərbəst söz birləşmələri yarada bilər. H.Bayramovun "uşağın ağzına dərman tökərkən: Gözünü yum, ağzını aç cümləsini işlədirik" [3, s.26]. Müəllif qeyd olunan sözlərin sərbəst söz birləşməsi yaratdığını nəzərə çatdırmaq üçün konkret situasiyanı xatırladır.

SEYIDOVA SABINA AMIR

AN OVERVIEW OF THE RESEARCH HISTORY OF PHRASEOLOGY IN AZERBAIJANI LINGUISTICS

SUMMARY

The main goal of this article is to investigate the separation of phraseology as a linguistic department in Azerbaijani linguistics, its formation, the history of its research, researchers, researchers' attitudes towards this or that issue, research directions, etc. When examining the history of phraseology, it is not correct to limit it to the 20th century. Because we are witnessing that the first embryos of the formation of phraseology are not only in scientific lexicology, but much earlier in lexicography. In general, proverbs, a number of legends have filtered down from the past of each nation and reached our days, but we cannot imagine how ancient the basis of the phraseological fund, at the same time, phraseology. As linguistics developed, naturally, phraseology also passed its formative period and was divided into departments. In the second half of the 20th century, scientific phraseology attracted more attention and was involved in deeper research. In Azerbaijani linguistics, we are also witnessing that this trend follows the same trend. Scientific phraseology is associated with the name of M. Huseynzadeh in Azerbaijan .A. Demirchizade also has a lot of services in the field of phraseology. But H. Bayramov conducted an initial complex and sistematic research in the field of phraseology in Azerbaijani linguistic.

Ключевые слова: фразеология, фразеологическая единица, история исследования,фразеологизм, идиоматическое выражение, идиоматическое предложение.

СЕИДОВА САБИНА АМИР

ОБЗОР ИСТОРИИ ИЗУЧЕНИЯ ФРАЗЕОЛОГИИ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКОЗНАНИИ

РЕЗЮМЕ

Основная цель данной статьи – исследовать фразеологии как лингвистического отдела в азербайджанском языкознании, ее становление, историю ее изучения, исследователей, отношение исследователей к тому или иному вопросу, направления исследований и т. д. При рассмотрении истории фразеологии, не корректно ограничивать ее XX веком. Потому что мы являемся свидетелями того, что первые зародыши формирования фразеологии находятся не только в научной лексикологии, но гораздо раньше в лексикографии. Вообще пословицы, ряд легенд просочились из прошлого каждого народа и дошли до наших дней , но основу фразеологического фонда, в то же время, мы не можем себе представить, насколько древняя фразеология. По мере развития языкознания, естественно, фразеология также прошла период своего становления и разделилась на отделы. Во второй половине 20 века научная фразеология привлекала больше внимания и привлекала к себе более глубокие исследования. В азербайджанском языкознании мы также наблюдаем, что эта тенденция следует той же тенденции. С именем М.Гусейнзаде в Азербайджане связана научная фразеология. У Демирчизаде также много услуг в области фразеологии. Но Х.Байрамов провел первоначальное комплексное и систематическое исследование в области фразеологии в азербайджанском языкознании.

Key words: phraseology, phraseological unit, research history, idiom, idiomatic expression, idiomatic sentence

Ədəbiyyat siyahısı

1. Adilov ,M. İ. Sabit söz birləşmələri / M.İ.Adilov, G.Yusifov – Bakı :Elm, – 2019. – 159 s.
2. Babayev, A. M. Azərbaycan dilçiliyinin tarixi / A. M.Babayev.– Bakı: ADU nəşriyyatı, –1996, –270 s.
3. Bayramov, H.A. Azərbaycan dili frazeologiyasının əsasları / H. A.Bayramov. – Bakı: Maarif, – 1978. – 175 s.
4. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin üslubiyyatı / Ə.M. Dəmirçizadə. –Bakı: Azərtədrisnəşr, – 1962. –271 s.
5. Əliyev, K.Y. Azərbaycan sovet dilçiliyində frazeologiyanın tədqiqi / Oktyabr inqilabı və Azərbaycan dilçiliyi məsələləri.(məqalələr məcmuəsi)/ K.Y.Əliyev, tərt.ed.,M.Ş.Şirəliyev. – Bakı:Azərbaycan, SSR EA nəşriyyatı, – 1969. – 204 s.
6. Hüseynzadə, M. H. Müasir Azərbaycan dili/ M.H. Hüseynzadə. –Bakı: ADU nəşri, – 1954. – 243 s.

7. Qurbanov, A. M. Ümumi dilçilik / A.M. Qurbanov. –Bakı: Maarif, – 1989. –568 s.
8. Mahmudova, Q.Ç. Qıpçaq qrupu türk dillərinin frazeologiyası / Q.Ç. Mahmudova. – Bakı: Nurlan,– 2009. – 296 s. Qurbanov, A. M. Ümumi dilçilik / A.M. Qurbanov. –Bakı: Maarif, – 1989.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: prof. A.M. Babayev
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL ƏLƏKBƏROVA,
ADU
Rəşid Behbudov küç., 80
gunel_rahimova@mail.ru

"VARLIQ" JURNALINDA ANA DİLİ VƏ ONUN ƏHƏMİYYƏTİ, İKİNCİ DİL ÖYRƏNMƏ MƏSƏLƏSİ

Xülasə

İlk sayı 1979-cu ilin aprel ayında çıxan"Varlıq" jurnalı Cənubi Azərbaycanın türkdilli mətbuatının başlanğıcını qoymuşdur. Jurnalın dili əsasən Azərbaycan, bir qismi isə farscadır. Prof. Cavad Heyətin məqalələri daha çox ortaq türkcə ilə, yəni həm Azərbaycan, həm də Türkiyə oxucularının başa düşə biləcəyi bir dildə yazılmışdır. "Varlıq" jurnalından öncə Güney Azərbaycanda bəzi türkcə qəzetlərə və dərgilərə rast gəlmək olar. Ancaq onların nəşri davamlı olmadığı üçün azərbaycanlıların milli şüuruna təsir göstərə bilməmiş, qısa bir müddət sonra bağlanmaq məcburiyyətində qalmışdır.

Bu məqalədə Cavad Heyətin "Varlıq" Jurnalında dərc etdirdiyi bəzi məqalələrin mövzusuna toxunulur. Bunlar "ana dilinin üstünlüyü" və "ikinci dili öyrənmə məsələləridir. Məqalədə Cavad Heyətin özünəməxsus elmi fikirləri yer alır. Söz incimiz "Kitabi Dədə Qorqud" dastanının dilindən bəhs olunur, türk dilinin xüsusiyyətləri təsnif edilir, eyni zamanda ikinci dil öyrənmə prosesində mövcud nəzəriyyələrdən bəhs olunur. Cənubi Azərbaycanda türklərin öz dillərində danışma çətinliklərinin səbəbləri və onun həlli yolları araşdırılır.

Açar sözlər: ana dili, ikinci dil, "Varlıq" jurnalı

Cənubi Azərbaycanda dərc edilən "Varlıq" dərgisini isə əsrin hadisəsi kimi dəyərləndirmək olar. Cavad Heyət ən tutarlı məqalələri ilə məhz bu jurnaldan türk dünyasına və İran ideologiyasına səslənərək milli ideologiyamızı, türkcəni yaşadırdı. Redaksiya heyəti Cavad Heyət, Q.Bəydili, H.Nitqi, T.Pirhaşimi, Ə.K.Mənzuri, Ə.Kəmali, S.Sərdariniya, K.Məcidzadə Savalan kimi görkəmli şəxsiyyətlərdən ibarət olan dərgi yüzlərlə elmi məqaləni özündə əks etdirmişdir. Bunlar : "Azərbaycan türkcəsinə bir baxış" ("Varlıq" 1979, N:1), "Dədə Qorqud kitabı. Ölməz söz xəzinəmizdən incilər" ("Varlıq" 1981, N:9), "Türk dili və ləhcələrinin tarixi" kitabından bir bölmə: Azərbaycan türkcəsinin adı və mövqeyi haqqında (farsca). ("Varlıq", 1982, N:11-12), "Türk dili və ləhcələrinin tarixi" ("Varlıq", 1982, N:9-10), "Mahmud Kaşğarinin "Divani lüğətit-türk"ü ("Varlıq", 1983, N:11-12), "Əski türk kitabələri" ("Varlıq" 1986, N: 3-5), "Azərbaycan türkcəsinin tarixi" ("Varlıq" 1987, N:2), "Füzulinin dili" 2 məqalə ("Varlıq", 1987, N:3-4), "Xələc türkcəsi", "Xorasan türkcəsi", "Sunqur türkcəsi", "Təbriz ləhcəsi" ("Varlıq", 1988-1989),

Generally, various approaches to language learning are being used. Analyzing modern literature on German language teaching methodic, we may emphasize that the use of the communicative methods are recently prevailing. It must also be stated that this method is proved to be more useful in practical usage of the language. The grammar approach as well as the translation method of teaching languages mostly lead to “late” speaking activity of the learners. Practice shows the indispensable role of the tasks and exercises in language learning. The right choice and use of the tasks and exercises are essential. The correct answer of the tasks may be free and various, but the exercise drills the limited language material. The grammar rules mustn’t be taught “ready-made”, the grammar facts must be “discovered” by learners.

Key Words: Grammar material; methods, tasks and exercises, practical application of the language

ПЕРЕДАЧА ГРАММАТИЧЕСКОГО МАТЕРИАЛА ЧЕРЕЗ ЗАДАНИЯ ПО ОБУЧЕНИЮ НЕМЕЦКОМУ ЯЗЫКУ

Резюме

Изучение языков не только входит в круг интересов, а становится конкретной деятельностью. Следует отметить, что изучение любого языка, особенно немецкого, невозможно без грамматики.

В целом, в изучении языка использовались и используются различные методы. Знакомство с современной немецкой методической литературой по методике обучения немецкому языку и ее анализ показывает, что в последние годы преобладают коммуникативные методы. Эти методы закладывают основу для практического применения языка. Когда используется многограмматический метод перевода, это приводит к «позднему открытию» языка со стороны изучающего яхык.

Опыт показывает, что роль упражнений и заданий в изучении языка неоценима. Одним из главных факторов является правильное определение заданий и упражнений и правильное их использование. Правильный результат, полученный заданием, является самостоятельным. Они могут быть в нескольких вариантах. В исследовании отрабатывается ограниченный языковой материал.

Грамматические правила следует давать изучающим язык как можно в готовом варианте. Они должны «открыть» правило.

Ключевые слова: Грамматический материал, методы, упражнения, задания, практическое применение языка

Ədəbiyyat :

1.Monika Reimann - Grundstufen-Grammatik, „Erklärungen und Übungen“ Deutschland, München 2020

2.Buscha “Deutsches Übungsbuch”, Leipzig 1975

3.Duden “ Richtiges und gutes Deutsch” Duden Band 9. Dudenverlag Mannheim-Zürich 2011.

4. Wolfgang Flischer „Wortbildung der deutschen Gegenwartssprache“ Leipzig 1969

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya elmləri doktoru, prof. Zemfira Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

ƏFƏNDIYEVA MEHRIBAN
Azərbaycan Dillər Universiteti.

MƏTN VƏ DİSKURSUN İNFORMATİK XÜSUSİYƏTLƏRİ

XÜLASƏ

Mətn linquvistikasinin yaranma tarixi növləri haqqında məlumat geniş təsvir olunmuşdur. Mətn terminin bir neçə işləm forması təsvir edilmiş mətn daxili əlaqələr çox izahlı yazılmışdır. Məqalənin ikinçi hissəsi diskurs və onun xüsusiyyətləridir. Diskurs və mətn arasındakı fərqi və oxşar cəhədləri gosterilmişdir. Dilçilik elmində Amerika alimi Zelik Həris tərəfindən diskursun təhlili məqalədə geniş yazılmışdır. Dirskurs otən əsrin son ilərindən başlayaraq butun elm sahələrində və informasiya məkanlarında oldugca geniş istifadə olunan məfhum olub fərqli mənalarda işlədilməsi təsvir olunmuşdur.

Sabit və sərbəst söz birləşmələri haqqında oxşar cəhətlər sərbəst söz birləşmələrinin komponentlər arasında tabelilik əlaqəsinin mövcüdluğu haqqında geniş yazılmışdır. Məqalədə Azərbaycan sözlərinin və alınma sözlərin leksika bəhsində mənşəyə görə qrupların öyrədilmısi lügət tərkibindəki sözlərin hansı mənşəyə uyğun olması haqqında məlumat verilmişdir. Antonimlərin sinonimlərin yaxşı mənimsədilməsi şagirdlərin şifahi və yazılı nitqinin dəqiqliyi haqqında yazilmişdir.

Açar sözlər: mətn, dil əlaqələri, diskurs, leksik sistem.

Mətn linqvistikasının əsas vahididir Mətn linqvistikası 20-ci əsrin 70-ci illərində təşəkkül tapmışdır. Son dövrlərdə mətn dilçiliyində aparılan tədqiqatlar bir daha göstərir ki, bu sahə cavan tədqiqat sahəsidir, lakin buna baxmayaraq, o, əslində öz inkişafı ilə linqvistikanın digər sahələrindəki bir çox qaranlıq, problemli məsələlərin həllinə də işığını sala bilir. Müasir mətn linqvistikasının yaranmasında 4 əsas mənbəni qeyd etmək olar: 1) transformasional-törəmə qrammatikası; 2) nəql nəzəriyyəsi; 3) üslubiyyat və 4) psixodilçilik Bir çox obyekt və hadisələr məhz mətn dilçiliyinin əsasında araşdırılır. Qeyd etmək lazımdır ki, V.Dressler "Mətnin linqvistikasına giriş" əsərində isə mətn dilçiliyinin yaranmasının üç əsas sələfini göstərmişdir: 1) ritorika; 2) üslubiyyat; 3) ədəbi əsərlərin quruluşunun struktur təhlili [68]. Belə ki, mətn dilçiliyinin ilk sələfi hesab olunan ritorika elmi qədim Yunanıstanda təşəkkül tapmışdır. Ritorika elmi, tədqiqat sahəsi xeyli geniş olan bir sahədir. O, bədii, hüquqi, siyasi mətnlərin təhlili ilə məhdudlaşmayan mətnin müasir linqvistikası ilə üst-üstə düşmüşdür. Mətn linqvistikasının ikinci tərəfi isə ritorika, qrammatika və filologiyanın əsasında yaranmış olan üslubiyyətdir. Üçüncü tələf isə

bizim əsrdə yaranmış olan bədii əsərlərin, xüsusilə də xalq poeziyasının qurulmasının struktur təhlilidir. Mətn dilçiliyinin daha bir təsnifatı isə onun "istifadədə olan dili" öyrənən elm kimi öyrənilməsidir. Mətn dilçiliyi sahəsində aparılan tədqiqatları isə əsasən iki istiqamətə bölmək olar: 1) Tekstemanın tədqiqi birinci istiqamətdə mətn dilçiliyi mətnin ümumi qanunauyğunluqlarının üzə çıxarılmasını araşdırır. Burada əsasən söhbət bədii, publisistik və ya elmi üslubda olan bu və ya digər dil parçasının müəyyən olunmasından gedir . 2) İkinci istiqamətdə isə mətnin sərhədlərinin təyin olunmasında istifadə olunan prinsiplərin, meyarların və eyni zamanda mətnin modellərinin, növlərinin ayrılması haqqında elmi mübahisələr aparılır. Hər iki tədqiqata bir-birini tamamlayan iki məsələ kimi yanaşmaq lazımdır . Mətn dilçiliyini ümumi dilçiliyin bir hissəsi kimi qəbul edərək mətnlərin tədqiqi sferalarını 3 qrupa bölmək olar: 1) mətnin ümumi linqvistikası; 2) konkret mətnin linqvistikası və 3) məntn tipologiyasının linqvistikası . XX yüzilliyin ortalarından türkologiyada da mətn dilçiliyi deyilən tədqiqat sahəsi aktual məsələyə çevrilir. Türkologiyada, xüsusilə də Azərbaycan və Türkiyə dilçiliklərində bu mövzuda xeyli araşdırmalar olmuşdur. Lakin bu tədqiqat sahəsi bugün də öz aktuallığını saxlayır. Və bu istiqamətdə olan tədqiqatların daha da dərinləşməsinə ehtiyac duyulur. Dərinləşmə anlayışı altında iki istiqamət nəzərdə tutulur: Birinci istiqamət- müasir vəziyyətdə dil faktlarının daha da dərinliklərinə enməyi, daha incəliklərə varmağı nəzərdə tutur; İkinci istiqamət isə, tarixin içinə, dərinliyinə diqqət yetirməyi nəzərdə tutur. Beləliklə, dilçilik elminə mətn linqvistikası predmet sahəsi kimi daxil edildikdən sonra yeni obyektin müəyyənləşdirilməsinin vacibliyi ortaya çıxdı ki, bunu müəyyən etmək elə də asan məsələ hesab edilmirdi. Məhz bu səbəbdəndir ki, bu məsələ mübahisə doğuran problemlərdən biri olaraq hələ də dilçilikdə öz həllini gözləməkdədir. Qeyd edək ki, müstəqil və ayrıca götürülmüş cümlə dilçilik elmində son zamanlara qədər sintaktik səviyyənin son vahidi kimi qəbul olunurdu. Hətta dilçilər, tədqiqatçılar bir neçə predikativ birləşmə ilə qarşılaşanda da, yenə də bir cümlə haqqında bəhs edirdilər. Bununla da, əslində mübahisəli situasiyanın əsası qoyuldu. Bu mübahisəli situasiya isə tabesiz mürəkkəb cümlələrlə bağlı idi. Belə ki, dilçilikdə əslində tabesiz mürəkkəb cümlə kimi ayrılan və öz tərkibinə iki və daha artıq cümlə daxil edən birlik, A.M.Peşkovskinin dediyi kimi, "cümlələr ittifaqı" bir cümlə kimi qələmə verilirdi. Və beləliklə də, sintaksisdə mövcud olan məhz bu cür çatışmazlıqlar, paradoksallar mətn dilçiliyi kimi linqvistik sahənin yaranmasına təkan verdi Qeyd edək ki, ünsiyyətin əsas vahidi hesab edilən cümlə bitmiş fikir ifadə edir, lakin onun ifadə etdiyi fikir tamlığı nisbi xarakter daşıyır. Cümlə məhz mətn mühitində özünün xüsusiyyətlərini tam şəkildə üzə çıxara bilir. Mətni təşkil edən cümlələri başqa adla onun komponentləri də adlandırmaq olar. Mətnin yaranması cümlələr çoxluğunun müəyyən fikir ətrafında əlaqəli birliyi ilə bağlıdır Ayrılıqda götürülmüş cümləni də biz mətn adlandıra bilərik. Bunu da qeyd edək ki, cümlə mətnin ən kiçik vahidi hesab edilir. Belə olan halda, mətnin elementləri arasında olan əlaqə cümlədə də öz əksini tapmalıdır. Yəni, əgər koheziya mətnin ünsürləri arasında

mövcuddursa, deməli, o, cümlə elementləri arasında da özünü göstərməlidir. Beləliklə, cümləni biz ən kiçik mətn kimi qəbul edə bilərik. Hər bir sahənin, hər bir elmin öz obyekti və predmeti vardır. Mətn dilçiliyinin obyekti isə mətndir. Mətn dilçiliyi ilə bağlı tədqiqatlarda mətnə bütöv linqvistik obyekt kimi yanaşılır. Mətn "müxtəlif leksik, məntiqi və qrammatik əlaqələrlə birləşmiş, müəyyən şəkildə təşkil olunmuş və istiqamətlənmiş informasiyanı ötürməyə xidmət edən cümlələrin düzülmüş çoxluğudur. Mətn struktur-semantik vəhdətdə mövcud olan mürəkkəb tamdır" . Beləliklə, gördüyümüz kimi, mətnin sistemli şəkildə təşkil olunması və xüsusi informasiya daşıması onu adi söz yığınından fərqləndirən əsas cəhətləridir. Mətnin iki növünü qeyd etmək olar: a) makromətn və b) mikromətn. Makromətn dedikdə bir neçə mikromətnlərin birləşməsi nəzərdə tutulur. Makromətn geniş cümlələr birliyidir. Mikromətn isə makromətndən kiçik olub, bir və ya bir neçə cümlədən ibarətdir. Bu da məlumdur ki, mətn dilçilik araşdırmalarında əhəmiyyətli rol oynayır. Bəs bu yenilik hansı vaciblikdən yaranmışdı? Xüsusilə qeyd etmək lazımdır ki, həmin dövrə qədər dildə hər hansısa bir dəyişiklik baş verərkən mənbə kimi məhz mətnə müraciət edilirdi. Buna baxmayaraq, mətnin quruluşu kimi məsələlər linqvistikanın predmet sahəsinə daxil edilməmişdi . Mətn ərəb mənşəli söz olub "birləşmə" mənasına uyğun gəlir. Dilçilikdə mətnə təkcə hazır məhsul kimi deyil, eyni zamanda nitq əqli prosesin nəticəsi kimi də yanaşılır. «Mətn» termininin bir neçə işləm formasını qeyd etmək olar: 1) Bu termin məna bitkinliyi ilə ifadə olunan və danışanın fikrinə əsaslanan, bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir söyləmi və ya diskursu təyin etmək üçün istifadə olunur. 2) Digər tərəfdən isə, mətn termini ilə hekayə, roman, məqalə və s. kimi nitq əsərlərini adlandırmaq üçün işlədilir . Mətndaxili əlaqələr, onların struktur, semantik xüsusiyyətləri mətn dilçiliyi üçün vacib əhəmiyyət kəsb edir. Mətnin tərkibindəki komponentlərin bitkinliyi nisbi xarakter daşıyır. Buradan belə nəticə çıxır ki, eyni cümlə modelinə mətn tərkibində və mətnin tərkibindən kənarda müxtəlif cür yanaşmaq lazımdır. Məlum olduğu kimi, mətn dilçiliyində mətn formal qrammatik göstəricilərin çılpaq sistemi deyil, dilin müxtəlif səviyyələrinə aid işarələrin məntiqi münasibətləri, bu işarələrin əlaqəli şəkildə yaratdıqları məntiqi semantika kimi qavranılır. Və bununla da mətn bir semantik bütövlük kimi qəbul edilir. Mətn dilçiliyi elmi termin kimi yeni olsa da, bir əməli iş kimi isə onun tədqiqi tarixin çox dərinliyinə gedib çıxır. Əslində yazı başlayan zamandan mətn bütövlüyü də başlanıb. Hətta bir cümlə, bir abzas yarananda belə, şüuraltı olaraq mətn bir bütövdən ibarət olub. Bu, bəşəri faktdır. Nitq prosesinin təbiətindən doğur və onun fikir çatdırmaq xasiyyəti ilə bağlıdır. Belə ki, mətn bütövlüyü fərdi yaradıcılıq faktı kimi yox, qövmlərarası ünsiyyətin bütövlüyünə xidmət işi kimi meydana çıxır. Deməli, bu mətn bütövlüyü dil birliyidir. Dilçilik elmi ilə yanaşı mətni, ədəbiyyatşünaslıq, üslubiyyat, sosiologiya kimi digər elm sahələri də tədqiq edir. Qeyd etdiyimiz sahələrin hər biri müxtəlif üsullardan istifadə etməklə mətnə öz vəzifələrinə uyğun olaraq yanaşır. Mətn termini altında möhkəm daxili struktur əlaqələri özündə ehtiva edən müxtəlif hadisələrin birliyini

nəzərdə tutmaq lazımdır . Mətn müəyyən cümlələr toplusundan ibarətdir. Elmi tədqiqat işinin ikinci hissəsi diskursun xussiyyətləridir .
Diskurs ötən əsrin son illərindən başlayaraq bütün elm sahələrində və informasiya məkanında olduqca geniş istifadə olunan məfhum olub fərqli mənalarda işlədilir. Buna görə də diskurs anlayışına ayrıca götürülmüş bir elm sahəsində belə yetərincə dolğun və bitkin tərif vermək çətindir. Hər konkret elm sahəsində diskurs anlayışının məna tutumu bir qədər, bəzi hallarda isə xeyli fərqlidir. Bu yanaşmaların bəzilərinə müraciət edək.
1 Diskurs dedikdə ən müxtəlif aspektlərdən mətn nəzərdə tutulur. Mətn isə öz növbəsində bir tərəfdən «bir və daha çox cümlədən ibarət olub, deyənin fikrincə bitkin bir fikri daşıyan istənilən deyimdir», digər tərəfdən isə «povest, roman, qəzet və ya jurnal məqaləsi, elmi monoqrafiya, müxtəlif növ sənədlər və s. kimi nitq əsərləridir» (Professor A. Məmmədov məsələyə bir qədər fərqli yanaşır və qeyd edir ki, «Diskurs mətn ilə qarşı-qarşıya qoyularaq "fəaliyyətdə" olan danışıq parçası kimi qəbul edilir. O, müəyyən mənanı konteksdə əldə edir. Bu kontekst dildə məlumatı ötürən tərəfindən müəyyən məqsədlərlə, konkret şəraitdə və mənada istifadə edilir. Diskurs əlaqəli danışıq parçasıdır» buna görədir ki, linqvistikada mikro- və makromətn anlayışları işlədilir, diskursun isə mikro- və makrostruktura malikliyindən danışılır.
2) Dirskurs məfhumunun tez-tez işlədilməsinə baxmayaraq bu məfhum arxasında nəyin durması məsələsində hələ də tam aydındıq yoxdur. Bu məfhum dilçilik elmində ilk dəfə 1952-ci ildə Amerika alimi Zeliq Hərris tərəfindən «Diskurs təhlili» («Discourse analysis») məqaləsində işlədilmişdi. Məqalənin söyləmdən (deyimdən, ifadədən) böyük birləşmələrin tərifinin verilməsi ilə bağlı yazıldığı nəzərə alınsa, artıq həmin dövrdə diskurs anlayışına konkret yanaşmanın olduğu qənaətinə gəlmək olar. Z.Hərris diskursu mətnin cümlədən böyük parçası hesab edir Maraqlıdır ki, Z. Hərrisdən az sonra fransız alimi Emili Benvenist də həmin anlayışa müraciət edərək, onu «danışana aid edilən nitq» kimi mənalandırmışdı. E.Benvenistə görə söyləm deyənin ekspressiyasıdır. Bu isə diskursa fərqli yanaşmaların lap əvvəldən, yəni anlayış elmə daxil olan andan olduğunu göstərir. Amma qeyd olunmalıdır ki, bu fərqli yanaşma bu gün də aradan qalxmamış və bütün mübahisəli məqamlara aydınlıq gətirilməmişdir. Ə.Abdullayev «mətn» və «diskurs»un rabitəli nitqin tədqiqində geniş istifadə olunduğunu vurğulayaraq, onlara yanaşmada iki əsas meyili fərqləndirir. Onun fikrincə, hər iki anlayış bir sıra araşdırmalarda eyniləşdirilir və bir-birini əvəzləyə bilir. Başqa araşdırmalarda isə onların differensiallaşdırılması tendensiyası müşahidə olunur və bu proses də birmənalı deyil, çünki burada nəzərdən keçirilən anlayışlar, bir tərəfdən, müstəqil anlayışlar kimi nəzərdən keçirilir, digər tərəfdən isə onların müəyyən dərəcədə əlaqəli olmaları vurğulanır
3) Diskurs aktuallaşdırılmış mətndir . Bu yanaşmanın əsasını T.A. Van Deyk qoymuşdur. O, özünün «Diskursun tərifinə dair» əsərində bu məfhumun dəqiq tərifinin olmamasını belə izah edir: «Dil, cəmiyyət, ideologiya anlayışları kimi

diskurs anlayışı da tam aydın deyil. Biz bilirik ki, ən dumanlı və tərif verməyə çətin gələn anlayışlar ən populyar olurlar». T.A.Van Deyk diskursu müxtəlif bucaqlar altında – konkret danışıq kimi, danışıq tipi kimi, janr kimi, sosial funksiya kimi nəzərdən keçirir. Bu zaman ortaya bariz təzahür edən, nəzərə çarpan bir məqam çıxır. Bütün bu mövqelərdən yanaşmaların sonunda belə bir fikir doğur: Diskurs kontekstdəki mətndir. Əgər mətnlə (tekst) kontekst arasında müəyyən həddqoymaq mümkündürsə, diskursda onların vəhdəti çıxış edir və bu həddi qoymaq mümkün deyil. Hətta yazılı mətnin konteksti qavrayan üçün aydın deyilsə, onun tam avranılmasından söhbət gedə bilməz. Bu məqamda da diskursun tamlığı üçün mətn və kontekstin birliyi nəzərə alınmalıdır. Yəni «diskurs=mətn+kontekst» (burada verbal və qeyri-verbal, dildaxili və dilxarici ünsürlərin tam vəhdəti nəzərdə tutulur). Eyni fikri N.E.Enkvistdə də görmək olar. O qeyd edirdi ki, «Diskurs mətn ilə situasiya komponentinə malik kontekstin məcmusudur» . Bu deyimlə razılaşmamaq çox çətindir. Onun tam haqlı olduğunu qeyd etməklə yanaşı, bir məsələyə də diqqət yetirmək lazım gəlir. Bu da həm mətn, həm də və xüsusilə kontekst anlayışlarının özlərinin dərkində və şərhində tam aydınlıq, daha doğrusu, fikir yekdilliyi olmaması ilə bağlıdır. Belə ki, əgər kontekst mətnin dilxarici elementləri və əhatəsi kimi götürülərsə, həm yazılı, həm də şifahi mətnin (həcm məsələsinə toxunmadan) kontekstini tam müəyyənləşdirmək və əhatələmək mümkün deyildir. Bundan başqa, kommunikasiya iştirakçıları çox vaxt heç biri konteksti tam əhatələyə bilmir, buna görə də mətn dərkində onlar arasında ciddi fərqlər olur. Deyilənlər göstərir ki, diskursu mexaniki olaraq mətn və kontekstin məcmusu hesab etməklə məsələ bitmir və anlayışa aydınlıq gəlmir.

Van Deyk diskurs anlayışını həm geniş, həm də dar mənada nəzərdən keçirir. Geniş mənada diskurs məfhumu altında müəyyən zaman, məkan və situasiya kontekstində danışan və dinləyən arasında ünsiyyət prosesində baş verən kommunikativ hərəkət başa düşülür. Bu kommunikativ hərəkət həm şifahi, həm də yazılı, həm verbal, həm də qeyri-verbal tərkib hissələrli ola bilir. Buna ən adi misal dostların söhbəti, qəzet və ya jurnalın oxunması, küçədə və ya başqa yerdə söhbət ola bilər. Dar mənada isə bu, mətn və ya danışıqdır. Burada diskurs kommunikativ hərəkətin bitkin məhsulunu, onun resipiyent tərəfindən interpretasiya olunan yazılı və ya şifahi nəticəsini bildirir. Ən ümumi şəkildə demək olar ki, diskurs kommunikativ hərəkətin bitkin məhsuludur.

4) Diskurs sosiomədəni kontekstdə qarşılıqlı əlaqə prosesinin nəticəsidir . Bu istiqamətin əsas nümayəndəsi Amerika dilçisi K.L.Paykdır. O, insan davranışının universal taksonomiyasını işləyib hazırlamağa çalışırdı. Onun fikrincə, dil davranışının mərkəzi vahidləri sintaqmatik funksiyaların və paradiqmatik doldurumların korrelyatları qismində müəyyənləşdirilən funksional yüklənmiş minimal formal elementlər kimi taqmemalardır. Onlara qrammatik elementlərin realizə olunmasının təhlilində minimal konkret verilənlər kimi taqmalar qarşı durur. Sintaqmemalar taqmemaların birləşməsi kimi fərqləndirilir. Söz, söz birləşməsi,

cümlə, cümlələr kompleksi, abzas, diskursla təmsil olunan iyerarxik mərhələlər (səviyyələr) fərqləndirilir.

РЕЗЮМЕ

Информационные особенности текста и дискурса.

В статье говорится о политическом дискурсе и о существующих проблемах его параметров в лингвистике. Политический дискурс является текстом и в его формировании играет важную роль “игра слов”, т.е. контекстуальное значение некоторых лексических единиц. Это связано с коммуникативной характеристикой политического дискурса, речевой целью оратора, речевым актом между адресата и адресанта.

В статье иследуется разные измения в лексической системе языка и в результате использования новых технологий, в особенности интернет услуг для передачи и получении и информации. Осуществление коммуникативных актов посредством новых средств вызывает основание для нарушения языковых норм и правил. Привлекаются иследованно компьюторный и интернет сленги, атакже влияние этого сленга на разговорный и литератырный язык. К лексическим средствам выражения императивной семантики относятся и наречия. Характерны случаи выражения волеизьявления говорящего с помощью наречия в дискурсе с прямой речью, как правило, в словах автора. Императивная семантика может быть выражена наречием и в определенной речевой ситуации.

Ключевые слова: текст, языковые связи, язык, дискурс, лексик систем,

SUMMARY

Informational features of text and discourse

A. The article illuminates the political discourse and existing problems of its parameters in linguistics. The political discourse is regarded political discourse is regarded as a text and “the play of words”, i. e. contextual meaning of some lexical units plays the key role in its formation. It is connected with the communicative characteristics of SHIRIYEV SUMMARY the political discourse, with the speech aim of the orator as well as the speech act between the addressee and the addressant.

Key words: political discourse, language, speech, connotation, word

In the paper some problems of teacing lexicology due to modern requirements are learned: methods of teaching words, meanings of the words, homonyms, synonyms and antonyms are shown, the ways of use the educational technologies are demonstrated

Key words: text, relations language, discourse, exical system.

NƏTİCƏ

Nəticə olaraq məqalədə mətn ve diskurs informatik xususiyyətləri gğstərilmisdi.
Mətn linquvistikasinin yaranma tarixi növləri haqqında məlumat geniş təsvir olunmuşdur. Mətn terminin bir neçə işləm forması təsvir edilmiş mətn daxili əlaqələr çox izahlı yazılmışdır. Məqalənin ikinçi hissəsi diskurs və onun xüsusiyyətləridir. Diskurs və mətn arasındakı fərqi və oxşar cəhədləri gosterilmişdir. Dilçilik elmində Amerika alimi Zelik Həris tərəfindən diskursun təhlili məqalədə geniş yazılmışdır. Dirskurs otən əsrin son ilərindən başlayaraq butun elm sahələrində və informasiya məkanlarında oldugca geniş istifadə olunan məfhum olub fərqli mənalarda işlədilməsi təsvir olunmuşdur.

ƏDƏBİYYAT

Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri, Bakı 1999.
Abdullayev K. və başqaları Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı, 2012.
Musayev M.M. Türk dillərində mürəkkəb cümlə sintaksisi, Bakı. 2011. 401 səh.
Novruzova N.S. Mətnin öyrənilməsində əsas yanaşmalar: nəzəriyyələr. mülahizələr. problemlər.Bakı,2015. 258 səh.
Piriyev E. Koqnitiv dilçilik üzrə praktikum (dərs vəsaiti) Bakı, Mütərcim 2012. 106 səh.
Васильев Л.М. Общий взгляд на лингвистику XX века // Филологические записки. Вестник литературоведения и языкознания. – Вып. 11. – Воронеж, 1998. – С. 167-174.
Баранов А.Г. Функционально-прагматическая концепция текста. – Ростои-на Дону, 1993. 192;.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: dos Yeganə Orucova
tərəfindən çapa tövsiyə olunmuşdur

QƏNİRƏ MƏMMƏDZADƏ
Gəncə Dövlət Universiseti
ganira.mammadzadeh@gmailcom

SÖZ TƏRKBİNDƏ İŞLƏNƏN NİSBİ SÖZDÜZƏLDİCİ ŞƏKİLÇİLƏR

Açar sözlər: *sözdüzəldici şəkilçilər, formadüzəldici şəkilçləri, nisbilik, derivasiya, mürəkkəb tərkib*
Ключевые слова: *словообразующие аффиксы, формообразующие аффиксы, относительность, деривация, сложный состав*
Key words: *word- building suffixes, form-building suffixes, relativity, derivation, complex composition*

Nisbi sözdüzəldici şəkilçilər adı altında o şəkilçilərdən bəhs olunur ki, onlar demək olar ki, sözdəyişdiricilikdən tamamilə təcrid olunmamış vəziyyətdə təsəvvür edilir. Bu cür mürəkkəbtərkibli şəkilçilərin birinci tərkib hissəsi bir qayda olaraq sözdəyişdirici tipli elementlərdən ibarət olur. İkinci tərkib hissədə isə həm qrammatik, həm də sözdüzəldici xarakterli şəkilçilərdən biri iştirak edə bilər. Haqqında bəhs olunan şəkilçilərin fuksional təyinatı barədə demək olar ki, dilçilikdə bitkin bir fikir yoxdur. Onlar bəzi tədqiqatlarda ya formadüzəldici, ya sözdüzəldici və ya qrammatik xarakterini mühafizə edən elementlər kimi təqdim olunur. Bunlar əsas etibarı ilə feili sifət, feili bağlama və məsdər tərkibli şəkilçilər kimi səciyyələndirilir. Azərbaycan dilində formadüzəldici şəkilçilər haqqında ayrı-ayrı dərslik, dərs vəsaiti və məqalələrdə bəhs olunmaqla yanaşı təqdirəlayiq haldır ki, həmin sahə ilə bağlı xüsusi monoqrafik tədqiqat da aparılmışdır. "Azərbaycan dilində formadüzəldici şəkilçilər" adlanan bir tədqiqat işində həmin tipli şəkilçilərin funksional xüsusiyyətləri təhlil edilir. Burada doğru olaraq göstərilir ki, formadüzəldici məsələsi həm Azərbaycan dilçiliyində və həm də ümumən türkologiyada özünün tam həllini tapmamış məsələlərdən biridir. Eyni zamanda müəllif rus dilçiliyində də formadüzəldici şəkilçi problemi barədə bəhs edildiyi halda məsələnin həllinin səmərəli şəkildə yekunlaşdırılmadığını göstərir. Dissertasiya müəllifi formadüzəldici şəkilçi məsələsi ilə əlaqədar rus dilçiliyində, türkologiyada və o cümlədən Azərbaycan dilindəki fikir və mülahizələri qarşılaşdırır. Bununla yanaşı, Yusif Seyidovun belə bir fikrinə üstünlük verir ki, o sözdəyişdirici və sözdüzəldici şəkilçiləri qrammatik şəkilçi kimi xarakterizə etsə də sözdüzəldici və formadüzəldici şəkilçilərin korrelyasiya yaratmadığı mülahizəsini irəli surür. Yəni buradan belə başa düşmək olur ki, Yusif Seyidovun fikrincə sözdüzəldici və formadüzəldici şəkilçilər qarşılıqlı münasibətdə olmayıb ayrı-ayrı funksiyalara malik olurlar. Dissertasiya müəllifi bundan belə nəticə çıxarır ki, "*formadüzəldicilik şəkilçinin qrammatik mahiyyətini və ya şəkilçiin sözdəyişmə mahiyyətini inkar etmir.*

Əksinə, təsdiq edir. Təsdiq edir ki, bu şəkilçi yeni mənalı söz yaratmır, sözün formasını dəyişir. Bununla belə, formadüzəldici şəkilçilər sözün qrammatik məzmununda müəyyən dəyişiklik yarada bilir. Biz də Yusif Seyidovun şəkilçilərin təsnifi barədə dediyi fikirlə razılaşırıq" [6, s.9]. Beləliklə, müəllif bu dissertasiya işində feili sifət, feili bağlam və feilin növ şəkilçilərini formadüzəldici şəkilçilər qrupuna daxil edir [6, s.15-17]. Dissertasiyanın avtoreferatından göründüyü kimi formadüzəldicilik probleminin prinsipləri, meyarları, onların sözdəyişdirici və sözdüzəldicidən fərqlənən ciddi əlamətləri məsələsi yenə də mübahisəli olaraq qalmaqdadır. Yəni ki, həmin məsələnin həllini bir elmi-tədqiqat işi çərçivəsində başa çatdırmaq mümkün deyildir və məsələnin daha ətraflı, daha geniş şəkildə araşdırılmasına ehtiyac vardır.

Fomadüzəldici şəkilçilər barədə Buludxan Xəlilovun da öz mülahizələri vardır. Azərbaycan dili qrammatikasında bir qədər müəmmalı səslənən formadüzəldici şəkilçilərlə bağlı qeyd edir ki, *vahid meyar müəyyən olunmadığından ali məktəb dərsliklərində həmin tipli şəkilçilər bir qayda olaraq sözdüzəldici şəkilçilərlə bir sırada verilir. Orta məktəb dərsliklərində də formadüzəldici şəkilçilərin sözdüzəldicilərdən fərqləndirilmədiyi göstərilir* [5, s.100]. Eyni zamanda Buludxan Xəlilovun fikrincə, formadüzəldicilər qismən sözün leksik mənasında dəyişiklik yaradır. Buna görə də bəzi hallarda onlar sözdüzəldici şəkilçilər sırasına daxil edilir. Formadüzəldici şəkilçili sözlərin başqa sözlərlə yaratdığı qrammatik-semantik əlaqə onların qrammatik şəkilçi kimi izah edilməsinə də səbəb olur. Buludxan Xəlilovun mülahizəsi bundan ibarətdir ki, *belə şəkilçilər sözdüzəldici və sözdəyişdirici şəkilçilərə bənzəsələr də həm də onların hər ikisindən fərqlənirlər. Belə şəkilçilər sözdüzəldici və sözdəyişdirici arasında orta mbvqedə dururlar. Bu şəkilçilər isə tam sözdüzəldicidir, nə də sözdəyişdiricidir* [5, s.100]. Beləliklə, Buludxan Xəlilov feilin növ, sifətin dərəcə, isimlərdə əzizləmə, həmçinin feilin təsriflənməyən feili sifət, feili bağlama və məsdər şəkilçilərini formadüzəldici şəkilçilər kimi xarakterizə edir [5, s.100-106]. Hesab etmək olar ki, bu yanaşmanın özü də tam arqumentləşdirilməmiş qalır. Çünki aralıq mövqe hesab edilən formadüzəldici adındakı şəkilçilərin qrammatik və derivativ keyfiyyətləri bütöv şəkildə öz həllini tapmamışdır.

Qeyd etmək lazımdır ki, müasir dilçilikdə formadüzəldici adı ilə verilən şəkilçilər, xüsusən, feili bağlama şəkilçiləri tərkibinə daxil edilən, -*cadan* (-cədən), -*casına* (-cəsinə), -*araq* (-ərək) şəkilçiləri zərfdüzəldən şəkilçilər kimi xarakterizə edilir [2, s.169-170].

Muxtar Hüseynzadənin feil növlərilə, eləcə də feilin təsriflənməyən formalarına aid verdiyi izahların ümumi məzmunundan aydın olur ki, həmin kateqoriyalar qrammatikliklə derivativlik arasında qərar tutan, nisbi sözyaratma xassəsinə malik olan vasitələr hesab edilir [3, s.139-148; s.178-199].

"Azərbaycan dilinin funksional qrammatikası" kitabında formadüzəldici şəkilçilər leksik-qrammatik şəkilçilər kimi təqdim edilir və bunlar feilin öv, feili

sifət, feili bağlama və s. qrammatik kateqoriyalarını formalaşdıran şəkilçilər hesab olunur [1, 304 s; s.64].

Formadüzəldici şəkilçilər barədəki bütün şərh və izahların nəticəsi olaraq həmin tərkibə bir qayda olaraq növ, məsdər, feili sifət və feili bağlama və hətta ismin kiçiltmə, əzizləmə, sifətlərin isə dərəcə şəkilçiləri daxil edilir. Burada məqsəd birbaşa formadüzəldici şəkilçilərin ayırd edilməsi deyildir. Lakin nisbi sözdüzəldici xarakterli şəkilçilər formadüzəldici adı altında verilən şəkilçilər daxilində göstərildiyi üçün formadüzəldicilər barədə qısa xülasə vermək müəyyən dərəcədə məqsədəuyğun sayılmışdır. Formadüzəldici adı ilə verilən şəkilçilərin içərisində nisbi sözdüzəldici səviyyəsi daşıyan şəkilçilər qismində aşağıdakıları fərqləndirmək mümkündür:

1) hər iki tərəfi sözdəyişdirici şəkilçidən ibarət olanlar: - *dıqda* (-dikdə, -duqda, -dükdə), - *dığım* (diyim, -duğum, -düyüm), -*madan* (-mədən), -*araq* (-ərək).

2) birinci tərəfi feilin məsdər və feili sifət şəkilçilərdən, ikinci tərəfi sözdəyişdirici şəkilçilərdən ibarət olanlar: -*maqda* (-məkdə), -*maqdan* (-məkdən), -*anda* (-əndə), -*andan* (-əndən).

3) birinci tərəfi sözdəyişdirici, ikinci tərəfi sözdüzəldici tipli şəkilçilərdən ibarət olanlar; - *ımgil* (-imgil, -umgil, -ümgil), -*ıngil* (-ungil, -ingil, -üngil), -*mgil* (-mgil), -*ınca* (-incə, -unca, -üncə), -*alı* (-əli), -*dıqca* (-dikcə, -duqca, -dükcə).

4) birinci tərəfi sözdəyişdirici, ikinci tərəfi –*ikən* (-kan, -kən) hissəciyi ilə ifadə olunanlar: -*arkən* (-ərkən), -*ırkən* (-irkən, -urkən, -ürkən), - *mışkən* (-mişkən, -muşkən, -müşkən) və s.

Söz tərkibində həmin tipli mürəkkəbtərkibli şəkilçilərin birinci və ya ikinci tərkib hissəsi hansı növ şəkilçidən ibarət olmasına baxmayaraq ikinci tərkib hissə daim derivativləşməyə daha meyilli olur. Hətta ikinci tərkib hissə sözdüzəldici olduqda sözdəyişdiricinin dervativ xarakteri birinci tərkib hissənin də sözyaratma keyfiyyətinə öz təsirini göstərir. Göstərilən mürəkkəbtərkibli şəkilçilərin derivativ keyfiyyətlərini aşağıdakı kimi nümunələr əsasında ümumiləşdirmək mümkündür:

1) hər iki tərəfi sözdəyişdirici şəkilçilərdən ibarət olanlar

Bu təsnifata daxil olan şəkilçilərin birinci və ikici tərəfləri ayrı-ayrı qrammatik kateqoriya elementləri əsasında formalaşır. Həmin şəkilçilərin söz tərkibidəki qrammatik və derivativ keyfiyyətlərini aşağıdakı kimi səciyyələndirmək mümkündür.

-*Dıqda* (-dikdə, -duqda, -dükdə) şəkilçisinin birinci tərkib hissəsi şühudi keçmiş zamanın birinci şəxsinin cəmini bildirən, ikinci tərəfi isə yerlik hal şəkilçisindən ibarətdir. Birlikdə bu şəkilçi söz tərkibində məkan anlayışlı zaman bildirməyə xidmət edir.

Şəkilçinin qrammatik mənası barədə danışılarkən onun iştirakı ilə düzələn sözlərin zaman zərfliyi kimi işlənməsi və həmçinin, feili bağlama tərkibi yaratması xüsusiyyəti önə çəkilir: "*Xavər Firidunu gördükdə köyrəkləndi* (M.İbrahimov); *Məryəm xala qapını açdıqda Firidun və kürd Əhməd içəri girdi*". (M.İbrahimov) [4, s.196]. Nümunə gətirilən cümlələrdəki *gördükdə* və *açdıqda* feili bağlamaları

qrammatik cəhətdən zaman zərfliyi kimi işlənsə də semantik cəhətdən məkan anlayışını da özündə birləşdirir. Odur ki, -*dıqda*… şəkilçisi ilə düzələn sözlər nə qədər qrammatik funksiya daşıyırsa o qədər də derivativ keyfiyyətə malik olur. Yəni qrammatikliyə gəlincə funksiya xalis qrammatikliklə başa çatmadığı kimi derivativlik də burada tam leksik səviyyədə müşahidə edilmir. Odur ki, feili bağlama düzəldən həmin şəkilçinin derivativliyi nisbi sözdüzəldicilik səviyyəsində qalır.

-*Dığım* (-diyim, -duğum, -düyüm) feili bağlama şəkilçisini birici tərəfi şühudi keçmişin birinci şəxsinin təkini bildirən, ikinci tərəfi isə birinci şəxs mənsubiyyət şəkilçisindən ibarətdir. –*Dıqda*… şəkilçisi kimi –*dığım*… şəkilçisi ilə düzələn sözlərin də həm qrammatik, həm də derivativ funksiyası vardır. Qrammatik funksiya həmin şəkilçi ilə düzələn sözlərin söz birləşməsində birinci tərəf kimi işlənib ikinci tərəfə idarə əlaqəsi ilə bağlanmasından, onun təyini kimi işlənməsindən (yazdığım kitab, oxuduğum mahnı, gəzdiyim yerlər) ibarətdir. Derivativ keyfiyyəti isə şəkilçinin feil kökünə və əsasına qoşulub təyinedici söz yaratmasından ibarətdir.

-*Madan* (-mədən) şəkilçisi quruluşca –*ma* (-mə) inkar və –*dan* (-dən) çıxışlıq hal şəkilçisidən ibarətdir. – *Madan* (-mədən) şəkilçisi söz tərkibində hal-vəziyyət və eyni zamanda qarşılıqlı şərt, güzəşt, müəyyən dərəcədə də zaman çalarlığı bildirir. Bu şəkilçinin qrammatikliyi onun iştirakı ilə düzələn sözlərin feillə qrammatik–sintaktik əlaqə yaratmasından (dayanmadan getmək, bilmədən keçmək, baxmadan aparmaq), derivativliyi isə feildən qarşılıqlı şərt, güzəşt və zaman çalarlıqlı zərf düzəldilməsindən ibarətdir. Deyildiyi kimi, burada hər iki tərəf nominasiyasına görə sözdəyişdiricidir. Sözdəyişdirici birinci tərəf sözdəyişdirici ikinci tərəfə görə derivativliyə doğru keyfiyyət dəyişikliyinə meyilli olur.

-*Araq* (-ərək) şəkilçisi mürəkkəbtərkibli element kimi feillərə qoşularaq feili bağlama əmələ gətirir. Şəkilçinin birinci tərəfi mənşəyinə görə –*ar* (-ər) qeyri-qəti gələcək zaman ikinci tərəfi isə –*aq* (-ək, -yaq, -yək) şəxs şəkilçisində təşkil olunmuşdur. -*Araq* (-ərək) feili bağlama şəkilçisi feillərə qoşularaq daha çox hərəkətin tərzini, hal vəziyyətini, həmçinin səbəb və ya qismən də məqsədini bildirən sözlər əmələ gətirir: *qaçaraq gəldi, danışaraq dayandı, düşünərək* cavab verdi və s.

-*Araq* (-ərək) şəkilçisi üzrə düzələn feili bağlamalar birbaşa feillə qrammatik-sintaktik əlaqəyə malik olur. Odur ki, həmin sözlər cümlədə zərflik kimi iştirak edir: "*Əli evdən qaçaraq gəldi*".

-*Araq* (-ərək) şəkilçisi ilə düzələn sözlərdə onların tərzi-hərəkət, hal-vəziyyət və s. digər nominativ anlayışları onların derivativ xassəsinin göstəricisi hesab edilə bilər. Eyni zamanda, -*araq* (-ərək) şəkilçi tərkibinin özü də müvafiq sözlərə qoşularaq xüsusilə, derivativlik keyfiyyətli vahidlərin formalaşmasında iştirak edir. Bu halda *araq* (-ərək) şəkilçili sözlər, artıq qrammatik funksiyalı variantlar kimi feilə aid hal-hərəkət, tərz, səbəb, nəticə və digər anlayışları bildirmir. Belə sözlər artıq atributiv xarakter qazanaraq sifət kimi ikinci tərəfdəki isimlərin təyini funksiyasında çıxış edir: *qaçaraq at, otaraq yer, yüyürək adam, dabanbasaraq* (yeriş) və s.

Buradan görünür ki, sözdəyişdirici şəkilçilərin derivativliyə meyilliliyi dilin sözyaratmaya olan ehtiyacı və tələbi əsasında intensivləşmə prosesi keçirir və bu proses dildə yeni anlayışlı ifadə vasitələrinin formalaşmasında mühüm rol oynaya bilir.

2) *Birinci tərəfi feilin məsdər və feili sifət şəkilçilərindən, ikinci tərəfi sözdəyişdirici şəkilçidən ibarət olanlar*

Bu qrupa aid olan şəkilçilərin birinci tərkib hissəsində müvafiq olaraq məsdər və feili sifət, ikinci tərəfində isə ismin yerlik və ya çıxışlıq hal şəkilçiləri işlənir. Məsdər və feili sifət şəkilçiləri morfologiyaya aid mənbələrdə sözdəyişdirici şəkilçilər sırasında verilmir. Eyni zamanda onlar sözdüzəldici kimi də xarakterizə edilmir. Hətta, Muxtar Hüseynzadə feildən düzələn sifətlərlə feili sifətlərin arasındakı fərqlərdən bəhs edərkən onların semantik cəhətdən eyni anlayışa malik olmadığını göstərir [3, s.276; s.98].

Bu qrupa daxil olanlar *–maqda* (-məkdə) şəkilçisi *–maq* (-mək) məsdər və *–da* (-də) yerlik hal şəkilçisinin birləşməsi yolu ilə formalaşmışdır. -*Maq* (-mək) şəkilçisi məsdər düzəldən bir şəkilçi qismində feili ad yaratmaqda iştirak edən bir vasitə kimi izah edilir. Eyni zamanda, -*maq* (-mək) şəkilçisi bir qayda olaraq qeyri-məhsuldar şəkilçilər sırasına da daxil edilir. Deməli, -*maq* (-mək) şəkilçisi Azərbaycan dilində ikili xarakterə malikdir. Belə çıxır ki, -*maq* (-mək) feilə məxsus ad bildirən və ya feilin adını bildirən və feildən ad yaradan şəkilçidir. Feilin *–maqda* (-məkdə) şəkilçisi tərkibində -*maq* (-mək) şəkilçisi əlbəttə ki, xalis sözdüzəldici kimi xarakterizə edilmir. Ona görə də həmin tərkibdə məsdər şəkilçisi sözdəyişdirici variant kimi iştirak edir, -*da* (-də) tərkibi ilə birlikdə feilə aid iş, hal və hərəkətin davamlılığını bildirir: *getməkdədir, almaqdadır; getməkdəyik, almaqdayıq, getməkdəsiniz, almaqdasınız, getməkdədirlər, almaqdadırlar* və s. Məsdər və yerlik hal şəkilçisiin iştirakı ilə düzələn formaların hərəkətə dair davamlılıq alayışını nəzərə alan Muxtar Hüseynzadə həmin formanı feilin davam şəkli kimi təqdim edir [3, s.276; s.176].

–Maqda (-məkdə) şəkilçili sözlərin qrammatikliyi onların xəbərlik şəkilçisi ilə işlənərək xəbər vəzifəsi daşımasında, derivativliyi isə feillik anlayışının ad məzmunu ilə bağlamasındadır. Onu da qeyd etmək lazımdır ki, -*maq* (-mək) şəkilçisi *–maqda* (-məkdə) tərkibində qrammatiklik mövqeyində işlənmiş olsa da belə onun müstəqil olaraq sözyaradıcı funksiya daşıdığını müşahidə etmək mümkündür. Bu şəkilçinin vasitəsi ilə düzələn bəzi sözləri kök-şəkilçi tərkibinə ayırmaq olsa da müəyyən qism sözlər kök-şəkilçi tərkibi ilə bir vəhdət təşkil edir. Məsələn, *yemək, çaxmaq, qazmaq* kimi sözlərdə kök-şəkilçi tərkibi ayrılır, lakin *yumaq* (ip, sap yumağı), *qaymaq, çomaq, qarmaq, armaq* (həvəskar), *kürmək* (bağlamaq növü) *dürmək* kimi sözlərdə kök-şəkilçi fuziallığı onları bir vəhdətdə birləşdirmişdir. Görünür, -*maq* (-mək) şəkilçisinin qrammatikliyi kimi derivativ ənənəsi də qədimlərə bağlıdır.

-*Maqdan* (-məkdən) şəkilçisinin birinci trkib hissəsi məsdər, ikinci tərkibi isə *–dan* (-dən) şəkilçisindən ibarətdir. Bu şəkilçinin vasitəsi ilə düzələn sözlərin

qrammatikliyi onların feili xəbərlə səbəb-məqsəd əlaqəsi üzrə bağlılığından ibarətdir: "*Ağlamaqdan gözü qızarmaq*", "*Gülməkdən uğunub getmək*", "*Oturmaqdan bezikmək*" kimi ifadələrdə qrammatiklik müşahidə edilir. Derivativlik isə həmin şəkilçinin feilə qoşulub hərəkətə aid tərz, səbəb, məqsəd, qarşılıq və güzəşt mənaları bildirməkdə ibarətdir.

-*Anda* (-əndə) şəkilçisi feili sifət və yerlik hal şəkilçisinin birləşməsi yolu ilə düzəlmişdir. Feili sifət şəkilçisi həmin tərkibdə, bir qayda olaraq feili sifət olmaqdan daha çox qrammatiklik yerində işlənir. Lakin *–da* (-də) şəkilçisi ilə bir vəhdətdə həmçinin derivativ keyfiyyət qazanır. *–Anda* (-əndə) şəkilçisi ilə düzələn sözlərin qrammatikliyi onların feili xəbərə aid zaman, vaxt anlayışlı zərflik mövqeyində işlənməsindən ibarətdir: "*Mən yağanda sən də yağ", "Bahar gələndə güllər açır", "Yağış yağanda yer yaş olur"* və s. Derivativlik keyfiyyəti həmin şəkilçinin feilə qoşularaq zərf əmələ gəlməsində müşahidə edilir: *yaz-yazanda, gül-güləndə, danış-danışanda* və s.

-*Andan* (-əndən) şəkilçisi tərkib etibarı ilə feili sifət və ismin çıxışlıq hal şəkilçisinin birləşməsindən yaranmışdır. -*Andan* (-əndən) şəkilçisinin iştirakı ilə düzələn sözlərin qrammatikliyi onların xəbərlə uzlaşma və idarə əlaqəsi yaratmasından (Səhər açılandan gözləyirəm, Evə gələndən dincəlmişəm, Yol açılandan get-gəldəyəm), derivativliyi isə feilə qoşulub zaman zərfi əmələ gətirməsindən (dayanandan, gözləyəndən, danışandan) ibarətdir.

3) *Birinci tərəfi sözdəyişdirici, ikinci tərəfi sözdüzəldici tipli şəkilçilərdən ibarət olanlar*

Bu qrupa aid olan *–ımgil* (-imgil, -umgil, -ümgil) şəkilçi tərkibinin birinci hissəsi birinci şəxs mənsubiyyət şəkilçisindən, ikinci tərəfi isə aidiyyət, mənsubiyyət, tərəf bildirən sözdüzəldici tipli *–gil* şəkilçisindən ibarətdir. Birinci tərəfin qrammatikliyi onun mənsubiyyət kateqoriyasına aidiyyəti ilə səciyyələnir. Onun derivativliyi isə *–gil* tərkibinin sözyaratma keyfiyyətindən asılı olur. Şəkilçi tərkiblərində mənsubiyyət, aidiyyət, şəxsiyyət anlayışı özünü açıq-aydın nümayiş etdirdiyidən onun vasitəsi ilə düzələn sözləri nisbi sözdüzəldici adlandırmaq (qardaşımgil, dayımgil, xalamgil, əmimgil, bacımgil) mümkündür. *–Ingil* (-ingül, -ungul, -üngil) şəkilçisinin bundan fərqi onun mənsubiyyət elementinin ikinci şəxsə aid olması ilə (əmimgil, dayımgil, bacımgil, qardaşımgil, xalamgil) müəyyən edilir.

-*Inca* (-incə, -unca, -üncə) şəkilçi tərkibi mənşəyinə görə əmr formasının ikinci şəxsinin cəmini bildirən *–ın* (-in, -un, -ün) elementindən, və *–ca* (-cə) sözdüzəldici şəkilçisindən ibarətdir. Feili bağlama kimi formalaşmış bu şəkilçinin qrammatikliyi onun iştirakı ilə düzələn sözlərin feillə əlaqə yaratmasından ("Sən gəlincə qatar getmişdi", "Gözləyincə axşam oldu", "Səhər açılınca yuxudan durdu") ibarətdir. Derivativliyi isə feildən zaman, tərzi-hərəkət, hal-vəziyyət məzmunlu zərf düzəldilməsi ilə (doyunca, qədərincə, gözləyincə) bağlıdır.

-*Alı* (-əli) şəkilçisinin birinci tərkibi *–a* (-ə, -ya, -yə) arzu formasına aid qrammatik elementdən, ikinci tərkib hissəsi isə *–lı* (-li, -lu, -lü) sözdüzəldici

şəkilçidən ibarətdir. Şəkilçi tərkibi bir vahid kimi feillərə qoşulub zaman, hal-vəziyyət bildirən zərf (alalı, gələli, danışalı, gözləyəli) əmələ gətirir. Bu, sözlərin leksik-semantik anlayışı ilə bağlı derivativ xüsusiyyətidir. Şəkilçinin qrammatik xüsusiyyəti isə onun vasitəsi ilə düzələn sözlərin feillə əlaqə yaratmasından (Sən gələli bir yana getmədim; Sən danışalı mən dinmədim) ibarətdir.

-*Dıkca* (-dikcə, -duqca, -dükcə) şəkilçisinin birinci tərkib hissəsi şühudi zamanın birinci şəxsinin cəminə aid elementdən, ikinci tərkib hissəsi isə *–ca* (-cə) sözdüzəldici şəkilçidən ibarətdir. Hər iki şəkilçi vahid bir tərkibdə zaman və tərzi – hərəkət mənalı sözlərin (*aldıqca, yazdıqca, gəldikcə, gördükcə*) düzəlməsidə iştirak edir. Qrammatik cəhətdən belə sözlər feillə əlaqə yaradır, derivativlik baxımından isə zaman və tərzi-hərəkət zərflərinə aid məa xüsusiyyətləri bildirir.

4) *Birinci tərəfi sözdəyişdirici, ikici tərəfi -ikən (-kan, -kən) hissəciyi ilə ifadə olunalar*

Bu qrupa daxil olan *–arkən* (-ərkən) şəkilçisi qeyri-qəti zaman şəkilçisi ilə *–kan* (-kən) elementinin birləşməsindən törəyib qeyri-qəti gələcək zamana aid anlayış bildirən sözlərin (alarkən, bilərkən, oturarkən, durarkən) düzəldilməsində iştirak edir. *–Irkən* (-irkən, -urkən, -ürkən) şəkilçi tərkibi indiki zaman əlaməti ilə *–kən* bağlama hissəciyindən törəyib indiki zaman anlayışlı sözlərin (alırkən, gəlirkən, görürkən, bilirkən) düzəlməsində iştirak edir.

-*Mışkan* (-mişkən, -muşkan, -müşkən) şəkilçisini birinci tərkib hissəsi nəqli keçmiş zaman şəkilçisindən, ikici tərkib hissəsi isə *–kan* (-kən) bağlama hissəciyiin birləşməsidən törəmişdir. Həmin şəkilçi tərkibinin iştirakı ilə feillərdən zaman anlayışlı (gəlmişkən, görmüşkən, yazmışkən, demişkən) sözlər formalaşır.

Bu qrupa aid olan şəkilçilərin tərkib hissələrindən də göründüyü kimi birinci tərəflər qrammatik, ikinci tərəflər isə qismən sözdüzəldici xarakter daşıyan elementlər kimi səciyyəvidir. Birinci tərəflər daim ikici tərəflərin sözdüzəldicilik keyfiyyətinə uyğun olaraq derivativliyə meyillilik nümayiş etdirir. Azərbaycan dilinin öz daxilindən baş verən sözyaratma prosesinin intensivləşməsi sayəsində bu tipli şəkilçilərin öz potensialını geişləndirmək imkanları ardıcıl olaraq davam etməkdədir.

İstifadə edilən ədəbiyyat
Azərbaycan dilində

1. Azərbaycan dilinin funksional qrammatikası. (Ön söz M.Musayev), 2 cilddə, II c., 01.12.2017; 304 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı, Şərq-Qərb, 2007, s. 192.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, Azərtədrisnəşr, 1963, 276 s.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Şərq-Qərb, 2007, s. 280.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası, 2 hissədə, I h., Bakı, Elm, 2007, 280 s.

İnternet resursları

6. Vəliyev E.Ə. Azərbaycan dilində formadüzəldici şəkilçilər. Fil.üzrə fəls.dok.diss.avtorefaratı, Naxçıvan, 2012, 25 s.

QƏNİRƏ MƏMMƏDZADƏ

SÖZ TƏRKİBİNDƏ İŞLƏNƏN NİSBİ SÖZDÜZƏLDİCİ ŞƏKİLÇİLƏR

XÜLASƏ

Məqalədə nisbi sözdüzəldici şəkilçi adı şərti olaraq işlənmişdir. Bu şəkilçilər elə qrammatik elementlərdən ibarətdir ki, onlar dilçilik ədəbiyyatında formadüzəldici şəkilçilər kimi xarakterizə edilir. Dilçilik ədəbiyyatında formadüzəldici şəkilçilər barədə yekdil fikir olmasa da əksərən elə hesab edilir ki, formadüzəldici şəkilçilər qrammatik şəkilçi kimi tam qrammatikliyə xidmət etmir. Yəni qrammatik şəkiləçilər sözlər, söz birləşmələri və cümlə üzvləri arasında qrammatik-sintaktik əlaqə yaratdığı halda formadüzəldici şəkilçilərdə belə bir daimi funksiya müşahidə edilmir. Eyni ilə sözdüzəldici şəkilçilərin iştirakı ilə bir sözdən yeni bir leksik vahid yarandığı halda formadüzəldici şəkilçilərdə belə bir daimi funksiya mövcud deyildir. Odur ki, formadüzəldici şəkilçilər bir qayda olaraq sözdüzəldici və sözdəyişdirici arasında aralıq mövqeli elementlər kimi xarakterizə edilir. Bununla yanaşı formadüzəldici adlandırılan şəkilçilərin özündə qismən sözdüzəldiciliyə daha artıq meyillilik müşahidə edilir. Azərbaycan dilində nisbi sözdüzəldici şəkilçi kimi formalaşman bu kimi vasitələr –dığım (-diyim, -duğum, -düyüm), -madan (-mədən), -araq (-ərək), -dıqda (-dikdə, -duqda, -dükdə), -maqda (-məkdə), -ımgil (-imgil, -umgil, -ümgil) və s. kimi tərkiblərdən ibarətdir. Həmin şəkilçilərin qoşulması ilə düzələn sözlər dilçilikdə düzəltmə söz kimi qəbul olunur.

RELATIVE WORD-FORMING SUFFIXES USED IN THE WORD STRUCTURE

SUMMARY

In the article, the relative word correcting suffix noun is used conditionally. These suffixes consist of such grammatical elements that they are characterized as formative suffixes in the linguistics literature. Although there is no unanimous opinion about formative suffixes in linguistics literature, it is generally considered that formative suffixes do not serve complete grammar like grammatical suffixes. That is, while grammatical suffixes create a grammatical-syntactic relationship between words, phrases and sentence members, no such constant function is observed in formative suffixes. Similarly, if a new lexical unit is created from a word

with the participation of word-correcting suffixes, such permanent function does not exist in form-correcting suffixes. That is why formative suffixes are generally characterized as elements with an intermediate position between word modifiers and word correctors. At the same time, the so-called form-correcting suffixes themselves have a greater tendency to partial word-correction. In the Azerbaijani language, such means of formation as a relative word-correcting suffix are –dıghım (-diyim, -dughum, -düyüm), -madan (-madan), -araq (-arak), -dıqda (-dikda, -duqda, -dukda), -maqda (-makda), -ımgil (-imgil, -umgil, -umgil) etc. consists of such as ingredients. The words formed by joining those suffixes are considered in linguistics as derivative words.

ОТНОСИТЕЛЬНЫЕ СУФФИКСЫ, ИСПРАВЛЯЮЩИЕ СЛОВО, ИСПОЛЬЗУЕМЫЕ В СТРУКТУРЕ СЛОВА

РЕЗЮМЕ

В статье относительное слово, исправляющее суффикс существительного, употребляется условно. Эти суффиксы состоят из таких грамматических элементов, что в лингвистической литературе они характеризуются как формообразующие суффиксы. Хотя в лингвистической литературе нет единого мнения о формообразующих суффиксах, обычно считается, что формообразующие суффиксы не служат полной грамматике, как грамматические суффиксы. То есть, если грамматические суффиксы создают грамматико-синтаксическую связь между словами, словосочетаниями и членами предложения, то у формообразующих суффиксов такой постоянной функции не наблюдается. Точно так же, если из слова создается новая лексическая единица с участием словокоррекционных суффиксов, то такой постоянной функции у формокорректирующих суффиксов не существует. Вот почему формообразующие суффиксы обычно характеризуются как элементы с промежуточным положением между модификаторами и модификаторами. В то же время сами так называемые формокорректирующие суффиксы имеют большую склонность к частичной словокоррекции. В азербайджанском языке такими средствами образования, как относительный словокоррекционный суффикс, являются -дыйим (-дийим, -дугам, -дыйум), -мадан (-медан), -арак (-арек), -даде (-декде, -дугда, -дукда), -магда (-макда), -имгил (-имгил, -умгил, -умгил) и др. состоит из таких ингредиентов, как Слова, образованные присоединением этих суффиксов, рассматриваются в языкознании как видоизмененные слова.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: M.İ.Yusifov tərəfindən çapa tövsiyə olunmuşdur

AYTƏN RƏCƏBOVA
filologiya üzrə fəlsəfə doktoru
ADU
Rəşid Behbudov 134
e-mail:aytan.rajabova@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ İŞGÜZAR YAZIŞMALARIN DİL XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Müxtəlif ölkələr arasında çoxsahəli əlaqələrin inkişaf etdirilməsi dövründə kargüzarlıq sahəsinin genişləndirilməsi və inkişaf etdirilməsi müşahidə edilir. Bu zaman isə artmaqda olan ehtiyac və tələbatları nəzərə alaraq bu sahənin daha ciddi elmi əsaslar üzərində qurulması məsələsi meydana çıxır. Bu da sözü gedən sahənin müxtəlif aspektlərinin təhlilinin işçilərin ehtiyac və tələbatlarına daha çox uyğunlaşdırılmasını tələb edir. Qeyd edilən sahədə statistik məlumatların yığılması və təhlilə cəlb edilməsi vacib məsələlərin həllində uğurlu nəticələrin əldə olunmasına şərait yaradır. Aparılmış linqvistik təhlil nəticəsində müəyyənləşdirilmiş ayrı-ayrı situasiyalara xas olan linqvistik xüsusiyyətlərin aşkar edilməsi işgüzar yazışmaların əsasını təşkil etməlidir.

Müasir zamanda bu proses «ehtiyac və tələbatların təhlili» (needs analysis) adını almışdır. Sözü gedən proses həm də «ehtmal edilən situasiyaların təhlili» (target situation analysis) kimi tanınır. Ehtimal edilən situasiyaların təhlili bu sahənin artıq tanınmış mütəxəssisləri, həm də müxtəlif sahələrin mütəxəssisləri tərəfindən qəbul edilmiş mərhələdə baş verir. Müasir dünyada qlobal ünsiyyət dili statusunu qazanmış ingilis dilindən kommunikativ məqsədlərə nail olmaq üçün istifadə etmək qabiliyyətinə malik olan kargüzarlıq sahəsində gənclərin hazırlanması qarşıya qoyulan əsas vəzifələrdən biridir.

Hazırda çalışan hər hansı kadr ixtisas profilindən asılı olmayaraq müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə müxtəlif sahələrdə bilik səviyyələrini artırmalı, ixtisasları ilə bağlı olan dünya təcrübəsindən faydalanmaq və ondan konstruktiv şəkildə istifadə etmək qabiliyyətinə malik olmalıdırlar. Dildə ifadə olunan fikrin qlobal obrazı sənədlərdə də dil ifadəsinin üsul və stereotiplərinə uyğun olaraq, üzvləşməli, strukturlaşdırılmalı və xətti nəql imkanlarına maksimum yaxınlaşdırılmalıdır. Meydana gələn çalarlar dil strukturları və dil vahidləri ilə əlaqələndirilməli, onların ümumi məcmusu müəyyən nümunə və ya sxemlə yekunlaşdırılmalıdır. Məzmunun dil formasının sənədlərin dili ilə bu cür yaxınlaşdırılması ona görə asanlaşır ki, məlumatın müəyyən fraqmentinin qavranılmasında, həmçinin stereotiplər, yaxud sxemlər fəaliyyət göstərir.

Beləliklə, xəbər sənədin dili ilə ötürülür. Fikirlə söz arasında daha bir nitq -fikir prosesi vardır ki, bu da sənədlərin təsnifatı və onun özünün xüsusi növləri ilə bağlıdır.

Açar sözlər: strategiya, nitq, dil, kontekst, yazı

İşgüzar yazışmaların mümkün kommunikativ situasiyalarda uğurla işlədilməsi onların daha çox araşdırılmasını tələb edir. Sözügedən məsələ bu baxımdan cəlbedici görünür. Bu işdə intensiv araşdırmalar, müşahidələr məqsədəuyğun hesab edilir. Eyni zamanda statistik məlumatların təqdimatı da maraqlı hesab edilən faktlardandır. İşgüzar yazışmalar zamanı ən başlıca funksiyalardan biri həmin dildə danışanların mədəniyyətini qəbul etmə bacarığına yiyələnməkdir. Bu proses ali bacarıqlar sırasına daxil olaraq təcrübə sahəsində deyil, yalnız insanın savadı, fərdi inkişaf səviyyəsi, özünə və dünyaya olan tənqidi münasibətdən asılıdır.

Beləliklə, istər sənədlərin dili ilə, istərsə də bu və ya digər formada ünsiyyətin ümdə vəzifəsi məlumatı ötürmək və ötürülən məlumatı başa düşməkdən ibarətdir ki, bu da əsasən sənədlər, yazışmalar vasitəsilə gerçəkləşir[1,s.21].

Son nəticə olaraq məlumat ötürülür ki, bu da önəmlidir. Elə buna görə də, sənəd və yazışmalar informant rolunda çıxış edir. Ünsiyyət qarşılıqlı olduğu zaman daha uzun ömürlü olur. Geniş mənada insanlar arasındakı ünsiyyət dillə bağlıdır.

İnsanlar mürəkkəb dil fəaliyyətində iştirak edərək, bir-birlərini başa düşürlər və hətta səsli ünsiyyətin mahiyyətini açıb göstərmək istəyəndə səssiz ünsiyyəti də nəzərə alırlar[4, s.101].

Göründüyü kimi, burada bir çox amillərin nəzərə alınması vacib hesab olunur.

Bundan başqa, təqdimat olarkən həm də sinif və ya auditoriya şəraiti dənəzərə alınmalıdır. Görüntü lazımi şəkildə olmalıdır.

Məsələn,

1. Təsvirlər ver!
2. Müqayisələr apar!
3. Assosiasiyalar et!
4. Razılaş!
5. Bunlardan bəhs et!

Həqiqətən əgər motivasiya etmək fikri varsa doğrudan da motivasiya olunacaqlar.

Motivə etmənin yolları aşağıdakılardır:

1. Sən elə mühit formalaşdırmalısan ki, motivasiyaedici olsun.
2. Burada məsələ motivasiyanın təminatıdır.
3. Təbəssüm
4. Yumoru unutma

5. Etibar
6. İnam qazan.
7. Hörmətlə yanaş
8. Qarışıqlığı aradan qaldır
9. Anlaşılmazlığı aradan götür
10. Əmr etmə.

Bu gün müasir təşkilatlarda işgüzar yazışmaların müxtəlif növlərindən istifadə olunur ki, onlardan ən çox istifadə olunanı məktublardır.

İşgüzar yazışmaların müasir təşkilatlarda istifadə olunan növlərindən olan məktublar yazılarkən müvafiq tələblərə cavab verməlidir[3, s.185]. Məlumatın ötürülməsini nəzərdə tutan bütün sənəd növləri, o cümlədən məktublar qeydiyyatdan keçməlidir. Məktublar yazılarkən kifayət qədər diqqətli olmaq tələb olunur. Belə ki, xırda bir səhv anlaşılmazlığa, münaqişələrə təkan verə bilər. Bu yazılarda arxaik və köhnəlmiş sözlər uzun müddət qorunur. İşgüzar məktubların dil xüsusiyyətlərindən bəhs edərkən reklam məktubları da maraq kəsb edir. Bu zaman üslub tərtibatı mühüm əhəmiyyət kəsb edir.

Reklam məktubu tərtibat edilərkən şrift 13, sətirlərarası intervalın həcmi isə 1,5-dən kiçik olmamalıdır. Bu zaman müvafiq qaydalara riayət olunması vacibdir. Belə ki, reklam məktubunda adətən təklif olunan əmtəə və xidmətlər haqqında məlumat verildiyindən, o müəyyən sxem üzrə tərtib edilir:

1. Adresata müraciət.

Məsələn, “Hörmətli cənablar!”və yaxud “Hörmətli əməkdaşlar!”

Maraqlı burasıdır ki, reklam məktubunun tərtibində xitablar dil faktı kimi öndə gedir.

Yuxarıda qeyd etdiyimiz “Hörmətli cənablar!”və yaxud “Hörmətli əməkdaşlar!” ifadələri buna misaldır.

2. Şirkətin qısa və lakonik təqdimatı.
3. Əmtəə və xidmətlərin meyarlarının qarşı tərəfə bildirilməsi
4. Əlavə və buna bağlı şərtlər barədə məlumat verilməsi

Daha sonra isə əməkdaşlığın konkret təsviri verilir.

Topdan və pərakəndə satış haqqında təkliflər bu sırada yer alır. Lazım olarsa mallardan bir nüsxənin qarşı tərəfə ötürülməsi də bu sıralamaya aiddir. Eyni zamanda suallara cavab üçün hazırlıqlı olmaq da vacib şərtlərdəndir. Gələcək əməkdaşlığa ümid bəsləmək və bunu ifadə etmək də işin faydalı tərəfi ola bilər. Daha sonra imzalar atılır.

Müasir təşkilatlarda istifadə olunan əsas sənəd növlərindən biri də ərizədir. Bu söz mənşəcə “ərz“ sözündəndir.

Ərizə mahiyyət etibarilə iki formada yazılır:

1. Şikayət ərizəsi
2. Xahiş ərizəsi

Bundan başqa, işə qəbulla bağlı ərizə, mənzil verilməsi ilə bağlı, təkliflər paketinin göndərilməsi və s. də bu sırada yer alır. Ərizə rəsmi dövlət dilində yazılmalı, düşünülmüş, lakonik, yığcam, anlaşıqlı olmalıdır.

Müasir təşkilatlarda istifadə olunan ərizələrdə yaltaqlıq fonunda heç nə yazılmamalı, şikayətçi olduğu adamın şəxsiyyətini təhqir edən söz və ifadələr işlədilməməlidir. Müraciət zamanı müəyyən alicənab, gözəl insan və s. kimi söz və ifadələrin işlədilməsinə yol verilmir. Tərcümeyi- halda xüsusi isimlər böyük hərflə işlədilir.Bundan əlavə, tərcümeyi- hal yazılarkən uzun -uzadı söz və ifadələr, şəxsin emosional sferasının sənəddə təsviri yolverilməz hesab edilir.Sənədlərdə sözlər arasında bağlayıcı olan cümlələrə rast gəlinir.Bu bağlayıcılar işlənən zaman sadalama özünü göstərir. Bu zaman bağlayıcı aparıcı rol oynayır, məzmun bağlayıcının ümumi qrammatik - semantik məzmunundan asılı olur.

Hər iki dildə bitişdirmə, qarşılıq, bölüşdürmə bağlayıcıları, iştirak və inkar bildirən bu növ bağlayıcılardan birinin iştirak etdiyi cümlələrdə, sadalama intonasiyası öz əhəmiyyətini itirir.Onu da qeyd etmək lazımdır ki, tərcümeyi- hal yazılarkən xronoloji tarixin ardıcıllığını qorumaq vacib şərtlərdəndir. Burada əsasən saylar aparıcı rol oynayır. Belə ki, sıra sayları diqqət mərkəzində olur[2, s.189].

Bu gün müasir təşkilatlarda işgüzar yazışmalardan ən çox istifadə olunanlardan xasiyyətnamələr və arayışlardır. "Xasiyyətnamə" ərəb mənşəli söz olub, "xasiyyət və namə" sözlərini özündə birləşdirir. Bu sənəddə şəxsin ictimaiyyətdə və işdə fəaliyyətinin təsviri verilir.Xasiyyətnamə geniş spektrə malik sənəddir.Bu sənəd hər hansı şəxsin rəhbər vəzifəyə təyini və ya dövlət orqanları tərəfindən tələb edilərkən tərtib edilir. Eyni zamanda əməli yazı növünə aid olub, rəsmi üsluba əsaslanır. Müasir dövrdə xasiyyətnamələr daha dolğun və sadə dildədir. Xasiyyətnamə aid olduğu müəssisənin rəhbəri və Həmkarlar Təşkilatının sədri tərəfindən imzalanır. İri təşkilatlarda xasiyyətnaməni şöbə müdirləri yazırlar. Digər geniş yayılmış sənəd nümunəsi arayışlardır."Arayış" sözü mənşə etibarilə türk sözü olub,"axtarmaq" mənasını verir. -Arayışlar şəxsin bu və ya digər yerdə yaşaması, oxuması, işləməsi, hər hansı mülkə sahib olması və s. haqqında hüquqi sənəddir.

- Arayış verilərkən kimə, nə üçün verildiyi göstərilməlidir.Eyni zamanda işlədiyi müəssisənin rəhbərinin imzası olmalıdır. Burada bəzi istisna halları da vardır. Belə ki, arayışları müəssisənin kadrlar şöbəsinin müdiri, mühasibatlıq, fakültə dekanları və s. imzalaya bilər. Sonda sənədin gedəcəyi ünvan qeyd edilir. Lakin möhür sənədin təsdiqi üçün vacib hesab edilir. Əksər hallarda arayışlar xüsusi nəzərdə tutulmuş blankda yazılır."Arayış" sözünü yazarkən onun mövqeyi vərəqin orta hissəsi olmalıdır. Sol hissədə idarəyə aid ştamp yer alır. Ştampın aşağı hissəsində say və yazıldığı vaxt qeyd edilir.Məzmun tamamlandıqdan sonra aid olduğu müəssisənin rəhbərinin imzası, soyadı və daşıdığı titulu qeyd edilir. Arayışın aid olduğu dil xüsusi üsluba tabedir. Söz sırasının pozulma halları arayışın yazılışında xarakterik hesab olunur. Burada mübtəda deyil, xəbər əvvəldə, yəni prepozitiv mövqeyə malikdir.

Arayış yazılarkən sırf elmi ədəbi dil hakim olmalı, bədiilikdən, obrazlılıqdan uzaq olmalıdır.

Bundan əlavə, mürəkkəb arayış növləri də vardır. Bunlar əsasən cinayət tərkibli məsələlərdə faktların digər tərəfə izahlı şəkildə çatdırılmasını nəzərdə tutur.
Bu zaman burada bir və ya bir neçə şəxsdən bəhs etmək mümkündür.

Bundan əlavə, bəzi sənədlər elektron qaydada həyata keçirilməlidir:

- vətəndaşlara aid şəxsiyyət vəsiqələri
-pasport-viza
- sərhədi keçərkən vacib sənədlərinin fərdi olaraq doldurulması
- təhvil götürülməsi
-yaşayış yerində qeydiyyatı
- sənəd blankları və onların uçotu
-ölkəyə daxil olma və ölkədən çıxmasına məhdudiyyət qoyulan və ya axtarışı elan edilən şəxslər
-nəqliyyat vasitələrinin siyahılarının aparıması
- qanunsuz sərhədikeçmə sənədləri ilə əlaqədar yoxlamalar
-şəxslərin, sənədlərin, nəqliyyat vasitələrinin nəzarətinin həyata keçirilməsi
-siyahı üzrəyoxlamanın həyata keçirilməsi
-sərhədkeçmə uçotu
-şəxslərin identifikasiyası
-sərhədkeçmə
- şəxsiyyəti təsdiq edən sənədlərin doğruluğunun təyini
-bəzi sistem uzlaşmalarının təyini
-biometrik məlumatlarla bağlı informasiyanın əldə edilməsi
- informasiya resurslarının inkişaf mexanizmi
- onların yararlılığı

Bütün bunlar insanların hüquq və azadlıqlarının qorunması fonunda həyata keçirilməlidir.

Ümumiyyətlə, müasir təşkilatlarda ən çox istifadə olunan sənədlər təşkilati - sərəncamverici sənədlərdir. Onlar böyük əhəmiyyət kəsb edir.

Beləliklə, müasir təşkilatlarda istifadə olunan sənədlər günün tələbinə uyğun olmalı, standartlara cavab verməlidir.

Ədəbiyyat

1. Tannen, D. Oral and Literate Strategies in Spoken and Written Narrative, Language // 58, 1999, pp. 11-21.
2. Ullman S. Language and meaning. London: Word, 1996, Vol.2 №2, 190 p.
3. Widdowson H.G. Exploration in Applied Linguistics. London: Oxford University Press, 1979, 187 p.
4. Weinreich Uriel. On Semantics. University of Pennsylvania Press, 1980, 116 p.

A. RAJABOVA

THE LINGUISTIC CHARACTERISTICS OF BUSINESS CORRESPONDENCE IN MODERN ENGLISH

SUMMARY

The article deals with the linguistic characteristics of business correspondence. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. Phonological awareness is essential for learning to read and write. It was measured by, for instance, the following items of the initial test: finding rhyme words, in the general section of the test, and building words out of sounds and segmenting words into syllables, in the auditory section of the test. The success in tasks that require phonemic awareness is considered the most important prerequisite for learning to read. In the auditory section of the initial test for instance, the identification of the first or last phoneme in a word, and the phoneme synthesis task. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of business correspondence. The author emphasizes its role. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. Try to choose a pattern that permits you to move from the familiar to the unfamiliar or from the simple to the complex. After you have chosen a specific subject heading, identified your main and supporting points, and selected an appropriate organizational pattern, your next step is to outline your material in the framework as it will appear in your letter, book report, research paper, etc. Even exceptional writers need an outline for their ideas to appear as if they were naturally arranged from the beginning of the message or report to the end. For longer papers and reports, you will find a detailed outline is usually a better aid in organizing your material. Even though developing the outline can be a difficult process, it forces you to align your main and supporting ideas in logical order before you begin writing. Otherwise, distractions of all kinds can confuse you and make your writing job much more difficult than it should.

Key words : strategy, speech, language, context, correspondence

А.РАДЖАБОВА

ЛИНГВИСТИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ДЕЛОВЫХ ПИСЕМ НА СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы лингвистические характеристики деловых писем. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и

партнерами. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. Студенты изучающие иностранный язык, используют различные справочники, словари, книги для чтения, аудио и видеоматериалы, компьютерные программы и т.д. Проблема обучения комбинированию элементов лексики изучаемого языка в процессе речевой коммуникации органически входит в более общую проблему обучения иноязычно-речевой коммуникации, так как комбинаторика, наряду со знаниями и совокупностью навыков, рассматривается в качестве одного из компонентов речевого умения. Основная цель обучения иностранным языкам у нас в стране в настоящее время заключается в обучении языку как естественному средству общения и формировании у обучаемых адекватного умения использовать изучаемый язык. Решение этой сложной задачи возможно, если будет создана достаточная фундаментальная теоретическая база. Для того, чтобы система обучения тому или иному иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми , а также потребность в самореализации. Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения.

Ключевые слова: стратегия, речь, язык, контекст, письмо

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA QOCAYEVA
ATU, Azərbaycan dili kafedrası,
dosent

HÜSEYN ARIF POEZIYASINDA DIL MƏSƏLƏLƏRI

XÜLASƏ

Xalqımızın əsrlərlə qoruyub saxladığı mənəvi sərvətlərindən biri də bizim ana dilimizdir. Ana dilindən ustalıqla istifadə edən, onun təmizliyi uğrunda mübarizə aparan şairlərdən biri də Hüseyn Arif olmuşdur. Şair şeirlərində bədii təsvir və ifadə vasitələrinin gücü ilə emosionallığı, təsvir, tərənnüm, yaxud təcəssüm etdiyi hadisələri oxucusuna qabarıq şəkildə çatdırmağa çalışmışdır. Hüseyn Arifin yaradıcılığının mühüm bir hissəsi vətən mövzusunu əhatə edir. Bu baxımdan "Göyçəlilər, dağılmayın Göyçədən" şeiri ideya-məzmun xüsusiyyətləri, poetik incəlikləri ilə diqqəti cəlb edir. Xüsusi ilə onun 20-ci əsrin 80-cı illərində yazdığı şeirlərində şair vətəndaşlıq heysiyyatını önə çəkməklə yurdun övladlarını vətənpərvərliyə, mübarizliyə çağırır. "Ola", "Gəncə palıdları" sadə xalq dilində yazılmış bir nəsihət xarakterli nümunədir , bu şeirlərdə xalq deyimi, xalq dili şeirin dəyərini, sanbalını artırır. Keçmişimizə, dünənimizə, tariximizə bir qayıdışdır. H.Arif poeziyasında müasirlik əsas olsa da, xalqın keçmişi və klassik irsimiz şifahi xalq yaradıcılığı ilə sıx əlaqədə inkişaf etmişdir.Hüseyn Arifin yaradıcılığı onun poeziya dilinin saflığı, sadəliyi, rəvanlığı ilə yadda qalır.

Açar sözlər: poeziya, vətənpərvərlik, mübarizə, folklor, mənəvi sərvətlər

Xalqımızın əsrlərlə qoruyub saxladığı mənəvi sərvətlərindən biri də bizim ana dilimizdir. Milli-mənəvi dəyərlərimizin qorunması və möhkəmləndirilməsi, əslində, xalqımızın milli ideologiyasının, milli şüurunun inkişaf edib möhkəmləndirilməsi deməkdir. "... Dil bilavasitə fikir gerçəkliyidir, fikrin təzahürüdür. Hamıda fikir, psixologiya eyni ola bilmədiyi kimi, onun ifadə tərzi də müxtəlif olmalıdır. Lakin ifadə tərzinin müxtəlifliyi hər yerdə yazıçının üslubundan asılı olaraq az və ya çox fərqlənə bilər." (1, 91)

Bu baxımdan Hüseyn Arif poeziyasının dili uğurlu poeziya dili sayıla bilər. Xüsusilə, Ana dilindən ustalıqla istifadə edən, onun təmizliyi uğrunda mübarizə aparan şairlərdən biri də Hüseyn Arifdir. Şair şeirlərində bədii təsvir və ifadə vasitələrinin gücü ilə emosionallığı, təsvir, tərənnüm, yaxud təcəssüm etdiyi hadisələri oxucusuna qabarıq şəkildə çatdırmağa çalışmışdır.

"Hüseyn Arif neçə əsrlik Azərbaycan xalq poeziyasının klassik qolu ilə müasir qolu arasında canlı bir körpü idi. Klassikaya məxsus poetik incəliklər, müdrik düşüncə tərzi, aşıq-ozan mədəniyyəti, xalq ruhu onun şeirlərində də davam və inkişafda idi. O da ustadları kimi qoşmanın, gəraylının safını, özəlini yaradırdı,

şəklini çəkmirdi. O da ustadları kimi elin, obanın təəssübkeşi idi və bu təəssübkeşlik o dərəcəyə çatırdı ki, H.Arifin şeirlərində Xalq bütün mənəvi dünyası ilə baş qəhrəmana çevrilirdi"- deyir Vaqif Yusifli.

Hüseyn Arifin yaradıcılığının mühüm bir hissəsi vətən mövzusunu əhatə edir. Bu baxımdan "Göyçəlilər, dağılmayın Göyçədən" şeiri ideya-məzmun xüsusiyyətləri, poetik incəlikləri ilə diqqəti cəlb edir. Onun digər şeirləri kimi, müharibə, vətən mövzusunda yazdığı şeirlərdə də səlislik, aydınlıq, poetik bütövlük əsas yer tutur. Bədii dilin, xüsusilə şeir dilinin təhlili qarşısında duran mühüm məsələlərdən biri şairin xalq dilinə - dialekt sözlərinə münasibətini, onun üslubunun xəlqilik dərəcəsini müəyyən etməkdir.

Xüsusi ilə onun 20-ci əsrin 80-cı illərində yazdığı şeirlərində şair vətəndaşlıq heysiyyatını önə çəkməklə yurdun övladlarını vətənpərvərliyə, mübarizliyə çağırır. Sadə, səmimi xalq dilindən istifadə edərək yadda qalan ilk çağırış şeirini qələmə almışdır.

El yeriyər, yaxın köçər, yad itər.
Yurd dağılar, ocaq sönər, od itər,
Nəsil kəsər, tarix batar, od itər
Göyçəlilər, dağılmayın Göyçədən! (2, 28)

H.Arifin heca vəznində, qoşma janrında yazdığı "Göyçəlilər dağılmayın Göyçədən" şeirinin dili aydın, anlaşıqlıdır. Bir sözlə ustad dilidir. Bu onun əsrin əvvəllərində yazdığı digər şeirlərdə də belə idi. Onun hər şeirində, hər bəndində, hər misrasında bu ustalıq görünür.

Dədə Qorqud nəfəs dərib bu yerdə,
Bərkə-başa sinə gərib bu yerdə
Nəsillərə öyüd verib bu yerdə
Göyçəlilər, dağılmayın Göyçədən! (2, 28)

Alxan Bayramoğlu "Qarabağ müharibəsi və və ədəbiyyat" adlı məqaləsində yazır: "Müharibənin ilkin əks-sədası "Göyçəlilər, dağılmayın Göyçədən!" – nidası ilə nalə çəkdi. Bu nalə böyük bir eli öz yurduna möhkəm bağlamağa, xalqı milli-siyasi ayıqlığa çağırırdı. Hüseyn Arifin həmin harayını yalnız müəyyən kütlə elə düşüncəsilə eşidib ona səs verdi. Lakin şair narahatlığı yurdun, ana torpağın taleyi naminə ictimai narahatlığa çevrilə bilmədi. Ona görə hər tərəfdən təklənən "göyçəlilər dağıldılar göyçədən"." (4, 35)

Şeir 1987-ci ildə, hələ Qarabağ hadisələri baş verməmiş çox böyük həyəcanla yazılmışdı. Güman etmək olar ki, şairin uzaqgörənliyi onu bu şeiri yazmağa vadar etmişdir. Bütün varlığı ilə vətənə bağlılığı onun poeziyasında hər zaman kəsiyində yetərincə olmuşdur. Ancaq onun adı çəkilən şeirində bu hisslər daha dolğun əks olunub. Sadə xalq dilindən bəhrələnən şair yadda qalan vətənpərvərlik nümunəsi yaratmışdır.

Ardanışda xatirən var, izim var,
Babacanda söhbətim var, sözüm var
Şişqayada, Kəsəməndə gözüm var,
Göyçəlilər. Kəsəməndə gözüm var,
Göyçəlilər, dağılmayın Göyçədən.

Onun şeirlərini oxuduqca düşünürsən ki, şeirlər sanki bir bulaq suyudur. İnsanın ruhunu oxşayır, narahat qəlbini sakitləşdirir. Sual yaranır: Hüseyn Arifin bu cür ustalığının sirri nədir, nə üçün onun fikir karvanının axarı bu qədər sadə və aydındır? Bu suala cavab axtararkən ən əvvəl Hüseyn Arifin fitrətən xalq poeziyasına, xalq düşüncə və təfəkkür tərzinə, xalq deyimlərinə dərindən bağlılığı və bələd olmasını xatırlamaq lazımdır. Xalq yazıçısı İsmayıl Şıxlı Hüseyn Arif haqda yazırdı: "Hüseyn Arifin şeirlərində sözlərin sıralanması, kəlmələrin tərkibindəki səslərin belə cərgələnməsi o qədər sadə və ürəyə yatımlıdır ki, adam şeir oxuduğunu hiss etmir, elə zənn edir ki, kiminləsə sadəcə söhbət edir. Lakin bu həmsöhbətin elə gözəl, elə incə və elə zəngin poetik düşüncə tərzi, elə obrazlı təfəkkürü var ki, buna heyran qalmaya bilmirsən".(3, 8) Xalq poeziyası onun yaradıcılığının iliyinə, qanına hopmuşdur.

Əzizlədim dönə-dönə,
Dönüb yenə Əzizlərsən
Yönün bəri düşər deyə,
Yolu, izi təmizlərsən

Və yaxud:

Hamıya hörmət elə,
O kəslə ülfət elə
Ocağı ocağından,
Külü külündən ola!

Bu misra da şairin "Ola" şeirindəndir. Həmçinin bu kimi şeirlərində xalq deyimi xalq dili şeirin dəyərini, sanbalını artırır, sadə xalq dilində yazılmış bir nəsihət xarakterli nümunədir. Keçmişimizə, dünənimizə, tariximizə bir qayıdışdır.

S.Rüstəmxanlı "Şeirimizin dili" məqaləsində yazır: "Dünyanın rəngləri və hadisələri, ürəyin duyğu və istəkləri şeirə onlarla, yüzlərlə bir-biri ilə qovuşan, çarpazlaşan, birləşib ayrılna xətlər, gizli axınlar insan ruhunun və taleyinin özü kimi mürəkkəb havalar gətirir. Tarix ona görə ölməzdir ki, hər bir adam, eləcə də hər bir sənətkar öz balaca ömründə xalqının böyük keçmişini yəzədən yaşayır, tarixdən milyon-milyon təkcə qan yox, bu qanın yaddaşı, yurdun keçmişinin parlaq izləri də keçir. Xalq gücünün başlıca mənbəyi olan bu mənəvi varislik – poetik sözdə yaşayır. (3, 21) Obrazlı fikrin ilk yaradıcısı xalq, ilk beşiyi onun şifahi yaradıcılığıdır.

Hüseyn Arif sözə həssaslıqla yanaşır, sözü yerində işlətməyi, xalqın dili ilə danışmağı bacarır. Ən mürəkkəb fəlsəfi fikri o qədər sadə, rəvan dillə və aforizmlərlə ifadə edir ki, oxucu dərhal şairin məqsəd və məramını duyur, zehnində müəmmalı fikirlər qalmır.

Hər bir yaradıcı ziyalının şəxsiyyəti onun sənətinin məğzini, məqsəd və mahiyyətini, mənəvi bütövlüyünü şərtləndirir. Bu mənada Hüseyn Arifin istər poemalarının, istərsə də kiçik həcmli şeirlərinin hər qatında dərin lirizm, təbiət və insan psixologiyasının harmonik təsviri, həyata və zamana fərdi münasibət, Azərbaycan folkloruna, aşıq yaradıcılığına bir doğmalıq, bir məhrəmlik hakimdir. H.Arif poeziyasında müasirlik əsas olsa da, xalqın keçmişi və klassik irsimiz şifahi xalq yaradıcılığı ilə sıx əlaqədə inkişaf etmişdir. Bu baxımdan şairin "Yarı yol" şeiri dəyərli poeziya nümunəsidir.

Şair tez-tez ötən günlərə, kənd həyatına nəzər salır, kəndin, elin adət-ənənəsini, yaşantılarını yeni nəslə çatdırır. Keçmişdən gələcəyə bir yol açır.Ən əsas özəlliyi budur ki, bunu şirin dillə təsvir edir. Sanki sözlər firçalarla ağ kağızlara tökülür.

Kəkotunun çayındakı tama bax,
Atlamadan, bulamadan ver soraq,
Pətək balı, dağ havası, sarı yağı
Nə dərmanlar, nə məlhəmlər varıydı.

Bunun altında köhnə kəndin, Azərbaycan xalqının, el-obanın adət-ənənələri, yaşantılarının olduğu məlum olur. Xalq mədəniyyəti, uşaq oyunları şeirin dilinə zərər gətirmir, əksinə bir bənddə şair gəncliyin təlim-tərbiyəsinə bu oyunların, at yarışlarının təsirini vurğulayır.

"Gizlənpaç"da bir-birini tapardıq,
"Top-top" oldu, əldən topu qopardıq
"Cıdır" vaxtı köhlənləri çapardıq
Nə tədbirlər, nə təlimlər varıydı.

Və yaxud onun uşaq oyunlarına həsr etdiyi şeirlərdə artıq işləkliyini itirən sözlərdən, folklor nümunələrindən istifadə edir. Məsələn, "Bədəl olmaram" şeiri maraq doğurur.

Birinin ayağı ucardı göydə,
Birinin arxası yerə dəyərdi,
Qan-tərə batardıq "Dizə döymə"də

Və ya

Ülfət bağlamışdıq yolla, yamacla
Qayadan sıçrayıb, çayda keçərdik
"Top-top"la¸ "Qov-tut"la, "Çilin ağac"la,
Göllərdə, düzlərdə mətinləşərdik.

Şairin təbiət mövzusunda yazdığı şeirlərdə bənzətmələrdən yerli-yerində istifadə olunub. Bu baxımdan "Gəncə çinarları", "Palıdlar" şeirləri maraq doğurur.

Ağ başlı, göy sinəli,
Yaşıl ətəkli Kəpəz.
Daş dişli, daş çənəli,
Qaya kürəkli Kəpəz

Və yaxud "Gəncə çinarları" şeirində Qədim Gəncə çinarlarının dünya görmüş babalara bənzədilməsi uğurlu tapıntıdır.

Göy boyu qatar-qatardı,
Əsirlərdən yadigardı,
Dünya görmüş babalardı
Qədim Gəncə çinarları

Hüseyn Arif "Palıdlar" şeirində isə palıd ağacını torpağın, daşın keşikçisi kimi qiymətləndirir.

Əsl keşikçidir torpağa daşa,
Vüqarlı palıdlar, uca palıdlar.

Eyni zamanda palıdı qüvvət, güc, dəyanət kimi dəyərləndirir.

"Ürəyini dilinə verib və oxucunun ürəyini bu dillə ələ alan" H.Arifin yaradıcılığı onun poeziya dilinin saflığı, sadəliyi, rəvanlığı ilə yadda qalır. Dilin təmizliyi, saflığı, rəvanlığı uğrunda mübarizə hər bir söz sənətkarını sənət qarşısında yüksək, dərk olunmuş şairlik borcunun ifadəsi olmalıdır.

Ədəbiyyat

1. Hacıyev T. "Yazıçı dili və ideya bədii təhlil". Maarif, 1979
2. Hüseyn Arifin seçilmiş əsərləri, Xalq bank, 2011
3. İsmayıl Şıxlı. Hüseyn Arifin "Seçilmiş sərləri"inə öz sözdən, Bakı, Xalq bank, 2011
4. Alxan bayramoğlu Qarabağ müharibəsi və ədəbiyyat.. Bax: Qarabağ: bildiklərimiz və bilmədiklərimiz. Bakı, 2010
5. S.Rüstəmxanlı. "Zaman məndən keçir", Bakı, 2004

THE LANGUAGE OF HUSSEIN ARIF'S POETRY
SUMMARY

One of the spiritual values that our people have preserved for centuries is our native language. Hussein Arif was one of the poets who skillfully used his native language and fought for his purity. The poet has tried to convey to his readers the emotionally charged, illustrated, praised, or embodied events through the power of artistic means and expression. An important part of Hussein Arif's creativity is the

theme of homeland. From this point of view, the poem “Goychali, do not fall away from Goychay” attracts attention with its ideological content and poetic subtleties
In his poems written in the 80s of the 20th century, the poet emphasizes a sense of citizenship and calls on the children of the country to patriotism and struggle. “Ola” and “Ganja Oaks” are a good example of a simple language written in folklore, where the popularity of poetry increases the value and poetry of the poet. This is a return to our past, to our past, to our history. Although modern poetry is the basis of G. Arif's poetry, our classical heritage has developed in close connection with oral folklore. The art of Hussein Arif was remembered for the purity, simplicity and smoothness of his poetry.
Keywords: poetry, patriotism, struggle, folklore, spiritual wealth

ЯЗЫК ПОЭЗИИ ХУСЕЙНА АРИФА
РЕЗЮМЕ

Одной из духовных ценностей, которую наши люди веками сохранили, является наш родной язык. Хуссейн Ариф был одним из поэтов, которые умело использовали свой родной язык и боролись за его чистоту. Поэт пытался донести до читателей эмоционально заряженные, иллюстрированные, восхваляемые или воплощенные события с помощью силы художественных средств и выражения.

Важной частью творчества Хусейна Арифа является тема родины. С этой точки зрения, стихотворение «Гой, не отступай от Гойчай» привлекает внимание своим идеологическим содержанием и поэтическими тонкостями. В своих стихах, написанных в 80-х годах 20-го века, поэт подчеркивает чувство гражданственности и призывает детей страны к патриотизму и борьбе. “Ола” и “Гянджинские дубы”являются хорошим примером простого языка, написанного в фольклоре, где популярность стихов повышает ценность и поэзию поэта. Это возврат к нашему прошлому, к нашему прошлому, к нашей истории. Хотя современная поэзия является основой поэзии Г. Арифа, наше классическое наследие развилось в тесной связи с устным фольклором. Творчество Хуссейна Арифа запомнилось чистотой, простотой и плавностью его поэзии.
Ключевые слова: поэзия, патриотизм, борьба, фольклор, духовное богатство

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.ü.f.d. , dosent P.Ə.Əzizova
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏRYƏM FAZİLZADƏ
Bakı Dövlət Universiteti
Zahid Xəlil küç.
Fazilzadeh@mail.ru

USING LANGUAGE STYLE EFFECTIVELY IN PUBLIC SPEAKING

SUMMARY

As a speaker you can profit from experimenting with language in order to make your ideas and information interesting, meaningful, and acceptable to your audience. When speaking, you can play with language, generating different forms of expression and creating effects to make your message clear, artistic and memorable. Through practicing the use of rhetorical strategies, figurative language, and stylistic devices in writing, you can begin to transfer the devices that please you into your speaking, developing oral style and flexibility.

Clear transitions, signposting, and listening cues are evidence of clarity in speaking. While the strategies may probe useful in writing, they are essential to you and to your listeners as they attempt to follow and to understand your speech. The skillful use of such strategies is an indication of your appreciation of the listener's task and of smooth, clear speaking style.

Parallelism provides an effective and pleasing format for listening by providing structure through repetition. Antithesis tends to sloganize and make statements memorable through tightly structured contrasts. Building a series of statements to a peak or turning point (climax) achieves an emotional response from the audience and makes a final or central point memorable.

Figures of speech can appeal to the senses and evoke images for an artistic impact. Stylistic devices, adding acoustic appeal, make messages pleasing and acceptable to the listener.

Just as an artist uses paint, a knowledge of technique, and a personal theory of painting in creating a work of art, speakers use language, the knowledge of the communication process, and a personal theory of communication in creating an effective presentation. Selection, organization, style, memory, and delivery are considered to be five basic speech skills. The third skill cluster involves the use of language style.

Key words: clarity, conjure, placate, verbiage, appropriateness, grate

Style is defined as the manner in which the speaker uses language to express ideas and feelings. Style can also be defined as "clear and consistent choices." If we consider this definition in relation to language, we can then think about choosing and

implementing language strategies that reflect unique, appropriate, clear, and consistent choices. Clear language indicates clear thinking. As a speaker, clarity and appropriateness of expression are obligations you have to yourself and to your audience. (1,178)

A speaker should choose language as an artist chooses colors and textures. Your paints are words- language – and paper is your canvas. The speech is your work of art, your masterpiece. In developing style, you can play with words, experiment with sounds, and dabble in strategies that please you in order to attain the same feeling of creativity and satisfaction the artist achieves with paints and canvas. After all, our language is critical to our civilization. Through the ages, language has enabled us to preserve our culture, our religion, our history, our legends, and our myths. Consequently, language should be approached respectfully and with delight- as a child learning to talk is delighted with each new addition to his or her vocabulary.

Using writing develops oral style. The question you are probably asking is, " Why would I need to write a manuscript when a speech is given orally?" There are several reasons. We choose language strategies more carefully when we write. Writing allows for polishing and refining thoughts and language. Writing is slower than speaking, permitting time for reflection and adaptation. Writing yields a tangible product for the speaker's satisfaction and a listener's verification. Writing facilitates memory. Writing the speech means choosing language through a very tangible, visible medium that enhances the development of style and memory. We have been taught to choose words and construct sentences carefully when we write; but unfortunately, we have had little training in choosing and structuring language for speech. By developing our awareness through careful selection in writing, and examining the style of other speakers, we can begin to transfer the use of stylistic devices into our speeches. (2,358)

The goal is to discover the pleasure of creating "special effects" by painting with words- through the precise and skillful use of language. Time spent writing a manuscript results in a clearer, more artistic message. Time spent writing also saves time in rehearsing or trying to memorize speech. You will benefit from writing even if you write in pencil and the copy is rough. Writing becomes, then, a means to an end.(3,289)

In order to begin to develop language for speaking, we must consider three basic elements of style. These elements are clarity, force, and beauty.

Clarity is essential to effective communication. It is important as a speaker that you choose the most precise language possible in order to communicate with your listener. Clear word choice, clear sentence structure, clear organization are all essential for speakers and listeners. Precision should be your goal. (5,77)

Force is the energy or intensity of the message. If a speaker wishes to make an impassioned appeal for a cause, his or her language must reflect intense emotion**.**

Beauty is the third element of style. Language choices range from ugly to beautiful, just as force ranges from languid to exuberant and clarity ranges from vague to precise. When we think of beauty in language, three things come to mind. One is the image the language evokes. Writers and speakers can paint pictures with words; consequently, we may think of language as beautiful or ugly depending on the image the language conjures in our minds. Another factor that may cause language to be thought of as beautiful, ugly, or plain and nondescript is that our choice of words, phrases, and sentences can create emotional reactions. *House* may be nondescript, while *home* arouses emotional responses. Short, rapid sentences can create a sense of impatience, while longer, more leisurely sentences are more relaxing.

A third element of beauty is sound. Poets are apt to choose words for how they sound as well as for what they mean. Since language is sound, it seems logical that the accoustic appeal of language is an important element of writing and speaking. Harsh words can grate against our ears and our sensibilities; tender words can soothe and placate.

You can use several strategies for writing transitions. A transition may relate to what has just been said and serve as a summary or restatement before moving to the next point. The language of transitions consists of transitional adverbs and conjunctions, such as: "Let's proceed", "On the other hand we can see," "In addition'', "But", "Next", "Finally". A clear transition will: 1) clarify the relationship between the two thoughts it bridges; 2) bring closure to the previous point before beginning the next: and 3) alert the listener to the fact that the speaker is changing points. You may need to adapt your point statements and restatements to reflect these purposes, in order to provide smooth passage from one point to the next.

Using **signposts** means labeling points as points. If you have a number of points, you may actually say, "My first point is…", "My second point is…" continuing for several points. The transitional adverbs and conjunctions listed as helpful in developing smooth transitions can also provide signposts or cues for listeners, telling them that a new idea is being approachied.

Previews and summarizes also provide listening cues or " memory hooks" for listeners. We've already established the classic tradition of the "tell them what you are going to tell the; tell them ; tell them what you've told them." This kind of redundancy helps listeners follow and understand, and prevents them from getting lost in the verbiage of the speech.

Internal previews can provide memory hooks. If, for example, you have packaged your "problem" point into two subpoints, you may want to use an internal preview. You may say, "As we examine the problem, we will focus on two areas: the conditions that underline the problem and their effects". Or you may say, "We are going to consider three major effects of the problem."

Internal summaries can be included in the same manner. A speaker may wrap up one segment of a point before proceeding to the next segment. An internal summary is often used between second and third points. With preview and summary statements you have alerted your audience to the complexity of your analysis and have provided listening cues or memory hooks to aid the listener.

Speakers can develop personal style and enhance the artistic quality of speeches through the use of special rhetorical strategies. Taking our cue from Aristotle's definition of rhetoric, we are going to define a rhetorical strategy as a device used for special effect in a particular Instance. The use of rhetorical strategies can add significantly to the clarity and aesthetic appeal of your speech. The clear and consistent use of speech devices makes key ideas more memorable. Familiar quotations from well-known speeches are usually statements that include strategies that "sloganize" them into memorable sentences or phrases.

Speakers use **parallelism** for emphasis and aesthetic effect. Parallel structures involve similar words, phrases, or sentences in a series of related ideas. Parallelism can make statements and ideas memorable. The careful writer or speaker expresses ideas of equal importance in parallel form. Ideas that are compared or contrasted are parallel. Poor variant- Einstein liked mathematical research more than to supervise a large laboratory. (noun contrasted with an infinitive) Better variant- Einstein liked mathematical research more than supervision of a large laboratory. (noun contrasted with a noun)

Speakers use antithesis for effect and appeal. **Antithesis** is a device that places two contrasting ideas into a similar structure. Antithesis, by using contrast, makes ideas emphatic, quotable, and memorable. Both John and Robert Kennedy popularized the use of antithesis because it became such an obvious part of their style. Most people remember the statement in John Kennedy's Inaugural Address. "Ask not what your country can do for you; ask what you can do for your country."

Climax consists of a series of statements that lead the audience to an emotional peak or to a turning point. Martin Luther King frequently used climax as a rhetorical device. Through the use of climax and parallelism, Dr. King brought the throng assembled at the foot Washington Monument to an emotional outburst.

You can use **figures of speech** to make language artistic, visual, and memorable. Writers and speakers use figures of speech to "sensitize" language and to create images for their readers and listeners.

Speakers use metaphor to create artistic and memorable images. **Metaphor** is a stated or implied comparison. The use of metaphor makes the point visual, enabling the audience to understand and, consequently, to remember the point. Metaphors- by appealing to the senses – also evoke an emotional response that can make a point acceptable to an audience on emotional grounds.

You can make speeches more appealing to your listener's ear by reading your speech aloud, listening carefully to the sounds of words, phrases, and sentences. You

may like the idea of using *rhyme* for special appeal. You may want to experiment with *rhythm* or beat for special effect. You may want to use *alliteration*. The phrase, "Don't stare at the steps; step on the stairs!" used by a graduation speaker to inspire the class is memorable because of the play on words and the effect achieved by the repetition of the initial consonant sound. These represent **stylistic devices**.

Bibliography

1.Myers/Herdon. Dynamics of Speech.
2. John Rupert. Papers in Linguistics. London. Oxford University Press.
3. David Crystal. The scope of Internet Linguistics.
4. https://socratic.org.
5. John E.Warriner. English Grammar and Composition.1977.

М.Фазильзаде

ЭФФЕКТИВНОЕ ИСПОЛЬЗОВАНИЕ СТИЛЯ ЯЗЫКА В ПУБЛИЧНЫХ ВЫСТУПЛЕНИЯХ

РЕЗЮМЕ

Данная статья посвящена теме эффективного использования стиля языка в публичных выступлениях. Как оратор вы можете извлечь выгоду из экспериментов с языком, чтобы сделать ваши идеи и информацию интересными, содержательными и приемлемыми для вашей аудитории. Говоря, вы можете играть с языком, генерируя различные формы выражения и эффекты, чтобы сделать ваше сообщение ясным, художественным и запоминающимся. Практикуя использование риторических стратегий, образного языка и стилистических приемов в письме, вы можете начать переносить приемы, которые вам нравятся, в свою речь, развивая устный стиль и гибкость.

В статье также дается информация о четких переходах, указателях и звуковых сигналах, которые свидетельствуют о ясности речи. Хотя стратегии могут показаться полезными в письменной форме, они необходимы вам и вашим слушателям, поскольку они пытаются следовать и понимать вашу речь. Умелое использование таких стратегий свидетельствует о том, что вы понимаете задачу слушателя и говорите гладко и ясно.

Параллелизм обеспечивает эффективный и приятный формат для прослушивания, обеспечивая структуру за счет повторения. Антитеза имеет тенденцию делать утверждения запоминающимися за счет жестко структурированных контрастов. Доведение серии утверждений до пиковой или

поворотной точки (кульминации) вызывает эмоциональный отклик у аудитории и делает финальную или центральную точку запоминающейся.

Фигуры речи могут воздействовать на чувства и вызывать образы для художественного воздействия. Стилистические приемы, добавляющие акустическую привлекательность, делают сообщения приятными и приемлемыми для слушателя.

Кроме того, художник использует краску, знание техники и личную теорию живописи для создания произведения искусства, говорящие используют язык, знание процесса коммуникации и личную теорию коммуникации для создания эффективной презентации. Выбор, организация, стиль, память и подача считаются пятью основными навыками речи.

Ключевые слова: ясность, публичные выступления, многословие, точность, слушатель, аудитория.

M.FAZILZADƏ

İCTİMAİ DANIŞMADA DİL ÜSLUBUNDAN SƏMƏRƏLİ İSTİFADƏ

XÜLASƏ

Bu məqalə ictimai danışmada dil üslubundan səmərəli istifadə haqqındadır. Spiker olaraq siz öz ideyalarınızı və məlumatlarınızı maraqlı, mənalı və auditoriyanız üçün məqbul etmək üçün dil təcrübədən faydalana bilərsiniz. Danışarkən siz dillə oynaya, müxtəlif ifadə formaları yarada və icmarıcınızı aydın, bədii və yaddaqalan etmək üçün effektlər yarada bilərsiniz. Yazıda ritorik strategiyaların, obrazlı dilin və üslubi vasitələrini istifadə etməklə, siz xoşunuza gələn məqamları nitqinizə köçürməyə, şifahi üslubunuzu və çevikliyinizi inkişaf etdirə bilərsiniz.

Dəqiq keçidlər, işarələr və dinləmə işarələri danışıqda aydınlığın sübutudur. Strategiyalar yazılı şəkildə faydalı ola bilsə də, onlar sizin və dinləyicilərniz üçün vacibdir, çünki onlar sizin nitqinizi izləməyə və başa düşməyə çalışırlar. Bu cür strategiyalardan effektiv istifadə dinləyicinin tapşırığını və səlis, aydın danışıq tərzini qiymətləndirdiyinizin göstəricisidir.

Paralellik təkrar olmaqla struktur təmin edərək dinləmə üçün təsirli və xoş bir format təqdim edir. Antiteza, sıx qurulmuş təzadlar vasitəsilə şüar verməyə və bəyanatları yaddaqalan etməyə meyllidir. Zirvəyə və ya dönüş nöqtəsinə bir sıra bəyanatların qurulması tamaşaçıların emosional reaksiyasına nail olur və yekun və ya mərkəzi nöqtəni yaddaqalan edir.

Nitq fiqurları hisslərə müraciət edə və bədii təsir üçün obrazları oyada bilər. Akustik cazibə əlavə edən üslubi cihazlar mesajları dinləyiciyə xoş və məqbul edir.

Rəssam bir sənət əsəri yaradarkən texnika biliklərindən və şəxsi rəsm nəzəriyyəsindən istifadə etdiyi kimi, spikerlər də effektiv təqdimat yaratmaq üçün dildən, ünsiyyət prosesinin biliyindən və şəxsi ünsiyyət nəzəriyyəsindən istifadə edirlər. Seçmə, təşkilatlanma, üslub, yaddaş və çatdırma beş əsas nitq bacarığı hesab olunur.

Açar sözləri: aydınlıq, ictimai nitq, nitq fiqurları, dəqiqlik, dinləyici, auditoriya.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya elmləri doktoru dosent Möminat Ömətova tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ ƏFƏNDİYEVA,
Bakı Dövlət Universiteti,
filologiya üzrə fəlsəfə doktoru, dosent,
lalare@mail.ru

EPİSTOLYAR MƏTNLƏR MƏDƏNİ İRS NÜMUNƏSİ KİMİ

XÜLASƏ

Əvvəlki dövrlərlə müqayisədə müasir dövrdə məktubların aktuallığı azalsa da, dil-üslub xüsusiyyətləri, tarixi-faktiki material və mənəvi dəyər baxımından yenə də tədqiqatçılar üçün maraq doğurmaqdadır. Epistolyar mətnlər üslubuna və poetikasına görə təhkiyə janrlarına yaxın hesab edilsə da, bu mətnlərin özünəməxsus və fərqli səciyyəvi cəhətləri mövcuddur. Xüsusən də dərin araşdırmaları ilə tanınmış elm adamları, siyasi xadimlər, zəngin bədii irsi olan yazıçı və şairlərin məktubları müəyyən tarixi əhəmiyyət daşıyır. Məktublar yazıldıqları dövrün, müəlliflərin məişətinin, həyatlarında baş vermiş müxtəlif xarakterli hadisələrin, yaşadıqları mühitin əyani təsvirini əks etdirir. Görkəmli ədiblərin məktubları dərin məzmunu, dil və üslub xüsusiyyətlərinə görə bədii əsərlər kimi, zəngin tarixi və linqvistik material mənbəyidir. Epistolyar mətnlər kommunikasiya səciyyəli özəl bədii funksiyaları da reallaşdırır. Daşıdığı məqsədindən asılı olaraq məktublar müxtəlif üslublarda yazıla bilər və bu, onların dil xüsusiyyətlərinin araşdırılmasını daha da aktual edir. Məqalədə epistolyar mətnlərin müxtəlifplanlı unikal informasiya mənbəyi olması əsaslandırılır, bunların dialoji strukturu, müəyyən leksik tərkibi, xüsusi təhkiyə üsuluna görə çoxüslublu xarakter daşıdığı qeyd olunur. Müxtəlif məktub nümunələri əsasında epistolyar mətnlər mədəni irs mənbəyi kimi qiymətləndirilir.

Açar sözlər: epistolyar mətnlər, avtobioqrafik məzmun, epistolyar janr, açıq məktub, linqvistik xüsusiyyətlər, mədəni irs.

Epistolyar janr, o cümlədən epistolyar mətnlər üslubuna və poetikasına görə təhkiyə janrlarına yaxın hesab edilir, belə ki, bu mətnlərdə özünəməxsus və fərqli səciyyəvi cəhətlər müşahidə edilir. Burada məktub mətnində müəllif və adresatın olması, kifayət qədər sərbəst kompozisiya və eyni zamanda, məktublar üçün xarakterik olan sabit elementlərin mövcudluğu – yazılma tarixi, məktubun yazıldığı və göndərildiyi məkan, mətnin əvvəlində və mətn daxilində dəfələrlə adresata müraciət və s. olması, üslub və mövzu rəngarəngliyi, məktub müəllifinin fərdi xüsusiyyətlərinin təzahürü belə bir fikir irəli sürməyə əsas verir. Xüsusən də bədii əsərləri ilə tanınmış yazıçı və şairlərin məktubları bu cəhətdən daha böyük əhəmiyyət daşıyır. Məktublarda onların məişətinin, həyatlarında baş vermiş müxtəlif xarakterli hadisələrin, yaşadıqları mühitin əyani təsvirini görmək olar. Bu cəhətdən yazıçı məktublarının əksər hissəsi yüksək bədii əsər təsiri bağışlayır. Bu məktublar zəngin

məzmunu, eləcə də dil və üslub xüsusiyyətlərinə görə onların çap olunan bədii əsərlərindən heç də daha az diqqətəlayiq deyil.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, epistolyar mətnləri – bir çox tanınmış şəxsiyyətlərin ailə üzvləri, dostları və rəsmi mövqe tutan şəxslərə müraciətlə yazdıqları məktubları epistolyar janrda yazılmış bədii əsərlərlə eyniləşdirmək də düzgün olmaz. «Məsələ bundadır ki, bədii-publisistik məziyyətlərinə, avtobioqrafik məzmununa, mahiyyətinə görə epistolyar janr bəzən xatirə, memuar, yaxud gündəliklə eyniləşdirilir, ya da əksinə, bu üslublar arasında ciddi fərqlər axtarılır. ... Məhəmməd Füzulinin «Şikayətnamə»si, Şah İsmayıl Xətainin ... «Dəhnamə»si, M. F. Axundzadənin «Kəmalüddövlə məktubları», S. M. Qənizadənin «Məktubati Şeyda bəy Şirvani», Ə. Haqverdiyevin «Xortdanın cəhənnəm məktubları», Mirzə Cəlilin «Qəbirdən məktub»u və sair kimi əsərlər ədəbiyyatımızda epistolyar janrın mükəmməl nümunələridir. Həmin əsərlər dövrün ictimai-siyasi, sosial münasibətlərini, müəlliflərin yaradıclılığını, məramını, ideya istiqamətini, ədəbi-bədii mühitini əks etdirən qiymətli və etibarlı mənbələrdir. Bu qəbildən bədii sənət nümunələrini – «məktubları», əlbəttə ki, M. F. Axundovun H. Zərdabiyə, Mirzə Yusif xana, yaxud da oğlu Rəşid bəyə ünvanladığı, Mirzə Cəlilin M. Sidqiyə, həyat yoldaşı Həmidə xanıma, Ə. Qarayevə yazdığı, Ü. Hacıbəylinin qardaşı C. Hacıbəyliyə, H. Sarabskiyə, M. S. Ordubadiyə, Ərtoğrul Cavidin Üzeyir bəyə göndərdiyi məktublarla nə məzmun, nə də forma baxımından eyniləşdirmək olmaz, hərçənd ki, həmin sənədlər də ailə-məişət qayğıları, problemləri ilə yanaşı, müəllifin bədii zövqü, istedadı, yaradıcılıq imkanları, dövrün ictimai-siyasi, ədəbi-mədəni həyatı barədə mühakimə yürütməyə əsas verir» (6).

Bədii məktublar özündə gerçək, məişətlə bağlı yazışmaların sabit strukturunu ehtiva edən özünəməxsus mətn növləri olmaqla yanaşı, həmçinin xüsusi vasitələrlə qarşılaşdırılmış kommunikasiya səciyyəsi daşıyan özəl bədii funksiyaları da reallaşdırır.

Bədii epistolyar əsərin özəlliyi bütövlükdə bədii əsərin müxtəlif aspektlərinin məcmusundan formalaşır: burada əsərin mövzusu, bütövlükdə dil xüsusiyyətləri, yəni müəllif təhkiyəsi və obrazların nitqinin əsas rolu və qəhrəmanlar aləmi ilə müəllif və oxucunun gerçək dünyası arasındakı hüdudlar mühüm rol oynayır. Əslində epistolyar janr sözün əsl mənasında sırf bədii janr hesab edilə bilməz, çünki bir məktub olaraq bunun da əsasında əksər hallarda müəllifin məktub vasitəsilə nəql etdiyi müəyyən obyektiv fakt dayanır və o, bunu ya bir nəfərə, ya da geniş oxucu dairəsinə çatdırır. Məktubların harada çap edilməsindən asılı olmayaraq, bunların bütün əsas əlamətlərinin qorunması da mühüm amildir. Bu əlamətlər sırasında, ilk növbədə, onu qeyd etmək lazımdır ki, yazışmanın dialoji strukturu dəyişməz qalır. Məktub şəklində yazılmış mətndə müəllif məktubu dialoqun bir hissəsi kimi nəzərdə tutur, burada qarşı tərəf müəyyən vaxtdan sonra da olsa, çavab verir.

Epistolyar janrın linqvistik xüsusiyyətləri kimi qəbul edilən lirik və sosial amillər, danışıq üslubundan istifadə, jarqon, dialekt və s. sözlərdən istifadə

edilməsindən müəllifin öz nitqini qurarkən həqiqi həmsöhbətini nəzərdə tutduğu aydın görünür. Epistolyar bədii mətnlərdə də, şəxsi məktublarda olduğu kimi, təhkiyə birinci şəxsin dilindən verilir. Müəllif özü oxucuya müraciət edir, bu və ya digər bir faktı nəzərə çatdırır, öz mövqeyini bildirir və bu işi başqa bir mücərrəd obraza yönəltmir.

Məktublar mətnin hansı məqsəd daşımasından asılı olaraq, müxtəlif üslublarda yazıla bilər. Sosial mövzular və ciddi problemlərdən danışılan məktublarda ciddi psixologizm hiss olunur, burada işlədilən peşə ilə bağlı söz və ifadələr olsa da, bütövlükdə nitq adi danışıq üslubuna yaxın olur. Məsələn, petisiya xarakterli məktublar işgüzar üsluba, elmi nailiyyətlərdən bəhs edən məktublar bir qədər elmi üsluba yaxın olur, şəxsi-intim məktublarda isə daha çox məişət üslubu hiss olunmaqdadır və s. Bu xüsusiyyətləri daha çox açıq məktublarda müşahidə etmək olur, belə ki, müəllif məktubu konkret şəxsə ünvanlasa da, onun hər kəs tərəfindən oxunacağı ehtimalını şüuraltı hiss edir və bunun məsuliyyətini də daşıyır. Bu cəhətdən Q.Paşayevin açıq məktublarından birinə diqqət yetirmək maraqlıdır: «*Hörmətli Nəriman müəllim! Bu günlərdə «Yazıçı» nəşriyyatının buraxdığı «Sən bağışladın» kitabınızı oxudum və sevindim. Ona görə sevindim ki, yeddi çap vərəqi həcmində olan bu kitab məni dünyanın yeddi iqlim qurşağına səyahətə sövq etdi və* dərindən - dərinə düşündürdü….İstər ictimai - siyasi şeirləriniz, istər dünya hadisələrinə münasibətiniz, onlara cavabdehliyiniz, alim - şair kimi gözəl fəlsəfi *ümumiləşdirmələriniz, istərsə də həyatın əşrəfi olan insana məhəbbətiniz, bəzən də nifrətiniz təbiiliyi, bəşəriliyi ilə fərqlənir. «Cavabdehəm» bölməsi altında gedən şeirlər arasında «Tərlan bacım» və «Torpağa bu qədər mat qalmamışdıq...» kimi şeirlər Vətənə, xalqa olan dərin məhəbbətin nəticəsi kimi qiymətləndirilməlidir. Bu şeirləri Səməd Vurğunun «Azərbaycan» və «Partiyamızdır» şeirlərini hansı hiss, hansı qürur, hansı məhəbbətlə oxumuşamsa, eləcə oxumuşam. Bu hissədə qəlbimi ehtizaza gətirən «Zirvə», «Bayatı», «Qiymət», «Ayırır», «Siz cəbhəyə gedəndə», «Həsənzadə», «Üzü Bakıya» (şair Sərdar Əsədin anası yatanda üzü Bakıya yatırmış ki, oğlu Bakıdadır. Ana məhəbbətini məhəbbət və sənətkarlıqla poeziyaya gətiribsiniz. Ürəyiniz və qələminiz var olsun!) və s. kimi gözəl şeirlər də vardır..»* (2, 23). Göründüyü kimi, böyük alimin şair N. Həsənzadəyə ünvanladığı açıq məktub adi məktubdan daha çox, şairin yaradıcılığının elmi-bədii təhlilidir. Məktubun bütün mətni N.Həsənzadənin müəyyən bir vaxt ərzindəki fəaliyyətinin araşdırılmasına həsr edilmişdir. Müəllif şairin nəzərdən keçirdiyi əsərlərinin mahiyyətini açır, bunlara öz münasibətini bildirir və mətnlən aydın görünür ki, məktub bütövlükdə ədəbiyyat və N.Həsənzadə yaradıcılığı və şəxsiyyəti ilə maraqlananlar üçün dəyərli örnək ola bilər. Eyni zamanda, burada epistolyar mətnlərə xas müraciət, söhbət-dialoq xarakteri də özünü göstərir.

Məktublar bilavasitə intim-dialoji xarakter daşıyır. Məktub müəllifi onun nə qədər çox insan tərəfindən oxunacağına əmin olmasına baxmayaraq, bir qayda

olaraq, leksikası konkret müəllifdən konkret adresata yönəlmiş olur. Bu, bilavasitə yuxarıda haqqında danışdığımız açıq məktublara daha çox aiddir. Müasir dövrdə sosial şəbəkələrdə verilən materiallara və ya hər hansı bir veriliş və hadisəyə dair yazıların şərh bölümündə də buna aid kifayət qədər nümunə göstərmək olar. Həmin şərhlərlə bağlı bir məqam da diqqəti cəlb edir. Bunlarda yazı müəllifinə cavabla yanaşı, şərh müəllifinin üslubunu, dünyagörüşünü, dil bilikləri və vərdişlərini də görmək olur. Buna görə də məktublar psixoloji mövqedən müəllifin etirafları kimi də qəbul edilə bilər, burada onun emosionallığı və sözlərindəki səmimiyyət dərəcəsi də üzə çıxır. Təəssüflə qeyd etmək lazımdır ki, bəzən həmin yazılarda normativdən kənar leksikadan da istifadə edilir, müxtəlif forumlarda məlumatlar verilərkən başqalarının, uydurma müəlliflərin adından da bu üsullarla müəyyən obrazlar yaratmaq mümkün olur. Epistolyar janrı, o cümlədən epistolyar mətnləri də müəyyən məqamlarda mədəni irs nümunələri kimi nəzərdən keçirmək olar. İlk növbədə, məktubların linqvistik xüsusiyyətləri üzərində dayanmaq lazımdır: məktubun dəyəri onun kim tərəfindən yazılması baxımından da böyük önəm daşıyır. Məsələn, 2016-sı il aprel döyüşləri şəhidi Azərbaycan ordusunun əsgəri Sərxan Bədirovun cibindən tapılmış məktub insanın həmin an üçün – ölümlə üz-üzə qaldığı zaman emosional və etik dəyərlərinin ən gözəl ifadəsinə nümunədir: *"Əzizim Gülçin! Mən səni sevirəm, ola bilsin ki, həlak oldum. Amma qəm yemə, sən də məni sevirsənsə, onda mənim dəfnimə gəlib ürəyində "Mən də səni sevirəm" deyərsən. Mən səni eşidəcəm"* (8). İki sətirlik məktub Vətəni qoruyan gəncin ömrünün son anlarında yaşadığı hislərini, arzularına qovuşa bilməyəcəyini dərk etdiyini tam səmimiyyəti ilə səsləndirə bilmişdir. Eyni xüsusiyyətləri 44 günlük Vətən müharibəsi zamanı həlak olmuş şəhidlərin son məktublarında da müşahidə etmək olar: *1. «Ana! Yıxılma ha. Dik dayan. Nəfəsim bir azdan dayanacaq. Bölük yoldaşlarım məni evə gətirəcəklər. Elə ki, evə çatdım məni bərk qucaqla. Bu son görüşümüzdür, Ana. Elə bərk qucaqla ki, dadı qalsın. İyimi burnuna çək, ana. Sən şəhid anasısan, dik dayan, qəddini əymə. Ataya da salam de, ona şəhid salamı. O başa düşər. Qardaşım evlənəndə oğluna mənim adımı qoyarsız. Mənim günəşim söndü, Ana. Bir-birinizi qoruyun. Ana, məni bağışla, daha gücüm qalmadı. Mən şəhid oldum».* (8) 2. *"Canım atam, anam, bacım… 21 oktyabrda yaralandım. Çoxu şəhid oldu. Mən də ayağımdan yaralıyam, yeriyə bilmirəm, qalmışam burada. Əgər şəhid olsam, haqqınızı halal edin. Heç vaxt pis olmayın, başınızı dik tutun. İnşallah, cənnətdə görüşərik".* (şəhid Kamran Vəlizadənin ailəsinə yazdığı son məktubundan) (9). Göstərdiyimiz məktub nümunələrində onun adresatlarının hər birinin oxşar psixoloji durumda olduqlarını və məktub mətnlərindən onu yazarkən ən əziz, daha çox dəyər verdikləri insanları gözləri önünə gətirib canları ilə çarpışmalarını, ağrılarını kağız üzərinə köçürə bilmişlər. Bu məktublar şəhidlik məqamında insanın mənəvi dəyərlərini nümayiş etdirir. Ancaq Həsən bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, Mir Cəlalın, Mirzə İbrahimov və Azərbaycanın bir çox digər tanınmış şəxsiyyətlərinin məktubları linqvistlərə kulturoloji cəhətdən

həmin dahi insanların ifadə tərzlərinin üslubi, semantik, linqvistik xarakterini araşdırmaq üçün zəngin material verir. Bu məktubların tədqiqi həmçinin onların aid olduqları dövrün dil-üslub xüsusiyyətləri haqqında müəyyən fikir yürütməyə, həmin dövrün dil mənzərəsini yaratmağa imkan verir. Digər tərəfdən, məktublar müəllifin və onun poetik məkanının, düşüncə tərzinin əksidir. Görkəmli yazıçıların və ədiblərimizin məktubları onların yalnız söz ehtiyatları və bədii ustalığını əks etdirmir, həmçinin onların bir şəxsiyyət kimi obrazını canlandırmağa, şəxsi xüsusiyyətlərini və yaradıcılıq istedadlarının köklərini görməyə imkan yaradır. Bu mənada müəllifin şəxsiyyətinin, intellektual dünyasının, bütövlükdə mədəni irsinin onun epistolyar irsinə, üslubu və strukturuna necə təsir göstərdiyini öyrənmək faydalı olar.

Həmçinin onu da qeyd etmək lazımdır ki, epistolyar mətnlər müəllifin müasirlərinin də gerçək həyatını əks etdirən mühüm tarixi-mədəni artefaktlardır. Onların dünyagörüşləri, sosial qarşılıqlı münasibətləri, həyat problemləri və digər problemlərə münasibətlərinin özəlliklərini göstərir. Məsələn, M.Ə.Rəsulzadənin məktubları o dövr üçün Azərbaycandan kənarda dilimizin müəyyən leksik tərkibini araşdırmaq üçün maraqlı mənbə olduğu kimi, eyni zamanda bu məktublardan görkəmli şəxsiyyətin bir sıra tanınmış insanlarla şəxsi münasibətlərinin hansı zəmində davam etdiyini də müşahidə etmək olar. Müəllifin S.Hacıbəyli və Ə.M.Topçubaşova təqribən eyni zamanda və eyni mövzulara yaxın yazdığı məktublara nəzər salaq: *«17 aprel 1924-cü il. İstanbul. Əziz qardaşım! Bir neçə məktubunuza birdən cavab verirəm. Vaxtlı-vaxtında cavab verməməyimi hesaba qoyma. Çox məşğulam. Keçən həftə xəstə idim. Anginaya tutulmuşdum. Sıradakı nömrəni xəstə ikən hazırladım. O qədər yalnızam ki, hətta xəstə olmağa özümdə səlahiyyət belə görmürəm. Mövcud olan arxadaşların nə türkcəsi, nç də vaxtlı-vaxtında qəzeti istənilən məqalələr ilə doldura biləcək qəzetçilik təcrübələri bu iş üçün kafi deyildir… Fransa qəzetlərini maraqlandıracaq bir hadisə daha baş verməmişdir. Bolşeviklər məhbusların ətindən kabab etməmişlər. Yalnız sulu və rütubətli zirzəmilərə salıb, gündə bir neçə dəfə döyürmüşlər. Əgər Fransa həssasiyyəti üçün maraqlıdırsa, məhbuslar aclığı on gün davam etdirmişlər… Zöhrə xanıma ərzi salamımı göndər. Uşaqların gözlərindən öpürəm. Öz salam və hörmətlərimi göndərirəm. Məmməd Əmin».* (3, 46). *«20 aprel 1924-cü il. İstanbul. Pək möhtərəm Əli Mərdan bəy! Çoxdan Sizə yazmaq istəyirdim. Lakin bir tərəfdən «Yeni Kafkasiya»nın nəşri ilə həddən ziyadə məşğulluğum, digər tərəfdən isə, vaxtsız xəstəlik bu arzumu yerinə yetirməyə imkan vermədi. Gizli formada malyariyadan əziyyət çəkdiyimdən yayda özümü çox pis hiss edirəm, üstəlik də anginanın ağır formasına yoluxmağım səbəbindən bu həftə xəstə yatmalı oldum… Bakıdakı həbslər barədə Sizə məlumat vermişdim. Siz özünüz də «Yeni Kafkasiya»dakı materiallardan işgəncə, əziyyət, aclıq və qadınlara qarşı belə amansız münasibətdən xəbərdarsınız... bu haqda xarici mətbuatda hay-küy qaldırmaq lazımdır. Hərçənd avropalı cənabları belə məlumatlarla ilgiləndirmək indi çox çətin məsələdir. Onların*

korşalmış əsəbləri üçün güman ki, daha təsirli hadisələr, məsələn, insanların diri-diri tonqalda yandırılması lazımdır… Sizinkilərin hamısına salamlar. Ehtiramla, M. Ə. Rəsulzadə» (3, 49). Məktubların ənənəvi hissələri - başlanğıc və sonundakı görüşmə və ayrılma etiketləri, həmçinin «sən» və «Siz» müraciət etiketləri, mətnin eyni mövzu ilə bağlı hissələrində C.Hacıbəyliyə yazılmış təfərrüatlar və ironiya, M.Ə.Rəsulzadənin C.Hacıbəyliyə ünvanladığı bütün məktubların sonunda onun həyat yoldaşına şəxsən hörmətini bildirməsi və uşaqlarına münasibət müəllifin C.Hacıbəyli ilə daha səmimi və qeyri-rəsmi, Ə.M.Topçubaşovla isə rəsmi və işgüzar münasibətdə olduğunu nümayiş etdirir. Bu nümunələr bir daha əsas verir ki, əgər məktublar müəllifin şəxsi yazışmalarına aiddirsə, yəni əsl epistolyar mətnlərdirsə, onda bunlar, ilk növbədə, dəyərli bioqrafik material kimi nəzərdən keçirilsin. Xüsusən də müəllifin dostları və ya yaxın ailə üzvləri, sevdikləri insanlarla yazışmalarındakı təfərrüatlar məktub yazılarkən müəllifin harada, hansı halda olması, həyatında baş verən hadisələr haqqında geniş məlumat almağa imkan verir. Eyni zamanda, bunlar müəllifin dilində ekspressivliyin ifadə formalarını izləməyə də imkan yaradır. Bu cəhətdən görkəmli mütəfəkkir, Azərbaycan dramaturgiyasının banisi M. F. Axundzadənin oğlu Rəşid bəylə məktublaşması (7), "Molla Nəsrəddin" jurnalının həmtəsisçisi, publisist Ö. F. Nemanzadənin övladlarına yazdığı məktublar (1), Azərbaycan ədəbiyyatının korifeylərindən olan M. İbrahimovun həyat yoldaşı Sara xanıma ünvanladığı *sevgi məktubları böyük maraq doğurur və tədqiqatımız istiqamətində dil-üslub və bədii cəhətdən zəngin material mənbəyidir (5).*

Məktublar əksər hallarda şəxsi xarakterli olduqlarına görə öz müəlliflərinin dəruni və intim hislərini təzahür etdirir ki, bu da öz növbəsində, psixoloq, kulturoloq və tarixşünaslar üçün müəllifin portretini hazırlamağa material verməklə yanaşı, məktub müəllifinin ümumi mədəni, əxlaqi və etik prinsiplərini müəyyənləşdirməyə imkan yaradır. Məktub müəllifinin poetik məkanı, düşüncə müstəvisi onun şəxsiyyətinin inkişafı prosesində təsirinə məruz qaldığı mədəni irsin izlərini daşıyır.

Tanınmış şəxsiyyətlərin – elm, ədəbiyyat və incəsənət xadimlərinin məktubları həm bədii material, həm də linqvistik baxımdan mühüm əhəmiyyət daşıdığı kimi, sıravi vətəndaşların, bilavasitə elm və incəsənətlə bağlı olmayan insanların da məktublarının öyrənilməsi müəyyən tarixi-mədəni əhəmiyyət daşıyır. Kifayət qədər tanınmış, ədəbiyyat və incəsənət sahəsində öz sözünü demiş şəxsiyyətlərin epistolyar irsinin araşdırılması ədəbi üslub, həyat materialı baxımından zəngin mənbə olduğu kimi, adi vətəndaşların məktublarının üslubu, morfoloji və sintaktik xüsusiyyətlərinin araşdırılması, insanın emosional statusunun verbal ifadə tərzi, ilk növbədə, bütövlükdə epistolyar janrın dil xüsusiyyətlərinin araşdırılması üçün önəmlidir.

Epistolyar mətnləri diqqətlə nəzərdən keçirdikdə onların bir qisminin (bu xüsusilə açıq məktublara şamil edilir) publisistik üslubda yazıldığını müşahidə etmək olar. Ancaq bütövlükdə isə məktubların tərtibatı, üslubu, morfologiyası, sintaksisində, hətta söz seçimində də müəyyən oxşarlıqların olduğunu görmək mümkündür. Bu da ədəbiyyat və incəsənət sahəsində çalışmayan, sıravi vətəndaşların

KİV-də çap etdirmək üçün yazdıqları məktublar üçün xarakterikdir, bunların hamısında epistolyar mətnlərə xas olan salamlama, müraciət etiketləri və imza olur, həmçinin ədəbi dil normalarına əməl edilir və məktub müəllifinin ekspressiya ilə müşayiət edilən şəxsi mövqeyi bildirilir. Bir qayda olaraq, adi publisistik mətn üçün ekspressiv dəyərləndirici leksika xarakterik deyil, ancaq məşhur şəxsiyyətlərin epistolyar irsində isə əksinə, ekspressiya hədsiz qabarıq ola bilər və müəyyən hallarda bədii ifadə vasitəsi kimi verilə bilər. Bu cəhətdən sıravi vətəndaşların yazdıqları şəxsi məktublar da epistolyar mətnlərin öyrənilməsində maraqlı material ola bilər.

Ümumiyyətlə, tarixi-mədəni kontekstdə məktub müxtəlifplanlı unikal informasiya mənbəyidir. Deməli, məktubların dili və onlarda müəllif şəxsiyyətinin təzahürü vasitəsilə belə qənaətə gəlmək olar ki, bu mətnlərdə obyektiv fakt mövcuddur və müəllif öz məktubunda konkret obyektə müraciət edərək bu barədə danışır və öz mövqeyini bildirir və burada bir sıra xüsusiyyətlər üzə çıxır: məktublardakı dialoji struktur, lirik və sosial çalarların mövcudluğu, danışıq üslubundan və bəzən qeyri-normativ leksikadan istifadə, təhkiyənin birinci şəxsin tək formasında olması; məktublar mətnin məzmunundan asılı olaraq çoxüslublu xarakter daşıyır. Bunları nəzərə alaraq, epistolyar mətnləri bir neçə aspektdən mədəni irs kimi nəzərdən keçirmək olar: məktubların linqvistik və şəxsi mahiyyət daşıma xüsusiyyətlərinə görə məktubun dəyəri onun müəllifinin şəxsiyyətindən asılıdır; məktub müəllifin şəxsiyyətinin və onun dünyagörüşünün təzahür formasıdır; epistolyar sənədlər tarixi-mədəni artefakt kimi nəzərdən keçirilə bilər, bunlarda məktub müəllifinin yaşadığı dövrün gerçəklikləri əks olunur; eyni zamanda, məktublar psixoloqlar üçün də dəyərli materialdır və bunlarda yuxarıda qeyd etdiyimiz kimi, məktub müəllifinin həmin an üçün psixoloji-emosional durumu təzahür edir və məşhur şəxsiyyətlərin həyatlarının öyrənilməsi üçün zəngin mənbədir.

ƏDƏBİYYAT

1. Nemanzadə Ö. F. Seçilmiş əsərləri. Bakı, «Yazıçı», 1992.
2. Paşayev Q. Ədəbi məktublar. Bakı, «Təhsil», 2015, 256 s., səh. 23.
3. Rəsulzadə M. Ə. Məktublar. Səfibəyçilik. Bakı, «TEAS Press» nəşriyyat evi, 2018, 251s.
4. Salehova İ. S. Epistolyar üslub// Azərbaycan dilinin üslubiyyatı (elmi, rəsmi və epistolar üslublar). Bakı, «Elm», 1990, 148 s., s.67-106.
5. *Sevgi məktubları. Bakı, «Qanun» nəşriyyatı, 2016, 96 səh.*
6. Tahirli A. Əhməd bəy Ağaoğlunun epistolyar irsi, «Xalq qəzeti", 2019, 27 dekabr, s.10.

7. Переписка Мирзы Фатали и Рашид-бека Ахундовых. Bakı, “Gənclik”, 1991, 176 с.
8. https://m.facebook.com/qafqazinfo/photos/tovuz.
9. https://www.jamaz.info

РЕЗЮМЕ
Эпистолярии как образец культурного наследия

Несмотря на то, что актуальность изучения писем в настоящее время заметно снизилась, они по-прежнему представляют интерес для исследователей с точки зрения языковых и стилистических особенностей, историко-фактологического материала и духовной ценности. Даже если эпистолярные тексты по своему стилю и поэтике считаются близкими прозаическим жанрам, эти тексты имеют свою специфику и важные научные особенности. В частности, определенное историческое значение имеют письма ученых, политических деятелей, писателей и поэтов, известных своим художественным творчеством. В письмах отражены эпоха, в которую они были написаны, факты, дополняющие биографию автора , а также различные события, происходившие в его жизни.

Письма выдающихся поэтов и писателей являются источником историко-лингвистического художественного материала, а также художественными произведениями благодаря своему глубокому содержанию, языковым и стилистическим особенностям. Эпистолярные тексты также формируют коммуникативно-художественные функции. В зависимости от вида и назначения писем, они могут отличаться по своему стилю, что делает изучение их языковых особенностей еще более актуальным. В статье обосновывается, что эпистолярные тексты являются уникальным источником разнообразной информации, отмечается их полистильность, обусловленная их диалогической и определенной лексической структурой. Эпистолярии оцениваются как источник культурного наследия на материалы различных образцов писем.

Ключевые слова: эпистолярии, автобиографическое содержание, эпистолярный жанр, открытое письмо, лингвистические особенности, культурное наследие.

SUMMARY

EPISTOLARY TEXTS AS A CULTURAL HERITAGE EXAMPLS

Although in comparison with the previous periods, the relevance of the letters has currently decreased, they are still of interest to researchers from the point of view of linguistic and stylistic features, historical and factual material, and spiritual value. Even if epistolary texts are considered to be close to the prose genres by their style and poetics, these texts have their own specifics and different qualitative needs. In particular, letters of scientists, political figures, writers and poets, known for their literary works, have a certain historical significance. The letter reflects the period when it was written, the life of the author, various events that occurred in his life, and the society whereto he lived.

The letters of prominent poets and writers are a source of historical and linguistic artistic material, as well as works of art due to their deep content, linguistic and stylistic features. Epistolary texts also form the physical and artistic functions of communication. Depending on the purpose, the letters can be written in different styles, and this makes the study of their linguistic features even more relevant. The article proves that epistolary texts are a unique source of diverse information, their polystylism is noted, due to their dialogic structure, specific lexical structure, and a special method of development. Epistolary texts are estimated as a source of cultural heritage on the basis of various writing samples.

KEYWORDS: epistolary texts, autobiographical content, epistolary genre, open letter, linguistic features, cultural heritage

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Əhmədova tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARA HACIYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Xarici Dillər Mərkəzi

GI DE MOPASSAN NƏSRINDƏ DAXILI MONOLOQLAR

Bu tədqiqat işində bədii ədəbiyyatda ədəbi texnika kimi istifadə edilən daxili monoloqların mahiyyəti araşdırılır, xüsusən psixoloji məzmunlu bədii əsərlərdə daxili monoloqların personajların psixologiyasının və mənəviyyatının açılmasındakı mühüm rolundan bəhs edilir, onların bədii əsərlərdə işlənməsi səbəbləri və personajların psixoloji vəziyyətinin anlaşılmasındakı rolu qeyd olunur. Daxili monoloqlar vasitəsi ilə oxucu öz qəhrəmanı ilə birbaşa "ünsiyyətə girir", və beləliklə də onu daha yaxından tanıya və ya kəşf edə bilir. Tədqiqat işində daxili monoloqların oxucuya obrazın ruhi vəziyyətinin təfərrüatlarına varmaqda yardım etməsi də vurğulanır, çünki burada onun hissləri və duyğuları, həyata baxışı öz əksini tapır. Bütün sadalanan xüsusiyyətləri ilə yanaşı, daxili monloqlar bədii əsərə özünəməxsus cazibədarlıq verir. Məqalədə həmçinin daxili monoloqların fransız ədəbiyyatında istifadə olunması tarixinə qısaca nəzər salınır.

Gi de Mopassanın əsərlərində obrazların psixoloji durumunun, psixologiyasının və mənəviyyatının açılmasında daxili monoloqlardan gen-bol istifadə olunub. Bu səbəbdən də tədqiqat işində görkəmli fransız yazıçısının ədəbi irsinə istinad edilərək sözügedən bədii texnikadan necə məharətlə istifadə edilməsi barədə mülahizələr yürüdülür, yazarın "Əziz dost" və "Həyat" romanlarının, eləcə də "Orlya" novellasının timsalında daxili monoloqlardan necə yerli-yerində istifadə olunması vurğulanır. Qeyd olunur ki, belə bir ədəbi texnikadan yararlanarkən yazıçının hədəfi obrazın psixologiyasını anlamaqda, onun mənəvi dünyasına daha yaxından bələd olmaqda oxucularına yardım etmək olub.

Açar sözlər: Gi de Mopassan, daxili monoloq, ədəbi texnika, personaj, psixoloji durum, mənəviyyat

Mopassan qəhrəmanını təkcə bioloji varlıq kimi görmürdü, onun qəhrəmanı hər şeydən əvvəl psixoloji varlıq idi. Odur ki, psixoloji təhlil Gi de Mopassanın roman və novellalarının əhəmiyyətli bir hissəsini təşkil edib. "Psixologizm, ilk növbədə, bədii-estetik dəyərə malikdir, müəllifin aksiologiyasının, dünyagörüşünün göstəricisidir. insanın daxili aləmi ədəbi nöqteyi-nəzərdən özünəməxsus şəkildə şərh edilir və qiymətini alır ." [1]

Psixoloji əsəri "daxildəki insanın"—və ya insanın iç dünyasının hekayəti də adlandırmaq olar. Psixologizm bədii texnikasında obrazın mənəviyyatının və psixologiyasının açılmasına nail olmaqda müəllifə yardımçı olan ən münasib üsullardan biri daxili monoloqlardır, yəni obrazın özünün-özünə ünvanladığı və ya özünə xitabən səsləndirdiyi, beynindən keçirdiyi fikirlərdir. Oxucu qəhrəmanın daxili

dünyasını bir çox hallarda "xarici" nitq ilə deyil, daxili monoloqun vasitəsilə kəşf də bilir. Obrazın hislərinin və düşüncələrinin ifadəsi olan daxili monoloqu şifahi nitqin səssiz növü kimi də dəyərləndimək olar. Eyni zamanda şüur axını adlanırılan bu nitq formasının personajın ən intim düşüncələrini, duyğularını və hətta ötəri hisslərini oxucuya açır. Elə buna görədir ki, qəhrəmanın xarakterinin açılmasında hiss və təəssüratların, şüurlu və şüursuz olanların bir-biri ilə çulğalaşdığı daxili monoloqun rolu əvəzsizdir. Müəllif personajın psixoloji portretini təfərrüatı ilə göstərmək üçün belə bir üsuldan yararlanır. Qəhrəmanın ruhi aləmindəki yaşantıların, xatirələrin canlandığı daxili monoloq vasitəsi ilə onun psixikası və iç dünyası haqqında aydın təsəvvür yaranır. Daxili monoloq hər hansı bir insanın özünü sakitləşdirmək, təsəlli vermək, davranışını dəyərləndirmək vasitəsi ola bilir. Ağır psixoloji durumlarda insan düşdüyü vəziyyəti dəyərləndirərək ondan çıxış yolu aramaq üçün ürəyində özü ilə danışır.

"Daxili monoloqunu", "daxili nitqini" və ya "daxili sözlərini" izlədiyimiz təhkiyyəçi personajı öyrənərkən görürük ki, "hər bir halda söhbət birinci şəxsdən gedir". [2] Daxili monoloq qəhrəmanın nitqinin üslubi və psixoloji xüsusiyyətlərinin özündə daşıyan bir çıxışdır. "XIX əsrin sonu və XX əsrin əvvəllərində naturalizmin üçüncü şəxsdəki təsvirlərinə cavab olaraq bəzi modernist müəlliflər personajın psixikasını və insanın ruhunun dərinliyini daha yaxşı başa düşmək üçün onun düşündüklərini izləməyə çalışırdılar." [3] Daxili monoloq nominal –adlıq cümlələrdən, sadalamalardan, əlaqəsiz şəkildə ard-arda düzülmüş, bəzi hallarda məntiqsiz və ya ziddiyyətli fikirlərin yer aldığı cümlələrdən ibarət ola bilir. Bu nitqin daha bir xüsusiyyəti burada punktuasiyadan geniş istifadə olunmasıdır.

Dünya ədəbiyyatında fərdin özü ilə birtərəfli qarşılıqlı nitq əlaqəsinin mürəkkəb bir forması olan daxili monoloqlara çox rast gəlinir. "Daxili monoloq XVII əsrdə Madam de La Fayette tərəfindən "Klev şahzadəsi" əsərində sınaqdan keçirilmiş və 1931-ci ildə Edouard Dujardin tərəfindən nümayiş etdirilən ədəbi təhkiyyə üsuludur." [3] Fransız yazıçısı Natali Sarrot romanlarındakı bu texnikadan bəhs edərkən "əlavə söhbət" ifadəsini işlətmişdir. Digər bir fransız yazıçısı Eduard Dujardən 1887-ci ildə "Dəfnə ağacları kəsilir" romanında belə bir üsuldan istifadə etmişdir. 1931-ci ildə yazdığı bir essedə yazıçı həmin üsulu "daxili monoloq " adlandırmışdır. Eduard Dujardənin verdiyi tərifə görə "bu proses məntiqi ardıcıllığı gözləmədən yarandığı anda personajın ruhundan keçən düşüncələrin fasiləsiz axınını xatırlatmaq məqsədi daşıyır." [3] Beləliklə, on doqquzuncu əsrin sonu və iyirminci əsrin əvvəllərində, naturalizmin üçüncü şəxsin dilindən təsvirlərinə cavab olaraq, bəzi modernist müəlliflər şəxsiyyətin psixikasını və insan ruhunun dərinliyini daha yaxşı anlamaq üçün onun düşüncələrini izləməyə başladılar. Bir sıra Qərbi Avropa yazarları hekayə və romanlarında daxili monoloq texnikasını təcrübədən keçirirlər..

Mopassanın bədii nəsrində obrazın daxili aləminin açılmasında başqa vasitələrlə birlikdə daxili monoloqlardan da uğurla istifadə olunub. Yazarın xüsusilə psixoloji romanlarında insanların ruhlarına nüfuz etmək istəyi ilə əlaqəli ən vacib

məsələlərin həllində onun qəhrəmanlarının səsli və səssiz monoloqu müstəsna rol oynayır. Bu vasitə ilə Mopassan personajın təkcə psixologiyasının deyil, eyni zamanda mənəviyyatının da üzərinə işıq salmaq məqsədi güdüb. "Əziz dost" romanı psixoloji roman hesab olunmasa belə bu romanda da kifayət qədər psixoloji priyomlara təsadüf edilir. Jorj Düruanın uğurlu gələcək axtarışında paytaxt mühitinə daxil olduğu, lakin hələ özünə arzusunda olduğu mövqeyi qazanmağa nail olmadığı ilk zamanlarda Parisin küçələrini dolaşarkən zəngin insanlara qarşı rəftarı, onların barəsində düşündükləri bu insanın mahiyyətini açıb göstərir. Zənginlərə qarşı həsəd hissi ilə alışıb yanan, var-dövlət hərisi olan bu gənc oğlan yoxsulluqdan əziyyət çəkdikcə zənginlərə və imtiyaz sahiblərinə kin-küdurətlə yanaşırdı.. Küçədə qarşısına çıxan varlı adamlara qəsdən, acığından kobudcasına çiyin vuran və onların barəsində qərəzli fikirlərə qapılan Dürua daxilində həsəd hissindən qovrula-qovrula deyirdi: "Yaramazlar! Həm də bu əclafların hər birinin gen-bol pulu var!" Romanın ön səhifələrindəki bu cümlələr əsas personajın mənəvi dünyasından xəbər verir; Düruanın davranışı kimi, düşüncələri də onun çirkin mənəviyyatının göstəricisidir.
Lakin Jorj nə qədər mənfəətpərəst və qəlbsiz birisi olsa da, şahidi olduğu hadisələr istər-istəməz onun da ruhuna sirayət edir, beynində bəşər övladının möcudluğu, həyatın faniliyi haqqında müxtəlif fikirlər doğurur. O, Forestyenin ölümlə həyat arasında çarpışdığı son günləri müşahidə edərkən çox bədbin düşüncələrə qapılmalı olur. Keçmiş hərbçi yoldaşının ömrünün çiçəklənən yaşında ikən ölüm yatağında çəkdiyi əzabları, acı sonunu gördükcə Düruanın beynində varlıq və ölüm haqqında əbədi qorxunc fikirlər baş qaldırır. Düşündüklərini dilinə gətirməsə də, o, həyatın faniliyindən dəhşətə gəlir. Həmin məqamda qəhrəmanın iç dünyasını bürüyən məhrəm duyğular da daxili monoloqda öz əksini tapıb: "Bu da həyat! Dünyaya göz açan insan boya-başa çatır, xoşbəxtliyə qovuşur, amma daha nələr-nələr umduğu halda dünyadan köçür. İstər kişi ol, istər qadın —heç fərq etməz—xudahafiz və bir daha sən bu işıqlı dünyaya gəlməyəcəksən!.. "Bu-xeyli qısa ömür sürən və çarəsiz varlıqları durmadan udan, ucu-bucağı olmayan yoxluğun qarşısındakı dəhşət idi". Lakin elə həmin dəqiqələrdə ərinin ömür yolunun son dəqiqələrinə şahidlik edərək fikir dəryasına qərq olan xanım Forestyenin qəmli çöhrəsini nəzərdən keçirən Jorjun daxilində şux bir duyğu baş qaldırır və beynindəki bədbin fikirləri qovur: "Əgər bütün yaşam qarşıdaydısa, onda dərd çəkməyin mənası vardımı?". O, "həyatda yeganə təsəlli qaynağı eşqdir!" deyə öz-özünə təsdiqləyir və bir az əvvəl daldığı düşüncələrdən ayrılır. Xaraktercə praktik olan Jorj elə oradaca öz həyatının gələcək perspektivini müəyyən etməklə bağlı fikirlərə dalır. Müəllif psixoloji vasitələrlə, qəhrəmanın psixikasını və düşüncələrini diqqət mərkəzində saxlayır və daxili monolqlardan yalnız xarakterlərin açılması üçün deyil, həm də personajın həyat kredosunun açılmasında bir vasitə kimi istifadə edirdi. Hadisələr inkişaf etdikcə bəlli olur ki, Düruanın düşündükləri onun gələcəkdə atacağı addımların proqnozudur.

"Dünya güclülərindir. Güclü olmaq lazımdır" deyə içində öz-özünə qət edən Düruanın hansı yolla olursa olsun sərvət və hakimiyyət əldə eləmək niyyəti onu

mümkün olan hər fürsətdən yararlanmağa sövq edir. Bu mahir karyerist və kələkbaz Tanrının ona bəxş elədiyi yaraşıqlı zahiri görünüşdən qadınları yoldan çıxarmaq, onların vasitəsi ilə arzusunda olduğu yüksək məqamlara yetişmək üçün məharətlə yararlanır. Dürua xaraktercə etibarlı bir adam olmadığı üçün özü də başqalarına çox güvənməzdi, fikirlərini, mülahizələrini, gələcək planlarını bir kimsə ilə bölüşməz, müzakirə etməzdi. Bu səbəbdəndir ki, əksər hallarda düşündükərini dilə gətirməyərək daxili monoloqlarla kifayətlənərdi. O, narazılığını, etiraz səsini də daxilidə bildirərdi, hər şeyi içində götür-qoy edərək qərar verərdi. Mərhum dostunun arvadı ilə evlənmiş bu adam onunla bağlı edilən hər eyhamdan qıcıqlanar, onu xatırladan hər cümlədən özündən çıxardı. "Lənət şeytana, mənə nə olub belə? Axı mən Madlenanı öz yaxın dostlarıma zərrəcə də qısqanmıram. Onun kimlə, necə vaxt keçirdiyi ilə maraqlanmıram. Haraya yollandığını, nə vaxt dönəcəyini ondan bir kərə də soruşmadığım halda , o dılğır Forestye barədə bircə eyham məni tamamilə özümdən çıxarır!"" [4] Düruanın insanlarla, zəif cinsin nümayəndələri ilə bağlı fikirləri, ümumilikdə həyatda nəsə əldə etməklə bağlı gəldiyi qənaətlər qısa həcmli daxili monoloqlar vasitəsi ilə açıqlanır: "Elə bütün qadınlar ayağısürüşkəndirlər, onlardan kefin istədiyi kimi yararlansan da, mənən heç birinə bağlanmamalısan". [4] Xanımından ayrılmaq və naziri ifşa etmək üçün əlinə düşən fürsətdən məharətlə yararlanan Düruanın istədiyinə nail olduqdan sonra söhbət əsnasında Valterə söylədikləri həyatı boyu hər cür adamlarla qarşılaşmış, dünyanın hər üzünü görmüş qocaman naşiri belə dəhşətə gətirmiş, onun daxilində qorxunc hisslər baş qaldırmışdı. Həmsöhbətinə bir söz deməsə də, onun əməllərindən və niyyətlərindən əməlli-başlı heyrətə gələn və eşitdiklərindən çaşqınlıq keçirən zəngin həyat təcrübəsinə malik kişi "bu yaramaz xeyli qabağa gedəcək" deyə özü-özünə əminliklə təsdiqləyir. İstədiyi vaxt bütün dəyərləri ayaqlamağa hazır olan Düruanın niyyətini gerçəkləşdirmək üçün əl atdığı üsulların heç də ləyaqətli birisi tərəfindən istifadə oluna bilməyəcəyini bilən Valter anlayır ki, "bu dəliqanlı ilə ehtiyatlı davranmaq lazımdır." Naşirin hasil etdiyi qənaət də, gəldiyi qərarlar da "gizli nitqin" sayəsində məlum olur.

"Həyat" romanında da yazıçı obrazın psixoloji durumunu, mənəviyyatını açmaqda daxili monolqlardan yararlanıb. Müəllif diqqəti xəyanətin şiddətindən yaranan psixoloji durumda insanın davranışına yönəldir. Gənc qadının həyat və insanlar haqqında fəlsəfəsi əsasən onun daxili nitqində əks olunur. Anasının sevgilisi ilə yazışmalarını tapıb oxuyarkən aldığı mənəvi-psixoloji zərbə Jannaya xeyli vaxt şok yaşadır. Əgər Julyənin yol verdiyi rəzalət Jannanın qəlbində yalnız ərinə qarşı inamsızlıq və nifrət hissinin baş qaldırmasına səbəb olmuşdusa, anasının atasına xəyanəti onda bütün bəşər övladına qarşı inamsızlığın baş qaldırması ilə nəticələndi. Müəllif qəhrəmanının ağır psixoloji durumlarındakı fikirlərini daxili monolqlarla ifadə edir. Sevgi məktublarını oxuduqdan sonra əllərini üzünə tutub acı-acı ağlayan Jannanın içində dəhşətli fikirlər gənc xanımın daxilində bir-birini izləyir; artıq o anlayır ki, anasına qarşı münasibəti tamamilə dəyişib. O, "Ah, yazıq anam, ah, yazıq

anam!" deyə fəryad etsə də, atasının bu sirlərdən agah olmaması üçün tələm-tələsik məktubları toplayıb divar sobasına atsa da, əvvəlkitək anasına kor-koranə səcdə edə biləcəyinə şübhə edir və yəqin edir ki, daha əvvəlkitək ona bəslədiyi dərindən dərin hörmət də yoxa çıxmağa başlayır. Janna durmadan özünə suallar ünvanlayır: "Məktublarda onun pünhan saxladığı sirrini öyrənməsi ana-balalıq münasibətini korlamaz ki, övladlıq məhəbbətimi azaltmaz ki? Əvvəlki coşqun istək və dərin ehtiramla onu sevərmi? Hərarətlə onu öpərmi? Onu yenə müqəddəs saya bilərmi? Yox, bu qeyri- mümkündür! Onun ürəyini partladan da, bax, elə bu fikirlər, bu etiraf idi". [4] Bu hadisədən sonra Jannanın yeganə sirdaşı daxilindəki mən olur. Artıq onun kiməsə etibarı qalmamışdı; çox yaxından bağlı olduğu atasının səmimiyyətinə və mehribanlığına, qayğıkeşliyinə rəğmən ürək sözlərini deyə biləcəyi, dərdini paylaşacağı bir kimsəsi yoxdu. Jannanın sevgisi də, nifrəti də, qəzəbi də, kədəri də -- bir sözlə bütün xoş və acı duyğuları onun daxilində qapanır. O, acısını içinə gömərək bir daha kiminsə yanında büruzə vermir.

Ədəbiyyat

1. http://ebooks.grsu.by/psihologism_lit/5-poetika-psikhologizma-osobennosti-psikhologicheskogo-pisma-v-proze-khkh-veka.htm
2. https://excerpts.numilog.com/books/9782402630009.pdf. Du monologue intérieur ala sous-conversation éditions a.-g. Nizet 3bis place de la Sorbonne Paris 1978.
3. https://fr.wikipedia.org/wiki/Monologue_int%C3%A9rieur---?
4. Gi de Mopassan. Seçilmiş əsərləri, Şərq-Qərb, Bakı, 2010. səh.221
5. Gi dö Mopassan. Roman və novellalar. Bakı, yazıçı, 1989. səh.134.

Gulnara Hajiyeva
Azerbaijan State Pedagogical University,
Center for Foreign Languages

INTERIOR MONOLOGUES IN THE PROSE OF GUY DE MAUPASSANT

Key words: Guy de Maupassant, internal monologue, literary technique, character. psychological state, spirituality

In this research work, the essence of internal monologues used as a literary technique in fiction is investigated, especially in fictional works with psychological content, the important role of internal monologues in revealing the spirituality of the characters' psychology is discussed, the reasons for their use in fiction works and their role in understanding the psychological state of the characters are mentioned. By means of internal monologues, the reader directly "communicates" with his protagonist, and thus gets to know or discover him more closely. The research also

emphasizes that internal monologues help the reader to get into the details of the character's mental state, because here his feelings and emotions, life view is reflected. In addition to all the listed features, internal monologues give a unique charm to the work of fiction. The article also briefly reviews the history of the use of internal monologues in French literature.

Internal monologues are widely used in the works of Guy de Maupassant to reveal the psychological state, psychology and spirituality of the characters. For this reason, in the research work, referring to the literary heritage of the famous French writer, considerations are made about how the said artistic technique have been skillfully used, and how the internal monologues have been pertinently used in author's novels "Dear Friend" and "Life" as well as the novella “The Horla” are emphasized. It is noted that when using such a literary technique, the goal of the writer was to help his readers to understand the psychology of the character and to get to know his spiritual world more closely.

Гюльнара Гаджиева
Азербайджанский Государственный Педагогический Университет,
Центр иностранных языков

ВНУТРЕННИЕ МОНОЛОГИ В ПРОЗЕ ГИ ДЕ МОПАССАНА

Ключевые слова: Ги де Мопассан, внутренний монолог, литературный прием, персонаж. психологическое состояние, духовность

В данной исследовательской работе исследуется сущность внутренних монологов, используемых как литературный прием в художественной литературе, особенно в художественных произведениях психологического содержания, обсуждается важная роль внутренних монологов в раскрытии духовности психологии героев, причины их упоминается использование в художественных произведениях и их роль в понимании психологического состояния героев. Посредством внутренних монологов читатель непосредственно «общается» со своим героем и таким образом ближе узнает или открывает его. В исследовании также подчеркивается, что внутренние монологи помогают читателю проникнуть в детали душевного состояния героя, поскольку здесь отражаются его чувства и эмоции, взгляд на жизнь. Помимо всех перечисленных особенностей, неповторимое очарование художественному произведению придают внутренние монологи. В статье также кратко рассматривается история использования внутренних монологов во французской литературе.

Внутренние монологи широко используются в произведениях Ги де Мопассана для раскрытия психологического состояния, психологии и

духовности персонажей. По этой причине в исследовательской работе, обращаясь к литературному наследию известного французского писателя, делаются рассуждения о том, насколько умело использовался указанный художественный прием, и как уместно использовались внутренние монологи в авторских романах «Милый друг». и «Жизнь», а также повесть «Орля». Отмечается, что при использовании такого литературного приема целью писателя было помочь своим читателям понять психологию героя и поближе познакомиться с его духовным миром.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.e.d., prof. Cavanşir Əliyev
tərəfindən çapa tövsiyə olunmuşdur

Н.В.ГАСАНОВА
Старший преподаватель АГПУ
nazli.hsnova.57@mail.ru
Üzeyir Hacıbəyli,68

ГРАММАТИЧЕСКАЯ АССИМИЛЯЦИЯ ЗАИМСТВОВАНИЙ И КРИТЕРИИ ОПРЕДЕЛЕНИЯ ИХ В ЯЗЫКЕ

РЕЗЮМЕ

Общая проблема заимствования элементов одного языка другим включает в себя сложный комплекс вопросов различного характера. Наиболее актуальными представляются следующие: какое языковое явление считается заимствованием; причины заимствований; В статье рассматривается как происходит освоение слов в заимствующем языке и разные стороны их освоения.

Специфика его, заключается в том, что слово заимствуется не целиком, как грамматически оформленное слово, а только как часть лексического материала, который получает новую оформленность только в системе и средствами заимствующего языка. Общепринято считать, что для вхождения слова в систему заимствующего языка требуются следующие условия: во-первых передача иноязычного слова фонетически и грамматически средствами заимствующего языка. Во-вторых соотнесение слова с грамматическими классами и категориями заимствующего языка. Затем происходит фонетическое и грамматическое освоение иноязычного слова.

Большинство заимствований можно разделить по морфологическим показателям. Классификация латинских заимствований данного периода основана именно на морфологическом принципе. Прилагательные, ведущие происхождение от латинских прилагательных: по словообразовательным аффиксам: на − al (dental, manual, neutral от лат. dentalis, manualis, neutralis − зубной, ручной, нейтральный); и.т.п.

Заимствованные слова преобразуются и в своей грамматической структуре. На примере русских заимствований можно увидеть, что множественное число большинства заимствованных существительных оформляется по типу английских, при помощи «s» или «es». Например: mammoths, steppes, sables и т.п. Образование множественного числа существительных тесно связано с вопросом глубины проникновения заимствования.

Ключевые слова: заимствование, ассимиляция, , процесс перемещения, морфология, грамматическая ассимиляция

Заимствование слов- это процесс, в результате которого в языке появляется и закрепляется некоторый иноязычный элемент. Заимствования становятся результатом контактов, взаимоотношений народов, профессиональных сообществ, государств. На разных этапах своей истории английский язык заимствовал слова из других языков. Интенсивность заимствований вообще и заимствований из определенного языка изменялось в английском языке от периода к периоду. Некоторые языки постоянно поставляют, по крайней мере поставляли английскому языку новые слова в весьма значительном количестве: латинский, французский, немецкий и другие языки используются английским тоже постоянно, но менее интенсивно. Есть языки, заимствования из которых носят случайный эпизодический характер, они представлены одним, двумя словами, не считая так называемых экзотических слов, число которых в значительной степени зависит от авторов, описывающих жизнь и быт какой-то обычно отдаленной страны. Исследователи отмечают, что в лексике современного английского языка, число исконных слов составляют около 30 %.В английском языке есть заимствования из более 50 языков. В этой связи, огромное количество заимствованных слов в английском языке дало основание некоторым лингвистам утверждать, что английский язык потерял свою самостоятельность, что он представляет собой гибридный язык, однако, следует помнить, что английский язык никогда не переставал быть самим собой, так как его грамматический строй почти не подвергался иностранным воздействиям. Несмотря на большое количество заимствований из других языков, английский язык не потерял своей самобытности и остался языком германской группы со всеми характерными чертами, присущими ему на протяжении его развития. Изменения, которые он претерпел в связи заимствованиями, лишь обогатили его словарный состав.

Язык является подвижной системой, изменяющейся и развивающейся вместе с ходом истории и преображением мышления народа − носителя данного языка. В последние десятилетия в английском языке наблюдаются стремительные изменения в области лексики. Поскольку английский язык пользуется всевозрастающей популярностью во всем мире и относится к международным языкам, на котором ведутся переговоры и обучение во многих странах мира, проходят научные конференции, публикуются доклады и т. д., то большая часть новых слов приходит именно из этого языка. Заимствование − один из самых динамичных процессов в современных языках и представляет собой интерес с точки зрения взаимодействия английского и других языков. Среди процессов, связанных с пополнением словаря английского языка, определенное место занимает заимствование иноязычной лексики как один из способов номинации новых явлений, а также замены существующих наименований. Общая проблема заимствования элементов одного языка другим включает в себя сложный комплекс вопросов различного характера.

Наиболее актуальными представляются следующие: какое языковое явление считается заимствованием; причины заимствований; виды и типы мигрирующих элементов; освоение слова в заимствующем языке и разные стороны этого освоения; признаки освоения иноязычного слова, позволяющие считать его заимствованным и некоторые другие вопросы.[3.с.13] Под заимствованием большинство ученых подразумевает процесс перемещения из одного языка в другой различных элементов, под которыми понимаются единицы различных уровней структуры языка - фонологии, морфологии, синтаксиса, лексики, семантики .Первой фазой иноязычного влияния, как правило, является лексическое заимствование. Специфика его, как известно, заключается в том, что слово заимствуется не целиком, как грамматически оформленное слово, а только как часть лексического материала, который получает новую оформленность только в системе и средствами заимствующего языка. Общепринято считать, что для вхождения слова в систему заимствующего языка требуются следующие условия:

- передача иноязычного слова фонетически и грамматически средствами заимствующего языка;
- соотнесение слова с грамматическими классами и категориями заимствующего языка;
- фонетическое и грамматическое освоение иноязычного слова;
- словообразовательная активность слова;
- семантическое освоение, а именно, определенность значения, регулярная употребляемость в речи.

Однако некоторые условия являются не обязательными, например, грамматическая ассоциация слова и его словообразовательная активность. В русском языке широко используются слова *джем, колледж, досье, кофе, интервью* и многие другие, не ассимилированные грамматически и не освоенные фонетически.[7.с.44] Однако, очевидно, что заимствования являются существенной частью общей перспективы истории языка, так как значительная их часть, связанная с общими понятиями науки, техники, искусства, общественной жизни. Особое значение заимствований в развитии современного английского языка как раз и заключается в том, что они являются общепризнанными естественными формами лексико-семантического выражения важнейших понятий современной культуры. Поэтому сознательная ориентация на заимствованные слова неизбежна. Заимствования не создают угрозы самобытному развитию английского языка, так как они ассимилируются с учетом национальных традиций и отношений важной составной частью языка. Кроме фонетической ассимиляции, заимствованное слово подвергается также грамматической (морфологической) ассимиляции − заимствованные слова, входя в состав нового языка, подчиняются его грамматическим нормам. Как известно, необходимым условием заимствования

иноязычных слов считается наличие контакта языка-приемника с языком-донором. Однако, в основе современного процесса заимствования, когда основным путем перехода слов из одного языка в другие является письменный путь, заимствование не следует понимать только как результат территориального контакта двух соседних или проживающих на одной территории народов. Следует отметить, что с развитием электронных технологий в условии расширяющейся межкультурной коммуникации процесс заимствования происходит еще быстрее. В отличие от грамматического и лексического проникновения, заимствование, по мнению ученых, «предполагает в качестве необходимого и достаточного условия территориальную смежность и пограничное двуязычье», оно, также «предполагает в качестве необходимого условия культурное влияние и экспорт-импорт реалий (новые орудия и средства производства, новые понятия общественной жизни)». Кроме того, собственно заимствование подразумевает дальнейшую адаптацию и включение заимствованного слова или его элемента в словарный состав языка−приемника. В качестве критериев определения заимствования выделим следующие: 1) графический; 2) фонетический; 3) морфологический; 4) семантический.[2.с.190] Поскольку диакритические знаки и несвойственные английскому языку сочетания звуков, используемые во французском языке, противоречат произносительным нормам английского языка и выдают иностранное происхождение слова, при установлении заимствования надежнее полагаться на графический и фонетический критерии. Два других критерия − морфологический и семантический, менее надежны и могут применяться при невозможности узнать происхождение слова по его фонетическому составу. Таким образом, 3 и 4 критерии являются второстепенными,факультативными.Наиболееупотребительным французским словам и выражениям, заимствованных английским языком и встречающихся на страницах журналов относятся: bon vivant, connoisseur, coup d`état, coup de grâce, élan, enfant terrible, esprit de corps , fait accompli, femme fatale, force majeure, gourmand, haute couture, joi de vivre, laisser fair, lèse-majesté, object d'art, overture, raison d'être, savoir fair и др. Так, например: - Being based in a remote spot, far from government authorities, may be important for training building esprit de corps and, in the view of intelligence agencies, trying to develop chemical and biological weapons. - Police already have a bundle of lèse-majesté cases on the go . - Thousands of websites have been blocked for alleged lèse-majesté…. В рассмотренных примерах наблюдается утрата категории грамматического рода в заимствованных словах, что связано с отсутствием грамматической категории рода в английском языке. Кроме устойчивых выражений «à la carte», «à la mode» встретился только один случай сохранения артикля: - Now Chistie's is preparing for la grande vente, which will consist of three evening-sales and two day-sales presided over by eight auctioneers . Следует отметить, что орфография

большинства заимствований из французского варьируется (например, decor и décor). Существование двух, а иногда и трех вариантов произношения говорит о «неустоявшейся» ассимиляции заимствованной единицы. В случае полной адаптации иностранное происхождение формы стирается и, как правило, устанавливается один вариант произношения. Согласно электронному этимологическому словарю заимствование в «à la carte» датируется 1826 г. и буквально означает «by the card» или «ordered by separate items; distinguished from a table d'hôte, meal served at a fixed, inclusive price». Заимствование «à la mode» относится к еще более раннему периоду, к 1640 г., и означает «in the fashion». Несмотря на это, оба заимствования широко используются английским языком в настоящее время, причем с сохраненной орфографией. Одним из современных понятий является французское «au pair», означающее проживание молодой девушки в иностранной семье и выполняющей работу по дому и присмотру за детьми. Наиболее интенсивно, современный словарный состав английского языка пополняется французскими заимствованиями из области медицины (speleology, speleologist), кулинарии (blanch, endive, gateau), политики (populism, etatism). В связи с этим можно говорить об ассимиляции на парадигматическом уровне: набор из 10 форм латинского слова (formula, formulae, formulae, formulam, formulā, formulae, formularum, formulis, formulas, formulis), которыми выражаются грамматические категории рода, числа и падежа, замещается гораздо более ограниченной парадигмой форм английского слова, в которой находит выражение категория числа и, с определенными ограничениями, падежа (formula, formulas/ae, formula's, formulas').[6.c.77] Таким образом, можно констатировать утрату категории рода и в большой степени падежа. Схожим образом морфологическая ассимиляция может затрагивать и другие грамматические категории при заимствовании слов, относящихся к различным частям речи. В эпоху Возрождения в английский язык активно заимствуются слова из таких важных областей, как теология, медицина, литература, огромное количество технических определений. Особой его чертой является то, что в нем присутствует огромное количество глаголов и прилагательных, но на удивление немного существительных (чего нельзя сказать о двух других пластах латинских слов, попавших в словарный состав ранее, в среднеанглийский период). Большинство этих заимствований из латыни можно разделить по морфологическим показателям. Представленная ниже классификация латинских заимствований данного периода основана именно на этом морфологическом принципе. Прилагательные. а) ведущие происхождение от латинских прилагательных: по словообразовательным аффиксам: на − al (dental, manual, neutral от лат. dentalis, manualis, neutralis − зубной, ручной, нейтральный); на − ar (lunar, solar от лат. lunaris, solaris − лунный, солнечный); на − id (gelid, morbid от лат. gelidus, morbidus − ледяной, болезненный); на − ous (continuous, tremendous от лат. continuus, tremendus −

длительный, огромный); формы сравнительной степени прилагательных (inferior, exterior, interior, major, minor ср. ст. от лат. inferus, exterus, inter, magnus, minus − внешний, внутренний, низкий, большой, маленький); в) ведущие происхождение от латинских причастий: от латинских основ причастий настоящего времени: на − ant (fragrant от лат. прич. fragrant(em), глагол fragrare −благоухать); на − ent (absent от лат. прич. absent(em), глагол abesse − отсутствовать); от латинских основ причастий прошедшего времени на − ate, − ute, − t (desolate, correct, separate от лат. прич. desolat(us), correct(us), separat(us) глаголов desolare, corrigere, separare − оставлять, исправлять, разделять). Глаголы. а) от основ причастий прошедшего времени глаголов: от основы на − at глаголов 1 спряжения (to decorate, to indicate от лат. прич. decorat(us), indicat(us) глаголов decorare, indicare − украшать, указывать); от основы на − ut глаголов 2 и 3 спряжения (to contribute, to distribute от лат. прич. contribut(us), distribut(us) глаголов contribuere, distribuere − прибавлять, распределять); от основы на − t глаголов 3 спряжения (to protect, to connect от лат. прич. protect(us), connect(us), глаголов protegere, connectere − защищать, соединять); от основы глаголов 3 спряжения с разнообразным морфологическим оформлением (to dismiss, to collapse от лат. прич. dismiss(us), collaps(us) глаголов dismittere, collabi − отпускать, рушиться); в) от основы настоящего времени глаголов на − el (to expel, to repel от лат. expellere, repellere − изгонять, отклонять); на −de (to confide, to divide от лат. confidere, dividere− верить, разделять); на −end (to comprehend от лат. comprehendere − постигать); на −mit (to omit, to permit от лат. omittere, permittere − упускать, разрешать); на −duce (to produce, to reduce от лат. producere, reducere − производить, отступать);[1.с.134] Несмотря на некоторое засорение английской лексики словами, заимствованными из других языков, английский язык в целом не пострадал от большого притока иноязычных элементов. Напротив, его словарный состав, непременно, обогатился. Это стало возможным благодаря тому, что он усвоил иноязычные элементы, впитав в себя все ценное и нужное, отбросив в процессе дальнейшего развития все случайное. Заимствованные слова преобразуются и в своей грамматической структуре. На примере русских заимствований можно увидеть, что множественное число большинства заимствованных существительных оформляется по типу английских, при помощи «s» или «es». Произношение этого окончания характеризуется теми же позиционными условиями, что и в исконно английских словах: mammoths, steppes, sables и т.п. Образование множественного числа существительных тесно связано с вопросом глубины проникновения заимствования. Наиболее употребительные в английском языке заимствования образуют множественное число с английским суффиксом «s», «es». Существительные, редко употребляемые часто сохраняют русскую форму множественного числа: strelez - strelzey.Метод статистического подсчета позволил выявить процентное

соотношение найденных заимствований разных частей речи . Большая часть заимствований − существительные, потому что появляются новые явления в общественной жизни, и традиционным новатором являются такие страны, как США, Великобритания. Также существительные в немецком языке, как правило, длиннее по написанию, нежели английские, это также объясняет широкое использование англоязычных существительных. Глаголы называют также явления, но их наблюдалось не так много, как существительных. Рассмотрим грамматическую ассимиляцию, которой подвергаются англоязычные заимствования в немецких текстах. Очень часто сохраняется грамматический класс слов, заимствованных из английского языка. Большинство англоязычных заимствований, найденных в текстах, − существительные, которые часто обозначают названия, например, «Google Chrome», но также было найдено большое количество глаголов и незначительное количество прилагательных. Заимствованные из английского языка существительные приобретают один из родов в немецком языке, как правило, средний или мужской. Например, der Computer (компьютер), die Headline (заголовок), der Link (ссылка). Кроме того, существительные также получают соответствующий тип склонения, а их в немецком 4: сильное, слабое, женское и смешанное.[4.с. Заимствование «Instagram-Account» будет склоняться по сильному типу, он употребляется в родительном падеже. Более того, в данном примере мы наблюдаем сложносоставное слово, которые также встречались в немецкоязычных текстах. Такого рода заимствования являются не полностью ассимилированными и произносятся по правилам английского языка, однако в текстах склоняются по правилам немецкой грамматики. В данном примере в слове «Powerfrau» (деловая женщина), «die Frau» – это немецкое слово, «power» – английское. Такие сложные слова типичны для немецкого языка, их грамматическая ассимиляция проявляется в том, что они образованы по словообразовательным моделям немецкого языка. В отобранных текстах обнаружено небольшое количество прилагательных, заимствованных из английского языка, такие, как arrogant (высокомерный), cool (классный, крутой). Склонение также затрагивает и прилагательные, которые в немецком склоняются по трем типам: сильное, слабое и смешанное. Например, «Heute ist dieses Tuch aber auch bei coolen Mädels beliebt...». Заимствованное слово «cool» в приведенном примере склоняется по правилам немецкого языка, хоть и является английским заимствованием. coolen Mädels beliebt...». И так при грамматической ассимиляции, заимствованные слова, входя в состав нового языка, подчиняются его грамматическим нормам. Время заимствования часто играет большую роль в процессе адаптации чем раньше заимствованы слова, тем больше, как правило ассимилируются грамматически. Подчинение грамматическим нормам английского языка у существительных проявляется в образовании множественного числа по модели языка реципиента

и в их употреблении с артиклями. Глаголы включаются в систему стандартных английских глаголов. Грамматическая ассимиляция прилагательных и наречий заключается в образовании ими форм степеней сравнения по английскому образцу.

Литература

1. Арнольд, И. В. Лексикология английского языка , учебник – Москва : Высшая школа, 2016.

2. Антрушина Г.Б., Афанасьева О.В., Морозова Н.Н. Лексикология английского языка М., Высшая школа,1985

3.Арнольд, И. В. Лексикология современного английского языка : учебное пособие – М.Наука,2012 ,с.350-378

4.Багана, Ж. Калька Заимствование как результат иноязычного влияния . Вестник РУДН. − Белгород, −2014,− №1(9). − С.5−10.

5.Арнольд, И. В. Основы научных исследований в лингвистике : учебное пособие – Москва, 2011.-140с

6.Словарь иностранных слов и выражений, М., Издательство АСТ,1998

7.Дьяков А.И. Причины интенсивного заимствования англицизмов в современном русском языке - Новосибирск, Язык и культура,2003 с.13-17

N.Həsənova

Alınma sözlərin qrammatik assimilyasiyası və onların dildə müəyyən olunması meyarları

Xülasə

Bir dil elementlərinin digər dildən götürülməsinin müxtəlif xarakterli mürəkkəb suallar toplusu əhatə edir. Ən aktual olanlar aşağıdakılardır: alınma sözlər hansı linqvistik qrup hesab olunur; alınma sözlərin keçmə səbəbləri; növləri,daxil olan sözərin yeni dildə işlənməsi və onların inkişafının müxtəlif aspektləri;

Onun spesifikliyi, sözün bütövlükdə, qrammatik cəhətdən formalaşmış söz kimi deyil, yalnız alınma sistemində və vasitələrində yeni forma alan leksik materialın bir hissəsi kimi alınmasındadır. Ümumiyyətlə ,qəbul edilir ki, sözün alınma dil sisteminə daxil olması üçün aşağıdakı şərtlər tələb olunur: xarici sözün alınma dil vasitəsilə fonetik və qrammatik cəhətdən ötürülməsi; alınma sözlərin dilin qrammatik sinifləri və kateqoriyaları ilə əlaqəsi; onların fonetik və qrammatik inkişafı;

Əksər alınma sözlər morfoloji göstəricilərə görə bölünə bilər. Bu dövrün latın dilindən alınma sözlərinin təsnifatı məhz morfoloji prinsipə əsaslanır. Sifətlər. a) latın sifətlərindən yaranan: sözyaradıcı affikslərlə: al (dental, manual, neytral latın dentalis, manualis, neutralis - diş, əl, neytral); və s. Alınmış sözlər də qrammatik quruluşuna görə transformasiyaya uğrayır. Rus alınma sözlərin nümunəsində görə bilərsiniz ki, ən çox götürülmüş isimlərin çoxluğu ingilis dilində olanların növünə görə

"s" və ya "es" suffikslərinin köməyi ilə formalaşır. Məsələn: mamontlar, çöllər, samurlar və s. İsimlərin cəm halının formalaşması alınma sözlər nüfuz dərinliyi məsələsi ilə sıx bağlıdır.

Açar sözlər: alınma sözlər, assimilyasiya, alınma sözlərin köçmə prosesi, morfologiya, qrammatik assimilyasiya

N.Hasanova

Grammatical assimilation of borrowings and criteria for determining them in the language

SUMMARY

The general problem of borrowing elements of one language by another includes a complex set of questions of a different nature. The most relevant are the following: what linguistic phenomenon is considered borrowing; reasons for borrowing; its types; development of a word in a borrowing language and different aspects of this development;

Its specificity, as you know, lies in the fact that the word is not borrowed as a whole, as a grammatically formed word, but only as part of the lexical material, which receives a new form only in the system and means of the borrowing language. It is generally accepted that for a word to enter the system of a borrowing language, the following conditions are required: transfer of a foreign word phonetically and grammatically by means of a borrowing language; correlation of the word with grammatical classes and categories of the borrowing language; phonetic and grammatical development of a foreign word;

Most borrowings can be divided according to morphological indicators. The classification of Latin borrowings of that period is based precisely on the morphological principle. Adjectives. a) originating from Latin adjectives: by word-building affixes: on - al (dental, manual, neutral from Latin dentalis, manualis, neutralis - dental, manual, neutral); etc.

Borrowed words are also transformed in their grammatical structure. On the example of Russian borrowings, we can see that the plural of most borrowed nouns is formed according to the type of English ones, with the help of "s" or "es". For example: mammoths, steppes, sables, etc. The formation of the plural of nouns is closely related to the question of the depth of penetration of borrowing.

Key words: borrowings, assimilation, grammar, transfer process, morphology, grammatical assimilation

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

YUSİBOVA ZÜLEYXA FƏRRUX QIZI
TEYMUROVA RASİMƏ SAHİB QIZI
Azərbaycan Dövlət İqtisad Universiteti
"Xarici Dillər" kafedrasının baş müəllimləri
H.Əliyev pr.92.
zuleyxa-rasima.@ com.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN LEKSİK- SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN QARIŞILIQLI MÜNASİBƏTLƏRİNƏ DAİR

XÜLASƏ

Bu məqalə elliptik söyləmlərin struktur-semantik xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. Məqalədə ellipsis anlayışına yanaşmaların sistemləşdirilməsi təqdim edilmişdir. Ellipsis təbiətinə görə mürəkkəb hadisə kimi təbii dilin sintaktik sistemində xüsusi yer tutur. Məqalədə elliptik cümlə probleminin həll edilməsi sintaksis elminin ən aktual məsələlərindən biri hesab edilir. Qeyd olunur ki, elliptik cümlələrin öyrənilməsində ən mühüm məsələlərdən biri onların struktur və semantik planlarda tamlığı və natamamlığı məsələsidir. Məqalədə həm də elliptik cümlələrin əsasən şifahi dialoji nitq üçün xarakterik olduğu qeyd edilir. Yarım-çıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən cümlələr) və elliptik cümlələr arasındakı fərqlərdən danışılır.

Məqalədə göstərilir ki,elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır.Elliptik cümlələr replika və dialoqlara xas olan, bir yaxud bir neçə üzvü çatışmayan,kontekstdə tam cüttərkibli cümlələrə uyğun gələn natamam cümlələr kimi təsvir edilir.Onların çatışmayan üzvləri kontekst və situasiyadan bərpa edilə bilir. Kommunikativ-semantik strukturun formalaşmasına şifahi nitqin baş verdiyi mühitin, jestlərin, nitqin tempinin , intonosiyanın və digər amillərin təsiri olduğundan əsasən yarımçıq cümlələrdən istifadə olunur.Qeyri formallıq, səmimi ünsiyyət kimi amillər ifadələrə qənaət etməyə, mənanı anlamq üçün yetərli olan ifadələrin istifadə olunmasına imkan verir.Bu səbəblə ellipsisin öyrənilməsi bütün müasir dillərdə baş verən ünsiyyət vasitələrinə qənaət proseslərini anlamaq üçün kifayətdir.

Açar sözlər: cümlə, yarımçıq cümlə, struktur, konsituasiya, kontekst, söyləm, cümlə modeli, elliptik cümlə

Müasir dilçilikdə təktərkibli cümlələrin statusuna dair fərqli fikirlər hökm sürür. Bu fikirlər arasında ortaq məqam ondan ibarətdir ki, təktərkibli cümlələr tərkibində

feilin şəxsli forması olmayan cümlələrdir. A.A.Şaxmatova görə, "yarımçıq cümlələr bu və ya digər üzvün buraxıldığı halda özünə yer alır. Elliptik cümlələri tam cümlələrin struktur variantı kimi şərh edən A.A.Şaxmatovun fikrincə, "qrammatik baxımdan təktərkibli cümlələrin mahiyyəti subyekt və predikatın birləşməsi cümlənin bir üzvündə özünə uyğunluq tapmasından ibarətdir". A.M.Peşkovski isə öz tədqiqatlarında elliptik cümlələri "yarımçıq cümlələr" kimi nəzərdən keçirir və onları "bir və ya bir neçə üzvü çatışmayan" cümlələrə aid edir . Müəllifin fikrincə, "ikinci dərəcəli üzvləri olmayan cümlələr yarmçıq cümlələrdir". Elliptik cümlələri müstəqil cümlə kimi şərh edən V.V.Vinoqradov yazırdı ki, "ellip-tik və ya yarımçıq cümlələr" müstəqil strukturlar olmaqla yanaşı, həm də tamtərkibli cümlələr kimi kommunikativ funksiya yerinə yetirirlər".(1-s.620)

Onun fikrincə, "elliptik cümlələr danışıq dili cümlələrinin özünəməxsus tipikləşmiş for-malarıdır, onların xüsusi struktur tipləri özlüyündə tam cümlələrin normasının posulmasını təmsil etmir" .

Qeyd edək ki, xüsusi sintaktik hadisə olan ellipsis zamanı semantik strukturun element-lərindən biri söyləmin üst qatında ifadə olunmur. Halbuki elliptik konstruksiyaları linqvistik baxımdan nəzərdən keçirərkən onu struktur-qrammatik və məna vahidi kimi təqdim etmək mümkündür. Elliptik cümlələrin struktur-semantik təşkili məna yarımçıqlığı və onun yerinin doldurulması üsulları baxımından araşdırılır. Bu cür yarımçıqlığın yerinin dolumunun mənbəyi dialoq və danışığın konsituasiyası ola bilər. Elliptik cümlələrin formalaşmasında linqvistik kon-tekstlə müqayisədə konsituasiyanın təsiri daha güclüdür.(2-s.608)

Göründüyü kimi, linqvistik kontekst elliptik cümlələrin struktur-semantik tərtibinə təsir edən amillərdən biridir. Elliptik söyləm gerçəklik situasiyasının hər hansı bir elementinin nomi-nasiya vasitəsi kimi çıxış edir. Elliptik cümlələrin semantik strukturunun formalaşması onların tipikləşmiş ünsiyyət situasiyasına daxil olması nəticəsində baş verir. Bu cür cümlələr özlərinin spesifik struktur sxemlərilə konsituativ linqvistik vahidlər kimi çıxış edirlər. Danışıqda elliptik cümlələr dildənkənar gerçəklik situasiyası ilə bağlılıq nümayiş etdirir, onların semantikası kommunikativ, situativ-istiqamətli, üstəlik mürəkkəb xarakter daşıyır.

Ellipsisin müəyyənləşdirilməsində kontekst və situasiyanın həlledici rolunu nəzərdən keçirən Ş.Balli yazırdı ki, "biz ellipsisi situasiyanı "prezentasiya edən" deyktik elementlərin və ya konteksti "reprezentasiya" edən anaforik elementlərin "düşünülməsi" kimi nəzərdən keşirməkdə israrlıyıq". Oxşar fikri qeyd edən V.Q.Admoninin fikrincə, "bəzi hallarda kontekst və ya situasiya cümləni "yüngülləşdirə" bilirlər və bununla da onun tərkibinə müvafiq birləşmə formalarının birbaşa daxil edilməsindən yan keçməyə imkan verir, bu forma isə özünün real məna dolumunu situasiya və ya kontekstdən alır .

Qərb, xüsusən də ingilis dilçiliyində tərkibində feilin şəxsli formasının olmadığı, lakin bu-nunla belə onların tam məzmuna malik olmalarında və buna görə də cümlələrin ekvivalenti kimi çıxış edən bilən cümlələrdən bəhs edilir. Bəzi Qərb

qrammatistləri, məsələn, V.L.Çeyf təktərkibli cümlələri müstəqil cümlələr kimi fərqləndirmir . Ç.Fris isə öz növbəsində təktərkibli cümlələrin mövcudluğunu qəbul edir: "təktərkibli cümlələrin iki növü vardır: onlar ya müəyyən mübtəda və ya xəbərdən, ya da bir sözdə cəmləşdirilmiş mübtəda və ya xəbər ideyasını təmsil edən sözdən ibarət olurlar".

Linqvistik mənbələrdə yarımçıq cümlələrə münasibətdə ortaq cəhət onların istənilən dildə monoloji, dialoji təzahür formalarından asılı olmayaraq danışıq dili üçün səciyyəvi olmasından ibarətdir. G.O.Kerm elliptik cümlələrdən bəhs edərkən onları struktur baxımdan tam, lakin tərkibində feili olmayan cümlələr kimi izah edir. Fikrini əsaslandırmaq üçün isə o, feilsiz əmr cümlələrinin müsal göstərir. Məsələn,Hat soff!;.Your passport, please! B.Blekston isə bu tip cümlələri üslubi vasitələr kimi müəyyənləşdirir və onlara danışıda daha çox rast gəlindiyini qeyd edir. Müəllif buraya nida cümlələrini - What a hot day! və inkarlıq bildirən sözün bütöv cümləni əvəz edə bildiyi inkarlıq bildirən cavabları aid edir. Məsələn,İs it going to rain?-/I hope not.

İ.F.Vardula görə, "sıfır sintaksemlər təkcə məzmuna deyil, həm də ifadəyə malik olmurlar. Sıfır ifadələrin özünəməxsusluğu ondan ibarətdir ki, onlarda "akustik xüsusiyyətlərin məcmusu sıfıra bərabərdir, lakin onlar da özlərini eksplisit kimi, yəni maddi ifadə olunmuş kimi aparırlar. Maraqlı məqam ondan ibarətdir ki, İ.F.Vardul sıfır və ellipsis anlayışlarını fərqləndirməyə cəhd edir: "ellipsiyaya uğramış üzvdən fərqli olaraq, sıfır üzv kontekst və situa-siyadan asılı deyildir və eksplisit sintaksemlərin yerləşdirilməsinə yol vermir".

İ.F.öz araşdırmasında "ellipsis" və "yarımçıqlıq" anlayışlarının fərqinə ciddi yanaşmamış və buna görə də o, ellipsis dedikdə, cümlənin kontekst və ya konsituasiyadan bərpa oluna bilən buraxılmış elementi kimi başa düşür.

H.Poutsuma isə elliptik cümlələrə mübtəda və ya xəbəri olmayan cümlələri aid edir və onlar, onun fikrincə, "kontekstdən bərpa edilə bilməz". Müəllif elliptik cümlələrin beş növünü müəyyən edir: faktı təsdiq edən, məsələn, /No pains, no gains//, emosiya ifadə edənlər, məsələn, All right!, sual, məsələn, What about her?), ritorik sual və nidalar, məsələn, One knows the value of freedom, what then?, əmr cümlələri, məsələn, Your passport,please.

A.İ.Smirnitski isə elliptik cümlələr dedikdə, quruluş elementləri – sözönülər, artikllər, bağlayıcılar, köməkçi feillərin olmadığı cümlələri nəzərdə tutur . Ümumiyyətlə, danışıq üçün səciyyəvi olan elliptik cümlələr ikinci həmsöhbətin danışığında məna baxımından yarımçıq olması ilə xarakterizə edilə bilər. Bu səpkili cümlələr semantik cəhətdən tam, struktur cəhətdən isə yarımçıq olan cümlələrdir. Elliptik cümlələrin strukturunda xəbər olmur və bu da həmin cümlələrə sürətlilik, şiddətlilik, intensivlik, gərginlik çaları verir.

"Ellipsis ifadəsini tapmayan, amma tapması mümkün olan linqvistik dəyər " kimi qiymətləndirən K.M.Abdullayevin fikrincə, "elliptiklik ideyası əslində sintaktik vahidin dəyərə malik yoxluğunun üzərində qurulur və məhz belə bir yoxluq ellipsisli

komponentləri, ya da başqa sözlə desək, sıfır üzvlü komponentləri başqa komponentlərlə daha sıx bağlayır" . Cümlə daxilində ellipsis hadisəsinin baş verməsi heç də həmin konstruksiyada fikrin yarımçıqlığı anlamında qəbul edilməməlidir, çünki belə cümlələrdə istənilən bir üzv ellipsisə yalnız o şəraitdə uğrayır ki, cümlənin özündən və ya mətndən onun bərpası mümkün olsun. K.M.Abdullayev hesab edir ki, "ellipsisləşmə dolayısı ilə cümlə quruluşunda danışanın, infor-masiya verənin əvvəlcədən nəzərdə tutduğu modelin təqdim edilməsinə xidmət edir. Beləliklə, ellipsisli cümlə quruluşunu yalnız formal baxımdan deformasiyaya uğramış kimi qəbul etmək olar. Əslində bu deformasiyaya uğramış quruluş informasiya qəbul edənin dil şüurunda gizlənmiş tam təsəvvürüdür" .(3-s.147)

Cümlənin insan fikrinin subyektiv xüsusiyyətlərinə şərtlənmiş ellipsisi dilin ən geniş ya-yılmış hadisələrinə aiddir. F.Y.Veysəllinin fikrincə, "elliptik cümlələrə - Haraya? - /Evə// (gedirəm), /Evə// - /Hə// (əvəzinə). Bu cümlələr qrammatik cəhətdən tam formalaşmadığına görə onlara parselyativ və ya parazitiv cümlələr də deyilir" .

A.Y.Məmmədov ellipsis hadisəsini tədqiq edərkən onun kontekst və konsituasiya ilə bağlı aşağıdakı növlərini fərqləndirmişdir:

1) dialoqda ellipsis;

2) anaforik konstruksiyalarda ellipsis;

3) yarımçıq cümlələrdə ellipsis"

İngilis dilində feilsiz əmr cümlələri adi məişəşət danışığında geniş işlənməkdədir. Tərki-bində feil olmayan bu söyləmlər adətən isimlərdən ibarət olur. Bu söyləmlər xüsusi intonasiya ilə müşayiət olunur. Məsələn, ¡Silence!, ¡The salt, please!, ¡Hats off!, ¡Quite!, ¡Out!, ¡Out with it!

İ.F.Vardula görə, "sıfır sintaksemlər təkcə məzmuna deyil, həm də ifadəyə malik olmurlar. Sıfır ifadələrin özünəməxsusluğu ondan ibarətdir ki, onlarda "akustik xüsusiyyətlərin məcmusu sıfıra bərabərdir, lakin onlar da özlərini eksplisit kimi, yəni maddi ifadə olunmuş kimi aparırlar . Maraqlı məqam ondan ibarətdir ki, İ.F.Vardul sıfır və ellipsis anlayışlarını fərqləndirməyə cəhd edir: "ellipsiyaya uğramış üzvdən fərqli olaraq, sıfır üzv kontekst və situasiyadan asılı deyildir və eksplisit sintaksemlərin yerləşdirilməsinə yol vermir". Əlavə edək ki, bizim ellipsis anlayışımızı nəzərə alsaq, onda məlum olar .İF.Vardula öz araşdırmasında "ellipsis" və "yarımçıqlıq" anlayışlarının fərqinə ciddi yanaşmamış və buna görə də o, ellipsis dedikdə, cümlənin kontekst və ya konsituasiyadan bərpa oluna bilən buraxılmış elementini başa düşür.

H.Poutsuma isə elliptik cümlələrə mübtəda və ya xəbəri olmayan cümlələri aid edir və onlar, onun fikrincə,bu tip cümlələr "kontekstdən bərpa edilə bilməz və beləlikllə də elliptik cümlələrin beş növü müəyyən edilir:

a)faktı təsdiq edən, b), emosiya ifadə edənlər, c)ritorik sual və nidalar, d) əmr cümlələri,və e)sual mənalı cümlələr.

Burada daha bir məqama diqqət yəetirmək istərdik ki, yarımçıq (formal cəhətdən yarımçıq, lakin mənası kontekst, situasiya və ya intonasiya vasitəsilə təmin edilən

cümlələr) və elliptik cümlələr arasında müəyyən aşkar fərqlər mövcuddur. Hələ bir vaxtlar H.Svit yazırdı ki, "elliptik cümlələr müstəqil işlədilə bilən xüsusi cümlə tipidir, onların spesifik cəhəti kontekstdə xatırlanmayan, yəni məna baxımından məlumatın ötürülməsi üçün zəruri olmayan feili xəbərin olmamasıdır".

A.İ.Smirnitski isə elliptik cümlələr dedikdə, quruluş elementləri – sözönülər, artikllər, bağlayıcılar, köməkçi feillərin olmadığı cümlələri nəzərdə tutur. Ümumiyyətlə, danışıq üçün səciyyəvi olan elliptik cümlələr ikinci həmsöhbətin danışığında məna baxımından yarımçıq olması ilə xarakterizə edilə bilər. Bu səpkili cümlələr semantik cəhətdən tam, struktur cəhətdən isə yarımçıq olan cümlələrdir. Elliptik cümlələrin strukturunda xəbər olmur və bu da həmin cümlələrə sürətlilik, şiddətlilik, intensivlik, gərginlik çalarları verir.

Əlavə edək ki, linqvistik mənbələrdə feilsiz söyləmlər qrammatik cəhətdən "qüsurlu" hesab edilir, çünki onlara bir əsas hissə xasdır. Bina görə də onlar tamtərkibli cümlənin elementlərinə parçalana bilmir. İngilis dilindəki əmr cümlələri dinləyəndə qəti əmr, təklif və ya dəvət təsiri yaradır. Feilisiz əmr cümlələrinin baş üzvünün morfoloji təbiətindən asılı olaraq aşağıdakı tiplər üzrə təsnif edilə bilər.

Halbuki qeyri-predikatıv söyləmlər informasiyanın ixtisarının konnotativ nəticəsi deyil, qeydə alınmış qrammatik normadır və buna görə də ellipsisə bərabər tutula bilməz. O.Musayev bu tip cümlələri yarımçıq cümlələr kimi izah edir. Onun fikrincə, "... ingilis dilində də bəzən, xüsusən şifahi nitqdə cümlə üzvlərindən biri və ya bir neçəsi buraxılıq, işlədilmir; ünsiyyət baxımından ona ehtiyac hiss olunmur" Daha sonra müəllif yarımçıq cümlələr adlandırdığı bu cümlələrin mübtədadan, xəbərdən, tamamlıqdan, zərflikdən və bir də modal sözlərdən ibarət olmaqla 5 növünü göstərir. Müəllif mübtədadan ibarət olan yarımçıq cümlələrə (təktərkibli) nümunələr verir.

Dialoji bütövün tərkibində mənaca sıx əlaqəli, sonrakı söyləmin əvvəlkinə birbaşa reaksiyası olan söyləmlərlə mübadilə baş verir. Buna görə də sonrakı söyləmlərin kitab monoloji nitqində olduğu kimi genişlənmiş sintaktik strukturların qurulması sonrakı replikalarda əvvəlki replikaların və sintaktik strukturların söz tərkibində dubletlərin yaranmasına gətirib çıxara bilər.

Ellipsisdə dialoji nitqin əsas məziyyəti – fuksiyanın mənasının strukturun mənasının üzərində üstünlüyünə meyil" özünü büruzə verir. Ellipsisin köməyilə informasiya cərgəsi daha dəqiq qurulur, mənanın detallaşmasına yardım edən sinonim əvəzetmələr vasitəsilə həmin informasiya cərgəsinin dəyişməsi baş verir".Dialoq struktur tərtib qaydaları sosial kontekstin təsiri altında olan elliptik konstruksiyaların işləndiyi əsas sahədir. (4-s.230)

Ədəbiyyat:

1. Шахматов А.А. Синтаксис русского языка. С-Петербург: Изд, 2007, 620 с.
2.Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007, 608 s.
3.Мамедов А.Я. Эллипсис в азербайджанском языке: . Баку: 1981, 147 с.

4.Реунова О.И. Эллипсис как лингвистическое явление:. Пятигорск: Из, 2000, 230 с.

З.Юсибова,Р.Теймурова

О ЛЕКСИКО-СЕМАНТИЧЕСКИХ ХАРАКТЕРИСТИКАХ ЭЛЛИПТИЧЕСКИХ ПРЕДЛОЖЕНИЙ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ И ИХ СООТНОШЕНИИ

РЕЗЮМЕ

Данная статья посвящена вопросам изучения структурно-семантические особеннос-тей эллиптических предложений. В ней представлена систематизация подходов относительно статуса понятия эллипсиса. Эллипсис, как сложное по своей природе явление, занимает особое место в синтаксической системе естественного языка. В статье подчеркивается, что решение проблемы эллиптических предложений является одной из важнейших задач синтаксической науки.

Автором отмечается, что при изучении эллиптических предложений одной из важных задач является определение их полноты или неполноты в структурном и семантическом отношениях.

В статье также указывается, что эллиптические предложения в основном характерны для устной диалогической речи. Говорится о различиях между неполными (формально неполные предложения смысл которых понятен по контексту, ситуации или интонации) и эллиптическими предложениями.

В статье эллиптические предложения описываются как особый вид предложений, которые могут быть использованы автономно. Их специфической особенностью является отсутствие глагола в контексте, не имеющего важности в передаче информации. Эллиптические предложения рассматриваются как не полносоставные, в которых недостает одного или нескольких членов, которые характерны для реплик в диалогах и которые в контексте соответствуют полным двусоставным предложениям. Их отсутствующие члены легко восстанавливаются из контекста и ситуации.

Ключевые слова:предложение,неполные,структура,конситуация, контекст, высказывание, модель предложения, эллиптические предложения,

Z.Yusibova,R.Teymurova

ON THE LEXICAL-SEMANTIC CHARACTERISTICS OF ELLIPTICAL SENTENCES IN ENGLISH AND AZERBAIJAN LANGUAGES AND THEIR RELATIONSHIPS

SUMMARY

The article focuses on the study of structural and semantic features of Elliptical sentences. It provides the systematization of approaches concerning the status of ellipsis. Ellipsis is of a complex nature and has been particularly significant for the syntactic system of natural language. In the article it is stressed that dealing with the issue of elliptical sentences is a major challenge for Syntax. It is submitted that defining structural and semantic completeness or incompleteness of elliptical sentences is one of the priority tasks for research of elliptic sentences.

The article further provides that the elliptical sentences are more common for oral dialogical speech. İt distinguishes between incomplete sentences (structurally incomplete sentences where the meaning is understood from the context, situation and intonation) and elliptical sentences. In the article elliptical sentences are described as a special type of sentences that can be used autonomously.

Their characteristic feature is the lack of the verb in context which is not necessary in the transmitting information. Elliptical sentences are described as incomplete sentences without one or two parts of sentences which are typical for dialogues and replicas and correspond to complete sentences. Their omitted parts can easily be rebuilt by context The phenomenon like informality ease in communication enables it to reduce expressions and use only the ones necessary for understanding the meaning. That is the reason why the study of the term of ellipsis is necessary for understanding the processes related to economy of language means which is common for all modern languages

Key words: sentence,structure,consituation,context,utterance,sentence model, elliptical sentences

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru ,dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA RƏNA CÜMŞÜD QIZI
Baş müəllim
Hərbi İdarəetmə İstitutu
Şəfayət Mehdiyev küç.,

SINXRON TƏDRISIN ÜSTÜNLÜKLƏRI VƏ BU TƏDRISDƏ ÖYRƏTMƏ STRATEGIYALARININ NƏZƏRDƏN KEÇIRILMƏSI

Xülasə

Bu məqalənin məqsədi hərbi və mülki təhsil müəsisələrində onlayn dərslərdə tətbiq olunan mövcud metod və strategiyalara əlavə kimi sinxron e-təlim vasitələrinin tətbiqini araşdırmaqdır. Məqalədəki faktlar tələbə və təlimatçı sorğularından, təlimatçı və yardımçı heyətlə müsahibələrdən və tədris prosesinə cəlb olunan iştirakçılara nəzarət və dərslərin arxiv qeydlərinin təhlilinə əsasən toplanmışdır. Məqalə mövcud distant dərslərin daha məhsuldar tədrisi üçün sinxron veb -əsaslı dərs sisteminin tətbiqini dəstəkləyir ki, bu da müəllimlərlə tələbələr və tələbələrlə tələbələr arasında daha səmərəli ünsiyyət qurmağa və onlayn sinifdə qarşılıqlı ünsiyyət potensialını artırmağa imkan verir.

Onlayn təhsilin inkişafı elmdə həm nəzəri həm də praktiki cəhətdən əsas boşluqları üzə çıxardı. Bu tədqiqat onlayn təhsildə müəllimlərin rolu və müxtəlif davranışların təsiril ilə bağlı bəzi sualları araşdırdı. Belə dərslərdə tələbələrin qarşılıqlı əlaqəsi təhlil edilmiş və onların rəy və fikirləri toplanmışdır. Əksər kurslarda güclü liderin davranış nümunələri aydın görünürdü. Rəyçilər digərlərindən peşəkar təcrübələrinə və nümayiş etdirdikləri davranışlara görə fərqlənə bilərlər. Tələbələrin öz həmyaşıdlarını rəy və fikirləri baxımından lider kimi qəbul etməsi tələbələrin müzakirələrə müvafiq peşəkar təcrübəni nə dərəcədə gətirə bilməsi kimi amillərdən çox asılıdır.

Açar sözlər: sinxron tədris,onlayn tədris,müzakirə lövhəsi,əməkdaşlıq,distant təhsil,müzakirə stategiyaları

Müasir dövrdə onlayn kurslara tələbat artır və daha çox onlayn kurs təklif olunduğu üçün öyrənmə prosesini təkmilləşdirə biləcək vasitə və üsulların axtarışı da davam edir. Bu baxımdan da sinxron proqram distant təhsili inkişaf etdirmək üçün böyük imkanlar yaradır.

Sinxron tədris nədir? Sinxron tədris tələbənin müəyyən məsafədən öyrənmə prosesinə cəlb olmasına baxmayaraq onun və həmçinin müəllim və sinif yoldaşlarının hər həftə dərs zamanı sinifdə virtual iştirakı deməkdir. Sinif dərsinin həftəlik vaxtı əvvəldən təyin olunduğu üçün yenidən cədvələ salına bilməz.

- Tələbə və müəllimlərin eyni vaxtda onlayn olması
- Virtual iş saatları dərs müddətində və cədvəlləşmiş tapşırıqlar və dərsdə meydana çıxan suallar üçün xüsusi vaxtın təyin olunması

- Tələbələrin eyni vaxtda iştirakı üçün onlayn olması tələbi

Sinxron vasitələr müəyyən vaxt və fərqli məkan rejimində, real ünsiyyət və əməkdaşlığa imkan verir. Bu vasitə insanlara eyni vaxtda dərsə qoşulmağa imkan verir. Sinxron vasitə insanları dərhal və eyni zamanda dərsə cəlb etmək üstünlüyünə malikdir. (1, 125)

Niyə sinxron tədrisə üstünlük verilməlidir? Asinxron tədris tələbələrə qoyulan mövzuya dair öz fikirlərini təklif və təqdim etməzdən əvvəl düşüncələrini və demək istədikləri fikirlərini dönə-dönə nəzərdən keçirməyə daha çox vaxt verdiyi halda sinxron tədris tələbələrə qoyulan suallara dərhal cavab vermək imkanını verir.

Ümumi olan sinxron vasitələrə ikitərəfli audio söhbətlər aparmaq üçün internet protokolu vasitəsilə səs yazıları daxil edilir. Adi sinxron vasitələrə ikitərəfli audio dərsləri , elektron danışıq otaqları və mövzu əsasında cəld mesajlaşma, müəllimlər və tələbələr üçün səs vermə və rəy sorğularının Power Point la təqdimatı, qrup işi və tətbiq olunan tədris üsulunun paylaşılması daxildir. Baxmayaraq ki, onlayn kurslarda sinxron proqramların istifadəsində problemlər mövcuddur , bu vasitələr distant təlim təcrübəsində qarşılıqlı əlaqənin sürətliliyi, ictimai mühiti, qrup işləri və ünsiyyəti, distant təhsil təcrübəsini artırmaq gücünə malikdir. Bu üsul ilə tədrisdə optimal strategiyalar işlənib hazırlandığından, sınaqdan keçirildiyindən, təkmilləşdirildiyindən və paylaşıldığından bütün dünya tələbələri bundan faydalanacaqlar. Bu sahədə olan tədqiqatlar distant tədrisi müəllimlərə və tələbələrə sinxron onlayn qruplarda daha səmərəli ünsiyyət qurmağa və qarşılıqlı əlaqə yaratmaq potensialını artırmağa imkan verən bir vasitə kimi araşdırır. Belə tədqiqatlar yeni olsa da ali təhsildə və ictimai həyatda distant təhsil üçün cox vacibdir ,çünki texnologiya bu təhsil mühitində təkmilləşməyə və bütün təhsil ocaqlarında istifadəsi tətbiq olunmaqda davam edir. Bu gün pedaqoqların distant təhsildə nəzəri cəhətdən üzləşdiyi iki əsas problemin həlli istinad edilmiş ədəbiyyatda öz əksini tapır və həm dərs prosesində ünsiyyəti həm də gündəlik həyatda ünsiyyəti təmin edir:

1. İstər dərs, istərsə də gündəlik həyata əsaslanan tapşırıqlarda qarşılıqlı ünsiyyətin yaranmasında qarşıya çıxan çətinlikər
2. Sinxron mühitdə tədrisin həyata keçrilməsində öz sübutunu tapmış pedaqoji strategiyaların çatışmamazlığı

Bu problemin hər ikisinin tədqiqtçılar tərəfindən araşdırılmasına ehtiyac duyulur. Distant təhsilin tədqiqatı effektiv tədris üsullarının qarşılıqlı əlaqəsinin vacibliyini əhatə edir. (Garrison, Anderson, & Archer, 2001; Hillman, 1999; Moore & Kearsley, 1996; Vrasidas & McIsaac, 1999). Tədqiqatlar göstərir ki tələbə və müəllim tələbə və tələbə arasındakı qarşılıqlı əlaqə distant təhsilin əhəmiyyətini artırır. (Harasim, 1990; Hillman, 1999; Willis, 1995; Moore, 1989). Bundan əlavə tələbələrin dərs prosesində daha mükəmməl olmaqları üçün tələb ounan gündəlik

həyatda üzləşdikləri ünsiyyət qurmaq bacarıqlarına kifayət qədər diqqət verilimir. (Galusha, 1997; Hara & Khling, 1999; Kubala, 1998).

Sinxron öyrənmə fəaliyyətləri hansılardır?

- Sinxron öyrənmə: Fərq nədədir? Asinxron tədris tələbələrə istənilən materialları əldə etməyə, suallar verməyə və bacarıqlarını tətbiq etmək üçün bir vasitə olduğu halda sinxron tədris eyni vaxtda planlaşdırılan, cədvələ salınmış dərs və ya mühazirələrdə eyni zamanda iştirakı tələb edir**.** Virtual iş saatları dərs müddətində və cədvəlləşmiş tapşırıqlar və dərsdə meydana çıxan suallar xüsusi vaxtın təyin olunması canlı ünsiyyət zamanı tələbələrin dərsin mövzusuna cəlb edilməsini təmin edir.

Pedaqoqlar tez-tez problemlərin həllində asinxron tədris əsaslı onlayn dərs vasitəsilə ünsiyyətdən istifadə edirlər. Lakin bu metod hələ də kifayət deyil və tədqiq olunmağa ehtiyacı var. Müəllimlər sinxron vasitələrdən istifadə etdiklərindən daha yaxşı planlaşdırılmış pedaqoji strategiyalara ehtiyac duyurlar.

Sinxron onlayn öyrətmə və öyrənmənin üstünlükləri.

- Dərsin məqsədinin müəyyən olunması
- Akriv öyrənmə prosesinə cəmlənmə
- Dərs müddətində istifadə olunan istənilən mənbə və materialların paylaşılması
- Dərs zamanı mehriban əhval-ruhiyyə
- Tələbələrin dərsə hazırlanması
- Müəllimin özünün dərsə hazırlığı
- Dərsin mövzusunun qısa və yığcam təqdimatı

Tələbələr arasında semestr ərzində biri sinxron proqram təminantından istifadə etməyə başlayanda, digəri isə semestrin sonunda olmaqla iki dəfə sorgu keçirilir. İlk sorğu həm təcrübə, həm də demoqrafik göstəricilər haqqında əsas məlumat verir. İkinci sorğu tələbələrin semestr boyu sinxron proqram təminatından istifadə etdikdən sonra əldə etdikləri bilikləri araşdırır. Təlimatçılar fakultənin perespektivlərini və onun da nəticəsində sinxron vasitələrin dərs prosesində istifadəsini araşdıran semestri başa vururlar. Kursun əvvəlində və eləcə də sonunda hər bir təlimatçı ilə müsahibə aparılmalıdır. Müsahibənin sualları sinxron proqram təminatının tətbiqində gözlənilən üstünlüklərə ,problemlərə və yaranan çətinliklərə yönəldilir. Birbaşa müşahidələri eləcə də dərs prosesində meydana çıxan çətinliklərin subyektiv şərhləri sənədləşdirmək üçün bir vasitə hazırlanmalıdır. Tətbiq olunan əsas kateqoriyalara pedaqogika, qarşılıqlı əlaqələr, struktur, tələbələrin müstəqilliyi və istifadə olunan vasitələr daxildir. Yoxlama siyahısından və bir sıra təlimatlardan istifadə edərək qeydə alınmış sinif dərsləri müstəqil rəyçilər tərəfindən qiymətləndirilir. Bu vasitənin dizayn və tətbiqinin təkmilləşdirilməsi dəfələrlə təkrarlanmışdır. Yekun versiyada rəylər arasında tam uyğunluq var. Hər bir sualın müzakirəsində 80 %tam

razılıq əldə olunması vacibdir. Əlavə məlumatlar, elektron poçt, müzakirə lövhəsi elanları, təlim materialları, yardımçı sənədlər və tədqiqatçı jurnalı da daxil olmaqla sənəd toplusunda cəmlənmişdir. Bu sənədlər fakultə tələbələri, texniki dəstək işçiləri və tədqiqat qrupu tərəfindən hazırlanır. Bu sənədlərə meydana çıxan problemlər və bu problemlərin aradan qaldırılması kimi layihələr daxildir. Bu toplu eləcə də sənədlərin tematik təhlili onların hər üçünün cəmləşməsi və digər toplanmış məlumatların qüvvədə qalmasına kömək edir. Nəticələr qarşılıqlı əlaqənin strukturunu öyrənən ayrıca və istifadə olunan pedaqoji strategiyanın nə dərəcədə uğurlu olduğunu, habelə bura cəlb olunan tələbələrin qavrayışını araşdıran nəzəri çərçivə əsasında keyfiyyət baxımından təhlil edir.Tədqia olunan nəticələr burada əldə edilən məlumatların nümunəsi kimi müzakirə olunur. Bu tədqiqata toplanmış məlumatlara tələbə sorğuları ,dərsdə əldə olunan qeydlər, müşahidələr, fakultə üzrə müsahibə və sorğu daxildir. Bundan əlavə veb-saytlar, elektron -poçt kimi arxiv sənədlər yaranan boşluqları doldurmaq üçün nəzərdə tutulur.

Əlavə məlumat əldə etmək üçün tələbələrdən əvvəllər hansı sinxron vasitələrdən istifadə etdiklərini bildirmələri xahiş olunur. Bəzi tələbələr mətn əsasında danışıq, bəziləri dinləmə və daha az hissəsi isə tam sinxron onlayn sinifdə əvvəllər əldə etdikləri təcrübələrini bölüşür. Ümumilikdə bu sinxron dərsdə tələbələrin əldə etikləri təcrübənin əvvəlki kursda əldə etdiklərindən çox az olduğu aşkar olunur. Tələbələrin kursda hədəflərini müəyyən etmək məqsədilə əlavə suallar verilir. Tələbələrin çox hissəsi kursu yalnız onlayn formatda olduqda seçəcəklərini bildirdiyi halda, çox az hissəsi formatından asılı olmayaraq üstünlüyü bu kursa verəcəklərini bildirir. Tələbələrdən eyni zamanda sinxron dərsin tələbləri haqqında bilgiləri soruşulur. Çoxluq bu barədə məlumatlı olduğunu, ilk dərsə başlamazdan əvvəl belə format dərslərdə iştirak etdiklərini bildirirlər. Bu o deməkdir ki, gənc nəsil artıq yeni texnologiyanın tədrisdə tətbiqinə dair kifayət qədər bilgilərə malikdir.

Bu baxımdan da tələbələrin müsahibəsində gözləntilər qənaətbəxş olur. Tələbələrin sinxron onlayn dərslər haqqında bilgilərinə dair verdikləri müsbət rəylərə baxmayaraq bu prosesdə xırda texniki problemlərlə üzləşmək qaçılmazdır. Müəllim əvvəllər tətbiq etmədiyi vasitədən istifadə edərkən dərsdə durğunluq yarana bilər və bu da tələbələr ayrı-ayrı elektron siniflərə bölündüyündən yaranan bu texniki problem hiss olunmaya bilər. Eyni zamanda bu tip problemlə dərsə onlayn qoşula bilməyən tələbələr də üzləşə bilər və bu zaman onların suallarını təlimatçı müəllim cavablandırır. Beləliklə əlaqənin qurulması birdən deyil tədricən müəyyən vaxt çərçivəsində daha dəqiq desək ən azı bir dərsdən sonra yaranır. Pedaqoji strategiyanın əsasını qarşılıqlı əlaqə, mühazirə , sorgu və müzakirənin qarışığı təşkil edir. Dərs mühazirə və müzakirələr fəaliyyəti olan tam ənənəvi dərsi xatırladır. Əlavə olaraq problem həllinə yönələn qrup işi hazırlanmış müəyyən ssenari ilə başa çatdırılır. Bunun ardınca bir-birini əvəzləyən müzakirələr tələbələrin tənqidi təfəkkürünün inkişafında effektiv vasitə hesab olunur. Bu dərslərdə qarşılıqlı ünsiyyət həvəsləndirici və təsiredici xarakter daşıyır. Burada müəllim tələbə, tələbə

tələbə və tələbə mövzu əlaqələri özünü aydın şəkildə göstərir. Əlavə olaraq, bu da qeyd olunmalıdır ki, bu əlaqələrin müsbət nəticəsi onların kiçik nəzərə çarpmayan problemlərlə üzləşdikləri zaman da özünü göstərə bilər. Müəllim öz tələbələrinin adlarını bilməsi ,sual-cavabda tapşırıqların yerinə yetirilməsində onlara lazımi vaxt verməsi ilə uyğun atmosfer yaradır ki, bu zaman tələbələr özlərini daha rahat hiss edirlər. Dərs vaxtında, müntəzəm formatda, müəyyən mövzu ətrafında keçirilir. Materiallar hazır şəkildə əl altında olur və tələbələrin diqqətini bütövlükdə dərsə cəlb edir. Dialoqlar təkcə müəllim deyil, digər tələbələrlə də aparılır. Müəllim yaxşı hazırlıqlı olmalı və dərsin aydın planı olmalıdır. Dərsin mövzusu tələbələrin ümumi bilik və dünyagörüşlərinin tətbiq edilməsi ilə bir mövzudan digərinə keçərək aparılır. Yeni İfadələr aydın izah olunur və dəqiq mənbələrdən nümunələr gətirilir. Dərsin ideya və məqsədi aydın olmalı və tələbələrin diqqətini cəlb etməlidir. Təqdim olunan dərsin mövzusu müxtəlif materiallarla təmin olunmalıdır. Təqdim olunmuş mövzu görmə və eşitmə baxımından aydın olmalıdır. Ümumilikdə mövzunun təqdimatında müəllimin özünə inamı, həvəsi və kifayət qədər biliyi olmalıdır. Baxmayaraq ki, dərs prosesində tələbələrin müstəqilliyi çərçivədədir, bəzi əlavə elementlər də burada özünü aydın göstərir. Məsələn, tələbələr test üzərində fərdi şəkildə işləyirlər. Bundan başqa əksər tələbələr daha məhsuldar suallar verir və tələbələrin qrupda müzakirələri bərabər şəkildə iştirakçılar arasında paylanır. Baxmayaraq ki, bir çox tələbələr texniki çətinliklərlə üzləşmir, ancaq bu problemlə üzləşdikdə geri qaldığı yerdən yenidən başlayır və qrupun daha fəal üzvü kimi dərsə davam edir.

Distant təhsildə çoxşaxəli tədris üsulları üçün tətbiq olunmuş strategiyaların istifadəsi qaçılmazdır. Tələbələr müəllimin və ya təlimatçının verdiyi müzakirələrə həvəslə yanaşdıqlarından belə tədris təcrübəsinə müsbət münasibət bəslədikləri açıq-aydın görünür. Lövhə, internet ünvan , ümumi və ya özəl mesajlar, interaktiv vasitələr kimi istifadə olunur. Dərsin yüksək səviyyədə keçirilməsində və materialın təqdim olunmasında müxtəlif vasitələrdən istifadə olunur.

Beləliklə onlayn dərslər keçirən çox sayda müəllimlərin gəldiyi nəticəyə görə, onlar sinxron tədrisə üstünlük verirlər və gələcəkdə öz tədrisetmə strategiyalarını bu yöndə genişləndirməkdə davam edəcək və yeni vasitələrdən istifadəyə xüsusi yer verəcəklər. Nəticədə sinxron tədrisdən təcrübəli distant pedaqoqlar da yararlana biləcəklər. Eyni zamanda dünyanın hər tərəfindən olan tələbələr də bu tədris vasitəsindən faydalanacaqlar. Buna görə də distant üsulla tədris edən müəllimlər bunları uğurla tətbiq etmələri üçün vacib metodları sınaqdan keçirməli və uyğun təlimatlar verməlidir. Bu araşdırmada təqdim olunan məlumatlar ali təhsildə sinxron proqram təminatının planlaşdırılması və istifadəsini dəstəkləyən bir sıra təlimatların işlənib hazırlanmasında ilkin versiyanı təklif edir. Ümumiyyətlə tədqiqatın nəticələri mövcud distant kursları tamamlamaq üçün sinxron-veb əsaslı kurs sistemlərinin istifadəsini dəstəkləyir, buda müəllimlərə həm tələbələrlə həm də tələbələr arasında

daha səmərəli ünsiyyət qurmağa və onlayn sinifdə qarşılıqlı ünsiyyət potensialını artırmağa imkan verir.

Ədəbiyyat

1. Galusha, J. M. (1997). Barriers to learning in distance education. Interpersonal Computing and Technology, 5(3-4), 6-14.
2 . Garrison, D. R., Anderson, T., & Archer, W. (2001). Critical thinking, cognitive presence, and computer conferencing in distance education. American Journal of Distance Education, 15(1), 7-23.
3. Hara, N., & Khling, R. (1999). Students' frustrations with a web-based distance education course. First Monday, 4(12)
4. Harasim, L. M. (1990). Online education: perspectives on a new environment. New York: Praeger.
5. Hillman, D. C. A. (1999). A new method for analyzing patterns of interaction. American Journal of Distance Education, 13(2), 37-47. from the ERIC database.
6. Hillman, D. C., Willis, D. J., & Gunawardena, C. N. (1994). Learner-interface interaction in distance education: an extension of contemporary models and strategies for practitioners. American Journal of Distance Education, 8(2), 30-42. Jung, I. (2001). Building a theoretical framework of web-based instruction in the context of distance education

ADVANTAGES OF SYNCHRONOUS EDUCATION AND TEACHING IN THIS EDUCATION REVIEW OF STRATEGIES

Resume.

The purpose of this article is to investigate the use of synchronous e-learning tools in addition to existing methods and strategies used in online lessons in military and civilian educational institutions. The facts in the article are based on student and instructor surveys, interviews with instructors and support staff and direct observation of participants from the groups involved, and analysis of the lesson and its archive records. It also allows for more effective communication between teachers and students and between students and students, and increases the potential for online classroom interaction.

The growth of online learning has exposed fundamental gaps in our knowledge, both theoretical and pragmatic. This research investigated some questions of the role of teachers in online learning and the influence of different behaviors. Students interactions in this kind of lessons were analyzed and student backgrounds and perceptions gathered. Clear patterns of strong leadership behaviors were evident in the majority of courses. Thought leaders could be distinguished from non thought- leaders from both their professional backgrounds and the role – behaviors they exhibited. Student perceptions of peers as thought leaders were highly

influenced by factors such as the extent to which students could bring relevant professional experience into the discussions.

Key words: synchronous teaching, online learning, discussion boards, collaboration, distance learning, discussion strategies

ПРЕИМУЩЕСТВА СИНХРОННОГО ОБУЧЕНИЯ И ПРЕПОДАВАНИЯ В ЭТОМ ОБРАЗОВАНИИ ОБЗОР СТРАТЕГИЙ

Аннотация:

Целью данной статьи является исследование использования синхронных средств электронного обучения в дополнение к существующим методом и стратегиям, используемым на онлайн- уроках в военных и гражданских учебных заведениях. Факты в статье основаны на опросах студентов и преподавателей, интервью с преподавателями и вспомогательным персоналом и непосредственном наблюдении за участниками из вовлеченных групп, а также на анализе урока и его архивных записей. Это также позволяет более эффективно общаться между учителями и учениками и между учениками и учениками, а также расширяет возможности интерактивного взаимодействие в классе.

Рост онлайн обучения выявил фундаментальное пробели в наших знаниях кактеоретический так и практических. В этом исследовании изучались некоторые вопросы о роли учителей в онлайн обучении и влияние различных моделей поведения. Взаимодействие студентов на таких уроках было проанализировано и были собраны сведения и представления учащихся. На большинство курсах были очевидны четкие модели поведения сильного лидера. Лидеров мнения можно отличить от тех кто не является лидерами мнений как по их профессиальному опыту так и ролевому поведению которое они демонстрирует. Восприятия учащимся сверстников как идейных лидеров сильно зависит от таких факторов как степень в который учащихся могут привнести в соответствуюший профессиональный опыт в дискуссии.

Ключевые слова: синхронное обучение, онлайн обучение, дискуссионные формы, сотрудничество, дистанционное обучение, стратегии обучения.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: fəlsəfə üzrə elmlər doktoru, Münəvvər Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

İLHAMƏ XASIYEVA
Hərbi İdarəetmə İnstitutu
Şəfayət Mehdiyev, küç.,

ASINXRON ONLAYN TƏDRISIN ÜSTÜNLÜKLƏRI VƏ IDRAKIN BU PROSESDƏ ROLU.

Xülasə.

Bu məqalənin məqsədi asinxron onlayn tədrisdə daha effektiv və daha yüksək nəticələr əldə etməkdə idrakın böyük rol oynadığını göstərməkdir. Asinxron onlayn tədrisin xüsusiyyətlərinin tədqiqatı yüksək səviyyədə tədris əldə edilməsində bu xüsusiyyətlərin bir-biri ilə əlaqələndirilməsi ilə başlayır. Tədrisdə yüksək nəticələr reflektiv düşüncə, özünü- istiqamətləndirmə və meta- idrak kimi ölçü anlayışlarından yaranır. Bundan əlavə yüksək tədris nəticələrinin ifadəetmə və əməkdaşlıq kimi ölçü anlayışları haqqında fikirlər də mövcuddur və əslində həmin bu ölçü vahidləri onlayn tədrisin asinxron və əlaqələndirici xüsusiyyətlərinə uyğun gəlir. Bu məqalədə effektiv asinxron onlayn tədrisin prinsip və problemləri, eləcə də üstünlükləri tədqiq olunur.

Bu məsələnin tədqiqatı asinxron onlayn müzakirələri qiymətləndirmə və öyrənmə prosesinin təcrübədən əldə olunmuş nəticələrini araşdırır. Nəticələr göstərir ki, asinxron onlayn müzakirələr struktur, özünü-tənzimləmə, tələbə müstəqilliyi, tələbələrin yazı bacarıqları baxımından nümayiş etdirilən çox şaxəli qiymətləndirmə prosesini asanlaşdırır. Tələbələr belə müzakirələri onlayn öyrənmənin vacib komponenti kimi qiymətləndirir. Onlayn qiymətləndirmənin xüsusiyyətlərini və hansı qiymətləndirmə strategiyalarının və ya meyarlarının istər qiymətləndirmə və istərsə də öyrənməni yaxşılaşdırdığını başa düşmək üçün əlavə tədqiqatlara ehtiyac var.

Açar sözlər: asinxron onlayn tədris, idrak, reflektiv sorğu, özünü-istiqamətləndirmə, meta-idrak, əməkdaşlıq, yüksək səviyyəli tədris.

ADVANTAGES OF ASYNCHRONOUS ONLINE LEARNING AND THE ROLE OF COGNITION IN THIS PROCESS.

Summary:

The purpose of this article is to show how cognition plays a major role in achieving more effective and higher results in asynchronous online learning. The study of the characteristics of asynchronous online learning begins with the combination of these features in obtaining a high level of learning. High learning outcomes stem from measurement concepts such as reflective thinking, self-direction

and meta-cognition. In addition to the expression and collaboration of high learning outcomes. There are also opinions about the concepts of measurement, and in fact these units of measurement correspond to the asynchronous and coordinating features of online learning. This article examines the principles and problems of effective asynchronous online teaching, as well as its advantages.

This case study explored asynchronous online discussions ,assessment processes and the meaning students derived from their experiences .The findings suggest that asynchronous online discussions facilitate a multidimensional process of assessment demonstrated in the aspects of structure, self – regulatory activities ,learner autonomy, learning community and student writing skills .The students valued the discussions as an essential component of their online learning . Further research is needed to understand the characteristics of online assessment, and what assessment strategies or criteria enhance assessment and learning.

Key words: asynchronous online learning, cognitive presence, reflective inquiry, self-direction, meta-cognition, collaboration, higher- order learning.

ПРЕИМУЩЕСТВА АСИНХРОННОГО ОНЛАЙН-ОБУЧЕНИЯ И РОЛЬ ПОЗНАНИЯ В ЭТОМ ПРОЦЕССЕ

Резюме:

Цель этой статьи – показать, как познание играет важную роль в достижении более эффективных и высоких результатов в асинхронном онлайн-обучении. Изучение особенностей асинхронного онлайн обучения начинается с сочетания этих особенностей при получении высокого уровня обучения. Высокие результаты обучения проистекают из таких концепций измерения, как рефлексивное мышление , самоуправление и метапознание. В дополнение к выражению и сотрудничество высоких результатов обучения. Есть мнение и о понятиях измерения, и на самом деле эти единицы измерения соответствует асинхронным и координирующим особенностям онлайн - обучения. В данной статье рассматриваются принципы и проблемы эффективного асинхронного онлайн обучения, а также эго преимущества.

В этом тематическом исследовании изучались асинхронные онлайн дискуссии процессе отценивания и значения которое учащихся извлекали из своего опыта. Полученные данные свидетелствует о том что асинхронные онлайн дискуссии облегчают многомерный процесс оченивания демонстрируемый в аспектах сруктуры саморегулируемой деятельности учащегося образовательного сообщество и навыков письма учащихся. Студенты оченили обсуждения как важный компонент своего онлайн обучения. Необходимы дальнейшие исследование чтобы понять характеристики онлайн оценки стратегии или критерии которые улучшают оценку и обучения.

Ключевые слова: асинхронное онлайн обучения, когнитивное присуствие,рефлексивноемисследование,самонаправление,метапознание,сотрудничество,обучения высшего порядка.

Bu gün təhsil müəssələrində tədris asinxron tədrisin tətbiqinin ilkin mərhələsindədir. Bu baxımdan effektiv öyrətmə və öyrənmə prosesində bu texnologiyadan necə istifadə edəcəyimizi öyrənməli olduğumuz çox şey vardır. Asinxron onlayn tədris üsulu tədrisi qüvvətləndirəcək sadə bir tədris texnologiyası deyil və onu başqa yeni üsullarla əvəz etmək mümkün deyil. Asinxron onlayn tədris effektiv tədrisi təşkil edən öyrətmə və öyrənmə proseslərində öz əksini tapmaq baxımından müəllimlər üçün yararlıdır. Üstəlik asinxron onlayn tədris metodlarından ənənəvi tədris zamanı istifadə etdikdə biz qeyri-adi xüsusiyyətləri olan yeni bir üsulla işlədiyimizi unutmamalıyıq. Burada məqsəd asinxron tədris mühitində daha yüksək nəticələrə nail olmaqda idrakın rolunu tədqiq etməkdir.

Bu da məlumdur ki, asinxron onlayn tədris tələbələrə geniş həcmdə bilik və məlumatları əldə etmək imkanı verir. Nəsə aydın olmasa və ya yaxşı anlaşılmasa asinxron onlayn tədris bu biliyi əldə etmək üçün əsas vasitədir. O öyrətmə və öyrənmə mühitinin intelektual keyfiyyətini nəzərə çarpacaq şəkildə qüvvətləndirmək potensialına malikdir. Asinxron onlayn tədrisin yüksək səviyyədə öyrənmə prosesini dəstəkləyən, müsbət nəticələrə çatmaqda idrakın iştirakını yaradan xüsusiyyətləri var. Bu da əminliklə onu deməyə imkan verir ki, geniş həcmli biliklərin ötürülməsi və mənimsənilməsi, tələbələrin yer və zaman müstəqilliyinə mane olmadan virtual aləmi dəstəkləyən bacarıqlar əsasında asinxron onlayn tədrisin interaktiv və yaradıcı potensialına bir keçiddir.

Asinxron onlayn tədrisin xüsusiyyətlərinin kökündə hər bir fərdə uyğun şəkildə birgə öyrənmə təcrübələrini təmin etmək bacarığı durur. Bu o deməkdir ki, həm qarşılıqlı əlaqə, həm də müstəqillik əldə etmək olar. Bunların hər ikisini əldə etmək əvvəllər mümkün deyildi və bir xüsusiyyətə az, digərinə isə çox yer verilirdi. İdrak baxımından onlayn tədris tənqidi mühakimə və reflektiv mühit yaradır. Beləliklə onlayn tədrisin əsas xüsusiyyətlərinin kökündə qarşılıqlı ünsiyyətin durduğunu və bunun da öz növbəsində yüksək səviyyədə öyrənmə mühitini yaratmaq potensialına malik olduğu fikrinidə irəli sürmək olar.

Onlayn tədrisin əməkdaşlıq və reflektiv xüsusiyyətləri istər ünsiyyət, istərsə də idrak ilə əlverişli mühit yaratmaq imkanı verir. Buna baxmayaraq, tədris prosesində yaxşı nəticələrə nail olmaq üçün əsas diqqət idrak məsələlərinə yönəlməlidir. Əsas hədəf tədrisdir. Tədris məqsədilə öyrənmə sadəcə bilik əldə etmək və danışıq dərslərində iştirak etməkdən daha yüksəkdə durur.

Asinxron tədris və onun üstünlükləri nədir?

* Tələbələrə öz cədvəllərinə uyğun onlayn kurs keçmək imkanı verir
* İstənilən vaxt əldə oluna bilən material, mühazirə, test və tapşırıqlarla təmin edir

* Tələbələr üçün bir həftə ərzində ən azı bir-iki dəfə onlayn dərsə qoşulma vaxtını müəyyən edir

* Tələbələrə istədikləri seçimləri etməkdə müstəqillik verir

Asinxron tədris zamanı tələbələr öz seçdikləri vaxt və zaman çərçivəsində öyrənmə prosesindən həzz ala bilərlər. Təhsil həm şəxsi, həm də ictimai öyrənmə təcrübəsidir. Müəllimlərin çətinliyi asinxron onlayn tədrisin xüsusiyyətlərini araşdırmaq və öyrənmə xüsusiyyətlərini yaratmaq bacarığı ilə əlaqələndirməkdir ki, idrak, ictimai və tədris fərdi və ictimai tələbatları qarşılamaq məqsədi ilə birləşdirilir. Asinxron onlayn tədrisin hətta kiçik ənənəvi dərs qruplarında idrakı qüvvətləndirən interaktiv və refeflektiv keyfiyyətlərini özündə birləşdirən müəyyən xüsusiyyətləri var.

Effektiv onlayn tədris dedikdə daxili idrak prosesinin, həmçinin xarici məzmun elementlərinin yığılaraq düşüncəni formalaşdırması nəzərə alınmalıdır. İdrak uğurlu tədris nəticələrinin başlanğıcında yaranır və mühakimə və refleksiya proseslərinə aiddir. Əgər tədrisin məqsədi yaxşı nəticə əldə etməkdirsə onda bu prosesdə idrak əsasdır. Asinxron onlayn tədrisin refleks və qarşılıqlı ünsiyyət kimi iki xüsusiyyəti idrakı formalaşdırır.

Deveyə əsasən refleks tədrisin vəziyyəti və hər bir tələbənin fikirləri ilə (bilik və strategiyalar bilmək və istifadə etmək) əlaqəlidir. Tədris prosesi reflektiv suallarla anlamaya doğru aparan sorğunu aktiv nəzarətdə saxlamaq imkanı verir. Reflektiv prosesi anlamaq üçün Devey sorğu və reflektiv düşünmə nümunəsini irəli sürdü. İdeal tədris mühitində dövriyyə problemin və ehtiyacın qavranılması ilə başlayır, sonra uyğun biliyin tədqiqatı başlayır, lazımı izah və həll yolu tapılır və nəhayat tarazlıq yaranır.

Praktiki sorğu nümunəsini formalaşdıran iki ölcü vahidi məzmun və qavrayış konsepsiyasıdır. Bu proses fikir və ifadə arasında təkrarlanır və sorğunun şəxsi və ictimai hissələrini birləşdirir. Qavrayış və məzmun bu iki hissənin üzləşməsini təmin edir. Sorğu nümunəsi təcrübədən qaynaqlanan məna yaradıcılığı və idrak prosesinin yaranmasını təsvir edir. Burada idrak öz əksini intelektual səviyyədə göstərir, tənqid və mühakimə ilə əlaqəli olur. İdrak bu hissələrdən ayrılıqda yaranmır. İstənilən sorğuda şəxsi və ictimai fikir əsasdır və virtual ünsiyyətdə də müəyyən çətinliklər yaradır. Asinxron onlayn tədris tələbələrə özü öyrənmək və bu prosesdə məsuliyyəti öz üzərinə götürmək imkanı verir. Bu o deməkdir ki, tələbələr öz öyrənmə proseslərinə nəzarət edir və məsuliyyəti anlayır. Özü öyrənmək və bu prosesə nəzarət asinxon onlayn tədrisin çətinlik yaradan hissəsidir. Çətinlik ondadır ki, müəllimlər tələbələrin öyrənmə prosesini unutmayaraq onları dəstəkverici və həvəsləndirici strukturlarla təmin etməlidir. Asinxron onlayn tədris həm dərs prosesində, həm də dərsdən kənar öyrənmək imkanlarına malikdir. Burada əsas ölçülər tədris prosesinə nəzarət və onun idarə olunmasıdır. Nəzarət sonda verilən rəylərə əsasən aparılır. Maraq yaratmaq və öyrənməyə səy göstərmək özü öyrənmənin əsas elementləridir. Özünə nəzarət və özünü idarə anlayışları olmasa öyrənmənin effekti xeyli dərəcədə

azalmış olar. Dərs prosesində və dərsdən kənar öyrənmə həm daxili, həm də xarici nəzarətə yönəlir. Qarsia və Pintric tələbələrin tədrisdə yüksək nəticə əldə etmələri üçün özünü tənzimləmə metodunu irəli sürür. Tələbələr öyrənmə prosesində aktiv iştirak edir, öhdələrinə düşən məsuliyyəti anlayır və həmçinin özü - öyrənmə prosesinə nəzarət edirlər. Bu ölçülər reflektiv sorğunun ölçüləri ilə üst- üstə düşür ki, meta- idrakda eyni ölçülərə malikdir. İlkin formada meta- idrakın iki əsas komponenti vardır. Skrou meta -idrakın iki komponentini biliyin formaları kimi təsvir edir. Yəni, o bildirir ki, meta- idrak öz idrakını nəzarətdə saxlamaq üçün bilik və biliyi tənzimləyən bacarıqlardan ibarərtdir. Birinciyə bilik və onun uyğun tətbiq strategiyaları daxildlir. İdrakın tənzimlənməsinə isə tələbələrə öz bilklərinə nəzarətə kömək edən tapşırıqlar toplusu aiddir.

Ünsiyyət baxımından Skrou idraki təcrübələrin paylaşılması və modelləşdirilməsində əlaqənin vacibliyini qeyd edir. Meta- idrakın xüsusiyyətləri həm özü, həm də digərləri ilə ünsiyyət qurmaq, izah etmək və təsdiq etmək kimi fərdi istək və ehtiyaclardan ibarətdir. Belə fəaliyyət növləri meta-idrakı tələb edir və bu metodlar ictimai idrak termini ilə əlaqələndırılır. Öyrənmək məqsədi ilə tədris, idrak və meta-idrak, bilik və strategiyaların aşkar olunmasında əlaqə və mühitin əsas vacibliyini nümayiş etdirən ictimai əsasları tələb edir. Tədrisin effekivliyinə ictimai idrak və tədris daxildir. Burada əsas diqqət tədrisin effektivliyi üçün idraka və onun tətbiqi yollarına yönəlməlidir və onu da qeyd etmək lazımdır ki, istər nəzəri, istərsə də praktiki cəhətdən tədrisi və ictimai fikri ayırmaq olmaz. Asinxron onlayn tədrisin effektivliyini anlamaq üçün onun qeyri-adi xüsusiyyətlərini qeyd etmək lazımdır. Bunlar asinxron onlayn tədrisin ifadəetmə və ünsiyyət kimi ayrılıqda götürüləcək xüsusiyyətləri deyil. Bu asinxron onlayn tədrisin üstünlüklərini bütövləşdirərək istifadəyə yararlı edir.

Birinci olaraq diqqət sorğuya yönəlməlidir. Sorğu həm fərdi, həm də qrupda müəllim və tələbənin hər ikisinin sualları və bu suallara cavabların tapılması və daha sonra müzakirə yolu ilə anlamanı qiymətləndirmək, səhvləri müəyyən etmək və həll yollarını tapmaq üzərində qurulur. Birinin öyrənmə səviyyəsinə nəzarəti və məsuliyyəti öz üzərinə götürmək təhsilin sorgu və özü- öyrənmə hissələrinin əsasında durur və həmçinin davamlı tədrisin əldə edilməsində meta-idrak bacarıqlarının inkişafı təməl təşkil edir. Sorgu müstəqillik və yardımçı mühit tələb edir ki, həmin bu xüsusiyyətlər asinxron onlayn tədris prosesində mümkündür.

Növbəti diqqət ayrılacaq hissə ifadəetmədir. Yazı bacarıqlarından effektiv istifadə, tələbələrə öz fikir və iradlarını irəli sürmək imkanı verir. Yazı bacarığı onlayn baxımdan xüsusilə çətin və problemli mövzularda ifadəetməni sistematik yanaşma ilə təmin edir. Burada müəllimin məsuliyyəti əsas fikri müəyyən etmək və tələbələri öz fikirlərini ifadə edərək paylaşmağa yönəltməkdir. Əgər tələbələr verilmiş mövzuda yaradıcı olarsa, bu o deməkdir ki, müəllim onlarda lazımi marağı oyada bilmişdir.

İdrakın onlayn yaradılması tədris təcrübəsinin dizayn və çatdırılmasında nəzərəçarpacaq dəyişikliyi təqdim edir. Məsələn, onlayn tədrisin effektivliyi düşüncələrimizdə nəzərəçarpacaq dəyişikliyin olmasındadır. Praktiki cəhətdən çətinlik isə ifadəetmə və birgə ünsiyyətdə düzgün balansın qurulmasıdır. Asinxron mühitin yaradılmasında idrakın tətbiqinin vacibliyini qeyd etmək lazımdır. Asinxron onlayn tədris öyrənmə prosesindən yüksək nəticə əldə etməkdə idrakın əsasını qoymaq imkanları yaradır. Müəllimlərin də öz növbəsində üzərinə müxtəlif tədris mövzularında effektivliyi əldə etmək üçün lazımi vasitələri düzgün seçmək məsuliyyəti düşür.

Yuxarıda verilən hər bir termin əsasən iki qrupun fikirlərinin ölçülərinə uyğun olaraq verilmişdir. Birinci qrupda ifadəetmə, nəzarət və bilik, ikinci qrupda isə ünsiyyət, idarəetmə və müzakirə kimi anlayışlar öz əksini tapır. Bizim əsas məqsədimiz bu tələbatların onlayn öyrənmənin daha çox vaciblik daşıyan əsas xüsusiyyətlərinə uyğunluğudur. Bu o deməkdir ki, asinxronluq onlayn tədrisin xüsusiyyətləri ilə bağlıdır və asinxronluq ifadəetmə və qarşılıqlı əlaqəyə gətirir, ünsiyyət və müzakirələr üçün imkanlar yaradır.

Məsələ bundadır ki, bu xüsusiyyətlər yüksək səviyyədə tədrisə uyğun gəlir və sorğu, özünü idarəetmə və meta-idrakı formalaşdırır. Bütün bu səbəblər onu deməyə imkan verir ki, asinxron onlayn tədris yüksək səviyyədə tədrisi dəstəkləmək və onlayn yolla idrakın yaradılması baxımından əlverişlidir. Onlayn tədrisdə idrakın yaradılması prosesi çox az öyrənilən sahə olduğundan gələcəkdə daha geniş tədqiqatlara ehtiyac duyulur.

Ədəbiyyat:

1. Devey J. How we think. Boston: D.C.Heath
2. Garrison D.R. Self-directed learning. Toward a comprehensive model.
3. Hacker D.J. Meta-cognition in educational theory and practice.
4. Hartman H.J. Teaching meta-cognitively. In H. J. Hartman Meta-cognition in learning and instruction. Theory, research and practice. Boston: Kluwer.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: fəlsəfə üzrə elmlər doktoru, Münəvvər Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

SEVDA ƏSGƏR QIZI FƏTULLAYEVA
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN DİLİNDƏ İNGİLİS SÖZ VƏ TERMİNLƏRİNİN İŞLƏNMƏSİ

XÜLASƏ

Məqalədən göründüyü kimi, dillərin lüğət tərkibini araşdırarkən məlum olur ki, yeni terminlər zaman-zaman dilin lüğət tərkibinə daxil olur və dilin zənginləşməsində mühüm rol oynayır. Termin müxtəlif dövlətlərin dillərində bir çox sahələrdə olan çətin, anlaşılmayan sözlərin daha başa düşülən formada anlama sterasını artırır.

Dil canlı bir orqanizmdir. Ətraf aləmdə baş verən dəyişikliyə reaksiya verir. Bu fakt dilin ayrılmaz tərkib hissəsi olan terminalogiyada da öz əksini tapır. Yeni alınmış söz və terminlər dilin lüğət tərkibini zənginləşdirir. XX əsrin sonu və XXI əsrdə Azərbaycanın beynəlxalq münasibətlərdə müstəqil subyektə çevrilməsi dilimizdə terminoloiyasının zənginləşməsinə güclü təkan vermişdir.

Araşdırmadan belə nəticəyə gəlinir ki, alınma terminlər semantik cəhətdən sabit qalır və funksional sahələrdə işlənir. İlkin mənalarını saxlayan terminlər semantik cəhətdən tam mənimsənilir. Bu terminlər ümumişlək sözlərə çevrilib söz yaradıcılığında fəal iştirak edir.

Açar sözlər: Termin, sözlər, leksik, alınma terminlər, semantik.

Dünyanın bir çox dillərində lüğət tərkibinin inkişafı və xalqın öz dilinə aid söz ehtiyatının artması, qəliz sözlərin sadələşməsi üçün alınma termin və sözlərin xüsusi əhmiyyəti vardır. Alınma söz və terminlərin inkışafı, artımı dövlətlərin və millətlərin bir-biriləri ilə qarşılıqlı əlaqələrinə əsaslanır. Buna səbəb isə cəmiyyətlərin günü-gündən inkişafı yəni elmi-texniki, iqtisadi, sosial və.s bu sahələr üzrə nailliyyətlərin əldə edilməsi, dövlətlər arasında informasiya axınların güclənməsi, millətlərarası genişlənən beynəlxalq əlaqələr ölkə dillərinin həmişə qarşılıqlı əlaqədə olduğunu göstərir. Bu əlaqələrin möh- kəmlənməsi ölkənin dilinin lüğət tərkibində olan alınma termin və sözlərin artımında özünü büruzə verir.

Cəmiyyətin təkamül tarixini öyrənmək istəyiriksə onda həmin millətin dilini, lüğət tərkibini və dil əlaqələrini bilmək zəruridir. Dil və dillərin bir-biriylə qarşılıqlı əlaqələri cəmiyyətin etnoqrafik baxımdan olan inkişafı və etnogenezisinə aid olan ayrı-ayrı məqamları,ən əsası həyat tərzi və mədəniyyətini özündə yaşadır. Buna görədə dillərin bir-biriylə qarşılıqlı əlaqədə olması, bir dilin digər dilin vasitəsilə alınma söz və termin ehtiyyatının artırması və alınmaların cəmiyyət üçün ictimai,

mədəni, sosial həyatında mühim rol oynaması qanunauyğun bir haldır. Hətta V.N. Yartseva doğru olaraq bir nüansa toxunaraq qeyd edir ki,çox nadir hallar nəzərə alınmazsa əgər, bir dil digər dillərlə olan qarşılıqlı əlaqədən kənarda qala bilmir. Deməli, dövlətlərin qarşılıqlı münasibətləri inkişaf etdikcə dillər arasındakı əlaqələri güclənir və daim inkişafı davam edir. Bu davam edən inkişaf sayəsində bir dilə çoxlu alınma söz və terminlər daxil olaraq həmin dilin lüğət tərkibi artır və zənginləşir. Lüğət tər- kibinin həcminin genişlənmə prosesi cəmiyyətin siyasi, iqtisadi və mədən əlaqələrinin qanunauyğun olaraq inkişaf etməsilə bağlıdır. Beləliklə dövlətlərin yaxınlaşması, bir-biriylə qanunauyğun olaraq qarşılıqlı əlaqədə olması həmin dövlətlərin dillərin inkişafına, lüğət tərkibinin artımına, yeni sözalınmasına zəmin yaradır. Bütün əldə olunmuş texniki nailiyyətlər, geniş elmi mübadilələr bəşəriyyətin inkişafına təsir etməsi və bu təsir dillərin mədəni forma çərçivəsində qarşılıqlı əlaqələsinə, qlobal inkişafına, beynəlxalq əlaqələrinin formalaşmasına, alınma termin və sözlərin zənginləşməsində öz nəticəsini göstərir.

Hər bir xalqda olduğu kimi Azərbaycan dilində də alınma termin və sözlər dilin zənginləşməsinə inkişafına kömək edir, dilimizdə olan texnika və elmin mürəkkəb fikirlərini daha aydın ifadə edə bilməsi üçün yararlı bir hala salır. Ümumiyyətlə, terminlər incəsənət, mədniyyət və başqa sahələrdə işlədilən müxtəlif məfhum və anlayışları tam dəqiqliklə ifadə edən söz və söz birləşmələridir. Əsasəndə terminlər bir növ söz sayılır, amma dildəki bütün sözləri, söz birləşmələrini "termin" adlandırmaq düzgün deyil. Buna görə də alınma terminlər və alınma sözlər bir-birindən fərqlənir. Terminləri sözlərdən ayıran əsas cəhətləri bunlardır: çətin ifadələr, sözlər terminlə ifadə olunanda anlama sferası daha da genişlənidrir və sözlərə nisbətən terminlər təkmənalılığını qoruyur. Bu fərqlilik haqqında M.Ş. Qasımovun özünəməxsus fikirini belə qeyd edir ki, terminləri dildə olan söz və söz birləşmələrindən fərqləndirən əsas xüsusiyyətlərindən biridə onların təkmanalı olmasıdır. Düzdür, terminlərin hamısın təkmənalı hesab etmək və ədəbi dildə olan bütün söz və söz birləşmələrini çoxmənalı olması doğru fikir deyil. Terminlər əsasən təkmənalı olmalıdır, çoxmənalı olan terminlər dildə mövcuddur, lakin bu terminlər ədəbi dil üçün nöqsan olaraq qəbul edilir və dildə dolaşıqlıq, anlaşılmazlıq yaradır.

İngilis və Azərbaycan dillərinin bir-biriləri ilə qarşılıqlı inkişaf tarixində leksik qatın mühüm hissəsini terminologiya təşkil edir. Hər bir dildə olan termin və sözlər tarixi zaman çərçivəsində inkişaf edir və müəyyən dəyişikliklərə səbəb olur. Azərbaycan və ingilis dillərində olan söz və terminlər digər dillərdə olduğu kimi öz müxtəlif inkişaf dövrlərində müəyyən dəyişiklərə uğrayır. Qədim dövrlərdə kəşf olunan yeni sözlərin bir çoxu ümumişlək sözlərin tərkibində termin kimi istifadə olunurdu. Hər iki dil üçün bu xüsusiyyət eynidir. Müasir dövr üçün ingilis dili ən aktual, işlək və dünya dillərindən biri olduğu üçün bu dilin dünya dövlətləri tərəfindən öyrənilməsi böyük əhmiyyət kəsb edir. Son dövr üçün elm-texnikanın və başqa sahələrin inkişafında qərbi dövlətləri ən əsasıda ingilis dilli ölkələrin əhəmiyyəti çox böyükdür. İngilis dilli beynəlmiləl terminlərin yaranması və dünya

xalqları arasında yayılmasında stimul rolu oynayır və buna səbəb isə hər bir dillərdə olan özünəməxsus bəzi qarışıqlıq səbəbiylə əlaqədar başqa dillərdə olan terminlər ingilis dilindən alınıb digər dillər tərəfindən istifadə edilmişdir.

Son dövr insanları arasında informasiyanın çoxalması, uzaq məsafələrə informasiyaların çatdırılması və hər gün bu gedişatın artımı dünya dillərin lüğətlərində yeni terminlərin yaranması terminologiyanın zənginləşməsinə, genişlənməsinə şərait yaradır. Müasir dövrdən fərqli olaraq keçmiş vaxtlarda müxtəlif elmlərin öz aralarında diferensiyasiya meylləri daha qabarıq idi. Bu yeni dövrlərdə isə inkişafda olan elmlərin inteqrasiya əlaqələri hər bir dövlətdə daha geniş yayılmışdır. Elm sahələrində yeni terminlərin yaranması inteqrasiya və diferensiyasiya əlaqələri sayəsində meydana gəlmişdir. Azərbaycan dövıətində də elmi-texnikanı inkişafı davam etdikcə terminologiya lüğətin artmasına səbəb olur. İngilis və Azərbaycan dillərində yeni terminlər iki üsulla yaranması ortaq cəhətləridir. Hər bir millətin dili daxili imkanları hesabına söz və terminlər yaranır,lüğət tərkibi genişlənir. İngilis və Azərbaycan dillərində belədir, bu dillərin daxili imkanları hesabına yeni terminlər yaranması və əlavə sözlərə qoşulub ifadə şəklində tamamilə fərqli termin yaratması, bu terminlərin dünya xalq dillərinə təsiri,bu terminlərin işlək formada istifadəsi terminologiya lüğətinə böyük təsir göstərmişdir.

Azərbaycan dövlətinin tarixinə nəzər yetirdikdə görürük ki, monqollar, farslar və ərəblərin bizim əraziyə basqınları və məskunlaşma prosesi baş vermişdir. Bu millətlərin ərazimizə etdikləri axınları, basqınları mədəniyyətimizi, dilimizi, adət-ənənlərimizi və xalqımızın birliyini məhv edə bilməmişdir. Bu dövlətlərin ərazimizdə məskunlaşması sayəsində istər-istəməz çoxlu sayda termin keçmişdir və bu terminlər dolayı yolla yox birbaşa zorla dilimizə daxil olmuşdur. Birbaşa daxil olan bu tip terminlər dilimizin qayda-qanunlarına uyğunlaşdırılmışdır. Şərq mədəniyyətinin təsiri nəticəsində dilimizə daxil olan sözlər və terminlər bir çox sahələrin tibb, mədəni əlaqələr, ticarət və ən əsası islam dilinin təsiri altında ana dilimizin lüğət tərkibinə keçid etmişdir. İslam dilinin böyük təsiri nəticəsində dilimizə keçid edən terminlərə bunlar şiə, hədis, mürid, aşura və.s daxildir. Şərqdə yaşayan bir çox millətlərin ən əsasıda dilimizə islam diniylə əlaqədar daha çox söz və termin keçən ərəb, fars dövlətəri olmuşdur. Bu xalqlardan dilimizə keçən terminlər XI-XII əsrlərdə keçid etməyə başlamış və XVIII əsrin ilk dövrlərinə qədər davam etmişdir. XVIII-XIX əsrlərdə şərq mədəniyyəti sayəsində dilimizə keçid edən terminlər azalacaq və bu dövr ərzində Rusiyanın tərkibində olduduğumuz üçün rus dilli terminlər birdə rus dili vasitəsilə Avropa dilindən terminlər dilimizə daxil olur. XX əsrdə isə ana dilimizə siyasi, elmi, texniki, ictimai inkişaf ilə əlaqədar tamamilə yeni növ sözlər və terminlər daxil olmuşdur, buna səbəb isə Avropa mənşəlli ən əsasıda ingilis dilli dövlətlərindən rus dili vasitəsilə alınan terminlər daha çoxluq təşkil etmişdir. Rus dilinin bu dövrdə dilimizə daxil olan terminlərdə köməkçi rol oynamasındakı səbəb isə dövlətimizin Avropa xalqları ilə birbaşa ünsiyyətdə

olmaması idi. Rus dilinin köməyi ilə keçən ingilis dilli terminlər ilk başlarda məhdud dairədə işlənsədə zaman keçdikcə istifadə olunma sferası genişlənir və yeni terminlərin yaranmasına zəmin yaradır. Bu dil vasitəsilə keçən ingilis dilli terminlər Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşır, yəni mənsubiyyət, hal, şəxs və.s şəkilçilər qəbul edə bilir, sonra cümlədə təhlil edilə bilir. Məsələn, pianino sözün götürək pianinonun, pianinoya, pianinodan və.s Mən hər zaman arzuladığım pianinonu aldım. Bu cümlədə təsirlik halda işlənmiş olur. Belə terminlər haqqında N.Cəfərov bəzi qeydləri var və bunlardan da biri " XX əsrin əvvəllərində, xüsusilə sovet dövründə, bir sıra rus dili vasitəsilə dilimizə keçən alınmaların milli tələffüzə uyğunlaşması daha əvvəlki dövrlərin təcrübəsindən gəlir və vaxtilə rus dilinə keçmiş türk mənşəlli sözlər rus dili ilə müxtəlif türk dillərinin leksik kontaktını asanlaşdırır. Bununla belə, sovet dövründə, rus dilinin ümumittifaq ünsiyyət vasitəsi səlahiyyətindən sui-istifadə olunmuş, türk ədəbi dillərinə, o cümlədən Azərbaycan türk ədəbi dilinin heç bir tarixi əsas olmadan külli miqdarda rus və Avropa mənşəlli söz, terminlər lüğət tərkibinə əlavə edilmişdir. İndiki dövrdə isə ən çox ingilis dilindən birbaşa ana dilimizə keçid etmişdir. Texnikanın inkişafı, texniki proseslər səyəsində dilimizə çoxlu keçid edən ingilis terminləri və bundan yaranan yeni terminlər əsasən müstəqillik illərində terminologiya lüğət tərkibində artım olmuşdur. İngilis dili vasitəsilə ana dilimizə daxil olan yeni terminlərə bunlar fask, fayl, bayt və.s daxildir. Bu tip terminlər müxtəlif cür təşkil oluna bilər.

1. Müxtəlif dillərdən bizim dilə keçərək yaranan terminlərin adətən birinci hissəsi avropa, ikinci hissə isə ərəb-fars mənşəlli sözlərdən ibarət olur. Məsələn, beta-şüalar, mikro-sənəd və.s

2. Dilimizə daxil olan bir çox mürəkkəb terminlər hazır şəkildə dilə keçid edir və lüğət tərkibinə daxil olur. Misal olaraq, blok-sxem, mikro-disk, mikro-sxem və.s

3. Fərqli dillərdən alınan söz birləşmələridə dilimizdə istifadəsinə görə geniş əhatə dairəsinə malikdir. Nümunəyə linqivistika, elektron-sxem, struktur və.s daxildir.

Azərbaycan dillərindən fərqli olaraq ingilis dili zəngin və geniş lüğət tərkibinə malik olan dünya dillərdən biridir. Xalqların həyatında baş verən müxtəlif sosial-iqtisadi, siyasi və mədəni dəyişikliklər, fərqli istehsal üsulları, elmi nailiyyətlər, texniki tərəqqilər, kənd təsərrüfatında yeni və fərqli istehsal sahələrində yaranan inkişaf, dövlətin ictimai strukturunda olan dəyişmələr, təhsildə, ticarətdə və başqa sahələrdə baş verən sıçrayışlar birdə bu kimi müxtəlif hadisələr ingilis dilinin lüğət tərkibinə təsir edərək,zənginləşməsində mühüm rol oynamışdır. Azərbaycan və ingilis dilində də başqa dillərdə eyni olduğu kimi alınma terminlər müxtəlif dillərdən keçid edir. XI-XVI əsrlərdə yəni orta dövrlərdə ingilis dilinin lüğət tərkibinə daha çox fransız dilindən alınma söz və terminlər daxil olmuşdur. İngilis dilinə keçən fransız mənşəlli alınma terminlərə chef. commence və.s aiddir. Bundan başqa ingilis dilinə təkcə fransız dilindən deyil başqa avropa dillərindən keçən söz və terminlər lüğət tərkibinə daxil olur. Bunla yanaşı Ana dilimizdə olan omonimlik xüsusiyəti

ingilis dilinədə şamil edilir. Azərbaycan dilində omonimliyə aid olan teminlərə bunlar-"vergi"mənası rüsum – "vergi" mənası istedad, "qurğu"mənası hiylə - "qurğu" mənası alət və.s aiddir. İngilis dilində də belə nümunələrə çox rast gəlmək olur. İngilis dilində olan terminlər bir-biriləriylə eyni mənada ola bildiyi halda fərqli mənada da ola bilir. Misal olaraq, right – qanun, qayda mənasında birdə right-istiqamət mənasında sağ və düz mənaları ifadə edir, law-qanun mənasında, law – məhkəmə mənasında, sentence – hökm ya da sentence – cümlə, social – ünsiyyətcil başqa cür social – ictimai mənasında işlənə bilir. Terminlərin omonimliyi haqqında danışarkən sinonimliyi qeyd etməmək mümkün deyil. Bizim dilə ingilis dilindən keçən terminlərin sinonimliyə aid nümunələr bunlardır: to sentence – to condemn mənası məhkum etmək, tax-charge mənası vergi, freedom-liberty anlamı azadlıq və.s. Antonimliyə aid olan söz və terminlərdə vardır. Bu tip sözlər bir-birinin əksi mənasını verir. Ana dilimizə vətən-qürbət, anarxiya-demokratiya, ağa-nökər və.s bu söz və terminlər antonimliyə daxildirsə, ingilis dilinədə bunlar judge – hakim birdə əksi convict – məhkum, master – ağa, sahib ziddi olan söz isə footman – nökər, bidə ana dilimizə keçən termin democracy-demokratiya antonim qarşılığı isə anarchy – anarxiya və.s aiddir.

Ümumiyyətlə,digər dillərdə olduğu kimi Azərbaycan və İngilis dilləridə işlənmə dairəsinə görə iki yerə bölünür: mumişlək olmayan və ümumişlək olan sözlər. Nitqdə fəal işlədilən və hamı tərəfindən anlaşılan sözlərə ümumişlək sözlər deyilir.Azərbaycan dilində danışıqda hamı tərəfindən başa düşülərək işlədilən sözlərə bunlar igid, yaxşı, bilmək, gözəl, çalışmaq, şəkil, gəzmək və.s aiddir. İngilis dilindən olan ümumişlək sözlər bu dilin lüğət tərkibinin böyük bir hissəsini təşkil edir. Nümunə olaraq bunları to go – getmək, easy – asan, weather – hava, to know – bilmək və.s daxil etmək olar. Dildə fəal, aktiv bir şəkildə işlədilməyən və hər kəs tərəfindən anlaşıqlı olmayan sözlər isə ümumişlək olmayan sözlər adlanır. Bu formada olan sözlər özü özlüyündə iki qrupa ayrılır. Birincisi dialekt olan sözlər, ikincisi isə ixtisas sözlər bu sözlərədə terminlər deyilir. Dialektə aid olan sözlər yalnız müəyyən bölgə, kəndlərdə işlədilən və hər bir dilin lüğət tərkibinin qeyri-fəal olaraq işlədilən hissəsinə daxildir. Terminlər isə elmlə əlaqədar olaraq müxtəlif ixtisas və peşə sahələrinə aid olan sözlər aiddir. İngilis dilindən bizim dilə daxil olan terminlərə biopsi, monoplan, radiasiya, fartum və.s sözlər bunlardır.

Müasir dövrə kimi ümumi bir dildən başqa dilə keçən terminlər müqayisəli şəkildə araşdırılır və bütün dünya dillərində olan terminologiya sahəsi hər dilin özünəməxsus xüsusiyyətləri, qayda-qanunları nəzərə alınaraq təhlil və tədqiq edilərək öyrənilir. Azərbaycan və ingilis dillərində olan terminlər başqa dillərdə olduğu kimi əsas səciyyəvi cəhətləri nəzərə alınaraq qruplaşdırılır. Deməli terminologiyada əsas səciyyəvi xüsusiyyətlərə bunlar daxildir:

1. Terminlər semantikasına görə bir-birindən fərqlənir buna səbəb isə hər bir elm və texnologiya sahəsinin özünəməxsus terminologiya malik olmasıdır.

2. Terminlərin formalaşması üçün keçid etdiyi dilin tərkibinə uyğunlaşmasına əsasən qrammatik quruluşuna və ümumixalq dilinin lüğət tərkibinə diqqət edilir.

3. Ümumixalq dilindən götürülən söz və terminlər professional mənalar kəsb edə bilər.

4. Terminlər əsasən təkmənalı olurlar, çoxmənalılıq xüsusiyyətləri məhdud formada istifadə olunur. Buna səbəb isə terminlər daxil olduğu sahələrdə istifadə olunur və başqa məfhumda işlənə bilmir.

5. Terminlər yeni yarananda az istifadə olunur sonra müəyyən müddətdə keçir ümumişlək sözlər siyahısına daxil olur.

Azərbaycan və ingilis dilinin lüğət tərkibini təşkil edən bir çox sahələri elm, texnologiya, ictimai-siyasi, mədəni və.s əhatə edən terminləri bu xüsusiyyətlərə aid etmək mümkündür. Terminologiya daha çox elm sahəsilə əlaqəli olduğu üçün elmi üslubda daha aktiv formada işlədilir. Elm və yaxud peşə sahələri öznəməxsus terminlərdən ibarət olur və bu terminlər özlüyündə qruplaşır. Bu qruplaşma özünü belə göstərir tutaq ki,peşə sahəsin qeyd edək burda idman sahəsinə aid olan terminlərə daxildir: xokkey, voleybol, handbol və.s. İqtisadi sahəsində marketinq, mencment, dempinq, diskaunt və.s. Musiqi sahəsinə isə pop, karaoke, dicey, pop və.s. Texniki sahədə komputer, texnologiya, konstruksiya və.s. Tibb sahədə radioqraf, rentgen, biopsi və.s. İngilis dili dünya dilləri arasında prestijli dildir və dünya üzrə nüfuzu artır, bu səbəblə Azərbaycan dilinə çoxlu terminlər keçid edir və lüğət tərkibini zənginləşdirir. Bəzən elmi və bədii əsərlərdə olan terminləri ingilis dilindən Azərbaycan dilinə təcüməsin edərkən məna vermədiyi üçün olduğu kimi istifadə olunur. Buna misal olaraq radiooçek, fotoelektrod , kinokasset, elek- troterm, monorels, kilovat və.s aid etmək olar.

Qloballaşmanın sürətlənməsi nəticəsində bir çox əcnəbi sözlər, əsasəndə ingilis dilli sözlər dilimizə daxil olub,çox işlədilərək ümumişlək sözlərə çevrilmişdir. Məsələn bu gün dükan,bazar əvəzinə daha çox dilimizə market, supermarket, superstore və.s bu tipdə söz və sözbirləşmələri istifadə olunur. Bu sözlər bir neçə il əvvəl dilimizdə istifadə olunmurdu, super sözünün əvəzinə əla, böyük, iri, market sözünün yerinə mağaza, dükan, bazar sözləri işlədilirdi. İndiki dövrdə ingilis dilində işlədilən market sözü isə bazar mənasında istifadə olunur, dükan və mağaza sözlərini isə shop birdə store sözləri əvəzliyir.

Azərbaycan dilindən ingilis dilli terminlər lüğət tərkibində qruplaşaraq qeyd edilir. Misal üçün valyuta vahidinə - sent, gineya, dollar və s., qida və içki vahidlərinə - rom, viski, sandviç, hamburger, kokteyl və s., müraciət formalarına miss, ser, ledi, milord, mister və.s. İndiki dövrdə isə komputer texnikalarının inkişafı ilə əlaqəli dilimizə yeni terminlər daxil olub. Bunlara prosessor, display, konvektor terminal, interfeys və s. aiddir.

Məqalədən belə qənaətə gəlmək olar ki, terminlər müxtəlif dilin bir çox sahələrdə olan çətin, anlaşılmayan sözlərin daha başa düşülən formada anlama sferasını artırır. İndiki dövrdə internet, kütləvi informasiya, sosial media,

diplomatiya, elmi-texniki nailiyyətlər və digər mənbələr vasitəsilə terminlər dilin lüğət tərkibinə daxil olur və onun zənginləşməsində mühüm rol oynayır. Aydın olur ki, ingilis dilindən bizim dilə keçən alınmalar semantik cəhətdən genişlənib, müxtəlif sahələrə nüfuz edərək məna dairəsinə təsir göstərir. Keçid etdiyi dilin qayda-qanuna uyğun olaraq ilkin mənasın itirir və yeni mənada işlənməyə başlayır. Bu tip alınmaların semantikasında dəyişmə yaranır və dilin leksik sisteminə uyğunlaşır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. A.Hacıyev "Azərbaycan dilində termin yaradıcılığı" Bakı, 2002, 124 s.
2. X.A.Qasımova "Müstəqillik illərində termin yaradıcılığının əsas istiqamətləri" Bakı, Elm, 2009, 128.s.
3. İ.Qasımov "Azərbaycan Terminologiyasının əsasları" Bakı, "Kitab aləmi", 2011, 220 s.
4. M.B.Məmmədov "Müasir Azərbaycan ədəbi dilində termin yaradıcıllığının bəzi üsulları" Bakı, APİ nəşr, 1988, s. 16.
5. N.B.Məmmədov "Müasir Azərbaycan dilində Avropa mənşəlli beynəlmiləl sözlər" filol.elmi.nam. avtorefarat, Bakı, 1996, 45 s.
6. N.Məmmədli "Azərbaycan dilindən alınma terminlər" ~ Elm və təhsil~ Bakı - 2017, 488 s.
7. R.H.Məmmədli "İngiliscə - azərbaycanca izahlı komputer terminlər lüğəti" Bakı, "Kitab klubu", 2014, 464.s.
8. S.Alməmmədova "Müasir Azərbaycan dilində alınma terminlərin unifikasiyası və standartlaşdırma formaları", Bakı-2018, avtoreferat, 52 s.
9. S.Sadıqova "Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi" Bakı- "Elm" , 2010, 244 s.
10. T.Quliyev "Azərbaycan ədəbi dilində terminoloji yeniləşmə" Bakı,"Nurlan", 2005, 290 s.
11. V.Abdullayeva "Müasir Azərbaycan dilində terminoloji leksikanın inkişafı" AzMİU "Nəşriyyat-Poliqrafiya Mərkəzi", Bakı, 2020, 239.s.
15. Z.Cəfərov "Azərbaycan dilinin leksik-semantik sistemi" Bakı, Maarif, 1984, 119 s.

İngilis dilində

1. Ingrid Meyer, Douglas Skuce, Lynne Bowker, Karen Eck.Towards a New Generation of Terminological Resources: An Experiment in Building a Terminological Knowledge Base, C92-314 p
2. M.Roche Master Legal Vocabulary & Terminology – Legal Vocabulary in use: Contracts, Prepositions, Phrasal Verbs + 425 Expert Legal Documents & Templates in English, Vocabulary & Terminology –December 18, 2018, 168 p.

Фатуллаева Севда Аскер гызы
Азербайджанский Университет Языков

ИСПОЛЬЗОВАНИЕ АНГЛИЙСКИХ СЛОВ И ТЕРМИНОВ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ
РЕЗЮМЕ

Как видно из статьи, при рассмотрении лексики языка становится известно, что новые термины время от времени включаются в лексику языка и играют важную роль в обогащении языка. Термины повышают способность понимать сложные, непонятные слова во многих областях языков разных стран в более понятной форме.

Язык – это живой организм. Он реагирует на изменения в окружающей среде. Этот факт находит свое отражение и в терминологии, которая является неотъемлемой частью языка. Вновь усваиваемые слова и термины обогащают словарный запас языка. Превращение Азербайджана в самостоятельный субъект международных отношений в конце 20-го века и в 21-ом веке, дало сильный толчок к обогащению терминологии нашего языка.

В исследовании делается вывод о том, что заимствованные термины остаются семантически устойчивыми и используются в функциональной сфере. Термины, сохраняющие свое первоначальное значение, полностью усваиваются семантически. Эти термины становятся нарицательными и активно участвуют в словотворчестве.

Ключевые слова: Термины, слова, лексика, заимствованные термины, семантика.

Fatullayeva Sevda Asger
Azerbaijan University of Languages

USE OF ENGLISH WORDS AND TERMS IN AZERBAIJANI
SUMMARY

As can be seen from the article, when considering the vocabulary of a language, it becomes known that new terms are included in the vocabulary of the language from time to time and play an important role in enriching the language. Terms increase the ability to understand complex, incomprehensible words in many areas of languages of different countries in a more understandable form.

Language is a living organism. It reacts to changes in the environment. This fact is reflected in the terminology, which is an integral part of the language. Newly acquired words and terms enrich the vocabulary of the language. The transformation

of Azerbaijan into an independent subject of international relations at the end of the 20th century and in the 21st century gave a strong impetus to the enrichment of the terminology of our language.

The study concludes that borrowed terms remain semantically stable and are used in the functional sphere. Terms that retain their original meaning are fully assimilated semantically. These terms become common nouns and actively participate in word creation.

Key words: Terms, words, vocabulary, borrowed terms, semantics.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: F.f.d., dosent Səmədova İradə Amin qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

SVETLANA NOVRUZOVA İBRAHIM QIZI
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
snovruzova952@gmail.com

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ƏVƏZETMƏ MEYİLLƏRİ (MƏTBUAT DİLİ ƏSASINDA)

Xülasə

XX əsrin əvvəllərində nəşr olunan mətbu orqanları Azərbaycanın ictimai-siyasi və mədəni həyatında vacib rola malikdir. Qəzet və jurnallar Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparsalar da, mətbuatda anlamaqda çətinlik yaradan ərəb sözləri, fars, sözləri, türk elementlərinin, rus və rus dili vasitəsilə Avropa mənşəli sözlərin də işlənilməsi qaçılmaz idi. Ilk dövrlərdə ədəbi dilin təsiri nəticəsi kimi bəzi izafət birləşmələrindən də sosial-mədəni inkişafla bağlı anlayışları ifadə etmək üçün istifadə olunurdu. Bu birləşmələr Azərbaycan dilinin fonetik və qrammatik qanunlarına uyğun gəlmədiyindən, normalaşma dövründə müvafiq şəkildə ümumişlək xarakterli söz və söz birləşmələri ilə əvəz olunmuşdur. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilində türk dilinə məxsus bir sıra elementlər də işlənirdi. XX əsrin əvvəllərindəki lüğət tərkibinə nəzər yetirsək, ərəb, fars, türk dilləri ilə yanaşı rus dilinə məxsus sözlərin də işlənməsini görmək olar. Bu da təbii olaraq Rusiyanın Azərbaycana təsiri ilə bağlı idi. XX əsrin əvvəllərində nəşr olunan mətbu orqanları Azərbaycanın ictimai-siyasi və mədəni həyatında vacib rola malikdir. Həmin dövrdə işlənən bəzi ərəb mənşəli sözlər sonrakı mərhələlərdə Azərbaycan dilinin özünəməxsus imkanları qarşısında davam gətirə bilməyib müvafiq adekvatlarla əvəz olunmuşdur. Eyni zamanda rus dili vasitəsilə keçən Avropa mənşəli sözlər sonrakı mərhələlərdə ərəb, fars mənşəli sözləri əvəz etməyə başladı. Bəzi terminlərə aid anlayışlar köhnəlib aradan çıxdığı üçün onlar ümumiyyətlə, müasir ədəbi dilin terminoloji bazasında norma hüququ daşımaqdan məhrumdur. Həmin dövrdə rus dili təsiri ilə işlənən sözlərin müəyyən qismi Azərbaycan dilində ümumişlək xarakterli vahidləri əvəz etsə də bu əvəzetmədə heç bir ümumdil və ya danışıq dili norması müşahidə olunmur. Azərbaycan dilindəki ümumişlək sözlərin yerinə rus dilindən alınmış sözlərin işlədilməsi üslubi məqsəd daşıyır. Bu dövrdə yer adlarının da rus dilinin təsiri ilə bu dildə işləndiyi formalarda işlənməsini müşahidə etmək olar. Bir qisim sözlər isə Azərbaycan dilinin normalarına uyğun olmadığı üçün dildə işləklik qaza bilməyib müvafiq qarşılıqlarla əvəz olunmağa başladı.

Açar sözləri: XX əsrin əvvəlləri, Azərbaycan dili, mətbuat dili, əvəzetmə meyli.

XX əsrin ilk dövrlərində ictimai həyatın müxtəlif sahələrində ziddiyyətli vəziyyət mövcud idi. Bu ziddiyyətlər dilə münasibətdə də özünü göstərirdi. Bu dövrdə ədəbi dilə münasibətdə ziyalılar arasında vahid mövqe, vahid meyl olmadığı kimi üslub pərakəndəliyi davam edirdi. "Ədəbi dildə XX əsrə qədər kök salmış ərəb-fars elementləri, XX əsrin ilk onilliklərində meydana çıxmış türkizmlər bu dövrdə bir-biri ilə çulğalaşmış şəkildə işlədilirdi" [1,s.83]. Buna səbəb kimi XX əsrin ilk rübündə Azərbaycan ədəbi dilinin lüğət tərkibində bir qisim ərəb, fars, türk, rus və rus dili vasitəsilə keçən Avropa mənşəli sözlər vahid normaya uyğun işlədilməməsini göstərmək olar.

XX əsrin əvvəllərindən fəaliyyət göstərən bir çox mətbu orqanlarının dilinə nəzər salsaq, burada ərəb, fars mənşəli sözlərlə yanaşı türk sözlərinə, rus və Avropa mənşəli sözlərə rast gəlinir ki, bu sözlər müvafiq şəkildə daha yeni sözlərlə əvəzlənmişdir. Bu sözlər XX əsrin ilk onilliyində ictimai-sosial vəziyyətlə əlaqədar meydana çıxan anlayışları ifadə edirdi.

Bu dövrdə nəşr olunan qəzet və jurnallarda nəşriyyat sahəsi ilə bağlı işlənən ərəb mənşəli sözlərə rast gəlinir ki, sonrakı dövrlərdə bu sözlər yeni sözlərlə əvəz olunmağa başladı. Məsələn, *darülmüəllim, moltanı, cəsamət, mühərrir, üdəba, əşar, məşrutə, nayib, cümhuriyyət, mərizxana, üləma, məsarif, əmələ, nəmmam, şümarə, ədyan* Bu sözlər *direktor, kafir, böyüklük, yazan (jurnalist), ədiblər, şeirlər, konstitusiya, canişin, respublika, xəstəxana, alim, məsrəf, fəhlə, sözgəzdirən, nömrə, din* və s.

Həmin dövrün mənzərəsini canlandırmaq baxımından aşağıdakı nümunələri misal göstərmək olar:

"*Darülmüəlliminlərdənmi*? Məgər bu darülmüəllimlərdə tatar dili öyrənilirmi?" ("Tiflisski listok", 5 avqust 1905, №159).

"1902-ci ildə Tiflisdə qız institutunu qurtarandan sonra 1904-cü ilin sentyabr ayında gedib Şvetsariyaya və orada *darülfünunun* həkimlik şöbəsinə girib". ("Molla Nəsrəddin", 28 dekabr 1908, №52).

"Oxucularımızı bu cür *iştibahdan* çıxarmaqdan ötrü lazım bilirik bunu söyləyək ki, həmin mənzumənin *müsənnifi* Ordubad şairlərindən məşhur Fəqir vəfat edib təxminən iyirmi il bundan qabaq və həmin əhvalatı yazıb bəlkə otuz il bundan irəli". ("Molla Nəsrəddin", 23 dekabr 1907, №48).

"Həmin 1908-ci ildə Gəncə şəhərinə təzə konsul varid olub və Mir Bağır ağa konsulun qabağına çıxıb və ağa ilə konsul İran *məşrutəsi* barəsində çox şirin söhbət eliyiblər". ("Molla Nəsrəddin", 28 dekabr 1908, №52).

"Həqiqətdə Tiflisdə müstəqil və münəzzəm müsəlman mətbəəsinin olmamağı və bir tərəfdən də *əmələlərin* azadlıq tətilləri indiki dava əsrində bizi nəhayət, çətinliklərə düçar eləyir". ("Molla Nəsrəddin", 20 aprel 1917, №10).

Gətirilən nümunələrdə ərəb mənşəli *darülmüəllim, darülfünun, iştibah*, *müsənnif*, *məşrutə, əmələ* sözləri müvafiq olaraq *direktor, universitet, şübhə, müəllif, konstitusiya, fəhlə* kimi qarşılıqlarla əvəz olundu.

Azərbaycan dilinə daxil olan bəzi ərəb mənşəli sözlər var ki, Azərbaycan dilində norma hüquqlu vahid səviyyədə işlədilmir. Məsələn, Axı, ay qardaş, əcnəbilər həyə bağlayırlarsa da, gedirlər kimi *kəlisaya* ibadətə, kimi gedir evinə rahat olur və oğul-uşağı ilə vaxtını keçirib həmi özü dincəlir, həmi əhli-əyalını xoşhal eləyir. ("Molla Nəsrəddin", 29 iyul 197, №29). Burada işlənən *kəlisa* sözü sonradan Azərbaycan dilinin fonetik normalarına uyğun olaraq *kilsə* sözü ilə əvəzləndi.

Ilk dövrlərdə ədəbi dilin təsiri nəticəsi kimi bəzi izafət birləşmələrindən də sosial-mədəni inkişafla bağlı anlayışları ifadə etmək üçün istifadə olunurdu. Lakin izafət birləşməsi Azərbaycan dilinin fonetik və qrammatik qanunlarına uyğun gəlmədiyindən, normalaşma dövründə müvafiq şəkildə ümumişlək xarakterli söz və söz birləşmələri ilə əvəz olunmuşdur. Məsələn, *inqilabi-kəbir, naibül-vüzəra, firqeyi-ürəfa, mətai-dünya, nəşri-maarif, üsuli-cədid, risaleyi-təslim, cəmiyyeti-xeyriyyə, sədri-məclis* və s. "Madam ki, siz *elmi-nücumdan* və elmi-təbiətdən xəbərdar deyilsiniz, - həmişə xarqüladata və möcüzata, məlaikəyə...və bu qəbil mövhumata inanacaqsınız" ("Şərq qadını", may-iyun 1928, № 5-6). Burada *elmi-nücum* sonradan *astronomiya elmi* sözü ilə əvəzlənmişdir. "Cümhuriyyətlərin bəzisində vəzirlər məhz prezidentə tabedirlər; bəzi cümhuriyyətlərdə vəzirlər *məclisi-məbusan*a tabedir". ("Bahar", 1917). Bu nümunədə *məclisi-məbusan* izafət birləşməsi sonradan *deputat* sözü ilə əvəz olunmuşdur.

Bu cür sözlərin Azərbaycan ədəbi dilindən çıxmasına səbəb yeni cəmiyyətin sosial-mədəni tərəqqi, millətlərin və mədəniyyətlərin yaxınlaşması zəmnində milli dillərin inkişafı, terminlərdə unifikasiyaya yaranmış güclü meyllə ayaqlaşa bilməməsi, Azərbaycan dilinin fonetik və orfoepik tələblərinə qətiyyən uyğun gəlməməsi idi.

XX əsrin əvvəllərində mətbuatda bilavasitə fars dilinə məxsus olan və sonralar əvəz edilməsi lüzumu ortaya çıxan sözlərə dair aşağıdakı nümunlərdə işlənən sözləri misal gətirmək olar. Məsələn, *nam, danışmənd, kirdar, birpərva* və s. sözləri ad, bilikli adam, əməl, cəsur sözləri ilə əvəzlənmişdir. "İndiki əsrimizdə şura hökumətinin xalq hakimləri və onların arvadları öz şəxsi rəftar və *kirdarları* ilə gərək camaata ibrət olalar, nəinki yüz əlli manatı bir üzüyə verməklə füqəranın hesabını unudalar". ("Molla Nəsrəddin", 13 yanvar 1928, №2).

Qeyd edək ki, bu dövrdə işlənən fars mənşəli sözlər digər dillərdən keçən sözlərə nisbətən azdır.

XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilində türk dilinə məxsus bir sıra elementlər də işlənirdi. Ərəb, fars mənşəli sözlər kimi türk dili elementlərinin Azərbaycan ədəbi dilində işlənməsi inqilabdan əvvəlki dövrün ədəbi dilindən qalmış miras idi. Bu dövrdə mətbuatda *şimdi, həpsi, para, yavuq, uyqu, cibilli, yapmaq, ufaq-ufaq* türk dilində işlənən sözlərə rast gəlmək olar. Məsələn, Zeyldə adları siyahı üzrə dərc olunan əşxaslar *şimdidən* özlərini üzv yazdırmışlar ("Molla Nəsrəddin", 26 avqust 1907, № 32).

"Fransızların *əfkarında* böyük inqilab *yapan* Jan Jak Russonun "Emil" adlı kitabını türkcəyə tərcümə edən Ziya Paşa bir gün Soltan Əbdüləzizlə görüşmüş və məqami-təşəkkürdə atidəki şərqiyi söyləmiş". ("Molla Nəsrəddin", 10 aprel 1926, №15). "Bu yolda İngiltərə hökuməti *paralar* sərf etməkdədir ki, Şuraların düşmənlərini bir yerə toplayıb onları qüvvətləndirsin və kəndli-əmələlərin üstünə küşkürtsün və beləliklə dünyanı çalxalayıb öz məramına çatsın. ("Molla Nəsrəddin", 14 iyul 1927, №29).

Göstərilən nümunələrdə *əfkar* (fikir), *yapan* (edən), *para* (pul) kimi türk dilinə məxsus sözlər müvafiq Azərbaycan dilinə uyğun adekvatları əvəz etmək məqsədilə işlədilsə də sonrakı mərhələlərdə onlar əvəz oluna bilmədi.

T.Quliyev 20-ci illərdə türk dilinə məxsus olan sözlərin işlədilməsində iki başlıca meylin diqqəti cəlb etməsini qeyd edir. Bunlardan birincisi, türk dilinə məxsus olan sözlərin qeyri-türk mənşəli sözlərlə əvəzedilməsindən, ikincisi isə Azərbaycan dilinə məxsus sözlərlə münasibətdə türk dilinə məxsus adekvatlara üstünlük verilməsindən ibarətdir [3, s.64].

XX əsrin əvvəllərindəki lüğət tərkibinə nəzər yetirsək, ərəb, fars, türk dilləri ilə yanaşı rus dilinə məxsus sözlərin də işlənməsini görmək olar. Bu da təbii olaraq Rusiyanın Azərbaycana təsiri ilə bağlı idi. "İrəvan şəhərinin sakini kərbəlayı Cəfər Əli oğlu *uprava* idarəsinə ərizəsində xahiş edir ki, "*Qlasnılar* içərisindən olmaz, olmaz" sözləri eşidilir" ("Kaspi" qəzeti, 28 mart 1902, №82).

Həmin tədris planı Qafqaz canişini imperator zati-aliləri Mixail Nikolayeviç tərəfindən təqdir edilərək, Qafqaz təhsil idarəsi *popeçiteli*nin 1881-ci il 4 fevral tarixli, 598 nömrəli göstərişi ilə yerli əhali arasındakı məktəblərin müdirlərinə əldə rəhbər tutulmağa göndərilmişdir ("Tiflisski listok", 5 avqust 1905, №159).

Akoşqalardan müsəlman dəstəsinin ustə yağan qırmızı baydaqlar, qırmızı nişanlar "Urra..." sədaları ilə qəbul olunurdu. ("Həyat", 6 noyabr 1905, № 96).

Hətta *pristavın draqun ofiserinin* darılmaq təkliflərini rədd edib, xətibə nitqində davam etməyi təvəqqe və israr etdilər. ("Həyat", 6 noyabr 1905, № 96).

Hər quberniya və *uyezddə* də kəndlərdə yerin kifayət qədərində vüsətli olduğuna baxıb özlərinə məxsus camaatın müsəlmanca oxumuşlarından birini sədr seçib onların təhti-sədarətində Zemski *uçrejdeniyalar*, yəni məhəlli şuralar olacaqdır. ("Molla Nəsrəddin", 02 sentyabr 1907, № 33-34, Sağsağan). Burada işlənən *uyezd* sözü *qəza*, *uçrejdeniya məhəlli şura* sözü ilə əvəzlənmişdir.

Bəzi terminlərə aid anlayışlar köhnəlib aradan çıxdığı üçün onlar ümumiyyətlə, müasir ədəbi dilin terminoloji bazasında norma hüququ daşımaqdan məhrumdur. Məsələn, *uyezd, qubernator, uçrejdeniya* və s.

Bu dövrdə rus dili təsiri ilə işlənən sözlərin müəyyən qismi Azərbaycan dilində ümumişlək xarakterli vahidləri əvəz etsə də bu əvəzetmədə heç bir ümumdil və ya danışıq dili norması müşahidə olunmur. Azərbaycan dilindəki ümumişlək sözlərin yerinə rus dilindən alınmış sözlərin işlədilməsi üslubi məqsəd daşıyır. Məsələn,

"Qurtardıq kənd yüzbaşılarının tatarından, qurtardıq *strajniklərin* şallağından, xilas olduq min-min zalımların zorbazorluğundan." ("Molla Nəsrəddin", 23 mart 1917, №7). Rus dilindən keçən strajnik sözü sonradan Azərbaycan dilinə tərcümə edilərək *qaravul* sözü ilə əvəzlənmişdir.

"Keçən il molla Şükürün itən talaqqası odur bu saat Aşqabadda Müzəffəri *uşkolunda* Məşədi Bağır əminin əlindədir. ("Molla Nəsrəddin", 1 iyul 1907, №24).

Ölkə adlarında da rus dilinin təsiri açıq-aşkar hiss olunur. Məsələn, *İsveçrə* sözü əvəzinə *Şvetsariya*, *Avropa* qitəsi əvəzinə *Yevropa* sözünün işlədilməsi xüsusi norma sistemini tənzim edən meyarın olmamasından irəli gəlir. "Rəvadırmı bundan sonra *Şvetsariyada* elə bilsinlər ki, dünyada müsəlman qızı tək bircə imiş, dəxi dünyada müsəlman qızı yoxdur və bəlkə dünyada heç müsəlman yoxdur!.."; "*Yevropaya* elm dalınca gedən müsəlman qızlarından Leyli xanımdan savayı biz özgəsini eşitməmişik". ("Molla Nəsrəddin", 28 dekabr 1908, №52).

Azərbaycan dilinə Avropa dillərindən sözlər XIX əsrdən keçməyə başlamışdır. Bu da Azərbaycanın Rusiyanın tərkibinə daxil olması, ictimai-siyasi hadisələrlə bağlıdır. Bu dövrdə Azərbaycan dilinə rus dili vasitəsilə Avropa mənşəli sözlərin axını prosesi mətbuatda da özünə yer tapmışdır. Məsələn, *sklad-anbar, politika-siyasət, provokator-təxribatçı, straxovaniya-sığorta, prosent-faiz, incener-mühəndis, yurist-hüquqşünas, revizor-müfəttiş, stipendiya – təqaüd.*

"....balaları məscidi-camenin civarında tikilmiş böyük bir imarətdə, güşad, isti və quru *klas* otaqlarında, stullar üstə, nizam ilə əyləşib....tarix və başqa elm və tərbiyə öyrənirlər" ("Şərqi-Rus" qəzeti, 30 yanvar 1904, №11).

XX əsrin ilk rübündə fəaliyyət göstərən mətbu orqanlarında işlənən sözlərin qarşılığı verilir ki, bu sözlər sonrakı illərdə həmin sözlərlə əvəzlənmişdir. Məsələn, O qanunları yazan və təsdiq edən *millətin məbusları*, yəni *vəkilləridir*. Məmləkətin rəisinə "*prezident*" deyilir. ("Bahar", 1917).

Mətbuatda işlənən sözlər arasında paralel olaraq işlənən sözlərə də rast gəlmək mümkündür. Məsələn, Həmd olsun Tanrıya "İslam" *qostini* iki ildir ki, bina olub. ("Şərqi-Rus", 27 iyun 1904, №86. / "Rəbiüs-sani ayının 17-ci günü Naxçıvana varid oldum. Gecəni "İslam" *mehmanxanasında* qalıb, rahat oldum.

Bildi ki, ən əvvəl müqtədir bir *vəkil* olub millətə xidmətə burdan başlamaq lazımdır. ("Həyat", 22 sentyabr 1905, № 11). / Şəhidi-mərhum İrəvanda şöhrətli, diplomalı böyük *advakatların* qarşısında öhdəsinə götürdüyü böyük-böyük işləri mütəssil qazanırdı. ("Həyat", 22 sentyabr 1905, № 11).

XX əsrin ilk dövrlərində Azərbaycan dilində ziddiyyətlər müşahidə olunsa da, bu dövrdə nəşr olunan qəzet və jurnalların dilində işlənən sözlər sonrakı mərhələlərdə Azərbaycan dilinin normalarına uyğun adekvat sözlərlə əvəz oluna bildi.

Ədəbiyyat

1. Xudiyev N. M. Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı (Sovet dövrü). Bakı, “Elm və təhsil”, 2013. 480s.
2. Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, “Elm”, 1973. 186 s.
3. Quliyev T.Z. Terminoloji yeniləşmədə əvəzetmə meylləri. Bakı, “Elm”, 2000. 74s.

С.И. Новрузова

ТЕНДЕНЦИЯ ЗАМЕЩЕНИЯ СЛОВ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ В НАЧАЛЕ XX ВЕКА (НА МАТЕРИАЛЕ ЯЗЫКА ПЕЧАТИ)

Резюме

Печатные органы, издававшиеся в начале 20 века, играют важную роль в общественной, политической и культурной жизни Азербайджана. Хотя газеты и журналы боролись за чистоту азербайджанского языка, неизбежным оставалось использование в средствах массовой информации трудновоспринимаемых арабских, персидских слов, тюркских элементов и слов европейского происхождения. В ранние времена в результате влияния литературного языка некоторые сочетания прилагательных использовались для выражения понятий, связанных с социокультурным развитием. Поскольку эти сочетания не соответствуют фонетическим и грамматическим законам азербайджанского языка, в период нормализации они были заменены общеупотребительными словами и словосочетаниями. В начале 20 века в литературном языке Азербайджана также использовался ряд элементов, принадлежащих тюркскому языку. Если мы посмотрим на лексику начала 20 века, то увидим употребление слов, принадлежащих русскому языку наряду с арабским, персидским и турецким языками. Это, естественно, было связано с влиянием России на Азербайджан. Газеты, издававшиеся в начале 20 века, играют важную роль в общественной, политической и культурной жизни Азербайджана. Некоторые слова арабского происхождения, употребляющиеся в тот период, не смогли закрепится в нашем языке и под натиском уникальных возможностей и логикой азербайджанского языка позднее были заменены исконными словами родного языка. В то же время слова европейского происхождения, вошедшие посредствам русского языка, стали вытеснять на более поздних этапах слова арабского и персидского происхождения. Поскольку понятия, относящиеся к некоторым терминам, устаревают и исчезают, они вообще лишены права иметь место в терминологической базе современного литературного языка. В этот период определенное количество слов, употребляемых под влиянием русского языка, заменило в азербайджанском языке единицы общего характера, но это замена не являетсяется общеязыковой или разговорной нормой. Использование русских

слов вместо общеупотребительных слов в азербайджанском языке имеет стилистическую цель. В этот период можно наблюдать, что топонимы перерабатывались так же, как они употребляются в этом языке под влиянием русского языка. Некоторые слова не соответствовали нормам азербайджанского языка и не могли использоваться в языке, вследствие чего заменены соответствующими эквивалентами.

Ключевые слова: начало 20 века, азербайджанский язык, язык прессы, тенденция к замене.

S.İ.Novruzova

REPLACEMENT TRENDS AT THE BEGINNING OF THE 20TH CENTURY (BASED ON THE LANGUAGE OF PRINT)

Abstract

The printed organs published at the beginning of the 20th century play an important role in the social, political and cultural life of Azerbaijan. Although newspapers and magazines fought for the purity of the Azeri language, it was inevitable that the media would use Arabic words, Persian words, Turkic elements, and words of European origin that are difficult to understand. In early times, as a result of the influence of the literary language, some combinations of adjectives were used to express concepts related to sociocultural development. Since these combinations do not correspond to the phonetic and grammatical laws of the Azerbaijani language, during the period of normalization they were replaced by commonly used words and phrases. At the beginning of the 20th century, a number of elements belonging to the Turkic language were also used in the literary language of Azerbaijan. If we look at the vocabulary of the early 20th century, we will see the use of words belonging to the Russian language along with Arabic, Persian and Turkish. This, of course, was connected with the influence of Russia on Azerbaijan. Newspapers published at the beginning of the 20th century play an important role in the social, political and cultural life of Azerbaijan. Some words of Arabic origin used in that period could not be preserved in the face of the unique possibilities of the Azerbaijani language and were replaced at later stages by the corresponding ones. At the same time, the words of European origin, which passed through the Russian language, began to displace the words of Arabic and Persian origin at later stages. Since the concepts related to some terms become obsolete and disappear, they are generally deprived of the right to take place in the terminological base of the modern literary language. During this period, a certain number of words, used under the influence of the Russian language, replaced units of a general nature in the Azerbaijani language, but this replacement is not a general language or colloquial norm. The use of Russian words instead of commonly used words in the Azerbaijani language has a stylistic purpose. During this period, one can observe that toponyms were processed in the same way as they are used in this language under the influence

of the Russian language. Some words did not correspond to the norms of the Azerbaijani language and could not be used in the language, so they were replaced by the corresponding equivalents.

Key words: beginning of the 20th century, Azerbaijani language, language of the press, tendency to change.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: ***f. ü. f. d., dosent*** **S.Quliyeva**
tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU ƏMİRASLANOVA
ATU
Səməd Vurğun, 167, Bakı, Nəsimi, AZ1022
e-mail: aemiraslanova@amu.edu.az

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN FORMALAŞDIRILMASI ZAMANI AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI

Xülasə

Ali və orta məktəblərdə şifahi nitqin inkişaf etdirilməsi istiqamətində işin məqsəd-yönlü, planlı şəkildə həyata keçirilməsi olduqca vacibdir. İngilis dilini tədris edən müəllimlər danışıq dilinin xüsusiyyətlərini hər bir dərsin tərkib hissəsi kimi nəzərdə tutmalıdırlar. Danışıq dilinin xüsusiyyətlərini, tədris edilən dildə şifahi nitqi nəzərə almadan tələbələrdə öyrənilən dil haqqında tam şəkildə təsəvvür yaratmaq və onların ixtisas dilində kommunikasiya prosesinə uğurlu şəkildə qoşulmasını təmin etmək qeyri-mümkündür. Danışıq dilinin xüsusiyyətləri keçirilən praktik dil dərslərinə inteqrativ şəkildə daxil edilməlidir. Eyni zamanda, ingilis dilini tədris edən müəllim şifahi nitqin formalaşması prosesində onların hansı problem və çətinliklərlə üzləşə biləcəklərini ehtimal etməli və şifahi nitqin aşılanması prosesini həmin amilləri nəzərə almaqla təşkil etməlidirlər. İşin məhz bu istiqamətdə qurulması dilöyrənənlərə lazımi nəzəri bilikləri mənimsəməyə və mükəmməl şəkildə mənimsənilmiş biliklərdən praktik məqsədlərlə istifadə etmək üçün səmərəli şərait yaradır. Ali məktəblərdə ingilis dilini tədris edən müəllimlərin qarşısında duran əsas vəzifələrdən biri tədrisin keyfiyyətini yüksəltmək və onu Avropa standartları səviyyəsinə çatdırmaqdır. Dilöyrənənlərin təlim prosesinə fəal iştirakçı qismində cəlb edilməsini təmin edə bilən şərtlərdən ən önəmlisi ingilis dilinin tədrisi prosesinin onların tələbat və ehtiyaclarına, yaş səviyyəsinə, və eləcə də onların maraq dairəsinə uyğun olan tərzdə qurulmasıdır. Xarici dillərin təlimi səviyyəsini Avropa standartları səviyyəsinə çatdırmaq üçün təlim prosesinə ənənəvi metodlarla yanaşı, Avropa təhsil sistemində qəbul edilmiş metod və üsullar tətbiq edilməlidir. Bu da xarici dil tədrisinin və təhsilin keyfiyyətinə bilavasitə təsir göstərən şərtlərdən biridir. Xarici dil mütəxəssisi hazırlayarkən, əsas fəaliyyət növləri olan eşidib-anlama, danışma, yazı və oxunun öyrədilməsi üsullarına ciddi diqqət yetirilməlidir. Eyni zamanda dilin aspektləri olan leksika, qrammatika və fonetikanın öyrədilməsinə xüsusi diqqət yetirilməlidir. Başqa sözlə desək, dil mütəxəssisi, ilk növbədə xarici dil müəllimi kommunikativ cəhətdən sərişteli olmalıdır. Məhz bu səbəbdən orta və ali məktəblərdə dilöyrənənlərə şifahi nitq vərdişlərinin aşılanmasına xüsusi diqqət yetirilməsi olduqca vacibdir.

Açar sözlər: innovasiya, dil, metod, texnologiya, nitq

Orta və ali məktəblərdə xarici dili tədris edən müəllimlərin, xüsusilə də qlobal-laşan dünyada əsas ünsiyyət dili olan ingilis dili müəllimlərinin tədris edilən dildə verbal və qeyri-verbal davranışları dilöyrənənlər üçün örnək olmalıdır. Kommunikasiya interaktiv proses olub, insanlarla ünsiyyət qurduqda daha mənalı olur. İnsanlarla ünsiy-yət qurarkən biz təkcə danışmır, həmçinin qarşımızdakını dinləyir və qəbul etdiyimiz informasiyaya münasibət bildiririk. Görkəmli metodistlərdən biri olan Penni Ur "A course in language teaching" kitabının "Real-life listening in the classroom " bölməsində qeyd etmişdir ki, tələbələrin dinləmə bacarıqlarının inkişafı audio materialların düzgün seçilməsindən asılıdır. Bildiyimiz kimi, hər bir dil rəsmi və qeyri-rəsmi olaraq, iki qrupa bölünür. Bizim gündəlik danışıqda istifadə etdiyimiz dil qeyri-rəsmi dildir. Xarici dili öyrənən bir çox insan heç də həmişə dil daşıyıcıları ilə ünsiyyətdə olmaq şansını əldə etmir. Belə olan halda məsulliyətin çox hissəsi müəllimin üzərinə düşür və müəllim tələbənin dinləmə bacarıqlarını inkişaf etdirmək üçün qeyri -rəsmi dilə əsaslanan audio materiallardan daha çox istifadə etməlidir. Audio materiallar nə qədər qeyri-rəsmi dilə əsaslanarsa tələbələr bir o qədər bu dilə yaxın olar. Bu da informasiyanin daha yaxşı mənimsənilməsinə səbəb olur. C.Harmer "The practice of English Language Teaching" kitabının "Listening" bəhsində tələbələrin kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan audio materiallardan və dinləmə bacarığı haqqında geniş məlumat vermişdir. C.Harmer eyni adlı kitabında dinləmənin iki növü olduğunu qeyd etmişdir. Tələbələrin sadəcə dinlədikləri parçadan zövq almaq və kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün istifadə etdiyi dinləmə növü ekstensiv dinləmədir[2, s. 46].

Bildiyimiz kimi, bir çox tələbənin dinləyib anlamamaq kimi problemi vardır. Əgər tələbə dinlədiyi mətnin və ya dialoqun hər hansı hissəsini anlamırsa, bu onun de-motivasiyasına gətirib çıxarır. Hər bir dil səviyyəsinə uyğun olan belə qısa mətnlər isə onların tələbələr tərəfindən rahat mənimsənilməsinə kömək edir. Ekstensiv dinləmədən fərqli olaraq, intensiv dinləmə əsasən dərs prosesində baş verir. İntensiv dinləmə üçün istifadə olunan audio materiallar müəllim tərəfindən seçilir. Müəllim hər hansı materialı seçərkən bir çox amilləri nəzərə almalıdır. Ən başlıca amil tələbələrin dil səviyyəsidir. Hər bir audio material tələbələrin dil səviyyəsinə uyğun olmalıdır. Əks təqdirdə dərs prosesində istifadə olunan materiallar heç bir nəticə vermir. C.Harmer intensiv dinləmə zamanı istifadə edilən audio materilların müsbət və mənfi cəhətlərini vurğulamışdır. Audio materiallardan istifadə tələbələrə müxtəlif danışıq formalarını eşitməyə şərait yaradır, fərqlı danışıq tərzləri ilə yaxından tanış olan tələbə dil daşıyıcıları ilə ünsiyyətdə olarkən heç bir problem yaşamır. Lakin audio materilladan istifadə heç də həmişə problemsiz keçmir. Bəzən sinifdə akustik problemlər yarana bilər. Belə olan halda tələbələr audio mətni tam eşitmədiklərinə görə anlaya bilmirlər [1,s.136]. Bəzən tələbələr hər hansı söz və yaxud da ifadəni anlamadıqları üçün dinlədikləri mətnin məzmununu da dərk edə bilmirlər. Söz və ifadələrin tam şəkildə başa düşülməməsinə başlıca səbəb bəzi səslərin fərqli tələffüz edilməsidir. Danışıq zamanı səslərin bəzilərinin assimilasiya prosesində təhrif edilməsi problemlərə yol açır. Bu səbəbdən tələbələr tələffüz edilən söz və ifadənin nə olduğunu anlamaqda çətinlik çəkirlər.C.Harmer problemin həllinə dair

iki yol göstərmişdir. İlk növbədə, tələbələrə nümayişlər, diaqramalar və izahat vasitəsilə səslərin danışıq prosesində necə ifadə olunduğunu göstərə bilərik. Daha bir həll yolu dinləmə prosesində tələbələrin diqqətini bu səslərə yönəltməkdir. Onlar təhrif edilən səsləri tam eşitsinlər deyə biz konkret bir parçanı təkrar-təkrar onlara dinlətdirə bilərik. Bu tələbələrin bu səslərə alışmasını təmin edəcəkdir. Onlar dinləmə ilə bərabər tələbələri görüntü ilə də təmin edir. Lakin bəzi hallarda videomaterialların istifadəsi də problemsiz ötüşmür. Bundan əlavə, o, dil bilmə səviyyəsi aşağı olan tələbələr üçün mürəkkəb strukturlu qaydaların, sürətli danışıq tempinin və qabaqçıl səviyyəyə aid olan idiomatik ifadələrin istifadəsinin bir çox çətinliklər yarada biləcəyini qeyd etmişdir. Buna görə, yanlış videomaterialların seçilməsi anlşılmazlığa və materialdaki məlumatın düzgün təhlil edilməməsinə gətirib çıxara bilər. Dilöyrənmə prosesində audio və videomaterialların istifadəsinə dair qarşıya çıxan problemləri aşağıdaki kimi qruplaşdıra bilərik:

1.Texniki problemlər; Audio və videomateriallardan istifadə prosesində texniki avadanlıqlarla işlədiyimizi nəzərə alsaq, texniki problemlərin qaçılmaz olduğunu anlaya bilərik. Videomaterialların proyektorlar vasitəsilə işiqlandırılması zamanı lampalarda yaranan problemlər görüntünü mümkünsüz hala gətirir. Power Point slaydlarından istifadə zamanı şriftin ölçülərinin və ya rənginin standartlara uyğun olmaması çətinliklər törədə bilər.

2.Diqqətin yayılması; Bəzi hallarda texniki avadanlıqlar belə tələbələrin diqqətinin yayınmasına səbəb ola bilər. Misal üçün, proyektorlardan gələn xüsusi effektlər və ya işıqlar dilöyrənənlərin diqqətini çəkə və videodakı məlumatın tam şəkildə mənimsənilməməsinə səbəb ola bilər. Başqa bir problem isə slaydlardaki məlumatın mürəkkəb və çox olması ilə bağlıdır. Təqdim edilən videomaterialdakı parçanın mürəkkəb, dilöyrənənlərin dil səviyyələrinə uyğun olmaması onların demotivasiyasına və diqqətlərinin yayınmasına səbəb ola bilər.

3.Xərc; Proyektor, kompyuter və başqa texniki vasitələrdən istifadə maddi cəhətdən müxtəlif problemlər törədə bilər. Bu vasitələrin çox bahalı olması səbəbindən bəzən alınması və istifadəsi mümkün olmur. Büdcə məhdudiyyətləri üzündən bəzi məktəblərdə də hər bir sinif üçün kifayət qədər audiovizual avadanlıqlar olmaya və ya mövcudluğu məhdudlaşdırıla bilər.

4. Vaxt;Audivizual materialların hazırlanması kifayət qədər vaxt apara bilər. Materialın hazırlanması dedikdə biz keçilən mövzuya uyğun videoların və ya film parçalarının tapılması, buna uyğun olaraq dərs planının yazılmasını nəzərdə tuturuq.

5. Məkan; Texniki avadanlıqların istifadəsi zamanı ortaya çıxan başlıca problemlərdən biri də otaqlarla bağlı olur. Bəzən otaqların çox böyük olması nümayiş etdirilən videonun hamı tərəfindən izlənilməsinə və yaxud da istifadə edilən audio materialın hər kəs tərəfindən eşidilməsinə mane törədə bilər. Başqa bir problem isə sinif otaqlarının işiqlandırılması ilə bağlıdır. Çox işıqlı otaqlarda proyektorun istifadəsi mümkünsüz ola bilər. Günəş işığının çox olması səbəbindən proyektor vasitəsi ilə təqdim edilən video və ya slaydların keyfiyyəti aşağı düçə bilər. Bu problemi yaşamamaq və yüksək keyfiyyətli səs və görüntü təqdim etmək üçün müəllim dərs keçəcəyi otağı əvvəlcədən

nəzərdən keçirməli və lazımı gəldikdə otağı dəyişməlidir. Ünsiyyət prosesində çox tez-tez istifadə edilən jestlər, mimika və digər qeyri-verbal ünsiyyət vasitələri dilöyrənən şagirdlərə əlavə məlumat ötürmüş olur. Şagirdlər izlədikləri video parçasının mənasını səhv interpretasiya edə bilərlər. Bu isə dərs prosesinin faydalı və səmərəli olmasını şübhə altında qoyur. Belə çətinliklərin yaşanmaması üçün müəllim əvvəlcədən bəzi hərəkət, jest və mimikaların mənasının şagirdlərə anlatmalıdır. Bu vasitələrdən istifadə müzakirələrin təşkil edilməsini də dəstəkləyir. Müzakirə əsaslı təlim prosesində ən mühüm vasitələrdən biri ünsiyyətdə qarşılıqlı təsir prosesinin yaradılması, yəni interaktivliyin təmin olunmasıdır. Dil öyrənmədə ünsiyyətə girən insan sual, xahiş, əmr, izahat və s. vasitələrlə qarşısındakına təsir etmək məqsədini qoyur. Bu zaman o qarşısındakından lazımi informasiyanı, əlaqəni və digər istəkləri əldə edə bilər. Ünsiyyət prosesində nəzərdə tutulan məqsəd hər iki iştirakçının birgə fəaliyyətinə və qarşılıqlı münasibətinə əsaslanır. Belə qarşılıqlı təsir müzakirələrə zəmin yaradır. Bu prosesdə verilən motivasiya və sərbəstlik birbaşa ünsiyyət zamanı özünəinamın artmasına, xarici dildən daha çox istifadəyə və nəticədə təqdim olunan materialı şüurlu öyrənməyə səbəb olur. Bu zaman müzakirələrin təşkili bu işi daha da səmərəli edir. Müzakirə əsaslı təlim təhsilalanları tənqidi təfəkkürün formalaşmasına, şəxsi nəticələrə gəlməsini dəstəkləyən fəaliyyətdir. Müzakirə əsaslı təlim metodu zamanı açıq, əməkdaşlıq fonunda ideyaların bölüşdürülməsi xarakterik hesab olunur. Bu zaman tərəflərin ünsiyyət fəaliyyətləri baş verir. Bu fəaliyyətlər təfəkkürün inkişafına, anlaşmaya, problem həllinə, əsərlərin, kiçik həcmli hekayələrin müzakirəsi zamanı bədii qiymətləndirməyə yönəldilir. Beləliklə, müzakirələr diskursiv bacarıqlarının inkişafını dəstəkləməklə qalmır, həm də sinif saatlarının maraqlı təşkilini dəstəkləyir. Məlumdur ki, xarici dilin öyrənilməsində müəllimin rolu böyük və danılmazdır. Müəllimin vacib rollarından biri də onun informasiya mənbəyi olmasıdır. Müəllim tələbələrin dinləmə və anlama bacarıqlarını inkişaf etdirmək, onları videomateriallarla təmin etmək üçün müxtəlif mənbələrdən, internet resurslarından istifadə edərək xarici dildə olan videolar, qisa metrajlı filmlər izləməyi məsləhət görə bilər. C.Harmer eyni adlı kitabda, auditoriyada videomaterialların istifadə metodikasından da danışmışdır. O, videomateriallardan səmərəli şəkildə istifadə etmək üçün bir neçə üsul göstərmişdir:

- Fast Forward (sürətlə irəli çəkmək) – Bu üsuldan istifdə edərək müəllim filmdən bir parçanı və yaxud bir videoroliki sürətlə irəli çəkir. Videorolik bitdikdən sonra müəllim tələbələrdən bu videonun nə haqqında olduğunu və personajların nə dediyi haqqında məlumat alır. Bizim fikrimizcə, belə üsuldan istifadə tələbələrə videonu izləyərkən diqqətini onun əsas və vacib hissələrinə istiqamətləndirmək və videodan danışılan mövzunun məğzini anlamağa imkan yaradır.
- Silent viewing (for language) – səssiz izləmə- Bu üsüldan istifadə edərək müəllim tələbələrə səssiz şəkildə, lakin normal sürətdə filmi izləməyə şərait yaradır. Film parçası bitdikdən sonra o tələbələrdən personajların nə haqqında danışdıqlarına dair ehtimallar irəli sürməyi istəyir. Hər bir tələbənin cavabını aldıqdan sonra, müəllim film

parçasını yenidən, lakin səsli şəkildə oynadır və beləliklə, tələbələr ehtimallarının doğru olub olmadığını yoxlayırlar. Belə üsuldan istifadə edərək, müəllim tələbələrə ünsiyyət zamanı təkcə deyilən sözlərə deyil, həmçinin jestlər və mimikaya da fikir verməyi öyrədir.

- Freeze frame: (stop-kadr) – burada isə müəllim, videonu hər hansı hissəsində dondurur və tələbələrdən növbəti səhnədə nə baş verəcəyini və yaxud personajın növbəti səhnədə nə deyəcəyini soruşur. Bu üsul da digər üsullar kimi kommunikativ bacarıqların formalaşmasında böyük rol oynayır. Tələbələr artıq situasiyadan və yaxud ünsiyyətdə olduqları şəxsin mimika və jestlərindən onun nə deyə biləcəyini əvvəlcədən təxmin edə bilər və bu biliyə əsaslanaraq ünsiyyəti davam edə bilərlər [2, s.45]. Müəllim hər hansı audio materialı dinlətməzdən əvvəl mütləq materialı dinləmələrinin səbəbini, dinlədikləri parçadan hansı informasiyanı əldə etməli olduqlarını tələbəyə əvvəlcədən bildirməlidir. Belə olan halda tələbə dinlədiyi parçanın hansı hissəsinə daha çox önəm verməli olduğunu bilir və artıq bu hissəyə fikrini cəmləyərək, informasiya əldə etməyə çalışır. Tələbə qarşısında qoyulmuş məqsədlər onun motivasiyasını qaldırmağa qadirdir. Məqsədlər müxtəlif şəkildə qoyula bilər. Onlardan biri əvvəlcədən hazırlanmış suallardır. Müəllim hər hansı parçanı tələbəyə dinlətməzdən əvvəl, onu suallarla tanış edir və dinləyəcəyi parçadan konkret sualların cavabını tapmağı tələbəyə tapşırır. Belə olan halda tələbə məlumat üçün bütün parçanı dinləyir, suallara cavab tapa biləcəyi hissəyə isə daha çox önəm vererək daha diqqətlə dinləməyə və anlamağa çalışır. Unutmaq olmaz ki, təlimin yeni texnoloji proseslə aparılmasında müəllim təşəbbüskarlığı və fərdi nümunəviliyi, problemə yaradıcı yanaşması ən vacib şərtlərdəndir. Müəllim öz təşəbbüs və qənaətlərini aktiv tərəfin-təhsilalanların fikir və fəaliyyətləri ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumiləşdirilmə apardıqda, tədrisi interaktiv (birgəfəaliyyət, əməkdaşlıq, qarşılıqlı kollektiv iş) səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur.

Texnoloji prosesə sistem halında yanaşmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllim novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur [3, s.34].

Pedaqoji təhsilin informatlaşması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. Müəllim hazırlığında İKT-nin, yeni təlim üsulları və texnologiyaların tətbiqi.
2. Pedaqoji ixtisaslar üzrə təhsil alan şagird və tələbələrin biliyinin cari və yekun qiymətləndirilməsi üzrə yeni üsulların, texnologiyaların, İKT vasitələrinin tətbiqi
3. Pedaqoji təhsil müəssisələrində distant təhsil formasının tətbiqi
4. Pedaqoji təhsil müəssisələrinin kompüterləşdirilməsi, elektron təhsilin həyata keçirilməsi.

Biliklərə əsaslanan iqtisadiyyatın təşəkkül tapdığı dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı və onlardan məqsədyönlü şəkildə istifadə olunması hər bir dövlətin elmi potensialının vacib göstəricilərindəndir. Qloballaşan dün-

yada ölkənin rəqabət qabiliyyəti də ilk növbədə İKT-dən səmərəli istifadə yolları ilə müəyyənləşir. Bu səbəbdən İKT-nin beynəlxalq aləmdə tətbiqinin genişləndirilməsi inkişaf etmiş ölkələrdə prioritet sahə hesab edilir.Son dövrlərdə İKT-nin artan sürətlə elm və təhsil sahəsinə, xüsusilə də xarici dillərin tədrisi prosesinə tətbiq olunması mühüm dəyişikliklərin bariz nümunəsidir.Araşdırmalar göstərir ki, İKT bütövlükdə təlim prosesinin, dərsdənkənar vaxtlarda müstəqil işlərin təşkili, bilik və bacarıqların yoxlanılması vasitəsi, daha doğrusu tədrisdə köməkçi vasitə kimi qiymətləndirilmişdir.Nəzərə almaq lazımdır ki, xarici dillərin tədrisi metodikası elmi xarici dillərin tədrisi prosesini maksimal səviyyədə ünsiyyət prosesinə adekvatlaşdırmağı, uyğunlaşdırmağı tələb edir. Digər tərəfdən, insanların qarşılıqlı əlaqə və təsir forması olan verbal ünsiyyəti reallaşdıran əsas vasitə isə şifahi nitq fəaliyyətidir. Deməli, İKT-nin imkanlarından yalnız reseptiv nitq fəaliyyəti növləri üzrə bacarıqların deyil, eyni zamanda şifahi nitq bacarıqlarının inkişaf etdirilməsində də istifadə olunmalıdır.Orta və ali məktəblərdə xarici dilin tədrisinin ən başlıca məqsədi şagird və tələbələrdə ünsiyyət vərdişlərinin formalaşdırılmasıdır. Ünsiyyət vasitələri dedikdə, biz təkcə danışıq bacarıqlarını deyil, həmçinin dinləmə bacarıqlarını da nəzərdə tuturuq. Təəssüflər olsun ki, bəzən tələbələr öz fikirlərini ifadə etmək bacarığına malik olsalar da, dinləyib-anlama bacarıqlarının olmaması səbəbindən ünsiyyət qurmaqda çətinlik çəkirlər. Zəif akustikası olan böyük auditoriyalarda qeyd olunan materialın səsləndirilməsi tez-tez narahatlığa səbəb olur və nəticədə auditoriyada bütün tələbələrin eyni dərəcədə yaxşı eşitməsini təmin etmək bəzən çətinləşir[3, s. 21]. Audio materialların istifadəsinə dair qeyd edilmiş başqa bir problem ondadır ki, auditoriyadakı hər kəs səs yazısını əvvəlcədən müəyyənləşdirlimiş və hər kəs üçün eyni olan sürətlə dinləməlidir. Dinləmə materiallarının daha bir mənfi xüsusiyyəti ondan ibarətdir ki, tələbələr dinlədikləri şəxsin danışıq prosesində meydan çıxan üz cizgiləri, mimikalarını görmür və beləliklə, dinlədikləri materialı tam şəkildə anlamaqda çətinlik çəkirlər. Təbii danışıq prosesində dinlənilən mətnlə audio materiallar vasitəsilə dinlənilən mətn arasında çox böyük fərq vardır. Dinləmə materiallarını müəllimlər dərs prosesində istifadə edirlər və bu istifadənin maksimal şəkildə faydalı olması üçün ortaya çıxan çətinlikləri və problemləri həll etməyə çalışırlar.

Beləliklə, audio və video materiallardan dərs prosesində istifadə vacib şərtlərdən hesab edilir.

ƏDƏBİYYAT

1. Alptekin C. Target Language Culture in ELT Materials // ELT Journal, 1993,47, 2, p. 136-143
2. Harmer J. English Language Teaching, 2005, pp. 45-46
3. Jack C. Richards. Communicative Language Teaching Today. Cambridge University Press, 2006, 471 p.

ARZU AMIRASLANOVA

THE METHODOLOGY OF USING AUDIO AND VIDEO MATERIALS IN DEVELOPING ORAL SPEECH IN ELT

SUMMARY

The article deals with the role of audio and video materials in developing communicative competence in language faculties and working out effective ways of listening skills.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. Language learners are often too embarrassed or shy to say anything when they do not understand another speaker or when they realize that a conversation partner has not understood them. Instructors can help students overcome this reticence by assuring them that misunderstanding and the need for clarification can occur in any type of interaction, whatever the participants' language skill levels. Instructors can also give students strategies and phrases to use for clarification and comprehension check. By encouraging students to use clarification phrases in class when misunderstanding occurs and by responding positively when they do, instructors can create an authentic practice environment within the classroom itself. As they develop control of various clarification strategies, students will gain confidence in their ability to manage the various communication situations that they may encounter outside the classroom.The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role in methodology. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. At that time we use the language more competently. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

Key words: innovation, language, method, technology, speech

А. АМИРАСЛАНОВА

МЕТОДИКА ИСПОЛЬЗОВАНИЯ АУДИО И ВИДЕО МАТЕРИАЛОВ В ФОРМИРОВАНИИ УСТНОЙ РЕЧИ НА ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке. Сегодня существует настоятельная потребность в изучении иностранных языков.

В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов.

Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: инновация, язык, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYNURƏ İSKƏNDƏROVA
Bakı Dövlət Universitetinin dissertantı
Akademik Zahid Xəlilov küçəsi, 23
ainuraa_9595@mail.ru

İNTERAKTİV TƏLİM METODLARINDA E-DƏRSLİKLƏRİN İMKANLARI VƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNTERAKTİV ELEKTRON DƏRSLİKLƏRİN ROLU

XÜLASƏ

IV Sənaye İnqilabının başlanğıcında texnologiyanın gündəlik həyatımıza yüksək sürətlə daxil etdiyi yeniliklər tədris prosesinə də öz töhfələrini verir. Həmçinin təhsil, tədris, məlumat əldə etmək və öyrənmə üsullarımıza təsir göstərir. Ümumiyyətlə, müasir cəmiyyətin informasiyalaşdırılması prosesləri və təhsil fəaliyyətinin bütün formalarının yaxından əlaqəli informasiyalaşdırılması müasir informasiya-kommunikasiya texnologiyalarının təkmilləşdirilməsi və kütləvi yayılması prosesləri ilə xarakterizə olunur.

Xarici dillərin tədrisində texnologiyadan istifadədə kompüter müəyyənedici amildir. Rəqəmsal mühitdə təhsil alətləri ilə dəstəklənən tədris real həyata və fərdi öyrənməyə çox yaxın mühitlərdə hədəf dilin tədrisinə əhəmiyyətli töhfə verə bilər.

İKT-nin mühüm üstünlüklərindən biri olan kompüterin təhsilə inteqrasiyası ilə başlayan proses daha çox planşet və smart lövhələr vasitəsilə yeni təhsil modellərinin yaradılması çərçivəsində davam edir. Tədris sahəsində texnologiyadan maksimum fayda əldə etmək məqsədi ilə yaradılan bu yeni modellər həm şagirdləri, həm də müəllimləri qarşılıqlı əlaqə qurmağa imkan verən rəqəmsal lövhələr təqdim edir.

Müasir texnologiyanın insanlara təqdim etdiyi rahatlıqlardan biri olan mobil cihazlar və bu cihazlara uyğun olaraq istehsal olunan rəqəmsal məzmun ənənəvi nəşrlərin rəqəmsallaşmasını təmin edir. Xüsusilə 2000-ci illərdə nəşriyyatlar və oxucular tərəfindən tələbat olan elektron kitablar yeni imkanlar daxilində bir çox xüsusiyyətlər əlavə edərək interaktivləşmiş və bu, həmin kitabların təhsil prosesində effektiv tədris materialı olmasına imkan vermişdir.

Məqalədə ingilis dilinin tədrisi prosesində interaktiv təlim metodlarından səmərəli istifadə olunması üçün elektron dərsliklərin rolu və interaktiv e-dərslik anlayışlarının şərhi və bir-biri ilə vəhdəti tədqiq edilmişdir. Həmçinin elektron cihazlara yaxından bələd olan, öz ehtiyaclarının mühüm hissəsini bu cihazların köməyi ilə ödəyən şagirdlər və tələbələr üçün nəzərdə tutulmuş interaktiv e-tədris vasitələri və e-dərsliklər araşdırılmışdır. Bu kontekstdə elektron tədris vasitəsi kimi interaktiv kitablar qeyd edilir və bu tədris mühitinin üstünlükləri və tədris prosesi üçün kitablar və tətbiq nümunələri verilir.

Açar sözlər: *xarici dil, interaktiv tədris metodları, interaktivlik, interaktiv təlim, interaktiv təlim texnologiyaları, kommunikasiyalar, elektron dərslik, interaktiv elektron dərslik, e-lövhə*

İnteraktivlik obyektlər və ya subyektlər arasında qarşılıqlı əlaqənin xarakterini və dərəcəsini aşkar edən anlayışdır. İnteraktivliyin elementləri qarşılıqlı təsir edən sistemin bütün elementləridir, onun köməyi ilə başqa bir sistem/şəxs ilə qarşılıqlı əlaqə baş verir.

Dərslik və digər tədris nəşrləri şəxsiyyətin informasiya mədəniyyətinin, etik normalar sisteminin və estetik prinsiplərinin formalaşmasında iştirak edir. Alimlərin fikrincə, dərslik və digər tədris nəşrləri bu funksiyaları yerinə yetirir: 1) kommunikativ; 2) məlumatlandırıcı; 3) koqnitiv; 4) inkişaf etdirici; 5) maarifləndirici; 6) təşkilati; 7) sistemləşdirici [1, s. 25].

Tədris nəşrlərinin funksiyaları onlara daxil olan əsas və əlavə mətnlər, nəşr aparatı, habelə tədris materialının seçilməsi, işlənməsi və təqdimatı ilə təmin edilir. Onlar hazırlanarkən sistemə daxil olan hər bir nəşr üçün modelin hazırlanmasının əsasını təşkil edən mürəkkəb xüsusiyyətləri nəzərə almaq lazımdır. Nəşrin nəzərdə tutulan məqsədi ilə diktə olunan funksiyalarla yanaşı, informasiyanın xüsusiyyətlərini və daxil edilən biliklərin həcmini müəyyən edən tədris ədəbiyyatının mühüm xarakteristikası da oxucunun ünvanıdır.

Bildiyimiz kimi, elektron dərsliyin strukturuna xüsusi tələblər qoyulur ki, bu da ona xarici dilin, o cümlədən kağız nəşrlər üçün əlçatmaz olanların effektiv tədrisi üçün ən geniş imkanları təmin etməyə imkan verir.

Şagirdlərtərəfindən materialın səmərəli mənimsənilməsi üçün metodistlərin tövsiyələrinə əsasən elektron dərslik mütləq üç blokdan ibarət olmalıdır:məlumatlandırma, təlim və yoxlama.İnformasiya blokunda, bir qayda olaraq, mövzular lüğətlə izah olunur və onun nitqdə fəaliyyəti göstərilir. Xarici dildə elektron dərsliklərin təcrübəli tərtibçiləri iddia edirlər ki, içindəki tədris materialı yığcam formada təqdim edilməli və hissələrə bölünməlidir, çünki əks halda materialın şagirdlər tərəfindən qavranılmasının effektivliyi kəskin şəkildə azalır.

İnformasiya blokunun hər bir bölməsi dinləyicinin təlim materialını nə dərəcədə dərindən mənimsədiyini öyrənməyə imkan verən nəzarət sualları ilə bitməlidir. İnformasiya blokuna əsasən daxildir:

- mövzunun açar sözləri haqqında ətraflı məlumatı özündə əks etdirən elektron lüğət;
- məhsuldar mənimsəmə üçün ifadələrin təqdimatı;
- sözlərin istifadəsini təsvir edən demonstrativ mətn [1, s. 25-26].

Pedaqogika və psixologiyada “interaktivlik” insanın ünsiyyət qurmaq istəyi, əməkdaşlıq etmək, birgə fəaliyyətdə özünə yer tapmaq bacarığı, qrup üzvləri ilə əlverişli münasibətlər qurmaq meyli kimi ifadə olunan mənəvi etik keyfiyyəti kimi şərh edilir.

İnteraktiv təlim bütün şagirdlərin bir-biri ilə aktiv şəkildə qarşılıqlı əlaqədə olduğu mühitin yaradılmasına yönəlmiş bir modeldir.Prosesin bütün iştirakçılarının qarşılıqlı əlaqəsi dialoq, müzakirə, birgə təhlil, biliklərin mənimsənilməsi rejimində – rol oynama, ötürmə, simulyasiya edilmiş həyat vəziyyətinin aradan qaldırılması prosesində baş verir.

İnteraktiv təlimin əsas məqsədləri bunlardır:

- ✓ şagirdin fərdi qabiliyyətlərini oyatmaq;
- ✓ şagirdlər arasında daxili müzakirəni intensivləşdirmək;
- ✓ alınan məlumatı qəbul etməyə və anlamağa kömək etmək;
- ✓ şagirdi aktiv mövqeyə gətirmək;
- ✓ qarşılıqlı əlaqə (informasiya mübadiləsi) prosesini şəxsiyyətə yaxınlaşdırmaq;
- ✓ şagirdlər arasında ikitərəfli ünsiyyət qurmaq [2, s. 63].

İnteraktiv təlim modeli, öyrənmə idrak prosesində bütün iştirakçılarının qarşılıqlı əlaqəsinə əsaslanan, bir-birini tamamlayan, şagirdin kollektivdə iştirak etməməsinin qeyri-mümkün olduğu təlim prosesinin təşkilidir. Bu model bütün şagirdlərin bir-biri ilə fəal şəkildə qarşılıqlı əlaqədə olduğu rahat öyrənmə mühitini təşkil etmək məqsədi daşıyır; mühakimələrini başa düşmək və əks etdirmək qabiliyyətinə malikdirlər.

İnteraktiv texnologiyalar interaktiv dərsin strukturuna daxil edilir, yəni dərsi qeyri-adi, zəngin və maraqlı etməyə imkan verən xüsusi texnika və metodlar daxildir.

İnteraktiv texnologiya rejimində uğurlu öyrənmə üçün əsas tələblər:

1) müsbət qarşılıqlı asılılıq – qrup üzvləri başa düşməlidirlər ki, ortaq öyrənmə fəaliyyətləri hamıya fayda gətirir;

2) birbaşa qarşılıqlı əlaqə – qrupun üzvləri bir-biri ilə sıx əlaqədə olmalıdırlar;

3) fərdi məsuliyyət – hər bir şagird təklif olunan materialı mənimsəməli, hər kəs başqalarına kömək etmək üçün məsuliyyət daşıyır, lakin başqasının işini görməməlidir;

4) komanda işi bacarıqlarının inkişafı –şagirdlər uğurlu iş üçün zəruri olan şəxsiyyətlərarası münasibətlər bacarıqlarını mənimsəməlidirlər, məsələn, aydınlaşdırma, bölüşdürmə, planlaşdırma tapşırıqları;

5) işin qiymətləndirilməsi – qrup iclasları zamanı qrupun işinin uğurunu qiymətləndirmək üçün xüsusi vaxt ayırmaq lazımdır.

İnteraktiv öyrənmədə təhsil prosesinin yekun məqsədi və əsas məzmunu saxlanılır. Formalar yayımdan dialoqa dəyişdirilir, yəni. o cümlədən qarşılıqlı anlaşma və qarşılıqlı fəaliyyətə əsaslanan məlumat mübadiləsi. İnteraktiv həm bir natiqin, həm də bir fikrin digərləri üzərində üstünlüyünü istisna edir. Belə təlim zamanı subyektlər tənqidi düşünmə bacarıqlarına yiyələnir, informasiyanın təhlili əsasında mürəkkəb problemləri həll etmək, alternativ fikirləri ölçmək, düşünülmüş qərarlar qəbul etmək, müzakirələrdə iştirak etmək, digər insanlarla ünsiyyət qurmaq

bacarıqlarını inkişaf etdirirlər. İnteraktiv metodlar nəzəriyyə və praktikanın bir-biri ilə əlaqəli olduğu təhsil mühiti yaratmağa imkan verir [2, s. 64].

Böylece, özellikle "Batı-Doğu Divanı"ndaki ilk ve son bölümlerde açıkça göze çarpan zamansal kaçış, iki şeye işaret ediyor. Bu bir yandan romantizmden, hayal dünyasından uyanmaya, ayrılmaya (Genç Werther'in Istırapları romanının temel ideolojisini hatırlayalım) günlük hayatın acı ve sert gerçeklerine geçişi işaret eder. Öte yandan, yeryüzünde var olan her şeyin idrakinin göstergesidir. Artık, birçok bilim insanı tarafından ayrıntılı olarak kanıtlandığı gibi Goethe, Sonsöz'de kullandığı "cennet" kelimesiyle, insan rüyalarına yabancı, tamamen başka bir dünyaya ait farklı bir evreni kastetmiyordu. Ölümlü dünyada dinlenmeyi kastetmiyordu. Daha ziyade, yazar, uzun bir bilgi, öğrenme ve idrak sürecinden geçen bir kişinin ölümünden sonra nasıl ölümsüzleştiğini, nasıl bilgiyle zafer kazandığından, şöhrete ulaştığından bahsediyor. Gerçi, Goethe'nin şöhrete karşı tutumu da farklılık gösteriyor. "Divan"ında söhret kelimesi bencillikle eş anlamda kullanılmıyor. Şöhret kazanma arzusu, Alman şairde yaratıcı dürtü ile yakından bağlantılıdır. Gençliğin romantik dürtülerinden sıyrılarak "Faust" trajedisini tüm hayatı boyunca yazmaya ve sonunda tüm bilgilerini ve sanatsal anlamda birikimini "Batı-Doğu Divanı"nda toplamaya sevketti. Bu anlamda Goethe, nesillerin minnettar, müteşekkir kalacaklarını umuyor. Evet, kendisi hakkında, "Yedi Uyuyanlar"ın Sonsöz'ünde alegorik biçimde yaptığı gibi şiirsel başarısını gerçekleştirdikten sonra, "emekliye ayrıldığını" veya "dinlenmeye çekildiğini" söyleyebilirdi.

Ancak zamanın felsefi anlamda kaçışı veya akışı durduğunda, doğal olarak ortaya şu soru çıkar: Huzur nedir? - tam mutluluk, mest olma hali hafızanın silinmesi unutma hali mi? Shakespeare'in sonelerinden birinde hayattan bıkmış, yorulmuş bir şairin "Çalışmaktan yoruldum, uyumak istiyorum"-diye haykırdığı gibi mi? Tabii ki değil. Goethe'ye göre, Sonsözün'un temel fikirlerinden birine göre barış, yeni beklentilerle, heyecanlarla doludur. Ancak bu yeni değişiklikler elbette hem olumlu, hem de olumsuz anlamlarda olabilir. Ve yıllar sonra yeni neslin yerini ne alacak? Sonra yazar soruyu çok açık bir şekilde ortaya koyuyor: İnsanlar onun mirasından nasıl faydalanacaklar? Mağaraya girişlerini engelleyen duvarı yeryüzünde yıkmaya yardımcı olacak enerjiyi, gücü nereden alacaklar?

Bunun Goethe tarafından tartışılmış olması önemlidir. Ekkreman'a tüm insanlık için önem arzeden 3 Mayıs 1827 tarihli önemli bir mektup gönderilmiştir. İçinde, özellikle, bizi ilgilendiren konuyla ilgili, şöyle diyor: "Güftelerimden hangisi hayatta kalacak? Belki hoş bir kız piyano çalacak ve bunlardan birini söyleyecek,

ama insanlar, gerçek insanlar susacak. İtalyan balıkçıların bana Tasso'dan parçalar söylediği zamanların hatırası bende ne acı duygular uyandırıyor! Biz Almanlar dünün insanlarıyız. Bizim, geçen yüzyılda önemli ölçüde geliştiğimiz doğrudur; Aynı zamanda, Yunanlılar gibi güzellere saygı duymak, mükemmel bir şarkıdan ilham almak ve onlar hakkında şöyle söyleyebiliriz: onların barbar olduğu zamanlar eskide kaldı» [3,210].

Benzer şekilde, J. W. Goethe`nin, "Divanda - Ekkreman'a yazdığı mektuptan da anlaşılacağı gibi, bugünden geleceğe, hayranlık duyduğu uzak geçmişten gelen felsefi zaman akışını anlamıştır. "Divan"ın notlarında özellikle şunları belirtmiştir: "Her şeyin bir zamanı var. Bu sözün anlamı zaman geçtikce daha da güzelleşiyor." [2,477]. Goethe, güzelliğin ve aklın insanları yöneteceği gelecekte, "ebedi harekete" gerçekten inanıyor. Böylece dizeler doğdu *Penetrate, zarif şarkılar // İnsanların kalbinde.* Ve Sonsöz'de, şair uykudan uyanacağı, köleliğin zincirlerini kıracağı, şiirine özgür düşünce ruhunu üfleyeceği zamandan bahsediyor.

Tüm bunların bağlamında şunu söyleyebiliriz.: "Batı-Doğu Divanı"nın "Önsöz"ü ve "Sonsözü", zamanları birbirine bağlayan, zamanın felsefi akışını somutlaştıran bir bağdır. O, bir taraftan şairin gençliği ile yaşlılığı arasındakı süreçteki sanat yolunu belirtirken, diğer taraftan da sanat yolunun en önemli taraflarını, yalnışların farkedilerek düzeltilmesini gözler önüne sermiştir.

Obirsi terefden sehfleri etmek zamanini, onlarin tam anlamagina ve duzeldilmesini gosterir.Yukarıda L.M. Kesseli`in bahsettiği gibi, Önsöz ve Sonsözdeki hicretme ve İyi Geceler - iki kutup görevi taşır, Goethe'nin "Divan" ın 235 incisini bir bağ gibi bir yere toplar [5,18].

Dolayısıyla, J.W. Goethe'nin "Batı-Doğu Divanı" eserinin tarihi ve edebi önemi, her şeyden önce, yazarın, Almanya'daki sosyo-ideolojik atmosferle birlikte, çağdaş siyasi koşulların yaşayan bir topluluğun geçmişin doğu hümanistlerinin hayatlarını sergilemeye çalışmasında yatmaktadır. Aynı zamanda, onların şiirsel yazgıları ile Goethe'nin kaderi arasında da bir ortaklık vardır. Çağdaş doğubilimcileri için "Divan", şiirdeki "hafız Tipi" ile ilgili daha net bir fikir edinmeye, onun tarihsel koşulluluğunu anlamaya yardımcı olması açısından kalıcı bir öneme sahiptir. Gerçekten de, Önsöz ve Sonsöz'de, Avrupa gerçekliğinin anlatımı verilen yanıtların yalnızca başlangıcı ve sonu değil. Goethe için yeni olan, Doğu'ya, onun tarihine, yaşam biçimine, geleneklerine ve genel olarak kültürüne olan ilgiydi. Ayrıca bu, Alman şairi XVII yüzyılda garip bir şekilde Oryantalizme yönelen romantizme yaklaştırmıştır.

Kaynakça:

1. Брагинский И.С. Западно-восточный синтез в «Диване» Гёте и классическая поэзия на фарси. М.: Просвещение, 1963, 197 с.

2. Гёте И. Западно-восточный диван. Собрание сочинений в десяти томах. Т. 5. Драмы в стихах. Эпические поэмы. М.: Художественная литература, 1976, 622 с.
3. Гёте И. Письма и комментарии. Собрание сочинений в десяти томах. Т. 10. М.: Художественная литература, 1977, 411 с.
4. Гёте И. Фауст. Трагедия. Пермь: Пермское книжное издательство, 1981, 462 с.
5. Кессель Л.М. Гёте и «Западно-восточный диван». М.: Наука, 1973, 119 с.
6. Кессель Л.М. Западно-восточный синтез в гетевском «Диване» // Народы Азии и Африки, 1961, № 2, с. 123-136.
7. Кессель Л.М. Философско-эстетические идеи Гёте и искусство («Западно-восточный диван»). В кн.: Эстетика и искусств. М.: Художественная литература, 1966, с. 84-92.
8. Коган Н.Н. Восточные мотивы в «Западно-восточном диване»: Автореф. … канд. филол. наук. М., 1970, 24 с. (Центральная республиканская библиотека им. М.Ф. Ахундова. Диссертационный фонд).

НОВАЛЬ АЛЬ-АББАСИ

«ЗАПАДНО-ВОСТОЧНЫЙ ДИВАН» КАК СИНТЕЗ ДВУХ ПОЭТИЧЕСКИХ МИРОВ

РЕЗЮМЕ

«Западно-восточный диван» И.В. Гёте является одним из важнейших литературных источников, исследующих синтез литературного мира Восток-Запад в мировой литературе. В статье указывается на смесь модного в XVIII веке так называемого «романтического филологического ориентализма». В основе этого направления в Германии лежали философские мотивы, как обязательный компонент любого художественного произведения. Суммируя многочисленные факты, взгляды, суждения видных европейских, русских и азербайджанских критиков-литературоведов по данному вопросу, в статье показано и то, что восточные мотивы в «Диване» – это не орнаментовка, не оболочка, а на самом деле его внутреннее содержание, глубоко философское. Проведены параллели между Прологами и Эпилогами во всемирно известных произведениях «Фауст» и «Западно-восточный диван» И.В. Гёте. Показано то, что «Пролог» и «Эпилог» «Западно-восточного дивана» – это нить, связующая времена, олицетворяющая философский бег времени. Она указала на основные вехи творческого пути самого поэта – от молодости до старости. В статье автор подробно рассматривает это произведение и говорит об исламской и христианской культуре и значении литературного мира.

Ключевые слова : Запад-Восток; диван; литературные связи; поэтика; параллели.

NOVAL AL-ABBASI

"WEST-EASTERN SOFA" AS A SYNTHESIS OF TWO POETIC WORLDS

SUMMARY

"West-Eastern sofa" I.V. Goethe is one of the most important literary sources exploring the synthesis of the literary world East-West in world literature. The article points to a mixture of the so-called "romantic philological orientalism" fashionable in the 18th century. At the heart of this direction in Germany lay philosophical motives, as an obligatory component of any work of art. Summing up numerous facts, views, judgments of prominent European, Russian and Azerbaijani literary critics on this issue, the article also shows that the oriental motifs in the "Divan" are not ornamentation, not a shell, but in fact its inner content, deeply philosophical. Parallels are drawn between the Prologues and Epilogues in the world-famous works "Faust" and "West-Eastern Divan" by I.V. Goethe. It is shown that the "Prologue" and "Epilogue" of the "West-Eastern Divan" are a thread that connects times, personifying the philosophical run of time. She pointed to the main milestones of the poet's creative path - from youth to old age. In the article, the author examines this work in detail and talks about Islamic and Christian culture and the significance of the literary world.

Keywords : West-East; sofa; literary connections; poetics; parallels

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Prof.Nağıyev Cəlil Qərib oğlu
tərəfindən çapa tövsiyə olunmuşdur

Z.N. NURİYEVA
BDU-nun dosenti
zoya.nuriyeva@mail.ru

XIX ƏSRİN İKİNCİ YARISINDA CƏNUB SLAVYAN XALQLARININ MƏDƏNİYYƏTİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə bəhs olunan dövrdə Cənub Slavyan xalqalrının mədəniyyət tarixində xüsusi yer tutmasından bəhs olunur. Osmanlı dövləti və Avstriya – Macarstan imperiyasına daxil olan cənub slavyanların –Bolqarstan, Serbiya, Xorvatiya, Çernoqoriya Bosniya-Hertsoqovina,Sloveniya mədəniyyətinin inkişaf səviyyəsi , fərqli xüsusiyyətləri zəngin məlumatlarla əhatə olunmuşdur. Onların mədəniyyətinin formalaşmasına təsir edən amillərin müəyyən edilməsi həmin dövrün mənzərəsi barədə ümumi məlumat almağa kömək edir. Bu xaqların mədəniyyətinin demək olar bütün sahələrində dəyərli sənət yaradıcıları yetişmişdir. Xalqın milli və ədəbi dilinin təşəkkülü xüsusi yaradıcılıq qabiliyyətini üzə çıxarır,böyük ziyalı ordusu yetişir və fəaliyyət göstərirdi.Balkanlarda əsasən qədim əkinçilik və heyvandarlıq ənənələri olan cənub slavyanların mədəniyyətinin bir çox sahələrində dönüş nöqtəsi olmaqla yanaşı bəzi sahələrdə tənəzzülə uğramışdı. Serblər ,xorvatlar ,bosniyalılar ,slovenlər eyni mənşəyə mənsub idilər.Lakin əsas fərq serblərin , bosniyalıların şərq və kiril əlifbası ilə xorvat slovenlərin qərb və ya latın əlifbası ilə yazmalarıdır.Dirçəliş dövründə bu xalqların ümumi yüksəlişi eyni zamanda bir xalq kimi formalaşmaq təsuratını yaradırdı(12,731).Tarix dünyada əməkdaşlıq ,mədəni və qarşılıqlı zənginləşmə yollarını axtararkən xalq müdrüklüyü dərsləri verir Milli inteqrasiya ,siyasi müstəqillik və sosial iqtisadi sistemin modernləşdirilməsi vəzifələri arasında mədəni dəyişikliklər də əsas şərtdir.(7.154)

Cənub Slavyan xalqlarından olan bolqarlar müəyyən mədəni və sosial mühütdə formalaşmışdı. Ölkənin inkişafı ,dövlətçiliyin bərpası üçün təkan verən mədəni dirçəliş dövrü cəmiyyətdə həqiqi hərəkətverici qüvvənin meydana çıxması ilə səciyyələnir.Bu hərəkətverici qüvvənin əsasını cəmiyyətin intelektual elitası – ziyalılar , mənəviyyat ,vətənpərvərlik, xalqın azadlıq mübarizəsini inkişaf etdirməyə yönəlmiş mədəni və təhsil fəaliyyətləri təşkil edirdi. Bolqar mədəniyyətinin formalaşmasında təhsil və maarifin inkişafı mədəniyyət sahələrinin genişlənməsi üçün şərait yaradırdı (3.413). Milli mədəniyyətin formalaşmasında təhsilə olan tələbat yeni bolqar təhsil sisteminin yaradılmasını tələb edirdi .Çünkü müasir tipli məktəblərin açılmasında yunan və bolqar burjuaziyası arasında mütəmadi olaraq mübahisələr yaranırdı . Eyni zamanda təhsil sahəsi Qərb dövlətləri ilə Rusiya arasında bolqarların dünyagörüşünə təsir uğrunda kəskin mübarizə meydanına çevrilmişdi. Milli təhsil sisteminin inkişafını təmin edən bolqar yazısını və dilini

yenidən zənginləşdirən milli ədəbiyyat,sənət,elm yaratmış ,xalqı milli ruhda tərbiyələndirən milli ziyalıların yetişməsi mədəni və siyasi əlaqələrin ən vacib nəticəsidir.

Bolqarşünaslıq -xalqın mədəni inkişafında ,fəal azadlıq mübarizəsinə geniş yer verilməsində ideoloji rol oynayan bolqar ədəbiyyatının ,tarixşünaslığının etnoqrafiyasının ,folklorşünaslığının ,dilçiliyinin və digər elmlərin meydana çıxmasına kömək etdi. Bolqar ədibləri öz əsərləri ilə yalnız bolqar xalqının mədəni ənənələrini bərpa etməklə deyil,həm də xaqlın şüurunu ,milli ideyasını formalaşdıran mədəniyyətini mənəvi və dəyər komponentini-azadlıq və müstəqillik ideyasına çevirdi. (5,192).Milli süurun ,mədəniyyətin formalaşmasında bolqar dirçəlişinin ideoloqu Paisi Xilendarskonun , "Slavyan bolqar tarixi" çox əsrlik mədəni tarixdə ən görkəmli ideoloqların azadlıqsevən fikirlərinə mənəvi təsirin canlı sübutudur.

Bolqar dirçəliş dövrü üç dəyər irəli sürür Xristian dini-Slavyan yazısı – Bolqar dövləti .Bu mənəvi dəyərlər XIX əsrdə bolqarların yaşadıqları ərazilərdə ən əhəmiyyətli hadisələri də müəyyənləşdirir .Osmanlı dövlətinin Bolqarıstan ərazisindəki şəhər mədəniyyəti ölkənin müxtəlif bölgələrindən gələn əhalinin cəmləşdiyi və sonradan inkişaf edən şəhərlərin fəal inkişafının göstəricisidir. Şəhər əhalisi içərisində sənətkarlar və ziyalılar daha çox üstünlük təşkil edirdilər (10,59).Şəhər musiqi mədəniyyəti də 50-ci illərdən sonra fəal şəkildə inkişaf etməyə başladı.Şəhər mədəniyyəti çərçivəsində yerli musiqi düşüncəsinin mənimsənilməsi istiqamətində izlənilə bilən şəxsi yaradıcılıq motivləri meydana çıxdı.Mahnıların əksəriyyəti inqilabi , sevgi və məktəb mövzularına bölünürdü.Bolqar mədəniyyətinin inkişafı ümummilli xarakter daşıyırdı.Xalq siyasi ,dini zülümdən azad olmaq ,zəngin mədəniyyətini qorumaq uğrunda milli xarakterli mübarizənin fəal iştirakçısı olmuşdur. Mühacirətdə olan bolqarların da fəaliyyəti milli-mədəni hərakatla bağlı idi.Demək olar ki,ölkədə bütöv bir çevriliş baş vermiş,yaranmış ictimai ,mədəni-maarif təşkilatları ölkəni yadelli işğallardan xilas etmək,milli dövlətin yaranmasına nail olmaqla milli mədəniyyətin inkişafında əsas vəzifələrini yerinə yetirirdilər.XIX əsrin ikinci yarısında bolqar mədəniyyətinin tərəqqisi əsasında ana dilinin təsiri güclənmiş ,mədəni əlaqələr ,mədəni inteqrasiya prosesində müsbət imkanlar əldə edilmişdir.Bolqarıstan milli dövlətinin yaranması ilə təhsil sistemi formalaşır. 1879-cu ildən universal ibtidai təhsil tətbiq olunur,klassik gimnaziyalar yaradılır,məktəblərdə vətəndaş və humanitar təhsillə bağlı qanuna müvafiq olaraq dəyişiklik edilir,təhsil prosesinə mərkəzdirilmiş nəzarət artırılırdı.Vətənpərvərlik təhsilinin vacibliyini dərk edən hökümət 1895-ci ildə Bolqar Vətəni adlı xüsusi seriya kitab nəşr etdirdi.Bolqar dilində vahid yazı sistemi quruldu və milli şüuru inkişaf etdirmək vəzifəsi irəli sürüldü.(8,105)

XIX əsrdə demək olar ki, Yuqoslaviya xalqları həm inzibati , həm dil , həm də mədəni mənada bölündülər. Serblər və xorvatlar iki imperiyada yaşadılar

və bir neçə ləhçədə danışırdılar Slovenlər Avstriya imperiyasının müxtəlif bölgələrində yaşayır və ləhçələri ilə fərqlənirdilər.Dil milli inteqrasiya prosesində özək olmaqla yanaşı eyni zamanda milli ideyaların təbliğində ən vacib vasitədir. Bu səbəbdən milli dirçəlişin bütün liderləri millli dilləri birləşdirmək vəzifəsini prioritet hesab edirdilər.Belə ki, universal Slavyan dilinin ideyası geniş yayılmışdı. Bu tendensiya ilə yanaşı sırf milli Yuqoslaviya dillərinin - serb, xorvat,sloven dillərinin inkişaf etdirilməsinə tələbat artırdı. XIX əsrin ikinci yarısında Serbiya mədəniyyətinin inkişafında irəliyə doğru atılan addımlar ibtidai təhsilin genişləndirilməsi ,əhali arasında savadsızlığın azalmasına şərait yaradırdı.Həmin dövrdə Balkanlarda aparılan yeniliklərin aşağı səviyyədə olmasına baxmayaraq xalqın keçmiş ənənələri qorunub saxlanılırdı. 1839-1856–cı illərdə Osmanlı imperiyasında dinlə bağlı xalqın bərabərliyini və müstəqilliyini təmin etmək məqsədilə bir sıra islahatlar həyata keçirildi (4,61).İqtisadi və sosial baxımından müsəlmanlar əhalinin nisbətən imtiyazlı təbəqələri idi.Hətta tədricən zənginləşməyə başlayan serb tacirləri sosial və mədəni dəyişikliklərin daşıyıcısı idilər. Lakin Osmanlı dövləti zəiflədikcə serblərin mədəni fəaliyyətinə qarşı da dözümsüzlük və düşmənçilik gücləndi.

XIX əsrin ikinci yarısında Serbiyada mədəni proseslərin inkişafının spesifliyi müstəqil dövləti qorumaq Balkanlarda ,Avropada iqtisadi və siyasi mövqeyini möhkəmləndirmək vəzifələri ilə müəyyənləşdirildi.Xalq təhsil sisteminin ,ali təhsil , elmi müəssələrin inkişafı və onların həlli ölkədəki bütün siyasi partiyaların proqramları ilə təmin olunurdu.Serbiya krallığı qısa bir müddətdə savadsızlığın aradan qaldırılmasında , nəşriyyatın genişləndirilməsində uğurlar əldə etməklə yanaşı əsasən humanitar , universal və çox yönümlü elmlərə üstünlük verilirdi.Milli azadlıq hərəkatı Serbiya ədəbiyyatında romantizmin inkişafına yol açdı.Bu mübarizənin hərəkətverici qüvvələri bəzi serb romantizimlərinin yaradıcılığında əsas rol oynadı .Romantizmdə ədəbiyyatın inkişafının sürətləndirilməsinə görə fərdi cərəyanlar bir arada mövcud olmaqla bərabər həm də folklora olan maraq şeirin inkişafına təsir edirdi.(2,238).Serb ədəbiyyatı dərindən milli, mədəni tərbiyyə ,əxlaqi-tərbiyyə və milli -siyasi vəzifələri yerinə yetirməklə ,milli özünüdərkin böyüməsinə kömək edərək vətənpərvərlik hisslərini inkişaf etdirdi.Demək olar ki, həmin dövrdə ədəbiyyat kütlə arasında milli təbliğata imkan verən ən geniş yayılmış sənət növüdür.1864-cü ildə Belqradda Serb Elmi Cəmiyyəti , 1866-cı ildə Serbiya Elmlər Akademiyasının yaradılması elmin inkişafında ,formalaşmasında mühüm rol oynadı . Həm humanitar, həm də digər elmlər sahəsində elmi tədqiqatlar aparılır,ədəbiyyatda milli mədəniyyətin qorunması uğrunda mübarizə romantiklərin yaradıcılığında əsas yer tuturdu Habsburq monarxiyası Serbiya knyazlığı ərazisində yaşayan serblərin vətənpərvərlik hisslərini inkişaf etdirmək birliyini göstərməkdə mühüm rol oynayırdı.

XIX əsrin ikinci yarısında Çernoqoviya mədəniyyəti demək olar ki, Serbiya mədəniyyətinin təsiri altında idi.Əhalinin böyük hissəsinin savadsızlığı ,təhsil səviyyəsinin aşağı olması ilə bağlı idi.Ali təhsil ,təhsil müəssisələrinin olmaması səbəbindən elm-tədqiqat işləri də aparılmırdı.Lakin bu dövrdə vizual sənətlərində milli tendensiya formalaşmağa başlayır və milli mövzular üstünlük təşkil edirdi.Ölkənin gündəlik həyatında iqtisadi ,siyasi geriliyin mövcudluğu ,təbii qaynaqların azlığı,lazımı tələbatların yoxluğu mədəniyyətin inkişafına kömək etmədi.Hökümətin ibtidai məktəblər şəbəkəsini inkişaf etdirmək səylərinə baxmayaraq savadlı insanların sayı çox deyildir. Ölkənin həyat tərzinin dəyişməməsini bir çox səbəblərlə izah etmək olar. Bu həm bütövlükdə bölgələrin yoxsulluğu , həm də düzənlik sakinlərindən daha çox dağ zonalarındakı xalqlara xas olan ənənələrə sadiqlik ilə əlaqələndirilir. Lakin Çernoqoviyanın qədim teatr rituallarının izlərinin bir çoxu XIX əsrdə mövcud olan xalq adətlərində qorunub saxlanılırdı(9,167).

Uzun tarixə malik olan Xarvatiya mədəniyyətinə ta qədimdən həmin ərazidə yaşayan sivilizasiyaların da əhəmiyyətli təsiri olmuşdur.İndiki Xorvatiyanın ərazisi Qərbi Roma və Bizans imperatorluğu sərhəddində ,Orta Asiya ilə Aralıq dənizi arasındakı sərhəddə yerləşirdi.Ona görə də Xorvatiyanın coğrafi mövqeyi müxtəlif mədəniyyətlərin qovşağından keçdiyi üçün onun mədəniyyətinə də müəyyən təsiri olmuşdur. XIX əsrin ortalarında İlliriya hərəkatı Xorvatiya mədəniyyətinin inkişafında böyük əhəmiyyət kəsb edirdi. Yeni xorvat yazısı, xorvat ədəbi dilinin yaranması eləcə də bütün sahələrdə xorvat mədəniyyətinin çiçəklənməsinə səbəb olurdu(11,34). Zaqreb şəhərində Xorvatiyanın mədəni və ədəbi həyatına əhəmiyyətli təsir göstərən "Natica İllyrian" milli ədəbi və elmi cəmiyyəti yarandı. 1850- ci ildə xorvat və serb dilçiləri vahid dilin prinsipləri barədə bağladıqları saziş bədii ədəbiyyatın sürətli inkişafı ilə nəticələndi. Eyni zamanda milli azadlıq hərakatının reallığı ilə əlaqədar serb,xorvat,sloven krallığının yaranması milli ənənələrə marağı artırdı.Bu günə qədər ruslar,çexlər və xorvatlar öz milli operalarına sahib olan tək slavyanlardır.

Yeddi fərqli yazı olan Xorvatiyada İlliler dil islahatını öz üzərinə götürdü. "Xorvat-Slavyan yazısının qısa bir əsası" nəşr edildi,burada Serbiyaya yaxın Stokaqian ləhçəsi əsas götürüldü və latın əlifbasına əsaslanan Əlifba yaradıldı.1850-ci ildə Serb və Xorvat alimləri ortaq ədəbi Serb-Xorvat dili haqqında yalnız Əlifba –Latın və kiril dili ilə fərqlənən "Ədəbi saziş" imzaladılar. Lakin sonrakı illərdə milli tapşırıqların anlaşılması və Xorvatiya ilə Serbiya siyasi dairələri arasındakı rəqabət fərqliliyi bu vahid dilin mövcud olma ehtimalının tənqid olunmasına səbəb oldu.Sonrakı onilliklər ərzində də dil mübahisəsi serblər və xorvatlar arasındakı milli ziddiyyətlərin tərkib hissələrindən biri idi. (6,203).XIX əsrin ikinci yarısında Xorvat mədəniyyətində irəliləyişlər müşahidə olunur,elmin bir sıra nailiyyətləri əldə edilmiş,məktəb təhsilinin təşkilində əhəmiyyətli addımlar atılmışdı.1863-cü ildə Zaqrebdə Xorvat Elmlər Akademiyası

açılmış,cənub slavyanlar arasında ilk Universitet yaratmaq işi də xorvatlara nəsib olmuşdu.

XIX əsrin ikinci yarısında Bosniyada etnokonfessional qarşıdurmaların kəskinləşməsi vahid mədəniyyətin formalaşmasına mane olur və əhalinin etnik tərkibi də öz təsirini göstərirdi. İslamı qəbul edən bosniyalılar Osmanlı imperiyası daxilində onlara muxtariyyat verilməsi tərəfdarları ,özlərini serb və xorvat hesab edən xristianlar isə Serbiya və Xorvatiya ilə birləşməyi tələb edirdilər.Müsəlmanlar Osmanlı doktirinasının təsiri altında idi.Xristian əhalinin mədəniyyətində isə kilsə mühüm rol oynayırdı. Burada həm müsəlman həm də xristian mədəniyyətləri qarşılıqlı təsir göstərirdi,təhsil isə çox geridə qalırdı ,demək olar ki,ali məktəb yox idi. Bosniya-Hertseqovina mövcud olduğu vaxtdan bir çox mədəniyyətlərin qovuşduğu bir yer olmuşdur. Burada həm Bizans ,həm də Osmanlı dövrünə aid memarlıq abidələri mövcud idi.Osmanlı dövründə Bosniyanın paytaxtı Sarayevada çox sayda məscid tikilmişdi.(1,506).Müsəlman və xristian mədəniyyətlərinin bir – birinə qarşılıqlı təsirinin güclənməsi sayəsində həmin xaqlalrın dillərinə çoxlu türk sözləri daxil olmuşdur.Lakin bütün bunlarla yanaşı göstərilən dövrdə elm nəzəri səviyyəyə çatır,kifayət qədər beynəlmiləlləşir eyni zamanda texniki tərəqqi modernləşmə probleminin həllinə yönəldilir. 1873-cü ildə cənub slavyanların ilk universiteti-Zaqreb Universiteti fəaliyyətə başladıqda Bosniya və Hertseqovinadan olan Hapsburq imperiyasına qoşulmuş slavyanlar da burada təhsil alırdılar.

Beləliklə XIX əsrin ikinci yarısında cənub slavyan xalqlarının mədəniyyətlərinin ortaq xüsusiyyətləri ümumi şəkildə qruplaşdırıldı: milli dilin inkişafı və ədəbi dilin yaradılması;təhsilin modernləşdirilməsi ; milli elmi müəssisələrin,orta və ali təhsil müəssələrinin yaradılması;dünyavi milli bədii mədəniyyətin -ədəbiyyat ,təsviri sənət,musiqi ,teatrın formalaşması ;gündəlik mədəniyyətdə avropalaşma və şəhərsalma , şəhərlərin görünüşündə dəyişiklik və s. formada qruplaşdırılır.

ƏDƏBİYYAT

1. Vəliyev T.T., Şahmuradov A.Ş. Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri). Bakı, Vətən, 2012, 566 s.
2. Данченко С.И. Развитие сербской государственности и Россия, 1878-1903. М., Наука, 1996, 422 с.
3. История южных и западных славян. Т. 1. М., Московский университет, 2008, 687 с.
4. Из истории общественной мысли славянских народов Центральной и Восточной Европы (конец XVIII – 70-е годы XIX вв.). М., Наука, 1995, 253 с.
5. История и культура Болгарии. М., Наука, 1981, 350 с.

6. Культура народов Центральной и Юго-Восточной Европы XVIII-XIX вв. М., Наука, 1990, 177 с.
7. Межславянские культурные связи. М., Наука, 1971, 808 с.
8. Məmmədov H. Bolqarıstan tarixi. Bakı, Elm və təhsi, 2009, 271 s.
9. На путях к Югославии: за и против. Очерки истории национальных идеологий югославских народов. Конец XVIII – начало XX вв. М., Наука, 1997, 416 с.
10. Никитин С.А. Очерки по истории южных славян и русско-балканских связей в 50-70 годы XIX в. М., Наука, 1970, 328 с.
11. Славянские культуры в эпоху формирования и развития славянских наций XVIII – XIX вв. М., Наука, 1978, 399 с.
12. Франтишек Дворник. Славяне в европейской истории и цивилизации. М., Языки славянской культуры. М., 2001, 799 с.

Z.N.Nuriyeva

XIX əsrin ikinci yarısında Cənub Slavyan xalqlarının mədəniyyətinin spesifik xüsusiyyətləri

Xülasə

Məqalədə Cənub slavyanların mədəniyyət tarixində tutduğu mövqedən bəhs olunur.Cənub slavyanlardan Bolqarıstan, Çernoqoriya, Serbiya, Xorvatiya, Bosniya-Hertseqovina və Sloveniya mədəniyyətinin fərqli xüsusiyyətləri öz əksini tapmışdır. Onların mədəniyyətinin oxşar və bir-birinə bağlı cəhətləri göstərilir. Bu xalqların mədəniyyətinin formalaşmasına təsir edən amillər də olmuşdur. Həm də bu xalqların çoxəsrlik mədəni tarixi öz zənginliyi ilə fərqlənir. Onların mədəniyyətlərinin müxtəlif sahələrində dəyərli sənət yaradıcıları yetişmişdir. Bəhs olunan dövr bolqar xalqının həyatında tarixin yeni bir mərhələsi kimi qiymətləndirilir. Bolqarıstanın mədəniyyət tarixində bütöv bir çevriliş baş vermişdi. Həm də bolqar mədəniyyətinin inkişafı milli azadlıq hərəkatının genişlənməsinə səbəb olmuşdur. Serbiya mədəniyyətinin inkişafında irəliyə doğru addımlar atılmışdı. Burada təhsil və maarifin inkişafında mədəni-maarif cəmiyyətləri fəal iştirak edirdilər. Çernoqoriya əhalisinin əksəriyyətinin savadsızlığı təhsil səviyyəsinin aşağı olması ilə bağlıdır. Xorvatiya təhsilinin inkişafında mühüm nailiyyətlər əldə edilmişdir. Burada maarifçi modernizm cərəyanı geniş yayılmışdı. Bosniya və Hertseqovinada müsəlman əhalisinin mədəniyyətdə islam ənənələrinin yayılmasında xüsusi rolu olmuşdur.

Açar sözlər: Cənubi slavyanlar, milli mədəniyyət, xalq təhsili, elmi tədqiqat, ziyalı, incəsənət,islahat, cəmiyyət, mədəni maarif, vətənpərvər.

З.Н.Нуриева

Особенности специфической культуры южнославянских народов во второй половине XIX века.

Резюме

В статье говорится о позиции южных славян в истории культуры. Среди южных славян нашли отражение отличительные черты культуры Болгарии, Черногории, Сербии, Хорватии, Боснии-Герцеговины и Словении. Показаны сходные и взаимосвязанные аспекты их культуры. Были и факторы, повлиявшие на формирование культуры этих народов. Также многовековая культурная история этих народов отличается своим богатством. Ценные художники выросли в различных областях своей культуры. Указанный период рассматривается как новый этап истории в жизни болгарского народа. В культурной истории Болгарии произошла полная революция. Также развитие болгарской культуры привело к расширению национально-освободительного движения. Сделаны шаги вперед в направлении развития сербской культуры. Культурно-просветительские общества активно участвовали в развитии образования и знаний Неграмотность большинства населения Черногории связана с низким уровнем образования. Важные достижения были достигнуты в развитии хорватского образования. Здесь было широко распространено просветительское течение модернизма. Мусульманское население Боснии и Герцеговины сыграло особую роль в распространении исламских традиций в культуре.

Ключевые слова: южные славяне, национальная культура, народное образование, научное исследование, просветитель, искусство, реформа, общество, культурное воспитание, патриот.

Z.N.Nuriyeva

Specific features of the culture of the South Slavic Peoples in the second half of the XlX th century

Summary

The article deals with the position of South Slavs in cultural history. Among the southern Slavs, different characteristics of the culture of Bulgaria, Montenegro, Serbia, Croatia, Bosnia-Herzegovina and Slovenia have been reflected. Similar and interconnected aspects of their culture are shown. There were also factors that influenced the formation of the culture of these peoples. Also, the centuries-old cultural history of these peoples is distinguished by its richness. Valuable artists have grown up in various fields of their culture. The mentioned period is considered as a new stage of history in the life of the Bulgarian people. A complete revolution took place in the cultural history of Bulgaria. Also, the development of Bulgarian culture led to the expansion of the national liberation

movement. Steps forward have been taken in the direction of the development of Serbian culture. Cultural and educational societies actively participated in the development of education and knowledge here. The illiteracy of the majority of the Montenegrin population is related to the low level of education. Significant achievements have been made in the development of Croatian education. Enlightenment modernism trend was widespread here. The Muslim population in Bosnia and Herzegovina had a special role in the spread of Islamic traditions in culture.

Key words: South Slavs, national culture, public education, scientific research, enlightened, art, reform, society, cultural education, patriot.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: tarix üzrə fəlsəfə doktoru,dosent Abutalıb Cəlilov tərəfindən çapa tövsiyə olunmuşdur

REYHANƏ SADIXOVA
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
Bakı ş, İstiqlaliyyət küçəsi, 8
reyhanesadiqova@gmail.com

AZƏRBAYCANIN CƏNUB BÖLGƏSİ QƏDİM MƏDƏNİYYƏTİMİZİN BEŞİYİ KİMİ

Qədim Şərqin zəngin mədəniyyət mərkəzlərindən olan Azərbaycan bəşər tarixinə ölməz sənətkarlar, mədəni örnəklər, sənət nümunələri bəxş etmişdir. Bu gün dünyanın ən məşhur muzey və sərgi salonlarında Azərbaycanda yaradılmış sənətkarlıq nümunələri elm və sənət bilicilərini heyrətdə qoyur. Multikultural və tolerant dəyərlərin həyat tərzinə çevrildiyi ölkəmizin – qədim türk yurdu Azərbaycanın mədəniyyəti onun ayrı-ayrı bölgələrində təşşəkkül tapmış mədəni mühitlərin ümumiləşdirilmiş formasıdır. Bu baxımdan Azərbaycan mədəniyyətinin tarixinin, inkişaf tendensiyalarının, çağdaş durumunun öyrənilməsi işində respublikamızın cənub bölgəsinin mədəni həyatının da araşdırılmasının əhəmiyyəti böyükdür.

Məqalədə cənub bölgəsində musiqi, teatr sənətinin, memarlığın, mətbuatın, qədim sənət növlərinin, xüsusilə burada qorunub saxlanılmış həsirçiliyin tarixi, bu günü araşdırılmışdır.

Açar sözlər: musiqi, memarlıq, teatr, sənət növləri, həsirçilik, mədrəsələr, mətbuat

Azərbaycanın cənub bölgəsinin musiqi həyatı kifayət qədər zəngindir. Bu gün də burada fəaliyyət göstərən musiqi məktəbləri, ansanbl və musiqi alətləri emalatxanaları öz ənənəsini xeyli keçmişdən götürmüşdür. Bu bölgədə hazırlanan elə musiqi alətləri var ki, Azərbaycanın digər bölgələrində onların hazırlanması ilə məşğul olmurlar. Məsələn, Lerikdə hazırlanan lakto (laqquti) adlı qədim zərb alətini göstərə bilərik. Lerikin müxtəlif ağac növləri ilə zəngin meşələrində bitən palıd və yalanqoz ağaclarının içi yonulmaqla düzəldilən və dördkünc formada olan bu musiqi alətinin bir zamanlar mahir ifaçıları olmuşdur. Professor Qəmərşah Cavadov bu musiqi aləti haqqında yazır: "Talışlar ta qədim zamanlarda xüsusi səs ritminə malik olan "Laqquti" adlı alət ixtira etmiş və əsrlərlə ondan bir zərb musiqi aləti kimi istifadə etmişlər" (1, s. 308).

Cənub bölgəsinin musiqi sənəti Azərbaycan xalqının tarixi, folkloru ilə sıx bağlı olduğu üçün onun mənşəyinin, ayrı-ayrı özəlliklərinin öyrənilməsi xalqımızın adət-ənənələrinin, milli xüsusiyyətlərinin, həyat və məişətinin səciyyəvi cəhətlərinin, etnoqrafiyasının öyrənilməsinin əhəmiyyəti çox böyükdür. Maraqlıdır ki, cənub zonasındakı bir çox folklor musiqi örnəkləri, müxtəlif məzmunlu xalq mahnıları musiqi alətlərinin müşayiəti olmadan, əsasən əllə çıxarılan səslərlə ritm tutularaq

oxunmuşdur ki, buna əsasən də alimlər həmin nəğmələrin tarixinin musiqi alətlərinin kəşfindən daha qədim olması qənaətinə gəlmişlər. Maraqlı bir faktı da qeyd edək ki, "Azərbaycanın görkəmli bəstəkarı Müslüm Maqomayev 1905-ci ilin sentyabr ayından Lənkəranda müəllimlik fəaliyyətinə başlayaraq, burada dördsinifli məktəbdə coğrafiya və təbiət fənlərini tədris edib" (2). Bununla yanaşı, burada dram, xor və nəfəsli orkestr dərnəkləri yaratmış, oğlanlarla bərabər məktəbli qızları da bu dərnəklərə cəlb etmişdir.

Cənub bölgəsində inkişaf etmiş musiqi sənətinin bir unikallığı da Azərbaycanın qədim adət-ənənələri ilə bağlı olan, "əkin-biçin, toy, bayram, ailə və məişət mövzusunda olan poetik mətnləri özündə birləşdirən" (3) halay rəqsləridir. 1970-ci ildə Masallı rayonunun Şərəfə kənd qadınlarının iştirakı ilə yaranmış "Həcər" Halay rəqs qrupu hazırda səkkiz nəfərlə fəaliyyət göstərir.

Lənkəranda ilk professional teatrın yaranmasının tarixi XIX əsrin sonlarına təsadüf edir. Və bu mövzudan danışarkən dövrünün görkəmli ziyalıları olmuş Mirzə Əziz Əliyevin və oğlu Mirzə Ağəli Əliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. "Hələ 1884-cü ildə Lənkəranda Teymur bəy Bayraməlibəyovun təşəbbüsü ilə müəllimlərin və şagirdlərin iştirakı ilə M.V.Qoqolun "Evlənmə" komediyası tamaşaya qoyulmuşdur. Moskova vilayətindən olan teatrşünas A.İvanov "119 il əvvəl Lənkəranda teatr tamaşası" ("Leninçi" qəzeti, 29 noyabr 1960-cı il) adlı məqaləsində yazır ki, "Lənkəranda ilk teatr tamaşası Lənkəran ziyalıları tərəfindən hazırlanmışdır. Onlar A.S.Qriboyedovun "Ağıldan bəla" komediyasından bir parçanı rus dilində tamaşaya hazırlamışdırlar. Baxmayaraq ki, bu əsərin Rusiya şəhərlərində oynanılması qadağan olunmuşdur." Qeyd etmək lazımdır ki, Lənkəranda tamaşaya hazırlanmış A.S.Qriboyedovun "Ağıldan bəla" komediyasının tamaşasında vaxtilə Peterburqda təhsil almış bir neçə ziyalı da iştirak edirdilər. Bu haqda Peterburqda çıxan "Severnaya pçela"nın 91-ci nömrəsində Lənkəranlı müxbirin yazısı çap olnmuşdur" (4).

1891-ci ilin 18 yanvarında isə burada Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyesi "Oddan-alova" adı altında tamaşaya qoyulmuşdur. Azərbaycanın görkəmli teatr xadimlərinin Lənkərandakı teatr sənətinə və yerli yaradıcı qüvvələrə xüsusi qayğısı və diqqəti sayəsində burada teatr sənəti qısa zamanda uğur qazana bilmişdir. Elə ustad aktyor Sidqi Ruhullanın Lənkərana gəlməsi və burada dram heyəti yaratmaq istəyən həvəskarlarla Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Nəriman Nərimanovun "Nadir şah", Nəcəf bəy Vəzirovun "Ev tərbiyyəsinin bir şəkli" və s. pyeslərinin səhnələşdirilməsində onlarla birlikdə fəaliyyət göstərməsi yerli teatrsevərlər üçün, şübhəsiz ki, böyük stimul olmuşdur. Qeyd edək ki, bütün bu faktlar Azərbaycanda milli teatrın inkişafında mühüm rol oynamış hadisələrdir.

Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov müsahibələrinin birində qeyd etmişdir ki, "Azərbaycanın tanınmış artistləri və müğənnilərindən Həqiqət Rzayeva, Münəvvər Kələntərli, Haşım Kələntərli, İsmayıl Talışinski, Cahan

xanım Talışinskaya kimi sənətkarlar ilk addımlarını Lənkəran teatrının səhnəsində atıblar" (3). Bu da Lənkərandakı güclü və sabit mədəni mühitin mövcudluğundan xəbər verir.

1930-cü ildən fəaliyyət göstərən Hüseyn Ərəblinski adına Lənkəran Musiqili Dövlət Dram Teatrı 1949-cu ildən dövlət statusunu dəyişərək 25 il Hüseyn Ərəblinski adına Lənkəran Xalq Teatrı adını daşımışdır. Müharibə illərində səmərəli və faydalı fəaliyyətinə görə teatrın direktoru və rejissoru Qəni Vəliyev və aktyor Kamil Nəcəfov "Azərbaycan SSR-in Əməkdar artisti" fəxri adına layiq görülmüş, bir qrup aktyor isə Ali Sovetin fəxri fərmanları ilə təltif olunmuşlar. Lakin 50-ci illərdə mərkəzi hökumətin qərarı ilə Sovet İttifaqının respublikalarında, o cümlədən Azərbaycanda bölgə teatrlarının fəaliyyəti dayanmışdı. 1959-cu ilin dekabrında isə rayonda yenidən Hüseyn Ərəblinski adına Xalq teatrı təşkil edilmiş və ona respublikanın Əməkdar artisti Kamil Nəcəfov rəhbərlik etmişdir.

Lənkəranda professional teatrın fəaliyyətinin bərpası isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1973-cü il dekabrın 6-da məhz Ulu Öndərin sərəncamı ilə Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı fəaliyyətə başlamış və teatr bu günə qədər də öz tamaşaçılarını yeni tamaşa və səhnə quruluşları ilə sevindirməkdədir. Teatrın bir neçə tamaşası Azərbaycan mədəniyyətinin qızıl fonduna daxil edilmişdir. 2004-cü il noyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lənkəranda olarkən Dövlət Dram Teatrının binasında aparılmış təmir-bərpa işləri ilə yaxından tanış olmuşdur.

Teatr nəinki respublikamızda, eyni zamanda bir sıra ölkələrdə, o cümlədən Özbəkistanda, Gürcüstanda qastrol səfərlərində olmuş, qardaş Türkiyənin İstanbul, Ankara, Dənizli və Konya şəhərlərində, İran İslam Respublikasında keçirilən beynəlxalq festivallarda uğurlar qazanmışdır.

Cənub bölgəsinin mədəni mühitindən danışarkən buradakı qədim Azərbaycan memarlığının qiymətli incilərindən də bəhs etmək vacibdir. İlk öncə qeyd edək ki, tarixçi alim Aqşin Mistanlının "Cənub bölgəsinin Abidələr Ensiklopediyası" kitabı respublikamızın bu bölgəsinin tarixi-memarlıq abidələrinin öyrənilməsi baxımından qiymətli mənbədir (6). Kitabda "cənub bölgəsinə daxil olan rayonların tarixini, etnoqrafiyasını, arxeoloji və memarlıq abidələrini – mağaraları, yaşayış yerlərini, qalaları, kurqanları, nekropolları, qədim qəbiristanlıqları, məscidləri, hüseyniyyələri, ziyarətgahları, məqbərələri, pirləri, ocaqları, ləmləri, qədim hamamları, dəyirmanları və bulaqları əks etdirən məlumatlar, bölgə haqda ümumi ensiklopedik məlumatlar və abidələrin fotoşəkilləri verilir" (7).

Ümumiyyətlə İslam dünyasında, o cümlədən də Azərbaycanda memarlıq nümunələri içərisində məscidlərin xüsusi yeri vardır. Cənub bölgəsində inşa edilən məscidlər də memarlıq sənətinin tarixinin öyrənilməsi baxımından maraq doğurur. Masallıdakı XIX əsrin əvvəllərinə aid Cümə məscidi, yenə həmin yüzilliyin Digah kənd məscidi, 1910-cu ildə inşa edilmiş Seybətin kənd məscidi, Cəlilabad şəhərində "1916-cı ildə Çar Rusiyasının valisi Anukiyevdən qızıl pulla alınmış ərazidə yerli

əhali tərəfindən inşa" (5) edilmiş Cümə məscidi, Astara şəhərindəki 1898-ci ildə Hacı Zeynalabdin Tağıyevin yardımı ilə yerli əhalinin tikdiyi Mərkəzi Qum məscidi, Lənkərandakı Böyük Bazar məscidi, Kiçik Qala məscidi, XIX əsrə aid yerli ağsaqqalların təşəbbüsü ilə Yuxarı Nüvədili zadəgan və mesenat Hacı Hacıbalanın vəsaiti hesabına tikilmiş Bala Şürük məscidi, 1906-cı ilə aid Kiçik Bazar məscidi və onun yanındakı Güldəstə minarəsi (sovet hakimiyyəti tərəfindən dağıdılmışdır), Kərbəlayi Qulu, Kərbəlayi Ağaqulu və Hacı Mirağa tərəfindən XIX əsrdə inşa edilmiş bir minarəli Böyük Bazar məscidi Azərbaycan memarlığının tipik nümunələrindəndir. Cənub bölgəmizdəki məscidlərin əksəriyyəti Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dövlət əhəmiyyətli memarlıq irsi kimi qorunur.

Cənub bölgəsində digər məqsədlərlə inşa edilmiş tarixi abidələr də çoxdur. Məsələn, Yuxarı Nüvədi kəndindəki qədim Əbirlər qülləsi, Şıxakəran kəndində yerləşən və orta əsr şərqində tanınmış alim, filosof və din xadim olmuş Şeyx Zahid ibn Şeyx Əmir Rövşənin (1215-1300) dəfn olunduğu Şeyx Zahid türbəsi (1838), Lənkərandakı Seyid Xəlifə türbəsi, Hacı Mirzə hamamı, Xan evi kimi tarixi abidələr keçmişimizə şahidlik etməklə yanaşı, Azərbaycan memarlığında istifadə olunmuş ornament və naxışlar, oyma sənəti, həkkaklıq və s. haqqında aydın təsəvvür yaratmağa imkan verir. Lənkəran şəhərinin qərbində IV əsrdə Sasan şahı II Şapurun çay daşından və bişmiş kərpicdən tikdirdiyi, yerli əhalinin bəzən "Boz qala", bəzən "Babək qalası" adlandırdığı, xürrəmilərin tarixi ilə də bağlı olan Bəlləbur qalasının xarabaları var.

Yarandığı dövrdə istehkam məqsədi daşımış, daha sonralar isə həbsxana kimi istifadə olunmuş Dairəvi Qala isə 1747-1786-cı illərdə tikilmişdir və hazırda tarixi abidə kimi qorunur. Məşhur Lənkəran qalası da eyni illərdə ucaldılmışdır.

Lənkəranın memarlıq abidələrindən danışarkən hazırda Lənkəran Tarix-diyarşünaslıq muzeyinin yerləşdiyi binadan da xüsusi bəhs etmək lazımdır. Bina 1913-cü ildə talış xanı Mir Əhməd xanın dəvəti ilə Fransadan gəlmiş memarlar tərəfindən, Bakıdan gəmi ilə gətirilmiş tikinti materiallarından ucaldılmışdır. Əvvəllər Mir Əhməd xanın evi olan bu bina 1990-cı ildən muzey kimi fəaliyyət göstərir. Hazırda Lənkəran Dövlət Universitetinin əsas korpusunun yerləşdiyi əzəmətli bina isə Lənkəranda ilk çoxmərtəbəli tikililərdəndir və 1794-cü ildə əslən bakılı olan həkim İsa bəyin sifarişi ilə xarici mütəxəssislər tərəfindən Avropa üslubunda inşa olunmuşdur. Məlumdur ki, İslam Şərqinin memarlıq abidələri içərisində hamamların xüsusi yeri vardır. Azərbaycanın əksər bölgələrində inşa edilmiş qədim hamamların tikililəri bu günümüzədək gəlib çatmışdır və dövlət tərəfindən tarixi əhəmiyyətli abidələr kimi qorunur. Respublikamızın cənub bölgəsində XVIII əsrdən etibarən tikilmiş və memarlıq abidəsi kimi qeydə alınmmış on yeddi hamam vardır. Bölgədəki ilk hamamlar isə Lənkəranda tikilmiş "Fars" və "Batalyon" hamamlarıdır (XVIII əsr). Lənkəran rayonunun Şağlaser kəndində XIX əsrdə tikilmiş və kəndin adını daşıyan hamam isə taxtadan tikilmiş hamam kimi tarixə düşmüşdür, sovet hakimiyyəti dövründə taxtadan olan tikili sökülmüş, yerində

qırmızı kərpicdən yeni hamam tikilmişdir. Cənub bölgəmizin özünəməxsus tikilisi kimi tarixə düşmüş və respublikamızın digər bölgələrində rast gəlinməyən, "ləm" adlanan yay evləri ərazinin səciyyəvi həyat tərzi, məişəti və ənənələri barədə maraqlı materialların əsas mənbəyi ola bilər.

Hər yerdə olduğu kimi, cənub bölgəsində də qədim sənət növləri əsasən xalqın məişətini, güzəranını təmin etmək məqsədini güdmüşdür. Burada qədim Azərbaycan sənət növlərinin bir çoxu inkişaf edib yayılsa da, bölgə toxuculuğun ən qədim növlərindən hesab olunan və ölkəmizin bəzi rayonlarında da yayılmış həsirçilik sənəti ilə daha çox tanınır. "Bəzi mütəxəssislər deyirlər ki, erkən orta əsrlərdə həsirçilik Azərbaycanın bir sıra bölgələrində geniş yayılsa da, sonradan bu sənət sıradan çıxıb. Bu gün bu sənətin əsas yaşadıldığı, yayıldığı bölgəmiz cənub rayonlarıdır. ...bu sənətin əsasən cənub bölgəsində yaşadılması iqlim şəraiti ilə bağlıdır. Yəni cənub regionu subtropik olduğundan, il boyu burada nəmişlik hökm sürür. Qeyd edildiyinə görə, həsirçiliyin meydana gəlmə səbəbi nəmişliyin qarşısını almaqla bağlı olub. Keçmiş əyyamlarda evlərin döşəməsi torpaq olardı və torpağın nəmişliyinin qarşısını almaq üçün yerə həsir döşənər, onun üstündən isə xalça-palaz sərilərdi" (8).

Azərbaycanın cənub bölgəsinin yaranması XX əsrin əvvəllərinə təsadüf edən mətbuat tarixi də xarakterik cəhətləri ilə maraq doğurur. Bölgədə ilk qəzet 1912-ci ildə Lənkəranda rus dilində çap olunmuş "Rıbnoye dole" həftəlik qəzeti olmuşdur. Daha sonralar Lənkəranda "Məharət" qiraətxanası tərəfindən buraxılmış "Lətaif" qəzeti (1916-1917-ci illərdə), "Hürriyyət" vərəqəsi (1919), "Rəhbər" qəzeti (1919), Cəlil Məmmədquluzadənin təşəbbüsü ilə Ədəbiyyat Cəmiyyətinin təsis etdiyi "Canlı qəzet" (1926-1931), "Qızıl Talış" (1931), Astarada "Ostoro kolxozçi" (talış dilində "Astara kolxozçusu", 1932), Masallıda "Yeni həyat" (1932), Cəlilabadda "Sosializm tarlaçısı" (1932), Vərgədüzdə (Yardımlı) "Vərgədüz kolxozçusu" (1936), Zuvandda (Lerik) "Zuvand kolxozçusu" (1937) qəzetləri nəşr olunmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra cənub bölgəsində bir sıra yeni mətbuat orqanları fəaliyyətə başlamışdır: "Sözün işığı" , "Münasibət" (Cəlilabad), "Azad təfəkkür" (Lerikdə), "Qala", "Talisman" (Masallıda), "Yardımlının səsi" (Yardımlıda), "Fakt+fakt" "Prizma" "Bizim era" "Bizim təbib" "Veteran yolu", "Yaşıl çay" (Lənkəranda),"Alov" (Astarada) və sair.

XIX yüzilliyə qədər Azərbaycanın digər bölgələrində olduğu kimi, cənub zonasında da təhsil mədrəsələrdə aparılırdı. Bu mədrəsələrdə dərs deyən molla və din biliciləri təkcə islam dəyərlərini, ərəb dilini deyil, dünyəvi elmləri də tədris etmiş, elmi əsərlər yazmışlar. İlahiyyatçı alim Samid Quliyev "Cənub bölgəsinin tanınmış din xadimləri (XIX-XX əsrlər)" məqaləsində arxiv sənədləri, əlyazma mənbələr və xalqın yaddaşına istinad edərək bu rayonlarda yetişmiş və İslam elminə öz töhfələrini vermiş din xadimləri və onların fəaliyyəti barədə ətraflı bəhs etmişdir (9).

XIX əsrin ortalarından etibarən isə Lənkəranda rus və Azərbaycan dillərində məktəblər fəaliyyətə başlamışdır. 2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev

"Lənkəran, Lerik və Astara rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" sərəncam imzalamışdır. Bu sərəncama əsasən Lənkəran, Lerik və Astara rayonlarında 860 şagird yerlik modul tipli 16 məktəbin quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə göstərilmiş məbləğin 4 milyon 942 min manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılmışdır.

Cənub bölgəsinin sosial-iqtisadi həyatı kimi, mədəni mühitinin inkişadı da hər zaman dövlətin diqqət mərkəzində olmuş, Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev buraya hər səfərlərində regionun elm, sənət və mədəniyyət xadimləri ilə də görüşlər keçirmiş və qarşılıqlı fikir mübadilələri aparmışlar. Cənab İlham Əliyev görüşlərinin birində demişdir:

İstifadə edilən ədəbiyyat:

1. Qəmərşah Cavadov. Talışlar. Bakı. Elm. 2004. 616 s.
2. Ağaddin Babayev. Lənkəran teatrı 130 illik yubileyə hazırlaşır. https://www.medeniyyet.az/page/news/55696/Lenkeran-teatri-130-illik-yubileye-hazirlasir.html
3. Səadət Fərziyeva. Azərbaycanın talış folklorunda halay rəqs-mahnıları. https://ambur.az/azerbaycanin-talis-folklorunda-halay-reqs-mahnilari
4. Lənkəran Dövlət Dram Teatrı. https://az.wikipedia.org/wiki/L%C9%99nk%C9%99ran_D%C3%B6vl%C9%99t_Dram_Teatr%C4%B1
5. Abdullayeva S. Azərbaycandakı məscidlər: mənəviyyat və tarixi-memarlıq abidələri. https://525.az/news/12071-azerbaycandaki-mescidler-meneviyyat-ve-tarixi-memarliq-abideleri
6. Aqşin Mistanlı. "Cənub bölgəsinin Abidələr Ensiklopediyası". Bakı, "Adiloğlu", 2020. 508 səh.
7. "Cənub bölgəsinin Abidələr Ensiklopediyası" və "Bəhramnamə" – Kitablar. https://multikultural.az/az/talislar/551/cenub-blgesinin-abideler-ensiklopediyasi-ve-behramname-kitablar/
8. İradə Sarıyeva. Qədim həsirçilik xalq sənətini yaşatmaq üçün böyük səy göstərənlər var… Bakı xəbər.- 2018.- 6 dekabr.- S.13. http://www.anl.az/down/meqale/baki_xeber/2018/dekabr/621536.htm
9. Samid Quliyev. "Cənub bölgəsinin tanınmış din xadimləri (XIX-XX) əsrlər". https://ambur.az/cenub-bolgesinin-taninmis-din-xadimleri-xix-xx-esrler

РЕЙХАНА САДИХОВА

ЮЖНЫЙ РЕГИОН АЗЕРБАЙДЖАНА КАК КОЛЫБЕЛЬ НАШЕЙ ДРЕВНЕЙ КУЛЬТУРЫ

Азербайджан, один из богатых культурных центров древнего Востока, одарил человеческую историю бессмертными художниками, образцами культуры и произведениями искусства. Сегодня произведения искусства, созданные в Азербайджане в самых известных музеях и выставочных залах мира, поражают знатоков науки и искусства. Культура нашей страны, древней тюркской земли Азербайджана, где поликультурные и толерантные ценности стали образом жизни, представляет собой обобщенную форму культурных сред, сформировавшихся в отдельных ее регионах. С этой точки зрения изучение истории азербайджанской культуры, тенденций развития, современного состояния культурной жизни южного региона республики имеет большое значение. В статье рассматривается история музыки, театра, архитектуры, печати, древнего искусства в южном регионе, особенности сохранившегося здесь вдовства.

Ключевые слова: музыка, архитектура, театр, искусство, вдовство, медресе, пресса

REYHANA SADIXOVA

THE SOUTHERN REGION OF AZERBAIJAN AS THE CRADLE OF OUT ANCIENT CULTURE

SUMMARY

Azerbaijan, one of the ancient rich cultural centers of the East, has bestowed eternal artists, cultural samples, and works of art for the human history. Today, art works made in Azerbaijan that have been displayed in the most prestigious museums and exhibition halls of the world fascinate scientific and art connoisseurs. The culture of Azerbaijan, the ancient Turkic land, where multicultural and tolerant values have become lifestyle, is a synthesis of cultural environments developed in its several areas. In this regard, the study of Azerbaijani cultural history, development tendencies, and the current state of cultural life in Southern region of our republic has a significant importance. The paper examines the history of music, theater, architecture, the press, and ancient arts in the Southern region, focusing on the history of wickerwork that is still practiced today.

Keywords: music, architecture, theater, types of art, wickerwork, madrassah, press

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professorTeymur Kərimli tərəfindən çapa tövsiyə olunmuşdur

İSMAYILOVA ƏFSANƏ ŞƏMSƏDDIN QIZI
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
efsane.ismayilzade@inbox.ru

ŞUŞA ŞAİRİ MƏMO BƏY MƏMAİNİN MƏSNƏVİLƏRİNDƏ HUMANİST İDEYALAR

Xülasə

Məqalədə Qarabağ ədəbi mühitinin görkəmli şairlərindən biri olan Məmo bəy Məmainin ana dilində yazılmış məsnəviləri təhlilə cəlb olunmuşdur. Məmai lirik şairdir. Onun yaradıcılığı ana dilində və farsca yazılmış şeirlərdən ibarətdir. Şairin lirikasında doğma şəhəri Şuşaya olan məhəbbət, yüksək vətənpərvərlik hissləri, Qarabağda baş verən qanlı qırğınlar, ermənilərin törətdikləri terror və fəlakətlər öz əksini tapmışdır. Onun məsnəvilərində cəmiyyətdəki sosial bərabərsizlik, ictimai-siyasi çatışmazlıqlar, zəmanəsinin haqsızlıqlarına qarşı etiraz ifadə olunmuşdur. Şair müharibələrin yaratdığı dəhşətləri ürəkyanğısı ilə pisləyir, xalqları dostluğa, sülhə və əmin-amanlığa səsləyir.

Məmainin məhəbbət məzmunlu məsnəviləri humanist və bəşəri hisslər üzərində yazılmışdır. Bu şeirlər onun incə ruhlu şair olmasını bir daha göstərir. Yaradıcılığındakı humanist ideyalar insani hisslərin tərənnümü Məmo bəy Məmainin istedadlı sənətkar olmasını bir daha təsdiq edir.

Açar sözlər: Məmo bəy Məmai, XIX əsr, Şuşa, məsnəvi, lirika.

Məmo bəy Məmai XIX əsrin ikinci yarısında Qarabağ ədəbi mühitinin görkəmli şairlərindən biri olmaqla yanaşı, Şuşada fəaliyyət göstərən "Məclisi - üns" ədəbi məclisinin fəal və istedadlı üzvlərindən biri olmuşdur.

Məmo bəy Məmainin istedadlı sənətkar kimi şöhrət tapması birbaşa "Məclisi üns"ün adı ilə bağlıdır. Mirzə Rəhim Fənanın təşəbbüsü ilə yaranan bu ədəbi məclisə 1872-ci ildən Xurşudbanu Natəvan başçılıq etmişdir. Məlumdur ki, şairənin ömrü elə də xoş keçməmişdir. O, həyat yoldaşını itirdikdən sonra ikinci dəfə ərə getmiş, bundan sonra ailəsində baş verən mal-mülk ixtilafları, oğlunun ona küskün münasibəti, xəstəliklər, mənəvi sıxıntılar, daha sonra 17 yaşlı digər oğlunun vaxtsız vəfatı onun yaradıcılığına təsirsiz qalmamışdır. Məmai Natəvana xüsusi hörmət bəsləmiş, ona bir sıra şeirlər ithaf etmişdir. Bu şeirlərdə Məmainin səmimi duyğu və düşüncələri öz əksini tapmışdır.

Məmai haqqında ilk məlumatlara Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsərində rast gəlinir. Bu təzkirədən öyrənirik ki, şairin hər mövzuda şeirləri olmuş, lakin bu şeirlər divan şəklinə salınmamışdır [4, s. 260]. Mir Möhsün Nəvvab XIX əsrdə Şuşada təşkil olunmuş ikinci ədəbi məclisə - "Məclisi-fəramuş"a başçılıq etmiş, Qarabağın hər ki ədəbi məclisi arasında mədəni əlaqələrin möhkəmlənməsində səmərəli fəaliyyət göstərmişdir. Məmo bəy Məmai "Məclisi-üns"lə yanaşı, tez-tez

"Məclisi-fəramuşan"da da iştirak etmiş və şəxsən Nəvvabla yaxın dost olmuşdur [2, 188].

Məmo bəy Məmai haqqında ən geniş məlumat Nəsrəddin Qarayevə məxsusdur. O, "XIX əsr Azərbaycan ədəbi məclisləri" kitabında XIX əsrdə ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən ədəbi məktəblərlə yanaşı, onların fəal üzvləri, o cümlədən şair haqqında geniş məlumat vermiş, onun bir sıra şeirlərini təhlil etmişdir.

Məmainin yaradıcılığı Azərbaycan və fars dillərində şeirlərdən ibarətdir. Tədqiqatçı Sevər Cabbarlı 2016-cı ildə şairin şəxsi əlyazmaları əsasında Məmo bəyin anadilli şeirlərini ilk dəfə toplu halında çap etdirmişdir. Buraya şairin 135 qəzəli, 15 məsnəvisi və müxtəlif janrlarda yazılmış şeirləri daxil edilmişdir.

Məlumdur ki, dünyəvi məhəbbət bütün dünya xalqlarının bədii ədəbiyyatında başlıca yer tutan mövzulardan biridir. Məmainin yaradıcılığında da bu mövzu dominantlıq təşkil edir. Şair aşiqanə qəzəllərində olduğu kimi, eşq məzmunlu məsnəvilərində də real məhəbbəti tərənnüm edərək orijinal sənət nümunələri yaradır. Bu şeirlər öz poetik strukturuna, sadə və anlaşıqlı dilinə görə xüsusi əhəmiyyət kəsb edir. Klassik ədəbiyyatın məhəbbət şeirlərində olduğu kimi, Məmainin eşq məsnəvilərində də aşiqin saf və bəşəri duyğuları, daxili hiss və həyəcanları, vusal arzusu poetik boyalarla təsvir edilir. Bu şeirlərin əksəriyyətində sevgilisinin vəsfi fədakar aşiqin dilinin əzbəridir:

Vəsfindi olan dilimdə əzbər,
Mehrindi olan tənimdə mərmər.
Könlüm açılır fəsahətindən,
Can qüvvət tapır məlahətindən. [3, s.144]

Bu şeir lirik qəhrəmanın nəcib və dünyəvi duyğularının ifadəsini verən səmimi lirikası ilə seçilir. Məsnəvidə şairin fərdi və sentimental duyğuları, o cümlədən, eşq haqqında düşüncələri də öz əksini tapır.

Məmo bəyin məsnəvilərində diqqəti cəlb edən cəhətlərdən biri də aşiqin məşuqəyə müraciətidir. Şairin müraciət etdiyi poetik xitablar müəllifi yüksək sənətkarlıq xüsusiyyətlərinə malik bir sənətkar kimi təqdim edir:

Ey gülbüni-gülüstani-iffət,
Ey gövhəri-məxzəni-mürüvvət. [3, s.144]
Ey taqəti-cismi-natəvanım,
Arami-dilim, qərarı-canım. [3, s.150]

Klassik poeziya ənənələrinə sıx bağlı olan Məmainin eşq məsnəvilərində məyusluq və kədər əsas cəhətlərdəndir. Sevgilisinin hicranına dözə bilməyən aşiqin duyğuları burada ustalıqla təsvir edilir. Məmainin aşiqi kimsəsizdir, onun yeganə həmdəmi ayrı düşdüyü məşuqəsidir. Şairin lirik qəhrəmanı sevgilisinin olmadığı yerləri səfasız adlandıraraq deyir:

Qoydun bəni dilfigarü xəstə,
Bəs zarü zəlilü dilşikəstə.

Sənsiz bu yerin vəfası yoxdur,
Bir bağ idi kim, səfası yoxdur. [3, s.145]

Hicran dərdinə dözə bilməyən aşiq bəzən pessimizmə qapılaraq taleyindən acı-acı şikayətlənir. Onun yuxusuz gecələrini özünə hən yaxın həmsöhbət hesab edir:

Yaxın gecələr ənisim olmuş,
Həmsöhbət, həmcəlisim olmuş.
Hicr atəşinə tutaşdı canım,
Yetməzmi sənə mənim fəqanım. [3, s.158]

Məmainin aşiqi hərdən vüsala çatmasına ümid etsə də, bəzən daha kədərli və çarəsiz görünür. Şeirdə ayrılıq sitəminə dözə bilməyən, yeganə xəyalı sevgilisinin vüsalına qovuşmaq olan aşiqin ümidsiz duyğu və düşüncələri olduqca real boyalarla verilmişdir:

Firqət oduna yanıb vücudum,
Başdan fələyə çıxıbdı dudum.
Hicran sitəmi qərarım almış,
Firqət qəmi ixtiyarım olmuş.
Peyvəstə vüsaldır xəyalım,
Hər sübhi-məsa budur məqalım. [3, s.158]

Məmo bəyin lirik qəhrəmanlarının əksəriyyəti pessimist və bədbindir. Ruh düşkünlüyü yaşayan aşiq taleyindən şikayətlənir, yaşamaqdan usanır, gününü meyxanədə keçirərək, saqi ilə mükalimə qurur:

Saqi, yenə kəcmədar gərdun,
Qıldı bəni-xəstəni didərgün.
Qəhr ilə keçir bənimlə dövran,
Zülmündən onun könül olur qan.
Salmış bəni qəm bu halə saqi,
Rəhm eylə, yetir piyalə, saqi. [3, s.149]

Aşiq dərdini saqiyə danışır, söyləyir ki, onu xəstəliyə salan "eşq"dir. O eşq ki, qəhrəmanı "möhnəti-dərd"ə, "qəmi-qüssə"yə salır, yuxusunu ərşə çəkir:

Saqi, kərəm et, qarışdı halım,
Artdı qəmü, möhnətü məlalım.
Sən badə gətir, bən eyləyim nuş,
Bu bir neçə sözə tutgilən güş. [3, s.156]

Məmainin bu məsnəvisi klassik ənənə əsasında yazılmışdır. Şair ədəbiyyatın bütün dövrlərində sənətkarların yaradıcılığında yer alan ənənəvi "saqinamə" mövzusuna sanki yeni ruh, yeni forma verərək orijinal bir deyim tərzi yaratmışdır.

Görkəmli alimlər – Möhsün Nağısoylu və Əkrəm Bağırov bu məsnəvinin Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasındakı saqinamənin təsiri ilə yazıldığını qeyd edirlər [3, s.156].

Qeyd etdiyimiz kimi, Məmai "Məclisi-üns" məclisində fəaliyyəti zamanı Xan qızı Xurşudbanu Natəvana bir neçə şeir ithaf etmişdir. Ümumiyyətlə, təkcə Məmai deyil, ədəbi məclisin bütün üzvləri Natəvana xüsusi hörmət bəsləmiş, onun ağır və kədərli anlarında öz mənəvi dəstək və köməklərini əsirgəməmişlər. Məmai Natəvanın şairlik qabiliyyətini, nəzmdə olan peşəkarlığını, gözəl danışıq üslubunu yüksək dəyərləndirərək yazır:

Sən Məhfilü-Üns üçün səfasan,
Mətlubsan, eyni müddəasan.
Sənsiz nə qəzəlsəralıq olsun,
Əşar ilə aşinalıq olsun. [3, s.153]

Məmai Natəvana olan rəğbətini tez-tez etiraf etmiş və yeri gəldikcə onu vəsf etməkdən çəkinməmiş, ona eşq məsnəviləri həsr etmişdir. Bu cəhət bəzi beytlərdə açıq-aydın görünməkdədir:

Əlqissə, gözüm bənim pənahım,
Ey dadrəsim, ümidgahım.
Ey Məhfili-Ünsə rükni-əvvəl,
Hicranını vəslə qıl mübəddəl. [3, s.152]

Şeirin məzmunundan göründüyü kimi, Məmai bu şeiri şairənin səhhəti ilə bağlı məclislərdə iştirak etmədiyi vaxtlarda qələmə almışdır.

Başqa bir şeirində Məmai yenə Natəvanın yoxluğundan xəstə düşdüyünü yüksək bədii sənətkarlıqla belə ifadə edir:

Sən qayib olalı göz evindən,
Göz mərdümi oldu qan hübabı.
Sənsiz necə səbr edə Məmai,
Arami-dilim, dilim xitabı. [3, s.154]

Məmai təkcə məhəbbət şairi deyildir. O, cəmiyyətdə, xüsusilə Qarabağ mühitində şahidi olduğu sosial problemləri öz əsərlərində işıqlandırmışdır. Onun məsnəviləri cəmiyyətdəki ictimai-siyasi çatışmazlıqlara, zəmanəsinin haqsızlıqlarına qarşı etirazını ifadə edir. "Ey yatan məst xabi-qəflətdə" misrası ilə başlanan şeirdə müharibələrin insanlığa vurduğu zərbələr ürəkyanğısı ilə pislənir. Müəllif imperialist dövlətlərin müsəlman xalqlarına qarşı yeritdiyi müstəmləkəçilik siyasətini tənqid edərək yazır:

Nə qədər yer üzündə dövlət var.
Nə qədər mülk, mal, qüdrət var.
Hamısı sərf olur bu qovğayə,
Düşüb aşub, fitnə dünyayə. [3, s.160]

Şair müttəfiqsiz dövlətlərə, xüsusilə müsəlmanlara görə narahatdır. Onun fikrincə, bütün bu qovğalardan zərbə alan yalnız müsəlmanlardır. O, xalqın halına acıyır, zəmanəsinin ictimai ziddiyyətlərinə olan kəskin münasibətini ifadə etməkdən çəkinmir:

Var hər millətin pərəstarı,
Var hər bir camaatın yarı.
Leyk pamal olan müsəlmandır,
Ortalıqda qalan müsəlmandır. [3, s.160]

Müəllif bu məsnəvidə müharibə, qanlı savaşlar əleyhinə çıxış edərək bütün xalqları dostluğa, sülhə və əmin-amanlığa səsləyir.

Məmainin vətənpərvərlik duyğularını əks etdirən bir avtobioqrafik məsnəvisı olduqca maraqlıdır. Şeir müəllifin Gəncəyə olan səfər təəssüratından bəhs edir. Gəncədə olarkən günorta vaxtı məsciddə azanın verilməməsi, zöhr namazının qılınmaması şairin təəccübünə səbəb olur. Şair görür ki, namaz vaxtı küçədə musiqi çalınır, kabab bişirilir, adamlar yığışıb nərd oynayırlar. Bir az sonra orada qalmaqal düşür. Məmai faytona minib oradan uzaqlaşır. Şair Nizami Gəncəvinin xaraba qalmış məqbərəsinin önündə keçirdiyi təəssüf hisslərini obrazlı şəkildə belə qələmə almışdır:

Sordum ki, kimindir o məqami,
Faytonçu dedi ki, Şeyx Nizami.
Qan oldu könül adın eşitcək,
Düşdüm yerə, ol yerə yetişcək.
Torpağa düşüb, öpüb o xakı,
Təvaf eylədim ol məqami-pakı. [3, s.147]

Məmainin bu misraları Seyid Əzim Şirvaninin bu məzmunda yazdığı bir rübaisini xatırladır. Belə ki, Nizami Gəncəvinin dağılmış məqbərəsi böyük sənətkar Seyid Əzim Şirvanini də kədərləndirmişdir. Müəllim vəzifəsindən səbəbsiz yerə azad olunan Seyid Əzim Tiflisə şikayətə gedərkən Gəncədən keçmiş, Nizaminin uçulmuş qəbrini ziyarət edərək təəssüf hissi ilə yazmışdır:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan,
Olmuşmu sənlə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan. [5, s. 348]

Məmainin fikrincə, Nizami "əşarı cahanda əhya edən" nadir ustaddır. Bu misralarda şairin Nizami Gəncəvi dühasına olan dərin rəğbəti açıq-aydın hiss olunmaqdadır:

Ey fəzli-hünərdə türfə ustad,
Hilamü-ədəbü, həyayə mötad.
Olsun sənə lütfi-həqq mədəkar,
Həmvarə müin, yari-qəmxar. [3, s.148]

Məmo bəy Məmainin insanın hiss və duyğularını olduqca təbii ifadə etmək baxımından olduqca orijinal məsnəviləri onun incə ruhlu şair olmasını bir daha təsdiq etməkdədir. Yaradıcılığındakı humanist ideyalar, yüksək bəşəri və insani hisslərin tərənnümü onun XIX əsrin istedadlı sənətkarı kimi səciyyələndirməyə əsas verir.

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, IV cild. Bakı: Elm, 2011, 838 s.
2. Qarayev N. XIX əsr ədəbi məclisləri. Bakı: Nurlan, 2010, 326 s.
3. Məmai M. Şeirlər (tərtib edən: Sevər Cabbarlı). Bakı: Elm və təhsil, 2016, 210 s.
4. Nəvvab M.M. Təzkireyi-Nəvvab (tərtib edən Ə.Bağırov). Bakı: Elm, 2018, 740 s.
5. Şirvani S.Ə. Seçilmiş əsərləri, 3 cilddə, I cild (tərtib edən: S.Rüstəmov). Bakı: Avrasiya Press, 2005, 400 s.

Резюме

ГУМАНИСТИЧЕСКИЕ ИДЕИ В МАСНАВИАХ МАМО БЕКА МАМАЯ - ШУШИНСКОГО ПОЭТА

В статье были включены в анализ маснавы одного из выдающихся поэтов карабахской литературной среды Мамо бека Мамая, написанные на его родном языке. Мамай – лирик. Его творчество состоит из стихов, написанных на его родном языке и персидском языке. В лирике поэта отражена его любовь к родному городу Шуше, высокие патриотические чувства, кровавая резня в Карабахе, террор и бедствия, учиненные армянами.В его стихах выражался протест против социального неравенства, социально-политических недостатков и несправедливостей своего времени. Поэт призывает все народы к дружбе, миру и спокойствию.

Любовные стихи Мамая также написаны на гуманистических и человеческих чувствах. Эти стихи еще раз показывают, что он поэт с тонкой душой. Гуманистические идеи, человеческих чувств в его творчестве подтверждают, что Мамо бек Мамай был талантливым художником второй половины XIX века.

Ключевые слова: Мамо бек Мамай, XIX век, Шуша, маснави, лирика

Summary

THE HUMANIST IDEAS IN MASNAVIES' OF MAMO BAY MAMAI'S - THE POET OF SHUSHA

In the article, the masnavis of one of the outstanding poets of the Karabakh literary environment, Mamo Bey Mamai, written in his native language, were included in the analysis. Mamai is a lyricist. His work consists of verses written in his native language and Persian language. The prominent poet's lyrics reflect his love for his hometown Shushe, high patriotic feelings, bloody massacre in Karabakh, terror and disaster committed by Armenians. In his poems, he expressed a protest against social inequality, social-political shortcomings and injustices of his time. The

poet bitterly condemns the horrors caused by wars, and calls all nations to friendship, peace and tranquility.

Mamai's love poems are also written on humanistic and human feelings. These verses show once again that he sings with a thin soul. Humanistic ideas, praise of man and human feelings in his work confirm that Mamo bek Mamai was a talented artist of the second half of the 19th century.

Keywords: Mamo bey Mamai, XIX century, Shusha, masnavi, lyrics

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: ***filologiya üzrə elmlər doktoru Paşa Əli oğlu Kərimov***
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏHLA A.ABDULLAYEVA
filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Milli Azərbaycan
Ədəbiyyatı Muzeyi
abdullayevashakhla@gmail.com

MUSTAFA ZƏRİRİN "YUSİF VƏ ZÜLEYXA" MƏSNƏVİSİNİN İLKİN MƏNBƏLƏRİ

Xülasə

"Yusif və Züleyxa" rəvayəti Şərq dünyasında, xüsusilə də türkdilli ədəbiyyatda əsrlər boyu sevilən və çox işlənən mövzulardan biri olmuşdur. Bu mövzunun əsasını Yusif peyğəmbərin həyat sərgüzəşti təşkil edib, "Tövrat"da "Yaradılış" kitabının 37-50-ci fəsillərində, daha sonra isə "Qurani-Kərim"in 12-ci surəsində gəlmişdir. Rəvayətin ilkin variantı zaman keçdikcə müəyyən dəyişikliklərə uğramış, lakin əsas süjet və motivlər qorunub saxlanılmış və ədəbi əsərlərdə öz əksini tapmışdır. XIII əsrdən başlayaraq türkdilli xalqların ədəbiyyatında istər nəzm, istərsə də nəsrlə yazılmış əllidən çox "Yusif və Züleyxa" məzmunlu əsərin olduğu məlumdur. Belə əsərlərdən biri XIV əsr Azərbaycan şairi Mustafa Zərirə məxsus "Yusif və Züleyxa" məsnəvisidir.

Hazırkı məqalədə Mustafa Zəririn "Yusif və Züleyxa" məsnəvisinin qısa məzmunu verilir və şairin müraciət etdiyi ilkin mənbələr araşdırılır. Araşdırmanın nəticəsi göstərir ki, Mustafa Zərir "Yusif və Züleyxa" əsərini yazarkən "Yusif" surəsini əsas götürmüşdür. Əsərdən gətirilən nümunələrdən belə məlum olur ki, şair məşhur təfsirlərdə, o cümlədən Cərir Təbərinin, Ətiq Nişapurinin və Meybudinin təfsirlərində nəql olunmuş bir sıra rəvayətləri də öz əsərinə daxil etmişdir.

Açar sözlər: Yusif və Züleyxa, Mustafa Zərir, ilkin mənbələr, "Yusif" surəsi, təfsir

Məlum olduğu kimi, Şərq ədəbiyyatında "Yusif və Züleyxa" süjetinə ən çox türkdilli xalqların ədəbiyyatında müraciət olunmuşdur. Hətta Anadoluda yazıda hakim dil olan fars dilinin yerinə türkcənin keçdiyi XIII əsrdə yazılan ilk məsnəvilər sırasında məhz "Yusif və Züleyxa" məsnəvisinin olması da bu mövzunun türkdilli xalqlar üçün nə qədər özəl və mühüm yeri olmasına bir sübut kimi qəbul edilə bilər. Türkdilli xalqların ədəbiyyatında "Yusif və Züleyxa" mövzusunda ilk əsər XIII əsr şairi Qul Əliyə məxsus "Qisseyi-Yusif" əsəri olmuş, Qul Əlidən sonra bu mövzuya araşdırmalara görə, əllidən çox müəllif müraciət etmişdir. Belə müəlliflərdən biri də XIV əsr şair və nasiri Mustafa Zərir olmuşdur.

Şair haqqında ilkin mənbələrdə heç bir məlumata rast gəlinmir və müəyyən məlumatı yalnız onun öz əsərlərindən əldə etmək mümkündür. Əsərlərinin müxtəlif nüsxələrində verilən qeydlərdən adının Mustafa, atasının adının Yusif, babasının adının Ömər, "Ərzənür-Rumi" nisbəsindən ərzurumlu olduğunu anlayırıq [bax: 3, s.14]. Zərir Ərzurumdakı qarışıqlıqlar üzündən, eləcə də Misirdəki Hənəfi fəqihi Şeyx Əkmələddin əl-Bəbərtinin dəvəti ilə 1377-ci ildə Misirə getmiş, Şeyx Əkmələddinin köməyi ilə Misir sultanı və Atabəy Bərküklə (vəf.1399) tanış olmuşdur. Sultan Bərkükün təşviqi ilə elə onun hüzurunda beş il boyunca "Sirətün-Nəbi" tərcüməsini katiblərə yazdırmış və əsəri h.790/m.1388-ci ildə tamamlamışdır. Sultan Bərkük üsyan nəticəsində taxtdan salındıqdan sonra Zərir də hamisiz qalmış və ailəsilə birgə əvvəl İsgəndəriyyəyə, oradan da Anadoluya keçərək Qaramana yollanmışdır. 1392-ci ildə Şama, oradan da Hələbə gedən şair burada özünə Hələb Məliki Əmir Çolpanın timsalında yeni hami tapır. Şairin ömrünün son illərini harada keçirdiyi və vəfat tarixi haqqında əldə bilgi yoxdur. Bəzi araşdırmalarda Zəririn uzun müddət Ərzurumda qazılıq etməsi də qeyd olunmuşdur [2, s.53;3, s.15].

Anadanəgəlmə kor olduğu üçün şeirlərində "Zərir", bəzən də onun türkcə qarşılığı olan "Gözsüz" təxəllüsündən istifadə etmiş [5, s.498] Mustafa Zəririn "Qisseyi-Yusif" və ya "Yusif və Züleyxa", "Sirətün-Nəbi", "Fütuhüş-Şam tərcüməsi" və "Yüz hədis və yüz hekayə" adlı əsərləri olmuşdur. Şairin "Sirətün-Nəbi" adlı siyər kitabı çox məşhurdur. Əbülhəsən əl-Bəkrinin "əl-Ənvar və miftahüs-sürur vəl-Əfkar fi-Mövludin-Nəbiyyil-Muxtar" adlı əsərinin tərcüməsi olan və h.790/m.1388-ci ildə tamamlanmış bu əsər türkdilli ədəbiyyatda Məhəmməd peyğəmbərin mövluduna həsr olunmuş ilk mənzumədir [3, s.20]. "Yüz hədis və yüz hekayə" tərcüməsi Məhəmməd peyğəmbərdən yüz hədis və hər bir hədisin ardınca həmin hədislə bağlı hekayənin təqdim olunduğu bir əsərdir. Əsərin əvvəlində "ulu dövlətli, yücə himmətli bir bəy"in istəyilə yazıldığı bildirilsə də, həmin şəxsin adı açıqlanmır [4, s.38]. Əsərin yazılma tarixi də bəlli deyil. "Fütuhüş-Şam tərcüməsi" isə Zəririn IX əsr ərəb tarixçisi Vəqidinin eyniadlı əsərinin tərcüməsidir. Əsər h.796/m.1393-cü ildə Hələb Məliki Əmir Çolpanın adına tamamlanmışdır [5, s.498].

Türk alimi L.Karahan Zəririn "Yusif və Züleyxa" əsərinin Azəri türkcəsini təmsil edən əsər olmadığını, əsas etibarilə Əski Anadolu Türkcəsinin dil xüsusiyyətlərini daşıdığını qeyd edir [3, s.26]. Lakin Azərbaycan alimləri C.Qəhrəmanov və Ş.Xəlilov əsərin dil xüsusiyyətlərini araşdıraraq, onun XIV əsr Azərbaycan ədəbi dilində qələmə alındığını sübut etmiş, əksər türk alimləri də Zəririn əsərlərinin dilini "Azəri türkcəsi" kimi dəyərləndirmişlər [bax: 1, s.92]. XIII-XVI əsrlər anadilli Azərbaycan epik şeirinin tədqiqinə dair dəyərli əsərlər müəllifi A.Mirzəyev Zəririn "Yusif və Züleyxa" məsnəvisinin Azərbaycan dili və ədəbiyyatı üçün önəmini belə ifadə edir: *"Bu əsər sonrakı yüzilliklərdə anadilli epik şeirimizin inkişafına da təkan vermiş, onun forma, məzmun, süjet və kompozisiya baxımından zənginləşməsində xüsusi rol oynamışdır"* [1, s.112]. Əsərin bu gün elmə məlum yeganə nüsxəsi İstanbul Universitetində TY-311 şifri altında mühafizə olunan əlyazmanın

tərkibindədir [bax: 1, s.93]. 84 vərəqli bu əlyazmanın 53 vərəqində "Qisseyi-Yusif" yer almışdır. 1954-cü ildə əsər üzərində aparılmış bir elmi tədqiqat əsərində əsərin ikinci bir əlyazma nüsxəsindən söz açılsa da, hal-hazırda həmin əlyazmanın yeri məlum deyil [3, s.25]. Əsər rəməl bəhrindədir və şairin özünün qeyd etdiyi kimi, h.768/m.1366-cı ildə yazılmışdır. 2125 beytdən ibarət olan əsər 8 məclisə bölünmüşdür. Əsərdə həmçinin 21 qəzəl mövcuddur ki, onlardan 8-i Yusifin, 7-i Züleyxanın, 2-i Yaqubun, 2-i şairin, 1-i İbni-Yaminin, 1-i isə saqinin dilindən verilmişdir.

Şair birinci məclisi Yusifin yuxuda on bir ulduz və Ayla Günün ona səcdə etdiyini görməsilə başlayır. Əsas süjet xəttinə uyğun olaraq, yuxudan xəbər tutan və Yusifi öldürmək istəyən qardaşların hiyləsi və Yusifin yalvarışıyla Yaqub Yusifi onlarla səhraya buraxır. Yəhuda qardaşları fikirlərindən çəkindirir və Yusifi quyuya atmağın daha doğru yol olduğunu deyir. Yusifi quyuya atan qardaşlar bir oğlaq kəsib Yusifin köynəyini onu qanına bulayır və Yaquba göstərib Yusifi canavar yediyini bildirirlər. Yaqub inanmayınca, bir canavar tutub onun yanına gətirirlər, lakin canavar dil açıb Yaquba Yusifi yemədiyini söyləyir. Daha sonra şair Yusifin halının bəyanına qayıdır və yenə də hadisələr əsas süjet xəttinə uyğun cərəyan edir: quyu yaxınlığından keçən karvan əhli quyudan su çəkərkən oradan Yusif çıxır. Malik İbn Toğər adlı tacir Yusifi özlərini yeddi təpə aralıdan tez yetirən qardaşlardan on səkkiz aqçaya alır.

İkinci məclis Yusifin anasının qəbri üstündə ağlaması və karvan əhlinin Yusifi incitməsi səbəbindən bəlaya düçar olması haqqında rəvayətlə başlayır. Daha sonra şair oxucuları Züleyxa ilə tanış edir. Məqrib şahının yeganə övladı olan Züleyxa bir gecə yuxuda gözəl bir oğlan görür və aşiq olur. Kim olduğunu soruşduqda, ondan "Məni istəyən Misirə gəlsin" cavabını alır. Məqrib şahı Misir şahına məktub yazaraq, qızının ona ürək bağladığını bildirir, Misir şahı Rəyyanın Əziz adlı vəziri qasidləri qarşılayır və çoxlu sərvət, qul-qaravaş göndərib Züleyxanı istəyir. Züleyxa Əzizlə görüşdükdə, onun yuxudakı gənc olmadığını anlayır, lakin əlacsız qalıb Əzizlə evlənir. Zəririn əsərində Züleyxanın Yusifə aşiq olmasından Yusifin zindana salınmasınadək olan əsas epizodlar digər eyniadlı məşhur əsərlərdəki kimi təsvir olunmuşdur. Lakin onlardan fərqli olaraq bu əsərdə Əziz həqiqəti anladıqda, Züleyxanı öldürmək istəyir, lakin Yusif bunun qarşısını alır.

Rəyyan padşaha zəhər verməyə cəhddə günahlandırılan saqi və çörəkçi də Yusiflə eyni gündə zindana salınır. Saqinin və çörəkçinin gördükləri yuxu Yusif tərəfindən təbir olunur. Sonrakı hadisələr eynilə məşhur rəvayətdə olduğu kimidir: şahın yuxu görməsi, Yusifin yuxunu yozması və şahın Yusifi zindandan çıxarma əmri, Yusifin zindandan çıxmazdan öncə əllərini kəsən qadınlardan həqiqətin öyrənilməsi tələbi, qadınların və Züleyxanın etirafı, Yusifin xahişilə şahın onu mülk üzrə kətxuda təyin etməsi, Əziz öldükdən sonra Yusifin onun yerinə keçməsi və nəhayət, Misirə qul kimi gətirilən Yusifin artıq Misir sultanı olması:

Misrə Yusif sultan oldu ulu,

Qırx idi çavuşları, ey bəxtlü [2, s.71]

Qardaşların Misirə ilk gəlişindən İbn-Yaminin oğurluqda günahlandırıb Misirdə saxlanılması və qardaşların naəlac qalıb onsuz geri dönmələrinədək bütün epizodlar Zəririn də əsərində, cüzi fərqlərlə, yer almışdır. Hz.Yaqub bir müddət sonra oğlanlarını yenidən Misirə yollayır. Qardaşlar Yusifin hüzuruna gəldikdə, o, artıq özünün kimliyini bəlli etməyin vaxtı gəldiyini düşünüb niqabı üzündən açır, qardaşlarının əməllərini bir-bir yadlarına salır, peşman olduqlarını görüb onları əfv edir və Yaqubu da, ailələrini də götürüb Misirə köçmələrini tapşırır. Qardaşlar Kənana yollanıb baş verənləri Yaquba danışırlar. Yaqub Yusifin köynəyini gözünə sürtüncə gözləri açılır və ailəsini də götürüb Misirə yollanr. Yusif öz qırx min qulamı ilə atasının istiqbalına çıxır və Yaqub tez dəvəsindən enib ona doğru qaçır. Beləliklə, 26 illik ayrılıqdan sonra Yaqubla Yusif bir-birinə qovuşurlar. Saraya gəlib taxtında əyləşən Yusifin qarşısında qardaşları baş əyirlər və Yusif yuxusunun çin olduğunu söyləyir:

Aydır, ol duş budur, ey qardaşlarım,
Kim, yalansın dediniz yoldaşlarım.
Ayü Gün, on bir dəxi yıldızları
Səcdə qıldı bana bunlar cümlə, ey əxi [2, s.109]

Daha sonra şair diqqəti Züleyxaya yönəldir: Yusif gəzintidə olarkən, Züleyxanın yoluna çıxıb ona səslənməsi, ahü zar edərək öz eşqindən danışması, yelin Züleyxanın səsini Yusifə yetişdirməsi, Züleyxanın öz eşqinin isbatı kimi ahı ilə Yusifin qamçısını alışdırması, Yusifin Züleyxanı sarayına aparması, Yusifin duası ilə Züleyxanın yenidən cavanlaşması, Yusiflə Züleyxanın evlənməsi, Yusifin Züleyxanın dalınca qaçarkən köynəyini arxadan tutub cırması, cüzi fərqlərlə Zəririn də əsərində öz əksini tapmışdır.

Zərir məsnəvini Yaqub oğullarının, Yaqub ailəsinin bir-birinə qovuşmasına işarətlə bitirir. Daha sonra şair əsərin yazılma tarixinə işarə edir:

Yedi yüz altmış səkizdə söylədim,
Buncılayın dastan şərh eylədim.
Pəs çəharşənbə günü başladım,
Yekşənbə günündə xətm eylədim [2, s.119-120]

Sonda şair gəlib-getmiş peyğəmbərlərin adlarını sadalayır, onların bu dünyada yalnız adlarının baqi qaldığını söyləyir və əsəri yazana, dinləyənə və oxuyana İlahidən rəhmət istəyərək əsəri bitirir.

Mustafa Zərinin "Yusif və Züleyxa" əsərinin qısa məzmunundan anlaşıldığı kimi, şair Qurani-Kərimin 12-ci surəsi olan "Yusif" surəsini əsas tutmuş, lakin özündən əvvəl bu mövzuda yazılmış digər əsərlərdən və təfsirlərdən bəhrələnmişdir.

Zərir "Yusif" surəsinin nazil olması haqqında iki rəvayət danışır: bir yəhudinin Hz.Ömərə öz kitablarındakı Yusif əhvalatının müsəlmanlarda olmadığını deməsi və Cəbrayılın Məhəmməd peyğəmbərə Yusif qissəsini gətirməsi və hicrətdən sonra Mədinədə müsəlmanların Peyğəmbərdən könüllərini açacaq bir qissə danışmasını

istəmələri və Cəbrayılın Yusif surəsini Peyğəmbərə gətirməsi. Şair bu rəvayətləri İbn Abbasdan misal gətirdiyini də qeyd edir:

Bir rəvayət İbn Abbas eylədi,
Ol ki, təğyirdə kəlami söylədi.
Kim, nədən oldu nüzulinə səbəb,
Mustafayə verəydi ol fərdi-rəbb [2, s.10].

Zərir Yusifin başına gələn əhvalatın səbəbi kimi məşhur müfəssir Əbül-Fəzl Rəşidəddin Meybudinin (XII əsr) görkəmli mütəsəvvif Abdulla Ənsarinin (1006-1089) bu gün əldə olmayan təfsirindən bəhrələnərək qələmə aldığı "Kəşfül-əsrar və uddətül-əbrar" adlı əsərində yer almış Yaqubun Yusifə süd vermək üçün aldığı qaravaşın oğlunu satması və qaravaşın ona qarğışı haqqında rəvayəti [7, s.475] nəql edir. Yusifin güzgüyə baxıb qürrələnməsi və bu səbəbdən dəyərsiz qiymətə satılma ilə cəzalandırılması da Meybudinin təfsirindəndir [7, s.473].

Yusifin zindanda yuxusunu yozduğu saqi zindandan çıxdıqdan sonra bir gün bağda gəzən Züleyxa onu görüb, Yusifin halını soruşur. Saqi Yusifin gününün çox xoş keçdiyini deyincə, Züleyxa qəzəblənib zindan qapısına gəlir, nökərə bir çubuq verib onunla Yusifə yüz şallaq vurmasını tapşırır. Yusif zindanbana yüz ağac şallaq yeyərsə, öləcəyini bildirir və vəsiyyət edir ki, ölərsə, Yaquba xəbər yollasınlar:

Bən də bu zərbdən ölərəm, ey kişi,
Namə yazgil, Kən`anə göndər bir kişi.
... Ayıdasın kim, yavrucağını sənin,
Misr içində aldılar canın anın [2, s.59].

Zindanban bu sözlərdən çox təsirlənir və Yusifə tapşırır ki, o, balışa vurduqca, Yusif qışqırsın. Züleyxa da Yusifin qışqırığını eşidib, ah və fəryad edə-edə çıxıb gedir. Həmin rəvayət də Meybudinin təfsirində yer almışdır [7, s.480].

Zəririn müraciət etdiyi digər əsər isə Cərir Təbərinin (839-923) təfsiridir. Yusifin anasının qəbri üstündə ağlaması və karvan əhlinin Yusifi incitməsi səbəbindən bəlaya düçar olması haqqında rəvayət məhz Təbəri təfsirindən götürülmüşdür [6, s.772-773]. Rəyyanla Yusifin müxtəlif dillərdə danışması, Rəyyanın ibranicə bilməməsi epizodunun mənbəyi isə Surabadi kimi tanınan Əbu Bəkr Ətiq Nişapurinin (vəf.1100) təfsiridir [8, 49].

Ümumiyyətlə, Zəririn özü qeyd edir ki, bu qissə ilə bağlı çox sayda rəvayətlər mövcuddur və o, bunlardan sadəcə kiçik bir hissəsini, "yüz mində birini" qələmə almışdır:

Kim yetürə bu sözə şərhü bəyan,
Bində birisini eylədük həman.
Bən dəzi yüz bində birin söylədüm,
İrdüküncə qüvvətim, şərh eylədüm [2, s.119].

Beləliklə, yuxarıda şərh olunanlardan göründüyü kimi, Mustafa Zərir "Yusif və Züleyxa" məsnəvisini qələmə alarkən Qurani-Kərimdən və təfsirlərdən bəhrələnmişdir. Şair özü neçə yerdə İbn Abbasdan misal gətirdiyini yazır, həmçinin

əsərin əvvəlində İbn Abbasdan "Yusif" surəsinin nazil olması haqqında iki rəvayət də öz əksini tapmışdır. Şair həmçinin müxtəlif təfsirlərdən, o cümlədən Cərir Təbərinin, Ətiq Nişapurinin və Meybudinin təfsirlərindən bir çox məşhur rəvayətləri öz əsərinə daxil etmişdir. Bununla yanaşı, Zərir öz təxəyyül gücünə uyğun olaraq ümumi süjet xəttinə bir sıra epizodlar əlavə etmiş, eləcə də bir sıra səhnələrin təsvirində sələflərindən fərqli üsula əl atmış və Azərbaycan epik şeirinin təşəkkül tarixinin, habelə ədəbi dil tariximizin öyrənilməsi baxımından böyük əhəmiyyətə malik dəyərli bir əsər yaratmağa müvəffəq olmuşdur.

İstifadə olunmuş ədəbiyyat:

1. Mirzəyev Ataəmi. XIII-XVI əsrlər anadilli Azərbaycan epik şeiri (dərs vəsaiti). Bakı: "Avropa" nəşriyyatı, 2017, 192 s.
2. Zərir Mustafa. Yusif və Züleyxa. Transfoneliterasiya edən və ön sözün müəllifi: Şaməddin Xəlilov. Bakı: "Şərq-Qərb", 2006, 128 s.
3. Erzurumlu Darir. Kıssa-i Yusuf. Hazırlayan: Karahan Leyla. Türk Dil Kurumu Yayınları, 1994, 431 s.
4. Erzurumlu Mustafa Darir. Yüz Hadis Yüz Hikaye. Haz.: Selahattin Yıldırım, Necdet Yılmaz. İstanbul, Darulhadis Yayınları, 2007, 223 s.
5. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. Cilt 8: Cilve-Darünnedve. Ankara: TDV, 1993, 1734 s.
6. ترجمه تفسیر طبری. مجلد سوم از هفت مجلد. بتصحیح و اهتمام حبیب یغمایی. تهران: انتشارات توس، ۱۳۵۶، ص ۵۴۸ تا ۸۲۲
7. میبدی، احمد بن محمد. کشف الاسرار و عدة الابرار، تفسیر ادبی عرفانی خواجه عبدالله انصاری. در دو جلد، جلد اول. تهران: اقبال، ۱۳۶۹، ۵۸۲ ص
8. یوسف و زلیخا. از تفسیر فارسی تربت جام. به کوشش دکتر پرویز ناتل خانلری. تهران: امیرکبیر، ۱۳۶۵، ۷۶ ص

Shahla A.Abdullayeva,
PhD in Philology

PRIMARY SOURCES OF THE POEM "YUSUF AND ZULAIKHA" BY MUSTAFA ZARIR

Abstract

The legend about Yusuf and Zulaikha for centuries was one of the most commonly used and favorite themes in the East, especially in Turkic literature. The life story of Prophet Joseph, as told in Torah (Genesis, 37-50) and the 12th surah of the Holy Qur`an, served as the inspiration for this theme. With time, the original version of this parable, given in the sacred books, underwent changes. However, the main motifs were preserved and reflected in literary works. It is known that since the XIII century in the literature of the Turkic-speaking peoples, there have been more than fifty works of "Yusuf and Zulaikha" written in verse or prose. One of them is "Yusuf and Zulaikha" of the 14th century poet Mustafa Zarir.

This article is dedicated to the research of the primary sources of the poem “Yusuf and Zulaikha” and gives a brief overview of the poem. The result of research showed that Mustafa Zarir took Sura Yusuf as a basis and also turned to the commentaries of Holy Qur`an. Based on the examples given from the poem, it became known that the poet included in his work some episodes that took place in many commentaries, including Tafsiri-Tabari, commentaries by Abu`l-Fazl Meybodi, as well as the 11th century poet Abu Bakr Atik Nishapuri, known as Surabadi.

Keywords: Yusuf and Zulaikha, Mustafa Zarir, primary sources, Sura Yusuf, commentaries of the Holy Qur`an

Шахла А.Абдуллаева,
доктор философии по филологии

ПЕРВОИСТОЧНИКИ ПОЭМЫ «ЙУСУФ И ЗУЛЕЙХА» МУСТАФЫ ЗАРИР

Резюме

Легенда о Йусуфе и Зулейхе на протяжении столетий являлась одной из широко используемых и любимых тем в восточном мире, особенно в тюркоязычной литературе. Эта легенда берет свои истоки из истории об Иосифе Прекрасном в главах 37-50 «Бе-решит» в Торе и в 12-й суре Священного Корана. Со временем первоначальная версия притчи подверглась изменениям, но основной сюжет и мотивы притчи были сохранены и отражены в литературных произведениях. Известно, что начиная с XIII века, в литературе тюркоязычных народов насчитывается более пятидесяти произведений «Йусуф и Зулейха», написанных в стихах и прозе. Одним из этих произведений является поема «Йусуф и Зулейха» азербайджанского поэта XIV века Мустафы Зарир.

В настоящей статье дается краткое содержание поемы «Йусуф и Зулейха» и исследуются его первоисточники. Опираясь на тщательный анализ материала, можно прийти к выводу, что Мустафа Зарир, взял за основу суру «Йусуф», а также обратился к комментариям к Корану. На основе приведенных примеров из поэмы, видно, что поэт включил в свое произведение некоторые эпизоды, имевшие место во многих комментариях, таких как тафсир Джарира ат-Табари, тафсиры Абу-ль-Фадла Мейбуди и поэта XI века Абу Бакра Атика Нишапури, известного как Сурабади.

Ключевые слова: Йусуф и Зулейха, Мустафа Зарир, первоисточники, сура «Йусуф», тафсиры

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: *akademik Möhsün Nağısoylu*
tərəfindən çapa tövsiyə olunmuşdur

Phd, head teacher, **BABAYEVA MALAHAT RAMIZ GIZI**
ASPU, Department of Literatura
milababayeva@mail.ru
https://orcid.org/0000-0002-3600-8499

UOT-5719.01

ORAL SPEECH AS A SEMIOTIC OBJECT IN FOLKLORE

Summary

The article talks about oral speech acting as a semiotic object in folklore studies.A widely used technique for creating multi-channel communication is the formation of synthetic artistic forms: the combination of a verbal artistic text with music, dramatic action, and image. This phenomenon turns out to be persistently inherent in artistic speech in any era, and at the same time does not occur at all, or takes place to a minimal extent, outside of artistic texts.

A description of the opposition between two semiotic types helps to understand one of the functions of literature, and more broadly, of any art (since any art is realized in the form of a fixed text and at the same time has the features of hyperstructurality and openness of meaning) in the semiotic mechanism of culture. relegated either to the periphery of culture, or, in the central area, to the role of a secondary and auxiliary means - artistic speech incorporates an open semiotic mechanism into the central area of culture, asserting it there as a full and integral part of the "written" type of culture.

Thus, the task is to give a culturological projection of the differences between oral and written speech, explaining the specifics of their semiotic assimilation. To do this, however, it is necessary first of all to focus on the features of semantics, the features of the construction of meaning that arise within the framework of these two modes of communication, bearing in mind all the features of the plane of expression as a secondary reflection of this profound difference. Therefore, our study assumes the presence of two main parts: a) elucidation of the features of written and oral speech from the point of view of their semantic mechanism and b) interpretation of these features as cultural functions that play a certain role in the development of the semiotic mechanism of culture.

The solution of such a problem, on the one hand, could contribute to a better understanding of the characteristics of oral speech and possible ways of its further description; on the other hand, progress in this area could have more general consequences for semiotic description, from the point of view of elucidating the interaction between the various constituent parts of the semiotic mechanism.

Keywords: oral speech, folklore, semiotics, object, theory, comparison, dual channel

Annotation. As you know, oral speech is primary in relation to written language - both in the history of each language and in the language development of each individual speaker. However, it is also known that genetic primary does not always coincide with functional primary. It is precisely such a discrepancy that we can observe in this case: despite the obvious primacy of oral speech, a very stable tradition has developed, due to which oral speech is perceived against the background of written speech and in the parameters of this latter.

Methods: Comparative, theoretical analysis and generalization; qualitative empirical methods: observation, interview).

Introduction. Even in phonetics, an area that, it would seem, obviously should have been emancipated within the framework of proper oral speech, the influence of the graphic image has been and remains decisive. Even at the beginning of the last century, it had a directly naive form of identifying sounds with letters. However, the subsequent intensive development of phonetics and phonology did not change this situation in principle, since this development proceeded almost exclusively within the framework of segment units, that is, those that correlate with graphic units, or, in any case, can be brought into such a correlation. with the help of transcription; at the same time, relatively little is known about the melody of oral speech, i.e., those components of its sound that cannot be directly reproduced in the form of recording developed by the written tradition. Thus, the sound of oral speech actually appears as a sound correlation of writing.

1. To an even greater extent, this provision applies to other components of oral speech - syntax, semantics - the specifics of which are not as obvious as the specifics of the material form. Linguistics knows, in essence, only one syntax, and this is the syntax of written speech: the syntax of linear chains of "words" organized according to certain rules into "sentences". Only very recently has there been an increased interest in the study of the specific syntax of colloquial speech, studied on the basis of authentic records. (2, 34) This direction seems to be very important (we will return to the question of its more general cultural significance at the end of this work). His great achievement is the gradual emancipation of the description of colloquial speech, the desire to present the latter as an independent system, with its own positive features, and not just in the form of a modification of the standard (codified) language. However, for this kind of research, for example, the following problem remains unresolved: how to describe the interaction of the melody of oral speech (almost not yet studied) and its syntactic construction? Because of this, the actual subject of the description is, in fact, a recording of colloquial speech; the inventory of syntactic phenomena is significantly expanding, but at the same time remains within the framework of those parameters that can be captured by the record (so to speak, syntactic transcription) formed by the written tradition. The parallelism with what was said above about the development of phonetics is clear enough.

Finally, the question of the specific semantics of oral communication has not yet been raised even in principle. True, monograph contains a well-developed section on nomination in colloquial speech. This section, however, can rather be identified with the lexicology of colloquial speech than with semantics, understanding the latter as ways of constructing meaning. speech and character (parameters, differential features) of meaning. In this last area, we have as yet nothing that can be compared with modern works that describe the meaning of codified written speech3. Meanwhile, without such a study, it is hardly possible to speak of colloquial (or oral, or spontaneous) speech 4 as a special system, a special variety of language. Without posing this problem, it is also impossible to fully understand the functions and place of this variety in the general system of language activity. As a result, studies that are limited to describing the plan of expression of oral (conversational) communication inevitably come to describe it as a second, "marked" phenomenon, regardless of the intention of the researchers.(5, 67)

So far, we have been talking about the reproduction of oral speech in the scientific mind. However, the everyday linguistic consciousness of an ordinary literate native speaker (that is, within the framework of European culture at the present time, an ordinary native speaker of this culture) has the same defining features. This is not surprising, since schooling to a very large extent forms the speaker's linguistic reflection, sets the parameters in which he gets used to thinking about language; and school language learning is, firstly, the teaching of writing, and secondly, a more or less distant reproduction of the science of language. A person who has only just learned to read and write already knows that there are "words", that words have a "meaning", that words and their meanings add up to "sentences" and the meanings of sentences - to "thoughts", that the words themselves consist of letters (sounds), etc. - and only in these parameters can he now comprehend any speech phenomenon, in accordance with the only codification at his disposal. (1, 54)

2.It can be said that the bearer of the written culture of modern times - from a schoolboy who has just learned to read to a professional philologist - exists in the setting of a kind of legend, a myth about oral speech, formed in the conditions and traditions of written culture. It turns out to be extremely difficult to break through the stylized cultural reproduction of a given phenomenon and reconstruct its "domythological" features. It is a paradoxical fact that one has to talk about the reconstruction of a phenomenon that is daily observed and accompanies us at every step.

However, it would not be enough to assess the current situation only from the point of view of the difficulties that it causes in the way of understanding and describing oral speech. It seems essential to look at this phenomenon as a positive fact that has a certain historical and cultural meaning. In other words, not so much to complain about the orientation of the linguistic and school tradition towards the

"philological" written sphere, but rather to explain the reasons why this tradition has developed.

At the same time, as one of the possibilities, a concrete historical explanation can be proposed, such as, for example, an indication of the role of a dead (existing only in written texts) language (Latin, or Ancient Greek, or Church Slavonic) as the language of culture and education, and accordingly the role of Latin grammars as a model in creating the grammars of new languages". But such an explanation, in turn, leaves open the question of why at a certain stage in the development of culture in the most diverse areas there is a need to focus on a dead language fixed in writing (in any case, it remains it is not clear what are the actual linguistic aspects of this need). speech, - this means that this phenomenon has some common causes associated with the features of the corresponding cultural mechanism - features that are stable, preserved over a long period of development.

Thus, the task is to give a culturological projection of the differences between oral and written speech, explaining the specifics of their semiotic assimilation. To do this, however, it is necessary first of all to focus on the features of semantics, the features of the construction of meaning that arise within the framework of these two modes of communication, bearing in mind all the features of the plane of expression as a secondary reflection of this profound difference. Therefore, our study assumes the presence of two main parts: a) elucidation of the features of written and oral speech from the point of view of their semantic mechanism and b) interpretation of these features as cultural functions that play a certain role in the development of the semiotic mechanism of culture.

The solution of such a problem, on the one hand, could contribute to a better understanding of the characteristics of oral speech and possible ways of its further description; on the other hand, progress in this area could have more general consequences for semiotic description, from the point of view of elucidating the interaction between the various constituent parts of the semiotic mechanism.

The first feature of oral speech is its irreversibility. Any written text is a visible sequence of elements. This sequence can be grasped by the eye, for some extent, as a whole, in the aggregate of several successive elements; you can retrospectively return to any already passed point or section of the text; it is possible, further, to directly visually establish a connection between any two, arbitrarily distant from each other, points (sections) of the text.

All these possibilities are completely absent in oral speech, and in non-spontaneous speech to the same extent as in spontaneous speech. Oral speech is an irreversible change of states, so that at each time point only one segment of the text is perceived (this minimum segment, the unit of temporal pulsation of oral speech, is apparently a syllable). Impossible direct perception of several segments in the aggregate; this manifests the specificity of auditory perception, which is linear in essence, in comparison with visual perception, capable of changing the reference

point and, accordingly, the volume of the area covered by a one-time perceptual act - a specificity that largely determined the structural relationship between fine arts and music. It is also impossible to return to any state once passed: repetitions and corrections, which are very frequent in oral speech, do not change anything in this respect, since they do not cross out previously passed (repeated or corrected) phenomena, but replace them in temporal succession.

Speaking of these operations, we mean, of course, the impossibility of their implementation only in the sphere of direct perception, and not in the memory or imagination of the speaker or listener. In this regard, it is curious that the appearance of means of fixing and reproducing oral communication does not fundamentally change anything in their relationship with written speech in terms of these features, since even with an arbitrarily large number of listening to the recording, the irreversibility of the speech flow and the purely mental nature of all produced operations on it are completely preserved, although the very volume and content of these operations can change significantly in comparison with one-time perception.

This difference, i.e., the possibility of only mental operations of comparison, connection, retrospection, etc. over an oral text, determines much in the nature of both the construction and perception of the latter.

To solve the problem, it is necessary, first of all, to define the subject of research more precisely, separating it from that complex network of mutually intersecting and overlapping parameters that form the material form, function, situation, subject of the message, the nature of the relationship between the addressee and the addressee, the personological characteristics of the participants in communication, etc. e. We must find out which (or which) of these parameters isolate the subject in an optimal way to determine its semantic, and further culturological specificity.

The earliest in time is the functional-stylistic division of linguistic activity in the linguistic representation. At the first stage of the study of the problem, this division acted as the only one, so that, for example, the material form of the message was completely ignored: "bookish" speech, without any differentiation, was considered both in written and in its oral manifestations7.

The second approach consists in recognizing the equality of several parameters and, as a consequence of this, a fundamentally different definition of the subject. A detailed implementation of this approach is currently found in O. B. Sirotinina, who takes into account in the definition of colloquial speech both its form (oral spontaneous), and the nature of its flow (dialogue), and situational conditions (personal communication, in contrast to mass communication) (9, 45) ; the unifying factor that allows us to reduce these parameters to one object is ease as a condition for the flow of colloquial speech.

Finally, the third approach interprets the oral form (or rather, the spontaneous oral form) of speech as a determining factor, although not the only one, but giving

the main division, in which all other features play the role of additional determinants. This approach is found in the works of O.A. Lapteva. This approach also corresponds to the term "oral colloquial variety of the literary language" introduced by her.

All these approaches make sense from the point of view of certain research problems, the optimal solution of which they are aimed at. Thus, the functional definition of colloquial speech works well in describing the features of its plan of expression - phonetics, morphology, syntax, lexical composition - considered within a single phrase; it is this side that is the subject of description in the monograph "Russian Colloquial Speech". Taking into account the spontaneous oral form of speech allows us to set broader tasks: to show the specifics of the structure of a conversation as a whole text, that is, to go beyond the structure of one statement (9, 137); better understand the specifics of the reproduction of oral speech in writing, in particular in fiction (3, 87); finally, to show everything that unites the implementation of oral speech in various stylistic areas (4, 109)

Thus, the attitude towards the form of speech makes it possible to show more general patterns of its structure as a whole, while the stylistic attitude better focuses the characteristic features, so to speak, of the microstructure of the object. In this regard, the first of the approaches mentioned here is closer to the objectives of the present study. The more we move away from the specific situational conditions of communication and limit ourselves only to the nature of the code used, the more dispersed the material becomes in terms of the specific choice of language units and their combination, but at the same time, some maximally general quality is revealed, which is the most important for us - fundamental awareness of communication, the nature of mental activity associated with a speech act, which is determined primarily by the material form of the embodiment of speech. It is the opposition of oral - written speech that reveals such features as the presence of vs. the absence of communicative means additional to the verbal sequence, on the one hand, and the possibility of vs. the impossibility of getting out of the temporal flow of speech (retrospections), on the other hand, features that, as we will try to show in the future, are of fundamental importance for the very nature of the “experience” by the sender and addressee of the communicative process (7, 53).

It must be said that even in those works that emphasize the importance of the form of communication, it is not so much the opposition of oral and written forms as such that is meant, but rather spontaneous and non-spontaneous speech16, that is, the opposition in the form of a code turns out to be complicated by pointing to one parameter that characterizes the characteristics of the situation communication. In our approach, aimed at the maximum delimitation from situational features and revealing the properties of the code as such, we also remove this limitation. It should be emphasized that the influence of the form of speech itself on the mental side of the speech act is so great that even non-spontaneous oral speech, in principle, does

not differ from spontaneous speech in this respect. Indeed, it must be borne in mind that during non-spontaneous pronunciation (reading by heart, reading out a finished written text), if circumstances change, then only for the speaker, but not for the listener; in other words, non-spontaneous transmission is combined with spontaneous reception, which is fundamentally different from the reception of written communication. It can be further assumed that the speaker intuitively feels this specificity in the perception of this kind of communication, and this, in turn, leaves a certain imprint on the way of constructing his non-spontaneous speech, which makes the latter a specific phenomenon even from a structural point of view; cf., in particular, the active use in this case of changes in tempo, timbre, speech dynamics, as well as gestures and facial expressions, that is, means that are absent in written transmission.

Thus, from the point of view of the nature of the formation of meaning, and, consequently, the role in the stratification of the semiotic mechanism of culture, any oral speech can be considered as a single phenomenon, with all the differences in the method of its implementation, themes, situations and tasks of communication. This concept of oral speech, which we will operate with in the future, differs both from everyday style, as a functional variety not associated with a specific form of implementation, and from colloquial speech, as a form of spontaneous. communication.

At the same time, it must be recognized that various spheres of oral speech, being all without exception marked by features that fundamentally unite them, do not implement these features to the same extent, and in connection with this, their specificity within the framework of oral speech and their opposition to written speech turn out to be unequal. From this point of view, everyday colloquial speech more clearly implements the specifics of oral communication than public speaking, and even more so reading a written text.(8, 116) However, these differences do not remove the basic principle by virtue of which the choice of written or oral form itself imparts specific features to speech, appearing through all the functional articulations and specifications of speech.

This reasoning evokes obvious reminiscences with W. Yngve's depth hypothesis. However, Yngve considers the difficulties that arise in the construction of a sentence as a purely syntactic phenomenon - the result of certain properties of the syntactic structure that passes a certain critical threshold of depth. We also include in our consideration the pragmatic aspect of this phenomenon, having in mind not so much the cases of complex left-handed branches of the syntactic tree (not so frequent in speech) (7, 187), but the incomparably more widespread uncertainty about what kind of information and for how long should be stored in random access memory. We proceed from the fact that with a sufficiently long sentence (even with a simple syntactic structure and shallow depth), the speaker does

not have, either in oral speech or in the process of writing, an exact plan and completes the general pattern of the phrase in the course of its generation.

Everything said here about separate relatively extended sentences becomes even more relevant if we turn to the construction and adoption of sequences of sentences - parts of a text and a coherent text as a whole. Here, semantic and formal connections (agreement between the name and; its substitutes, etc.) can pass through points of the text even more distant from each other and be even less predictable than within a single sentence. In addition, the linked objects themselves can turn out to be very voluminous units - up to entire inter-phrase blocks - which it turns out to be necessary to cover entirely in order to make the necessary syntactic or semantic correlation: to fix the continuation of a certain thematic line, to establish the correct modal-temporal plan or the correct correlation of names and etc. At the same time, it is obvious that the forecast of the further development of the text by the addresser and the addressee himself is quite approximate, and at the same time the idea of what and how may be needed in the future from current speech phenomena.

It should not be thought that the described phenomena are connected exclusively, or even predominantly, with official or fictionalized speech, that is, with the situationally conditioned need for careful finishing and clear planning of the text. In informal correspondence, in diary entries, etc., we encounter similar elements of the activity of the writer and the reader: stopping, thinking about the next phrase, rereading, inserting, correcting, etc. are quite widely represented in this area. It can be said that the volume and complexity of this kind of work is more related to the length of the text than to its functional scope: a short, few-word business note, statement, etc. can rather be written (and read) "in one breath", without breaking the temporal flow of the text than a long private letter.

The result of all this is a clearly structured character of written speech. All syntactic requirements here can be exactly met, since our memory and ability to predict are secured by the diverse possibilities of exiting the temporal flow of speech; therefore, these requirements must be met.

As a result, the text clearly fixes the connections between those points, and only those for which these connections are provided for by the language rules, and such. connections, and - only those prescribed by these rules. In this case, each act of establishing a connection means at the same time a certain restriction. Indeed, if in the sequence of elements of the text ABC we define between A and B a connection of the form (A dominates B in the parameter x), then we will also determine that between A and B does not exist; other (alternative) connections, and that this connection does not exist in other directions, between other elements of this text. As a result, both the syntactic and semantic structure of the text appears in the form of a structure - a diagram with a clearly defined position of each element relative to other elements, with arrows of connections (dependencies) between elements, etc. - i.e. in the form in which, in In principle, the representation of the language within the

framework of various variants of the generative model corresponds to the principle (the question of the greater or lesser adequacy of one or another of these variants is not discussed here). The semantic components of the text (elementary signs - morphemes, words, idioms) act as discrete components of the general meaning of the phrase and, ultimately, the entire text; the derivation of meaning is regulated and complies with structural rules. We can say that the meaning of a certain phenomenon (phrase, phrase, interphrase block) is entirely determined by the nature of its components and the nature of the connection between them; it remains identical to itself in all cases of the use of this phenomenon in written speech. Of course, there are alternative possibilities of semantic interpretation, which are allowed in a wider context; but these alternatives themselves are finite and all can be defined within the framework of a given linguistic phenomenon.

Refernces

1. Vinogradov VV Results of the discussion of stylistics. - "Questions of linguistics", 1955, No. 1.

2. Volotskaya Z. M., N i k a e v a T. M., Segal D. M., Tsi v y i T. V. Zhsstopaya communication and its place among other systems of human communication. - In the book: Symposium on the structural study of sign systems. M., 1992, 564

3. G o l'din V. E. On the stylistic factor in the distribution of orthographic variants (on the material of spellings with extended letters in the Synodika of the 16th century). - "Questions of style", vol. 8. Saratov, 2004, 321

4. DeeringerD. Alphabet. M., 1993, 623

5. Dolin,i and K. A. Spontaneous speech as an object of linguistic research. - "Theory and practice of linguistic description of colloquial speech", vol. 4. Gorky, 2003, 342

6. Dolinin K. A. Role structure of communication and colloquial speech. - "Theory and practice of linguistic description of colloquial speech", issue 7, part I. Gorky, 1976, 238

7. Dyakonov I. M. Introduction to the book: D. D'i ringe r. Alphabet. M,, 2003, 323

8. Lotmai Yu. M., Uspensky B. A. On the semiotic mechanism of culture. - "Proceedings on sign systems", no. 5, Tartu, 2021, 456

9. Meletiisk and E. M. Poetics of Myth. M., 2006, 623

Xülasə

Məqalədə şifahi nitqin folklorşünaslıqda semiotik obyekt kimi çıxış etməsindən bəhs edilmişdir. Çoxkanallı ünsiyyət yaratmaq üçün geniş istifadə olunan üsul sintetik bədii formaların formalaşmasıdır: şifahi bədii mətnin musiqi, dramatik hərəkət və görüntü ilə birləşməsi. Bu fenomen hər hansı bir dövrdə bədii nitqə davamlı olaraq xas olur və eyni zamanda bədii mətnlərdən kənarda ümumiyyətlə baş vermir və ya minimal dərəcədə baş verir.

İki semiotik tip arasındakı ziddiyyətin təsviri ədəbiyyatın, daha geniş mənada isə hər hansı bir sənətin funksiyalarından birini başa düşməyə kömək edir (çünki hər hansı bir sənət sabit mətn şəklində həyata keçirilir və eyni zamanda hiperstrukturluq xüsusiyyətlərinə malikdir. məna açıqlığı) mədəniyyətin semiotik mexanizmində. ya mədəniyyətin periferiyasına, ya da mərkəzi ərazidə ikinci dərəcəli və köməkçi vasitə roluna salınır - bədii nitq mədəniyyətin mərkəzi sahəsinə açıq semiotik mexanizm daxil edir, onu orada mədəniyyətin tam və ayrılmaz hissəsi kimi təsdiqləyir. "yazılı" mədəniyyət növü.

Beləliklə, vəzifə şifahi və yazılı nitq arasındakı fərqlərin kulturoloji proyeksiyasını vermək, onların semiotik assimilyasiyasının xüsusiyyətlərini izah etməkdir. Bunun üçün isə, ilk növbədə, ifadə müstəvisinin bütün xüsusiyyətlərini nəzərə almaqla, semantikanın xüsusiyyətlərinə, bu iki ünsiyyət tərzi çərçivəsində yaranan məna konstruksiyasının xüsusiyyətlərinə diqqət yetirmək lazımdır. bu dərin fərqin ikinci dərəcəli əksi kimi. Buna görə də tədqiqatımız iki əsas hissənin mövcudluğunu nəzərdə tutur: a) yazılı və şifahi nitqin xüsusiyyətlərinin onların semantik mexanizmi baxımından aydınlaşdırılması və b) bu xüsusiyyətlərin inkişafında müəyyən rol oynayan mədəni funksiyalar kimi şərh edilməsi. mədəniyyətin semiotik mexanizmi.

Belə bir problemin həlli, bir tərəfdən, şifahi nitqin xüsusiyyətlərini və onun sonrakı təsvirinin mümkün yollarını daha yaxşı başa düşməyə kömək edə bilər; digər tərəfdən, bu sahədə irəliləyiş semiotik mexanizmin müxtəlif tərkib hissələri arasında qarşılıqlı əlaqənin aydınlaşdırılması baxımından semiotik təsvir üçün daha ümumi nəticələr verə bilər.

Açar sözlər: şifahi nitq, folklor, semiotika, obyekt, nəzəriyyə, müqayisə, ikili kanal

УСТНАЯ РЕЧЬ КАК СЕМИОТИЧЕСКИЙ ОБЪЕКТ В ФОЛЬКЛОРЕ

РЕЗЮМЕ

В статье говорится об устной речи, выступающей как семиотический объект в фольклористике. Широко применяемым приемом создания многоканальной коммуникации является формирование синтетических художественных форм: сочетание словесного художественного текста с

музыкой, драматическим действием, образом. Это явление оказывается устойчиво присущим художественной речи любой эпохи и в то же время вообще не встречается или имеет место в минимальной степени вне художественных текстов.

Описание противопоставления двух семиотических типов помогает понять одну из функций литературы, а шире — любого искусства (поскольку любое искусство реализуется в виде фиксированного текста и в то же время имеет черты гиперструктурированности и открытость смысла) в семиотическом механизме культуры. отодвигается либо на периферию культуры, либо в центральной области на роль второстепенного и вспомогательного средства - художественная речь вводит открытый семиотический механизм в центральную область культуры, утверждая ее там как полноценную и неотъемлемую часть «письменный» тип культуры.

Таким образом, задача состоит в том, чтобы дать культурологическую проекцию различий между устной и письменной речью, объяснив специфику их семиотического усвоения. Для этого, однако, необходимо прежде всего остановиться на особенностях семантики, особенностях смыслового построения, возникающих в рамках этих двух способов общения, имея в виду все особенности плана выражения. как вторичное отражение этого глубокого различия. Поэтому наше исследование предполагает наличие двух основных частей: а) выяснение особенностей письменной и устной речи с точки зрения их семантического механизма и б) трактовка этих особенностей как культурных функций, играющих определенную роль в развитии семиотического механизма культуры.

Решение такой задачи, с одной стороны, могло бы способствовать лучшему пониманию особенностей устной речи и возможных путей ее дальнейшего описания; с другой стороны, прогресс в этой области может иметь более общие последствия для семиотического описания с точки зрения выяснения взаимодействия между различными составными частями семиотического механизма.

Ключевые слова: устная речь, фольклор, семиотика, объект, теория, сравнение, двухканальность.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: akademik Muxtar İmanov
tərəfindən çapa tövsiyə olunmuşdur

XAVƏR FKRƏT QIZI NƏSIRLI
BDU-nun Azərbaycan dilçiliyi kafedrası
xdadashova@yahoo.com,

CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCANDA NƏŞR OLUNAN JURNALLARDA MİLLİ XÜSUSİYYƏTLƏR

Giriş.

Azərbaycan mətbuat tarixinin ən önəmli dövrlərindən olan 1918-1920-ci illər AXC dövrünün tədqiqi hər zaman öz aktuallığını qorumaqdadır. Gərgin ictimai-siyasi hadisələrin burulğanında sürətlə artan və inkişaf edən mətbuat orqanlarına milli dövlətin yaranması, parlament tərəfindən türk dilinin rəsmi dövlət dili kimi qəbul olunması da öz dərin təsirini göstərməyə bilməzdi. Əsası 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoyulan Azərbaycan mətbuatı XX əsrin əvvəllərində "Molla Nəsrəddin" və "Füyuzat" kimi jurnalların yaranması ilə öz davamçılarını – mollanəsrəddinçiləri və füyuzatçıları yetişdirirdi.

"Molla Nəsrəddin" jurnalı 1918-1920-ci illərdə nəşr olunan satirik mətbuata öz təsirini göstərə bilmişdir. AXC dövründə satirik mətbuatdan danışarkən ilk növbədə "Şeypur" (1918-1919) və "Zənbur" (1919) jurnallarının adını çəkmək məqsədəuyğundur. Çünki hər iki jurnal Azərbaycan Xalq Cümhuriyyəti ideyalarının təbliğində böyük rol oynamışdır.

"Şeypur". Birinci nömrəsi 5 oktyabr 1918-ci ildə sonuncu – on dördüncü nömrəsi isə 18 yanvar 1919-cu ildə işıq üzü görən həftəlik satira jurnalı "Şeypur" Bakıda çap olunmuşdur. Jurnalın 11 nömrəsinin 1918-ci ildə, qalan üç nömrəsinin isə 1919-cu ildə nəşr olunduğu məlumdur. Türk dilində çap olunan satirik jurnalın redaktoru M.Ə.Sidqi, naşiri Səməd Mənsur olmuşdur. [1, s. 28]

Jurnalda 60-dan çox güclü imza içərisində daha çox işlənən "Supa", "Qarınqulu", "Sərkərdan", "Qarapapaq", "Dərdimənd", "Pompuşəli, və "Kənarçı Pompuşəli" idi. [5, s. 97]

Jurnalda S.Mənsur (Pompuşəli), C.Cabbarlı (Dağlı, Dağlızadə), Ə.Abid (Qozqurab bəy), S.Mümtaz (Xəbərçimiz badamlı, hərbi müxbirimiz Gülabdan), M.Ə.Sidqi (Şeypur) və b. müəlliflərin əsərləri çap olunmuşdur. [1, s. 28]

Jurnalın səkkizinci nömrəsində M.Ə.Sidqi "Şeypur" imzası ilə "Bu gün" başlıqlı məqaləsini Azərbaycan Parlamentinin açılışı münasibətilə yazmışdır. Müəllif bu mütərəqqi hadisə ilə bağlı öz sevincini gizlətmir, lakin digər firqələrin, partiyaların Parlamentə nümayəndə göndərmədiklərindən şikayətlənir. O, ermənillərin bütün Zaqafqaziyaya hakim olmaq iddiasında olduqlarını belə ifadə edirdi: "Bu hökumət diyor ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burda ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun". Buna cavab olaraq, elə həmin məqalədə bir rus yazıçısının məqaləsinə belə istinad edir: "Bu urus məqaləsində diyor ki: Qafqazda

heç Ermənistan adlı şey olmuyubdur. Urus Qafqaza gəlib Qafqazı alanda bir Gürcüstan var imiş, bir də bir neçə dənə türk xanlıqları". [9, s. 2]

Jurnalda silsilə şəklində çıxan "Ziyalılar" publisistik məqalələri müxtəlif əqidəli ziyalıların real həyatı düşüncələrini əks etdirirdi. Jurnalın 6-cı buraxılışında "Yarı hənək, yarı gerçək" imzalı yazıda iki ziyalının yarı rusca, yarı türkcə söhbəti verilmişdir. Müəllif, bir tərəfdən, həmin dövrün mövcud dil problemini göstərirdisə də, digər tərəfdən, həmin günlərdə baş verən tarixi-ictimai hadisələri də oxucuya ötürürdü. "Pozavçera bizim kapitalistlər böyük zasedanya düzəldib, nadnyax Bakıya gələn Məmməd Əmin Rəsulzadəni və Əhməd bəy Ağayevi oraya priqlasit eləmişdilər". [8, s. 3]

"Şeypur"un ilk sayı Səməd Mənsurun "Pampuşəli" imzası ilə "Qaçmaq günüdür" satirik şeiri ilə başlayır. Osmanlı qoşunlarının Bakını azad etməsi münasibətilə yazdığı satitik şeirində müəllif ermənilərə və onların havadarlarına üzünü tutub belə deyir: [6, s. 1]

Türk ordusu buysa ki, onun nərə səsindən
Aləm dağılar, vaz keç hökumət həvəsindən
Qaçmaq günüdür ingilis! Osman gəliyor arş,
Qaçmaqda Mkrtıç sənə Hartun sənə yoldaş.

Müəllif "Bakılı" adlı satirik şeirində də Azərbaycana talançılıq niyyəti ilə gələn və onun sərvətlərinə göz dikən xarici dövlətlərin nümayəndələrini tənqid atəşinə tutur. Öz yerində heç bir hörmət sahibi olmayan, rütbəyə, mənsəbə çatmağa ləyaqəti olmayan yerliləri – bakılıları bura hər hansı məqsədlə gələn əcnəbilərlə müqayisə edir. [8, s. 2]

Ənnəbilər daşısın neftini milyan-milyan
Sən özün bir pitiyə eylə qənaət bakılı
Ey sərasər bədəni, fikri bütalət bakılı!

Jurnalın hər nömrəsində "Şeypur"un lüğəti, teleqraf xəbərləri, elanlar, felyetonlar, Bakı xəbərləri, "Ziyalılıarımız" başlıqlı məqalələr, satirik şeirlər dərc olunurdu. Bu rubrikaların içində diqqəti cəlb edənlərdən biri də teleqraf xəbərləridir. Teleqraf xəbərləri başlığı altında çap olunan yazılar adi teleqraf xəbərləri deyildir. Ölkədə və xaricdə baş verən hadisələr oxucuya qısa və lakonik şəkildə satirik janrla çatdırılırdı. Bunlardan bir neçəsini gözdən keçirmək olar.

"Tiflisdən aldığımız xəbərə görə, orada nəşr edilməkdə olan "Gələcək" adlı qəzetə qış gecələri üçün Harun ər-Rəşidin zamanından yəni keçmişlərdən uzun-uzun nağıllar yazmağa başladığından bu yaxılnlarda adını dəyişdirib "Keçəcək" qoyacaqmış. Allah xeyir versin". [9, s. 3]

"Zəngəzur – kəndlərdən alınan məlumata görə, İrəvan quberniyasından buraya ikiayaqlı çəyirtkə dəstələri gəlməkdədir. Əhali süpürgə axtarıyor ki, bunları süpürsünlər. Salyan yolu bağlı olduğundan süpürgə almaq namümkündür. Xalq Araz nəhri kənarına ayaqyalın başıaçıq müsəllaya çıxmışlar. Hava dumandır; qocaların sözünə görə dolu yağacaqdır. [9, s. 3]

Göründüyü kimi, ictimai-siyasi məzmun daşıyan bu parçalarda informasiya satirik yolla oxucuya çatdırılır.

Türk nəşriyyatı birliyi tərəfindən 1919-cu ilin aprel ayından noyabrınadək nəşr olunan **"Zənbur"** satirik jurnalının cəmi 24 nömrəsi çapdan çıxmışdır. Redaksiya heyəti tərəfindən idarə olunan jurnalın 1, 4, 5 və 8-ci səhifələrində şəkillər, 2, 3, 6 və 7-ci səhifələrində yazılı materiallar verilirdi. [1, s. 13]. Professor N.Axundov jurnalın naşirlərinin xalqın xoşbəxtliyini məclisi-məbusanda və sonra məclisi müəssisanda gördüklərini yazırdı. Bu fikir məcmuənin milli-demokratik ruhlu olmasını sübut edir. Ə.Əzimzadə tərəfindən çəkilən şəkillərin böyük əksəriyyəti demokratik ruhlu olması da jurnalın öz ideya-məzmununa görə istiqamətini müəyyən edirdi.

Ö.F. Nemanzadə (Dərdimənd), Ə.Nəzmi, M.Ə.Sidqi (Baba Səfər), Mirzə Mehdi Sadıqzadə (Əyyaş), Ə.Müznib (Sərkərdan), S.Mənsur, Bayraməli Abbaszadə (Hammal), Abbas Səhət (Sırtıq) və başqa müəlliflərin şeir və felyetonları "Zənbur"da dərc olunmuşdur.

Jurnalda "Dərdimənd" imzası ilə yazan mollanəsrəddinçilərdən biri olan Ö.F. Nemanzadə idi. Publisistikasında qadın azadlığı, milli məsələ, mədəni-maarif, ana dili məsələlərinə geniş yer verən Ö.F. Nemanzadə erməni-müsəlman məsələsində daha cəsarətli və kəskin mövqe tutmuş və Rusiyanın qızışdırıcı, təfriqəçi siyasətini pisləyirdi: "Bizim aramızda bir qisim adamlar var ki, hər bir boş sözə qoşub zurnasını çala-çala gəzir və camaatı dəng edir ki, nə var, nə var Qarabağda Azərbaycan qulluğunda olan rus nümayəndəliyi ermənilərə can-başla qulluq ediyor. Heç sözdümü ha?! Balam bu həmişə belə olub da. İt-itin ayağını basmaz ki". [5, s. 107]

Satirik "Zənbur" jurnalında çarizmin devrilməsindən sonra Bakıda hökm sürən hərc-mərclik, hakimiyyət uğrunda gedən çəkişmələr, xaricilərin yenidən Bakıya axışıb gəlməsi müxtəlif satirik jurnallarda lağa qoyulurdu. Məsələn, "Gəncə küçələri" adlı bir yazıda Denikinin Gəncəyə soxulmasına "Zənbur" jurnalı belə lağ edirdi: "Ölkədə çaqqal az idi, biri də gəmiylə gəldi". "Zənbur"un başqa bir məsləhətində deyilirdi: "Qoy müsəlmanlar qapaz altında yaşasınlar. Onda hökumətin dostu çox olar. Bəd gündə tərəfdaşlar artıq olar". [4, s. 213]

"Məktəb" demokratik istiqamətli, elmi-pedaqoji, ədəbi-bədii jurnaldır. Bakıda (rəsmən 2 həftədə 1 dəfə) Azərbaycan dilində nəşr olunmuşdur. Jurnalın redaktorları Qafur Rəşad (həm də naşiri) və Ə.Əfəndizadə olmuşlar. İlk nömrəsi 1911-ci il noyabrın 29-da, sonuncusu 1920-ci il martın 21-də (cəmi 95 nömrə) çıxmışdır. Professor N. Axundov özünün biblioqrafiyasında jurnalın 1911-1917-ci illərdə və 1920-ci ildə isə daha üç nömrəsinin çıxdığını yazır. [1, s. 18] Lakin araşdırmamız nəticəsində məlum olmuşdur ki, jurnalın 1918-ci ildə çıxmış 3-cü nömrəsi M.F. Axundov adına Milli Kitabxanananın fondunda saxlanılır. Demək, "Məktəb"in həmin ildə 3 nömrəsi çap olunmuşdur.

AXC dövründə (1918-1920) məktəblərdə milli mənəviyyatlı yeni nəsil yetişdirmək üçün "Məktəb" jurnalının səhifələrində milli dirçəliş, istiqlal ideyası, ana

dilinə bağlılıq, vətənə məhəbbət, övladlıq borcu, ədəb-ərkan, yoldaşlıq, qayğıkeşlik, səmimi münasibət mövzularında yazılar kiçik uşaq hekayələri, eyni zamanda xalqın müdrikliyindən, mübariz ruhundan bəhs edən folklor nümunələri, xüsusilə nağıllar, lətifələr, oyun və əyləncələr çap olunurdu. Jurnalda Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli, Abdulla Şaiq, Abbas Səhhət, Cəfər Cabbarlı və b. yazıları ilə yanaşı, xarici dillərdən tərcümələr də dərc edilmişdir. "Məktəb" pedaqoji biliyin və dünyagörüşünün genişlənməsində, maarifə, elmə həvəsin artmasında əhəmiyyətli rol oynamışdır. [3, s. 183]

"Məktəb"in 1918-ci il martın 21-də çıxan 3-cü sayında türkçülüyün carçısı sayılan Ziya Göyalpın "İlahi (cocuqlar üçün)" başlıqlı şeiri verilmişdir. [11, s. 3] Allaha müraciətlə başlayan şeir parçasında uşaqların dinə inamı, tanrıya dua etmək, İslama çağırış təbliğ olunur.

Yücə tanrı! Biz ki, yavru türklərik,
Sana gəldik, Vətən üçün duaya!
Yurdumuzun nicatını diləriz,
Əlimizi açdıq iştə səmaya!

Göründüyü kimi, şeir çox sadə, anlaşıqlı bir dildə yazılmışdır.

1920-ci ildə nəşr olunan 1-ci sayında dövrün məşhur türk şairi Tofiq Fikrətin "Həp qardaşız" şeiri türk xalqlarının milli birliyinə həsr olunmuşdur. [12, s. 6)

Yaratmış bizi yaradan
Bir anadan, bir babadan,
Eyni torpaq, eyni vətən
Fərqimiz yox, biriz, eşiz,
Həp inşanız, həp qardaşız.

Jurnalın 1920-ci ildə nəşr olunan 1-ci sayında türk şairlərindən Nazim imzalı "Bən türkəm" şeiri məktəb yaşlı uşaqlar arasında türkçülük ideyalarının yayılması, gənclər arasında vətənpərvərliyin təbliğinə həsr olunmuşdur. [12, s. 2]

Bir vaxtlar Avropaya şan verən
Fatehlərin, yavuzların oğluyam.
Yurdu üçün sevinərək can verən
Muradların, midhətlərin oğluyam.

Jurnalın 1920-ci il 1-ci nömrəsində "Azərbaycanlı" imzası ilə qələmə alınmış "Bayrağım" adlı hekayə yenicə yaranmış Azərbaycan dövlətinin üçrəngli bayrağı haqqındadır. Müəllif bu kiçik hekayə vasitəsilə milli bayrağımızın gənclər arasında təbliğinə, məktəblilərə bayrağa hörmət və sevgi aşılamağa çalışmışdır.

"Bayrağım yatağımın baş ucunda durur, hər sübh qalxaram, bayrağımı öpərəm. Sevgili bayrağım, öhdən olsun: böyüyəyim, əsgər olayım, səni qaldırıb şanlı vətənimizin namusunu xain düşmənlərdən mühafizə edəyim. Bayrağımı gündə bir kaç dəfə ziyarət edərəm, hər dəfə oxşaram, üzümü ayına, ulduzuna sürtərəm. Bir gün atam görərək:

– Bayrağı bu qədər nə üçün sevirsən? – deyə sordu.

– Cavab verdim ki, bu bayraq xain düşmənlərin xəyanətini, islam, türk aduvlarını (düşmənlərini) mənə xatırladır. Bu bayrağı qaldırıb onları məğlub etmək istərəm. Vətənə olan məhəbbətimi bununla isbat etmək istərəm. Atam çox məmnun oldu və qabağımıza gələn novruz bayramı üçün mənə əsgərlik paltarı və silah aldı". [12, s. 2, 3]

Dövlət rəmzlərinin təbliği ilə bağlı sadə dillə yazılmış belə hekayələrin məktəb dərsliklərində verilməsi azyaşlılar üçün müasir dövrümüzdə də faydalı və aktualdır.

"Məktəb" jurnalının 1918-1920-ci illərdə çıxan nömrələri milli ideyaların, dövlətçilik atributların təbliğinə, uşaqların vətənpərvərlik ruhunda tərbiyə olunmasına xidmət göstərirdi. Bundan başqa dərginin 1918-1920-ci illərdə buraxılan nömrələrində yuxarıda verilən parçalardan da göründüyü kimi, daha çox türk müəlliflərinin yaradıcılığına üstünlük verilirdi ki, bu da yeni yaranan dövlətin təməl prinsiplərindən sayılan türkçülüyün təbliği ilə bağlıdır.

Gənclər yurdu" Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra nəşrə başlayan ictimai-siyasi jurnal, "Müsavat" partiyasının nəzdində yaradılmış "Gənclər cəmiyyəti"nin orqanıdır. 1918-ci ilin iyul ayının 24-dən türk gənclərinin təşəbbüsü ilə (əvvəlcə həftəlik, sonra ayda 2 dəfə) çıxarılmışdır. [10, s. 75] Jurnalda gənc ədəbi qüvvələrin milli istiqlalın, müstəqilliyin qorunmasına çağırış ruhlu şeirləri, ictimai həyatın müxtəlif məsələləri, xüsusilə gəncliyin problemləri ilə bağlı yazıları çap edilirdi. [2, s. 396]

"Gənclər yurdu"nun nəşr olunduğu yer və sayı haqqındakı məlumatlar təzadlıdır. M. Məmmədzadə özünün "Azərbaycan türk mətbuatın"da jurnal haqqında Tiflisdə buraxıldığını və cəmi 9 nömrəsinin çıxdığını yazırdı. [10, s. 75] N. Axundov jurnalın 1918-ci ildə əvvəlcə həftəlik, daha sonra on beş gündə bir dəfə olmaqla 35 nömrəsinin çıxdığını yazır. [1, s.16] AXC Ensiklopediyasında məcmuənin çap olunduğu yer Bakı şəhəri olmaqla 35 nömrəsinin çıxdığı haqqında məlumata rast gəlirik. [2, s. 397]

Daimi mühərrirləri Əli Səbri, Firudin Tofiq Hacızadə, Kamal Sübhanqulu, Əliəkbər və qeyriləri idilər. [10, s. 75].

Nəticə.

Azərbaycan publisistikasının məhsuldar dövrü olan 1918-1920-ci illər – Xalq Cümhuriyyəti dövrü milliləşmə, dövlətçilik məsələləri ilə xarakterizə olunur. Bu dövrdə nəşr olunan jurnallar arasında Azərbaycan Demokratik Respublikasının ideyalarını təbliğ edən məcmuələr qısa müddət ərzində çox böyük iş gördü. Öz məzmununa görə müxtəlif istiqamətlərdə (satirik, ədəbi-bədii, ictimai-siyasi, elmi-pedaqoji) nəşr olunmasına baxmayaraq, sadə dillə "millət", "dövlət", "milli dil" anlayışlarının xalq arasında yayılmaq kimi eyni missiyanı yerinə yetirirdi. Yazdığımız məqalənin elmi yeniliyi ondan ibarətdir ki, həmin dövrdə çıxan, lakin indiyə qədər az tədqiq olunan jurnalların orijinal variantlarından götürülmüş müxtəlif janrlı yazılar tədqiqata cəlb olunmuşdur.

İstifadə olunmuş ədəbiyyat

1. Axundov N. Azərbaycan dövri mətbuatı (1832 – 1920). Biblioqrafiya. Bakı: AMEA-nın Mərkəzi Elmi Kitabxanası, 1987, 219 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild. Bakı: Lider, 2004, 440 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: II cild. Bakı: Lider, 2005, 472 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu). Bakı: Elm, 1998, 297 s.
5. Quliyeva Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı. Bakı: ADPU, 2005, 128 s.
6. "Şeypur". Jurnal. №1. Bakı: 1918, 8 s.
7. "Şeypur". Jurnal. №2. Bakı: 1918, 8 s.
8. "Şeypur". Jurnal. №6. Bakı: 1918, 8 s.
9. "Şeypur". Jurnal. №8. Bakı: 1918, 8 s.
10. Məmmədzadə M. Azərbaycan türk mətbuatı. Bakı: Bakı Universiteti, 2004, 83 s.
11. "Məktəb". Jurnal. №3. Bakı: 1918, 18 s.
12. "Məktəb". Jurnal. №1. Bakı: 1920, 16 s.

Xavər Nəsirli

Cümhuriyyət dövründə Azərbaycanda nəşr olunan jurnallarda milli xüsusiyyətlər

Xülasə

Məqalə Azərbaycan Xalq Cümhuriyyəti dövrü milli mətbuatına həsr olunmuşdur. İki il ərzində (1918-1920) mövcud olan jurnallarda milliləşmə meyilləri əsas tədqiqat obyektidir. Girişdə mövzunun aktuallığı tarixi hadisələrlə əlaqələndirilmiş, Azərbaycan milli mətbuat tarixinə nəzər salınmışdır.

AXC dövri mətbuatı məzmununa görə təsnifləndirilmiş, mətbu orqanlarının ideya istiqaməti və məzmunu arasındakı əlaqə araşdırılmışdır. Əsas hissədə həmin dövrdə mövcud olan satirik jurnallar haqqında ümumi məlumat verilmişdir. Daha sonra üç məcmuə geniş tədqiqata cəlb olunmuşdur. "Şeypur", "Zənbur", "Məktəb"in yarnma tarixi, yeri, nömrələrinin sayı müxtəlif mənbələrə əsasən araşdırılmışdır. Bundan başqa jurnaların orijinal variantlarına müraciət olunmuş, milliləşmə ilə bağlı müxtəlif janrlı yazılar təqdiq olunmuşdur.

Nəticədə 1918-1920-ci illərdə mövcud olan jurnalların istər xalqın maariflənməsi, istərsə də milli dövlətin təbliğatındakı rolu vurğulanmışdır. Bundan başqa məqalədə ADR dövründə fəaliyyət göstərən milli mətbuatın tədqiqinin hal-hazırda da öz elmi aktuallığını qoruyub saxlaması qeyd olunur.

Açar sözlər: *mətbuat, Azərbaycan, jurnal, məqalə, milli.*

ХАВЕР НАСИРЛИ

НАЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ В ЖУРНАЛАХ, ИЗДАВАВШИХСЯ В ПЕРИОД АДР

РЕЗЮМЕ

Статья посвящена национальной прессе в период Азербайджанской Демократической Республики. Основным объектом этого исследования являются тенденции национализации существававших журналов в течение двух лет (1918-1920 гг.). Во введении актуальность темы связана с историческими событиями, а также рассмотрена история национальной прессы Азербайджана.

Периодические издания АДР были классифицированы по их содержанию, исследована связь между идеологической направленностью и содержанием органов печати. В основной части приведены общие сведения о существовавших в то время сатирических журналов. После этого были вовлечены в обширные исследования три журнала. Дата выхода, место и количество выпусков «Шейпур», «Занбур», «Мектеб» исследованы по разным источникам. Кроме того, были рассмотрены оригинальные версии журналов и одобрены статьи различных жанров, связанные с национализацией.

В заключении была подчеркнута роль журналов, существовавших в 1918-1920 гг., как в просвещении народа, так и в пропаганде национального государства. Кроме этого, в статье упоминается научная актуальность исследования национальной прессы, существовавших в период АДР и в настоящее время.

Ключевые слова:*пресса, Азербайджан, журнал, статья, национальный*

KHAVAR NASIRLI

NATIONAL CHARACTERISTICS IN MAGAZINES PUBLISHED DURING THE ADR

SUMMARY

The article is dedicated to the national press of the Azerbaijan Democratic Republic. The main object of this research is nationalization trends in existing magazines for two years (1918–1920). In the introduction, the relevance of the topic is connected with historical events, and the history of the national press of Azerbaijan is reviewed.

Periodical publications of the ADR were classified according to the content, the relationship between the ideological orientation and the content of the press agencies

was investigated. The main part provides general information about the satirical magazines that existed at that time. Then, three journals have been involved in extensive research. The release date, place and number of issues of "Sheypur", "Zanbur", "Mekteb" were studied based on different sources. In addition, original versions of magazines were reviewed and articles of various genres related to nationalization were approved.

In conclusion, the role of the magazines existed in 1918-1920 was emphasized both in the enlightenment of the people and in the propaganda of the nation state. Additionally, the article emphasizes the scientific relevance of the study of the national press that existed during the period ADR at present time.

Keywords: *press, Azerbaijan, journal, article, national.*

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: f.e.d., professor Tofiq Hacıyev
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNAR İSMAYILOVA
Elmi işçi, AMEA Folklor İnstitutu
Bakı-1000, İçərişəhər, 8-ci Kiçik qala döngəsi 31
ismayil-fuad@mail.ru

MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN HEKAYƏSİ VƏ ƏDƏBİ NAĞILLAR

Xülasə

Xalq nağıllarının zəngin motivləri, obrazlar sistemi, bədii-poetik özəlliyi yazılı ədəbiyyata da təsir göstərməklə, həm də oxşar forma və məzmunda yeni nağılların yaranmasına əsas verir. Müasir dövrün nəsri bir çox hallarda nağıl mətnlərinə yenidən müraciət üzərində qurulmaqla folklor janrı–nağıl parodiyalarında orijinallıq kəsb edir. Bu baxımdan Azərbaycan hekayələrinin məzmun və forma strukturunda nağıllara istinad olunması bir tərəfdən konkret məlum nağıl süjet və motivlərini əhatə etdiyi halda, digər tərəfdən yeni nağılların yaranması özəlliyinə bağlıdır. Müəllif nağıllarında yazıçı dünyagörüşü, etnoqrafik xüsusiyyətlər, obraz yanaşmaları, psixoloji mövqe, zamanın uzun, qısa keçidlərindəki sərbəstlik və s. başlıca yer tutur. Müstəqillik dövrü Azərbaycan hekayələrində müəllif nağılları zəngin forma-nümunələrində obrazlılığı, xüsusi məkan-zaman kontinumları, qeyri-adi elementlərin bədii reallaşdırılmasında fərqləndirilir. Yeni dövrdə sosial-mədəni şəraitdə müəllif nağılları folklor elementlərinin bədii sintezində fəlsəfi, satirik-alleqorik nəsr, elmi fantastik əsərlərin daxilində seçilir. Başqa sözlə desək, ədəbi nağıl müəllifin həyat anlayışı üzərindən müəyyən mənada folklor dəyərləri ilə üst-üstə düşür, janr sintezi, funksional xüsusiyyətlər də daxil olmaqla seçkinlik qazanır.

Açar sözlər: hekayə, nağıl, müəllif, süjet, ədəbi, obraz, forma, müstəqillik, folklor, ədəbiyyat

Müstəqillik dövrü Azərbaycan hekayələrində xalq nağıllarına janr, mövzu, həm də bədii-poetik məzmunda sənətkar yanaşması müxtəlif səviyyələrdə özünü göstərir. İlk olaraq diqqəti cəlb edən mühüm məqam hekayələrin janrın adı ilə nəsrə gətirilməsi və mətn başlıqlarında yer almasıdır. Janr təyinatları, müqəddimələrdə bu yanaşma əslində hekayənin məzmunundan nağıl düşüncəsinə yönələn işarə, başqa sözlə desək, nağıldan hekayəyə keçid göstəricisidir. Uyğun kontekstdə "nağıl" ifadəsi folklor janrı olaraq nağılın mətn, kompozisiya özəlliyində düşüncəyə "keçən gün" , "ömür", "yadda qalan tarix", "zaman" mənalarında daxil olur. Müstəqillik dövrü nasirlərindən Aydın Tağıyevin "Nağıl axşamı", "Gecikən adamın nağılı", A.Qaradərəlinin "Qış nağılı", Saday Budaqlının "Payız nağılı", O.Fikrətoğlunun "İnsan nağılı", Bayram Həsənovun "Torpaq nağılı", Solmaz Muxtarovanın "Yaşıl dünyanın nağılı" və s. hekayələrində nağıl insanın iç dünyası, yaşantılarının

bağlandığı zamanın (bir günlük, bir gecəlik, yaxud ömrün hər hansı pilləsinin yaşandığı zaman) işığında hadisə və süjeti əhatə edir. Vaxtilə Fikrət Qocanın yazdığı "Nağıl gecəsi" hekayəsində tələbə gənc onun diqqətini öz zərifliyi ilə çəkən rus qızı ilə tanış olur. Rus qızının onunla sanki neçə illərin tanışı kimi davranması, sərbəstliyi tələbənin xoşuna gəlir. Təsadüfi tanışılıq, qızla özü arasında bir doğmalıq hiss edən gəncin fikirləri hekayənin başlıca məzmununu təşkil edir. Sonda "Qafqazlı balasın"ı sakitcə tərk edən qızdan geridə qalan o anlar tələbə gəncin hisslərində ömrünü bəzəyən ən nağıllı gecəyə çevrilir (7,374 s.). Yaxud, Saday Budaqlının "Payız gecəsi" hekayəsinin qadın qəhrəmanı həyatını hər gün işdən evə gəlib qarşıladığı ərinin qulluğunda durmaq, sonra da gecələrin səssizliyində öz-özünü dinləmək, kiçik eyvandan fəsillərin dəyişimini, hər fəslin qoyduğu izi seyr edib, düşünməklə keçirir. Ərinin iş qayğıları qadınla olan ünsiyyətini o qədər üstələyir ki, o, getdikcə daha çox tənhalığa qapılır. Bir günsə Aylı gecənin işığı qadını onun sehrinə aparır, dünya gözəlləşir, sirr, duyğular qəhrəmanın hisslərinə hakim kəsilir. Gecənin qaranlığında köç edən durnaların səsi, uzaqdan sezilən səfləri qadının ruhunu oxşayır və zaman–zaman duyğularında "nağıllı gecənin sehrinə çevrilir"(2,63). Oxşar motivdə Orxan Fikrətoğlunun "İnsan nağılı"nda bir qarın çörəyə möhtac insanın ətrafdakıları görməməsi, doyub, dincəldikdən sonra hər şeyi hafizəsinə köçürməsi, eləcə də yaşanmış ömrün– kənddə sadə, saf insanların arasında keçən ömrün "yaşıl dünyanın nağılı" kimi dəyərləndirilməsi (Solmaz Muxtarova "Yaşıl dünyanın nağılı" hekayəsi) müstəqillik dövrü hekayələri içərisində ayrıca yer tutur.

Dövrün hekayələrində diqqət çəkən ikinci mühüm məqam, nağılların ənənəvi şəkildə nəsrdə davam etdirilməsi və yeni motivlərlə zənginləşdiriliməsi üsullarıdır. Ümumilikdə, "müəllif nağılı", "ədəbi nağıl", "böyüklər üçün nağıl" və s. şəkildə dəyərləndirilən bu nağıllar əsasən konkret müəllif qələmində yazıya alınması baxımından nağılların folklor variantından seçilir. Nəzəri baxımdan burada xalq və müəllif nağıllarının fərqləndirilməsi əsas yer tutur. Ədəbi nağıl anlayışı ayrı–ayrı müəlliflər tərəfindən xalq nağıllarının yenidən işlənilməsi, təkrar-təkrar yazılı ədəbiyyata mövzu-motiv üzərindən gətiriliməsi, yaxud parodiya şəklində yenidən yazılmasına bağlıdır. Dünya xalqları ədəbiyyatından xalq nağıllarının yazılı ədəbiyyata gətirilməsinin tarixi təcrübəsi mövcuddur. Belə ki, Yakob Qrimm, Vilhelm Qrimm qardaşlarının "Bremen musiqiçiləri", "Qırmızı papaq", "Çəkməli pişik", "Üç qardaş", alman yazıçısı T.A.Hofmanın "Şelkunçik", "Sinnober ləqəbli Balaca Saxes",V.Qaufun "Yalançı şahzadə", H.X.Andersonun "Vəhşi qazlar", "Çirkin ördək balası", "Düyməcik", Şarl Perronun "Yatmış gözəl", "Zoluşka" "Ulduz oğlan" və s. nağılları müəllif nağıllarının ən mükəmməl nümunələri sırasındadır.

Müəllif nağılları adından da bəlli olduğu kimi, bu və ya digər yaradıcı şəxsin qələmində yazıya alınır, ədib nağıl üzərindən yaşadığı dövr, dünya, hadisələrə, bütövlükdə onu düşündürən problemlərə şəxsi münasibətini aydınlaşdırır. "Nağıl bir forma kimi simvolları, mətnaltı düşüncəni ifadə etməyə daha çox imkanlı olduğu

üçün yazılı ədəbiyyatda buna tez-tez müraciət olunması təbiidir. Keçən əsrin altmışıncı illərində ədəbiyyatı xarakterizə edən, ona əlavə dividendlər gətirən məsələlərin başlıcası, bəlkə də birincisi məhz folklordakı bu potensiya ilə mühiti ifadə etmək imkanı idi"(8,147).

Folklor mətni və yazılı ədəbiyyatın qayda-qanunlarına bağlı müəllif nağılları obraz yaratma, zaman, mətn təhkiyəsi və s. müəyyən müqayisəolunmalarda fərqləndirilir. Müəllif nağıllarında obraz yaratma ədib mövqeyində nağıl personajlarından bir sıra keyfiyyətləri ilə seçilir. İlk olaraq bu və digər nağıl qəhrəmanları müəllif təxəyyülü və düşüncəsində formalaşdırıldığından daha çox psixoloji tərəfləri ilə nəsrə gətirilir. Xalq nağıllarında Keçəl, Qarı, Qoca, Vəzir və s. tipik obrazları qəlibləşmiş xarakter, funksiyaları baxımından sabitləşmiş qəhrəman tipləri olduğundan nağılı dinləyənlər üçün onlar haqqında xüsusi məlumatlara ehtiyac duyulmur. Yazılı ədəbiyyatda isə psixologizm, obraz dünyasının dərin qatlarına enmə, onların düşüncə, xarakterlərinin təfərrüatlı təsviri səciyyəvidir. Müəllif nağılları bütün hallarda mövcud nağıl ənənələri üzərində formalaşır, bu ənənələrin müxtəlif forma, şəkillərdə inkişafında seçilir. Dövrün ayrı-ayrı tarixi-mədəni hadisələri, qəhrəman və s. seçməkdə müəllifə azadlıq və sərbəstlik versə də nağıl texnikası yazıçıdan müəyyən qanunauyğunluqların qorunmasını tələb edir.

Qeyd edək ki, bir çox hallarda ədəbi nağıllarda nağıl qəhrəmanlarının funksiyaları dəyişir, hadisələrə bağlı onlar müsbət qəhrəmandan mənfi obraza çevrilə bilirlər. Bu qrup nağıllar sırasında Əziz Sultanın "Dəniz qızı və balıqçı", "Tənbəl hökmdar" hekayələrini nümunə çəkmək olar. Hər iki hekayə–nağılda balıqçı obrazlarının tamahkarlığı onların qızıl balıq tərəfindən cəzalandırılmasına gətirib çıxarır. Məlumdur ki, balıqçı və dəniz qızları ilə bağlı rəvayət və hekayələr Avropa xalqlarının folklorunda geniş yayılmış süjetlərdəndir. Rus klassiki A.S.Puşkinin "Balıqçı və balıq nağılı" əsəri də bu rəvayətlər əsasında yazılmış ən maraqlı müəllif nağıllarındandır. Qeydə alınan nağıl motivlərinin bir çoxunda balıqçılar sadə iş adamları, kasıb insanlardır. Lakin onlar qarıların təhriki ilə qızıl balıqdan istəklərinin həyata keçirilməsini tələb edir və sonda bu tamahkarlıq onların ifşasına səbəb olur. Yazılı ədəbiyyata gətirilən nağıl burada müəllif tərəfindən hansı motivin daha qabarıq süjetə qoşulmasına görə fərqləndirilir. Motiv seçkinliyndə mətnin mifoloji, yaxud sosial mahiyyəti üzə çıxır. A.S.Puşkin "Balıqçı və balıq"nağılında nağıl ənənəsinə sadiq qalır. Əgər hekayə-nağılda varlanmış qarı ilə qoca arasında münaqişə kəskinləşirsə, balıq kasıb qoca ilə acgöz qarıya qarşı dayanırsa, bu daha çox sosial nağıl motivinə daxil edilmiş olur (11,104).

Adlarını çəkdiyimiz hekayələrdə isə nağıl qəhrəmanlarının özləri tamahkar və həris insanlardır. "Dəniz qızı və balıqçı "hekayəsində toruna düşən balıqdan var-dövlət istəyən balıqçı, sonda əhdini pozur, var-dövləti əlindən çıxdıqdan sonra yenidən qızıl balığın ovuna çıxır. Ondan gəmi dolusu qızıl-mal istədiyini bildirir, nəticədə nəhəng gəmi bu ağırlığa tab gətirməyib dənizdə qərq olur (9). İkinci "Tənbəl tamahkar" hekayəsində isə süjet tənbəl insanın asan yolla var-dövlət

qazanmaq istəyi və qızıl balıq tərəfindən aldadılması motivi üzərində qurulmuşdur. Hekayənin əvvəlində yazıçı tənbəlin fikirlərini satirik dillə təqdim edir: " ..Nə əcəb işdir. Nə əkmirsən, nə sulamırsan, nə də odda qızardıb, çəkiclə döymürsən. Get dənizdən tut, gətir, sat, tut-sat, tut-sat.." (9,45). Hadisələrin sonrakı inkişafında tora düşən qızıl balıq onu aldadıb sulara baş vurur. Tənbəl kişi yenidən sahilə qayıdır, lakin bu zaman onun qayığını da külək sahildən uzaqlaşdırmışdır. Kor-peşman olan tamahkar evini satıb, yeni bir qayıq alır və qızıl balığın ovuna çıxır. Bu dəfə qızıl balıq tənbələ cəza olaraq saçlarını qızıla çevirəcəyini söyləyir ki, qoy insanlar onun başını kəsməyə çalışsınlar . Tənbəl əllərini saçlarına çəkərkən qızıl balıq yenidən sulara atlanır. Hər iki hekayədə məlum folklor nağıl mətnlərindəki balıqçılardan fərqli olaraq bu qəhrəmanlar tənbəl, həris və acgözdürlər. Bu acgözlükləri hər iki qəhrəmanın sonda peşmançılığına gətirib çıxarır.

Müstəqillik dövrü hekayələrində silsilə nağılların yazılması Əli Səmədli ("Qanlı bənövşə" Bakı, 1996), Eyvaz Zeynalov("Qırmızı almalar", Bakı, 2007), Zahid Xəlil (Seçilmiş əsərləri II cild, Bakı, 2008), Elçin Əfəndiyev və başqa ədiblərin adları ilə bağlıdır. Nağılların funksional tematik qruplarda fərqləndirilməsi burada alleqorik mətnləri ayrıca qruplarda birləşdirir. Dövrün hekayələrindən bu qrupdan Təranə Vahidin "Qarışqa təqvimi", Sənan Fazilin "Gözlənilməz zərbə", Elçinin "Nağıllar"ı və s. seçilir. Xalq yazıçısı Elçin Əfəndiyevin nəsri folklor qaynaqları, xalq həyat və məişəti, inanclarının geniş yer verildiyi zəngin bir irsdir. Müxtəlif folklor mövzu və motivlərini sənətə gətirən nasir xalq ədəbiyyatının ideya xüsusiyyətlərini bir çox əsərlərində epiqraf şəklində də istifadə etmişdir. Belə ki, onun "Boşluq içində iki nəfər" əsəri (1983) Abbas Tufarqanlının "Döz, bağrı daş olan könlüm", "Ayaqqabı" hekayəsi (1983) Xəstə Qasımdan "Dəli könül, nə divanə gəzirsən", "Dünyanın bəxtəvəri" (1990) əsəri "Gəl sənlə həmdəm olaq,...Gəl, dolanaq bağı, bülbül" xalq mahnısı sözləri əsərlərin başlıqlarında yer almışdır. Əsərlərində nağıl motivlərindən istifadə imkanlarına gəldikdə isə qeyd edək ki, ədibin hələ 1963-1970-ci illərdə yazdığı "İki çal papağın və bir qara kepkanın" nağılı hekayəsində var-dövlət, mənsəb üzərində qurulan dostluq və bu dostluğun zamanla bir xəbərlə yıxılması maraqlı bir şəkildə qələmə alınmışdır. Nağıl poetikası əsasında yazıya alınan bu hekayədə əxlaqi dəyərlər, soial münasibətlər xalq ədəbiyyatından nağılların janr imkanlarına uyğun ifadə edilmişdir. Hekayənin başlanğıcı müəllif tərəfindən ənənəvi nağıl formulları üzərində qurulmaqla oxucu düşüncəsini də məhz xalq ədəbiyyatı üzərində cəmləməkdədir: "Çox şilaşı yemişəm, belə yalan deməmişəm. Günlərin bir günündə , Məmməd Nəsir tinində , bir var idi, biri yox idi, Allahdan savayı heç kəs yox idi, təkcə iki nəfər Çal Papaq var idi, bir nəfər də Qara Kepka və Qara Kepkanın da bir sevimli həyat yoldaşı var idi idi ki, adı Çadra xanım idi"(3,65).

Elçinin qələmə aldığı "Nağıllar" isə ədibin 2009-2011 ci illər yaradıcılığına aiddir. Bitki, canlıların həyat, yaşamı üzərində obrazlaşdırılan bu nağıllar əslində real həyat təsvirləri, insan xarakter, tiplərinin nümunəsidir. Nağılların qəhrəmanları Qara Qarğa, Göy Göyərçin, Qaysı Ağacı, Ağ Qovaq, Zoğal Ağacı, Ana Toyuq, Kürən

Dələ və s. obrazlardır. Yol kənarında bitən kollar, hündür palıdlar, gözəllik mücəssəməsi söyüd və s. hər bir ağacın, bitkinin bir həyatı, torpağa bağlılığı vardır. İnsan tərəfindən gözə görünməyən həqiqətlər isə nağılların məzmununda öz sirrlərini açır. "Ayrı-ayrılıqda müxtəlif olsalar da hardasa Elçinin nağıl qəhrəmanları eyni bir ruh, ovqat, eyni motiv birləşdirir: üsyankarlıq! Bir fərd. Növ olaraq qəhrəmanlar dünyanın məlum nizamıyla barışmır, bu gedişata qarşı sakit-səssiz, daxili bir üsyan edirlər"(4,9)

Öz ağacından ayrı düşən budaqlar, yerlərdə sürünməkdən, toz-torpaqdan bezib, ucalıq arzulayan kollar, budaqları zaman-zaman kəsilib calağa qurban verilən ağaclar, sularda üzmək arzusunda olan qovaq və s. bütünlüklə yaradılışın istər bitki, istər, heyvan, quşlar, istərsə də insanların ağıl, hisslərinin dünyasını bir araya gətirir. Arzu etmək, nəyəsə çatmaq xiffəti, itkilərin ağırlığı, xəyanət bir arada yazıçı dünyasında birləşir.Dövrün hekayələrində Sənan Fazilin "Gözlənilməz zərbə", Mahir Qabiloğlunun "Gözəl İbrahim", Nəriman Süleymanovun "Tamah", Azad Qaradərəlinin "Dostlar", Eyvaz Əlləzoğlunun "Keçəlin darğanın qızına olan məhəbbəti", Əziz Sultan "Beş atlı", "Qırıq daraq", "Hökmdar və oğlu", və s. hekayələri də nağıl motivləri əsasında yazılmışdır.

Müəllif nağılları, ədəbi nağılların yazılması əsasən bir neçə mövzu-motivlərdə qeydə alınmışdır. Bütövlükdə, folklor motivlərinin yazılı ədəbiyyata gətirliməsi realist ədəbiyyatın inkişafı, onun xalq məişətinə bağlılığından irəli gəlir. Ədəbi nağıllar yazıçının öncə xalq ədəbiyyatından götürdüyü struktur modelin mənimsənilməsidir. Nağıl həm süjet, həm də texnikası ilə yazılı ədəbiyyatda müəllifli olaraq işlədilir. Motiv və obraz köçürmələri, bədii texniki vasitələr uyğun yaradıclıq kontekstində mənimsənilir. İlk istiqamətdə yazıçı cəmiyyətdə rast gəldiyi hadisələri məhz nağıl qəhrəmanları, obrazlarını fərqli hadisələrin içində canlandırmaqla nəsrə gətirir. Bu qrup hekayə-nağıllarda nağıl zamanı, formulları və obrazları saxlanılır, ancaq ortaq mövzu, obrazlar üzərindən yeni süjet formalaşdırılır. Əziz Sultanın adlarını çəkdiyimiz "Beş atlı", "Qırıq daraq", "Dəniz qızı və balıqçı", " "Tənbəl tamahkar", "Hökmdar və oğlu" hekayə-nağılları məhz bu qəbildəndir (9). "Qırıq daraq" hekayə–nağılının qəhrəmanı varlı bir tacirdir ki, əldə etdiyi qazancı onu sevindirir və söz verir ki, qarşısına hər kim çıxsa onun arzusunu yerinə yetirəcək. Çinarın kölgəsində gördüyü qoca tacirə işçi, qul tutub, bu torpaqları əkib–becərməsini tövsiyyə edir. Sonda da cibindən qoz ağacından düzədilmiş bir daraq bağışlayaraq nə zaman onun dişləri sıradan çıxarsa qocanı axtarmasını tapşırır. Tacir qocanın söylədiyi kimi 3 qul tutub, torpağı əkib-becərməyə başlayır. Bu qullardan biri hər dəfə sarayda qulluq etdiyini bəhanə gətirərək az işləyir, pendir-çörək yox, yaxşı yeməklər yeyir. Sonda qullar arasında mübahisə düşür, tacir baxır ki, darağın dişləri artıq tökülüb. Çarəsiz qalan tacir qocanı axtarır. Qoca taciri qullar arasında ədalətsiz davrandığı üçün danlayır, Allahın qarşısında bütün insanların bərabər olduğunu söyləyərək ona səhvlərini başa salır. Kiçik bir hekayədə qoca axetipinin müdrikliyi üzərindən baş verən hadisələr nəsihatəmiz fikirlə yekunlaşır. Nağıl

qəhrəmanları tacir və qullar qocanın müdrikliyində mətni mənalandırır. Digər bir hekayə– "Hökmdar və oğlu" nağılında isə qocanın müdrikliyini ağıllı vəzir əvəz edir. Ümumiyyətlə, xalq nağıllarında bir çox hallarda ağıllı, səxavətli vəzir obrazları qəhrəmanların şah qəzəbindən xilas olunması(buraya şahın oz doğma övladları, yaxınları, qardaş, dostları da aiddir), qoşunla şahlığı əhatə edən düşmənə hikmətlə qalib gəlməsi motivlərində geniş yer alır. Eyni nağıl mövzusuna bağlı hekayədə şahın ox, yay atmaqda səriştəsi olmayan oğlu vəzirin tədbirliliyi ilə istəyinə nail olur (9).

Qeyd olunan hekayələrdə yazıçı xalq ədəbiyyatından şüurlu şəkildə, birbaşa nağılların struktur, forma, üslub xüsusiyyətlərini mənimsəməklə bədii reallıq əsasında mətn yaradır. Süjet–motiv konstruksiyasında nağılların bütün mühüm keyfiyyətləri müəllif tərəfindən qorunur, xalq təfəkkürü, etnoqrafik xüsusiyyətlər əsas götürülməklə yazıçı dünyagörüşündə cilalanır. Meyxoş Abdullayevin 2004-cü ildə çapdan çıxan "Şeytan gülüşü" kitabından "Möcüzəli xalça" hekayəsi də nağıl mövzusu əsasında qələmə alınmışdır ki, hekayədə nağıl obrazları, onların xarakter xüsusiyyətləri, obraz müəyyənliyi qorunub saxlanılmışdır. Azərbaycan nağıllarında şah və rəiyyət münasibətlərinin müxtəlif səviyyələrdə təsvir edildiyi onlarca nağıl mətni mövcuddur. Bu nağıllarda ədalətli şah, xalqdan ayrı düşən hökmdar və ağıllı, tədbirli rəiyyət nümayəndələrinin çoxsaylı obrazları yaradılmışdır. Qeyd edilən hekayədə də tənbəl bir kişinin vilayət padşahını aldadaraq necə qızıl əldə etməsi maraqlı süjet üzərində qurulmuşdur. Şahın hüzuruna gəlib, ona tayı-bərabəri olmayacaq bir xalça toxumasını vəd edən tənbəl kişi şahdan xeyli pul almağı bacarır. Xalçanın təqdim olunması günü gəlib çatdıqda isə evini boşaldıb, hər tərəfi əhənglə ağardır və divarlara ağ pərdə salır. Şah və əyanlarını qəbul edərkən söyləyir ki, onun toxuduğu bu xalçada Allahın hikmətli sözləri yazılıb, ancaq o " zatı olan, yəni atasından xəbəri olan adamın gözünə görükə bilər" (1,194). Çıxılmaz vəziyyətdə qalan şah və əyanları boş divara baxıb, xalçanın gözəlliyini tərifləyirlər. Hekayənin sonunda tənbəlin yalanları üzə çıxır, vəzirin xahişi ilə şah onu öldürməyib sarayda saxlayır.Qeydə alınan müəllif nağıllarında obraz və motivlər bütövlükdə konkret nağıl süjetləri üzərində qurulmuşdur. Ümumiyyətlə, ənənəyə bağlı olmadan nağıl yaratmaq ideyası mümkün deyildir. Əslində nağılların parodiya olunması, əxlaqi, nəsihatəmiz fikirlərlə süni şəkildə zənginləşdirliməsi , süjet və hadisələrin şərtiliyi nəticə etibarilə nağılı macəraçılıq, fantastik, elmi fantastika, mistik hekayələrə çevirir. Təsadüfi deyildir ki, XX əsrin sonuna doğru dünya ədəbiyyatında nağılların yeni əsaslarda yazılması oxşar janr sintezlərini aktuallaşdırmışdır. Eyvaz Əlləzoğlunun "Keçəlin darğanın qızına olan məhəbbəti və başına gələn qeyri-adi macəralar" adlandırılan hekayəsində isə keçəllə bağlı nağılların müxtəlif variantları bir araya gətirilmişdir. Yeni əsrin sosial ziddiyyətləri, konfliktlər həm də müəyyən nağıl qəhrəmanlarının nəsrə gətirilməsini sürətləndirir. Təsadüfi deyildir ki, " hansı nağıllarda keçəl baş qəhrəman olursa, bu nağıllar daha demokratik xarakter daşıyır. Bu nağıllarda ictimai ziddiyyətlər zəngindir və mənfi qüvvələr daha kəskin şəkildə

ifşa olunurlar”(5,53). Hekayənin əvvəlində “Çidarlı at”ını minən keçəl şəhər qapısına çatır və “sim–sim” söyləyib içəri keçən tacir, dəllal, qazıdan sonra şəhərə daxil ola bilir. Ardıcıl olaraq müəllif nağıllarımızda olan şəhərin, ticarət mərkəzinin təsvirini verir ki, bu təsvir bir çox Azərbaycan nağıllarının mətni ilə uyğunluq təşkil edir: “Şəhər şəhər içindəydi, dərzi iynəsini saplayırdı, aşpaz düyüsünü arıtlayırdı, kəndirbaz kəndirin üstündə atılıb düşürdü, nağılçı nağılını danışırdı, cəllad “babam mənə kor deyib, gələnə–gedənə vur deyib”–deyə qılınclarını göydə oynadırdı”(6,35). Nağıllarımızda müxtəlif situasiyalarda yer alan 40 lotular, vird edən dərvişlər, qız–gəlinlərin toplaşdığı, xüsusilə dastanlarımızda qəhrəmanların sevdiyi qızları görüb tanış olduğu “Nar bağı” Keçəlin süjet boyu rastlaşdığı obraz və məkanlardır. “Nar bağı”nda qızlar içərisində darğanın qızını görüb vurulan Keçəl xəyalında 40 gün, 40 gecə davam edən toyunu xatırlayır, qız-gəlinlərin barmaqlarına yaxdığı əlvan xınalar göz önündə canlanır. Azərbaycan nağıllarında Keçəl və tacir süjeti üzərində qurulan bir çox variantlı mətnlərə istinad edilərək Keçəl və Əhməd tacirin süjeti hekayəyə əlavə edilir. Belə ki, Əhməd tacirin yanında qalan Keçəl işini sonadək bitirə bilmir(tacirlə Keçəl arasında əvvəlcədən razılaşdıqları kimi o, tacirə gündə 1000 dəfə “bəli” deməliydi), tacir bəhanə gətirib, böhtan ataraq Keçəli evindən qovur. Hekayəyə mifoloji mətnlərimizdə yer alan 7 dağ və Loğman obrazı qoşulur. Keçəl Əhməd tacirin böhtanından yorğan–döşəyə düşür və qoca nənəsi 7 qardaş dağında yaşayan Loğmanın yanına aparır. Loğman Keçələ gül iylədərək onu sağaldır və bir badə uzadır, badədəki suyu içən qəhrəmanın gözünə uzun bir yol görünür. Sehirli sandıq, uçan göyərçinlər, 40 otaq motivləri də Keçəlin başına gələn hadisələrin içərisində yer alır. Bütövlükdə, hekayə nağıl qəhrəmanı keçəlin başına gələn hadisələr üzərində qurulmaqla müxtəlif nağıl , mifoloji motivləri əhatə edir. Hekayənin sonunda isə müəllif 41-ci otağın sirrində Keçəlin son halını təsvir edir: “Qırx birinci otaqda bir qucaq lüt söz vardı. Keçəl də söz acıydı, dizi üstə çöküb lüt sözləri içinə yığırdı ki, göydən bir əl enib onun başına yağlı bir qapaz saldı: Keçəl bu ilmidi ölübsən bildirmi, tir–tap düşdü üz üstə yerə. Ayılanda gördü ki, bir güllü-çiçəkli çəmənlikdə, qırxıncı otaqdakı tabutun içinə uzanıb, amma bu dəfə bu tabutdan eymənmədi, tabut neçə də rahat, yumşaq imiş...” (6,41).Təqdim edilən hekayədə hadisələrin ayrı-ayrı xalq nağıllarının süjetindən götürülməsi və zaman keçidləri diqqəti cəlb edir. Zaman anlayışı xalq nağıllarında daha qarışıq, keçidli təsvir edilməsinə baxmayaraq müəllif nağıllarında nasirin istəyinə uyğun uzun və qısa vaxt keçidlərində fərqləndirilir. Demək olar ki, nağılda qeyri-müəyyən keçmiş bütün zamanları özündə birləşdirən “əbədi” zaman modelidir. Sehrli zamanda mövcud olan nağıl dünyası (real aləmə münasibətinə görə) qloballıq xüsusiyyəti qazanır, mövcud olan hər şeyin bir növ universal modelinə çevrilir”(10,129). Hekayədə bu baxımdan zamanların bölünməsi də müəllif niyyətindən asılı olaraq hadisələrin bağlandığı motiv və nəticələrə görə seçilmişdir. Nəzərdən keçirilən hekayələrin kompozisiya, süjet quruluşu bir daha onu söyləməyə əsas verir ki, bütün hallarda nağıllar folklorun ən qədim janrları sırasında yer almaqla təkrar-təkrar yazılı ədəbiyyatımızın məzmun və forma sturukturnu

zənginləşdirir. İstər nağıl motivlərinə istinad edilməsi, istərsə də yeni nağıl şəkillərinin formalaşması bütün hallarda ənənəyə bağlı olaraq yaranır və bu kontekstdə ədəbiyyat-folklor əlaqələri sistemli, tipoloji milli müəyyənliyə əsaslanır.

ƏDƏBİYYAT

1. M. Abdullayev. Şeytan gülüşü. Bakı: "Şəms" nəşriyyatı, 2004, 256 s.
2. S. Budaqlı. Yolüstü söhbət. (Hekayələr, povestlər və roman). Bakı: Azpoliqraf, 2015, 320s.
3. Elçin.Qırx beş (Seçilmiş hekayələr). Bakı: Təhsil, 2019, 648s.
4. T. Əlişanoğlu. Müdrik hekayələr (Ön söz). Elçin.Yeni hekayələr.Bakı: Təhsil, 2014, 312s.
5. O. Əliyev. Azərbaycan nağılları:janr, süjet və obraz problemləri. Bakı: Elm və təhsil, 2019,304 s.
6. E. Əlləzoğlu. Ölü yay (Hekayələr).Bakı: Yazıçı,1992, 104s.
7. F.Qoca. Taleyin ağır taleyi. Bakı: Nurlan, 2009, 374 s.
8. S.Məmməd. Nağıl mövzu və obrazları bədii ədəbiyyatda. (Monoqrafiya). Bakı: Təhsil, 2019, 176 s.
9. Ə. Sultan. Xəzinə (Hekayələr). Bakı: 2013, "Nurlan " Nəşriyyatı-poliqrafiya mərkəzi,151 s.
10. Ковтун Е.Н. Художественный вымысел в литературе XX века. М.: Высшая школа, 2008, 484с.
11. Медриш D. Н. Литературиа и фольклорная традиция. Вопросы поэтики. Под ред. проф. В. Ф. Егорова. Издательство Саратовского университет, 1980, 296с.

Г. ИСМАИЛОВА

Азербайджанские рассказы и литературные сказки в период Независимости

РЕЗЮМЕ

Влияя на письменную литературу своей художественной поэтикой, насыщенная мотивами народных сказок, системами образов, так же способствует возникновению новых сказок с похожими формами и содержанием. Во многих случаях современная проза, вновь обращаясь к текстам сказок, оригинально представляется в фольклоре, жанре сказок – пародий. С этой точки зрения, в структуре формы и содержания, рассказ обращается к сказкам, с одной стороны, охватывая конкретно сюжеты и мотивы сказок, с другой стороны, способствует рождению новых сказок. В авторских сказках у писателя особое место имеет его мировоззрение, этнографические особенности, подходы к образам, психологическое положение, длинные и короткие неограниченные временные переходы и т.д.

В период Независимости в рассказах, авторские сказки отличаются своими насыщенными образами, особыми местами и временными континуумами и реализацией необычных художественных элементов. На фоне произведений научной фантастики выделяются авторские сказки, с философией фольклорных элементов художественного синтеза, сатирико – аллегорическая проза, созданные в социально-художественных условиях нового периода. Выражаясь другими словами, жизненное понятие автора художественных сказок, некоторым образом, совпадает с фольклорными ценностями, синтез жанров, функциональные особенности включительно делает его особым.

Ключевые слова: рассказа, сказка, автор, сюжет, литературный, образ, форма, независимость, фольклор, литература

G.ISMAILOVA

Independence period and literary tales

SUMMARY

The rich motives, system of images, artistic and poetic features of folk tales influencing the written literature also stimulates forming of new tales in a similar form and content Modern prose is often based on re-references to fairy-tale texts and is original in folklore genres – fairy – tale parodies. From this point of view, the reference of fairy tales in the content and form structure of Azerbaijani stories depends on the spsific of theemergence of new tales on the one hand while covering the plot and motives of a particular known tale. The authors tales focus on the writers world view, ethnographic features, image approaches, psychological position, freedom in long and short transitions of time and so on. In the stories of Azerbaijan during the period of independce, the authors tales are distinguished by their imagery in rich forms and potterns, special continents of space and time and the artistic realization of unusual elements. In the new social – cultural conditions, the authors tales are distinguished in the artistic synthesis of elements of folklore within philosophical, satirical – allegorical prose, science fiction works. In the other words, the literatury tale, in a sense,overlaps with the valkes of folklore over the authors concept of life and is distinguished by its genre synthesis and functional features.

Key words: story, tale, author, plot, literary, image, form, independence, folklore, literature

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə elmlər doktoru, professor Leyla Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

BAHAR ƏLİYEVA
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
(İnşaatçılar prospekti 45)
baharaliyeva2017@gmail.com

MİRZƏ ƏLƏKBƏR SABİRİN UŞAQ ƏSƏRLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə qüdrətli sənətkar Mirzə Ələkbər Sabirin müasir dövrdə də öz aktuallığını saxlayan, xəlqi, realist mahiyyətli uşaq əsərlərinin ideya-bədii xüsusiyyətləri tədqiq edilir. Qeyd edilir ki, ictimai satiranın inkişafında misilsiz rolu olan sənətkarın yaradıcılığının mühüm bir istiqaməti uşaq ədəbiyyyatının kamil nümunələrinin yaradılmasıdır. Şairin uşaq əsərləri mövzu, ideya, məzmun baxımından çoxcəhətliliyi, qüvvətli təsir dairəsinə malik olması ilə diqqəti cəlb edir.

M.Ə.Sabir həyatının mühüm bir dövrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, müəllim kimi fəaliyyət göstərmiş, uşaq əsərləri yazmışdır. Şairin gənc nəsil üçün yazdığı əsərlər uşaq ədəbiyyatında bir nümunə rolu oynamış, özündən sonra yaranan uşaq ədəbiyyatına qüvvətli təsir göstərmişdir.

Şairin ədəbi istedadı uşaq əsərlərində də öz əksini parlaq şəkildə tapmışdır. Onun "Uşaqlara hədiyyə" başlığı altında nəşr olunan əsərləri bədii səviyyə, ideya-məzmunu, ədəbi istiqamət baxımından öz orijinallığı, rəngarəngliyi ilə seçilir.Sabirin uşaq ədəbiyyatına marağı təsadüfi deyildi. Uşaq ədəbiyyatı ilə ciddi məşğul olan şair həm də müəllim kimi onun gənc nəslin tərbiyəsində böyük rolunu yüksək qiymətləndirirdi. O, məktəbə bağlı olan bir sənətkar kimi uşaqların yaş və qavrama xüsusiyyətlərini bilir və öz əsərlərində nəzərə alırdı.

Sabir uşaq əsərlərində balaca oxucuların qavrama xüsusiyyətlərini nəzərə almış, mövzu, janr, dil, üslub özəlliklərinə xüsusi diqqət yetirmişdir. Şərqi, təmsil, mənzum hekayə janrlarında yazılmış bu əsərlər janr özəllikləri, məzmun baxımından tamamilə fərqlidir.

Şair tərbiyəvi ideyaları, mənəvi dəyərləri, dərin mənalı fikirləri ibrətamiz həyat hadisələrinin təsviri, tənqid, nəsihət yolu ilə, obrazlı, axıcı bir dillə əks etdirmişdir. Bu baxımdan şairin "Uşaqlara hədiyyə" başlıqlı əsərləri yazıldığı dövrdə olduğu kimi, bu gün də gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. Ədibin uşaqlar üçün yazdığı əsərlərdəki xəlqilik, mənəvi ideyalar, nikbin ruh bu gün də gənc nəslin təxəyyülünə, hiss və duğularına, dünyagörüşünə qüvvətli təsir göstərir, onların həyati bilik və bacarıqlarını inkişaf etdirir.

Açar sözlər: şair, ədəbiyyat, şeir, hekayə, bədii, uşaq, tərbiyə, ideya, janr, dil, üslub, poeziya , satira

Qüdrətli sənətkar Mirzə Ələkbər Sabir xəlqi, realist mahiyyətli poeziyası ilə ədəbiyyat tariximizdə özünəməxsus şərəfli yer tutur. Onun bədii irsi mövzu, ideya, məzmun baxımından çoxcəhətliliyi, qüvvətli təsir dairəsinə malik olması ilə diqqəti cəlb edir. İctimai satiranın inkişafında misilsiz rolu olan sənətkarın yaradıcılığının mühüm bir istiqaməti uşaq ədəbiyyyatının kamil nümunələrinin yaradılmasıdır.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev şairin yaradıcılığını yüksək qiymətləndirərək qeyd etmişdir: " Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır. "Molla Nəsrəddin" jurnalı ətrafında formalaşmış ədəbi cərəyanın aparıcı simalarından olan mütəfəkkir şairin yüksək istedadla yaratdığı əsərlərin başlıca mövzusunu mənəvi saflığa, mədəni yüksəlişə və maariflənməyə çağırış təşkil etmişdir.[1]

Məlumdur ki, M.Ə.Sabir ədəbiyyatımızda satirik şeirin qüdrətli nümayəndəsidir. M.Məmmədov "Şairin poetik irsi" məqaləsində yazır: "Yeni, realist və inqilabi-demokratik şeirimizin inkişafı tarixində Sabir böyük rol oynamış, şeirin mövzu dairəsini, sosial fikir çərçivəsini görünməmiş dərəcədə genişləndirmiş,onu həyat həqiqətinin, ictimai varlığın aynasına çevirmişdir. Cəsarətlə demək olar ki, XX əsrin ilk on ilində baş verən elə mühüm ictimai-siyası hadisə, yaxud məişət məsələsi yoxdur ki, Sabir yaradıcılığında satirik bədii ifadəsini tapmamış olsun.Sabir satirasını xalqın həyat və mübarizəsini bütün tipik cəhətləri ilə əks etdirib göstərən parlaq bir güzgüyə bənzətmək olar.[2, s.7])

Bununla yanaşı, M.Ə.Sabir həyatının mühüm bir dövrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, müəllim kimi fəaliyyət göstərmiş, uşaq əsərləri yazmışdır. Şairin gənc nəsil üçün yazdığı əsərlər uşaq ədəbiyyatımızda bir nümunə rolu oynamış, öz dövründə və sonra yaranan söz sənətimizin bu istiqamətdə inkişafına qüvvətli təsir göstərmişdir.

Şairin ədəbi istedadı uşaq əsərlərində də öz əksini parlaq şəkildə tapmışdır. Onun "Uşaqlara hədiyyə" başlığı altında nəşr olunan əsərləri bədii səviyyə, ideya-məzmunu, ədəbi istiqamət baxımından öz orijinallığı, rəngarəngliyi ilə seçilir.Sabirin uşaq ədəbiyyatına marağı təsadüfi deyildi. Uşaq ədəbiyyatı ilə ciddi məşğul olan şair həm də müəllim kimi onun gənc nəslin tərbiyəsində söz sənətinin, poetik fikrin böyük rolunu yüksək qiymətləndirirdi. O, məktəbə bağlı olan bir sənətkar kimi uşaqların maraq və tələbatlarını bilir və öz əsərlərində nəzərə alırdı.

Sabir uşaq əsərlərində balaca oxucuların yaş və qavrama xüsusiyyətlərini nəzərə almış, janr, dil, üslub özəlliklərinə xüsusi diqqət yetirmişdir. Şərqi, təmsil, mənzum hekayə janrlarında yazılmış bu əsərlər məzmun, üslub baxımından ədibin satiralarından tamamilə fərqlidir. "Görkəmli şair M.Ə.Sabirin yaradıcılığının mühüm bir qolunu təşkil edən uşaq şeirləri bu gün də dilin xəlqiliyi, axıcılığı, ifadəliliyi baxımından nümunə göstərilə bilər. Sənətkarın yaradıcılığının mühüm bir qolunu təşkil edən uşaq əsərlərini çap etdirməzdən əvvəl övladlarına dönə-dönə

oxudar, əzbər söylədər, diqqətlə dinləyər, hansı sözün, ifadənin çətin tələffüz olunduğuna, yerinə düşüb-düşmədiyinə xüsusi diqqət yetirərdi. Balaca oxucularla belə ünsiyyət, bədii eksperiment nəticəsində sənətkar uşaq əsərlərinin dilini cilalayardı.[3, s.13]

Şair bu əsərlərdə tərbiyəvi ideyaları, mənəvi dəyərləri, dərin mənalı fikirləri ibrətamiz həyat hadisələrinin təsviri, tənqid, nəsihət yolu ilə, obrazlı, axıcı bir dillə əks etdirmişdir. Bu baxımdan şairin "Uşaqlara hədiyyə" başlıqlı əsərləri yazıldığı dövrdə olduğu kimi, bu gün də gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. Ədibin uşaqlar üçün yazdığı əsərlərdəki xəlqilik, mənəvi ideyalar, nikbin ruh bu gün də gənc nəslin təxəyyülünə, hiss və duğularına, dünyagörüşünə qüvvətli təsir göstərir, həyati bilik və bacarıqlarını inkişaf etdirir.

Təsadüfi deyil ki, sənətkarın uşaq əsərlərinin bir qismi mövzu baxımından məktəb, elm, biliklə bağlıdır. Müasir dünyagörüşlü, təhsilli, milli ruhlu nəslin yetişməsinə xalqın pənah, ümid yeri kimi baxan ədib öz təşəbbüsü ilə açdığı təhsil ocağını "Ümid məktəbi" adlandırmış, dərsliklərin, uşaq əsərlərinin olmadığı bir şəraitdə uşaqlar üçün əsərlər yazmış, onları dərsdə təlim materialı kimi müzakirə etmişdir.

"Məktəb uşaqlarına töhfə", "Məktəb şərqisi," "Məktəbə tərğib," "Elmə tərğib" əsərləri Sabirin gənc nəslin həyatında məktəbin, elmin, biliyin rolunu yüksək dəyərləndirməsi baxımından diqqəti cəlb edir.

"Məktəb şərqisi" şeiri ilk dəfə "Dəbistan" jurnalında (1906 -cı il 20 dekabr , N 17) çap olunmuşdur.Şair bu əsərdə uşaqları yeni təhsil ocaqlarında oxumağa, elm, bilik qazanmağa səsləyirdi:

Məktəb, məktəb nə dilguşasən,
Cənnət, cənnət desəm, səzasən.
Şadəm, şadəm təfərrücündən,
Əlhəq, əlhəq gözəl binasən!

Ətrin, ətrin güli-cinandır,
Feysin, feyzin həyati-candır,
Qünçən-qünçən səfayi-vicdan,
Nurun, nurun ziyafəşandır.

Şair məktəbə müraciət etməklə, onu bədii dillə, uşaq ruhuna uyğun ifadə tərzi, şərqi intonasiyası ilə tərənnüm etməklə oxucuya təhsil ocağının kamala, iqbala yetmək, vətənə xidmət etmək üçün böyük əhəmiyyətini, səmərəsini göstərir.

"Məktəbə tərğib" şeiri bilavasitə şagird-oxucuya xitabən yazılmışdır. Şair məktəbə dəvət etdiyi uşaqlara öz övladı kimi baxır, onları xalqın və hər bir fərdin nicat yeri, tərəqqi, inkişaf ocağı olan məktəbə səsləyir:

Mənim bağım, baharım!
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,

Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

Şeir bir atanın, müəllimin məktəbə hazırlaşan uşağa böyük məhəbbətinin ifadəsidir. Əsərdə uşağa müraciətlə deyilən "bağım, baharım", "fikri ziyalı, vəfalı oğlum," "gözüm, canım, cavanım" ifadələri obrazlılıqla yanaşı, öz səmimiliyi, həyatiliyi ilə diqqəti cəlb edir.

Əsərdə çox yatmağın, ətalətin şeytandan, oyaqlığın, ayıqlığın isə Allahdan olduğu, nəsihət almaq, elm kəsb etməyin vacibliyi, elmsizlik, nadanlıq, cəhalət bəlasının müşküllüyü diqqətə çatdırılır:

Nəsihət al, nəsihət,
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası
Müşkül olur, həqiqət.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

Əsərdə şagirdin məktəbə, müəllimə münasibəti xüsusi vurğulanır. Əsərdə atanın dili ilə məktəbdə şərafət, elm, fəzl olduğunu unutmamağın, elm yolunda can qoymağın, müəllimin ehtiramını saxlamağın zəruriliyi ilə bağlı verilən nəsihətlər də ibrətamizdir.

1910-cu ildə şairin "Məktəb uşaqlarına töhfə" başlıqlı iki şeiri "Səda" qəzetində Balaxanı məktəbi müəllimlərindən Ə.Sabir Tahirzadə imzası ilə çap olunmuşdur. Uşaqların hisslərinə, duyğularına təsir etmək niyyəti izləyən birinci əsərdə tərbiyəvi motivlər, valideyn-övlad münasibətlərinin bədii əksi aparıcı yer tutur. Sənətkar uşaqları ata-ana qədrini bilməyə, onlara kədər gətirməməyə səsləyir:

Payi-altındadır behişt ananın"-
Bu, hədisi -şərifdir, inanın.
..Ataya hörmət etməyən cocuğun,
Anaya xidmət etməyən cocuğun
Nə olur kəndi nəfsinə xeyri,
Nə də ondan vəfa görər qeyri!
Şübhəsiz xüsrdən kənar olamaz,
İki dünyada bəxtiyar olamaz.

İkinci şeirdə ədib oxucularına müraciətlə insanın gələcək xoşbəxtliyinin bünövrəsinin uşaqlıqda zəhmət çəkməklə, gecə -gündüz çalışmaqla qoyulduğunu qeyd edir:

Ey uşaqlar, uşaqlıq əyyami-
Gələn əyyamın ondadır kami.
Kim ki, qeyrətlə zəhmətə alışar,
Kəsbi-irfanə ruzü şəb çalışar,-
Zəhməti-mayeyi- səadət olar,

Yaşadıqca həmişə rahət olar.

Şair bir daha xatırladır ki, tənbəlliyə meyl edən, gününü əyləncələrdə, cəhalətdə keçirən
insan bütün ömrü boyu səfalət içində yaşamağa məhkumdur. İnsanın nicatı elmdə, təhsildədir. Millətin ümidi olan uşaqlar oxumalı, çalışıb xalqın nicatı olmalıdır.

Uzun illər ibtidai siniflər üçün "Əlifba", "Ana dili" dərsliklərinə daxil edilmiş məşhur "Uşaq və buz," "Yaz günləri," "Cütçü" şeirləri balaca oxucuların çox sevdiyi, həvəslə əzbərlədiyi əsərlərdən olmuşdur. Uşaq xarakterinin, daxili emosional ovqatının təsviri "Uşaq və buz" şeirində aparıcı yer tutur. Əsərin qəhrəmanı şaxtalı havada həvəslə dərsə gedən uşaqdır. O, sənətkarın cəsarətli, mətin məktəbli idealının ifadəçisidir.

Buz üstündə sürüşüb yıxılan uşağı şair qoçaq adlandırır. Çünki, o, sürüşüb yıxılsa da, geri dönmür, evə qayıtmır. Ayağa durub yoluna davam edən uşaq buza meydan oxuyur, tezliklə yazın gələcəyini, buzun əriyib suya dönəcəyini, axıb çaya gedəcəyini söyləyir. Bu kiçik şeirdə şairi uşağın xarakterinin möhkəmliyini diqqətə çatdırır, onu oxuculara örnək kimi göstərir.

"Yaz günləri" şeiri baharın gəlişi ilə bağlı folklor motivlərini xatırladır. Lakin sənətkar əsərdə yazın gəlişi ilə bağlı uşaq arzularını əks etdirməklə yeni, orijinal yol seçmişdir. Şeir soyuq, qarlı, şaxtalı qış günlərində yaz həsrəti ilə yaşayan uşağın diləklərini əks etdirir. Yazın gəlişi uşaqlar üçün təbiətin özünəməxsus gözəlliyi ilə yanaşı, həm də çəmənlərdə, meşələrdə gəzintilər, şən oyunlar, əyləncələr deməkdir. Əsər şairin uşaq ruhunun, duyumunun, dünyagörüşünün dərin bilicisi olduğunu bir daha təsdiqləyir. Şeirdə uşaq folkloru ənənələrindən gələn axıcılıq, oynaqlıq, dil-üslub əlvanlığı balaca oxucular üçün onun bədii dəyərini daha da artırır.

Gəl, gəl, a yaz günləri!
İlin əziz günləri!
Dağda ərit qarları,
Bağda ərit qarları:
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək.

Doğma təbiəti poetik bir dillə vəsf edən, təbiətlə uşaq dünyasının vəhdətini əks etdirən bu şeir həcmcə kiçik olsa da, Sabirin həm də peyzaj lirikasının mahir ustadı olduğunu göstərir:

Sabirin təmsilləri də müasir uşaq mütaliəsində mühüm yer tutur. Bu, təsadüfi deyildir. Mövzu aktuallığı, xəlqilik və bədiilik şairin "Ağacların bəhsi", "Qarğa və tülkü", "Hörümçək və ipəkqurdu" təmsillərinin əsas meyarları, aparıcı keyfiyyətləridir.

Ədibin "Təbib ilə xəstə", "Qoca bağban", "Uşaq və pul", "İskəndər və fəqir",

“Yalançı çoban, “Azarlı kəndçi” mənzum hekayələrində qoyulan mənəvi problemlər uşaqları həyat həqiqətləri haqqında ciddi düşünməyə sövq edir. Əlbəttə, bu əsərlərdə qaldırılan problemləri uşaqlar zaman keçdikcə daha aydın dərk edəcək, düzgün nəticə çıxaracaqlar. Bununla yanaşı, mənzum hekayələr uşaqlarda həyat hadisələrinə düzgün münasibət formalaşdırmaq baxımından çox əhəmiyyətlidir.

M.Ə. Sabirin uşaq əsərləri bu gün də mövzu, ideya baxımından öz aktuallığını saxlayır. Böyük sənətkarın xalqın gələcəyi olan uşaqlarla bağlı ümidlərini, arzularını əks etdirən bu sənət incilərini müasir gənc nəslin dərindən öyrənməsinə nail olmaq mühüm vəzifə kimi qarşıda durur.

БАХАР АЛИЕВА

ИДЕЙНО-ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ДЕТСКИХ ПРОИЗВЕДЕНИЙ МИРЗА АЛЕКБЕР САБИРА

РЕЗЮМЕ

В статье рассматриваются идейно-художественные особенности детских произведений народного, реалистического характера, актуальных и в современности, могучего художника Мирзы Алекпера Сабира. Отмечается, что важным направлением творчества художника, которому принадлежит беспрецедентная роль в развитии социальной сатиры, является создание совершенных образцов детской литературы. Детские произведения поэта привлекают внимание многоплановостью сюжета, идеи и содержания, а также мощной сферой воздействия.

М.А. Сабир посвятил важный период своей жизни воспитанию подрастающего поколения, работал педагогом, писал детские произведения. Произведения поэта, написанные для подрастающего поколения, сыграли роль образца в детской литературе и оказали сильное влияние на пришедшую после него детскую литературу.

Литературный талант поэта нашел отражение в его детских произведениях. Его произведения, изданные под названием «Подарок детям», отличаются оригинальностью и разнообразием художественного уровня, идейно-содержательной и литературной направленности Интерес Сабира к детской литературе не случаен. Поэт, серьезно занимавшийся детской литературой, ценил и большую роль учителя в воспитании подрастающего поколения. Как художник, прикрепленный к школе, он знал возрастные особенности и особенности восприятия детей и учитывал их в своих работах.

В своих детских произведениях Сабир учитывал особенности восприятия юных читателей, особое внимание уделял особенностям сюжета, жанра, языка и стиля. Эти произведения, написанные в жанрах восточных, повествовательных, стихотворных рассказов, совершенно различны по жанровым особенностям и содержанию.

Воспитательные идеи, нравственные ценности, глубокие мысли поэт отразил через описание поучительных событий жизни, критику, советы образным, текучим языком. С этой точки зрения произведения поэта под названием «Подарок детям» играют сегодня важную роль в воспитании подрастающего поколения. Творчество, духовные идеи, оптимистический настрой в произведениях, написанных писателем для детей, оказывают сильное влияние на воображение, чувства и мировоззрение подрастающего поколения, развивают его жизненные знания и умения.

Ключевые слова: поэт, литература, поэма, рассказ, художественный, ребенок, воспитание, идея, жанр, язык, стиль, поэзия, сатира

BAHAR ALIEVA

IDEOLOGICAL AND ARTISTIC FEATURES OF CHILDREN'S WORKS BY MIRZA ALEKBER SABIR

SUMMARY

The article examines the idea-artistic features of the children's works of folk, realistic nature, which are still relevant in modern times, by the mighty artist Mirza Alakbar Sabir. It is noted that an important direction of the artist's creativity, which has an unparalleled role in the development of social satire, is the creation of perfect examples of children's literature. The poet's children's works attract attention due to their versatility in terms of subject, idea, and content, as well as their powerful sphere of influence.

M.A. Sabir devoted an important period of his life to the education of the young generation, worked as a teacher, and wrote children's works. The poet's works written for the young generation played a role as an example in children's literature and had a strong influence on the children's literature that came after him.

The poet's literary talent is reflected in his children's works. His works published under the title "Gift to Children" stand out for their originality and variety in terms of artistic level, idea-content, and literary direction. Sabir's interest in children's literature was not accidental. The poet, who was seriously engaged in children's literature, also appreciated his great role in the education of the young generation as a teacher. As an artist attached to the school, he knew the age and perception characteristics of children and took them into account in his works.

In his children's works, Sabir took into account the perceptual features of young readers, and paid special attention to the peculiarities of the subject, genre, language, and style. These works, written in the genres of oriental, narrative, verse stories, are completely different in terms of genre features and content.

The poet reflected educational ideas, moral values, and profound thoughts through the description of instructive life events, criticism, advice, in a figurative,

fluid language. From this point of view, the poet's works titled "Gift to Children" play an important role in the education of the young generation today. The creativity, spiritual ideas, and optimistic spirit in the works written by the writer for children have a strong influence on the imagination, feelings, and worldview of the young generation, and develop their vital knowledge and skills.
Key words: poet, literature, poem, story, fiction, child, education, idea, genre, language, style, poetry, satire

Ədəbiyyat

1. https://president.az/az/articles/M.Ə
2. Sabir M.Ə. Hophopnamə. Bakı: Yazıçı, 1980.
3. Həsənli B.Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2015. 524 s.
4. Namazov Q.Azərbaycan uşaq ədəbiyyatı.Bakı:Maarif, 1984.332 s.
5. Əzizov M. Uşaqların stvimliləri.Bakı: Gənclik, 1978. 125 s.
6. Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Elm, 1977.161 s.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosenti Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur

NARİFƏ MƏMMƏDOVA KAMANDAR QIZI
Bakı Dövlət Universiteti
"Dünya ədəbiyyatı" kafedrası
Bakı, Z. Xəlilov küç. 23
narifesmaylzada@gmail.com

KAZUO İŞİQURO YARADICILIĞINDA POSTKOLONİAL ÜNSÜRLƏR

XÜLASƏ

XX əsrin ikinci yarısından etibarən postkolonializm və multikultural ədəbiyyat kimi yeni bədii tendensiyalar Britaniya ədəbiyyatında ədəbi "axın"ın istiqamətini dəyişmişdir. Hibrid ədəbiyyat modeli fərqli xalqların nümayəndələrinin ingilis ədəbiyyatına qazandırdığı əsərlər vasitəsilə daha da zənginləşmiş və inkişaf etmişdir. Çağdaş ingilis ədəbiyyatında çox zaman postkolonial yazıçılarla birgə adı hallanan Kazuo İşiquro yeni multikultural Britaniya mühitinin görkəmli nümayəndəsidir. Kral Ədəbiyyat Cəmiyyətinin üzvü olan Kazuo İşiquro Yaponiyanın Naqasaki şəhərində dünyaya gəlmişdir. Okeanoqraf ailəsində doğulan romanist 1960-cı ildə ailəsi İngiltərənin Qilford şəhərinə emiqrasiya etmişdir. Kazuo 1981-ci ildə çap etdirdiyi 3 hekayə ilə ədəbi fəaliyyətə başlamışdır. 1983-cü ildə ilk romanından sonra "Ən yaxşı britaniyalı gənc yazıçı" nominasiyasında mükafatlandırılır. Eyni adlı mükafata 1993-cü ildə yenidən layiq görülmüşdür. İkinci romanı "Qarışıq dünyanın sənətçisi" Böyük Britaniyada ilin kitabı seçilmişdir.

1989-cu ildə K. İşiquronun üçüncü romanı "Günün qalanı" nəşr olunur. İngilis zadəganının həyatından bəhs edən, monoloq-xatirə üslubunda qələmə alınan əsərdə köhnə ənənələrin öləziməsi, dünya müharibəsinin yaxınlaşması, faşizmin yüksələn səsi təqdim olunur. Bukerə təqdim olunan roman münsiflərin yekdilliklə səsverməsi əsasında mükafatı əldə etmişdir . Tənqidçilər Kazuo İşiquronu ingiliscə yazan bir əcnəbi kimi Vladimir Nabokov və Cozef Konradla müqayisə edirlər. İşiquro "böyük emosional güclə yazılmış romanlarında bizim dünya ilə əlaqəmizin illüzor hissiyyat altında yatmış dərinliklərini üzə çıxartdığına görə" Nobel mükafatına layiq görülmüşdür. Bir çox tədqiqatçının düşündürən sual isə İşiquronun həqiqətən də postkolonial yazıçı olub-olmamasıdır. Məqalədə yazıçının yaradıcılğında fərqli məqamlara işıq tutaraq bu suala cavab tapmağa çalışırıq.

Açar sözlər: *postkolonializm, ingilis ədəbiyyatı, hibrid yazıçı, Asiya, müharibə*

Giriş. Britaniyanın vaxtilə imperiya dövləti olması nəticəsində müasir ingilis ədəbiyyatı fərqli xalqların münayəndələri sayəsində inanılmaz dərəcədə müxtəliflik qazanmışdır. "Keçən əsrin ikinci yarısından etibarən postkolonial və multikultural ədəbiyyat öz mövqeyini möhkəmləndirməklə ingilis ədəbi kanonlarının təkanını sarsıtdı və Britaniya ədəbiyyatında yeni bədii tendensiyanın əsası qoyuldu" [2, s. 43].

Ədəbi "axın"ın istiqaməti dəyişən postkolonializm ingilis ədəbiyyatında hibridləşmə dövrünə yol açılmışdır. Avropamərkəzçilik ideologiyasının sarsılması ilə birgə, Şərq ənənələrinin Qərb ədəbiyyatına intensiv olaraq təsir etməsi hibrid ədəbiyyat modelinin yaranmasına səbəb olmuşdur. Müstəmləkəçiliyi və onun nəticələrini öz baxış bucağından keçirərək yazan, torpaqlarını geri qaytarmağa can atan postkolonial yazıçıların ingilis ədəbiyyatındakı çoxluğu İngiltərə müstəmləkə rejiminin arzuolunmaz nəticəsi kimi meydana gəlmişdir. E. Boehmer prosesin izahını bu şəkildə qələmə alır: "bir zamanlar ingilis ədəbiyyatı adlanan məfhum artıq daha doğru bir şəkildə ingilis dilində ədəbiyyat olaraq əsaslı şəkildə dəyişmişdir" [1, s. 77].

Postkolonial ədəbiyyatın və mədəniyyətin ərsəyə gəlməsinə bir çox amillər səbəb olmuşdur: müstəmləkə asılılığında olmuş ölkələrin ortaq tarixi keçmişi, onların imperialist metropoliyalar ilə iqtisadi-mədəni əlaqəsi, kolonial rejimin hakim olduğu illərdə milli ədəbiyyatın və mədəniyyətin inkişafı üçün bənzər şəraitin olması, yerli intellektualların müstəmləkə rejimindən xilasolma səyləri, öz fərdiliklərinin, həmçinin etno-mədəni keyfiyyətlərini qoruyub saxlama cəhdləri və s.

Çağdaş ingilis ədəbiyyatında milli identiklik problemi üzrə mütəxəssis alimlərin fikrincə, "postkolonial yazıçıların əsərlərində əsas mövzu Üçüncü Dünya ölkələrinin mədəni "çarpazlaşma" probleminin təhlili, öz vətənini məcburi tərk etmiş mühacirin və həmçinin "postkolonial" məkanda "intellektual mühacirin" keçirdiyi hiss-həyəcanın nəqlidir" [7]. Bu əsərlərdə fərqli insanlar, fərqli irqlər və dillər arası qarşılıqlı münasibətlər fərqli prizmadan dəyərlədnirilərək təhlilə cəlb olunur. S. Rüşdi, B. Okri, V. Naypol, K. İşiquro, H. Kureyşi və digərləri yaradıcılıq nümunələrində iki və daha çox mədəniyyətin təməl arxetiplərinini birləşdirsələr də, öz yaradıcı varlıqlarını İngiltərəyə və bu ölkənin mədəni-ədəbi ənənələri ilə bağlayırlar. İngilis ədəbiyyatına yeni nəfəs gətirən bu yazıçılar iki müxtəlif mədəniyyətin daşıyıcıları olaraq hibrid identikliyə sahibdirlər. Mühacir yazıçıların ədəbi arenadakı mövqeyini Homi K. Bhabhanın ifadə etdiyi "aralıq məkan" (interstitial passage) anlayışı ilə izah etmək mümkündür. "Müxtəlif mədəniyyət və millətlər arasında yerləşən mühacir yazıçılar hər iki dünyanın təmsilçisi kimi çıxış edir, amma eyni zamanda nə o, nə də o biri aləmə mənsub olmurlar" [6].

Postkolonial ingilis ədəbiyyatı məhz V. Naypol, S. Rüşdi, K. İşiquro kimi androgin yazıçıların hesabına müasir dünya ədəbiyyatının ən aparıcı ədəbiyyatlarından birinə çevrilmişdir. Postkolonial cəmiyyətin bütün xüsusiyyətlərini daşıyan androgin yazıçılar Yeni Britaniya mühitinin multikultural halını əks etdirir. "Bu yazıçıların simasında yeni yaranan ictimai "sinfin", fərqli görünüş və dəri rənginə sahib yeni "ingilislərin" yaşayış tərzi və dünyagörüşünü görmək mümkündür" [4, s. 49].

Əsas hissə. Yuxarıda sadalananları şamil edə biləcəyimiz yazıçılardan biri olan Kazuo İşiquro 1954-cü ildə Yaponiyanın Naqasaki şəhərində anadan olmuşdur. Beş yaşında ailəsinin işi ilə əlaqədar İngiltərəyə köçmüş və otuz yaşlarının ortalarına

qədər öz ölkəsini görməmişdir. Tam olaraq İşiquronu təsvir etmək üçün buradan başlamaq vacibdir: çünki yapon valideynləri olmasına baxmayaraq özünün də tez-tez vurğuladığı kimi "o, əsl ingilisdir və romanları ingilis ədəbiyyatının məhsuludur." Odur ki, İşiquroya yapon ədəbiyyatı çərçivəsində deyil, ingilis ədəbiyyatının ənənələrinə görə qiymət vermək daha düzgün olardı.

İşiquronun postkolonial dövrün bir çox yazıçılarının yaşadığı mənsubiyyət problemini yaşadığını deyə bilmərik. Romanlarında köç, torpaq dərdi, yurd həsrəti kimi mövzular bir o qədər də öz əksini tapmamışdır. Yazıçı həmişə öz evindəymiş kimi hiss etdiyi İngiltərə ədəbiyyatında Milan Kundera, Qabriel Qarsia Markes və Salman Rüşdi kimi öz dillərindən imtina edərək ingiliscə yazmağa üstünlük verən yazıçılarla eyni cərgədə göstərilə bilər.

Kazuo İşiquronun yaradıcılığında yapon əcdadlarından aldığı şərqin sirli-sehrli izləri dərhal özünü büruzə vurur. İstənilən oxucu rahatlıqla yapon estetikasının kodlarını onun əsərlərində deşifrə edə bilər. İşiquronun adı belə qərblilərin qulağında ekzotik əks-səda verərək onun Yaponiya ilə olan əlaqəsini göz önünə gətirir. Təbii haldır ki, İşiquronun Yaponiya ilə bağlılığı fiziki xüsusiyyətləri və avtobioqrafik detalları ilə yekunlaşmır, "Təpələrin solğun mənzərəsi" (1982) və "Qarışıq dünyanın sənətçisi" (1984) kimi ilk əsərlərindən etibarən oxucuları onu ingilis dilində yazan etnik yapon azlığının nümayəndəsi kimi qəbul edir. İşiquro yaradıcılğının ilk illərində təcrübəsiz yazıçı kimi öz Asiya irsindən mütəmadi olaraq istifadə etsə də, sonralar özünü universal insan problemlərini həll edən müəllif kimi dəyişdirməyə çalışır. Yazıçı bu istiqamətdə inkişaf edərək artıq əsərlərində doğma vətəninin izlərini azaltmaq məcburiyyətində qalır. İşiquro nə qədər bu təsiri minumuma endirsə də,onun yapon əcdadlarına xas izləri danılmaz bir cəlbediciliklə oxucunu özünə çəkməyi bacarır.

İşiquronun etnik mənsubiyyəti onun müasir ədəbi arenada fərqlənməsinə böyük təsir göstərir. İşiquro haqqında tez-tez səslənən postkolonial, etnik və immiqrant təyinləri onun yaradıcılıq üslubunu araşdırmaqda tənqidçilərə yol göstərir.

Bu bir faktdır ki, İşiquronun Asiya mənşəli olmağı onu uğura aparan yolda işini daha da asanlaşdırmışdır. İşiquro Allan Vorda müsahibəsində etiraf edir ki, 1981-ci ildə Salman Rüşdinin "Gecəyarısı uşaqları" əsərinin beynəlxalq miqyasda tanınması "etnik yazıçılar" anlayışının yaranması ilə birgə Britaniyada multikulturalizm tendensiyasının ortaya çıxması İşiquronun öz yazıçılıq karyerasına erkən başlamasına təkan vermişdir. "Yapon mədəniyyətinə xas izləri özündə ehtiva edən "Təpələrin solğun mənzərəsi" əsərinin ani uğuru ilə "yapon siması"və "yapon adı" etiketə çevrilərək yazıçını uzun illər tərk etməmişdir" [11, s. 6].

İşiquronun yaradıcılığına tənqidçilər müxtəlif rakurslardan yanaşaraq üç kateqoriya üzrə bölürlər: "postkolonial elementlər"in tədqiqi, texniki aspektlər"in təhlili və "İşiquronun yapon irsi ilə əlaqəli tematik üslubu" [8, s. 39]. Bu tənqidi yanaşmalar sübut edir ki, İşiquronun irqi fərqliliyi və köç keçmişi onun ədəbi yaradıcılığından yan keçməmişdir. Eyni şəkildə, İşiquronun Asiya soylu olması

Britaniya imperializmi kontekstində tədqiq edildikdə siyasi müqavimət, bədii variasiya və geomədəni yerdəyişmə kimi terminləri onun yaradıcılığına daşımışdır.

İşiquro çox zaman postkolonial müəllif adlandırılır, çünki "...onun Yapon kökəni Britaniya İmperiyasının Asiya koloniyalarının tarixi keçmişi ilə bilavasitə əlaqəlidir" [8, 50]. "Müasir postkolonial və postimperial ədəbiyyat" qaynaqlarında da İşiquro Hanif Kureyşi, Salman Rüşdi, V. S. Naypol və Timoti Mo kimi Asiya, Hindistan və Karib adalarından olan yazıçılarla birgə siyahıya salınmışdır. İşiquro bəzi hallarda özünü bu siyahıda, xüsusən də onun tez-tez Rüşdi, Mo və Naypolla müqayisə edilməsinə qarşı çıxır. İşiquro hətta öz yazıçı üslubunu "Rüşdi və ya Monun antitezisi" hesab edir. "Həqiqətən də Rüşdi oxucunu bilərəkdən çaşdıran, yarı real, yarı sürrealist üslubda yazır. Təlxək bir personajın rəvayət etdiyi "Gecəyarısı Uşaqları" Hindistanın müstəqilliyi ilə bağlı möhtəşəm hadisə ətrafında fırlanır. Mo isə zərif yumor toxunuş xətti və realistik rəvayətə üstünlük verərək əsərlərini qələmə alır. "Turş Şirin" (1982) adlı əsərində çinli mühacir ailəsi olan Çenlərin Londonda necə dolanmağı bacardıqlarından bəhs edir. Naypol insan təbiətinin qaranlıq boşluqları ilə maraqlanır və onları melanxolik və bədbinlik tonu ilə ifadə edir. O, "birinci dünya" ilə "üçüncü dünya" arasındakı böyük ideoloji toqquşmalara xüsusi diqqət yetirir. "Əldəqayırma" (1967) və "Gəlişin müəmması" (1987) əsərlərində Karib dənizi adalarından olan yerli elitaların Britaniya imperializminin süqutundan sonra yaşadıqları narahatedici çaşqınlığından bəhs edir" [10, s. 171].

Bir qədər diqqətlə yanaşsaq, Yaponiyanın Asiyada Hindistan, Honq-Konq və ya Sinqapur kimi Britaniya koloniyaları ilə qruplaşdırıla bilmədiyi kimi İşiquronu da Naypol, Mo və Rüşdi kimi postkolonial yazıçılarla eyni cərgədə görə bilmirik. Bill Aşkroft, Qaret Qriffis və Helen Tiffinin aydın şəkildə müəyyən etdiyi kimi, dünyanın müxtəlif bölgələrindən olan postkolonial yazıçılar müstəmləkəçilik təcrübəsindən yararlanaraq və imperiya ilə gərginliyi ön plana çıxararaq özlərini ifadə edir. Britaniyanın keçmiş müstəmləkələrindən olan yazıçılardan fərqli olaraq, İşiquro Britaniya İmperiyası tərəfindən dağıdılan və istismar edilən vətən haqqında xatirələrə sahib deyil. Britaniya Naypolun keçmiş imperiyanın çöküşündən şikayətləndiyi, Rüşdinin keçmiş müstəmləkəçinin ideoloji yanlışlıqlarına lağ etdiyi və Monun Çinli mühacirlərin qəbul edilmiş torpaqlardakı çaşqınlığını dilə gətirdiyi ölkə olaraq təsvir edilsə də, İşiquronun bir çox əsəri üçün Britaniya sadəcə bir məkan rolunu daşıyır. Britaniyanın imperiya siyasətinə meydan oxuyan Rüşdi, Mo və Naypoldan fərqli olaraq, İşiquro imperializmə yanaşmaqdan yan qaçır.

İşiquro hekayələri müstəmləkə rejiminin nəticələri ətrafında fırlanmaq əvəzinə, İkinci Dünya müharibəsinin insan həyatını kəskin şəkildə dəyişdirməsi və müharibənin qaçılmaz şəkildə səbəb olduğu sosial-mədəni çevrilmə ilə bağlı adi insanların psixoloji təlaşını ön plana çəkir. "Təpələrin solğun mənzərəsi", "Qarışıq dünyanın sənətçisi", "Günün qalanı" və "Biz yetim olanda" kimi dünya şöhrətli əsərlərində Yaponiya və Britaniyadan olan adi insanların qorxulu xatirələrində müharibənin dəhşətli mənzərəsini oxucularına təqdim edir.

İşiquro hekayələri nə özlüyündə imperializmi əsas götürür, nə də hər hansı konkret imperiya rejimini pisləyir. Yazıçını romanlarında mütəmadi olaraq maraqlandıran şey mülki əhalinin üzləşdiyi müharibə fəlakətləridir. İtki və təəssüf hissi ilə bağlı narahatedici xatirələrə əlavə olaraq, yuxarıda adı çəkilən romanların hər biri fərdlərin beynəlxalq siyasətin mənzərəsini yenidən formalaşdıran, öz vətənlərini inkişaf etməyində əngəl olan böyük güclərin qeyri-bərabərliyini əks etdirir. "Bəlkə də İşiquronun tematik üslubunu xarakterizə etmək üçün daha adekvat olan ifadə "müstəmləkədən sonrakı" deyil, "müharibədən sonrakı" ifadəsidir, çünki "Təpələrin solğun mənzərəsi", "Qarışıq dünyanın sənətçisi", "Günün qalanı" və "Biz yetim olanda" əsərlərində əsasən İkinci Dünya Müharibəsinin səbəb olduğu psixoloji travma və sosial-mədəni konfiqurasiyaya vurduğu zərər bədii ifadəsini tapır" [9, s. 165].

İşiquronun beş yaşında İngiltərəyə köçməsi faktı bir sıra tənqidçiləri onu oxşar köç təcrübəsi olan digər müəlliflərlə eyni göstərməyə təşviq edir. Tədqiqatçı Brüs Kinq "Naypol, Salman Rüşdi, Buçi Emeçeta, Timoti Mo və İşiquronu "yeni beynəlmiləlçiliyin" sübutu olan yazıçılar kimi gördüyünü iddia edir, çünki onlar Britaniya ədəbiyyatının "immiqrant təcrübəsi" olan müəlliflərdir." Brüs Kinq immiqrant yazıçıları müharibədən sonrakı Britaniyada "multikultural şəxslər" kimi müəyyən edir və İşiquro, Rüşdi, Mo və Naypolu bu dəst-xəttin görkəmli simaları kimi göstərir. "İşiquronu "Asiya diasporunun uşağı" hesab edir və onun yazılarında yazıçının "parçalanmış şəxsiyyət"ini və "dəfn edilmiş mənliyi"ni hiss edir" [5, s. 203].

İşiquro mühacir yazıçılara xas olan avtobioqrafik təfərrüatları ön plana çıxarmaq yaxud ailəvi köç xatirələri haqqında və ya öz həyatının nostalji tellərinə toxunmaq əvəzinə başqalarının həyat hekayələrinə daha mükəmməl şəkildə toxunur. Naypol, Mo və Rüşdi insan əzablarını vətənlərinin müstəmləkələşdirilməsinin nəticəsi kimi təsvir edərkən, İşiquro onları İkinci Dünya Müharibəsi və müharibədən sonrakı dövrün mənzərəsi kimi təsvir edir. İtki və günahkarlıqla dolu xatirələri ilə təqib olunan İşiquro personajları istənilən məkana daha çox müvəqqəti olaraq həbs edilmiş kimi hiss edirlər, çünki onlar nə indiki zamanda möhkəm dayaq saxlaya bilir, nə də xatırlamaqdan qorxduqları fəlakətli keçmişdən qaça bilirlər. Uydurma personajlarını yaradarkən İşiquro "buqələmun" taktikasını həyata keçirir: onun rəvayətçilərinin hər biri özünün yerləşdiyi xüsusi şəraiti mənimsəyir. Norman Peycisin qeyd etdiyi kimi "İşiquro "gərginlikləri gizlətmək və ört-basdır etmək üçün qatı "rəsmi" səthdən istifadə etməklə yaponlara bənzəyən ünsiyyət və davranış tərzini ingilis kontekstinə köçürməkdə olduqca mahirdir" [9, s. 164]. İstər vətəni Yaponiyada, istərsə də mühacir olduğu Britaniyada və ya üçüncü bir məkanda hekayə qurmağı bacaran İşiquro hadisələri və personajları ustalıqla idarə edir. İki və ya bir neçə mədəniyyətin kəsişməsində o, fərdlərə dərhal öz şəxsi itkiləri haqqında düşünməyə imkan verən və cəmiyyətləri öz yanlışlıqlarını ifşa etmək üçün ideoloji çəkişmələrə sürükləyən istənilən məkanı təsvir edir.

İşiquronun mühacir ədəbiyyatı diskursunda müzakirə edə biləcəyimiz bədii yazılarını oxuyarkən yadda saxlamaq lazımdır ki, yazıçı öz mühacir təcrübələrini bədii qəhrəmanlarının fərdi həyatına səpələsə də, bu, mühacir ədəbiyyatının impressionist melanxoliyasından qaynaqlanmır. İşiquro yaradıcılığında obrazların yad ölkədəki çətin vəziyyətə dözməkdənsə, öz ölkələrindəki acı keçmişlərini xatırladıqları mətn detallarına diqqət yetirmək lazımdır. Bu roman qəhrəmanları müəyyən bir zaman seqmentində tələyə düşürlər və buna görə də həyatlarını davam etdirə bilmirlər. İşiquro ünvanladığı yadlaşma hissi xaricdə deyil, daxildə daha dərin kök salır, çünki müharibə insan həyatını o qədər kəskin şəkildə dəyişib ki, fərdlər özlərini xaricdə olduğu kimi evdə də təhlükə altında hiss edirlər. "İşiquronun təkrar-təkrar vurğuladığı məqam, yerli sakinin belə öz məmləkətində müharibədən sonrakı dövrdə qeyri-ixtiyari olaraq keçirdiyi yadlaşma hissidir, ona görə də İşiquronun yazılarını "tərsinə çevrilmiş mühacir ədəbiyyatı" , personajlarını isə "evdə mühacir" kimi adlandırmaq daha doğru olar" [12, s. 66]

Postkolonial və ya mühacir yazıçı adları ilə yanaşı, İşiquro bəzən ingilis dilində yazan yapon müəllifi kimi də xarakterizə olunur. Tənqidçilərin xeyli hissəsi yazıçının qeyri-adi yazı üslubunu yaponların özünü sıxışdıran ritorikası ilə əlaqələndirərək, romanlarında Yaponiyanın nəzərəçarpan işarələrini müəyyənləşdirir. Valeri Purton iddia edir ki, "Yazıçı səthi şəkildə qərblidir, lakin daha dərində yapondur" [10, s. 179]."Dəyişən dünyanın rəssamı" və "Günün qalıqları" haqqında Valeri Purton belə qeyd edir: "İşiquronun öz personajlarının xarakterini tədricən açması yapon mədəniyyətinin zərif təmkininin təsiri altındadır və onun sənətinin özünəxas təbiətidir" [10, s. 178]. Bir çox tədqiqatçı yapon estetikasının İşiquro poetikası ilə bu assosiasiyası fikrinə dəstək olur. Brüs Kinq yazır: "İşiquronun yazıçı instinktləri yapon rəssamlığının mahir fırça işinə bənzəyir; xırda nüanslı, təvazökar, zərif, lakin əhəmiyyətli detallarla zəngin" [5, s. 202]. İşiquronun ingilis dilində yazan yapon olması "Təpələrin solğun mənzərəsi" və "Qarışıq dünyanın sənətçisi" romanlarının qəhrəmanlarının Yaponiyada olması və yapon fiqurları tərəfindən nəql edilməsi faktı oxucunu həqiqətən də onun hekayə üslubunun yapon dilinin mürəkkəb ritorikası ilə dərhal əlaqələndirməsinə təşviq edir. Bununla belə, diskursiv təmkinlilik yalnız yaponlara xas xüsusiyyət deyil, çünki ingilislər də hissi susqunluq reputasiyasına malikdirlər. Daha çox ingilis hekayəsi kimi qəbul edilən "Günün qalanı" İşiquro qələminin özünəməxsus yapon aurasına sahib olduğu fərziyyəsinə qarşı çıxır. Çünki əsərin narratoru Stivensin xarakteri və nitqi oxucular və ədəbi tənqidçilər tərəfindən Britaniya aristokratiyasının natiqliyi ilə səsləşdirilmişdir.

İşiquronun irqi kimliyi ilə estetik yanaşmasının çulğalaşması 1980-ci illərin əvvəllərində bədii ədəbiyyat aləmində möhkəm yer qazanmasına imkan yaratmışdır. Şərqli obrazından çox yaxşı şəkildə istifadə edən yazıçı bu silinməz təəssüratla romanlarının geniş təbliğinə və qəbul edilməsinə nail olur. İşiquronun yapon mənşəli olması çox güman ki, naşirlərin və redaktorların da onun yazılarını təbliğ edərkən həvəslə qəbul etdikləri cəlbedici marketinq taktikası olduğu sübut olunmuşdur.

“Romançı qəsdən bioloji saatı daimi olaraq Yaponiyanın saat qurşağında qalan və samuray əcdadlı müəllif kimi təsvir edilmişdir” [3].

“Faber & Faber” və “Vintage International” kimi böyük nəşriyyatlar əsərlərin satışını artırmaq üçün İşiquronun yapon mənşəli olduğunu məqsədyönlü şəkildə vurğulasalar da, İşiquronun Asiya mənşəyinə diqqət yetirən tənqidçilər onun şüurlu şəkildə yazı üslubu ilə yapon estetikası arasında nəzərəçarpacaq dərəcədə həssas paralellər yaratdığını iddia edirlər. Lakin İşiquronun 1980-ci illərin əvvəllərində nəşr olunan "Qərib və bəzən də hüznlü", "Müharibədən sonrakı yay" (1983) və "Oktyabr, 1948" (1985) İşiquro coğrafi xüsusiyyətləri minimuma endirdiyi kimi, bu əsərlərində yapon dilindən də nadir hallarda istifadə edir. Uydurma personajların adları və bir sıra coğrafi yerlər istisna olmaqla, yapon terminlərinin azlığı, İşiquronun Yaponiyadan faktiki yerləşdiyi yerdən daha çox simvolik varlığı üçün istifadə etdiyini bir daha sübut edir. “İşiquro hətta ən lazımlı görünəndə belə, hər hansı yapon ifadələrindən yerli-yersiz istifadədən qaçınır” [8, s. 45].

Müxtəlif müsahibələrində İşiquro etiraf edir ki, o, yaddaşında Yaponiya ilə bağlı sadəcə parçalanmış xatirələrini saxlayır və yapon mədəniyyətindən daha çox Qərb ədəbi ənənəsinə yaxınlıq duyur. Jurnalist A. Vorda müsahibə verəndə İşiquro özünü "irqi cəhətdən yapon olan və daha doğrusu “yapon kimi görünən" biri olaraq təsvir edir. Çünki onun fikrincə, “İngiltərədə illərlə yaşadıqdan sonra "yaponluğu" bir qədər yoxa çıxıb” [11, s. 27]. Qriqori Meysonla söhbətində yazıçı həm də səmimi şəkildə etiraf edir ki, onun bildiyi yapon dili “beş yaşlı yapon” kimidir. İşiquro obrazlı şəkildə “ “London qəsrində yaşayan bir növ xarici yapon müxbiri" kimi qəbul olunmaqdan qorxduğunu da açıqlayır” [8, s. 50].

İşiquronun oxucu kütləsinin böyüklüyü və heterojenliyi onun bədii yaradıcılıq fəaliyyətinin əhatə dairəsinə və müxtəlifliyinə də olduqca uyğundur. Onun romanlarının onlarla dilə tərcüməsi onun oxucularını ingilisdilli dünyadan çox uzaqlara; Fransaya, Almaniyaya, Yaponiyaya, Çinə, Tayvana və digər Asiya xalqlarına daşımışdır. İşiquronun dünya şöhrəti onun yüksək səviyyədə yazıçı mövqeyinə sahiblənməsinə səbəb olmuşdur. Yazıçının özünü həqiqətdə anqlo-sakson və ya yapon olaraq hiss etməsi onu beynəlxalq kontekstdə təhlil və tənqid etməyə əngəl olmur. Düzdür, İşiquronun ilk əsərlərinin hazırlanması və tanınması üçün yapon olması onu 1980-ci illərin əvvəllərində digər müəlliflərdən effektiv şəkildə fərqləndirmişdir. Lakin ilk ədəbi çıxışından iyirmi ildən çox vaxt keçəndən sonra İşiquro mövzu-mündəricə baxımdan Yaponiya və İngiltərə ərazilərindən çox uzaqlara çıxmağı bacarmışdır. Daha yeni hesab olunan əsərləri “Təsəllisizlər”, “Biz yetim olanda”, “Qərib və bəzən də hüznlü” və “Məni heç vaxt tərk etmə” roman ustadının atom bombası , uşaqlıq travması və insan klonlarına dair dünyəvi mövzuları əhatə etmişdir.

Nəticə. Qlobal oxucu kütləsini nəzərə alaraq deyə bilərik ki, İşiquro coğrafi sərhədlərdən kənarda bütün fərdləri narahat edən məsələləri ehtiva edən əsərlərin müəllifidir. “Ana/doğma mədəniyyəti” və “qəbul edilmiş/işğalçı mədəniyyəti”

mübahisəsinə əsaslanan postkolonial, mühacir və etnik yapon etiketləri İşiquro yazılarının, xüsusən də sonrakı əsərlərinin təbiətini əks etdirmir. Yuxarıda qeyd olunan kateqoriyaların qeyri-adekvat olması yazıçını və onun yaradıcılığını müəyyən etmək üçün daha münasib termin tələb edir. Bredberi, Kenzaburo, Vonq və Byatt kimi İşiquro yaradıcılığı üzrə tanınan tədqiqatçılar hesab edirlər ki, İşiquro "ingilis dilində yazan beynəlxalq yazıçı" kimi təsnif edilməlidir və bu, mənim də dəstəklədiyim fikirdir. Bu fikrin köməyilə dünya İşiquronun yaradıcılığını kim olduğuna və haradan gəldiyinə görə deyil, nə yazdığına və kimin üçün yazdığına görə təsnif edir. İşiquronu ingilis dilində beynəlxalq yazıçı və ya dünya yazıçısı kimi təyin etmək oxucuları onun yapon əcdadını onun yaradıcılığını zənginləşdirən bir qüvvə kimi görməyə və bununla da onu müasir yazıçıların daha geniş spektri daxilində qiymətləndirməyə təşviq edir.

İstifadə olunmuş ədəbiyyat:

1.Ashcroft B., Griffiths G., Tiffin H. The Empire Writes Back: Theory and Practice in Post-Colonial Literatures. London: Routledge, 2005, p. 296

2.Donnell A. Companion to Contemporary Black British Culture. London: Routledge, 2002.

3.Early Japanese Stories. Illustrate. Eileen Hogan. London: Belmont, 2000.

4.Iyer Pico. "The Empire Writes Back", Time 8 February 1993, 46-51s.

5.King Bruce. "The New Internationalism: Shiva Naipaul, Salman Rushdie, Buchi Emecheta, Timothy Mo and Kazuo Ishiguro." The British and Irish Novel Since 1960. Ed. James Acheson. New York: St. Martin's, 1991, 192-211s.

6.Koundoura M., Rai A. "Interview: Homi Bhabha" // Stanford Humanities Review, 2001, v.3, No 1.

7.Krishnaswamy R. Mythologies of Migrancy: Postcolonialism, Postmodernism and the Politics of (Dis) Location//ARIEL: A Review of International English Literature, 2007, v.26, No 1.

8.Mason Gregory. "Inspiring Images: The Influence of the Japanese Cinema on the Writings of Kazuo Ishiguro". East-West Film Journal 3.2 (1989), 39-52 s.

9.Page Norman. "Speech, Culture and History in the Novels of Kazuo Ishiguro." Asian Voices in English. Eds. Mimi Chang and Roy Harris. Hong Kong, Hong Kong UP, 1991, 161-68 s.

10. Purton Valerie. "The Reader in a Floating world: The Novels of Kazuo Ishiguro" The Literature of Place. Eds. Norman Page and Peter Preston. London: Macmillan, 1993, 170-79 s.

11. Vorda Allan. "Stuck on the Margins: An Interview with Kazuo Ishiguro" Face to Face: Interviews with Contemporary Novelists. Eds. Allan Vorda and Daniel Stern. Houston: Rice UP, 1993. 1-36 s.

12. Wong Cynthia F. Kazuo Ishiguro. Plymouth, England: Northcote; British Council, 2000, 250 s

Нарифа Мамедова

ПОСТКОЛОНИАЛЬНЫЕ ЭЛЕМЕНТЫ В ТВОРЧЕСТВЕ КАДЗУО ИСИГУРО

РЕЗЮМЕ

Со второй половины двадцатого века новые художественные течения, такие как постколониализм и мультикультурная литература, изменили направление литературного “течения”в британской литературе. Гибридная литературная модель еще больше обогатилась и развивалась благодаря произведениям, приобретенным английской литературой представителями разных народов. Кадзуо Исигуро, имя которого часто встречается в современной английской литературе вместе с постколониальными писателями, является видным представителем новой мультикультурной британской среды. Кадзуо Исигуро, член Королевского литературного общества, родился в Нагасаки, Япония. Родившийся в семье океанографов, семья писателя иммигрировала в Гилфорд, Англия, в 1960 году. Казуо начал свою литературную деятельность в 1981 году, опубликовав 3 рассказа. В 1983 году, после своего первого романа, он был удостоен номинации «Лучший британский молодой писатель». В 1993 году снова был удостоен одноименной премии. Его второй роман «Художник смешанного мира» был выбран книгой года в Великобритании.

В 1989 г. был опубликован третий роман К. Исигуро «Остаток дня». Произведение, повествующее о жизни английского дворянина и написанное в стиле монологов-мемуаров, представляет смерть старых традиций, приближение мировой войны и усиление голоса фашизма. Роман, представленный Букеру, получил приз на основе единогласного голосования судей. Критики сравнивали Кадзуо Исигуро с Владимиром Набоковым и Джозефом Конрадом как с иностранцем, пишущим по-английски. Исигуро был удостоен Нобелевской премии «за романы, написанные с большой эмоциональной силой, которые раскрывают глубины нашей связи с миром, лежащие за иллюзорными чувствами». Вопрос, над которым задумываются многие исследователи, заключается в том, действительно ли Исигуро является постколониальным писателем. В статье мы пытаемся найти ответ на этот вопрос, проливая свет на разные моменты творчества писателя. Вопрос, который волнует многих исследователей, заключается в том, действительно ли Исигуро был писателем постколониального периода. В статье мы пытаемся найти ответ на этот вопрос, проливая свет на разные моменты творчества писателя.

Ключевые слова: *постколониализм, английская литература, писатель-гибрид, Азия, война.*

Narifa Mammadova

POSTCOLONIAL ELEMENTS IN KAZUO ISHIGURO'S WORKS

SUMMARY

Since the second half of the twentieth century, new artistic trends, such as postcolonialism and multicultural literature, have changed the direction of the literary "current" in British literature. The hybrid literary model was even more enriched and developed thanks to works acquired by representatives of different nations in English literature. Kazuo Ishiguro, whose name is often found in modern English literature together with postcolonial writers, is a prominent representative of the new multicultural British environment. Kazuo Ishiguro, a member of the Royal Society of Literature, was born in Nagasaki, Japan. Born in a family of oceanographers, the novelist's family immigrated to Guildford, England in 1960. Kazuo started his literary activity in 1981 with 3 stories he published. In 1983, after his first novel, he was awarded the "Best British Young Writer" nomination. He was awarded the award of the same name again in 1993. His second novel "The Artist of the Mixed World" was chosen as the book of the year in Great Britain.

In 1989, K. Ishiguro's third novel "The Rest of the Day" was published. The work, which tells about the life of an English nobleman and is written in a monologue-memoir style, presents the death of old traditions, the approach of a world war, and the rising voice of fascism. The novel submitted to the Booker won the prize based on the unanimous vote of the judges. Critics have compared Kazuo Ishiguro to Vladimir Nabokov and Joseph Conrad as a foreigner writing in English. Ishiguro was awarded the Nobel Prize "for his novels, written with great emotional power, that reveal the depths of our connection with the world that lie beneath the illusory sensibilities." The question that many researchers think about is whether Ishiguro is really a postcolonial writer. In the article, we try to find an answer to this question by shedding light on different points in the writer's work. The question that worries many researchers is whether Ishiguro really was a writer of the postcolonial period. In the article we try to find an answer to this question, shedding light on different moments of the writer's creativity.

Keywords: *postcolonialism, English literature, hybrid writer, Asia, war*

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Professor Cəlil Nağıyev
tərəfindən çapa tövsiyə olunmuşdur

HUSEYNLI ARZU JAVANSHIR GIZI
ASPU, teacher of the Foreign Languages Centre
huseynovaarzu@mail.ru

PROMİNENT POETESSES OF SHUSHA (part 2)

SUMMARY

The land of Garabagh, which we longed for during many years, is now free thanks to the heroism of our brave sons, and these historical lands are experiencing a period of revival and development. Shusha, that lived under siege for nearly 30 years and suffered all kinds of sufferings, was morally supported by poems by Vagif, Ashiq Pari, Natavan, Kamina; Sadikhjan's tar; Jabbar's, Khan's and Bulbul's voices, Mashadi Jamil's, Uzeyir bey's, Badalbayli's, Adigozalov's music.

Ashig Pari, Khurshidbanu Natavan, Fatma khanum Kamina, Govher agha, Aghabeyim agha, Gamar beyim Sheyda... These prominent poetesses of Shusha environment contributed to Azerbaijani literature of the 19th century. Their poems played a great role in the transformation of Azerbaijani Turkish into a rich, flowing and folk language of poetry. They are known to all of Azerbaijan from the height of Shusha.

This article provides information about the life and literary-social activities of some of the poetesses who lived and created in Shusha - Govhar aga, Agabeyim aga, Gamar beyim Sheyda, followers of the Shusha literary school. Like other poets of Shusha, they were involved in charity work and did not spare their support and help to young poets.

The article also contains information about the literary-artistic assemblies that played an important role in the development of word art in Garabagh. The poetic debates of the masters of word in these gatherings are among the points of interest.

The contribution of Garabagh and the city of Shusha- its crown, to Azerbaijan culture is irreplaceable. In these days, when the great and eternal return to Shusha, the cultural capital of Azerbaijan, has become a reality, it is necessary to speak widely about the famous people of this sacred land.

Key words: literature, culture, poetess, support, gazals, poem, literary, education, women, history.

The works of women authors played an important role in the enrichment of the 19th century Azerbaijani literature. It is surprising and proud that women poets come to a place where men make a literary abode. After Mirza Fatali and H.B. Zardabi, the work of women poets is the second great literary and cultural event that

brought fame to the literature of the 19th century Azerbaijan. Shusha ladies occupy a special place among those who continue the path opened by Mahsati Ganjavi. (1,5) As mentioned by literary critic V. Guliyev, “nowhere else an Azerbaijani woman won a brilliant victory over centuries-old religious doctrines and superstitions as in Shusha, her voice never sounded as loud and majestic as in Shusha" . Ashiq Pari, Khan's daughter Khurshidbanu Natavan, Fatma khanum Kamina, Agabayim Agha, Govhar Agha, Gamar Beyim Sheyda... How many famous women's names have been forgotten.

The daughters of Garabagh ruler Ibrahim Khalil Khan (1732-1806) Govhar Agha (1790-1888) and Aghabeyim agha (1780-1832) occupy a special place in the history of Shusha. (For some reason they carried the title of "agha -lord" rather than the traditional "beyim -lady".)

Agabayim Agha was born in 1780 in the city of Khankendi, in Khanbag. She received a substantial education. Sources show that Agabayim Agha was influenced by his father's vizier, Molla Panah Vagif, and later learned French, spoke freely with Europeans, and corresponded with a number of personalities of the time. (2,28)She was acquainted with oriental and western culture. After Agha Mohammad Shah Qajar was murdered in Shusha in 1797, Fatali Shah took his place on the throne. Ibrahim Khan agreed to Fatali Shah’s proposal and his daughter Agabeyim married the ruler of Iran, Fatali Shah in 1801.

Agabeyim Aga was a talented, capable and beautiful woman, as well as a very patriotic woman. Agabeyim Aga succeeded in freeing prisoners from prison, releasing captives, and pardoning those sentenced to death. According to the researches made by Mirabbas Mirbagyrzadeh, “Aghabeyim Agha was known as Aghabaji (the elder sister). She was knowledgeable, versed in literature and arts.Fatali shah highly appreciated her and was proud of their marriage.(3,13) Aghabeyim, who lived in a foreign land and was nourished by a thousand cares and blessings, expressed her longing for homeland:

My dear Garabagh,
Shaki, Shirvan, Garabagh.
Even if Tehran’s paradise,
I won’t forget Garabagh. (translated by the author)

Fatali Shah laid out a magnificent garden in Tehran to make her happy. All the trees and flowers that grow in Khankendi and Shusha were planted here so that Agabayim can get the air of her native places from this garden. Even the gardener was brought from Shusha. This flower garden was called "Homeland Garden". Aghabeyim felt very sad when she went to see that garden. She expressed her sadness like this:

Homeland Garden is so colorful,
But there’s no Kharibyulbyul.
Why are you so colorful,
Only yellow under heart, byulbyul?

Aghabeyim Agha's role in the reconciliation of Russian-Iranian relations was not insignificant. In her letter to Agabeyim, the Russian tsarina wrote: "O Beyum, with your wisdom, you have become the second Venus of the merciful king, the star of fate." She died in Tehran in 1832 and was buried in the city of Gum.

Govhar Agha(1706-1888)- the eighth child of Ibrahim khan, was a poetess and also gained fame with her generosity and kindness. Two important religious centers of Shusha city - Yukhari Govhar Agha and Ashaghi Govhar Agha mosques are connected with her name. She entered Shusha's life as an open-minded, enlightened and philanthropic lady. In 1849, "Kavkaz" newspaper published a separate article about her charity activities .

She married the ruler of Shaki Jafargulu khan Khoyski (the great-grandfather of Fatali khan Khoyski). After her husband's death, she returned to Garabagh and lived in Shusha until the end of her life. After being widowed for a long time, she married her cousin, Khankishi Bey Javanshir, who was a lawyer in Shusha. (4,30)

In 1865-1866, a religious complex known as Ashagi Govhar Agha Mosque was built in Shusha's Gapan Square with the funds of Govhar Agha. In 1884-1885, the construction of Juma Mosque (Yukhari Govhar Agha Mosque), which was founded by Panahali Khan (1769) was completed with her request and funds. The assemblies of "Majlisi-Faramushan" funded by Govher agha were often held in the cells of this mosque. This literary assembly also supported help to the needy poets and writers. Some sources indicate that Govhar Agha herself had ghazals and fakhriyyas. She wrote in the Azerbaijan and Persian languages. Govhar Agha was considered the beauty of Garabagh and South Caucasus in her youth, and one of the famous philanthropists of her time in Garabagh in her old age. Her support to the people of art, science and poetry was known far beyond Garabagh. She did not have children. The people of Shusha called her “mother of the poor”. She adopted and brought up her nephew Suleyman Khan - the son of Sheki Khan Salim Khan. Govhar agha was Kh. Natavan’s aunt anad brought her up, made her love music, poetry, painting. She donated the construction of two schools, a hospital, two bath-houses, two brdges, including famous Agha Bridge. She died in 1888.

In the second half of the 19th century, the name of **Gamar Beyim Sheyda** was mentioned among the female members of the "Majlisi-uns" in the city of Shusha. She became known in the literary environment with the blessing and patronage of Khurshudbanu Natavan.

Gamar Beyim Sheyda was born in Shusha city in 1881. She is the granddaughter of Garabagh Khan Ibrahimkhalil Khan Javanshir. Her father died young. The children remained under the care of their elder brother Muhammad. He paid special attention to the education of his sisters and hired a private teacher. Gamar Beyim finished primary education and studied at the gymnasium in Shusha by her brother's advice.

The well-known poetess Khurshudbanu Natavan took her to the meetings of "Majlisi-uns" and presented her to the majlis members Gamar bayim performed some of her own poems. The poets were pleased and Natavan gave her the pen-name Sheyda because she was reciting as a nightingale (sheyda nightingale means loving nightingale). This literary environment played a big role in her formation as a poet. Several of the poet's poems have survived. The motifs of sadness and complaint are prominent in those poems. In her simple, realistic poems, noble and human feelings, happiness, love found their deep artistic expression. The poet widely used the harmonious aruz rhyme in her works. Therefore, her ghazals are readable.

After Natavan's death (1897), "Majlisi-uns" remained without patronage. İts former glory was fading. However, the blessing given by the Khan's daughter at the time made Gamar Beyim advance in the world of poetry, and at the end of the 19th century, she was already a well-known poetess. In the sources, she had a poetic debate with Ziba Ardabili, a poet with the pseudonym "Lali". Ziba Ardabili was a well-known poet at that time. Her radif ghazal "Agamjani" is widely spread in the literary environment. (6,16) Gamar khanum and Fatma khanum wrote responses to her poem. These works aimed to present young poets and demonstrate their talents. Aziza Jafarzadeh, doctor of philological sciences, once wrote about these vows: "These ghazals are honorifics full of similes and exaggerations. However, the fact that these three poetesses exist in our 19th century literature, know each other and talk to each other is a literary event that attracts attention." Gamar Beyim Sheyda also tried her pen in the drama genre. In 1918, she wrote a play called "The Flood of Oppression". The work describes the tragedies that occurred as a result of the blood feud, enmity and enmity between the wealthy gentlemen of the time.

In 1924, Gamar bayim moved to Baku. Due to her son Bahadir's work, she had to live in Baku, Nakhchivan, and sometimes in Tbilisi. Bahadyr was appointed to the post of public health commissioner of Nakhchivan. (7, 10) During the years he lived here, Gamar Beyim carried out great propaganda work among the women of Nakhchivan. She worked in textile factories in Nakhchivan and Ordubad. She died in Baku in 1933.

Beautiful Shusha, the cradle of literature and culture of our people, belongs to us forever and many new poets, composers, singers will continue the cultural succession.

References:

1. Cəmil Tağıyev: "Xan qızı" Bakı-2011, s.3-32.
2. Azərbaycan qadın şairləri antologiyası", Bakı: "Avrasiya press", 2005. səh.28–29.
3. Vəzir Mehriban , "Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar" Bakı-2008, səh 13-15

4. Tofiq Hacıyev: “Azərbaycan ədəbi dili tarixində Füzuli”- “Azərbaycan” jurnalı, 2009 №7, s.165-185
5. Əzizə Cəfərzadə. "Azərbaycanın aşıq və şair qadınları", Bakı, "Gənclik", 1991. (səh.30)
5. B. Məmmədov: “Məclisi-üns xatirələrindən” “Azərbaycan gəncləri” 1963 № 12
6. Savalan Fərəcov “Qəmər Bəyim” Mədəniyyət.- 2017.- 29 dekabr.- s.15.
7. Rüstəm Kamal: Ədəbiyyat qəzeti.- 2019.- 20 aprel.- S.10.

ARZU HÜSEYNLİ

ŞUŞANIN GÖRKƏMLİ ŞAİRƏLƏRİ (II hissə)

XÜLASƏ

Uzun illər həsrətində olduğumuz Qarabağ torpağı igid övladlarımızın qəhrəmanlığı sayəsində artıq azaddır və bu tarixi torpaqlar dirçəliş, inkişaf dövrünü yaşayır. Qarabağın və onun tacı olan Şuşa şəhərinin Azərbaycan mədəniyyətinə töhfəsi əvəzolunmazdır.

30 ilə yaxın mühasirədə, güllə yağışı altında yaşamış, hər cür əzablara qatlaşmış Şuşanın arxası, dayağı bir də Vaqifin, Aşıq Pərinin, Natavanın, Kəminənin şerləri, Cabbarın, Bülbülün, Xanın səsi, Sadıxcanın tarının avazı, Məşədi Cəmilin, Üzeyir bəyin, Bədəlbəylinin, Adıgözəlovun musiqisi olmuşdur.

Aşıq Pəri, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Gövhər ağa, Ağabəyim ağa, Qəmər bəyim Şeyda... Şuşa mühitinin bu görkəmli şairələri XIX əsr Azərbaycan ədəbiyyatına öz töhfələrini vermişlər. Azərbaycan türkcəsinin zəngin, axıcı və xalq poeziya dilinə çevrilməsində onların şerlərinin rolu böyük olmuşdur. Onlar Şuşa yüksəkliyindən bütün Azərbaycana tanınmışlar. Bu məqalədə Şuşada yaşayıb yaratmış şairələrdən bir neçəsinin - Şuşa ədəbi məktəbinin davamçıları olan Gövhər ağa, Ağabəyim ağa, Qəmər bəyim Şeyda həyatı və ədəbi-ictimai fəaliyyəti haqqında məlumat verilmişdir. Onlar da digər Şuşa şairləri kimi, xeyriyyəçiliklə məşğul olmuş, gənc şairlərə dəstək və yardımlarıını əsirgəməmişlər. Məqalədə Qarabağda söz sənətinin inkişafında əhəmiyyətli rol oynamış ədəbi-bədii məclislər haqda da məlumat yer almışdır. Bu məclislərdə söz ustadlarının poetik deyişmələri maraq doğuran məqamlardandır.

Qarabağın və Şuşa şəhərinin Azərbaycan mədəniyyətinə töhfəsi əvəzolunmazdır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya böyük və əbədilik qayıdışın gerçəyə çevrildiyi bu günlərdə bu torpağın məşhur şəxsləri haqqında geniş söz açmaq lazımdır.

Açar sözlər: ədəbiyyat, mədəniyyət, şairə, dayaq, qəzəllər, şeir, ədəbi, maarif, qadın, tarix.

ГУСЕЙНЛИ АРЗУ

ВЫДАЮЩИЕСЯ ПОЭТЕССЫ ГОРОДА ШУША (часть 2)

РЕЗЮМЕ

Гарабахская земля, к которой мы стремились долгие годы, теперь свободна благодаря героизму наших храбрых сыновей, и эти исторические земли переживают период возрождения и развития. Вклад Гарабаха и города Шуша в азербайджанскую культуру незаменим. Шушу, прожившую в блокаде почти 30 лет, под градом пуль, претерпевшую всевозможные страдания, поддерживали стихи Вагифа, Ашуга Пари, Натаван, Камини, голоса Джаббара, Бюльбюля, Хана, тар Садыхджана, музыка Машади Джамиля, Узеир бека, Бадалбейли, Адыгёзалова.

Ашуг Пери, Хуршидбану Натаван, Фатма ханум Камина, Говхар ага, Агабейим ага, Гамар бейим Шейда... Эти знаменитые поэтессы города Шуша внесли свой вклад в сокровищницу азербайджанской литературы 19-го века. Их стихи имеют большую роль в развитии азербайджанско-тюркского языка как богатого языка народной поэзии. Они прославились на весь Азербайджан с высоты города Шуша. В статье представлена информация о жизни и литературно-общественной деятельности некоторых поэтессах города Шуша. Даны сведения о Говхар ага, Агабеим ага, Гамар бейим Шейда, последователях литературной школы города Шуша. Как и другие поэты города Шуша, они занимались благотворительностью и не жалели поддержки и помощи молодым поэтам. В статье также содержится информация о литературно-художественных собраниях, сыгравших важную роль в развитии литературы в Гарабахе. Поэтические дебаты мастеров слова на этих собраниях представляют большой интерес.

Вклад Гарабаха и города Шуша в азербайджанскую культуру незаменим. В эти дни, когда стало реальностью великое и вечное возвращение в Шушу, культурную столицу Азербайджана, необходимо широко представлять знаменитостей этой святой земли.

Ключевые слова: литература, культура, поэтесса, поддержка, газели, стихи, литературный, образование, женщины, история.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Svetlana Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

HƏSƏNOVA ŞAHANƏ ƏLIYƏNNAĞI QIZI,
filologiya üzrə fəlsəfə doktoru
ADPU, Filologiya fakultəsi,Ədəbiyyat kafedrasının müəllimi
Elektron poçt:m.shahana1982@mail.ru,Əlaqə nömrəsi 0507720406

H.ORUCOVUN BƏDII NƏSRINƏ BAXIŞ.

XÜLASƏ

Hidayət Orucov bütün şüurlu həyatını Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə həsr edən tanınmış,xalqımız ədəbi ictimaiyyətimiz tərəfindən sevilən,siyasi elita mühitində böyük hörmət qazanmış şəxsiyyətlərdəndir.Sayılıb-seçilən ziyalı tipidir....Amma bütün məqamlarda o yenə də şairdir.

Çağdaş Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən olan Hidayət Orucovun zəngin ədəbi irsi müxtəlif istiqamətlərdə problem mövzu olaraq ədəbi-nəzəri fikrin diqqətini cəlb etmiş və bu gün də etməkdədir.Hidayət Orucov ədəbiyyata qədəm basdığı ilk günlərdən orijinal düşüncəsi, həyat hadisələrinə obrazlı yanaşması ilə ədəbi tənqidin diqqətini özünə cəlb etmişdir. Xalqın zəngin milli-mənəvi mədəniyyətinə, folklor ədəbiyyatına yaxından bağlı olan sənətkar ədəbi mühitdə daha çox şair kimi tanınmışdır. Çünki şair olaraq adını ədəbiyyat tariximizə yazmış H.Orucovun bütövlük əmsalını onun nəsri, dramaturgiyası, publisistikası tamamlayır. Digər istiqamətdə, ədibin yaşadığı mühit və dünyaya göz açdığı coğrafi məkan etnoqrafik zənginliyi, tarixi prosesin mürəkkəb situasiyalı mənzərəsi ilə məsələlərə nəsr səviyyəsində yanaşmanı və gələcək nəslə ötürməni zəruri edirdi. Bu baxımdan da H.Orucovun nəsri, publisistikası ayrıca təhlillərə şərait yaradır. Şair, yazıçı, publisist, ictimai xadim kimi zəngin ömür yolu keçən ədibin yaradıcılıq qaynağını insan və həyat sevgisi, xalqın bitib tükənməyən folklor yaddaşı, etnoqrafik mədəniyyəti təşkil edir. Zəngin həyat təcrübəsi, formalaşdığı İravan ədəbi-mədəni mühiti, etnosun tarixi yaddaşından süzülüb gələnlər, tarixi türk torpaqlarının rus işğalından sonrakı mənzərəsi, tikililər, mədəniyyət abidələri, yer-yurd adlarının daşıdığı informasiyalar və s. ədibin bədii nəsri və publisistik yazıları üçün bir qaynaq rolunu müəyyənləşdirir. Hidayət Orucovun dramaturgiya sahəsindəki fəaliyyətini, məsələn, “Məhəbbət yaşayır hələ”, “Məni qınamayın”, “Bu dünyanın adamları” pyeslərini də əlavə etdikdə mahiyyət daha da böyüyür. Bütün bunlar kontekstində H.Orucovun yaradıcılığına diqqət yetirdikdə problem səviyyəsində təhlilə gətirilməli çoxlu mövzular diqqət önünə gəlir.

Çağdaş Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən olan Hidayət Orucovun zəngin ədəbi irsi müxtəlif istiqamətlərdə problem mövzu olaraq ədəbi-nəzəri fikrin diqqətini cəlb etmiş və bu gün də etməkdədir. Ədəbiyyata qədəm

basdığı ilk günlərdən orijinal düşüncəsi, həyat hadisələrinə obrazlı yanaşması ilə ədəbi tənqidin diqqətini özünə cəlb etmişdir.

Açar sözlər. Dramaturgiya, obraz,bədii nəsr,publistika,çağdaş,ədəbi mühit,problemli mövzu.

Görkəmli ədib Hidayət Orucovun yaradıcılığı mündəricə və mövzu əhatəliliyi ilə seçilən bədii düşüncə hadisəsidir.Onun nəsr əsərləri və publisistikası çeşidli mövzu özünəməxsusluqları ilə diqqəti cəlb edir. Burada dövrün ,zamanın tələtümləri, ictimai-siyasi mühitin baş alıb gedən mürəkkəb situasiyaları, insan psixologizmi, tipik şəraitdə tipik xarakter yaratmaq istəyindən gələn panoramik rəngarəngliklər bir bütöv olaraq sənətkar qayəsini əhatələməyə köklənir. Şair poeziya timsalında bir məqamı xüsusi olaraq vurğulayır və "poeziya, mənim sənə imtahanım var" deyir, əlavə edir ki, "imzaların tünlüyündə əzilən mənəm". Azərbaycan ədəbiyyatının keçib gəldiyi tarixi yol və zənginlik timsalında deyilmiş bu sətirlər şairin sənətə, ədəbiyyata nəzəri-estetik baxışını sərgiləyir. Sanki özü qarşısında yaşının müəyyən ahıllıq çağında olan hesabatı kimi görünür və sözə, sənətə hansı prizmadan yanaşmasını aydınlaşdırmağa əsas olur. Burada poeziya kontekstində söylənmiş bu fikirlər sənətkarın publisistikasını, nəsrini, dramaturgiyasını, tərcüməçilik fəaliyyətini də diqqət önünə gətirir.

Çağdaş ədəbiyyatın parlaq istedad sahiblərindən olan H.Orucov ruhu, düşüncəsi etibarilə sözə bağlıdır. Nəsri, publisistikası, şeiri onun ruhani dünyasını, həyata baxışını, yurd, torpaq sevgisini əhatələmək baxımından əvəzsizdi. Ədibin bütün əsərlərində onun orijinal obrazı, yüksək yaradıcı təbii özünü göstərir.

Müasir Azərbaycan ziyalılığının görkəmli nümayəndələrindən olan Hidayət artıq neçə on illərdir ki, həm Azərbaycan, həm də onun sərhədlərindən uzaqlarda böyük şair, nasir, dramaturq, publisist, tərcüməçi, ictimai xadim (və dövlət xadimi) kimi tanınır" **(2, s 3).** Zamanın tələtümlərini, siyasi çarpışmaların ağrı-acılarını görmüş və öz yaradıcı taleyində yaşamış sənətkar bütün həyatı boyu milli məfkurəyə, azərbaycançılıq ideologiyasına ləyaqətlə xidmət etmişdir, daha doğrusu, parlaq örnəyi olaraq nümunəyə çevrilmişdir. Rəngarəng mövzularda yazdığı nəsr əsərləri, məsələn, "Ömürdən uzun gecə", "İrəvanda xal qalmadı", "Tamaşadan sonra" povestləri keçən əsrin səksəninci illərində bədii nəsrin ən uğurlu örnəkləri sırasında özünə yer almışdır.Ayrı-ayrı hekayə və povestlərdə özünü göstərən həyatilik, həyat reallığını əks etdirmə bacarığı, sənətkar müşahidələri və parlaq mövqe göstərə bilmək imkanları və s. hamısı sənətkarın geniş eridusiyasına bağlanır. Fərdi üslub müəyyənliyində ədib şairlikdən gələn ifadə özəllikləri ilə hadisə və əhvalatlara elə çalar qatır ki, onu bir neçə səhifəlik təsvirlə belə əhatələmək çətindi. Hekayə yaradıcılığı ətrafında təhlillər aparan prof. Y.Seyidov "Bədii və publisistik yaradıcılığın birliyi" adlı təhlil yazısında mövzu və üslub məsələlərinə diqqət yetirərək yazır: "Hidayətin sabaha çox var" kitabı ədəbi növ baxımından bir-birinə oxşamayan iki hissədən ibarətdir: nəsr və publisistika. Birinci sırf bədii yaradıcılıq

məhsulu, ikincisi isə bu sahəyə aid olmayan əsərlər. Lakin bu hissələri birləşdirən ümumi cəhətlər də var. Bu, ilk növbədə müəllifin həyata, hadisələrə, insanlara baxışı, arzu, amalı, istək və obyektivliyidir. Kitabdakı bədii əsərlərlə publisistik əsərlərin üslubu, ifadə tərzi də bir-biri ilə səsləşir. Bu o deməkdir ki, Hidayət bütün hallarda öz qələminə sadiqdir. Kitabın hissələri arasında daxili əlaqələri də hiss etməmək olmur, bir-birilə bağlı həyat həqiqətlərinin bir halda obrazlarla, digər halda bir başqa ifadəsi ilə tanış oluruq. Bu forma və mahiyyət yaxınlığı kitabı bütövləşdirir" **(9).** Doğrudan da, ədibin nəsri, publisistikası əsasında deyilmiş bu fikirlər poeziyasını da əhatələyir. Ümumiyyətlə, yaradıcı şəxsiyyəti, həyata münasibəti, bədii-estetik dünyagörüşü bütün parametrlərdə sənətkarın yaradıcılığına işıq tutur. Müəyyənlik xüsusiyyəti olaraq yaradıcı simasını ortaya qoymağa köklənir.

"Ömürdən uzun gücə", "Günorta", "Tamaşadan sonra", "Burdan min atlı keçdi", "İrəvanda xalq qalmadı" hekayə və povestləri, eləcə də "İlyas Əfəndiyevə məktub", "Qorqud Dədə, xoş gəlmisən səhnəmizə", "Yarımçıq qalmış dialoq", "Şairlər dramaturgiyaya gəlirlər, söz rejissorundur" və s. oçerlər tarix və reallıq anlamında mahiyyəti diqqət önünə gətirir. Onun güclü mühakimə qabiliyyəti hər söz, hər epizod, hadisə və əhvalatla hansısa problemi çatdırmağa, tərbiyəvi mahiyyəti ortaya qoymağa yüklənir. Məsələn, "Ömürdən uzun göcə" povestində Təvəkkül Kərimlinin şəxsində olanlar bu baxımdan tipikdir. Mənəvi zənginlik, ailə, toplum münasibətləri, vəzifə aludəçiliyi, etnik dəyərlərin uca tutulması və qorunuşu ədibin bədii nəsrinin ümumi axarında qayə səviyyəsində özünü göstərir. Ata və oğlu timsalında verilənlər təkcə Təvəkkül timsalında olan məsələ deyildir və ümumiləşmiş obraz kimi bütünlükdə cəmiyyət səviyyəsində tipik bir mənzərəni canlandırmağa köklənir. **(5).** Əsərdə Təvəkkülün timsalında verilən epizodlar Azərbaycan dəyərləri, milli-mənəvi əxlaq normaları sırasında əks olunan bütöv bir mənzərəni canlandırmaq məqsədi daşıyır. Yüksək dövlət məmuru timsalında inzibatiləşmələrin nələrə gətirib çıxarması, ailədən, qohum-əqrəbədən, dost-tanışdan, bütünlükdə çevrəndə olanlardan uzaqlaşıb fərqli bir həyat yaşayan Təvəkkül və atası arasında olan vəziyyət insanın şəxsiyyət timsalında həssaslığına yönəlir. Yazıçı bunları təfsilatı ilə elə ustalıqla və inandırıcılıqla verir ki, oxucu bütün olanları həyat reallıqları səviyyəsində nəzərdən keçirməklə nəticə çıxarmağı, necə davranmağı özü üçün müəyyənləşdirir. Çünki Təvəkkülün şəxsiyyət kimi xarakter qüsurları onu biganəliyə, ata və ailə, ətraf arasında soyuqluğa gətirib çıxarır. Ata oğlunun bu xarakterini görüb heç bir qayğıya, köməyə ümid bağlamır, öz dəfn pulunu belə ata özü yığır.

"Ömürdən uzun gecə" povestində atanın bir ağsaqqal kimi oğlu ilə maraqlanması, onun kollektivlə davranışı haqqında apardığı söhbət (işçilərlə) həyat təcrübəsindən, insanlara həssas münasibətdən irəli gəlir.**(5, s. 174).** Hidayət Orucovun yaradıcılığı üçün maraqlı, həm də diqqəti çəkən cəhət yüksək təfəkkür intelleksiyası ilə xalq həyatını, onun təbiətinin füsunkarlığını, elat təsəvvüründə olanları tam təfsilatı ilə verə bilmə bacarığıdır. Çünki ədib özü bu həyat tərzinə,

insanların etnik mədəniyyət fəlsəfəsinə, qurub yaratmaq istəyinə dərindən bələddir. Təvəkkül ilə atası arasında olan söhbət nitq etiketləri ilə tipik olacaq mənzərəni ortaya qoyur. Mətnin motivləşmə dinamikası mükəmməl bir məzmunu, müdriklik səviyyəsində atanın hansı düşüncəylə çıxış etməsini və oğlun bu deyilənlərə biganəliyini təfsilatı ilə əks etdirir.

a) yurd, vətən sevgisi kontekstində ata oğluna çoxdan Zəngəzura yolunun düşməməsini xatırladır;

b) oğul isə gəl putiyovka alım gek Kislovodskiyə deyir (yurd, vətən biganəliyi);

c) ata Gorus dərəsində qayanın dibindəki palıd ağacını xatırladır;

ç) oğulun biganə və bir qədər də ötkəm, dəyərlərə sığmayan cavabı;

d) o palıdı mən əkmişəm, adamlar onun kölgəsində sərinləyib atama rəhmət oxuyurlar;

e) ata yolun qırağında palıda yaxın bulağı xatırladır;

ə) oğul onu "sən tapıbsan" cavabını verir.

f) atanın "çox qədim çeşmədir" cavabı və s.

Bütün bunlar həcm etibarilə kiçik, lakin məna anlamında son dərəcədə böyük bir təsəvvürü özündə canlandırma bilmək gücündədir. Tərbiyəvi mahiyyəti ilə min illərə gedib çıxacaq düşüncəni əhatələyir, ata ilə oğul arasında olan dialoq yazıçının etnoqrafik mədəniyyətə bələdliyini və bədii mətndə canlandıra bilmək bacarığını aydınlaşdırır. Məlum olduğu kimi, "epik növdə, xüsusən onun iri janrlarında təkcə yazıçı yox, obrazlar da danışır, fikri, münasibəti, meyil və davranışı sözlə ifadə edirlər. Bir tərəfdən obrazların mənəviyyatına, dünyagörüş və psixologiyasına uyğun sözlər seçilir, cümlə qurulanda, "mən" ifadə ediləndə, fikir söylənəndə obraz həyati vəziyyətindən çıxarılmır. Digər tərəfdən də replikalar, ricətlər, obrazların nitqi yazıçı təhkiyəsini tamamlayır, süjetin inkişafında, varlığı ifadə tərzində, əsərin dilində vahid ümumi ahəng yaranır" (**4, s. 208**). H.Orucovun bədii nəsri bu baxımdan əvəzsizliklə görünür, sənətkarın obrazları öz dili, dünyagörüşü, mənəvi-psixoloji aləmi ilə birgə təqdim etməsi əsərə əlavə əsrarəngizlik qatır.

Ümumiyyətlə, ədibin yaradıcılığında özünü göstərən üslub çalarları, etnik mədəniyyətin arxetiplərindən gələn düşüncə modelləri poeziyasında olduğu kimi nəsrində də eyni tipologiyanı faktlaşdırır. "İrəvanda xal qalmadı" povestində də bunlar bir mənsubiyyət kodu olaraq özünü göstərir. Məsələn, povestin başlanğıc epizodunda vurğulanan motiv bütünlükdə əsər boyu mahiyyəti aydınlaşdırmağa, bir tərəfdən obrazların mövzu səviyyəsində polifonik məzmununu canlandırmağa yüklənirsə, digər tərəfdən sənətkar dünyagörüşünü, həyat hadisələrinə münasibətinin müəyyənləşdirir. "İki bilet almışdı, birini Moskvaya, birini Kiyevə. O xəbər qəzetdə çıxan kimi dərhal qərara gəlmişdi paytaxta getsin, Moskva mehmanxanasında bir nömrə götürüb on-on beş gün qalsın.

Təzə korpsun yeddinci mərtəbəsindəki o nömrəni versəydilər, nə olardı?

Otağın nömrəsini unutmuşdu, amma yeri yadındaydı: növbətçinin yanından uzun dəhlizə daxil olanda sağ qol üstündə dördüncü qapıydı. Üç il qabaq on üç gün qalmışdı o nömrədə, onda xəstəydi, Moskva həkimlərinə dəyməyə getmişdi. Həkimlərdən elə sən deyən kar aşmamışdı, amma o otağın rahatlığı, sakitliyi çox şey eləmişdi.

Bəlkə başqa nömrə versəydilər daha yaxşı olardı? Yadına Jeleznovodski düşdü. İlk dəfə orada, "Dağ havası" dincərliyində müalicə olanda elə vurulmuşdu ki, o şəhərə" **(5, s. 185).** Bədii düşüncə elə qanadlı, obrazlı yaradıcılıq sahəsidir ki, onunla hadisə, epizod, əhvalat səviyyəsində mükəmməl bir tarixi reallığa bağlanan və yaxud da romantik dünyagörüşü sərgiləyə biləcək bir təfsilatı ortaya qoya bilirsən. Azərbaycan bədii nəsrinin XIX əsrin ikinci yarısından nəzərə çarpan dinamik mənzərəsi üfiqi və şaquli müstəvidə ucu-bucağı görünməyən mükəmməlliklə səciyyələnir. XX əsr boyu müşahidə olunan axtarış və yaradıcılıq uğurları H.Orucova qədər janr fakturası və mövzu rəngarəngliyində, üslub özünəməxsusluğunda son dərəcədə ciddi bir möhtəşəmliyi diqqət önünə gətirir. XX əsrin əvvəllərinin, eləcə də əsr boyu davam edən yaradıcı axtarışlarının tapıntıları timsalında 60-ci illərə gələn yol bunun örnəyidir. "İrəvanda xal qalmadı", "Ömürdən uzun gecə", "Günorta", "Tamaşadan sonra" və s. nəsr örnəklərinin əhatələdiyi məzmun bu parlaq dinamikanın uğurları əsasında (bəlkə də ondan ilhamlanaraq) meydana gəlmişdir. Ədibin poeziyada deyib çatdıra bilmədiklərini, nəsrdə, nəsrdə deyə bilmədiklərini, publisistikasında, eləcə də dramaturgiyasında geniş auditoriyaya təqdim eləməsi yaradıcı idealına (və həm də zənginliyinə) bağlanır.

Xalq şairi N.Xəzri "Ömrün qatarı yol gedir" adlı məqalə-yazısında maraqlı bir məqama toxunur və vurğulayır ki, "Hidayət şair kimi mənə çoxdan tanış idi. Yerevanda və Bakıda nəşr olunmuş kitablarından, mətbuatda çap edilən şeirlərindən əlimə düşdükcə oxumuşdum. Yazılarındakı səmimiyyət, saflıq, poetik ifadə xoşuma gəlmişdi. Mətbuat səhifələrində onun kitabları, pyesləri, bədii tərcümələri haqqında yazılmış rəylərlə də tanışdım. Qələm dostlarım onun haqqında mənə xoş sözlər demişdilər.

Amma biz görüşməmişdik. Hidayət Yerevanda yaşayırdı.

Bir gün iş yerində otağımın qapısını ucaboylu bir oğlan açdı, çəkinə-çəkinə özünü təqdim elədi:

-Mənim adım Hidayətdir...

Açıqca hiss olunurdu ki, mənim onu tanımayacağımdan ehtiyat edir, çünki bu cümlədən sonra haradan gəldiyini, ya harada işlədiyini deməyə hazırlaşırdı.

Biz köhnə dostlar kimi görüşüb-öpüşdük" **(6, s. 5).** Artıq bu sözlərin yazıldığı vaxtdan otuz ilə yaxın bir vaxt keçir, böyük bir tarixdir və onun (yazının) səmimiyyəti ədəbiyyatımz, bədii düşüncəmiz, bütünlükdə milli-mənəvi dəyərlərimiz baxımından nümunədir. Şair, yazıçı, publisist, dramaturq, tərcüməçi H.Orucova olan münasibəti sərgiləyir və qaynağında isə sənətkarın yaradıcı istedadı və mühitdə yaratdığı təəssürat dayanır. Tarixi mədəniyyət mərkəzlərindən olan İrəvan, onun

tarixi mənzərəsi, zəngin qaynar həyat tərzi, ucu-bucağı görünməyən mədəniyyət təsəvvürləri və eyni zamanda bu mədəniyyət ocağının aşınaraq dövlət ideologiyası səviyyəsində sıradan çıxarılması ədibin yaradıcılığını bütün ömrü boyu izləmiş və izləməkdədir. "İrəvanda xal qalmadı" povestinin metaforik məzmununda sərgilənən təsəvvür də bunun örnəyidir.

İrəvan tarixi məkan olaraq türk yurdudur və ədəbiyyatımızın, elmimizin, mədəniyyətimizin, bütünlükdə toplum təsəvvürümüzün ana axarlarını özündə işarəmək baxımından əvəzsizdir. Xalqın etnoqrafik yaddaşı, folklor mədəniyyəti, əfsanə, rəvayət, atalar sözü, məsəl, nağıl, dastan və s. örnəkləri, bütünlükdə mərasim folkloru zəbt olunmuş bu coğrafi məkanın yaddaş hadisəsi olaraq yaşamına, mövcudluğunun yeni mərhələsinə işıq tutur. Məhz H.Orucov da əsərinin adını məqsədli olaraq "İravanda xal qalmadı" qoymuşdur. Hekayədəki obrazlar (Sultan, Kazım, Smbat, Kamal, İsgəndər, Ərşad və s.) qalereyası yaradıcı qayəsini, onun tipik səviyyədə sərgilənəcək həyat mənzərələrini əhatələmək baxımından əvəzsizdir. Sultanın Kazımı xatırlaması və bu xatırlamada Kazımın atasının bağban olması, musiqi marağı, tarı yüksək ustalıqla çalması mətnə təsadüfü gətirilmir, əksinə yazıçı məramını təfsilatı ilə təqdim etmək istəyindən irəli gəlir.

Xalqın musiqi mədəniyyəti, toy mərasimi timsalında verilən epizod mahiyyətə diqqəti yönəldir və yüksək dəyərlər üzərində dayanmanı bir kod olaraq işarələyir. "Kamal, çoxdan əhd eləmişəm ki İsgəndərin toyunu sən çalasan. Vallah, məzhəb haqqı radionu hər axşam eşidirəm, Azərbaycanda sənin kimi tar çalan yoxdu" – atası yaman qızarmışdı, elə bil iki dağın arasında qalmışdı; toyu boynuna çəksə hər payız onu yüz yerə çəkəcəklər, yox, əgər boynuna çəkməsə, qonşu inciyəcək. Çox götür-qoydan sonra atası qonşusu ilə şərti şumda kəsmişdi:

-Qonşu, İsgəndər mənim oğlumdur, Ərşaddan seçmirəm. Amma Ərşadın da toyunu mən çalmayacağam.

-Mənim əhdimdir qonşu, din haqqı, məzhəb haqqı, -Smbat kişi onun sözünü yarımçıq kəsdi, sanki qorxdu ki, kişi yox deyəcək, o da ki, yox dedi, qurtardı getdi, allah da yerə ensə, sözündən dönən deyil.

Atası əli ilə onu sakitləşdirdi. Smbat kişi anladı ki, hələ ümid var" **(5, s. 186).** Povestdəki hadisə və epizodların ümumi ahəngi, sərgilədiyi informasiya elat həyat tərzinin əlvanlığını, mərasimin el adəti üzrə müəyyənləşdirdiyi keçirilmə prinsipini, qarmonçalan, zurnaçı, döhül və xanəndə timsalında olanları əhatələməklə bir bütövü ortaya qoyur. Burada toyun şabaşı ilə bağlı qonşular arasında olan söhbətdir ki, yazıçı bunları da özünəməxsusluq, qonşu səmimiyyəti timsalında mətnə gətirir. Prof. Y. Seyidov bu əsəri təhlil edərkən bir məqamı xüsusi olaraq vurğulayır: "İrəvanda xalq qalmadı" povesti öz quruluşuna, hissi-psixoloji anlamına görə daha çox diqqəti cəlb edir.

Tələbə həyatının ürəklərdə kök salan səmimi və romantik duyğuları, tələbə bərabərliyi, yaddaşlarda yaşayan gənclik illəri, ayrılıqlar və görüşlər, həyatın qanunauyğunluqları və təsadüfləri, həyat yolları ayrı düşsə də, qəlbləri bir döyünən

insanlar və onların əməlləri bu hekayədə bədii ifadəsini tapmışdır. Povestin aparıcı surəti yazıçı Sultandır. Bu işıqlı insanın ətrafında onunla bu və ya digər cəhətdən bağlı olan nə qədər gözəl adamlar, bilet satan qız Süsən, iqtisadçı alim İsgəndər, prokuror, həkim Sona, Sultanın tələbə yoldaşları Firəngiz, Rəna, milis işçisi şair Babaş" **(24).** Göründüyü kimi, ruhani dünyası ilə bir-birinə yaxın olan bu insanların yaratdığı təəssürat yazıçı amalını, onun istəyində formalaşan insani dəyərləri, daha doğrusu, insan konsepsiyasını müəyyənəlşdirir.

Akademik Nizami Cəfərov monoqrafik səviyyədə H.Orucovun yaradıcılığını təhlil edir, onun bədii nəsrinin, poeziyasının, dramaturgiyasının, publisistikasının geneologiyasında dayananları aydınlaşdırmaq yolunu tutur. Konkret nümunələr timsalında qənaətlərini bölüşür, yaradıcı mövqeyi və sərt həyat həqiqəti baxımından qiymətləndirmələr aparır və mahiyyət təkcə məzmun səviyyəsində deyil, onun struktur mükəmməlliyindən, formullar sisteminin uğurluluğuna qədər nə varsa hamısını əhatələyir. "İrəvanda xalq qalmadı" ümumən Azərbaycan nəsrinin yazıçı-sənətkar taleyinə həsr olunmuş ən təsirli əsərlərdən biridir. Və bu povestin yaradıcılıq hadisəsi olaraq üstünlüklərindən biri də həmin yazıçı-sənətkar taleyinin bütövlükdə insan (hətta insanlıq) taleyi kontekstində verilməsidir.

Zahirən elə görünə bilər ki, əsərin adının – "İrəvanda xal qalmadı"nın onun mövzusu ilə o qədər də əlaqəsi yoxdur. Ancaq müəllif bu əlaqənin həm baş qəhrəman Sultan Oğuzun, həm də digər qəhrəmanların özlərindən asılı olmayan, hansısa mistik qüdrətin əli ilə yazılmış, onların icra etməyə məhkum olduqları tərcümeyi-hallarında tapır. Hər şeydən əvvəl o mənada ki, hadisələr (qeyd edək ki, həmin hadisələrin əksəriyyəti qəhrəmanların xatirə-söhbətlərində təqdim olunur) müxtəlif şəhərlərdə cərəyan etsə də, əgər belə demək mümkünsə, ağırlıq məkəzi İrəvandır" **(5, s. 3).** Əsərdə "İrəvanda xalq qalmadı"nın bir hava olaraq çalınması (Kamal tərəfindən) mahiyyəti, Sevdanın acı taleyini (İrandan qaçıb sərhəddə qədər gəlməsi və meyidin Arazın bir adasında tapılması) diqqət önünə gətirir.

Hidayət Orucovun bədii nəsri yazıçı mühakimələrində müəyyənlənmiş bir bütövlüyə, yaddaşa bağlanır. "Burdan min atlı keçdi" əsəri, eləcə də "İrəvanda xalq qalmadı" anlamında işarələnən adların informativ formulası tarixi yaddaşa, xalq düşüncəsində olanlara bağlanır. Onun yaradıcılığının qaynağı olan elat məişətindən qopub gələn təsəvvürlər, ifadə və deyimlər, əhvalat və hadisələr ədibin əsərinə əlavə poetiklik verir. Bu müstəvidə ədibin bədii nəsrinin poetikası ayrıca araşdırılmalı problemdir. Əsərin məzmun qatında əksini tapan bilgilər alt qatda xalq düşüncəsindən, həyat təzindən gələnlərə bağlanır və düşünməli olursan ki, hələ əsrlə tanış olmadan öncə, yazıçı burada nələri deyir və nələrə ünvanlanır. Ədəbiyyatşünas Allahverdi Eminov sənətkarın yaradıcılığı ilə bağlı qənaətlərini ümumiləşdirərək yazır: "Hidayət bir şair kimi özünü təsdiq edib və onun maraq doğuran oxucular arasında əks-sədalı şeir kitabları bəllidir. Düzü, şairin nəsrə, yaxud publisistikaya meyili çox vaxt gözlənilməzdir. Çünki bu, yaradıcılıq psixologiyası ilə bağlıdır, həyatın poetik (hissi) dərkinin istənilən duyğuda alınmamasından doğan bədii

zərurətdir. Lakin yaradıcılığın bu təzahüründə də şairin ürəyi müşaiyətçidir" **(14).** Hidayət Orucovun mövzunu mənimsəmə və canlandırma üsulları onun yaradıcı zənginliyinə, şair təxəyyülü və həyat həqiqətləri anlamında özünü göstərən ortaqlığa bağlanır. "Günorta" povesti bu baxımdan tipikdir və orijinal, həm də təbiilik axarında canlılığı qoruya bilən və ona hesablanan örnəkdir.

Redaktor, şöbə müdiri, və müxbirlər timsalında o qədər də müsbət ovqat yaratmayacaq bir mühit burada canlandırılır. Qəzetin redaktoru İman, şöbə müdiri Qulamov, müxbir Məmiş və Günay qəzetin kollektivini müəyyənləşdirir. Jurnalist psixologiyası, redaksiya həyatı özlüyündə ayrıca bir kollektiv səviyyəsində açılmalı və öyrənilməli məsələdir. Redaktorun tez-tez müharibə veteranı olmasını xatırlatması, lazımı qədər iş bacarığının və savadının olmaması, eləcə də şöbə müdirinin səriştəsizliyi, Məmişin yaradıcı qabiliyyətinin zəifliyi (xaraktersizliyi), Günayın isə belə bir mühitdə düşdüyü situasiya yazıçı tərəfindən canlı və həm də inandırıcı olaraq təqdim edilir. Gənc, həm də həyatı reallığı ilə görən və ona mövqe sərgiləyən Şahin povestdə yazıçı mövqeyinin (münasibətinin) məzmunu olaraq özünü göstərir. Bu povest haqqında fikirlərini bölüşən Səkinə Əliyeva yazır: "Hidayətin nəsri lirik-dramatik səciyyəlidir. Lirika onun qəhrəmanlarının həyata, nisanlara münasibətini təyin edən ən mühüm amildir və bu mənada Hidayət öz sələflərindən çox şey öyrənib. Dramatikliyə gələndə onu deyə bilərik ki, onun hər hansı povestində bu cəhət üslubi bir məziyyət olaraq diqqəti cəlb edir. Onun "Günorta", "Tamaşadan sonra" povestləri məhz lirik-dramatik povest kimi qələmə alınmışdır.

"Günorta" povestində müəllif ənənəvi bir süjetdən istifadə edib (hadisələrin gedişində məlum olur ki, oğlunun mübarizə apardığı, üzləşdiyi şəxs onun atasıdır). Amma burada həmin süjetin ənənəviliyi o qədər də hiss olunmur. Və bu, lap hiss olunsa belə povestin əsas qayəsini kölgələmir. Müəllif bir redaksiyanın təsvirində bir-birinə zidd, əxlaq və dünyagörüşcə fərqlənən adamlar qarşılaşdırır, hadisələr şaxələnir, rayon miqyası səviyyəsində davam etdirilir. Və düyün nöqtəsi – ata – oğul qarşılaşması. Son anda oğul atası ilə üzləşməmək üçün (onun haqqında yazdığı məqalə qəzetdə çap olunur) çıxıb gedir" **(3, № 1, s. 164)**. Ümumiyyətlə, həyat özü rəngarəngliklərlə, fərqli düşüncə və yaşam tərzləri ilə, daban-dabana zidd münasibətlərlərlə diqqət önünə gəlir. H.Orucovun bədii nəsri də bu zənginliyin (həm də müxtəlifliyin) örnəyi olaraq maraq doğurur və yazıçı laboratoriyasında bütün olanları təbii şəkildə oxucuya çatdırmağa bağlanır. Səhnə əsərləri, poeziyası, publisistikası bunun tipik örnəyi olaraq yazıçının yaradıcı zənginliyinin nümayişi kimi əhəmiyyət daşıyır.

"Burdan min atlı keçdi", "İrəvanda xal qalmadı", "Ömürdən uzun gecə", "Tamaşadan sonra" əsərləri H.Orucovun yaradıcı dünyagörüşünü, həyata baxışını, bədii nəsr sahəsində imkanlarını və həyat hadisələrini təqdim etmə üsullarını aydınlaşdırmaq baxımından tipikdir. İlk şeirlərini orta məktəb illərində yazan sənətkarın "Nəyim var" adlı poetik örnəyi ("Ədəbi Ermənistan" qəzeti, 1963) sonrakı

dövr yaradıcılığı üçün uğurlu başlanğıc oldu. "Məni səsləyəndə" ilk şeirlər kitabı 1970-ci ildə çap olundu və Yerevanda işıq üzü görən bu toplu bir-birinin ardıca digər kitablarının ("Məhəbbət qocalmır", "Bir az gözləyin məni", "Dənizi harayladım" və s.) ortaya çıxması üçün əsas oldu. Bütün bunlar ədibin yaradıcı istedadını, poeziyadan nəsrə gedən yolunun dinamik mənzərəsini aydınlaşdırır. Məmməd Aslan "Ömürdən uzun gecə"lər yaşandı" məqaləsini ədibin səsləndirdiyi əhvalat və hadisələrdən çıxış edərək dövrün siyasi rejim timsalında mahiyyətinə diqqəti yönəldir və vurğulayır ki, "onda səksəninci ilin əvvəlləriydi. İnsanları xırpalayan amansız həqiqətlərdən, antibəşəri kommunist rejimindən söz açmaq, bu mövzunu bədii əsərin özəyində qələmə alıb insanlara söyləmək hər müəllifin işi deyildi. Başının üstündəki Demokl qılıncı istənilən anda yönləndirilə bilərdi.

Onda həyat reallığımız bu idi. Hər ömür özündən uzun bir gecəydi.

Onda, 81-ci ildə mətbuatda "Ömürdən uzun gecə" povesti dərc olunanda əsəri oxuyan hər kəs müəllifin cəsarətinə heyran qalmaqla bərabər, onun başına gətirilə biləcək fəlakətlərdən də qayğılanırdı

Onda bu əsəri nəşr etdirəndə Hidayət İrəvanda yaşayırdı. Bizim nəsibimiz olan acı həqiqətlərin yanında, bir də ətrafında baş qaldırmaqda olan erməni faşizminin kəsif havasını, qan qoxulu nəfəsini, amansız caynaqlarını görüb duymaqda idi" **(1).** Şair, nasir, dramaturq, publisist H.Orucovun yaradıcı taleyi onun ömür yolunun, qarşılaşdıqlarının əks-sədası olaraq müxtəlif səviyyələrdə araşdırmalara yol açmaqla, həm də ədibin parlaq mövqeyinin nümayişi təsiri bağışlayır. Xalq şairi H.Arif "bir xalqa atadır, anadır şair" deyirdi. Hidayət Orucov da məhz bütünlükdə xalqın yaşadığı acılar timsalında "İrəvanda ürəyimi dəfn edib gəlmişəm" söyləyir.

"Burdan min atlı keçdi" xatirə-oçerki H.Orucovun yaradıcılığında xüsusi önəm daşıyır və əlbəttə hər bir örnəyin ədibin yaradıcılığında özünəməxsus yeri vardır. Ədib kitabın 2016-cı il nəşrində əsərin taleyi ilə bağlı məqamlara (qaranlıqlara) aydınlıq gətirir və "Ədəbiyyat və incəsənət" qəzetində, "Azərbaycan" jurnalında necə çap olunmasına diqqəti yönəldir. "Ədəbiyyat və incəsənət" qəzeti xeyli çək-çevirdən – ixtisar edəndən, "xatalı millətçilik" ifadələrini, cümlələrini pozandan sonra Qlavlitdən (senzuradan) keçirərək qorxa-qorxa əsərin bir parçasını dərc elədi.

"Azərbaycan" jurnalı "Burdan min atlı keçdi"ni bütövlükdə çapa hazırlayarkən "Qlavlit" xatalı parçaları hesablamaqda və pozmaqda daha qabağa getdi, hətta vəziyyət o yerə gəlib çatdı ki, əsərin çapını dayandırmaq istədim. Lakin mərhum istedadlı şairimiz, o dövrdə "Azərbaycan" jurnalının baş redaktor müavini, dostum İsa İsmayılzadə və məsul katib (hal-hazırda jurnalın baş redaktoru) İntiqam Qasımzadə çapı dayandırmamağı xahiş etdilər, dedilər: "Yazının bu şəkildə də çap olunması bizim günlər üçün hadisə sayılmalıdır". Baş redaktor Yusif Səmədoğlu da mənə telefon açdı, əsərin bu şəkildə də olsa, çapına razılıq verməyimi məsləhət bildi. Razı oldum, amma bir şərtlə, qeyd verilsin: jurnal variantı. Onlar da məmuniyyətlə razılaşdılar və əməl elədilər" **(13, s. 4).** Onu da əlavə edək ki, bu qeydlər əsərin tarixi taleyini, mahiyyətini, başına gətirilənləri və ədəbiyyatımızın hansı acıları yaşadığını

öyrənmək üçün qaynaqdır və bəlkə də əsərin özü qədər əhəmiyyətlidir. "Biz o yerlərə qayıdacağıq" düşüncəsi imperiyanın müstəbidliyində acılar yaşayan, zülm və istismar məngənəsində əzilən bir torpağın, tarixi deportasiyanın acılarını ortaya qoymaq baxımından tipik bir örnəkdir. İrəvan quberniyası və sovetlərin böyük bir mədəniyyət yaradıcısı olan xalqa məkrli siyasəti müxtəlif səviyyələrdə ədəbiyyatımızda özünə yer almışdır. H.Orucovun bədii nəsri də bu baxımdan tarixi yaddaşı, etnik dəyərləri qorumaq və gələcəyə daşımaq baxımından qaynaqdır. Ədib özü də xüsusi olaraq vurğulayır ki, "Burdan min atlı keçdi"yə qayıtmaqda və onu tamamlayıb çap etməkdə əsas məqsədim tariximizin son yarım əsrinin ictimai-siyasi mənzərəsini, milli-mənəvi dəyərlərimizi, yaşadığımız prosesləri o dövrü görməyən nəsillərə olduğu kimi çatdırmaqdır" **(13, s. 6).**

Azərbaycan xalqının təxminən yaxın iki yüz illik taleyi, daha doğrusu, çar Rusiyası və fars şovinizmi tərəfindən ərazi olaraq işğalı (həm də bölünməsi) böyük faciələrə, siyasi təqiblərə, məqsədli fəlakətlərə yol açmışdır. İmperiya təsəvvürü xalqın tarixi taleyinə ağır zərbələr vurmuşdur və burada torpaq itkilərindən mənəvi təqiblərə qədər müxtəlif səpkili amansızlıq örnəkləri özünü göstərir. Böyük mədəniyyətin yaradıcısı olan bir xalqın belə acılarla qarşılaşması, heç şübhəsiz, qarşıdurmalara, təzyiq və təqiblərə yol açmışdır. Çar Rusiyası tərəfindən məqsədli olaraq ermənilərin Azərbaycan xalqının tarixi torpaqlarına yerləşdirilməsi, məkrli tendensiyalar sayəsində bu prosesin müxtəlif formalarda həyata keçirilməsi, terror siyasəti böyük bəlalara yol açmışdır. İrəvan, Qərbi Azərbaycan kimi tarixi mədəniyyət ocaqları bu baxımdan ucu-bucağı görünməyən fəlakətlə üz-üzə qalmışdır. Sovetlər dönəmində bu daha ağır və həm də açıq müstəvidə aparılmışdır. Artıq bolşeviklərin yeritdiyi xalqlar dostluğu siyasəti problemlərin sonrakı dönəmlər üçün ağırlığına yönlənmişdi. Erməni-müsəlman qarşıdurmaları dövlət səviyyəsində körüklənməklə Ermənistan adlı bir respublikanın yaranması ilə sonuclanmışdır. H.Orucov da bütün bu problemlərin bir şəxsiyyət, yaradıcı olaraq içərisindən keçmiş və onların canlı şahidi olaraq bədii düşüncəsindən keçirməklə ayrı-ayrı formalarda ifadə etməyə çalışmışdır. "Burdan min atlı keçdi" xatirə-oçerki də bunun nümunəsidir.

Ümumiyyətlə, bədii düşüncə öz xüsusi yolu ilə həmişə tarixə yol yoldaşlığı etmiş və bütün olanları təbii bir şəkildə əks etdirməklə onu gələcəyə daşımağa üstünlük vermişdir. Xalqın şifahi və yazılı ədəbiyyatı bütün məzmun və ortaya qoyduğu təsəvvürlə buna köklənmişdir. Hidayət Orucovun yaradıcılığında da eyni məram özünün aparıcılığını ortaya qoymaqla yaxın tariximizin hansı mürəkkəb situasiyalarla dolu olduğunu aydınlaşdırır. "Sinəsindən sətir-sətir söz cücərəndə ağ kağızdan yayılan ağ işıq da ağ, bəyaz səmanın bir parçasına çevrilir. Dan vaxtının durna qatarı kimi, dərgahına uçan müqəddəs quşların günahsız, pənbə lələyi kimi o ləkəsiz, o ağ vərəq də zəkanın əbədi səsini, yaddaşın yükünü zamandan-zamana daşıyır, qeybdən və hikmətdən gələn xəbəri mistik halədən, sehrdən təmizləyib, zamanın və tarixin ağ işığına -həyatın və tarixin stixiyasına çıxarır.

Belə işıqlardan riya sıza bilmir, yalan yağa bilmir, saxta da, həqiqət də örtüdən, libasdan çıxıb bəyaz fırça ilə çılpaq kətan üstünə süzülür: olduğu kimi, necə var elə.

Bizcə, "sözün vaxtı" da elə bu zaman gəlib çatır. Məhz halala, doğruya güvənəndə söz haqqa yetişə, həqiqətə məhrəm ola bilir, nə sağa, nə də sola baş və Qələm əyməməyə, içi, mahiyyəti düz dəyərləndirməyə nail olur" **(10).** Hidayət Orucovun "Söz vaxtına çəkər" kitabı əsasında deyilmiş bu fikirlər ədibin yaradıcılığını, həyata münasibətini və 90-cı illərin mürəkkəb situasiyaları səviyyəsində baş verənləri aydınlaşdırmaq baxımından mənbədir. Zəngin yaradıcı düşüncəsi, olduqca mürəkkəb situasiyalara şahidlik etmiş ədibin ədəbi irsi baş verənləri, olacaqların ümumi axarını aydınlaşdırmaq anlamında əsaslı bilgi verir. "Burdan min atlı keçdi" əsəri də həmin hadisələrin yaradıcı şəxsində gördüyü və müşahidələri əsasında yazılmış ədəbiyyat örnəyidir. Burada etnoqrafik yaddaş, tarixi prosesin ümumi mənzərəsi, ictimai-siyasi mühitin sərgilədiyi tendensiyalı münasibət, etnosun baş verənlərə yanaşmaları və s. bir yaradıcı düşüncəsində faktlaşır. "Naxçıvan barəsində o illərdə mən belə düşünürdüm. Mığrını amansızcasına öz doğma anasından ayırıb, Ermənistana verdilər, süni koridor yaratdılar ki, qonşu respublika İrana çıxsın və Azərbaycanı Azərbaycandan ayırsınlar (əslində orda da Azərbaycana çıxır) və əlli il öncə -24 aprel 1965-ci ildə ermənilər sovet rejimi vaxtında ilk dəfə İrəvanda Teatr Meydanına yığışıb qışqırsınlar: "Naxçıvan bizimdir", "Qarabağ bizimdir", "Qars bizimdir", "Sarıqamış bizimdir", "Van bizimdir"!...

O günlərdə mən Maralzəmidə müəllim işləyirdim. İrəvanla telofonla tez-tez əlaqə yaradıb xəbər tuturduq, ümumi nigarançılıqla birgə, həm də bizim ailəni bir ciddi məsələ narahat edirdi – dayım orada yaşayırdı və Qərbi azərbaycanlıların ağsaqqalı kimi onun evinə basqın gözlənilirdi" **(13, s. 10)**. Yazıçı bu epizoda qədər ana və körpə timsalında bir-birindən ayrılan tipik mənzərəni verir və təsadüfən həmin körpə anası ilə qarşılaşır hər iki tərəf bir-birinə olmazın dərəcədə səmimiyyətlə baxır, sonradan məlum olur ki, bunlar anan-baladır. Azərbaycanın başına gələnlər timsalında (həm Şimalda, həm də Cənubda) baş verənlər eyni situasiyanın tarixi və bədii təqdim-dərkidir. "Çayın bu tayında dayanıb, o tayın daşlarına, ensiz dağ yollarıyla gedən karvanlarına saatlarla tamaşa etmişəm, nədənsə mənə həmişə elə gəlib ki, o karvanlar yalnız Təbrizə gedir, Təbrizə gedir, Təbrizə"!...

Onlara əməlli-başlı karvan da demək olmazdı, atlı-qatırlı da vardı, piyada da...

O nağıllı gecədə kupenin ikinci qatında uzanıb xeyli baxdım o taya. Dağlar daha əzəmətliydi, çayın harayı daha həyacanlıydı, suları yaman bulaşıqıydı, adda-budda işıqlar közərirdi o tayda" **(13, s. 11).** Burada müəllifin verdiyi informasiya, çatdırmağa çalışdığı ideya Cənub və Şimal anlamında pozulmuş nizamı, bir xalqın bəlalı taleyini, dərddən cadar-cadar olmuş Vətən acılarını göz önündə canlandırır. Ədib özü timsalında gördüklərini və düşüncələrini bir bütöv olaraq bədii təxəyyül qanadlarında diqqət önünə gətirməklə, həm də mövqeyini sərgiləyir. Bütün bunlar

H.Orucovun zəngin yaradıcılıığnda bədii nəsrin mövzu əhatəliliyi timsalında nələrə kökləndiyini aydınlıqla göstərir.

ƏDƏBİYYAT.

1. Aslan M. "Ömürdən uzun gecə"lər yaşandı. "Ekran-efir" qəzeti, 12-18 aprel 1996.
2. Cəfərov N. Hidayət. Bakı: AzAtaM, 2015, 160 s.
3. Əliyeva S. Sabah ümidi ilə. "Azərbaycan" jurnalı, 1991, № 1, s. 164.
4. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı: ADPU, 2010, 370 s.
5. Hidayət. İrəvanda xal qalmadı. Yerevan, Sovetskan Qrof, 1984, 288 s.
6. Hidayət. Əsərləri. Səkkiz cilddə. I c., Bakı: Apostroff MMC, 2011, 480 s.
7. Hidayət. Əsərləri. Səkkiz cilddə. VIII c., Bakı: Apostroff MMC, 2012, 408 s.
8. Hidayət. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 488 s.
9. Xəzri N. Ömrün qatarı yol gedir. Hidayət. Qatardan məktub. Bakı: Yazıçı, 1986, s. 5-9.
10. Qarayev Y., Kürdoğlu H. Sərrast sözə söz çatmaz, calasan da sözü sözə. "Yeni Azərbaycan" qəzeti, 24 avqust 1999.
11. Müasir Azərbaycan ədəbiyyatı. İki cilddə, I c., Bakı: Bakı Dövlət Universiteti, 2007, 504 s.
12. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Tbilisi, İntelekti, 2003, 170 s.
13. Orucov H. Burdan min atlı keçdi. Bakı: Apostroff MMC, 2016, 744 s.
14. Seyidov Y. Bədii və publisistik yaradıcılığın birliyi. "Azərbaycan müəllimi" qəzeti, 28 mart 1990.

РЕЦЕНЗИЯ НА ХУДОЖЕСТВЕННУЮ ПРОЗУ Х. ОРУДЖЕВА.

РЕЗЮМЕ

Хидаят Оруджев – одна из известных личностей, всю свою сознательную жизнь посвятившая развитию азербайджанской литературы и культуры, укреплению азербайджанской государственности, удостоившаяся любви литературной общественности нашего народа и пользующаяся большим уважением в среде политической элиты. Почитаемый всеми интеллигент... Однко во всех отношениях он все-таки поэт.

Богатое литературное наследие Хидаята Оруджева, одного из известных представителей современной азербайджанской литературы, как проблемная тема в разных направлениях привлекало и продолжает привлекать к себе внимание литературно-теоретической мысли. С первых своих шагов в литературе Хидаят Оруджев своим оригинальным мышлением и образным подходом к жизненным событиям привлек внимание литературной критики. Тесно связанный с богатой национально-духовной культурой народа, фольклорной литературой, он в литературной среде известен больше как поэт.

Потому что целостность Х. Оруджева, вписавшего свое имя в историю нашей литературы как поэт, завершает его проза, драматургия и публицистика. С другой стороны, среда, в которой жил литератор, и географическая местность, где он открыл глаза на мир, своим этнографическим богатством, сложной ситуативной картиной исторического процесса, обусловили необходимость подхода к вопросам на уровне прозы и ее передачу будущему поколению. С этой точки зрения проза и публицистика Х. Оруджева создают условия для отдельного анализа. Творческим источником писателя, прожившего богатую жизнь как поэт, писатель, публицист, общественный деятель, является любовь к людям и жизни, неисчерпаемая фольклорная память народа, этнографическая культура. Богатый жизненный опыт, литературно-культурная среда Иревана, где она формировалась, сочившееся через историческую память этноса, панорама исторических тюркских земель после русской оккупации, постройки, памятники культуры, информация, которую несут топонимы, и т.п. определяют роль источника для художественной прозы и публицистических произведений литератора. Если добавить деятельность Хидаята Оруджева в области драматургии, например, пьесы “Любовь еще жива”, “Не упрекайте меня”, “Люди этого мира”, то суть еще больше возрастает. В контексте всего этого, если обратить внимание на творчество Х. Оруджева, на первый план выходят многие темы, требующие анализа на проблемном уровне.

Ключевые слова. Драматургия, образ, художественная проза, публицистика, современный, литературная среда, проблемная тема.

A REVIEW OF H. ORUJOV'S ARTISTIC PROSE.
SUMMARY

Hidayat Orujov is one of the well-known personalities who dedicated his entire conscious life to the development of Azerbaijani literature and culture, strengthening of Azerbaijani statehood, loved by the literary community of our people, and highly respected in the environment of the political elite. He is a distinguished type of intellectual... But at all times he is still a poet.

The rich literary heritage of Hidayat Orujov, one of the well-known representatives of contemporary Azerbaijani literature, has attracted the attention of literary and theoretical thought in various directions as a problem topic and continues to do so today. Hidayat Orujov attracted the attention of literary critics with his original thinking and figurative approach to life events from the first days of his entry into literature.

The artist, who is closely related to the rich national-spiritual culture of the people, folklore literature, is known more as a poet in the literary environment. Because H. Orujov, who wrote his name in our literary history as a poet, completes the coefficient of integrity with his prose, dramaturgy, and journalism. On the other

hand, the environment in which the writer lived and the geographical space where he opened his eyes to the world made it necessary to approach the issues on a prose level with the ethnographic richness and complex situational picture of the historical process and to pass it on to the next generation. From this point of view, H. Orujov's prose and journalism create conditions for separate analyses. The creative source of the writer, who spent a rich life as a poet, writer, publicist, and public figure, is the love of people and life, the inexhaustible folklore memory of the people, and ethnographic culture. Rich life experience, the literary and cultural environment of Iravan, where it was formed, what came filtered from the historical memory of the ethnos, the landscape of the historical Turkish lands after the Russian occupation, buildings, cultural monuments, the information carried by the names of places and countries, etc. determines the role of a source for literary prose and journalistic writings.

Hidayat Orujov's work in the field of dramaturgy, for example, “Love lives on”, “Don't blame me”, and “People of this world”, the essence grows even more. In the context of all this, when we pay attention to H. Orujov's creativity, many topics that need to be analyzed at the problem level come to the fore.

The rich literary heritage of Hidayat Orujov, one of the well-known representatives of contemporary Azerbaijani literature, attracted the attention of the literary-theoretical opinion as a problem topic in various directions and continues to do so today. From the first days of his entry into literature, he attracted the attention of literary critics with his original thinking and figurative approach to life events.

Key words. Dramaturgy, image, artistic prose, journalism, contemporary, literary environment, problematic topic.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Professor Mahmud Allahmanlı
tərəfindən çapa tövsiyə olunmuşdur

PAKİZƏ ƏLİYEVA
ADPU-nun Şəki filialı, Azərbaycan, Şəki
aliyeva.pakize.filolog@mail.ru

DAHİ NİZAMİ GƏNCƏVİ YARADICILIĞINA TƏSİR EDƏN ƏSƏR

Açar sözlər: *Nizami, "Kəlilə və Dimnə", təmsil, bəhrələnmə, nəsihət, hikmət, mənbə*

Keywords: *Nizami, "Kalila and Dimna", representation, benefit, advice, wisdom, source.*

Ключевые слова: *Низами, «Калила и Димна», басня, благо, совет, мудрость, источник.*

Giriş

Məlumdur ki, 2021-ci il Şərq ədəbiyyatı və fəlsəfi fikrinin dahisi, adını dünya ədəbiyyatının inciləri sırasına yazdıra bilmiş ədəbi nümunələrin müəllifi, Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) 880 illik yubileyi qeyd olundu. Ölkə başçıısının müvafiq sərəncamı ilə rəsmiləşmiş "Nizami ili" çərçivəsində bütün respublikamızda silsilə tədbirlər keçirildi, Nizaminin əsərlərinin nəfis tərtibatda nəşrləri reallaşdı, bir-birindən maraqlı məqalə, monoqrafiya və digər elmi araşdırmalar elmi ictimaiyyətin diqqətinə çatdırıldı. Ötən onilliklərdə də yubiley illəri zamanlarında aparılan çoxsaylı tədqiqatları da nəzərə alsaq, Nizami yaradıcılığı haqqında fikir söyləmək olduqca məsuliyyətlidir. Digər tərəfdən də Nizami dünyasının genişliyi hələ uzun illər boyunca tədqiqat üçün material verməklə bərabər, tədqiqatçının yüksək nəzəri hazırlıq tələb edir. Nizami Gəncəvinin əsərləri də digər ədəbi nümunələr kimi öz-özlüyündə təhlilə cəlb olunmalı olan ədəbi fakt kimi qiymətləndirilə bilməz. Keçən əsrin ortalarından başlayaraq Nizamişünaslıqda şairin yaradıcılığında ənənə və novatorluq, Nizami yaradıcılığının folklor qaynaqları, Nizami və klassik Şərq ədəbiyyatı və fəlsəfi fikri və s. mövzular fərqli tədqiqatçıların diqqətini cəlb etmiş, aparılan tədqiqatlar yeni-yeni tədqiqatlar üçün mənbə rolunu oynamış, bəzən yenilərinin yaranması üçün rəvac vermişdir.

Həyata keçirdiyimiz bu araşdırma Şərq ədəbiyyatının nadir incilərindən olan "Kəlilə və Dimnə" təmsil toplusunun dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığına təsiri məsələsinə həsr olunmuşdur. Sözügedən məsələ müxtəlif zamanlarda Nizami Gəncəvi yaradıcılığı ilə bağlı müxtəlif monoqrafiyalarda fərqli aspektlərdən tədqiqata cəlb olunmuş, dəyərli ədəbiyyatşünaslarımız bununla bağlı müxtəlif fikirlər səsləndirmişlər. "Kəlilə və Dimnə" dünya ədəbiyyatında daha çox təsir gücünə malik olan əsərlər siyahısında ilk onluqda yer alır. Şərq intibah mədəniyyətinin yetişdirdiyi Nizaminin əsərə isnad etməsi, ondan bəhrələməsi ədəbi varislik məsələsi baxımından tamamilə təbiidir.

“Kəlilə və Dimnə”nin tarixi, mövzusu, digər ədəbi abidələrə təsiri haqqında. “Kəlilə və Dimnə” təqribən III-IV əsrlərdə şifahi şəkildə Hindistanda yaranmışdır, sonra isə brəhmənlər tərəfindən yazıya alınıb. Tezliklə əsər İrana və Ərəbistana yayılır. Sasani hökmdarı Xosrov Ənuşirəvanın (531- 579) hakimiyyəti illərində əsərin pəhləvi nüsxəsi yaranır. Bu nüsxə dövrümüzə ərəb dilinə tərcümə şəklində çatmışdır. Ərəb tərcüməsi təqribən VIII əsrin ortalarında məşhur alim Abdullah ibn əl-Müqəffa tərəfindən yerinə yetirilmişdir. X-XI əsrlərdən başlayaraq “Kəlilə və Dimnə”ni yunan dilinə, sonra yəhudi dilinə və daha sonra latıncaya tərcümə olunaraq bu vasitə ilə Avropada tanınmışdır.

Hadisələrin heyvanların dilindən nəql olunduğu bu əsərdə insan həyatının bütün sahələrinə - dostluq, ailə, yoldaşlıq, hakimiyyət, haqq, doğruluq, ədalət, sədaqət, xəyanət və b. məsələlərinə dair müxtəlif təmsillər öz əksini tapır. “Kəlilə və Dimnə” öz mənşəyi etibarilə hind folkloru əsasında, brəhmənlər tərəfindən yazılmış “Pançatantra”, “Xitopadeşa” və başqa əsərlərlə xeyli bağlıdır.

Müxtəlif zamanlarda, müxtəlif yerlərdə “Kəlilə və Dimnə” janrı və motivində yaradılmış əsərlərin – təmsil, rəvayət və hekayələrin bu abidə ilə əlaqəsindən asılı olmayaraq onun təsiri altında yazdıqları hiss olunur (“Min bir gecə”). Uzun müddət Şərq aləmində “Kəlilə və Dimnə”yə müraciət etmək bir ənənə kimi mövcud olmuşdur. Əsərə nəzirə olaraq “Mərzbannamə”, “Tutinamə” meydana çıxmışdır. XII əsrdə yazılmış “Sindbadnamə”, XI əsrdə yazılmış “Qobusnamə”, XIII əsrdə yazılmış Sədinin 19 “Gülüstan”ı “Kəlilə və Dimnə” ilə mövzu oxşarlığına malikdir. Üveyd Lakaninin “Siçan və pişik” dastanı bilavasitə “Kəlilə və Dimnə”ni xatırladır (XIV əsr). “Kəlilə və Dimnə” ilk dəfə hind dilindən orta fars (pəhləvi) dilinə əfsanəvi Bərzuyə tərəfindən tərcümə edilmişdir. Sonralar, yəni 570-ci illərdə əsər pəhləvi dilindən suriya dilinə Bud tərəfindən tərcümə olunur. XIII əsrdə əsər pəhləvi dilindən ərəb dilinə çevrilmişdir.

Tərcüməçi İbn əl-Müqəffa Ruzbeh (720-759) şair, filosof və ədəbiyyatşünas idi. Əl-Müqəffa əsərdə buddizm və zərdüştilik elementlərini dəyişdirir. Onun tərcüməsində axirət, tale ilə bağlanan hadisələr, insanın ixtiyarının öz əlində olmadığı haqqında çoxlu fikirlər var. “Kəlilə və Dimnə”nin həm hindcə orijinalı, həm pəhləvi dilinə edilən tərcüməsi itmiş, Suriya dilinə tərcüməsi unudulmuşdur. ƏlMüqəffanın tərcüməsini isə orijinala çevirərək sonrakı tərcümələr üçün əsasa çevrilmişdir. Əsər yunanların da diqqətini cəlb edir. İlk dəfə “Kəlilə və Dimnə” XI əsrin sonlarında imperator I Aleksey Komninin əmri ilə Simeon Sif tərəfindən “Stefanit və İxnilat” adı ilə yunan dilinə tərcümə edilmişdir. XII əsrdə yunan dilindən slavyan dilinə tərcümə edilərək Rusiyaya çatır. 1250-ci ildə əsər yəhudi dilinə, 1270-ci ildə latın dilinə, bu dil vasitəsilə Avropa dilinə tərcümə olunmuşdur. Əsərin rus dilinə ilk tərcüməsi 1889-cu ildə Attaye və Ryabinin tərəfindən edilmişdir. Rus dilinə ən mükəmməl tərcümə Kuzmin və Kraçkovski tərəfindən edilmişdir. Fars dilinə əsəri ilk dəfə nəzmlə Rudəki etmişdir. Ümumiyyətlə, əsərin dünyanın 60-dan çox dilinə 200-dən artıq tərcüməsi mövcuddur. Əsər bir neçə dəfə Azərbaycan dilinə də

tərcümə edilmişdir. Onlardan bir neçə əlyazma bizə çatıb. Əlyazmalar içərisində nisbətən tam şəkildə əlimizə çatan Şirvan alimi Əvəz Əli ibn Səfiqulunun tərcüməsidir. XX əsrdə əsər yenidən şərqşünaslarımızın diqqət mərkəzində olmuşdur. Bizim istifadə etdiyimiz əsər Rəhim Sultanovun farscadan etdiyi tərcümədir. "Kəlilə və Dimnə" mövzusu Azərbaycan ədəbiyyatı üçün də çox yaxın olmuşdur. [1, s. 6-15]

"Kəlilə və Dimnə" alleqorik olub, onun adı iki çaqqalın "Kəlilə və Dimnə" adından götürülüb. Əsərin əvvəlində Behnud ibn Səhvanın müqəddiməsində deyilir ki, hindlilərin Dəbşəlim adlı bir hökmdarı varmış. Dəbşəlim öz hakimiyyətini gücləndirdikdən sonra ədalətsiz bir hökmdar olur, xalq onun zülmündən əzab çəkir. Onun zamanında yaşayan müdrik filosof Beydəba başqalarından fərqli olaraq buna dözmür, şaha açıq etirazını bildirir və zindana salınır. Lakin şah onun haqlı olduğunu başa düşərək onu özünə vəzir təyin edir. Dəbşəlim öz əcdadlarından hər birinin adına bir kitab olduğuna görə Beydəbaya onun adını əbədi olaraq yaşadacaq bir kitab yazmağı tapşırır və o, "Kəlilə və Dimnə"ni yazır.

Kitabda dünya və axirət, qəzavü-qədər, həyatın faniliyi, hakimiyyətə gəlmək və onu saxlamaq, vəzifədə - karyerada yüksəlməyin yolları, gözəl nitq qabiliyyətinin insana faydası, doğruluq və yalan, şər və ondan qurtulma, ədalət və onun zəfər çalması, elm və helm(fənd), dostluq, sədaqət və xəyanət və s. haqqında olduqca dərin məzmunlu təmsillər yer almışdır. Kitabın mürəkkəb strukturu ondan ibarətdir ki, söhbət əsnasında tərəflərdən biri haqlı olduğunu sübut etmək üçün öz müsahibinə təmsil (misal) söyləyir. Beləliklə, də təmsil içərisində təmsil, əhvalat içərisində əhvalat modeli yaranır. Əsərdə bəzən bir fəslin içərisində ondan artıq təmsil yer almış olur. "Kəlilə və Dimnə"ni insanların uzun əsrlər boyu həyat təcrübələrindən, müşahidələrindən çıxardıqları nəticələrdən ibarət aforizmlər toplusu adlandırmaq olar.

Süjetlərdəki bənzərliklər və oxşar surətlər. Daha əvvəl də qeyd etdiyimiz kimi, Nizami Gəncəvi yaradıcılığına "Kəlilə və Dimnə"dən bəhrələnmə məsələlərinə əksər Nizamişünaslar toxunmuşlar. 2019-cu ildə AMEA-da T.Bədəlovanın tərtibatında "Nizami Gəncəvi və "Kəlilə və Dimnə" motivləri" adlı kitab hazırlanaraq çap olunmuşdur. Kitabda tərtibçi ilə bərabər N.Araslı, Z.Allahverdiyeva, M.Məhəmmədi və başqalarının dəyərli yazıları da yer almışdır. Kitabda əsas diqqət Nizaminin "Xosrov və Şirin" poemasında Xosrovu doğru yola qaytarmaq üçün alim Bozorq Ümidin dili ilə "Kəlilə və Dimnə"dən söylədiyi təmsillərə verilmişdir. [2]

Professor A.Rüstəmova yazır: "Nizami sənətinin qol-qanad açması və pərvazlanmasında ərəb dünyasının "Min bir gecə", qədim hind folklorunun "Sindbadnamə", "Kəlilə və Dimnə" kimi nümunələrinin də az əhəmiyyəti olmamışdır [3, s. 478]. Həmin fikri bir az da genişləndirərək yuxarıda da qeyd etdiyimiz kimi, "Sindbadnamə" və "Min bir gecə"nin məhz "Kəlilə və Dimnə"dən

bəhrələnməklə yazılan əsərlər olduğunu nəzərə alaraq söyləmək olar ki, sonuncu əsərin təsirindən daha çox danışmaq mümkündür.

Nizaminin "Xəmsə"sinə daxil olan əsərlərdə əsas mövzunu hakimiyyət, onun əldə olunması, saxlanması, hakimiyyətə sədaqət və əksi, hakimiyyətə layiq olma, ədalətli hökmdar məsələsi, zülm, haqq, məşvərət və s. təşkil edir. "Kəlilə və Dimnə"nin əvvəlində Behnud ibn Səhvanın müqəddiməsində deyilir ki, hindlilərin Dəbşəlim adlı bir hökmdarı varmış. Dəbşəlim öz hakimiyyətini gücləndirdikdən sonra ədalətsiz bir hökmdar olur, xalq onun zülmündən əzab çəkir. Onun zamanında yaşayan müdrik filosof Beydəba başqalarından fərqli olaraq buna dözmür, şaha açıq etirazını bildirir və zindana salınır. Müdrük qoca öz tələbələrinə deyir: "...mərifətli və ehtiyatlı adam həm özündən aşağı, həm də özündən yuxarı vəzifəli adamlarla məsləhətləşməlidir. Bir ağıl xüsusi məsələləri həll etməkdə bəs olmadığı kimi, ümumi məsələləri həll etməkdə də kifayət etməz". [4, s. 22]. Bu obraz, bu situasiya və burda məsləhətlə bağlı səslənən hikmətli fikirlər, heç şübhəsiz, yadımıza Nizaminin "Sirlər xəzinəsi" əsərində "Qəflətdən oyanma şərtləri" (on dördüncü məqalət) adlı məqalətin ardınca gələn "Zalım padşahla düz danışan kişinin dastanı" hekayəsi ilə çox səsləşir.

Eləcə də Nizaminin eyni əsərində Sultan Səncərin ədalətsiz rəftarından təngə gələn, haqqları tapdanan qoca qarının hər şeyi gözünün altına alaraq hökmdara həqiqətləri söyləməsi, ondan ədalət tələb etməsi də eyni motivlə səsləşir. Ağasına dərs verməyə qalxan Fitnə, özündən güclü hökmdara dərs verən Nüşabə də "Kəlilə və Dimnə"dəki ədalət axtarışını yadımıza salır. Belə paralellərin sayını yetərincə artırmaq mümkündür.

Nizaminin "Xosrov və Şirin" poemasında birbaşa "Kəlilə və Dimnə"dən təmsillərin yer alması. Nizaminin əsəri hansı mənbədən və hansı tərcümə əsasında oxuması məsələsinə gəlincə, qəbul olunmuş fikir bundan ibarətdir ki, şair Rudəkinin nəzmlə tərcümə etdiyi farsca variantala tanış olmuşdur [5, s.145] Nizaminin bütün əsərlərində bilavasitə və ya bilvasitə "Kəlilə və Dimnə" ünsürlərinə rast gəlmək mümkündür, lakin şairin "Xosrov və Şirin" poemasında Xosrovu doğru yola qaytarmaq üçün alim Bozorg Ümidin dili ilə "Kəlilə və Dimnə"dən 40 təmsil söyləyir. Deməli, hələ Nizami dövründə bu əsərdən didaktik-tərbiyəedici bir vasitə kimi istifadə edirlər. Həmçinin təmsillərin əsərdəki ardıcıllıqla söylənməsi göstərir ki, Nizami şəxsən əsəri oxumuşdur. Daha bir nüansa da diqqət yetirməmiz vacibdir ki, Nizami həmin təmsilləri tam danışmır, əksinə çox qısa, lakonik şəkildə təmsildəki əsas personajların xatırlandığı beyt işlətməklə əhvalatı sanki yada salır, burdan isə belə bir qənaətə gəlmək mümkündür ki, "Kəlilə və Dimnə"ni nəinki şair özü oxumuşdur, eyni zamanda müasirlərinin – oxucularının da əsərlə tanışlığından əmindir və təmsillərdəki hadisələrə eyham vurulmasının yetərli olduğu qənaətindədir.

Bozorg Ümid birdən açıldı gültək,
Qırx nöqtə söylədi mənalı, göyçək!

Ehtiyatlı olan uduzmaz, sözsüz
Necə ki, qorudndu aslandan öküz. ("Şir və öküz")
Boş arzuya uyma, bu çox mahaldır,
Meymun xarrat olmaz, əbəs xəyaldır. ("Meymun və xarrat") və s.

Əsərdə ardıcıllıqla söylənən 40 təmsil "Kəlilə və Dimnə"yə yeganə isnad deyil, Xosrovun hakimiyyətini itirməsi, yenidən qaytarması, ədalətsiz və harın hökmdar, onun cəzalandırılaraq düz yola qaytarılması kimi məqamlarda da Şərq nəsihət ədəbiyyatının izləri duyulur. Eyni zamanda Nizaminin haqqında danışdığımız bu əsərində də digər əsərlərində olduğu kimi, çox sayda aforistik ifadələr də "Kəlilə və Dimnə" ilə səsləşir. Daha əvvəl də dediyimiz kimi, bu əsərlə bağlı ayrıca tədqiqat əsəri olduğundan ona geniş yer verməməklə təkrarçılıqdan qaçmaq istərdik.

"Xəmsə"yə daxil olan əsərlərdə təmsil və qəhrəmanların hekayələr danışması. Nizami "Kəlilə və Dimnədən" süjet, obraz, ideyalar baxımından bəhrələndiyi kimi, əsərin təhkiyə üslubundan da istifadə hallarına da yetərincə rast gəlirik. Əhvalat içində əhvalat danışmaq, qarşı tərəfi bədii sözün gücü ilə inandırmaq, eyni zamanda başqalarının həyat hekayələri vasitəsilə insanları başa salmaq özü də bir ədəbi priyom olaraq Nizami tərəfindən seçilmişdir. "Kəlilə və Dimnə"nin mürəkkəb strukturu ondan ibarətdir ki, söhbət əsnasında tərəflərdən biri haqlı olduğunu sübut etmək üçün öz müsahibinə təmsil (misal) söyləyir. Beləliklə, də təmsil içərisində təmsil, əhvalat içərisində əhvalat modeli yaranır. Əsərdə bəzən bir fəslin içərisində ondan artıq təmsil yer almış olur. Doğrudur, "Kəlilə və Dimnə"dən fərqli olaraq Nizami həmişə təmsilə müraciət etmir, lakin prinsipcə eyni üsulun işlənməsinə şübhə yoxdur.

Nizami Gəncəvi təmsil janrına ümumi yaradıcılığı küll halında götürülsə bir o qədər çox müraciət etməmişdir, lakin həmin nümunələrdə də "Kəlilə və Dimnə"nin təsiri hiss olunur. "Sirlər xəzinəsi" məsnəvisində "Bülbül və qızılquş", "Ovçu, it və tülkü", "Meyvəsatan və tülkü" hekayətləri bunlara misaldır.

"Kəlilə və Dimnə"dən götürülmüş əsas ədəbi priyomlardan biri qeyd etdiyimiz kimi hekayə içərisində hekayə danışmaqdır ki, bundan "Xəmsə"yə daxil olan bütün əsərlərdə istifadə olunub. Xüsusilə, "Yeddi gözəl" poemasında Bəhrama yeddi iqlim şahzadəsinin danışdığı nağıllar yüksək tərbiyəvi əhəmiyyəti və fəlsəfi məzmunu ilə seçilir. Həmin hekayətlərdəki fikirlər və "Sirlər xəzinəsi"ndəki fəlsəfi məqalətlər və hekayətlər sonradan böyük bir məktəb yaratmış nəsihətçiliyin ana ideyalarının əks olunduğu ən yaxşı parçalar hesab oluna bilər.

"Kəlilə və Dimnə" ilə səsləşən hikmət və nəsihətlər. "Cəmiyyətdə baş verən hadisələrin, insanın hiss və duyğularının təbiətə, heyvanlar aləminə tətbiqi vasitəsilə qədim dövr Şərq mühitinin fəlsəfi-əxlaqi görüşləri sadə və həm də çox müdrik bir üsulla təbliğ olunur. Bu, həmçinin alleqorik janrın klassik ədəbiyyatın qədim və əsas janrlarından olduğunu bir daha nəzərə çatdırır. Bəzən incə yumorla, bəzən kəskin sarkazmla cəmiyyətin faciəsinə gətirib çıxaran bəlalar, nəfsin insanları zəlalətə salması, ağlın və saflığın üstünlüyü, ümumilikdə, əxlaqın yüksək normaları Nizami

Gəncəvi yaradıcılığı və "Kəlilə və Dimnə" parallellərində aydın şəkildə ifadə olunur" [6, s. 19]

"Kəlilə və Dimnə"də dünya və axirət, qəzavü-qədər, həyatın faniliyi, hakimiyyətə gəlmək və onu saxlamaq, vəzifədə - karyerada yüksəlməyin yolları, gözəl nitq qabiliyyətinin insana faydası, doğruluq və yalan, şər və ondan qurtulma, ədalət və onun zəfər çalması, elm və helm (fənd), dostluq, sədaqət və xəyanət və s. haqqında olduqca dərin məzmunlu təmsillər yer almışdır. Həm təmsillərlə Nizami əsərlərindən götürülmüş çoxsaylı səsləşmələrə aid bir neçə nümunəyə baxaq:

"İqbalnamə"dən:

Zatı pis olanı heç yüksəltmə sən,
Qurdu bəsləməkdən ziyan çəkərsən.

"Kəlilə və Dimnə"dən:

Xain və bədcins adamlar arzu etdikləri vəzifəni alana qədər səmimi və sədaqətli olurlar, layiq olmadıqları daha yüksək vəzifələr xəyalına düşər və bunun üçün hiylə və xəyanətə əl atarlar.

Əqrəbin və itin quyruğunu nə qədər çox bağlı saxlayıb düzəltməyə çalışsalar da, açan kimi o saat əvvəlki vəziyyətinə qayıdar və heç bir vəchlə onu öz təbiətindən döndərmək mümkün olmaz.

"Leyli və Məcnun"dan:

Barmağın birini çalarsa ilan,
Barmaq kəsilməsə zəhərlənər can.

"Kəlilə və Dimnə"dən:

Əgər yara bütün bədənə zərər verirsə, bütün bədənin səhhəti üçün kəsib atamaq faydalıdır.

Belə nümunələrin sayı bir məqalədə yerləşməyəcək qədər çoxdur.

Nəticə

Yuxarıda qeyd etdiyimiz kimi, Nizami və "Kəlilə və Dimnə" mövzusu yetərincə tez-tez araşdırılan mövzulardandır. Lakin hər iki mənbənin dərinliyi, yüksək bədii və fəlsəfi dəyəri yaranan hər yeni tədqiqatda fərqli məsələlərin ortaya çıxarılması üçün yetərincə material verir. Zaman keçdikcə aktuallığını itirməyən, yeni tədqiqatlar üçün mənbə rolunu oynayan Nizami irsinin "Kəlilə və Dimnə" ilə səsləşmələrinin ümumiləşmiş nəticəsini aşağıdakı şəkildə ifadə etmək mümkündür:

- Nizami Gəncəvi yaradıcılığının qaynaqları arasında "Kəlilə və Dimnə"nin yer alması danılmazdır;
- Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında gətirilən təmsillər şairin əsərlə yaxından tanışlığından xəbər verir;
- Nizami istər əsərlərinin təhkiyə üslubunda, istər süjet və obrazlarda "Kəlilə və Dimnə"dən yaradıcı şəkildə bəhrələnmişdir;

- "Kəlilə və Dimnə"dəki nəsihətçilik Nizami tərəfindən çox dəqiqliklə sistem halına salınmış və sonra yaranan "Xəmsə"lərin hamısında birmənalı şəkildə davam etdirilmişdir;
- "Kəlilə və Dimnə"nin müasir şəklə çatanadək uzun əsrlər boyunca formalaşma dövrü keçdiyini, zamanın, dəyişən ədəbi zövqlərin, eləcə də müəlliflərin təsiri ilə ilkin variantadan xeyli fərqləndiyini nəzərə alsaq, İntibah dövründən sonrakı bütün Şərqdə məktəb yaratmağa müvəffəq olan Nizami Gəncəvinin əsərlərinin də müəyyən mənada "Kəlilə və Dimnə"yə təsir edə biləcəini ehtimal etmək mümkündür və s.

İstifadə olunmuş ədəbiyyat

1. Sultanov R. Misilsiz hid əfsanəsi. Kəlilə və Dimnə. Bakı, Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1989, 6-15
2. Nizami Gəncəvi və "Kəlilə və Dimnə" motivləri. Tərtib edən, nəşrə hazırlayan və ön sözün müəllifi T.Bədəlova. Bakı, "Elm və təhsil", 2019. 200 səh.
3. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. II cild, Bakı, "Elm", 2007, 632 səh.
4. Kəlilə və Dimnə. Tərc.R.Sultanov. Bakı, Azırbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1989, 328 səh.
5. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı, "Ozan", 2008, 696 səh.
6. Allahverdiyeva Z. Nizami və "Kəlilə və Dimnə" motivləri. Tərtib edən, nəşrə hazırlayan və ön sözün müəllifi T.Bədəlova. Bakı, "Elm və təhsil", 2019, səh. 18-21
7. Nizami Gəncəvi. Xosrov və Şirin. Tərc. Rəsul Rza. Bakı, "Lider nəşriyyatı", 2004, 392 səh.
8. Nizami Gəncəvi. İskəndərnamə. Tərc. A.Şaiq, M.Rzaquluzadə. Bakı, "Adiloğlu nəşriyyatı", 2011, 264 səh.
9. Nizami Gəncəvi. Leyli və Məcnun. Tərc. Səməd Vurğun. Bakı, "Lider nəşriyyatı", 2004, 288 səh.
10. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Tərc. Xəlil Rza Ulutürk. Bakı, "Lider nəşriyyatı", 2004, 264 səh.
11. Nizami Gəncəvi. Yeddi gözəl. Tərc. Məmməd Rahim. Bakı, "Lider nəşriyyatı", 2004, 336 səh.

P.ƏLİYEVA

DAHİ NİZAMİ GƏNCƏVİ YARADICILIĞINA TƏSİR EDƏN ƏSƏR

XÜLASƏ

Məqalədə Şərq ədəbiyyatının nadir incilərindən olan "Kəlilə və Dimnə" təmsil toplusunun dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığına təsiri məsələsi araşdırılmışdır. Sözügedən məsələ müxtəlif zamanlarda Nizami Gəncəvi yaradıcılığı

ilə bağlı müxtəlif monoqrafiyalarda fərqli aspektlərdən tədqiqata cəlb olunmuş, dəyərli ədəbiyyatşünaslarımız bununla bağlı müxtəlif fikirlər səsləndirmişlər. Bütövlükdə əsər dünya ədəbiyyatında daha çox təsir gücünə malik olan əsərlər siyahısında ilk onluqda yer alır. Şərq intibah mədəniyyətinin yetişdirdiyi Nizaminin əsərə isnad etməsi, ondan bəhrələməsi ədəbi varislik məsələsi baxımından tamamilə təbiidir. Lakin həmin bəhrələnmə birbaşa və dolayısı ilə olmaqla fərqli şəkillərdə özünü göstərir.

P.ALIYEVA

ПРИЗВЕДЕНИЕ, ПОВЛИЯВШЕЕ НА AWORK INFLUENCING THE WORK OF GREAT NIZAMI GANJAVI

ABSTRACT

In this article, the influence of a collection of fables ‘’Kalila and Dimna’’, one of the rare pearls of Oriental literature on the works of the great Azerbaijani poet Nizami Ganjavi has been studied. The above mentioned issue has been studied from diverse aspects in different monographs on Nizami Ganjavi's work at different times, and our valuable literary critics have stated different views in this regard. In general, the work is in the top ten in the list of the most influential works in world literature. It is quite natural for Nizami, who was brought up in the culture of Renaissans of the East, to attribute and benefit from the work from the point of view of literary heritage. However, this benefit manifests itself in different ways, directly and indirectly.

П.АЛИЕВА

ТВОРЧЕСТВО ВЕЛИКОГО НИЗАМИ ГЯНДЖЕВИ

РЕЗЮМЕ

В статье была изучена вопрос влияния представительного сборника “Кялила и Димна”, являющегося редкой жемчужиной восточной литературы, на творчество великого азербайджанского поэта Низами Гянджеви. Рассматриваемый вопрос в разное время в различных монографиях, связанных с творчеством Низами Гянджеви, был привлечен к исследованию с разных аспектов, наши уважаемые литературоведы высказали по этому поводу разные мнения. В целом произведение входит в первую десятку списка произведений, имеющих наибольшее влияние в мировой литературе. Ссылка на произведение, извлекая из нее пользу со стороны Низами, воспитанного в культуре Восточного ренессанса, является вполне естественным с точки зрения литературного наследия. Однако, эта польза проявляет себя в разных формах, прямо и косвенно.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: fil.ü.f.d., dos. Ulduz Mürşüdova tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜN İDRIS QIZI İSMAYILOVA
ADPU, Xarici Dillər Mərkəzinin dosenti
E-mail- aygunismayilova2015@outlook.com
Orcid kod- 0000-0003-1214-600X

ŞUŞA - AZƏRBAYCANIN QÜRURU, MİLLİ RUHUMUZUN ETİBARLI SIĞINACAĞIDIR

Xülasə

Qarabağın incisi olan Şuşanın füsunkar təbiəti, unikal relyefi strateji əhəmiyyətə malikdir. Onun təbiətinin yetirdiyi insanlar da ruhən təmiz və gözəl qəlbə malik insanlardır. Elə Şuşalı yoxdur ki, onun şair qəlbi və musiqi duyumu olmasın. Bu isə, təbiətin onlara bəxş etdiyi ən böyük ərmağanıdır. Tarixi və incəsənət abidələri Şuşa şəhərinin zəngin mədəniyyətə malik olmağından xəbər verir. Bu inciləri qoruyub-saxlamağı özünə borc bilmiş xalqımız, mənfur düşmənlərə hər vaxt sinə gərmişlər.

Necə ki, Prezidentimiz cənab İlham Əliyev 28 il düşmən tapdağında olan Şuşamızı geri qaytararaq, onun yenidən öz mövqeyinə qayıtması üçün əlindən gələni edir. Əminik ki, Prezitentimiz və xalqımızın sayəsində Şuşamız yenə əvvəlkindən də əzəmətli bir şəhərə çevriləcəkdir. Şuşa bizim qururumuzdur. Qururumuzu sındırmağa isə heç kimin gücü çatmayacaq. Çünki, hər zaman dar gündə xalqımızın bir yumruq kimi birliyinin şahidi olduq.

Açar söz: Garabağ, Şuşa, qürur, qala, Şuşa ili, Azərbaycan.

Aktuallıq: "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur. " Ümummilli lider Heydər Əliyev Şuşanın ölkəmiz üçün dəyərini bu sözlərlə ifadə etmişdir. Prezident İlham Əliyevin dediyi kimi, Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

Azərbaycanın dilbər güşələrindən olan Xan Şuşinskinin səsini qoynunda saxlayan başı qarlı, vüqarlı dağlarının əzəməti dillərdə dastan olan Şuşamız, Şərq ölkələrinin mədəniyyət mərkəzlərindən biri olan, milli memarlıq uslubu ilə seçilən, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi adlandırılan mədəniyyətimizə, ədəbiyyatımıza, incənəsətimizə bəxş etdiyi tarixi şəxsiyyətləri ilə seçilən, muğamımızın beşiyi sayılan, Şərqlilərə məxsus arxitekturası ilə də fərqlənir. Azərbaycanın alınmaz qalası, mədəniyyət məbədi olan bu qədim şəhər tarixi abidədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa təbrik müraciəti zamanı 2022-ci ili "Şuşa ili" elan etdi. 5 yanvar 2022-ci ildə isə bu barədə möhtəşəm bir sərəncam imzaladı. Bununla artıq ilk günlərini yaşamaqda olduğumuz yeni ilimiz elə başlanğıcdan tarixiləşdi.

Annotasiya: Məqalədə Qarabağın incisi olan Şüşamızın tarixindən, Uluöndər Heydər Əliyevin Şuşaya olan diqqət və qayğısından bəhs edilir. Şuşanın strateji əhəmiyyəti, onun təbiəti və relyefi mənfur düşmənlərin nəzər-diqqətini hər zaman özünə çəkmişdir. Bu məqsədlə, alçaq qonşularımız olan ermənilər birinci Qarabağ müharibəsi zamanı Şuşa şəhərini 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal etdilər. Qarabağın tacı olan Şuşa şəhəri 28 il, Ermənistan silahlı qüvvələrin işğalı altında qaldı. Nəhayət, Prezidentimiz cənab baş komandan İlham Əliyevin rəhbərliyi altında Milli Ordumuz Şuşamızı işğaldan azad etdi. Və, həmin il Prezident cənab İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etdi. Bu, ölkəmizin şanlı tarixinin qızıl salnaməsinə yazıldı.

Metod: Müqayisəli-qarşılaşdırma və təsviri metoddan istifadə edilmişdir.

Giriş: Bu il Şuşa şəhərinin 270 yaşı tamam olur. Şuşa, hələ eramızdan əvvəl insan məskəni olmuşdur. Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır. Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir.Tarixi mənbələrdə Şuşanın hətta, XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar vardır.

"Qarabağnamə" müəlliflərinin göstərdiyi kimi tarixin müxtəlif dönəmlərində xaqanlara təslim olmayan Şuşa qalası aylarla mühasirədə saxlanılsa da bu cənnətməkan diyarı fəth etmək heç kimə nəsib olmamışdır. "Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daş içərisində də salamat saxlar" deyən Qarabağ xanının vəziri, şair Molla Pənah Vaqif hələ o dövrdə Şuşanın alınmaz qala olduğunu söyləmişdi. [1.- S.27]

Qarabağ xanı Pənahəli xan 1752-ci ildə Şuşanın ilk təməl daşını qoyanlardandır. O, möhtəşəm Şuşa qalasını tikdirərək onu möhkəmləndirmiş və onu Qala şəhərə çevirmişdir. Şuşa şəhərini xarici işğaldan qorumaq üçün şəhərin ətrafı hündür, sıldırım dağ üstündə qala divarları ilə hörüldü. İlk çağlardan Qalanı "Şuşa" adı ilə yanaşı, həm də gözəl məkan Pənahəli xanın şərəfinə "Pənahabad" kimi də adlandırıblar. Şəhər ilkin olaraq yaranan 17 məhəllədən ibarət olmuşdur. Şəhərin sakinləri olan azərbaycanlılar unikal relyefdə, hündür bir ərazidə yerləşən Şuşanı mədəni cəhətdən də yüksəldərək, qısa müddətdə mədəniyyət mərkəzinə çevirmişlər. Hamını heyran qoyan bu qədim şəhər gözəl təbiəti, əsrarəngiz mənzərəsi, tarixi ilə bizə həmişə yenilməzlik nişanəsi, milli ruhumuzun etibarlı sığınacağı kimi görünüb. Şuşa artıq XVIII əsrdə Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrildi. İllər ötdükcə bu gözəl məkanın ətrafında böyük və güclü qalalar tikildi, çoxsaylı evlərdən ibarət məhəllələr yarandı. XVIII əsrin ikinci yarısında Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik şəhəri sayılan Şuşa özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarları miqyasına çıxmış və bununla da böyük şöhrət qazanmışdı. Getdikcə böyüyən Şuşada ticarət, elm və mədəniyyət inkişaf edərək Şuşanın qonşu ölkələrlə əlaqələri yaranmağa başladı. Şuşalı tacirlər qonşu ölkələrin iri şəhərləri ilə

geniş alqı-satqı, ticarət əlaqələri saxlayırdılar. Bu şəhərdə həm də Pənahabadi adlanan gümüş pullar da buraxılırdı **[2].**

Şuşalıların qonşu ölkələrə ticarət sahəsində əlaqələri elm və mədəniyyətin də inkişafına təkan vermiş oldu. Şuşada görkəmli şəxsiyyətlər və elm xadimlərinin xidmətləri sayəsində Şuşanın demək olar ki, inkişafı daha da sürətlənməyə başladı.

Artıq XIX əsrin ikinci yarısında Şuşa əhalisinin sayı 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi, təhsili və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışdır. Hətta Azərbaycanın xarici ölkələrdə taninmasında Şuşa elm və mədəniyyət xadimlərinin böyük rolu olmuşdur. Tarixi mədəniyyət mərkəzi olan Şuşa tanınmış elm və mədəniyyət xadimlərinin vətəni hesab edilir. Heç də təsadüfi deyildir ki, Xurşidbanu Natəvan, Molla Pəhah Vaqif, Mir Möhsün Nəvvab, Əbdürrəhim bəy Haqverdiyev, Qasım bəy Zakir, Süleyman Sani Axundov, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Bədəl bəy Bədəlbəyli, Üzeyir bəy və Ceyhun bəy Hacıbəylilər, Səməd bəy Mehmandarov, Fərəc bəy Ağayev və dünyaşöhrətli yüzlərcə ziyalının, xadimlərin həyatında məhz Şuşa mühitinin mühüm rolu olmuşdur.

Şuşa XVIII əsrin II yarısından musiqi mərkəzinə çevrilmiş və Azərbaycan musiqisinin yüksəlişinə təkan vermişdir. Hacı Hüsü, Məşədi İsi, Əbdülbaği Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçi oğlu Məhəmməd, Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Əhməd Ağdamski, Segah İslam, Zabul Qasım, Məcid Behbudov, Mütəllim Mütəllimov, Xan Şuşinski, Qurban Pirimov, Seyid Şuşinski, Bülbül, Rəşid Behbudov və bir çox başqaları Şuşanın yetirdiyi, eləcə də, bütün Yaxın Şərqdə məşhur olan xanəndə və sənətkarlardır.

Şuşa orada doğulmuş, şöhrətləri bütün dünyaya yayılmış bəstəkarların vətəni kimi də məşhurdur. Belə ki, Azərbaycan musiqi mədəniyyəti tarixində yeni bir mərhələnin yaranması Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. Üzeyir bəy dahi bəstəkar, Azərbaycan opera musiqisinin banisi olmaqla yanaşı, istedadlı publisist və ictimai-siyasi xadim kimi də tanınmışdır. Bundan əlavə, Fikrət Əmirov, Zülfüqar Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Zakir Bağırov, Mehdi Məmmədov, Süleyman Ələsgərov, eləcə də, görkəmli rəssam və memarlardan Lətif Kərimov, Cəlal Qaryağdı, Nadir Əbdürrəhmanov, Toğrul Nərimanbəyov və bir çox başqa xadimlərin adı, eləcə də, Azərbaycan mədəniyyəti tarixində müstəsna yer tutur.

Hələ sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də, erməni iddiaları hər zaman iflasa uğramışdı. Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri

məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliyev Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə tapşırıq vermişdi. Ulu öndər, eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edilmişdi. Həmin il şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar inşa olunmuşdu. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

1977-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdi. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Heydər Əliyev Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". [3]

Həmin illərdə ümummilli lider Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Bir sözlə, Qarabağın tacı olan Şuşanın füsunkar təbiəti, unikal relyefi strateji əhəmiyyətə malikdir. Onun yetirdiyi insanlar da ruhən təmiz, musiqiduyumlu və şairqəlblidirlər. Bu, təbiətin onlara bəxş etdiyi bir ərmağanıdır.Məhz,buna görə də gözəl Şuşamızı "Şərgin konservatoriyası" ,"Kiçik Paris", "Qafqazın sənət məbədi","Azərbaycan musiqisinin beşiyi" adlandırırlar.

Şuşanın strateji əhəmiyyəti, onun təbiəti və relyefi mənfur düşmənlərin nəzər-diqqətini hər zaman özünə çəkmişdir.

Qarabağın tacı olan Şuşa şəhəri 28 il, Ermənistan silahlı qüvvələrin işğalı altında qaldı. Şuşa şəhəri 1992-ci il may ayının 8-də erməni birləşmələri tərəfindən işğal edilmişdir.

Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, və Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi

sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun , müğənni Bülbülün , musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib.

Nəhayət, 8 noyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

Prezident cənab İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi xalqımız üşün qürurverici hadisələrdəndir və ölkənin tarixinə qızıl hərflərlə yazıldı. Bu gün Şuşada şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin bərpası, Üzeyir Hacıbəyovun, Bülbülün və Xurşidbanu Natəvanın büstlərinin qoyulması, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Fəxrlə deyə bilərik ki, Şuşa qısa zaman kəsiyində öz əzəmətini, şöhrətini, milli-mənəvi dəyərlərini özünə qaytaracaq, bütün dünya bu şəhərdə baş verən möhtəşəm hadisələri böyük maraqla, həvəslə izləyəcək və Şuşanın Qarabağın döyünən ürəyi olduğunu görəcəklər[4]

1992-ci ilin mayından bəri qəlbimizdə ağır bir yara, ruhumuzu əzən nisgil vardı. Bu, ürəyimizdən daş kimi asılmış Şuşasızlıq idi. Amma qəlbimizin dərinliyində bir narahatlıq da vardı ki, bəlkə də ömrümüz bizə o gözəl günləri görməyi vəfa etməz. Şuşa bu illərdə dilimizin ən müqəddəs duasına, ömrümüzün ən böyük həsrətinə çevrilmişdi. Ali Baş Komandan, Prezident İlham Əliyev Müzəffər Ordumuzun gücü ilə bu həsrətimizə son qoydu. Bizi arzumuza yetirdi. Rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində - haqq savaşımızda mənfur düşməni məğlub etdi. Şuşa şəhəri 2020-ci ilin 8 noyabrında işğaldan azad olundu. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər günü kimi həkk olundu. Qələbəmizdən sonra azad yurdlarımızda geniş quruculuq işləri başlandı. Azərbaycan bununla göstərdi ki, erməni vandallarından fərqli olaraq bu yurdlar bizə dağıntı, xarabalıq kimi deyil, məhz inkişaf məkanı kimi lazımdır. Ermənilərin 30 ilə yaxın müddətdə daşını daş üstə qoymadıqları yurdlarımıza yenidən həyat qayıdır. Dövlətimiz torpaqlarımızı işğaldan azad etdiyi kimi qısa zamanda dirçəltmək əzmini də sübuta yetirir. Bərpa-quruculuq prosesi mədəniyyət paytaxtımız elan edilmiş Şuşa şəhərində xüsusilə sürətli şəkildə aparılır. Qısa müddətdə Şuşanın Baş planı hazırlanıb. Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin büstü və muzey-məqbərə kompleksi öz ilkin görkəminə qaytarılıb. Bülbülün ev-muzeyinin, Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışları olub. Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəyin işğal zamanı erməni vandalları tərəfindən satış məqsədilə aparılan və təsadüf

nəticəsində Bakıya gətirilməsi mümkün olan, uzun illər paytaxtda saxlanan büstləri yenidən Şuşadakı tarixi yerinə qaytarıldı. Üzərindəki güllə izləri ilə erməni vandallarının bədnam əməllərindən bütün dünyaya ibrətamiz hekayə nəql edir. [6]

Nəticə: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Şuşanın azadlığı günü xalqımıza qələbə müjdəsini verərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəfər sevincini bu tarixi kəlmələri ilə ifadə etmişdi. Dövlət rəhbərimiz insanlarımıza verdiyi bütün sözlərə sadiq olduğu kimi, əzəli şəhərimiz, mədəniyyət paytaxtımız Şuşa qarşısındakı vədini də yerinə yetirdi. 2022-ci ilin "Şuşa ili" elan edilməsi də bunun təcəssümüdür. Mövcudluğunun 270-ci ildönümündən Şuşa üçün böyük bir tarix başlanır. Bundan sonra bu şəhərdə əbədi yaşayacaq Azərbaycan xalqı Şuşanın gələcəyində, inkişafında böyük nailiyyətlərə imza atacaq və biz bunu fəxrlə dünyaya bəyan edəcəyik. Çünki, Şuşa- Azərbaycanımızın qururudur, milli ruhumuzun etibarlı sığınacağıdır.[5]

İSİFADƏ OLUNAN ƏDƏBİYYAT:

1. X. İsmayılqızı "Iki sahil"- Bakı-2017. 6 may.
2. Əliqismət Bədəlov," Xalq"qəzeti, B.-2021
3. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, Bakı şəhəri, 18 dekabr 1997-ci il
4. U.Eyvazova,"Naxcıvan"qəzeti-2021
5. İradə Əliyeva "Azərbaycan" qəzeti, B.-2021
6. https://az.wikipedia.orghttps://az.wikipedia.

ШУША – ГОРДОСТЬ АЗЕРБАЙДЖАНА, НАДЁЖНОЕ ПРИСТАЛЬНИЩЕ НАШЕГО НАЦИОНАЛЬНОГО ДУХА

Исмаилова Айгюнь Идрис к.

Резюме

Очаровательная природа и неповторимый рельеф Шуши, жемчужины Карабаха, имеют стратегическое значение. Люди, благословленные его природой, духовно чисты и имеют прекрасное сердце. Нет люди из Шуши, у которого не было бы поэтического сердца и музыкального чутья. Это величайший подарок природы им. Исторические и художественные памятники свидетельствуют о том, что город Шуша имеет богатую культуру. Наш народ, взявший на себя охрану этих жемчужин, всегда стойко справлялся с ненавистными врагами. Так же, как наш Президент господин Ильхам Алиеввернул нашу Шушу, которая 28 лет находилась в руках врага, и делает все возможное, чтобы вернуть ее на прежнее место. Мы уверены, что благодаря нашему Президенту и нашему народу наша Шуша станет еще более величественным городом, чем прежде. Шуша – наша гордость. Никто не

сможет сломить нашу гордость. Потому что мы всегда были свидетелями единства нашего народа как кулака в трудный день.

Ключевые слова: Карабах, Шуша, гордость, крепость, Шушинский год, Азербайджан

SHUSHA IS THE PRIDE OF AZERBAIJAN, THE RELIABLE SHELTER OF OUR NATIONAL SPIRIT

Ismailova Aygun

Summary

The charming nature and unique relief of Shusha, the pearl of Karabakh, is of strategic importance. The people who are blessed by his nature are spiritually pure and have beautiful hearts. There is no Shushali who does not have a poet's heart and musical sense. This is the greatest gift of nature to them. Historical and artistic monuments show that the city of Shusha has a rich culture. Our people, who have taken it upon themselves to protect these pearls, have always braved the hateful enemies. Just as our President, Mr. Ilham Aliyev, returned our Shusha, who was in the hands of the enemy for 28 years, and is doing everything he can to return it to its position. We are sure that thanks to our President and our people, our Shusha will become a more magnificent city than before. Shusha is our pride. No one will be able to break our pride. Because we have always witnessed the unity of our people as a fist in a difficult day.

Keywords: Karabakh, Shusha, pride, fortress, Shusha year, Azerbaijan.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: ADPU, Xarici Dillər Mərkəzinin baş müəllimi, f.ü.f.d. S.Dadaşova tərəfindən çapa tövsiyə olunmuşdur

KƏRİMOVA GÜLARƏ
BDU, pedaqogika kafedrasınınmüəllimi,
Ped.üzrə fəlsəfə doktoru, dos.
mansur.manerov@mail.ru
050 404 31 11

YENİYETMƏLƏRİN MILLI-MƏNƏVI RUHDA TƏRBIYƏSININ NƏZƏRIYYƏ VƏ TƏCRÜBƏSI

Yeniyetmə və gənclərin təlim-tərbiyəsindən söhbət açarkən, ilk növbədə, tərbiyənin nə olduğuna diqqət etmək lazım gəlir. İzahlı lüğətdə tərbiyə sözü belə izah edilir:

İsimdir, ərəb sözüdür: Mənaları; 1.Təhsil verməklə, hər hansı adət, ədəb və davranış qaydaları və s. aşılamaqla yetişdirib böyütmə. Məsələn; *Əhməd bir daha evlənməyi özünə artıq bilib, daim (Rəfiqənin) tərbiyəsilə özü məşğul olardı. İ.Musabəyov.*

2. İnsanın, ümumi inkişaf, sistematik təsir və təlim nəticəsində biliyə, mədəni vərdişlərə və s.-yə yiyələnməsi; gözəl əxlaq. Gənclərin tərbiyəsilə yaxından məşğul olmaq lazım gəlirdi. Ə.Sadıq. Bəzən cavanların tərbiyəsi ilə də məşğul olmaq lazım gəlir. H.Seyidbəyli.

3.Tərbiyə vermək (etmək) - tərbiyələndirmək. Məsələn; *Mirzə qazandığı pul ilə dolanıb, oğlanlarına da tərbiyə verirdi. Ə.Haqverdiyev. Qəhrəman yaxşı dərk edirdi ki, övlad yetişdirib tərbiyə etmək ağır dağı çiyinə qaldırmaq deməkdir. S.Rəhimov.*

Tərbiyə şəxsiyyətin məqsədəuyğun şəkildə davamlı, sistematik olaraq inkişaf etdirilməsidir. Bunproses zamanı yaçlı nəsil öz keçdiyi yolu, təcrübəni yeniyetmə və gənclərə ötürür. Və bu ötürmə planlı şəkildə, mütəmadi olaraq , mərhələ-mərhələ həyata keçirilir. Tərbiyə prosesində iki tərəf iştirak edir. Bir tərəfdə valideynlər, müəllimlər, tərbiyəçilər, bütövlükdə cəmiyyət dayanır. İkinci tərəfdə isə, sözsüz ki, yeniyetmələr və gənclər dayanır. Dar mənada tərbiyə deyərkən konkret hər hansı bir keyfiyyətin açılanması məsələsi həll edilir. Geniş anlamda isə bir çox səciyyəvi, müsbət cəhətlərin kompleks şəkildə qarşı tərəfə ötürülməsi nəzərdə tutulur.

Bu problem tarixən insanları düşündürmüş, müxtəlif fikirlər, nəzəriyyələr, konsepsiyalar formalaşmışdır. Həmin konsepsiyalara aşağıdakıları nümunə göstərə bilərik:

1)Şəxsiyyət və irsiyyət: İlk növbədə, məlumdur ki, övladlar öz valideynlərinə bənzəyirlər. Lakin yeniyetməlik, gənclik çağlarında onlar cəmiyyətin bir fərdinə çerilirlər. buna görə də valideynlərindən daha çox öz dövrlərinin övladı olurlar. Buna görə də deyirlər ki, uşaq körpə ikən onun tərbiyəsi işi valideynlərinin üzərinə düşür. Xalq ağız ədəbiyyatında belə bir məsəl vardı: körpəsi dünyaya gələn

valideynlər peyğəmbərin yanına məsləhətə gedirlər. Onun tərbiyəsinə nə vaxt başlamaq lazım olduğunu soruşurlar. Peyğəmbər uşağın neçə yaşı olduğunu soruşur. Deyirlər, 5 aylıqdır. Peyğəmbər cavab verir ki, artıq beş ay gecikmisiz. Deməli, körpə dünyaya gəldiyi gündən onun tərbiyəsi ilə məşğul olmaq lazımdır.
Belə bir məsəli bilib ona əməl etməməyimiz bizim nöqsanımızdır.

Övladların zahiri əlamətlərinə görə valideynlərə bənzəyə bilərlər. Lakin hər zaman xarakter etibarı ilə valideynlərini təkrar etmirlər. Bu məsələləri araşdıran mütəxəssislər belə nəticəyə gəlmişdilər ki, insanın formalaşmasında irsiyyətin də mühüm rolu vardır. Həmin nəzəriyyə irsiyyət nəzəriyyəsi adlanır. Bu konsepsiyaya görə, guya inan özündə olan bütün mənfi və müsbət cəhətləri valideynlərindən götürür. Həyatında baş verənlər bəxti və alın yazısıdır. Cəmiyyətdə bu nəzəriyyə uzun zaman hakim olmuş, hətta çağdaş dövrdə də bəzən bunun reallaşdığının şahidi oluruq. Guya hakimin övladı hakim, kasıbın oğlu kasıb, varlının oğlu varlı olmalıdır. Lakin tarix boyu biz bu prosesin özünü doğrultmadığının da şahidi olmuşuq.

Ta qədim zamanlardan insanları bu məsələ düşündürmüş, atalarımız müdrik ata sözləri, məsəllər, xalq dastanları yaratmışlar. Məsələn; “Ot kökü üstündə bitər”, “Əsil itməz”, “Quyuya su tökməklə quyu sulu olmaz”, “Qozbeli qəbir düzəldir”, “Nə əkərsən, onu da biçərsən” kimi ata sözlərində bu cəhət özünü göstərir.

Hazırda da şəxsiyyətin inkişafında irsiyyətə üstünlük verənlər var. Qərb alimləri B.Torndayk, C. Dyui, R.Deqal və digərlərinin fikirləri buna nümunə ola bilər.

Qədim və orta əsrlər Azərbaycan və Şərq ədəbiyyatını araşdırarkən belə bir cəhətin şahidi oluruq ki, müdrik şairlərimiz də tərbiyədə irsiyyət məsələsinə önəm vermişlər. Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Xətainin və digərlərinin əsərləri buna misaldır. Şeyx Nizami demişdir:

1) *Zatı pis olana üz göstərmə sən,*
Qurdu bəsləməkdən ziyan çəkərsən.

Və ya:

2) Cütçü saf tum səpsə torpağa əgər,
Şübhəsiz, torpaqdan saf tum göyərər.
3)Bilməmiş ki, dostunun nəcabəti, nəsli var,
Könül sirri incidir, etmə ona etibar.

XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana gəlmiş bəzi nəzəriyyələrdə də irsiyyət həlledici amil kimi irəli sürülür. “Freydizm”, “İrqçilik” və “Elita” nəzəriyyələri məhz bu mövqedə durmuşlar. Onlar insanların zehni, mənəvi, sosial fərqlərini irsi amilləri ilə izah etmişlər (1.s.48).

2)**Şəxsiyyət və mühit nəzəriyyəsi:** Göründüyü kimi, insanın formalaşmasında ətraf mühitin də mühüm rolu vardır. Yəni insanın insan olması üçün onun cəmiyyətdə yaşaması vacibdir. Qeyd etdiyimiz kimi, insan valideynlərindən çox yaşadığı mühitin övladıdır - fikri özünü hər zaman doğrultmuşdur. İnsan cəmiyyətindən uzaq olan insan heyvan kimi səslər çıxara bilər,

lakin insan ola bilməz. Bunu hər birimizə məlum olan "Mauqli" hekayəsinin qəhrəmanının da, Tarzanın da misalında artıq görmüşük. Bəzən təcrübəyə cəlb edilmiş yeni doğulmuş körpələr isə ünsiyyətsizlikdən həyatlaarını da itirmişlər. Nəticə ondan ibarətdir ki, mənəvi keyfiyyətlər, dil insana irsən verilmir, insan cəmiyyətdə formalaşır. Sözsüz ki, cəmiyyət sağlamdırsa, doğru-düzgün insanlarla əhatə edilən insan, doğru yetişəcək. Əks hal da baş verə bilər.

Məsələn, J.J.Russo on səkkizinci əsrdə "Azad və təbii tərbiyə" nəzəriyyəsi ilə bu mövqedə olmuşdur. O, tərbiyədə insana sərbəstlik verməyi tələb etmişdir, məcburiyyətin, qadağanın əleyhinə olmuşdur. Russonun fikrincə, uşağın şəxsiyyətinə hörmət etmək, onun maraq və tələbatları ilə hesablaşmaq lazımdır.
Müasir humanist təhsil sistemində bu cəhət əsas götürülür. Yəni məktəblərdə, necənci sinifdə oxumasından asılı olmayaraq, uşaqlara şəxsiyyət kimi yanaşmaq lazımdır. Onları hər dəqiqə alçaltmaq, tənqid etmək uşağın sinir sisteminin pozulmasına səbəb olub, gələcək haqqında arzularının, xəyallarının qırılmasına səbəb ola bilir. Babalarımızın yaratdığı bir çox ata sözləri və məsəllər də bu mövzudadır. Məsələn; "*Atı at yanına bağlarsan, həmrəng olmasa da, həmxasiyyət olar", "Dostunu mənə göstər, sənin kim olduğunu deyim*" və s.

3) **Şəxsiyyət və tərbiyə:** Yuxarıda irsiyyət və mühit məsələlərinə toxunduq. Lakin tərbiyənin də insanın formalaşmasında rolu böyükdür. Məsələn, Platon deyirdi: "İnsanı həqiqətən tərbiyə etsələr, o, ən sakit, ilahi məxluq olar. Əgər onu tərbiyə etməsələr, ya da yanlış tərbiyə etsələr, onda dünyanın ən vəhşi heyvanı olar". Yan Amos Komenski (XVII əsr) irsiyyətin rolunu şişirdənlərin əleyhinə çıxarıq hamının təhsil almağa qadir olduğunu və bu işdə müəllimdən, təlim və tərbiyəçidən çox şeyin asılı olduğunu iddia etmişdir. Y.A.Komenski isə söyləmişdir ki, "hamıya hər şeyi öyrətmək" mümkündür.

XVII əsrdə İngilis filosifu Con Lokk irsiyyət nəzəriyyəsinin əleyhinə olmuşdur. O, **"Ağ lövhə"** nəzəriyyəsini irəli sürərək söyləmişdir ki, uşaq dünyaya şair, həkim, qul, yaxud ağa kimi gəlmir. Ona irsən heç nə verilmir və beyni ağ lövhəyə bənzəyir. Lokk "Tərbiyə haqqında fikirlər" əsərində yazırdı ki, təsadüf etdiyimiz yaxşı və ya pis, xeyirli və ya xeyirsiz insanların onda doqquzu tərbiyə sayəsində belə olmuşdur. Onun fikirlərini fransız materialistləri Klod Adrian Helvetsi, Deni Didro (XVIII əsr), (XIX əsr) Sen Simon, Şarl Fürye, Robert Ouen davam etdirmişlər. Onların fikrincə, tərbiyə hər şeyə qadirdir, insanların xarakterindəki və zehni inkişafındakı fərqlər də tərbiyənin nəticəsidir.
Dahi rus inqilabçı – demokratları N.Q.Çernışevski, N.A.Dobrolyubov, V.Q. Belinski də şəxsiyyətin formalaşmasında tərbiyənin roluna önəm vermişlər. Lakin V.Q.Belinski "Ağ lövhə" nəzəriyyəsini tənqid eərək insanın yer üzünə həm də təbii imkanlarla gəldiyini söyləmişdir.

Lakin bir çox faktlar da vardır ki, övladlar, həqiqətən, öz valideynlərinin yolu ilə gedərək uğur qazana bilmişlər. Məsələn; Ü.Hacıbəyov müəllim ailəsində anadan

olmuşlar. Bununla bərabər, irsiyyət də özünü doğruldur. Məsələn: S.Vurğunun, R.Rzanın, Q.Qarayevin, F.Əmirovun övladları atalarının yolunu davam etdirirlər. Əgər biz belə bir fikri qəbul ediriksə ki, insan yaşadığı cəmiyyətin övladıdır, deməli, cəmiyyət özü təmiz olmalıdır. Körpənin valideynləri də, dərs keçən müəllim və tərbiyəçiləri də onun formalaşmasında eyni məsuliyyəti daşıyırlar. Yəni hansı sözləri yeniyetməyə söyləsən də, o, sözdən daha çox qarşı tərəfin öz hərəkətlərinə diqqət yetirir. Yəni böyükləri təqlid edir. Əgər biz yeniyetməyə doğru danışmaq lazım olduğunu söyləyib, onun gözünün qarşısında yalan danışırıqsa, uşaq da yalan danışacaq. Deməli, auditoriya qarşısında olduğumuz kimi görünməliyik.

4) Şəxsiyyətin inkişafında qoşa amillər: bəzən cəmiyyətdə sadaladığımız amilləri təklikdə deyil birgə qəbul edən şəxsiyyətlər də olmuşdur. Bəzən irsiyyət və mühiti, bəzən mühit və tərbiyəni birgə qəbul edənlər olmuşdur. Buna görə də həmin nəzəriyyələr qoşa amillər nəzəriyyəsi adı altında qəbul edilmişdir.

Gənclərin tərbiyəsi işində şair və yazıçılarımızın bədii əsərləri də böyük rol oynayır. Yuxarıda böyük Nizami Gəncəvinin insanın formalaşmasında irsiyyətin rolunu dəyərləndirdiyini qeyd etmişdik. Şair, eyni zamanda, tərbiyənin də rolunu qiymətləndirmişdir. Onun əsərlərində hər zaman nəcabətli hökmdarların belə səhv etdiyi və tərbiyə olunduğu diqqətə çatdırılmışdır. Məsələn; xalq nümayəndəsinin-kəniz Fitnənin dili ilə şah tənqid edilir. Kərpickəsənin vasitəsi ilə şahzadə tənqid və tərbiyə edilir. Bu çür bədii əsərlərdən kifayət qədər nümunələr gətirmək mümkündür.

Bütün Azərbaycan yazıçılrının, o cümlədən Mir Cəlalın bədii əsərləri bu və digər üslubi vasitələrlə zəngindir. Həmin vasitələrdən biri də şairin gənclərin tərbiyəsi üçün nəzərdə tutduğu, yaratdığı aforizmlərdir.

Yaratdığı əsərlərə böyük məsuliyyətlə yanaşan Mir Cəlal gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması işində əhəmiyyətini nəzərə alaraq əsərlərini hikmətli sözlərlə, müdrik kəlamlarla zənginləşdirmişdir. Yazıçının yaratdığı zəngin mənəvi xəzinənin, mənəvi sərvətin bir hissəsi onun hikmətli sözləridir. Həmin kəlamlar insanların yalnız mənəviyyatını deyil, həm də onun yaşadığı məkanı, zamanı da işıqlandırır.

Bu hikmətli sözlər-kəlamlar həyatda hər bir insana doğru yolu göstərəcək, həqiqəti, ədaləti tapmaq yolunda yardımçı olacaq (12. s.8.)

Azərbaycan xalq pedaqogikasına gəlincə, demək olar ki, şəxsiyyətin formalaşmasına yuxarıda göstərdiyimiz hər üç amilin təsir edir. Elə buradaca qeyd etməliyik ki, ailə elə bir məkandır ki, orada şəxsiyyətin formalaşmasına təsir edən hər üç amil – irsiyyət, mühit və tərbiyə mövcuddur. Ona görə də insanın yetişib formalaşmasında ailənin xüsusi rolu vardır (7.s.84). Demək, şəxsiyyətin formalaş-masında hər üç amil eyni dərəcədə rol oynayır və onların hər üçünü nəzərə almaq vacibdir.

ƏDƏBİYYAT:

1)Əsmər Bədəlova. Təlim-tərbiyə. Bakı. 2015. 291 səh.
2) Abdinova N.C. Tusinin tərbiyə qaydaları və təlim-tərbiyə prosesində ondan istifadə imkanları. Azərbaycan Müəllimlər İnstitutu. ”Elmi əsərlər” bülleteni, 2003, № 10.
3)Abdullayev N., Məsimov N. Uşaqların ekoloji tərbiyəsi. Bakı, 1987.
4)Ağayev Ə.Ə. Pedaqogika. Bakı: Adiloğlu, 2006.
5)Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005.
6)Ağayev Ə.Ə. Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı: Maarif, 1975
7)Bədəlova Ə.S. Azərbaycan xalq pedaqogikası. Bakı: Müəllim, 2009.
8)Cabbarov R.Təhsil müəssisələrinin idarə edilməsinin yeni metodları. Bakı: Müəllim, 2006.
9)Camalov K.H. Yusif Vəzir Çəmənzəminli yaradıcılığında maarifçilik ideyaları. Bakı: ADPU, 2007.
10)Camalov K.H. Ömər Faiq Nemanzadə yaradıcılığında maarifçilik ideyaları (Metodik vəsait). Bakı: ADPU, 2007.
11)Camalov K.H. Azərbaycan romantiklərinin maarifçilik ideyaları. Bakı: Elm və Təhsil, 2012.
12)Hüseynova H.E. Mir Cəlalın aforizmləri.Bakı.-2013, -200 s.

Yeniyetmələrin milli-mənəvi ruhda tərbiyəsinin nəzəriyyə və təcrübəsi

Dos.Kərimova Gülarə

Xülasə

Məqalədə yeniyetmə və gənclərin təlim tərbiyəsinin əsaslarından, bu sahədə tarixən yaranmış nəzəriyyələrdən bəhs edilir və onlara münasibət bildirilir. Bu sahədə tanınmış pedaqoqların fikirlərinə istinad edilmiş, böyük şair və yazıçıların əsərlərindən nümunələr göstərilmişdir. Tərbiyə sahəsində mövcud olan nəzəriyyələrə şəxsiyyət və irsiyyət; şəxsiyyətin inkişafında qoşa amillər; şəxsiyyət və tərbiyə; şəxsiyyət və mühit nəzəriyyələri izah edilmişdir.

Azərbaycan xalq pedaqogikasına gəlincə, demək olar ki, şəxsiyyətin formalaşmasına yuxarıda göstərdiyimiz hər üç amilin təsir edir. Elə buradaca qeyd etməliyik ki, ailə elə bir məkandır ki, orada şəxsiyyətin formalaşmasına təsir edən hər üç amil – irsiyyət, mühit və tərbiyə mövcuddur.

Gənclərin tərbiyəsi işində şair və yazıçılarımızın bədii əsərləri də böyük rol oynayır. Yuxarıda böyük Nizami Gəncəvinin insanın formalaşmasında irsiyyətin rolunu dəyərləndirdiyini qeyd etmişdik. Şair, eyni zamanda, tərbiyənin də rolunu

qiymətləndirmişdir. Onun əsərlərində hər zaman nəcabətli hökmdarların belə səhv etdiyi və tərbiyə olunduğu diqqətə çatdırılmışdır. Məsələn; xalq nümayəndəsinin-kəniz Fitnənin dili ilə şah tənqid edilir. Kərpickəsənin vasitəsi ilə şahzadə tənqid və tərbiyə edilir. Bu çür bədii əsərlərdən kifayət qədər nümunələr gətirmək mümkündür.

Açar sözlər: tərbiyə, nəzəriyyə, insan, mühit, irsiyyət ...

Education of teenagers in the national-spiritual spirit theory and practice

Assoc. Karimova Gulara

Summary

The article talks about the basics of training and education of teenagers and young people, the theories that arose historically in this field, and the attitude towards them. The opinions of well-known educators in this field were referred to, and examples from the works of great poets and writers were shown. The existing theories in the field of education include Personality and heredity; dual factors in personality development; personality and upbringing; theories of personality and environment are explained.

As for Azerbaijani folk pedagogy, it can be said that the formation of personality is influenced by all three factors that we mentioned above. Right here, we should mention that the family is such a place where all three factors influencing the formation of the personality - heredity, environment and education - are present.

The artistic works of our poets and writers also play a great role in the education of young people. We mentioned above that the great Nizami Ganjavi valued the role of heredity in the formation of a person. The poet also appreciated the role of education. In his works, it was pointed out that even noble rulers made mistakes and were educated. For example; The king is criticized by the language of the people's representative-maid Fitna. Through the bricklayer, the prince is criticized and educated. It is possible to bring enough examples of these works of art.

Key words: upbringing, theory, person, environment, heredity ...

Воспитание подростков в национально-духовном духе теория и практика

Доц.Каримова Гулара

Резюме

В статье рассказывается об основах обучения и воспитания подростков и молодежи, теориях, исторически возникших в этой области, и отношении к ним. Приводились мнения известных педагогов в этой области, приводились примеры из произведений великих поэтов и писателей. Существующие теории в области образования включают личность и наследственность; двойственные

факторы развития личности; личность и воспитание; объясняются теории личности и среды.

Что касается азербайджанской народной педагогики, то можно сказать, что на формирование личности влияют все три фактора, о которых мы упоминали выше. Здесь же следует отметить, что семья – это такое место, где присутствуют все три фактора, влияющие на формирование личности, – наследственность, среда и воспитание.

Большую роль в воспитании молодежи играют и художественные произведения наших поэтов и писателей. Выше мы упоминали, что великий Низами Гянджеви высоко ценил роль наследственности в формировании человека. Поэт оценил и роль образования. В его трудах указывалось, что даже знатные правители ошибались и были образованны. Например; Короля критикует язык народной представительницы-горничной Фитны. Через каменщика князя критикуют и просвещают. Можно привести достаточно примеров этих произведений искусства.

Ключевые слова: воспитание, теория, человек, среда, наследственность...

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: professor Həcər Hüseynova
tərəfindən çapa tövsiyə olunmuşdur

XALİDƏ RƏHİMOVA
Lənkəran Dövlət Universiteti

SONET VƏ VAQİF HÜSEYNOVUN "SONETLƏR ÇƏLƏNGİ"

Açar sözlər: sonet, təşəkkül mərhələsi, məzmun və forma, qafiyə, janr
Ключевые слова: сонет, этап становления, содержание и форма, рифма, жанр.
Key words: sonnet, formative stage, content and form, rhyme, genre

XX əsrin əvvəllərindən başlayaraq, Azərbycan poeziyasında Avropa mənşəli yeni janrlar da meydana gəlməyə başlayıyr ki, bunlardan biri də Avropa şeirində 800 ildən artıq yaşı olduğu qeyd olunan sonetdir.

Tədqiqatçıların fikrincə, on dörd misradan ibarət olub qafiyə quruluşu ilə fərqlənən dörd bəndlik (ilk iki bəndi dörd misra, sonrakı bəndləri üç misra) sonetin ilk nümunəsini 1220-ci illərdə İtaliyada, "Siciliya məktəbi"nin nümayəndəsi hesab edilən Sakono da Lentini yaratmışdır. Poetik formaların şahmatı adlandırılan, qafiyə müstəqilliyi ilə bir-birindən fərqlənən katrenləri və tersetləri vahid və bütöv bir poetik janr kimi birləşdirən, formalaşmasında əsas amil məzmunu hesab edilən sonetin Azərbaycan poeziyasında təşəkkül mərhələsi, kamilləşmə və kütləviləşmə dövrü XX əsrin əvvəllərinə təsadüf edir. Tədqiqatçılar belə hesab edirlər ki, Azərbaycan poeziyasında sonetin yaranışı Səid Səlmasinin "Füyuzat" yurnalında çap etdirdiyi "Xəyali-mənfur" şeiri ilə başlayır ("Füyuzat" jurnalı, 1907-ci il, N 20) və əsrin əvvəllərində Hüseyn Cavidin, Əlipaşa Səburun, Əmin Abidin bir sıra sonetləri meydana çıxır. 1920-1950-ci illərdə A.Şaiq, S.Vurğun, M.Müşfiq, A.İldırım, Ə.Cəmil və Ə.Kürçaylı kimi şairlər sonet yanrında qələmlərini sınasalar da, ədəbiyyatımızda sonet janrı 1960-cı illərdən etibarən yüksəliş, kamilləşmə və kütləviləşmə mərhələsinə qədəm qoyur. Azərbaycan sonetinin ən məhsuldar yaradıcısı Adil Babayevin, daha sonra Abbasağa, Şəkər Aslan, Vaqif Hüseynov, Abbas Abdulla, Sabir Mustafa, Elşad Səfərli, İltifat Saleh və başqalarının əsərləri ilə Azərbaycan ədəbiyyatında sonet bir janr olaraq vətəndaşlıq hüququ qazanır.

Sonetdən fərqli olaraq "Sonetlər çələngi" on beş sonetdən ibarətdər və bu on beş sonet bir-birilə eyni ideya ətrafında əlaqələndirilir. "Sonetlər çələngi"ndə qəbul edilmiş vacib bir qayda var ki, ona mütləq əməl edilməlidir. Bu formal qayda ondan ibarətdir ki, birinci sonetin sonuncu misrası ikinci sonetin əvvəlində, ikinci sonetin sonuncu misrası üçüncü sonetin əvvəlində, sonrakı bəndlərdə də qayda ilə təkrarlanır və axırda on dörd sonetin hər birinin başlanğıc misrası on beşinci sonetdə təkrar olunur və sonuncu sonet yaranır.

Ədəbiyyatımızda sonetlər çələnginin "Ömrün yayında" adlı ilk nümunəsini 1978-ci ildə Şəkər Aslan yaratmış, ondan sonra isə Vaqif Hüseynovun "Məhəbbət əyləncə deyil", "İnsan", "Lənkəran" sonetlər çələngləri meydana gəlmişdir ki, bu

sonet çələngləri həm şeiriyyət, məzmun, həm də sonetlər çələnginin formal qaydalarına əməl etmək baxımından Azərbaycan sonetinin ən sanballı nümunələrindəndir.

XX əsrin 60-90-cı illər Lənkəran ədəbi mühitinin ən parlaq nümayəndələrindən biri olan Vaqif Hüseynovun "Sonetlər çələngi" həm forma-məzmun, həm də ideya-sənətkarlıq cəhətdən diqqəti cəlb edən əsl sənət nümunələridir. "Məhəbbət əyləncə deyil" çələngindəki sonetlərin hər birisi ayrıca qafiyə sisteminə malik olmaqla yanaşı, həm də ayrılıqda müstəqil, bitkin şeir təsiri bağışlayır. Adından göründüyü kimi, bu çələngə daxil edilmiş sonetlərin əsas mövzusu məhəbbətdir. Şeirlərində və poemalarında məhəbbətə ilahi bir varlıq kimi baxan, onu insanı kamilləşdirməyə sövq edən vasitə kimi səciyyələndirən şair bu sönetlərdə də eyni mövqedən çıxış edir, gözələ "məhəbbət əyləncə deyil!" – deyə müraciət edərək ona əsl məhəbbətin nə olduğunu anlatmağa çalışır.

Birinci sonetdə "Ömrün baharında payıza düşdüm", - deyə ilk məhəbbətinin uğursuzluğundan gileylənən, sevgilisinin gedişi ilə adının dildə-ağızda hallandığını, bu səbəbdən də ömrünün çiçəklərinin "qara düşdüyünü" bildirən şair ayrılığın nə qədər çətin olduğunu:

O gündən ciyərim tutuşdu aha (1,348),-

misrası ilə poetikləşdirir, amma nə qədər ağır olsa da, özündə təpər tapır və hələ də ürəyində ümid işığı qalan aşiqin dili ilə məşuquna belə deyir:

Dedim, get, gərəyin olsam bir daha,
Daşlı dolaylarda axtar, gəz məni[1].

Maraqlıdır: Niyə daşlı dolaylarda? Cavabı şair ikinci sonetin ilk bəndində özü verir:

Daşlı dolaylarda axtar, gəz məni,
Sanma Məcnun kimi səhranişinəm.
Sükut zənn eləmə gəl əbəs məni,
Oyanmış vulkandır bil ki, bu sinəm[2].

"Sinəsi oyanmış vulkan olan", məhəbbətin dənizlə torpaq kimi əkiz doğulduğunu, sahilin qabarıb çəkilmədiyini, yəni ilk məhəbbətin unudulmadığını bildirən şair sual edir:

Hərdən düşünürəm, deyirəm görən
O ilk məhəbbətdən mənə nə qaldı?[3]

Sualına "Öyrəndim, eşqi də alıb satan var" cavabını verən, minnətli məhəbbəti qəbul etməyən, torpağın altı və üstünün uğursuz eşq ilə "ləbaləb" dolduğunu, zəmanəmizdə sınmış şüşənin də yamandığını, lakin qırılmış ürəyin

[1]Yenə orada, s. 297
[2]Yenə orada, s. 297
[3]Yenə orada, s. 298

yamaq götürmədiyini bildirən şair unuda bilmədiyi məhəbbətini aşağıdakı kimi vəsf edir:

Bir az sevgimizdə qədimlik vardı,
Hər görüş çağımız nağıl olardı,
Mən pərvanə idim, o, bir yanar şam.

Çöhrəsi bur parça bahar kimiydi,
Gülüşü çağlayan sular kimiydi,
Üzümə gülərdi o, səhər-axşam[4].

Düşünürsən: Gülüşü sular kimi çağlayan, səhər-axşam üzünə gülən bu gözəli ayrılığa nə vadar edib? Cavab sonrakı sonetlərdə müxtəlif formalarda verilsə də, mahiyyət birdir: - Sərvət üstələyər eşqi də bəzən[5].

Bütün bunlara baxmayaraq, şairin doğru qənaətinə görə ilk məhəbbətin nə sevdası unudulur, nə də yarası sağalır. İnsan dözür və bu həsrət ömrün sonuna qədər davam edir. Axırı vüsal olmasa belə ilk məhəbbət ölmür, şairin dediyi kimi:

Yanıb kül olsa da sevənlər əgər,
Yalandır, - desələr ölür məhəbbət[6].

On dörd sonetin hər birinin son misrasını ənənəyə uyğun olaraq təkrarlayan şair sonluqda düşündürücü bir səhnə yaradır ki, axırınci – on beşinci sonetin bəzi misralarını qeyd edirik:

Həyat yoxuşlara yolumu saldı....
Bir qız ürəyimi daşlar çaldı...
Bağlı boğça imiş demə ürəyi...
Deyirəm dünyada niyə görəsən
Xəbərsiz-ətərsiz gəlir məhəbbət?[7]

V.Hüseynovun oğluna ünvanladığı fəlsəfi məzmun daşıyan "İnsan" adlı sonetlər çələngini onun övladına nəsihətindən çox insan, cəmiyyət və zaman haqqında düşüncələri də adlandırmaq olar.

Ömür yolunun daşlı-kəsəkli, enişli-yoxuşlu, dərəli-dağlı olduğunu, bu yola xalı döşənmədiyini bildirən müəllif qeyd edir ki, "ürəyində dözüm yağı" olmayan şəxs "dünyanın başına dolana", yəni məqsəd və amalına çata bilməz. Şairin təsvirində "qınında qaxılıb qalan bir insan", əslində insan ömrü yox, daş ömrü yaşayır. V.Hüseynov o şəxsləri əsl insan hesab edir ki, o insan səmanı çiyninə alıb cahana günəşlə birgə nur saça bilir. O insan ki, bürküdə buza, şaxtada atəşə, səhrada bulaq olmağa cəhd eləmirsə, onun əsl insan və vətəndaş olmağı mümkün deyil. Çətinliklərə qalib gəlmək üçün insan büdrəsə də, inadından əl çəkməməli, arzusunda

[4]Yenə orada, s. 299
[5]Yenə orada, s. 302
[6]Yenə orada, s.305
[7]Yenə orada, s. 306

olduğu istəyə çatmağa özünü səfərbər etməyi bacarmalıdır. Şairin oğluna xitabən söylədiyi aşağıdakı sözlər, əslində bütün gənclərə, geniş mənada cəmiyyətə ünvanlanmışdır:

Büdrəyib dikəlmək, axı, ar deyil,
Yollar qarşındadır, bəyən sən, bala!
Ömür yolu ki var, pal-paltar deyil,
Xoşlayan mən olum, geyən sən, bala![8]

Üçüncü sonetdə müəllif oğluna məsləhət görür ki, ağılı ilə yolunu işıqlandırıb elə əməl sahibi olsun ki, onun əməli təqdir olunsun və bu cür əməllər təkcə onu yox, özündən sonra eli də yaşatsın. Sonetin ikinci və dördüncü bəndlərində şair deyir:

Mərdin yarasına dəyib qanatma,
Namərdi qovmaq da gəlməsin asan.
Həmişə işığa, nura can atma,
Çalış ki, zülməti parçalayasan.

..Qüdrətin, qüvvətin dönsə də selə,
Gücünü yamacda elə sərf elə,
Dolayda təngiyib üzülməyəsən[9].

Şairin çox doğru olaraq gəldiyi qənaətə görə, "Hər kəsin özündə olur hərəkət, Hərəkət tükənsə, ömür də bitir". Oğlunu daima hərəkətdə olmağa, şalışmağa, arayıb-axratmağa, təmiz əxlaq, saf əməlllər sahibi olmağa çağıran şair Araz və Kür şaylarını Azərbaycanın müqəddəs çayları kimi mənalandırarq oğlundan torpaqlarımıza can verən bu müqəddəs çaylara oxşamağı iltimas edir. Şeirdə oxuyuruq:

Qorxunc bir dərədə yolunu azsan,
Gözə dəyməsə də insan ləpiri.
Elə zənn elə ki, Kürsən, Arazsan,
Axırsan bir yerdə illərdən bəri.

Araz – torpağımın alışan nəbzi,
Kür bu od üstünə su səpir oğlum.
Mənim nişanəm ol, xalqımın rəmzi,
Mənim Araz oğlum, mənim Kür oğlum[10].

Sonetin sonrakı bəndində Azərbaycanı ikiyə ayıran Arazın hələ də dərdinə çarə tapılmamasını ürək ağrısı ilə dilə gətirən şair səkkizinci sonetdə yazır:

İnsan gölgəsindən çəkinib qorxsa,
Nə gərək bu sayaq diri, ay oğul!

[8]Yenə orada, s. 308
[9]Yenə orada, s. 309
[10]Yenə orada, s. 310

Kiminin yer üstə kölgəsi yoxsa,
Torpağın altıdır yeri, ay oğul!

Gizlənmə heç kəsin qanadı altda,
Özünə elə yer seç ki, həyatda
Səni salamlasın Günəş birinci.

Şöhrətin, hörmətin elə yayılsın,
Çalış durduğun yer zirvə sayılsın,
Ancaq heç vaxt olma zirvə girinci[11].

Övladını ucuz şöhrətdən qaçmağa, qəvvas kimi dəryalarda inci aramağa, bütün insanları bir gözdə tutub alçaq və nadan adamlarla oturub-durmamağa, hamının səhvini görsə belə heç kəsin ürəyini qırmamağa səsləyən şair ona məsləhət görür ki, "həyata uzaqdan baxma"sın və inci axtaranlar kimi dənizin dibinə enməkdən çəkinməsin. Həyat mübarizədir və mübarizədən qorxanlar, bir qayda olaraq azusunda olduqları işıqlı niyyətlərinə çata bilmirlər.

İnsanın öz istəyi ilə yaranmadığını və bu yaradılmışın dünyanın əşrəfi olduğunu oğluna xatırladan sənətkar ona nəyi tövsiyə edir? On ikinci sonetin iknci və üçüncü bəndlərinə diqqət edək:

Sən ki yaranmadın öz istəyinlə,
Təkcə özün üçün yaşama, oğlum.
Bir baş ki yükləndi qəzəblə, kinlə,
O başı çiynində daşıma, oğlum.

Böyüyün, kiçiyin yolunu gözlə,
Bütün insanları sevib əzizlə,
Axı biz insanıq hər şeydən əvvəl[12].

"İnsan" sonetlər çələnginin on dördüncü soneti bilavasitə şairin "Kimdir insan? Dünya nədir?" poetik sualına çox gözəl və yüksək şeiriiyətlə verdiyi poetik cavab və insanlğa çağırışdır. Bəzi misraları məzərdən keçirək:

Hamıdan güclüsən insan, ey insan,
Səni sarsıtmayıb xaqanlar, şahlar.

..Başın günəşdədir, gücün torpaqda,
Sabahın həqiqət, keçmişin nağıl.
Oğluma danışdım hünərin haqda,
-Sən də hünərli ol, -dedim, - ay oğul!

[11]Yenə orada, s. 312
[12]Yenə orada, s.314-315

İnsan cərgəsinə qoşul, ay bala!
Bir qartal qanadlı quş ol, ay bala!
Simurqtək həyan ol insan oğluna.

Bu dünya tamaşa, şəbih deyil ki!
İndidən anla ki, indidən bil ki,
Xalı döşənməyib ömür yoluna[13].

V.Hüseynovun "İnsan" sonetlər çələngi haqqında düşüncələrimizi ümumiləşdirərkən tənqidçi, f.e.d. Vaqif Yusiflinin belə bir fikri ilə razılaşırıq ki, "İnsan" sonetlər çələngi XX əsr insanının duyğu və düşüncələrindən süzülüb"[14]

Doğulduğu, boya-başa çatdığı torpağın tərənnümü V.Hüseynov poeziyasının qızıl səhifələrini təşkil edir. Bu mənada şairin "Lənkəran" sonetlər çələngini onun Cənub mövzulu əsərlərinin mirvarisi adlandırsaq, səhv etmərik. Şairin yaxın dostu Şəkər Aslana ithaf etdiyi şeirin ilk bəndində oxuyuruq:

Lənkəran deyəndə qabarır sinəm,
Onun sinəsində ehtişama bax!
Lənkəran tükənməz, zəngin xəzinəm,
Bir tərəfi dəniz, bir tərəfi dağ.

Dünyanın əl boyda parçasıdır o,
Bu əl kainatı qucmaq istəyir.
Zamanın sehrli xalçasıdır o,
Açıb qanadını uçmaq istəyir[15].

Bu misralarla, əslində Lənkəranın poetik tablosunu yaratmağa müvəffəq olan şair sonrakı bəndlərdə diqqəti Lənkəranın tarixinə, təbiətinə yönəldir, Bəlləbur qalasının qəmli keşmişindən, İstisuyun "eşqini torpağa açmasından" bəhs edir. Beşinci sonetdə fransız arxeoloqu Morqanın XIX əsrdə Lənkəran ərazisində, Talış dağlarında apardığı tədqiqatlara, qazıntı işlərinə işarə vuran (Morqanın Respublikamızın Cənub bölgəsində tədqiqat zamanı əldə etdiyi və özü ilə apardığı bir çox qiymətli maddi-mədəniyyət abidələri bu gün də Parisin San Jerman muzeyində qorunmaqdadır – X.R.) və bu torpağın "hər dağını yenilməyən qədim bir qala" adlandıran şair yazır:

Dağlar gəlin kimi nazlı, ədalı,
Kim deyib görəsən "dağlar dağımdır"?
Dağlar dövran sürüb qanlı-qadalı,
Köksü ona görə dağım-dağımdır.

[13]Yenə orada, s. 316
[14]Vaqif Yusifli: Vaqif Hüseynov: şəxsiyyət, sənətkar(V.Hüseynovun "Mənə vaxt verin" kitabına yazılmış ön söz). Bakı: "Nurlan", 2006, s. 8
[15]Yenə orda, s. 318

İlk insan məskəni dağlarda min-min,
Zaman daşdan keçib, oxdan ötübdür.
Morqanın açdığı küp qəbirlərin,
Yaşı dörd min ili çoxdan ötübdür[16].

Meşələri dağların duvağı adlandırıb qədim Hurkan meşələrində bitən nadir ağac növlərindən – palıd, qovaq, nil, dəmirağacdan söz açan, Xəzəri Lənkəranın nəğmə deyən dodaqları, dodaqları isə təbəssüm bulağı kimi poetikləşdirən şair "Azərbaycan kimi anası olan" yurdunu dünyanın cənnəti, ən gözəl yeri hesab edir, tarixi, təbiəti ilə yanaşı onun insanlarını, mərd oğullarını, mələk kimi qızlarını da böyük sevgi və ustalıqla vəsf edir. "Burda igidlər var qaya cüssəli", "İndi Lənkəranda gündə bir neçə Baloğlan doğulur, Həzi doğulur",- deyən şair (Sovet İttifaqı qəhrəmanları Həzi Aslanov və Baloğlan Abbasov nəzərdə tutulur – X.R.) bu torpağın gözəllərini, onların ismət, həya və vəfalarını belə təqdim edir:

Burda qızlar var ki, dünya gözəli...
Afrodita kimdir, Cakonda kimdir?
Sevgidir dünyanın sonu, əzəli,
Hər qəlbə səadət, sevgi hakimdir.

Baxışlar od vurub yandırır canı,
Yox olur canın da dərdi, bəlası.
Bir nəğmə dolaşır indi hər yanı,
"Lənkəran qızları ceyran balası"[17].

Şairin təqdimatında Lənkəran əhalisi də doğulduqları, boya-başa çatdıqları torpaqları kimi səxavətlidir. "Zəhmətdir hamıya yaraşıq, bəzək",- deyən müəllif bildirir ki, burada yaşayan insanlar zəhmətkeş, süzübütöv, halal, əliaçıq olmaları ilə yanaşı, həm də qonaqpərvərdirlər. "Çəkin qonaqları qonaqları yuxarı başa, Lənkəran möhtəşəm bir toyxanadır" misralarının özünə yer aldığı on ikinci sonetdə "Lənkəran" sözünün etimologiyasına diqqət yetirən:

Babam Lenəkəon çağırıb onu,
Sonra Ləngərkünan, Ləng aran olub.
Lakin itirməyib öz qürurunu,
Lənkəran həmişə Lənkəran olub[18], -

deməklə şəhərin adına aydınlıq gətirən şairin doğma şəhəri və onun insanları haqqında arzusu on üçüncü sonetdə aşağıdakı kimi poetik təcəssümünü tapır:

[16]Yenə orada, s. 321
[17]Yenə orada, s. 324
[18]Yenə orada, s. 326

Parla üfüqlərdə qızıl günəştək,
Hüsnünü bəzəyən əllər var olsun,
Qoynunda yaşayan ellər var olsun![19].

On dördüncü soneti bütövlükdə Lənkəran haqqında nəğmə də adlandırmaq olar. "Sənə ana dedim, ana, ay ana!" – deyə şəhərinə xitab edən şair yazır:

Parla üfüqlərdə qızıl günəştək,
Səslə tamaşana bütün cahanı.
Xəzər sahilində çiçəksən, çiçək,
Belə çiçək hanı, belə gül hanı?

Üstündən yel əssə, yaşıl boyanar,
Bulud ətirlənər asimanında.
Səni görmək üçün erkən oyanar,
Günəş şəfəq-şəfəq axar qanında[20].

Sonuncu – on beşinci sonetdə, ənənəyə uyğun olaraq, əvvəlki on dörd sonetin hər birinin son misrası təkrarlanaraq gözəl bir poetik nümunə yaradılmışdır. Həmin soneti olduğu kimi veririk:

Lənkəran deyəndə qabarır sinəm,
Şöhrəti yayılıb cahana indi.
Qəmli keçmişinə istədim enəm,
Hər daşı dil açdı, danışdı, dindi.

Dağlar gəlin kimi nazlı, ədalı,
Meşələr dağların duvağıdırmı?
Səhəri, axşamı səsli, sədalı,
Xəzər nəğmə deyən dodağıdırmı?

Burda igidlər var qaya cüssəli,
Burda gözəl var ki, dünya gözəli,
Zəhmətdir hamıya yaraşıq, bəzək.

Hər tərəf nağlıdır, hər yan tamaşa,
Yaşa, al bayraqlı şəhərim, yaşa!
Parla üfüqlərdə qızıl günəştək[21].

Vaqif Hüseynovun "Sonetlər çələngi" haqqında fikirlərimizi ümumiləşdirərkən belə bir yekun nəticəyə gəlirik ki, digər poetik əsərlərində olduğu kimi, bu silsilədə də onun narahat qəlbinin çırpıntları duyulmaqdadır. Bu silsiləyə

[19]Yenə orada, s. 327
[20]Yenə orada, s. 327
[21]Yenə orada, s. 328

daxil edilmiş hər bir poetik nümunədə V.Hüseynovun dünayaya, cəmiyyətə, təbiətə olan münasibəti ilə baş-başa qalırıq. Bir daha şahidi oluruq ki, bir şair olaraq V.Hüseynov üçün nə mövzu, nə də janr məhdudiyyəti olmamış, o qələmə aldığı əsərlərində yüksək şairlik istedadı ilə yanaşı, dərin təfəkkür, irfan sahibi olduğunu da nümayiş etdirə bilmiş, klassik sonetin əsl və yaşarı milli nümunələrini yaratmağa müvəffəq olmuşdur.

İstifadə olunmuş ədəbiyyat

Vaqif Hüseynov. Mənə vaxt verin. Bakı: "Nurlan", 2006
Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: "Maarif" nəşriyyatı, 1978
Hüseyn Həşimli. Azərbaycan ədəbiyyatında sonet və terset. Bakı: "Elm", 2003
Elşad Səfərli. Sonet janrı və Azərbaycan soneti. Bakı: "Elm və təhsil", 2017
Vaqif Yusifli. Azərbaycan soneti. "Ədəbiyyat qəzeti", 7 mart 2022-ci il

Xalidə Rəhimova

SONET VƏ VAQIF HÜSEYNOVUN "SONETLƏR ÇƏLƏNGİ"

XÜLASƏ

Məqaləni şərti olaraq iki yerə bölmək olar. Birinci bölmədə sonet jarının tarixi, Azərbaycan ədəbiyyatında bu janrın meydana gəlməsi və təşəkkülü barədə yığcam məlumat verilmişdir. Eyni zamanda "Sonetlər" çələnginin mahiyyəti, forma və məzmun xüsusiyyətləri haqqında danışılmışdır. İkinci bölmədə XX əsrin 60-90-cı illərindəki Lənkəran ədəbi mühitinin görkəmli nümayəndəsi olan Vaqif Hüseynovun yaratdığı üç sonet çələngi tədqiq olunmuşdur. Müəllifin hər biri on beş sonetdən ibarət olan sonetlər şələnginin birincisi "Məhəbbət əyləncə deyil", ikincisi "İnsan", üçüncüsü isə "Lənkəran" adlanır. Adından göründüyü kimi, birinci sonetlər çələnginin mövzusu məhəbbətdir. Bu sönetlərdə müəllifin oxucusuna təlqin etmək istədiyi başlıca fikir ondan ibarətdir ki, insan məhəbbətə əyləncə, gəldi-gedər, keçici bir hiss kimi yox, insanı kamilləşdirən, onu doğru yola yönəldən bir vasitə kimi baxmalıdır. Var-dövlətə, sərvətə qurban verilən məhəbbəti şair məhəbbət yox, sadəcə bir aldanış hesab edir və belə bir qənaətə gəlir ki, həqiqi, saf olan ilk məhəbbət uğursuz olsa belə, heç vaxt unudulmur. Müəllifin oğluna nəsihət kimi düşünülmüş ikinci – "İnsan" sonetlər çələngini isə şairin dünya, cəmiyyət haqqında düşüncə və həyacanlarının poetik təcəssümüdür. Bir növ atanın övlada vəsiyyəti kimi səslənən bu sonetləri ümumi bir ruh birləşdirir: Əsl insan ucuz şöhrətdən qaçmalı, nadan adamlarla oturub-durmamalı, millətinin, xalqının işinə yaramalı, məqsədinə çatmaq üçün fəal və mübariz olmalıdır. "Lənkəran" adlandırılan üçüncü sonetlər çələngini isə Lənkəran, onun tarixi keşmişi və müasir vəziyyəti, təbiəti, insanları, Talış dağları və füsünkar Cənub təbiəti haqqında nəğmələri də adlandırmaq olar.

"Sonetlər çələngi"ni nəzərdən keçirərkən belə bir qənaət hasil olmuşdur ki, silsiləyə daxil edilmiş hər bir poetik nümunədə V.Hüseynovun dünayaya, cəmiyyətə,

təbiətə olan münasibətləri bədii həllini tapmışdır. Belə bir nəticəyə gəlinmişdir ki, o, bu əsərlərində yüksək şairlik isredadı ilə yanaşı, dərin təfəkkür, irfan sahibi olduğunu da nümayiş etdirə bilmiş, klassik sonetin əsl və yaşarı milli nümunələrini yaratmağa müvəffəq olmuşdur.

Khalida Rahimova

SONNET AND VAGIF HUSEYNOV'S "WREATH OF SONNETS"

SUMMARY

The article can be conventionally divided into two parts. In the first section, he gave brief information about the history of the sonnet genre, the emergence and organization of this genre in Azerbaijani literature. At the same time, they talked about the nature, form and content of the "Sonnets" wreath. In the second section, the garland of two sonnets created by Vagif Huseynov, a prominent representative of the Lankaran literary environment in the 60s-90s of the 20th century, was studied. The first of the author's series of sonnets, each of which consists of fifteen sonnets, is called "Love is not fun", the second is "Human", and the third is "Lankaran". As the name suggests, the theme of the first garland of sonnets is love. In these short stories, the main idea that the author wants to convey to his readers is that a person should look at love not as a fun, fleeting, transitory feeling, but as a tool that perfects a person and guides him to the right path. The poet considers the sacrificial love for wealth and wealth not love, but just a delusion, and concludes that the true, pure first love is never forgotten, even if it fails. The second sonnet "Human" written as an admonition to the author's son is a poetic embodiment of the poet's thoughts and emotions about the world and society. These sonnets, many of which sound like a kind of father's will to his son, are united by a common spirit: A real person should avoid cheap fame, should not sit with ignorant people, should serve his nation, my people, should be active and a fighter to achieve his goal. The third collection of sonnets called "Lankaran" can also be called songs about Lankaran, its historical past and modern state, nature, people, Talysh mountains and the fascinating nature of the South.

When reviewing the "Wreath of Sonnets", we came to the conclusion that V. Huseynov's attitude towards the world, society, and nature found an artistic solution in each poetic example included in the series. It was concluded that in these works, he was able to demonstrate that he was a deep thinker and a gnostic, and succeeded in creating authentic and old national examples of the classic sonnet.

ХАЛИДА РАГИМОВА

СОНЕТ И «ВЕНОК СОНЕТОВ» ВАГИФА ГУСЕЙНОВА

РЕЗЮМЕ

Статью условно можно делить на две части. В первом разделе представлена краткая информация об истории сонетного жанра, о возникновении и формировании данного жанра в литературе Азербайджана.

Одновременно, здесь повествуется о сути, о форме и об особенностях содержания венка «Сонетов». Во втором разделе исследованы венок трех сонет, сотворенные Вагифом Гусейновым, который является выдающимся представителем литературной среды Ленкорани 60-90 – х годов XX века. Первый из венка сонет автора, который состоит из пятнадцати сонет называется «Любовь не утеха», второй венок сонет называется «Человек», а третий «Ленкорань». Как видно из названия тематикой первого венка сонетов является любовью. В этих сонетах главная идея, которую автор старается привить своему читателю заключается в том, что человек должен относиться к любви не как к утехе, проходящему чувству, а считать ее тем самым средством, который чему человек совершенствуется, и направляется в правый путь. Любовь, которая становиться жертвой богатства и денег поэт называет не любовью, а самообманом и приходит к такому выводу, что если даже истинная и чистая любовь окажется безуспешной, все – таки она никогда не забывается. Второй венок сонет под названием «Человек», составленный автором и посвященный автором своему сыну как отцовское наставление является поэтическим олицетворением переживаний и мышлений автора об обществе и мироздании. Эти сонеты, которые являются нравоучением отца для своего сына воссоединены под единым духом: истинный человек, должен избежать славы, не должен общаться с невеждами, обязан трудиться ради своего народа и нации, и быть активным и борцом для достижения целей. А третий венок сонет под названием «Ленкорань» можно также называть песней об историческом прошлом и о современном состоянии, о природе, о людях Ленкорани, о Талышских горах и о прекрасной природе Юга. В ходе рассмотрения «Венка сонет» можно прийти к такому заключению, что ни в каком поэтическом образце, который входит в данную плеяду свое литературное разрешение нашли отношение В. Гусейнова к миру, обществу, и к природе. При этом можно прийти к такому выводу, что он в своих произведениях наряду с высоким поэтическим талантом, является владельцем глубокого мышления, чего смог продемонстрировать и добился создания истинных и долговечных национальных образцов классического сонета.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: filologiya elmləri doktoru, professor İslam Qəribli tərəfindən çapa tövsiyə olunmuşdur

İMANOVA KƏMALƏ XALİD QIZI
Baş müəllim
Xarici dillər kafedrası
Azərbaycan Tibb Universiteti, Mərdanov qardaşları 58
İmanova.kamala@outlook.com

PERSONALITY

Summary

Personality refers to the long-standing traits and patterns that propel individuals to consistently think, feel, and behave in specific ways. Personality is totality of an individual's behavioral and emotional characteristics. The unique constellation of the ways we approach the world, interpret events, and act consistently across situations is our personality. Our personalities are thought to be long term, stable, and not easily changed. Given the breadth of human experience and the diversity of things that make each of us unique it is unsurprising that many different perspectives for empirically studying personality have been proposed. Personality has been studied for over 2,000 years, beginning with Hippocrates. Theories of personality have existed in most cultures and throughout most of recorded history. The ancient Greeks used their ideas about physiology to account for differences and similarities in temperament. More recent theories of personality have been proposed, including Freud's psychodynamic perspective, which holds that personality is formed through early childhood experiences. Other perspectives then emerged in reaction to the psychodynamic perspective, including the learning, humanistic, biological, trait, and cultural perspectives. Personality traits are usually seen as the product of both genetic predisposition and experience. Understanding the psychology of personality is much more than simply an academic exercise. Personality embraces a person's moods, attitudes, opinions, motivations, and style of thinking, perceiving, speaking, and acting. It is part of what makes each individual distinct. The findings from personality research can have important applications in the world of medicine, health, business, economics, technology, among others. By building a better understanding of how personality works, we can look for new ways to improve both personal and public health.

Key words: characteristic, studying, theories, psychology, attitude, perceiving, health.

What Is Personality?

The unique constellation of the ways we approach the world, interpret events, and act consistently across situations is our personality. From eccentric and introverted to boisterous and bold, the human personality is a complex and colorful thing. At its most basic, personality is the characteristic patterns of thoughts, feelings, and behaviors that make a person unique. It derives from a mix of innate

dispositions and inclinations along with environmental factors and experiences. Although personality can change over a lifetime, one's core personality traits tend to remain relatively consistent during adulthood. Your personality involves:

- traits, like loyalty, perfectionism, and extroversion
- character, which includes your core beliefs and ethical code
- temperament, which you were born with and involves your predisposition to act and feel in certain ways

The word *personality* comes from the Latin word *persona*. In the ancient world, a persona was a mask worn by an actor. While we tend to think of a mask as being worn to conceal one's identity, the theatrical mask was originally used to either represent or project a specific personality trait of a character.

While there are many different definitions of personality, most focus on the pattern of behaviors and characteristics that can help predict and explain a person's behavior. Given the breadth of human experience and the diversity of things that make each of us unique it is unsurprising that many different perspectives for empirically studying personality have been proposed. Each perspective does well in explaining aspects of what makes each of us unique, but also is limited by the assumptions underlying the approach. Only by sampling each perspective can we truly understand what personality really means.

Personality Traits.

Traits are the building blocks of personality. So what is a trait? In short, it's a relatively stable way of thinking and behaving that can be used to describe a person and compare and contrast that person with others.

Traits can be cast in very broad terms, such as how positively disposed a person generally is toward other people, or in more specific ones, such as how much that person tends to trust other people. These more specific aspects of personality are sometimes referred to as "facets." Personality traits are usually considered distinct from mental abilities (including general intelligence) that are assessed based on how well one responds to problems or questions.

Psychologists have developed a variety of ways to define and organize the span of personality traits. They are often bundled together based on broad personality factors, as in the commonly used Big Five trait taxonomy. But personality can be sliced in many different ways, and some traits are frequently measured and studied by psychologists on their own.

Here are some of the scientifically studied groups of personality traits. Importantly, people generally do not simply have these traits or not have them—they can rate high, low, or somewhere in the middle on each one, compared to other people.

The Big Five Personality Traits.

The Big Five traits—usually labeled openness, conscientiousness, extroversion, agreeableness, and neuroticism, or OCEAN for short—are among the most

commonly studied in psychology. The five-factor model splits personality into five broad traits that an individual can rate higher or lower on compared to other people, based on the extent to which the person exhibits them. Each of the five personality factors covers a group of narrower personality facets that tend to go together in individuals.

- **Openness**: Very creative, open to trying new things, focuses on tackling new challenges
- **Conscientiousness**: High levels of thoughtfulness, good impulse control, goal-directed behaviors
- **Extraversion**: Excitability, sociability, talkativeness, assertiveness, and high amounts of emotional expressiveness
- **Agreeable**: Cares about others, feels empathy, enjoys helping others
- **Neuroticism**: Experiences stress and dramatic shifts in mood, feels anxious, worries about different things, gets upset easily, struggles to bounce back after stressful events

HEXACO and Honesty-Humility.

Some personality researchers have proposed a sixth major trait factor, in addition to the Big Five: it's called ***honesty-humility*** *and provides the "H" in the HEXACO model. Honesty-humility as a trait concept reflects the degree to which people place themselves ahead of other people, such as by seeking special treatment or manipulating others. Proposed facets include sincerity, fairness, and the avoidance of greed.*

The Dark Triad.

Three traits, often called the Dark Triad—narcissism, psychopathy, and Machiavellianism—are commonly assessed to investigate the darker, or more antagonistic and self-interested side of human nature. While they represent particular ways of thinking about anti-social thoughts and behavior, they are not necessarily separate from other traits—for instance, it's easy to see how they share some common ground with the Big Five concept of agreeableness or HEXACO's honesty-humility.

Some people who rate highly on these traits are described as being "a narcissist" or a "psychopath," but the Dark Triad traits can be thought of in terms of a spectrum: A person can rate low, high, or anywhere in between on each one. Personality disorders, some of which involve Dark Triad-related behavior, are defined differently, using specified cut-offs for diagnosis.

How does personality develop?

Your personality isn't immutable and unchanging. Research suggests that you're not simply born with certain patterns and traits, rather, they develop over time. Your personality can be influenced by:

- genes

- biology
- life experiences
- adverse events you've faced
- community and culture
- early bonds
- raising styles

There are a number of theories about personality development, and most theories emphasize that early childhood experiences are key in this process.

Where Does Personality Come From?

Why individuals develop the personalities they do and how much someone's personality typically changes over time are some of the biggest questions in personality psychology. Science provides some answers, but there is still plenty of room for debate and exploration.

Genetics partly helps to account for differences in personality traits, but other influences certainly play a role. A range of theories of personality have been proposed to explain what personality is and why individuals become who they are, with some focusing more heavily than others on potential non-genetic factors, such as a person's taking on new social roles (like spouse or parent).

Despite its day-to-day stability, personality *can* change in the long term, potentially to a substantial degree over the course of a person's life. Research suggests that people tend to show signs of increasing maturity (including, for instance, increased social sensitivity) in their personality test scores as they grow older. It may even be possible to deliberately change aspects of one's own personality by making a repeated effort to behave differently.

What are the theories of personality?

There are a number of personality theories that explore the development and expression of human personality.

No single personality theory is "correct." They are different ways of looking at and researching what personality is.

Common theories include:

1.Psychodynamic theories

Psychodynamic personality theories are based on some of Sigmund Freud's workTrusted Source, particularly the idea that your self involves three aspects: the id, the ego, and the superego.

Freud also theorized that early childhood experiences have a profound impact on how your personality develops and the possibility of living with mental health conditions.

Later, research by Carl Jung and Erik Erikson built on and challenged certain aspects of Freud's theories. Jung and Erikson's work contributed greatly to psychodynamic theories of personality.

2. Trait theories

Trait theories focus on the idea that we all share personality traits, but fall on different points of a spectrum.

A well-known trait theory is the five-factor theory, also known as the Big 5, proposed by Donald W. Fiske.

Fiske proposed that human personality involve five traits:

- openness to experience
- conscientiousness
- extraversion
- agreeableness
- neuroticism

Each person experiences these traits at some level. For example, you can be high on extroversion but low on neuroticism, while your sibling may be the opposite.

3. Biological theories

Biological theories of personality focus on the physiological factors that affect your personality. These theories propose that physical characteristics, like brain structure, can determine how personality develops.

4. Behavioral theories

Behaviorist theories study how your personality is shaped by rewards and punishment from your environment.

Being rewarded for certain behaviors and punished for others can condition you to behave and think a certain way.

Behavioral theories suggest that personality is a result of interaction between the individual and the environment. Behavioral theorists study observable and measurable behaviors, often ignoring the role of internal thoughts and feelings. Behavioral theorists include B.F. Skinner and John B. Watson.

5. Humanistic theories

Humanist theories emphasize the importance of free will and individual experience in developing a personality.

Humanistic theories of personality propose that your own self-perception – in other words, who you think you are – can determine your personality.

A humanistic theory was proposed by Abraham Maslow (who created Maslow's hierarchy of needs). Maslow suggested that your personality is the result of meeting or not your most basic needs.

Another humanistic theory was proposed by Carl Rogers, who suggested that you're driven by your need for self-actualization. Your personality is then determined by your pursuit of personal growth and improvement.

Personality disorders.

Personality disorders are mental health conditions that involve a few personality traits that tend to cause great distress and represent challenges in different aspects of

your life.Someone with a personality disorder may have trouble recognizing their condition because their symptoms are ingrained in their personality.

The American Psychiatric Association's Diagnostic and Statistical Manual of Mental Disorders (DSM-5) groups personality disorders into three distinct categories: cluster A, cluster B, and cluster C.

Cluster A personality disorders involve odd and eccentric traits, and include:

- paranoid personality disorder
- schizotypal personality disorder
- schizoid personality disorder

Cluster B personality disorders involve dramatic, emotional, and erratic traits, and include:

- narcissistic personality disorder (NPD)
- antisocial personality disorder
- borderline personality disorder (BPD)
- histrionic personality disorder (HPD)

Cluster C personality disorders involve fearful and anxious traits, and include:

- obsessive-compulsive personality disorder (not to be confused with obsessive-compulsive disorder (OCD))
- dependent personality disorder
- avoidant personality disorder

While the symptoms of personality disorders vary based on the condition, some common signs include:

- Aggressive behavior
- Delusional thinking
- Distrust of others
- Flat emotions (no emotional range)
- Lack of interest in relationships
- Violating others' boundaries

Why do personality disorders develop? A number of factors could be at play, including genes, physiological processes, traumatic events, cultural impact, and childhood experiences.

If you are concerned that elements of your personality are contributing to stress, anxiety, confusion, or depression, it's important to talk to a doctor or mental health professional. They can help you understand any underlying conditions you may have.

It is often challenging to live with a personality disorder, but there are treatment options such as therapy and medication that can help.

ЛИЧНОСТЬ
РЕЗЮМЕ

Личность относится к давним чертам и образцам, которые побуждают людей постоянно думать, чувствовать и вести себя определенным образом. Личность – это совокупность поведенческих и эмоциональных характеристик человека. Уникальное сочетание того, как мы подходим к миру, интерпретируем события и последовательно действуем в разных ситуациях, — это наша личность. Считается, что наша личность долговременна, стабильна и ее нелегко изменить. Учитывая широту человеческого опыта и разнообразие вещей, которые делают каждого из нас уникальным, неудивительно, что было предложено множество различных точек зрения для эмпирического изучения личности. Личность изучается более 2000 лет, начиная с Гиппократа. Теории личности существовали в большинстве культур и на протяжении большей части письменной истории. Древние греки использовали свои представления о физиологии для объяснения различий и сходств в темпераментах. Были предложены более поздние теории личности, в том числе психодинамическая точка зрения Фрейда, согласно которой личность формируется в результате переживаний раннего детства. Затем в ответ на психодинамическую точку зрения возникли другие точки зрения, включая обучающую, гуманистическую, биологическую, личностную и культурную точки зрения. Черты личности обычно рассматриваются как продукт как генетической предрасположенности, так и опыта. Понимание психологии личности — это гораздо больше, чем просто академическое упражнение. Личность охватывает настроение, отношения, мнения, мотивы и стиль мышления, восприятия, речи и действий человека. Это часть того, что отличает каждого человека. Результаты исследований личности могут найти важное применение в мире медицины, здравоохранения, бизнеса, экономики, технологий и т. д. Лучше понимая, как работает личность, мы можем искать новые способы улучшения как личного, так и общественного здоровья.

Ключевые слова: характеристика, изучение, теория, психология, отношение, восприятие, здоровье.

ŞƏXSİYYƏT
XÜLASƏ

Şəxsiyyət fərdləri ardıcıl olaraq düşünməyə, hiss etməyə və xüsusi yollarla davranmağa sövq edən uzun müddət davam edən xüsusiyyətlərə və nümunələrə aiddir. Şəxsiyyət fərdin davranış və emosional xüsusiyyətlərinin məcmusudur. Dünyaya yanaşma tərzimiz, hadisələri şərh etməyimiz və situasiyalar arasında ardıcıl hərəkət etməyimizin unikal bürcü şəxsiyyətimizdir. Şəxsiyyətlərimizin uzunmüddətli, sabit və asanlıqla dəyişdirilməyən olduğu düşünülür. İnsan təcrübəsinin genişliyini və hər birimizi unikal edən şeylərin müxtəlifliyini nəzərə

alsaq, şəxsiyyətin empirik şəkildə öyrənilməsi üçün çoxlu müxtəlif perspektivlərin təklif edilməsi təəccüblü deyil. Şəxsiyyət Hippokratdan başlayaraq 2000 ildən artıqdır ki, öyrənilir. Şəxsiyyət nəzəriyyələri əksər mədəniyyətlərdə və qeydə alınmış tarixin əksəriyyətində mövcud olmuşdur. Qədim yunanlar temperamentdəki fərqləri və oxşarlıqları izah etmək üçün fiziologiya ilə bağlı fikirlərindən istifadə edirdilər. Şəxsiyyətin erkən uşaqlıq təcrübələri vasitəsilə formalaşdığını müdafiə edən Freydin psixodinamik perspektivi də daxil olmaqla, daha yeni şəxsiyyət nəzəriyyələri təklif edilmişdir. Daha sonra öyrənmə, humanist, bioloji, xüsusiyyət və mədəni perspektivlər də daxil olmaqla psixodinamik perspektivə reaksiya olaraq digər perspektivlər ortaya çıxdı. Şəxsiyyət xüsusiyyətləri adətən həm genetik meylin, həm də təcrübənin məhsulu kimi görünür. Şəxsiyyətin psixologiyasını başa düşmək sadəcə bir akademik məşqdən daha çox şeydir. Şəxsiyyət insanın əhval-ruhiyyəsini, münasibətini, fikirlərini, motivasiyalarını və düşüncə tərzini, qavrayışını, danışma və hərəkətlərini əhatə edir. Bu, hər bir fərdi fərqləndirən şeyin bir hissəsidir. Şəxsiyyət tədqiqatının nəticələri tibb, səhiyyə, biznes, iqtisadiyyat, texnologiya və başqaları dünyasında mühüm tətbiqlərə malik ola bilər. Şəxsiyyətin necə işlədiyini daha yaxşı başa düşməklə biz həm şəxsi, həm də ictimai sağlamlığı yaxşılaşdırmaq üçün yeni yollar axtara bilərik.

Açar sözlər: xarakteristika, tədqiqat, nəzəriyyə, psixologiya, münasibət, qavrayış, sağlamlıq.

References:

1. https://www.verywellmind.com/what-is-personality-2795416
2. https://www.psychologytoday.com/us/basics/personality
3. https://psychcentral.com/health/what-is-personality#recap
4. https://4brain.ru/psy/psihologija-lichnosti.php
5. https://en.wikipedia.org/wiki/Personality
6. https://opentext.wsu.edu/psych105/chapter/10-2-what-is-personality/
7. https://zaochnik.com/spravochnik/psihologija/psihologija-i-pedagogika/individualnost/
8. https://www.britannica.com/summary/personality
9. https://www.playosmo.com/kids-learning/personality-essay/
10. https://www.psychologydiscussion.net/essays/personality-short-essay-on-personality/720

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

BABAYEVA AYNURƏ NİZAMİ qızı
Sumqayıt Dövlət Universiteti,
Sumqayıt, 43-cü məhəllə
aynurenizamiqizi@mail.ru

BƏDİİ SÖZÜN SÜZGƏCİNDƏN KEÇƏN TARİX
(M.Çəmənlinin "Ölüm mələyi" tarixi romanı əsasında)

XÜLASƏ

Məqalədə reallıq və tarixi dərk etmənin, fakta olan marağın ədəbiyyata təsirindən danışılır və insanın özünütanıma yolunda keçmişə müraciəti tarixi roman janrında yazılan əsərlərin sayının artma səbəbi kimi göstərilir. Bu yolla yazıçılar oxucusuna həm keçmişi tanıdır, həm də müasirliyin problemlərini müzakirə obyektinə çevirirlər. Tədqiqat onu göstərir ki, zaman dəyişsə də, insanlar dəyişməz olaraq qalırlar. Beş əsr bundan öncə mövcud olan problemlərin bu gün var olması bunu deməyə imkan verir.

Azərbaycanda baş verən siyasi, sosial, mənəvi sarsıntılar milli ədəbiyyatımızda da tarixi roman janrında yazılan əsərlərin çoxalmasına səbəb olmuşdur. Reallığın ümumi mənzərəsini yaratmaq məqsədilə yazıçılar tariximizin qaranlıq səhifələrini bədii sözə çevirərək xalqımızın bitməyən problemlərini təsvir edirlər. Geniş kütləyə yol açan bu əsərlər vasitəsilə milli düşüncə, milli heysiyyət, mənəvi dəyərlər təlqin edilir.

Məqalənin əsas təhlil obyekti müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mustafa Çəmənlinin "Ölüm mələyi" adlı tarixi romanıdır. Müəllif bu əsərdə ziddiyyətlərlə zəngin bir dövrü – I Şah Təhmasibin ölümqabağı vəziyyətindən tutmuş Məhəmməd Xudabəndənin taxta çıxmasına qədərki zamanı təsvir etmişdir. Roman dövlətçilik tarixindən bəhs etsə də, əsərin mərkəzində insan durur. Onun davranışı, düşüncəsi, hiss və emosiyaları bədii-fəlsəfi, psixoloji cəhətdən şərh edilərək bir-birindən maraqlı xarakter qalereyası yarada bilmişdir. Yazıçı mürəkkəb xarakterli I Şah Təhmasib, II İsmayıl Mirzə, Pərixan, Məhdi Ülya kimi tarixi obrazlar vasitəsilə zaman, insan və mühit problemini önə çəkir. İnsanın özünə dönüklüyü dövlətə, bəşəriyyətə, Tanrıya qarşı edilmiş bir xəyanət kimi təqdim olunur. O, emosiya və istəklərini idarə edə bilməyən insanın zaman və mühitin "oyuncağına" çevrildiyini göstərir.

Açar sözlər: ölüm mələyi, sosial-psixoloji roman, M.Çəmənli, tarixi şəxsiyyətlər, I Təhmasib şah, II İsmayıl Mirzə, insan və tale

Müasir dövrdə sənədliliyə, real fakta, tarixə artan marağın sayəsində ədəbiyyatda tarixi roman janrının inkişafında yüksək templi dinamizm hiss edilir. Bu da ondan irəli gəlir ki, bəşər övladı özünü, kimliyini, həyat fəlsəfəsini dərk etmək üçün gəldiyi yola diqqət etməli, öyrənməli olduğunu anlayıb. Ona görə də

müasirliyimizin problemlərini tarixi, sosial, siyasi, fəlsəfi, psixoloji, mifoloji cəhətdən interpretasiya edən tarixi romanlar insan, zaman və bədii söz vəhdətini təşkil edə bilir. Bu baxımdan demək olar ki, xalqların taleyüklü həyat tarixinin əbədiləşdirilməsi yazıçıların əlindədir.

Azərbaycan, eləcə də dünya ədəbiyyatında müxtəlif zamanlarda yaranmış tarixi romanları oxuyarkən görürük ki, bizi əhatə edən aləm dəyişsə də, biz – insanlar dəyişməmişik. Bu səbəbdən də keçmişdə mövcud olan problemlər bu gün də qalmaqdadır. Deməli, yazıçının vəzifəsi tarixi proseslərin fonunda əbədi sualların cavabını tapmaq, insan davranışında və dərkində baş verənləri təsvir etməkdir. Məmməd Arif tarixi roman müəlliflərinə üzünü tutaraq yazır: "*Yazıçı alimdən fərqli olaraq tarixi hadisələri və şəxsiyyətləri bütün dəqiqliyi ilə, sənədlər əsasında əks etdirmək vəzifəsindən azaddır. Bu şərtlə ki, onun yaratdığı bədii lövhələr, bədii surətlər tarixin mənasını, ruhunu, ictimai inkişafın qanunauyğunluğunu düzgün əks etdirsin, faktların mahiyyətini təhrif etməsin*" [4, s.24]. Yəni roman ustası yalnız təxəyyülünə güvənərək hərəkət etməməlidir. O, hadisə və xarakterləri hərtərəfli tədqiq etməli, tarixə zərbə vurmadan faktı bədiiləşdirməlidir.

Müasir Azərbaycan ədəbiyyatında da son zamanlar tarixi romanların sayı artmaqdadır. Bu, zaman və mühitlə bağlı sosial, mənəvi, iqtisadi, mədəni sarsıntılara məruz qalmış xalqın problemlərin kökünü dərk etmək istəyindən irəli gəlir. Tariximizdə baş verən dönüş nöqtələrini təhlil etmək, bu baxımdan, zəruriliyə çevrilmişdir. Ümumi mənzərəni dərindən dərk etmək çətin olduğundan dövrü daha kiçik zaman kəsiklərinə ayırmaq və ziddiyyətli məqamları qruplaşdırmaq məqsəduyğundur. Buna görə də, təsadüfi deyildir ki, yazıçılar müəyyən bir zamanı və o dövrə aid ziddiyyətləri əks etdirməyə üstünlük verirlər. Müxtəlif dövrlərin sosial, siyasi, fəlsəfi tədqiqi, müəllifin qəhrəmanları ilə birgə həmin zamanda səyahəti vasitəsilə əbədi həqiqətin tapılması istiqamətində axtarışlarını, tarixi şəxsiyyətlərin özünüdərk prosesini izləyə bilirik.

Tarixçi və publisistlərdən öncə, tarixi roman müəllifləri dövlətçilik, siyasətdə liderlik probleminə, Azərbaycan xalqının milli şüurunun oyanmasına, öz mənəvi-əxlaqi köklərinə qayıtmasına müraciət etmişlər. Keçmiş təcrübələrin müstəvisində müasirliyin problemlərinin tədqiqi, insan xarakterinin psixoloji cəhətdən açılması və onun zamanla əlaqəli şəkildə təsviri müasir ədəbi prosesdə tarixiliyin yüksəlişinin təzahürüdür. Nizami Cəfərov Azərbaycan ədəbiyyatında tarixi roman janrının təşəkkülü haqda deyir: "Azərbaycan mədəni-ictimai fikrində Tarix həmişə möhtəşəm epik vüsəti ilə iştirak edib öz mükəmməl süjetləri, çoxsaylı motivləri və epoxal qəhrəmanları ilə ciddi bir etnoqrafik yaddaş struktur-sisteminə çevrilib" [2].

Bu sahədə öz xidmətləri ilə tanınan M.Çəmənlinin "Ölüm mələyi" adlı tarixi romanı yuxarıda verilən tələblərə cavab verir. Yəni o, tarixi həqiqətlərə sadiq qalaraq öz aydın və sadə dili ilə insan qəlbinin təlatümlərini, qərəzsiz şəkildə, əks edə bilmişdir.

2012-ci ildə işıq üzü görən "Ölüm mələyi" tarixi romanı yazıçının sayca 2-ci romanıdır. Yaradıcılığının ikinci mərhələsinin bəhrəsi olan bu əsər üslubuna görə "Xallı gürzə" tarixi romanından, eləcə də bir çox tarixi romanlardan fərqlənir. Əsərdə müəyyən bir dövr, onun tarixi şəxsiyyətləri təsvir obyekti kimi seçilsə də, roman konkret zaman, məkan, obraz problemini aşaraq milli-bəşərilik əldə edərək bədii-estetik-fəlsəfi səviyyəyə yüksəlmişdir. Unutdurulan tarixi yaddaşımızı oyadan bu əsər, eyni zamanda, insan və Allah münasibətlərini də xatırladır. Həyatın bir bumeranq olduğunu, etdiyimiz səhv, günahların özümüzə qayıdacağını bədii-fəlsəfi cəhətdən ifadə edir. Romanda əsrlər öncə yaşayan insanla bu gün mövcud olan bəşər övladı arasında forma fərqi olsa da, mahiyyətin dəyişilmədiyini vurğulanır.

Yazıçı əsərdə tarix, insan, cəmiyyət və dövlətin bütöv, dolğun bədii-fəlsəfi, psixoloji mənzərəsini yarada bilmişdir. Ziddiyyətlərlə zəngin bir dövrün obyektiv təsvirini yaratmaq çətin olsa da, M.Çəmənli tarixin fonunda dünənin təkrar istehsalı olan bu günə də nəzər yetirmiş, vəziyyətdən asılı olaraq insan transformasiyasının mahiyyətini şərh etmişdir.

Bu baxımdan, "Ölüm mələyi" romanı Təhmasib şahın xəstələndiyindən başlamış İsmayıl Mirzənin ölümünə qədərki dövrün tarixi xronikasını əks etdirsə də, onu tarixi-realist roman tipinə aid etmək düzgün olmazdı. Çünki əsər ümumilikdə həmin dövrün ictimai-siyasi problemlərini əks etdirməklə yanaşı, həm də qəhrəmanların xarakterinin təhlili üçün psixoloji alt qatlara enib onların daxili mənini açmağa imkan verir. Psixoloji konseptə müvafiq olaraq düzgün seçilmiş faciə dolu talelər və hadisələr əsəri yaddaqalan və oxunaqlı edir. M.Çəmənli tarixi hadisələri, faktları bədii təxəyyülünə tabe edib tarixi-romantik tipdə sosial-psixoloji bir əsər yaratmışdır. Romanda müəllif mövcud olan dövrün, təbəqənin (hakimiyyət ailəsinin) düşüncəsini, yaşam tərzini mənəvi dəyərlər sistemi, mədəni standartlar müstəvisində təqdim edir, insanın daxili aləminə enir. O, baş verənlərin, qəhrəmanın davranışının səbəblərini şüuraltında axtarır. Yəni görünəni görünməzlə əsaslandırır. Vaqif Yusifli bununla bağlı "Ölüm mələyi: Ənənədən gələn notlar və yeni çalarlar" məqaləsində yazır: "*Mustafa Çəmənlinin "Xallı gürzə" və "Ölüm mələyi" romanları sırf tarixi-sosioloji romanlardır. Bu əsərlərdə tarix həm də sosioloji aspektdə nəzərə çarpır. Mustafa Çəmənli təsvir etdiyi dövrü təkcə tarixi həqiqətlər baxımından deyil, həm də sosioloji baxımdan da izah və şərh etməyə can atır*"[6, s.9]. Tənqidçi öz yanaşmasında haqlı olsa da, bir məqamı yaddan çıxarmışdır. Təsvir edilən tarixi hadisələr, sosial problemlər xarakterlərin psixoloji təhlili vasitəsilə açılır. Buna görə də əsəri sosial-psixoloji roman adlandırmaq daha düzgün olardı.

Tarixi roman janrını, onun xüsusiyyətlərinin əsas araşdırmaçılarından biri olan Yavuz Axundlu isə Mustafa Çəmənlinin "Ölüm mələyi" *tarixi romanının süjetinin digər romanların ənənəvi quruluşundan* [1, s.60] fərqləndiyini qeyd edir. Çünki əsərdə biz müharibə səhnələri ilə qarşılaşmırıq. Daha çox saraydaxili münaqişələrə, yəni baş verən hadisələrin alt qatına, insan amilinə diqqət yetirilir. Xarakter və hadisələrin təhlilində real faktlar nəzəri cəlb edir. Bununla bağlı

Y.Axundlu deyir ki, *müəllif romanı qələmə alarkən çoxlu tarixi mənbələrdən, o dövrün təzkirələrindən geniş istifadə etmiş, hadisələrin tarixi həqiqətə uyğun canlandırılmasına nail olmuşdur [1, s.60].* Tarixi faktlarla zəngin romanda dövrünün məşhur tarixçisi olan İsgəndər bəy Münşinin "Tarixi aləmarayi-Abbasi" əsərinin böyük təsiri hiss edilir. Bu, yazıçının bədii təxəyyüllü ilə əks etdirdiyi tarixi hadisə və faktların dürüstlüyünə əsas verir. Yazıçının sənədliliyə olan sədaqəti tarixə böyük hörmətlə vəhdət təşkil edir. O, qüsurlarımızı eybəcər formaya salmadan, onların səbəblərini göstərərək şərh edir. Bir ideoloq kimi milli ideologiyanı, dövlətçiliyimizi təbliğ edir.

"Ölüm mələyi" tarixi romanında əsas aparıcı problem insan faktorudur, onun hiss və duyğuları, düşüncə və əməlləridir. Yazıçı tarixi şəxsiyyətləri əsərdə həm də ideya daşıcısı kimi təqdim edir. Məsələn, Təhmasib şah, Mirzə İbrahim, Pərixan bəyim.

Reyhan Pirimovanın dediyi kimi, uzun zaman *I Şah İsmayılın kölgəsində qalan I Təhmasib[5, s.16]* şah bir şəxsiyyət kimi tarixdə önəmli mövqe tutsa da, dərindən araşdırılmamış, öyrənilməmişdir. Bu səbəbdən tariximizin qaranlıq səhifələrinin bu gün aydınlanması bizə həm keçmişimizi öyrədir, həm də bədii qəhrəmanların yaranmasına zəmin yaradır. Yunus Oğuzun "Təhmasib şah", M.Çəmənlinin "Ölüm mələyi" tarixi romanları da bu silsilədəndir.

Mustafa Çəmənli Təhmasibin xarakteri ilə ayrı-ayrı hadisələr, situasiyalar vasitəsilə çalışaraq onun simasında ədalətli şah obrazı yaratmağa çalışmışdır. Elmə, şeirə, musiqiyə, sənətə vurğunluğu, dəyərli insanları qiymətləndirə bilməsi, ruhən azad olanları buxovlamaması, özünün bütləşdirilməsinə razı olmaması, tərifə, yaltaqlığa aldanmaması onun müdrikliyinin bariz göstəriciləridir. Lakin bütün bunlara baxmayaraq yazıçı Təhmasib şah obrazını paralel şəkildə hökmdar və ata kimi təsvir etməyə çalışır. İlkin baxışda oğlunun Qəhqəhə qalasında həbsə adırması onu ata kimi mərhəmətsiz olduğunun göstəricisidir. Cəsur, qəhrəman oğlu İsmayıl Mirzəni itaətə tabe olmadığı üçün 19 il 6 ay həbsdə saxlatması, azadlıqdan məhrum etməsi və onu ata kimi belə ziyarət etməməsi məqbul sayılmır. Reyhan Pirimova *"Sirli lələklər ilə tarix yazan Səfəvi "mələkləri""* adlı məqaləsində qeyd edir ki, Təhmasib şah *böyüklük edib onu gəncliyinə, igidliyinə bağışlaya bilərdi, amma qüruruna sığışdırmadı, sonucda bir şah kimi taxtını paylaşmaq istəmədi [5, s.16].* Lakin bu fikir tam həqiqəti əks etdirmir. Çünki yazıçı digər tərəfdən medalın əks üzünü maraqlı tərzdə təqdim edir. Müəllif Təhmasib şahın ata kimi təəssüfləndiyini, amma itaətsizliyin bir çox problemlərə səbəb olduğunu və hökmdarın bu səhvi ört-basdır etmək istəmədiyini təsvir edir. Təhmasib şah oğluna cəza verməklə hər kəsə ibrət dərsi verməyə çalışır. Əgər Təhmasib şah oğlunun itaətsizliyinə göz yumsa idi, şah Təhmasib sədaqətsizliyə, itaətsizliyə, xəyanətə qarşı öz kəskin mövqeyini və nüfuzunu itirə bilər, müxtəlif düşüncəyə malik insanları idarə etmək daha da çətin olardı. Deməli, şah və ata arasında gedən qarşıdurmada atanın şaha psixoloji məğlubiyyəti müşahidə olunur. Lakin digər tərəfdən 53 il davam edən hakimiyyət

dövrü bizə bir daha həqiqətin, ədalətin nisbi bir kateqoriya olduğunu xatırladır. Çünki Təhmasib şah yalnız ata kimi düşünsəydi, uzun müddət parçalanma prosesini keçən bir dövləti birləşdirə bilməzdi.

Pərixan atasının qərarının düzgünlüyünü İsmayıl Mirzənin törətdiyi qətllərdən sonra anlayır: "*Tutduğum işin bəraəti yoxdu. Mən gümanımda yanılmışam. Görünür, atamız Şah Təhmasib onun canındakını yaxşı bilirmiş*"[3, s.232]. İnsan mahiyyətini dərk edən İbrahim Mirzə isə təəssüflə qeyd edir: "*Bu gündən Səfəvilərə özgə cəllad gərək deyil. Bizim qanı qanımızdan olan şahımız şahımız həm də cəlladımızdır. Sabah hakimiyyətə iddiası olan hər kəs Qəhqəhə qalasının dünənki dustağının düşmənidi"*[3, s.233].

"Ölüm mələyi" əsərinin aparıcı obrazlarından biri olan II Şah İsmayıl ziddiyyətli və mürəkkəb bir xarakter kimi təqdim olunmuşdur. İlk baxışda ətrafına ölüm saçan, nifrət, kin, qəzəb dolu bir xarakterlə üzbəüz qalırıq. Lakin təhlilin dərin qatlarına getdikcə onun mənəvi qüsurlarının arxasında psixoloji problemlərin gizləndiyini müşahidə edirik. M.Çəmənli insan xislətinin mürəkkəbliyini daxili münaqişələr, düşüncələrin köməkliyi ilə açmağa çalışır. Müəllif on dörd yaşından xalqının və dövlətinin bir və güclü olması üçün döyüşə atılan səmimi xarakterli İsmayılı ətrafında olanlara etibar etməyən, düzgün qərar verə bilməyən, bununla da özünü çıxılmaz vəziyyətə salan İsmayılla qarşı-qarşıya qoyur. Gənc ikən böyük amallarla yaşayan, türk xalqları arasında nifaq səpə sünni-şiə məzhəblərinin törətdiyi fəsadları aradan qaldırmaq istəyən İsmayıl Mirzə 19 il 6 aylıq əsarətdən sonra qaladan intiqam hissi ilə ayrılır. Böyük inam və ümidlə qəhrəman qardaşını gözləyən Pərixana İbrahim Mirzə haqlı olaraq deyir ki, *"Ondan ədalət gözləmə, əmiqızı. Qəhqəhə qalası mərhəmət, şəfqət hisslərini çoxdan onun ürəyindən qovub çıxarıb" [3, s.215].* Bu sözlərlə yazıçı insanı azadlığından məhrum etməklə islah etmək mümkün olmadığını, əksinə, qəddarlaşdığını vurğulayır. M.Çəmənli Təhmasib şahın qardaşı oğlu, qızı Gövhərbəyimin həyat yoldaşı, İsmayıl Mirzənin vəziri olan İbrahim Mirzənin düşüncələri vasitəsilə II İsmayılın qəlbindəki tərəddüdləri təsvir edir. Yalnız o hamıya qəzəb və intiqam hissi ilə yanaşan İsmayıl Mirzənin fatehlikdən söhbət düşəndə gözlərinin içində yanan işığı görüb düşünür: *"Axı niyə biz bu cür insanlarımızın qol-qanadını sındırırıq?! Nə üçün qədirbilməz oluruq? Paxıllıq, xəbislikmi edirik, yoxsa, sadəcə, uzaqgörən deyilik?"[3, s.220].* Yazıçı insanların daxili aləmindəki bu ziddiyyəti göstərməklə oxucunu "İnsan xislətindəki qüsurlarda mühitmi günahkardır, yoxsa fərdi xüsusiyyətlər?" sualı ilə düşündürür. Gecələr Adili təxəllüsü ilə ədalət, sufilik, qazilik mövzusunda şeir yazan, kitabdar, nəqqaş və xəttatların arasında həlim və duyğulu olan insanın şəriksiz hakimiyyət sevdasına görə mənəm-mənəmliyini, təşəxxüsünü, ətrafına ölüm qorxusu yayan qəddar insanı təsvir etməklə yazıçı insan qəlbindəki ikiləşməni psixoloji cəhətdən bədii şərhini verməyə çalışır. Əfsuslar olsun ki, zindan həyatı boyu içində boğub saxladığı nəfsi onu iki seçim qarşısında qoyur: ya fatehlik iddiası ilə müharibələr edərək qəlbini susduracaq, ya da ki, hakimiyyət dərdinə düşüb ətrafdakılarını məhv

edəcək. Təəssüf ki, anası ona cəllad qiyafəsi yox, şah paltarı yaraşdırsa da, o, ikinci yola əl atır, Səfəvilər xanədanının şəhriyarı, mürşidi-kamilinə yox, "Allahın yer üzündəki ölüm mələyi"nə çevrilir.

Törətdiyi qətllər onun qəlbinə xof, qorxu salır. Bu hissin öhdəsindən gələ bilməyən İsmayıl Mirzə daha da qəddarlaşır. Heç kəsə güvənməyərək hamını özünə düşmən bilir.

Mustafa Çəmənli II İsmayıl obrazı vasitəsilə bir insanın həyatında iki tale, iki davranış tərzi, iki yanaşma təqdim edir. Biri digərini təkzib edən bu simalar, xarakterlər, davranışlar həm dövləti, həm xalqı, həm də özünü bəlaya salır. Dağıdıcı qüvvə kimi hakimiyyətə sarılan II İsmayıl öz sonunu yazır.

Yazıçı öz hökmü ilə bütün ailəsini, qohumlarını, xalqını qana boyamış İsmayıl Mirzəni ölüm mələyinə bənzətməklə əsərə mifik, fəlsəfi, psixoloji məna qatmışdır. Ayaq basdığı yerdə gülüşlərin donduğu, qaranlığın çökdüyü bu qəddar obrazla (II İsmayıl) ölüm mələyi arasında paralellər apararaq onun qısa müddətlik hakimiyyətinin, insan psixologiyasının fəlsəfi-etik mahiyyətini ustalıqla açmışdır. O, şəxsiyyətin individual psixoloji dərinliyinin təsvir və təhlili ilə ümumiləşdirmə apara, insan psixikasında baş verən təzadlarla interpretasiya etmişdir.

Bir çox əsərlərdə biz qadın obrazlarını, əsasən, az görürük. Olanlar daha çox epizodik xarakter daşıyırlar. Lakin "Ölüm mələyi" romanında biz bunun əksini görürük. Pərixan əsərin aparıcı qadın obrazlarından biridir. Mürəkkəb xarakterə malik obraz I Şah Təhmasibin sevimli qız övladıdır. Ağlına, dərrakəsinə valeh olan şah güvəndiyi qızı ilə söhbət etməyi sevir, hətta dövlət işlərində belə onunla məsləhətləşir. Lakin əsəri oxuduqca görürük ki, hakimiyyət ehtirası Pərixanı həqiqət axtarışlarından uzaqlaşdırır, mənəvi yüksəlişə gedən yoluna sədd çəkir. Bəzi məqamlarda insana elə gəlir ki, o, qəlbində sanki iki insan yaşadır: biri sevgi və qayğı dolu, musiqi, şeiriyyat və təbiətdən duyğulanan, ətrafa xoş ovqat yayan qızcığaz, digəri isə şahmat oyunçusu kimi soyuqqanlı, sərt, ruhən dayanıqlı, qərarlı bir qadın. Hakimiyyətdən uzaq düşə bilmə qorxusu onu daha sərt və qərarlı olmağa təkan verir. Pərixan bu səbəbdən 19 il həbsdə yatmış qardaşı II İsmayılı taxta çıxartmağı planlaşdırır. Məhbusu şah etməklə onun çiyninə minnət qoymasını və bir borc olaraq özünün dövlət işlərindən uzaqlaşdırılmamasını təmin etmək istəyir.

Pərixan öz eqosuna, zəkasına həddən artıq aludə və çılğın bir xarakterdir. Buna görə də verdiyi qərarların törədə biləcəyi nəticələr haqqında dərindən düşünə bilmir: "*Şamxal sultan hərəmxana bağçasının açarlarını əlində görəndə gözləri parıldadı. Pərixan bəyim dayısının gözlərindəki bu parıltıdan diksindi. O, Heydər mirzənin öldürülməsini istəmirdi, sadəcə, onu şahlıq taxtına layiq görmürdü.*" [3, s.132] – bu parçadan görürük ki, o, hər gün ünsiyyətdə olduğu rəhimdil, ədalətli, əməlisaleh, mehriban Heydərin aqibəti haqqında heç fikirləşməyib. Heydərin ölüm anını izləməli olan Pərixanın içindəki ağrını müəllif bütün çalarları ilə ifadə edə bilmişdir. Bütün bu hakimiyyət davasının, qardaş qırğının səbəbini isə Pərixan

çoxnigahlılıqda görür. Onaelə gəlir ki, övladlar bir ata və bir anaya məxsus olarlarsa, qardaş məhəbbəti daha da güclü olar, ədavətə yer qalmaz.

Bizə elə gəlir ki, müəllif öz fikrini – "Bəlanın bir çoxu çoxnigahlılıqdadır. Bir də bizim kişilər qadının necə gözəgörünməz bir qüvvə olduğunu görmürlər. Sən nə yollasa, onu alıb gərdək dalına sala bilərsən, bədəninə, bağışla məni, sahib çıxa bilərsən, amma ürəyindəkilərə, beynindən keçənlərə sahib ola bilməzsən" – Pərixanın vasitəsilə verməyə çalışıb. Müəllif hətta "Xallı gürzə" tarixi romanında da Pənahəli xanın oğlunun ikinci dəfə evləndirməsini, qanını ermənininqanı ilə calamasını böyük problemlərin başlanğıcı kimi dəyərləndirir.

Xalqın, dövlətin rifahı üçün azad olunan "ədalətli şah"ın əvəzinə Pərixan sarayda, küçələrdə "ölüm mələyi"nin əməllərini kənardan izləməli olur. "Ölüm mələyi" dayana bilmədikcə, günahsız qətllərin ağrısını duymaq Pərixanı bir daha qətl törətməyə, qardaş qatili olmağa sürükləyir.

Səhvlər, günahlar ona başa salır ki, hətta dövlət uğrunda belə hər bir kəs insanlığı, mərhəməti, ədaləti unutmamalı, insani dəyərlərlə yaşamalıdır. Düşünülməmiş (Heydər Mirzə) və düşünülmüş (İsmayıl Mirzə) qətllər, qərəz, haqsızlıq psixoloji cəhətdən onu sarsıdır. Çəkdiyi ağrılar, əzablar bədii obrazın mənəvi-əxlaqi inkişafına, onun xarakter səviyyəsinə yüksəlməsinə zəmin yaradır. Sonda Pərixan mənəvi inkişafa doğru gedə biləcək ruhi vəziyyətə yüksəlir. Ağrıdan keçib tövbə yolunu tutmaq, qəzəb və nifrət dolu həyatı tərk etmək artıq onun qəlbi üçün bir qurtuluşa çevrilir. Pərixanın peşmançılığını əks etdirən epizodlar qəhrəmanın daxili dünyasını, onun ziddiyyətli xarakterini açmaq vasitəsinə çevrilir: "*Tanrım, mən də yaşamağı və yaşatmağı sonadək bacarmadım. "Quran"la yatıb "Quran"la dursam da, sənin buyurduğun yolla axıradək gedə bilmədim, yolumu sapdım. İlahi, hər cəzaya layiqəm. Daha bu məkrli, hiyləgər insanlar arasında yaşamaq istəmirəm*" [3, 287].

Xarakter tipinə görə Pərixan adət-ənənələrə, o dövrün həyat tərzi ilə qarşı-qarşıya duran yeni baxışı təcəssüm etdirir.

Diqqəti cəlb edən qadın obrazlarından biri də Məhdi-Ülyadır. Onunla biz əsərin əvvəlində Heydər mirzənin tərəfkeşlərinin söhbəti əsnasında tanış oluruq. Bu söhbətdən aydın olur ki, Məhəmməd bəyin (Şah I Təhmasibin ilk övladı) həyat yoldaşı olan Xeyrənnisə sultanı çox tədbirli və dilavər qadın kimi tanınır və hətta ondan bir az da çəkinirlər. Məhdi-Ülyanın daxili aləminə, düşüncələrinə bələd olan qaynanası Sultanbəyimin düşüncələri və Kor Şahəli bəy Rumlu (şahın qulağı) ilə söhbəti əsasında formalaşan fikirlərə görə şah böyük oğlu Məhəmmədin hakimiyyəti idarəetməsinə razılıq vermir. Hadisələrin inkişafı boyu şahın, İsmayıl mirzənin ölümü ilə Məhdi-Ülyanın hakimiyyət ehtirasının alovlandığının şahidi oluruq. Zamanla hakimiyyətin gücünü hiss edən qadın qərarverici qüvvəyə çevrilir. Qarşısına keçən hər bir maneəni dəf etməyə hazır Məhdi-Ülya hətta İsmayıl Mirzənin bir yaşına çatmamış körpə oğlunu belə öldürtdürür. Bu zərif məxluqun,

ananın hər zaman hakimiyyətdə qalmaq, övladlarının təhlükəsizliyini qorumaq üçün törətdiyi qəddarlıqlar əsər boyu səciyyəvi epizodlar vasitəsi ilə öz əksini tapır.

Bütün qərarları özü verən fars-tacik mənşəli ali divanın vəkili olan Məhdi-Ülyanın qızılbaşları hakimiyyətdən uzaqlaşdırma siyasəti romanda öz bədii təcəssümünü tapmışdır. Əsərin sonunda müəllif Məhdi-Ülyanın məhz Pərixanın evində boğularaq öldürülməsini təsvir edir. O, bununla göstərmək istəyir ki, insanın etdiyi hər bir əməl bumeranq kimi özünə qayıdır.

Əsər boyu biz M.Çəmənlinin düşüncəsi, şəxsi münasibəti ilə qarşılaşmırıq. O, öz qəhrəmanlarını nə qoruyur, nə də qınayır, onlara qiymətin verilməsini oxucunun ixtiyarına buraxır. Yazıçının bu cür neytral münasibəti bizə Dostoyevski üslubunu xatırladır.

Süjet üçün hadisələrin xroniki ardıcıllığı yox, hadisələrin, hisslərin, assosiasiyaların bir-biri ilə əlaqəli olması, tamlıq yaratması vacibdir. Yazıçı da "Ölüm mələyi" əsərində tarixi xronologiyaya meyil etmədən dolğun kompozisiya yarada bilmiş, qəhrəmanların daxili dünyasını açmaqla epoxanın, cəmiyyətin, insanların sosial-psixoloji əksini vermişdir.

"Ölüm mələyi" romanı həmin dövrdə hökm sürən ictimai-siyasi, əxlaqi-mənəvi pozuntuları qabarıq şəkildə göstərir. Baş verənlərdə insanların daxili aləmi ilə bərabər zaman və mühitin güclü təsirini təsvir edir. Bu günün problemlərinin təhlilini keçmiş üzərindən təqdim edən müəllif dövlətçilik, azərbaycançılıq yolunda buraxılan boşluqları üzə çıxarır. Əsərdə təsvir edilən hər bir hadisə və xarakter alt qata malik mürəkkəbliyi ilə seçilir.

Tarixi əsərlərin bir çoxunda önə çəkilmiş problemlərdən biri də satqınlıqdır. Konkret obrazların timsalında real əksini tapan bu mənəvi problemin arxasında ictimai-əxlaqi, sosial xüsusiyyətlərin zəifləməsi, tənəzzülü durur. Şəxsi mənafe, hikkə, eqo uğrunda xeyirin məğlubiyyətinin şahidi oluruq. Bu tipli problemlərin bədii əksi "kişilik, insanlıq" kodeksinin qüvvədən düşməsinin real mənzərələri yazıçının analitik təhlili vasitəsilə diqqətə çatdırılır.

Nəsillərarası daxili ziddiyyət, tayfabazlıq dövlətçilik tarixinə vurulan ən ağır zərbələrdəndir. Tayfaların qan davasını, hakimiyyət uğrunda savaşları, siyasi oyunları əks etdirməklə yazıçı Azərbaycan xalqının genişmiqyaslı düşünə bilməməsini təəssüflə nəzərə çarpdırır. Xalq, dövlət uğrunda bir olmaq əvəzinə öz eqosuna yenilmə, mənəm-mənəmlik sevdası, yadla əlbir olma ona görə düşüncə geriliyi, uzağı görə bilməmək deməkdir.

"Ölüm mələyi" tarixi romanı gərgin, dinamik süjetli, dramatizmlə zəngin bir əsərdir. Qəhrəmanların daxili aləmini təhlil etməyə zəmin yaradan psixologizmlərlə zəngin hadisələr əsərin dinamikliyinin göstəricisidir. Əsər tarixi roman olsa da, orada daha çox insan psixologiyasının təsvirinə yer verilir. Tarixi obrazlar vasitəsilə Mustafa Çəmənli bəşər övladının qəlbini, ruhunu, düşüncəsini analiz etmək üçün sərhədsiz imkanlar yarada bilmişdir. Yazıçı bədii-tarixi təsvirləri ilə izah edir ki, insanı zahiri xüsusiyyətlərinə görə təhlil etmək olmaz. Çünki hər hansı bir qəhrəman,

insanın bütünlüklə müsbət və ya mənfi olması mümkünsüzdür. O, "Ölüm mələyi" əsərində müəyyən hadisə və düşüncələrin insan taleyindəki buraxdığı izi və rolu açıqlamış, ziddiyyət dolu psixoloji məqamları əks etməklə isə insanın mürəkkəb, çox zaman da dərki çətin olan bir varlıq kimi təqdim etmişdir.

Romanda bədii təcəssümünü tapan zaman geniş əhatəlidir, tarixi bir dövrdür, epoxal xarakter daşıyır.

Romanda dövlətçiliyə, cəmiyyətə məxsus bir çox problemlər öz əksini tapmış və tənqid edilmişdir. Lakin eyni zamanda əsərdə gələcəklə bağlı bir ümid işartısı var. Yazıçı harmonik dünyanın mümkünlüyünə inanır və özünüdərk, özünüinkişafı bu problemin həlli yolu kimi təqdim edir.

Böyük Azərbaycan uğrunda döyüşən, hər zaman döyüşlərdən qalibiyyətlə çıxmaq istəyən, başını heç kəsə əyməyən İsmayılın timsalında yazıçı sanki Azərbaycan xalqını təcəssüm etdirir. Bu xalq da İsmayıl obrazı kimi Sovet rejiminin 70 illik həbsini yaşamışdır. Nəhayət, çevriliş edib azadlığı qazandığı zaman böyük problemlə qarşılaşır. Uzun müddət zəncirlənmiş xalq İsmayıl təki nədən və necə başlayacağını bilmir. Beləcə, xaos yaranır. İçindəki qəzəbi kimə yönəldəcəyini bilməyərək özünü və ətrafını məhv etməyə başlayır. Bunun nəticəsində düşmən üçün əlverişli imkan yaradılır, erməninin və "sapı özündən olan baltalar"ın birgə səyi ilə dövlətimiz yenidən işğala məruz qalır.

Bu tipli müqayisəli təsvirlərlə yazıçı milli və psixoloji sarsıntımızın dərin qatlarda yerləşdiyini və çətin məqamda idarəetmə və təşkilatçılıq, genişmiqyaslı düşünmə bacarığını itirmə, tayfalararası ziddiyyət, daxili qəzəb kimi xüsusiyyətlərin özümüzə yönəlmiş bir silaha çevrildiyini göstərir. Yazıçıya görə tarixi keçmişi, yaddaşı itirməklə insan, cəmiyyət, dövlət bir heçliyə düşür.

ƏDƏBİYYAT SİYAHISI

1. Axundlu, Y.İ. Ölüm mələyi // 525-ci qəzet, 2012, 11 avqust . – s.18
2. *Cəfərov, N.Q. Yunus Oğuz tarixi romanların müasir ustası mövqeyində / https://525.az/news/110577-yunus-oguz-tarixi-romanlarin-muasir-ustasi-movqeyinde*
3. Çəmənli, M.Ş. Ölüm mələyi / M.Ş.Çəmənli. – Bakı: MHS-poliqraf, –2012. – 295 s.
4. Məmməd, A.M. Seçilmiş əsərləri: [3 cilddə] / A.M.Məmməd. – Bakı: Az. SSR EA nəşriyyatı, - c. 2. – 1986. – 355 s.
5. *Pirimova, R. "Sirli lələklər ilə tarix yazan Səfəvi "mələkləri // 525-ci qəzet, – 2014, 19 may. – s.16*
6. Yusifli V.Ə. Ölüm mələyi: Ənənədən gələn notlar və yeni çalarlar // 525-ci qəzet, - 2013, 27 aprel. - s.19

Бабаева Айнура Низами кызы

ИСТОРИЯ, ОТРАЖЕННАЯ В ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ
(по историческому роману "Ангел смерти" М. Чеменли)
РЕЗЮМЕ

Ключевые слова: ангел смерти, социально-психологический роман, М.Чеменли, исторические личности, Тахмасиб Шах I, Исмаил Мирза II, человек и судьба

В статье говорится о влиянии понимания действительности и истории, интереса к фактам на литературу и обращение к прошлому на пути к человеческому самопознанию проявляется в качестве причины увеличения количества работ, написанных в жанре исторического романа. Таким образом, писатели знакомят читателей с прошлым, а также превращают проблемы современности в предмет обсуждения. Исследование показывает, что, несмотря на то, что времена изменились, люди остались прежними. Сегодняшние проблемы, существовавшие пять веков назад, позволяют говорить об этом.

Политические, социальные и духовные потрясения в Азербайджане привели к увеличению произведений, написанных в жанре исторических романов, в нашей национальной литературе. Чтобы создать общую картину действительности, писатели превращая темные страницы нашей истории в художественные слова описывают бесконечные проблемы нашего народа. Через эти произведения, открывшие дорогу широкой аудитории, прививаются национальная мысль, национальное самоуважение, нравственные ценности.

Основным объектом анализа статьи является исторический роман «Ангел смерти» выдающегося представителя современной азербайджанской литературы Мустафы Чеменли. В этом произведении автор описал период, полный противоречий- от предсмертного состояния шаха Тахмасиба I до восшествия на престол Мухаммада Худабанды. Хотя роман рассказывает об истории государственности, в центре произведения находится человек. Он смог создать интересную галерею персонажей, истолковав его поведение, мысли, чувства и эмоции художественно, философски и психологически. Писатель освещает проблему времени, человека и окружающей среды через таких исторических персонажей, как Шах Тахмасиб I, Исмаил Мирза II, Парихан, Мехди Уля со сложным характером. Отступничество человека представлено как предательство против государства, человечества и Бога. Он показывает, что человек, не умеющий контролировать свои эмоции и желания, становится «игрушкой» времени и среды.

Babayeva Aynura Nizami

HISTORY REFLECTED IN FICTION
(based on the historical novel "Angel of Death" by M. Chamanli)
SUMMARY

Key words: angel of death, socio-psychological novel, M.Chamanli, historical figures, Tahmasib Shah I, Ismayil Mirza II, man and fate

The article talks about the influence of understanding of reality and history, interest in facts on literature and turning to the past on the way to human self-knowledge is manifested as the reason for the increase in the number of works written in the genre of the historical novel. Thus, writers acquaint readers with the past, and also turn the problems of the present into a subject of discussion. Research shows that despite times have changed, people have remained the same. Today's problems that existed five centuries ago, allow us to talk about it.

Political, social and spiritual upheavals in Azerbaijan have led to an increase in works written in the genre of historical novels in our national literature. In order to create a general picture of reality, writers, turning the dark pages of our history into artistic words, describe the endless problems of our people. Through these works, which opened the way to a wide audience, national thought, national self-respect, and moral values are instilled.

The main object of the article's analysis is the historical novel "The Angel of Death" by Mustafa Chemenli, an outstanding representative of modern Azerbaijani literature. In this work, the author described a period full of contradictions - from the pre-death state of Shah Tahmasib I to the accession to the throne of Muhammad Khudabandi. Although the novel tells about the history of statehood, a person is at the center of the work. He was able to create an interesting gallery of characters by interpreting his behavior, thoughts, feelings and emotions artistically, philosophically and psychologically. The writer illuminates the problem of time, man and environment through such historical characters as Shah Tahmasib I, Ismail Mirza II, Parikhan, Mehdi Ulya with a complex character. The apostasy of man is presented as a betrayal against the state, humanity and God. He shows that a person who cannot control his emotions and desires becomes a "toy" of time and environment.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Filologiya ürə fəlsəfə doktoru, dosent Sevinc Həmzəyev tərəfindən çapa tövsiyə olunmuşdur

MƏMMƏDOVA KÖNÜL ƏLƏDDIN QIZI
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının dosenti
https://orcid.org/0000-0001-8664-4912
könül.1970@mail.ru

ŞAGİRDLƏRİN İNTELLEKTUAL - MƏNƏVİ İNKİŞAFINDA BƏDİİ MƏTNLƏRİN ƏHƏMİYYƏTİ

XÜLASƏ

Məqalədə ibtidai sinif şagirdlərinin intellektual - mənəvi inkişafında bədii mətnlərin əsas rolundan bəhs olunur. Qeyd etmək lazımdır ki, böyüməkdə olan nəslin nitq mədəniyyətinin formalaşmasında, intellektual-mənəvi inkişafında bədii ədəbiyyatın çox böyük rolu vardır.

Bədii ədəbiyyat güclü təlim-tərbiyə vasitəsi olmaqla yanaşı, həmçinin nitq inkişafının əsasıdır. İbtidai sinif şagirdlərində əxlaqi vərdişlərin formalaşmasında, zəhmətə, biliyə və elmə həvəs yaradılmasında mühüm əhəmiyyət kəsb edən bədii ədəbiyyat, o cümlədən nitq inkişafı üçün də əvəzsiz rol oynayır. Odur ki, şair və yazıçıların bədii nitqinin zənginliyi məhz kiçikyaşlı məktəblilərin nitq inkişafına qida verən mənbədir.

Açar sözlər: Bədii mətn, rabitəli nitq, məntiqi tapşırıq, nitq inkişafı, təfəkkür

Şagirdlərin cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi formalaşmasının, mədəni cəhətdən yetkinliyinin meyarlarından biri olan nitq bacarıqlarına yiyələnməsi məktəb üçün ən vacib ümumpedaqoji problemlərdəndir. Ümumi təhsilin bütün səviyyələrinin, xüsusilə də, ibtidai təhsil səviyyəsinin əsas vəzifələrindən biri şagirdlərin həm şifahi, həm də yazılı nitq bacarıqlarını inkişaf etdirməkdir. Bu vəzifə bütün təlim və tərbiyə prosesi boyunca həyata keçirilir. Məktəb təlimi şagirdlərin nitq inkişafının mənbələrini və imkanlarını artırmaqda xüsusi rola malikdir. Şagirdlər təbiət və insanların əməyi üzərində çoxsaylı müşahidələr aparmaqla, ətrafdakılarla ünsiyyət saxlamaqla, çoxlu mütaliə və müxtəlif çıxışlar etməklə daim nitqlərini inkişaf etdirirlər. Burada çalışmaq lazımdır ki, onlar müşahidə etdikləri varlıq barəsində öz fikirlərini daha dəqiq və düzgün əks etdirməyi bacarsın, onların nitq vasitəsilə işlətdikləri sözlər, məcazlar, bədii təsvir vasitələri ifadə etdikləri anlayışlara, fikirlərə uyğun gəlsin. İbtidai siniflərdə tədris olunan fənlər arasında Azərbaycan dili fənni ən vacib fənlərdən biridir. Məlumdur ki, bu fənnin başlıca məqsədlərindən biri də şagirdlərdə hərtərəfli nitq bacarıqlarını formalaşdırmaqdır. Gələcək nəslin nümayəndələrinin zəngin nitq mədəniyyətinə malik olması, savadlı və mədəni şəxs kimi yetişməsi ibtidai siniflərdə nitq inkişafı üzrə işin təşkili səviyyəsindən çox asılıdır.

Heç şübhəsiz, sistemləşdirilmiş bilik və bacarıqların məcmusunu ifadə edən təhsil birdən-birə formalaşmamışdır. İcmalar yaranıb cəmiyyət təşəkkül tapdıqca müəyyən bilik və həyati bacarıqların əldə olunmasının vacibliyi tədricən müxtəlif istiqamətlər üzrə xüsusi təlim verən və ayrı-ayrı şəxslərin adı ilə adlanan məktəblərin təşkilinə gətirib çıxardı. Bu məktəblərdə həyata keçirilən təlimlər isə təhsil anlayışının inkişafına şərait yaratdı. Bütövlükdə götürsək, bəşər sivilizasiyasının təşəkkülü və inkişafı bilavasitə təhsillə bağlıdır. Ayrı-ayrı dövrlərdə müxtəlif xalq və millətlərin, onların nümayəndələrinin yaratdığı pedaqoji fikir abidələri və konsepsiyaları bəşəri xarakter daşımaqla dünyanı inkişafa doğru aparan tükənməz mənəvi sərvətə çevrilmişdir.

Səlis və aydın nitq insan şəxsiyyətinin ən xarakterik və əhəmiyyətli xüsusiyyətlərindəndir. Buna görə də, uşağın nitq inkişafının əsasında tamamilə onun şəxsiyyətinin tərbiyəsi və inkişafı durur. Ümumiyyətlə, şagirdin bir şəxsiyyət kimi formalaşması üçün onun hərtərəfli inkişafının qayğısına qalmaq lazımdır. Bütün bu amilləri nəzərə alaraq ibtidai sinif müəllimləri nitq təliminin müxtəlif üsul və metodlarından yerində istifadə etməyi bacarmalı, şifahi və əyani metodlarla yanaşı, praktik, oyun xarakterli metodlardan da istifadə etməlidirlər. Bu üsullardan biri də rollu oyunlardır. Dərs prosesində bu üsuldan istidafə edən zaman şagirdlər çox böyük həvəslə bir-birindən müxtəlif rollara girirlər. Bu zaman onlar jest və mimikalardan daha çox istifadə edirlər, bu da şagirdlərin şifahi nitqinin inkişafına şərait yaradır. Dərs zamanı müəllim rollu oyunu təşkil edərkən şagirdlərin dərketmə və zehni bacarıqlarını, bilik və yaş səviyyəsini, hətta onların xarakterlərini nəzərə almalıdır. Rollu oyunların təşkili zamanı müəllimlər müxtəlif materiallardan istifadə edirlər. Belə materiallara bədii ədəbiyyat nümunələrini, bədii mətnləri aid etmək olar.

Qeyd etmək lazımdır ki, böyüməkdə olan nəslin nitq mədəniyyətinin formalaşmasında, intellektual-mənəvi inkişafında bədii ədəbiyyatın çox böyük rolu vardır. Bədii ədəbiyyat güclü təlim-tərbiyə vasitəsi olmaqla yanaşı, həmçinin nitq inkişafının əsasıdır. İbtidai sinif şagirdlərində əxlaqi vərdişlərin formalaşmasında, zəhmətə, biliyə və elmə həvəs yaradılmasında mühüm əhəmiyyət kəsb edən bədii ədəbiyyat, o cümlədən nitq inkişafı üçün də əvəzsiz rol oynayır. Belə ki, bədii əsərdə yazıçının söz ehtiyatı zəngin olduğu üçün o, hadisələri dəqiq, incə, obrazlı və orijinal üsulda ifadə imkanına malikdir. O, sözlərin leksik-semantik zənginliyindən tutmuş intonasiya və ritm incəliklərinə qədər bütün dil vasitələrinə müraciət etməkdə sərbəstdir. Nitqin zənginliyinin əsas əlaməti onda işlənən sözlərin təkrarçılığa yol vermədən kəmiyyətcə çoxluğudur. Mükəmməl savada, daimi mütaliəyə və geniş dünyagörüşünə malik şəxsin söz ehtiyatı keyfiyyət və kəmiyyətcə çox zəngin olur. Odur ki, şair və yazıçıların bədii nitqinin zənginliyi məhz kiçikyaşlı məktəblilərin nitq inkişafına qida verən mənbədir. Uşaq poeziyasına diqqət və qayğı göstərən A.Şaiq, S.Vurğun, M.Müşfiq, M.Ə.Sabir, A.Səhhət, M.Seyidzadə, M.Dilbazi, O.Sərıvəlli, X.Əlibəyli və b. zəngin bədii irsi ibtidai sinif şagirdlərinin intellektual-mənəvi inkişafında mühüm vasitəsi kimi özünəməxsus yer tutur.

Ümumiyyətlə, şagird ana dilində yazılmış bədii əsərləri oxumaq və öyrənməklə öz zehnini yeni fikir, ideya, məfhum, təsəvvür və surətlərlə zənginləşdirir. Bədii mətnlər isə öz növbəsində nitq inkişafı üzrə aparılan işin metodik baxımdan daha səmərəli və keyfiyyətli qurmaq üçün əlverişli imkan yaradır. Bədii mətnlər ibtidai sinif şagirdlərinin hafizəsini, düşünmə qabiliyyətini, müəyyən hadisədən nəticə çıxarmaq, onu yekunlaşdırmaq, ümumuləşdirmək, digərindən fərqləndirə bilmək və s. idrak bacarıqlarını inkişaf etdirir.

Şagirdlər mətnlərdə cərəyan edən hadisələri bədii obrazların vasitəsi ilə daha səmərəli qavrayır. Hekayə, şeir, təmsil, nağıl və digər bədii nümunələrin təsiri nəticəsində uşaqların cəmiyyət və təbiətdən aldıqları təsəvvür və bilikləri daha da dəqiqləşir, nitqləri obrazlı ifadələr hesabına zənginləşir. Oxunan materialın məzmunu şagirdin yaddaşına bütövlükdə həkk olunur, o, bədii mətnin müxtəlif epizodlarını, ayrı-ayrı obrazlarını, onların hərəkətlərini, məntiqi ardıcıllıqla izləyir, təhlil edir, daxili məna əlaqələrini öyrənir və rabitəli nitqlə ardıcıl, bütün incəlikləri ilə verməyə çalışır. Bədii mətnlər kiçikyaşlı məktəblilərə düzgün, obrazlı nitq nümunəsi verir, bu zəmində onların intellektual-mənəvi inkişafına şərait yaranır.

Şagirdin intellektual inkişafı onu əhatə edən, varlıq, təbiət və texnika, cəmiyyət və elmin müxtəlif sahələri ilə bağlıdır. İbtidai siniflərdə şagirdlərin intellektual inkişafı üçün əsas vasitələrdən biri oxu mətnləridir, çünki şagird oxu materialları vasitəsi ilə təbiət və cəmiyyətin inkişafı haqqında biliklərə sahib olurlar, tarixi fakt və hadisələri öyrənir.

Oxu elə bir prosesdir ki, şagirdin idrak fəaliyyətini, intellektual inkişafını bütövlükdə özündə əks etdirir, məzmunun dərindən dərk olunması işini tamamlayır. İbtidai siniflərdə bu işin səmərəli təşkili şagirdlərin intellektual və mənəvi inkişafına, oxu materialının şüurlu mənimsənilməsinə güclü təsir göstərir. I-IV siniflərdə oxu materialının məzmununun şagirdlərin müşahidələri və şəxsi təcrübələri ilə əlaqələndirilməsi üzrə işlərin səmərəliliyinin artırılması mühüm problemdir. Oxu materialları müxtəlif üslublarda yazılmış mətnlərin məzmunlarının müstəqil qavranılmasına şərait yaradır, ədəbi bədii nümunələrə maraq yaradır, ümumi nitq mədəniyyətinin inkişafı üçün obrazlı ifadələrdən ibarət lüğət ehtiyyatını daha da zənginləşdirir.

Azərbaycan dili (I-IV siniflər) kurikulumunun nəticəyönümlü xarakterinə uyğun olaraq şagird:

- mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur;
- müxtəlif mətnləri bütöv sözlərlə səsli və səssiz oxuyur;
- oxuduğu mətnlərin məzmununa münasibət bildirir;
- mətnin hissələri arasında məna əlaqələrini müəyyənləşdirir;
- bədii və elmi-kütləvi mətnləri fərqləndirir [1.s.13].

Yuxarıda qeyd etdiyimiz kimi, I-IV siniflərin "Azərbaycan dili" dərsliklərinə daxil edilən oxu materialları xarakterinə görə iki yerə bölmək olar:

1. Bədii mətnlər (nağıl, təmsil, hekayə, şeir);

2. İnformativ (məlumatlandırıcı, elmi-kütləvi) mətnlər (müxtəlif sahələr haqqında məlumat verən mətnlər).

I-IV siniflərdə bədii və elmi-kütləvi materiallarının özlərinə məxsus sistem və ardıcıllığı mövcuddur. Belə ki, I-IV siniflərdə bədii mətnlər şagirdlərdə vətənimiz, xalqımız, insanların əməyi, həyat tərzi, ictimai hadisələr haqqında ilkin məlumatlar verir, şagirdlərə dövlətimizin sülh və əmin-amanlıq uğrunda apardığı mübarizəsini, yüksək ideyalarını, müasir şəraitdə xalqımızın göstərdiyi misilsiz hünərlərini anlamağa imkan verir. Eləcə də, şagirdlərə müsbət əxlaqi keyfiyyətlər aşılayır. Bədii mətnlər də elmi-kütləvi mətnlər kimi, şagirdlərə təbiət və cəmiyyət haqqında elmi biliklər verir. Həmçinin, bədii mətnlərdə müəllimin təsvir edilən hadisəyə münasibəti də olur. Deməli, elmi-kütləvi mətnlərin oxusu prosesində tətbiq olunan metodları bədii mətnlərə təqdim etmək olmaz. Bu mətnlərin də özlərinə məxsus xüsusiyyətləri vardır.

Bədii mətnlər yalnız insan psixikasının ayrı-ayrı cəhətlərinə - yaddaş, təfəkkür, təxəyyül, emosiyasına deyil, bütövlükdə insan şəxsiyyətinə güclü təsir göstərir. Burada real həyatda baş vermiş tipik hadisələr sözün köməyi ilə yaradılmış obrazlarla əks etdirilir. Uşaq şəxsiyyətinin formalaşdırılmasında bədii mətnlərin rolu əvəzedilməzdir. Şagirdlər bədii mətnlər vasitəsi ilə söz anlayışının qüdrətini dərk edir. Şəkilli kitablara baxmağı, şeir əzbərləməyi, hekayə söyləməyi, nitqi inkişaf etdirməyi, eləcə də emosiya və marağı formalaşır, həmçinin, intellektual-mənəvi inkişafına şərait yaranır.

Bədii mətnlər şagirdlərin nitqini poetik ifadələrə zənginləşdirir. Bu cür zənginləşmə əsərin estetik təhlili və sözlər üzərində aparılan işlərdən irəli gəlir. Məsələn, Məmməd Arazın "Azərbaycan- dünyam mənim" şeirinin ideya-məzmunu üzrə iş prosesində şagirdlər ədəbi-nəzəri biliklər əldə edir, onların nitqi bədii-obrazlı ifadələrlə zənginləşir. Bədii mətnlər şagirdlərin söz sənətinə sahib olmasında və dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Bədii mətnlərin məzmun və forma vəhdətində tədrisi prinsipi ibtidai siniflərdə də aparıcı rola malikdir. Əsərdə yalnız nəyin təsvir olunduğunu bilmək azdır, şagirdlərə estetik təsir göstərməsi üçün onun necə ifadə olunduğunu bilmək vacibdir. Bədii mətnlərin uşağın yaş və bilik xüsusiyyətinə müvafiqliyi təmin edildikdə həmin vəzifənin öhdəsindən gəlmək olar. Buna görə də ibtidai siniflərdə şagirdlər bədii mətnlər - nağıl, təmsil, şeir, hekayə haqqında elementar praktik məlumat alır və onları oxumağı öyrənirlər[2.s.98-99].

İbtidai siniflərdə bədii mətnlərin dili üzərində işin xüsusiyyətlərini aşağıdakı qaydada qruplaşdırmaq mümkündür:

1.Bədii təsvir və ifadə vasitələrinin praktik cəhətdən başa düşülməsini və nitqdə işlədilməsini təmin etmək;

2. Mətndə onların vəzifəsi və bədii rolunu göstərmək;

3.Bədii obrazların düzgün canlandırılması və əsərin məzmununun dərindən başa düşülməsinə nail olmaq;

4. Şagirdlərin bədii zövqünü inkişaf etdirmək [2.s.92-110].

Hekayə, nağıl, təmsil, şeir və s. məktəblərdə bədii oxunun materialı kimi təyin edilmişdir. Həmin materialların əsas xüsusiyyəti bundan ibarətdir ki, burada yazıçı varlığa, onu maraqlandıran hadisələrə münasibətini obrazlı şəkildə bildirir. Onun başlıca məqsədi varlığı realistcəsinə təsvir etmək və estetik cəhətdən əks etdirməkdir.

Bədii əsərlər janrlarına görə müxtəlifdir. Hər bir ədəbi janrın öz üslubu, quruluşu və priyomları olduğundan onların şagirdlərə təsiri də fərqlidir. Bədii əsərlər üç növdə olur: epik, lirik, dramatik. I sinifdən başlayaraq oxu dərsliklərində hər üç növə aid nümunələr verilir. Sadalanılan növlərə aid mətn üzrə iş apararkən onun xüsusiyyəti nəzərə alınmalıdır. Sinif müəllimi lirik, epik və dramatik əsərləri, onun növlərinin xüsusiyyətlərini, bu xüsusiyyətlərin təlim prosesində nəzərə alınmalı olduğunu bilməlidir. Bədii mətnlər şagirdlərin hisslərinə və iradəsinə güclü təsir etməklə böyük tərbiyəvi əhəmiyyət daşıyır. Uşaqlar bədii əsərlərdəki müsbət qəhrəmanları sevir və onlarla birlikdə həyəcan keçirirlər. Bununlada, şagirdlərin həm intellektual, həm də mənəvi cəhətdən inkişaf prosesi baş verir.

İbtidai siniflərdə şagirdlər müxtəlif janrlara dair əsərlərlə tanış olurlar. Burada lirik və epik növə aid kifayət qədər əsərlər verilmişdir. Məlumdur ki, hər bir əsərin öz quruluşu və bədii xüsusiyyətləri vardır. Təmsillər və nağıllar eyni olmadığı kimi, onların oxu qaydaları da fərqlidir. Həmçinin, tapmaca, atalar sözləri, əfsanə, bayatı və b. nümunələrinin hər birinin öz quruluşu olduğu kimi, müvafiq təhkiyə xüsusiyyətləri də vardır. Bədii mətnlərin özünəməxsus xüsusi cəhətlərindən biri də şagirdlərin nitqini lazımı söz və ifadələrlə zənginləşdirməsidir. İbtidai siniflərdə bədii mətnlərin oxusu yuxarı siniflərdə keçilən "Ədəbiyyat" fənnini yaxşı mənimsəməyin təməlidir. Ona görə də, bu mərhələdə şagirdlər bədii əsəri təhlil etməyi, hadisələrin zaman və məkan şəraitini təyin etməyi bacarmalı, qəhrəmanın xarakterini müəyyənləşdirməyi, ilk poetik anlayışlara- şer, qafiyə, ahəng, ölçü, hekayə, təmsil, nağıl və s. dəqiq yiyələnməlidirlər. O cümlədən, şagirdlər bədii mətnlərdə tez-tez rast gəldiyimiz bədii təsvir vasitələri haqqında da təməl biliklərə sahib olmalıdırlar.

Şagirdlərin fikri fəaliyyətində təfəkkürün konkret-obrazlı (əyani) komponentləri ilə yanaşı, mücərrəd təfəkkür də inkişaf edir. Bu cəhət nəzərə alınaraq təlim prosesində şagirdlərin intellektual imkanlarından səmərəli istifadə etmək, yaradıcı təfəkkürün inkişafı, söz sənətinin qavranılması üçün əlverişli şərait yaratmaq lazımdır. Bədii mətnlərdədə öz əksini tapan məcazlar- bədii təsvir vasitələri mənəvi-estetik problemlərin, insanın həyatı, taleyi ilə bağlı səhnələrin dərk edilməsii prosesində şagirdlərə indiki və gələcək fəaliyyəti üçün zəruri olan təcrübə qazandırır. Beləliklə, bədii mətnlər və burada işlədilən bədii təsvir vasitələri şagirdin hiss və duyğularının, müstəqil düşüncəsinin, mənəvi aləminin, fəal həyat mövqeyinin formalaşmasına ciddi təsir göstərir.

К.МАМЕДОВА

РЕЗЮМЕ

ЗНАЧЕНИЕ ХУДОЖЕСТВЕННЫХ ТЕКСТОВ В ИНТЕЛЛЕКТУАЛЬНОМ И ДУХОВНОМ РАЗВИТИИ УЧАЩИХСЯ

В статье говорится о главной роли художественных текстов в интеллектуальном и духовном развитии учащихся начальной школы. Следует отметить, что художественная литература имеет большую роль в формировании речевой культуры и интеллектуально-духовном развитии подрастающего поколения. Художественная литература является не только мощным воспитательным средством, но и основой развития речи. Художественная литература, имеющая большое значение в формировании нравственных привычек, увлеченности трудолюбием, познанием и наукой, также играет незаменимую роль в развитии речи. Поэтому богатство художественной речи поэтов и писателей является источником, питающим речевое развитие младших школьников.

Ключевые слова: художественный текст, коммуникативная речь, логическая задача, развитие речи, мышление.

K.MAMMADOVA

THE IMPORTANCE OF LITERARY TEXTS IN THE INTELLECTUAL - SPIRITUAL DEVELOPMENT OF STUDENTS

SUMMARY

The article deals with the main role of literary texts in the intellectual -spiritual development of elementary school students. It should be noted that fiction has a great role in the formation of speech culture and intellectual-spiritual development of the growing generation. In addition to being a powerful educational tool, fiction is also the basis of speech development. Fiction, which is of great importance in the formation of moral habits, enthusiasm for hard work, knowledge and science, plays an indispensable role in the development of speech as well. Therefore, the richness of the literary speech of poets and writers is the source that nourishes the speech development of young schoolchildren.

Key words: literary text, communicative speech, logical task, speech development, thinking

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları // – Bakı:- 29 sentyabr 2020.

2. Cəfərova N. Oxu təliminin metodikası. Bakı, ADPU, 2021, 140 s.

3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // – Bakı: Azərbaycan məktəbi, – 2013. № 5, – s.6-17.
4. Abdullayev, N.Ə. Nitq mədəniyyətinin əsasları: Dərs vəsaiti / N.Ə. Abdullayev. − Bakı: ADPU nəşriyyatı, − 2014. − 278 s.
5. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı: ADPU, 2019, 430 s.

Redaksiyaya daxil olma tarixi: 22.09.2022
Çapa qəbul olunma tarixi: 09.10.2022
Rəyçi: Səfərəliyeva Fəridə, ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının dosenti tərəfindən çapa tövsiyə olunmuşdur

İçindəkilər:

BAHAR CƏFƏROVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ
QEYRİ-QƏTİ GƏLƏCƏK ZAMANIN SEMANTİKAS I3

ALIYEVA GÜLÇÖHRƏ BABAƏLİ
SİTUASİYALAR ÇOXLUĞUNUN İTERATİV
TİPİNİN LİNQVİSTİK TƏHLİLİ 11

ESMİRA QULİYEVA
ŞƏKİ ŞİVƏLƏRİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ 21

GÜNEL BAYRAMOVA
İTALYAN DİLİNDƏ FEİLİ BAĞLAMALARIN
MORFOLOJİ-SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ 28

AFAQ MƏMMƏDOVA
ƏRƏB ƏLİFBASI İLƏ YAZILAN TÜRKCƏ ƏSƏRLƏRİN
TRANSKRİPSİYASINDAKI PROBLEMLƏR 36

АМИРОВА СОЛМАЗ ДЖАМИЛЬ
ВЛИЯНИЕ РОДНОГО ЯЗЫКА СТУДЕНТА-БИЛИНГВА ПРИ
ИЗУЧЕНИИ РУССКОГО ЯЗЫКА 47

SEYİDOVA SƏBİNƏ ƏMİR QIZI
AZƏRBAYCAN DİLÇİLİYİNDƏ FRAZEOLOGİYANIN
TƏDQİQ TARİXİNƏ BİR NƏZƏR 54

GÜNEL ƏLƏKBƏROVA,
“VARLIQ” JURNALINDA ANA DİLİ VƏ ONUN ƏHƏMİYYƏTİ,
İKİNCİ DİL ÖYRƏNMƏ MƏSƏLƏSİ 63

AFAT ISRAFILOVA
NEW PEDAGOGICAL TECHNOLOGIES IN FOREIGN
LANGUAGE TEACHING 70

HƏQİQƏT MEHDİYEVA
ALMAN DİLİNİN TƏDRİSİNDƏ QRAMMATİK MATERİALLARIN
TAPŞIRIQLAR VASİTƏSİLƏ ÇATDIRILMASI 78

ƏFƏNDIYEVA MEHRIBAN
MƏTN VƏ DİSKURSUN İNFORMATİK XÜSUSİYƏTLƏRİ..... 86

QƏNİRƏ MƏMMƏDZADƏ
SÖZ TƏRKBİNDƏ İŞLƏNƏN NİSBİ
SÖZDÜZƏLDİCİ ŞƏKİLÇİLƏR 93

AYTƏN RƏCƏBOVA
MÜASİR İNGİLİS DİLİNDƏ İŞGÜZAR YAZIŞMALARIN
DİL XÜSUSİYYƏTLƏRİ..... 102

LEYLA QOCAYEVA
HÜSEYN ARIF POEZIYASINDA DIL MƏSƏLƏLƏRI..... 109

MƏRYƏM FAZİLZADƏ
USING LANGUAGE STYLE EFFECTIVELY
IN PUBLIC SPEAKING 115

LALƏ ƏFƏNDİYEVA,
EPİSTOLYAR MƏTNLƏR MƏDƏNİ İRS NÜMUNƏSİ KİMİ..... 122

GÜLNARA HACIYEVA
GI DE MOPASSAN NƏSRINDƏ DAXILI MONOLOQLAR..... 131

Н.В.ГАСАНОВА
ГРАММАТИЧЕСКАЯ АССИМИЛЯЦИЯ ЗАИМСТВОВАНИЙ
И КРИТЕРИИ ОПРЕДЕЛЕНИЯ ИХ В ЯЗЫКЕ..... 138

YUSİBOVA ZÜLEYXA FƏRRUX QIZI
TEYMUROVA RASİMƏ SAHİB QIZI
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ELLİPTİK CÜMLƏLƏRİN
LEKSİK- SEMANTİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN
QARIŞILIQLI MÜNASİBƏTLƏRİNƏ DAİR..... 147

MƏMMƏDOVA RƏNA CÜMŞÜD QIZI
SINXRON TƏDRISIN ÜSTÜNLÜKLƏRI VƏ BU TƏDRISDƏ ÖYRƏTMƏ
STRATEGIYALARININ NƏZƏRDƏN KEÇIRILMƏSI 154

İLHAMƏ XASIYEVA
ASINXRON ONLAYN TƏDRISIN ÜSTÜNLÜKLƏRI
VƏ IDRAKIN BU PROSESDƏ ROLU..... 161

SEVDA ƏSGƏR QIZI FƏTULLAYEVA
AZƏRBAYCAN DİLINDƏ İNGİLİS SÖZ VƏ
TERMİNLƏRİNİN İŞLƏNMƏSİ..... 167

SVETLANA NOVRUZOVA İBRAHIM QIZI
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ƏVƏZETMƏ MEYİLLƏRİ
(MƏTBUAT DİLİ ƏSASINDA) 176

ARZU ƏMİRASLANOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ NİTQİN FORMALAŞDIRILMASI
ZAMANI AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ
METODİKASI 184

AYNURƏ İSKƏNDƏROVA
İNTERAKTİV TƏLİM METODLARINDA E-DƏRSLİKLƏRİN İMKANLARI
VƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNTERAKTİV ELEKTRON
DƏRSLİKLƏRİN ROLU..... 192

ÜLKƏR QURBANOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNİN KEYFİYYƏT DİNAMİKASININ
ARTIRILMASI. BİLİK VƏ BACARIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ
MÜASİR KOMPÜTER YOXLAMA SİSTEMLƏRİNİN ROLU..... 201

ƏDƏBİYYATŞÜNASLIQ

Yrd. Doç, dr. **NOVAL AL-ABBASI HAYRI**
J. W. GOETHE `NIN "BATI-DOĞU DIVANI" ESERI İKI ŞIIRSEL DÜNYANIN SENTEZI OLARAK 210

Z.N. NURİYEVA
XIX ƏSRİN İKİNCİ YARISINDA CƏNUB SLAVYAN XALQLARININ MƏDƏNİYYƏTİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ 219

REYHANƏ SADIXOVA
AZƏRBAYCANIN CƏNUB BÖLGƏSİ QƏDİM MƏDƏNİYYƏTİMİZİN BEŞİYİ KİMİ 227

İSMAYILOVA ƏFSANƏ ŞƏMSƏDDIN QIZI
ŞUŞA ŞAİRİ MƏMO BƏY MƏMAİNİN MƏSNƏVİLƏRİNDƏ 234

ŞƏHLA A.ABDULLAYEVA
MUSTAFA ZƏRİRİN "YUSİF VƏ ZÜLEYXA" MƏSNƏVİSİNİN İLKİN MƏNBƏLƏRİ 241

BABAYEVA MALAHAT RAMIZ GIZI
ORAL SPEECH AS A SEMIOTIC OBJECT IN FOLKLORE 248

XAVƏR FKRƏT QIZI NƏSIRLI
CÜMHURİYYƏT DÖVRÜNDƏ AZƏRBAYCANDA NƏŞR OLUNAN JURNALLARDA MİLLİ XÜSUSİYYƏTLƏR 259

GÜLNAR İSMAYILOVA
MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN HEKAYƏSİ VƏ ƏDƏBİ NAĞILLAR 267

BAHAR ƏLİYEVA
MİRZƏ ƏLƏKBƏR SABİRİN UŞAQ ƏSƏRLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ 276

NARİFƏ MƏMMƏDOVA KAMANDAR QIZI
KAZUO İŞİQURO YARADICILIĞINDA POSTKOLONİAL ÜNSÜRLƏR.... 284

HUSEYNLI ARZU JAVANSHIR GIZI
PROMİNENT POETESSES OF SHUSHA (part 2) 294

HƏSƏNOVA ŞAHANƏ ƏLIYƏNNAĞI QIZI,
H.ORUCOVUN BƏDII NƏSRINƏ BAXIŞ..... 300

PAKİZƏ ƏLİYEVA
DAHİ NİZAMİ GƏNCƏVİ YARADICILIĞINA TƏSİR EDƏN ƏSƏR..... 314

AYGÜN İDRIS QIZI İSMAYILOVA
ŞUŞA - AZƏRBAYCANIN QÜRURU, MİLLİ RUHUMUZUN ETİBARLI SIĞINACAĞIDIR 322

KƏRİMOVA GÜLARƏ
YENİYETMƏLƏRİN MILLI-MƏNƏVI RUHDA TƏRBIYƏSININ NƏZƏRIYYƏ VƏ TƏCRÜBƏSI..... 329

XALİDƏ RƏHİMOVA
SONET VƏ VAQİF HÜSEYNOVUN “SONETLƏR ÇƏLƏNGİ”..... 336

İMANOVA KƏMALƏ XALİD QIZI
PERSONALITY 347

BABAYEVA AYNURƏ NİZAMİ qızı
BƏDİİ SÖZÜN SÜZGƏCİNDƏN KEÇƏN TARİX..... 355

MƏMMƏDOVA KÖNÜL ƏLƏDDIN QIZI
ŞAGİRDLƏRİN İNTELLEKTUAL - MƏNƏVİ İNKİŞAFINDA BƏDİİ MƏTNLƏRİN ƏHƏMİYYƏTİ..... 366

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 29.09.2022
Şərti çap vərəqi 23,5. Sifariş № 258
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4